# Münafiqin dərin qaranlığı

Adnan Oktar (Harun Yəhya)

# Mündəricat


**Ön söz**

**Giriş**

**Münafiq kimdir?**

✓ Məlum olan ən alçaq insan xarakteri: münafiqlər

✓ Münafiq müsəlmanların arasına girmiş köstəbək kimidir

✓ Münafiqin təsvir edilməsi və bütün islam aləmində tanınıb müəyyən edilə bilməsi çox əhəmiyyətlidir

**Dünyadakı ilahi qüvvələr və qarşısındakı şər mərkəzləri**

✓ Yaxşılarla pislərin mübarizəsi tarixin hər dövründə davam etmişdir

✓ Hər dövrün dəccaliyyət sistemi; şeytan, dünyanın dərin dövlətləri və inkarçıların çirkli ittifaqı ilə ortaya çıxar

**Şeytan ilə münafiqin dostluğu**

✓ Münafiqin lideri şeytandır

✓ Münafiq, şeytanın insan formasıdır

✓ Münafiq, şeytanın "insan cildinə" və "müsəlman örtüyünə" bürünmüş xidmətçisidir

✓ Münafiq küfr əhli ilə gizlincə əlaqə yaradarkən bilavasitə şeytandan əmr alar

**Dərin dövlətlərin münafiqlərlə ittifaqı**

✓ Münafiq güclü hesab etdiyi tərəfi müdafiə edər

✓ Münafiq, dərin dövlət təşkilatlarını və küfr güc mərkəzlərini, haşa Allahdan daha böyük hesab edər

✓ Dəccali dərin dövlətlər, şeytani hədəflərinə nail olmaq üçün münafiqlərdən istifadə edərlər

✓ Dərin dövlətlər münafiqləri müəyyən etməkdə mütəxəssisdirlər

✓ Münafiqlər Dəccalın və dərin dövlətlərin əsgərləridir

✓ Münafiqlər, şeytan və dərin dövlətlər birləşərək bir "kirli mühit" meydana gətiriblər

✓ Münafiq, müsəlmanlara yalan deyər; küfr əhli arasındakı dostlarını və dərin dövlət adamlarını isə sirdaş tutar

**Münafiqin qaranlıq dünyası**

✓ Münafiqin ağlı, küfr əhli arasındakı keçmiş həyatındadır və o həyata böyük həsrət duyar

✓ Münafiq, müsəlmanların arasında olarkən gizlincə öz tərəfdaşlarıyla xəbərləşər

✓ Münafiq, maqnit kimi dünyanın hər yerindəki münafiqləri tapmaq məsələsində çox bacarıqlıdır

✓ Münafiq, hiyləgərcəsinə həmişə müsəlmanların əleyhinə çalışar

**Münafiqin özünü küfr əhlinə bəyəndirmək səyi**

✓ Münafiq, öz aləmində dini darıxdırıcı hesab edər

✓ Münafiq, müsəlmanları deyil, küfr əhlini keyfiyyətli hesab edər

✓ Münafiq, müsəlman kimi görünməkdən utanar

✓ Münafiq, dini əsərləri oxuyan biri kimi tanınmaq istəməz

✓ Münafiq, dini mövzulardan bəhs edərkən belə hiyləgərcəsinə dinsizliyi təlqin edər

✓ Münafiq, İslamı deyil, öz şeytani fəlsəfəsini təbliğ edər

✓ Münafiq, Allahı Quranla deyil, şeytani şəkildə zikr edər

✓ Münafiq, İslama xidmət etməsi lazım gəlsə, bunu hiyləgərcəsinə küfr əhlinə xidmət etməyə döndərər

**Münafiqin texnologiya və sosial mediadan çirkli oyunları üçün istifadə etməsi**

✓ Texnoloji imkanlardan hiyləgərcəsinə istifadə etmək münafiqə şeytani həzz və cəsarət verər

✓ Münafiq, küfr əhli ilə olan gizli əlaqəsini və məlumat nəqlini, interneti və ağıllı kompüter texnologiyalarını istifadə etməklə həyata keçirər

✓ Münafiq, küfr əhli ilə yaratdığı gizli əlaqəni hiyləgər üsullarla gizlətməyə çalışar

✓ Münafiq, sosial media hesablarından özünü küfr əhlinə bəyəndirmək üçün istifadə edər

✓ Münafiq, sosial media hesablarında dini xatırladan mövzuları heç vaxt görmək istəməz

✓ Münafiq, sosial media hesablarında müsəlmanları izləmək istəməz

✓ Münafiqin sosial mediadan küfr əhlindən tərəfdar toplamaq üçün istifadə etmə üsulları

**Münafiqin kəşfiyyat və casusluq fəaliyyəti**

✓ Mühüm bir münafiq xüsusiyyəti: Hiss etdirməmək

✓ Münafiq, inkarçı dostlarıyla gizli və xüsusi bir dildən istifadə edərək razılaşar

✓ Münafiqin küfr əhli ilə olan çirkli ittifaqı: Agentlik və casusluq

✓ Dünya səviyyəsindəki bütün dərin və şeytani təşkilatlar, agentlik fəaliyyətlərində münafiqlərdən istifadə edərlər

✓ Tarixdəki bütün mühüm şəxslərin yanına, dərin şeytani təşkilatlar üçün məlumat toplayan münafiq agentlər yerləşdirilib

✓ Münafiqlər, Peyğəmbərimiz (s.ə.v)-ə düşmən olan qruplar üçün də məlumat toplayırdılar

✓ Peyğəmbərimiz (s.ə.v)-in vəhy katibi, küfr əhlinə məlumat daşıyırdı

✓ Münafiq, məlumat toplamaq məqsədiylə müsəlmanları həmişə izləyib güdər

✓ Münafiq, məlumat toplaya bilmək üçün çox səssiz hərəkət edər

**Münafiqin İslam əvəzinə azğın ideologiyaları gücləndirmək səyi**

✓ Münafiq, öz aləmində İslamı zəiflədə bilmək üçün dinə müxalif olan hər cür azğınlığı dəstəkləyər

✓ Münafiq, İslamın yerinə azğın bir anlayışı yerləşdirə bilmək və küfr əhlinin gözünə girə bilmək üçün homoseksuallığı dəstəkləyər

✓ Münafiqlərin və İslam əleyhdarlarının Mövlana marağı

✓ Lut qövmündəki münafiqlər də homoseksuallığı dəstəkləyirdilər

✓ Hz. Lut (ə.s)-ın münafiq həyat yoldaşı, ətrafındakı inkarçılar üçün məlumat toplayır və dövrün homoseksuallarını dəstəkləyirdi

✓ Hz. Nuh (ə.s)-ın münafiq həyat yoldaşı, qövmünün azğınlıqlarını dəstəkləyir, peyğəmbərin əleyhinə inkarçılar üçün məlumat toplayırdı

**Münafiqin əxlaqsızlığı və oyunları**

✓ Müsəlmanlar "vicdanları", münafiqlər isə "məntiqləri" ilə hərəkət edərlər

✓ Münafiq haqq olana deyil, güclü və özündən razı olduğuna inandığı tərəfə yanaşar

✓ Münafiq həmişə mənfəət ardınca qaçar

✓ Münafiq özünü müsəlmanların ən təqvalısı kimi göstərməyə çalışar

✓ Münafiq görülmədiyini düşündüyü yerdə dəstəmaz almaz və namaz qılmaz

✓ Münafiq, mənfəət əldə edə bilmək üçün "tərəfdar" xarakter göstərər

✓ Münafiqin içi kin doludur; qəlbindəki kir və pislik bütün sifətinə əks olunar

✓ Münafiqin qəlbindəki kin, qəzəb və həsəd gün boyu rəftarlarına əks olunar

✓ Münafiq müsəlmanları narahat etmək və narahatçılıq yaratmaq üçün pis baxışlarından istifadə edər

✓ Münafiqin şeytani hərəkətləri üçün istifadə etdiyi bədən dili

✓ Münafiq pis baxışlarıyla kifayət qədər hərəkət edə bilmədiyini düşündüyü vaxt, diliylə müsəlmanları narahat etməyə çalışar

✓ Münafiq qəzəbləndikdə qarşısıalınmaz şəkildə bağırar

✓ Münafiq ədabazlıq edərək lovğalanar

✓ Münafiq hörmətkarlıqdan məhrumdur; nəzakətsiz və düşüncəsizdir

✓ Münafiqlər Peyğəmbərimiz (s.ə.v)-in yanında səslərini yüksəldir və ədəbsiz üslubla danışırdılar

✓ Münafiqlər Peyğəmbərimiz (s.ə.v)-in yanında önə keçməyə və özlərini ucaltmağa çalışırdılar

✓ Münafiqlər Peyğəmbərimiz (s.ə.v) ilə "hücrələrin arxasından səslənərək" və bağıra-bağıra danışırdılar

✓ Müsəlmanlar Allahı sevgiylə zikr etdikləri halda, münafiqlər Allahı çox az zikr edərlər

✓ Münafiq dini mövzulardan bəhs etmək istəməz, lakin dünya həyatı ilə bağlı mövzularda danışmaq məsələsində çox şövqlü və bacarıqlıdır

✓ Münafiq, əxlaqını gözəlləşdirməyə əhəmiyyət verməz, lakin "xarici görünüşü" və "bəyənilmək" onun üçün vacib əhəmiyyət daşıyar

✓ Münafiq, "kənardan gözəl görünən, içi ölü, murdarlıqla dolu ağardılmış məzarlara" bənzədilmişdir

✓ Münafiq özünə çox düşkündür; saxtakarca oyunlarla həmişə özünə qulluq edilməsini təmin etmək və vücudunu əldən düşməkdən qorumaq istəyər

✓ Yaşlanmaq və ölümün yaxınlaşması, münafiqin dəhşətamiz qorxuya qapılmasına səbəb olar

✓ Münafiq, müsəlmanların maddi imkanlarından nə qədər çox istifadə edə bilsə, bir o qədər böyük qazanc əldə etdiyini zənn edər

✓ Münafiq qanuni həyatı xoşlamaz, qeyri-qanuni, hiyləgər və gizli işlər gördükdə rahat edər

✓ Münafiq özünə qarşı çox qayğıkeş, Peyğəmbər (s.ə.v) və müsəlmanlara qarşı isə çox laqeyddir

✓ Münafiq, müsəlmanın özünə öyüd verməsinə dözə bilməz

✓ Münafiq özünə öyüd verildikdə, yalan və böhtan dolu ittihamlarla əks hücuma keçər

✓ Münafiq, müsəlmanlara öz aləmində "əxlaq dərsi" öyrətməyə cəhd edər

✓ Münafiqdə dəlilik dərəcəsində özünü qorumaq istəyi var

✓ Münafiq hər şeydən şübhələnər; hər təfsilatı öz əleyhinə zənn edər

✓ Münafiq, müsəlmanların "zəif ağıllı", özünün isə "dünyanın ən ağıllı insanı olduğuna" inanar

✓ Yalan danışmaq, münafiqdə sanki "ruhi xəstəlik" halını alıb

✓ Münafiq, yalandan müsəlmanlara qarşı mübarizə aparmaq üçün istifadə edər

✓ Münafiq, müsəlmanlara böhtan ataraq özünü təmizə çıxartmağa çalışar

✓ Münafiq böhtanlarıyla xüsusən də müsəlmanlarin mənəvi lideri olan elçiləri qaralamaq istəyər

✓ Münafiq hiyləgər oyunları üçün "şüuraltı manipulyasiya üsulu"ndan istifadə edər

✓ Münafiq, şüuraltı manipulyasiya üsullarıyla peyğəmbərlərə və müsəlmanlara olan etimadı yox etmək istəyər

✓ Münafiq, şüuraltı manipulyasiya üsullarıyla insanların (haşa) Allaha olan etimadlarını sarsıtmağı hədəfləyər

✓ Münafiq, müsəlmanların söylədiklərini "dilini əyib bükərək" və "sözlərin mənasını təhrif edərək" dəyişdirməyə çalışar

✓ Münafiq müsəlmanlara böhtan ata bilmək üçün onlarla təkcə görüşmək istəyər

✓ Münafiq yalanlarını və hiyləgər oyunlarını gizlədə bilmək üçün həmişə and içər

✓ Münafiq, müsəlmanların qəlbinə şübhə və qorxu salmağa çalışar

✓ Münafiq izdiham və göstərişlərə maraq duyar

✓ Münafiq küfr əhlinin hər şeyinə çox qibtə edər

✓ Münafiq dünyanın bir çox yerini gəzməsiylə göstəriş etməyə çalışar

✓ Münafiq "kitab yüklü uzunqulaq" kimidir

✓ Münafiq ədəbsiz və həyasızdır

✓ Münafiq demək olar ki, hər fürsətdə çoxbilmişlik edər

✓ Münafiq gün ərzində həmişə mırıldanaraq neqativ və gileyli danışar

✓ Münafiq İslama xidmət etmək məsələsində çox tənbəldir

✓ Münafiq, müsəlmanlar qarşısında "bacarıqsız təqlidi" edərkən, inkarçıları məmnun etmək məsələsində dəhşətli dərəcədə bacarıqlı və çalışqandır

✓ Münafiq, müsəlmanların müvəffəqiyyətlərini pislədiyi halda, özünü də xüsusi qabiliyyətləri olan və əvəzedilməz insan kimi göstərməyə çalışar

✓ Münafiq, müsəlmanların müvəffəqiyyətlərini çox qısqanar və onlardan daha yaxşısını edə bildiyini sübut etmək üçün göstəriş məqsədli səylər göstərər

✓ Münafiq, oğru və fırıldaqçıdır

✓ Münafiq, müsəlmanların təkcə malını, mülkünü deyil, gözəlliklərini, sağlamlıqlarını, sevgilərini, xoşbəxtliklərini, enerjilərini və vaxtlarını da oğurlamaq istəyər

✓ Tarixdəki ən alçaq münafiqlərdən biri olan Samiri də oğurluğu ilə tanınırdı

✓ Münafiq qorxaqdır; çətinlik anında özünü dərhal ələ verər

✓ Münafiq, müsəlmanlar arasındakı səmimi sevgini çox qısqanar

✓ Münafiq, yalan və böhtanlarla müsəlmanlar arasındakı sevgini yox etməyə çalışar

✓ Münafiq, müsəlmanların sahib olduğu bütün nemətləri çox qısqanar

✓ Münafiqin "sevgi axtarışı"nda olduğu iddiası yalandır; münafiq, daha çox əxlaqsızlıq edə bilmək üçün "sevgi" məhfumundan istifadə edər

✓ Münafiq sevgisiz varlıqdır; lakin mənfəət əldə etmək və böyüklüyünü vurğulamaq üçün sevgidən istifadə edər

✓ Münafiq, heç kim tərəfindən həqiqi mənada sevilmədiyini bilər

✓ Münafiqin ruhunda sevgi və hörmət hissi yoxdur

✓ Münafiq, müsəlmanları görməyə dözə bilmədiyi üçün özünü təcrid edər

✓ Münafiq, özünə verilən hər nemət və imkandan narahatçılıq yaratmaq üçün istifadə edər

✓ Münafiq, "Allaha çox şükür" "əlhamdulillah" ifadələrindən demək olar ki, heç istifadə etməz; şükür edib Allahın üzərindəki lütfünü təqdir etməz

✓ Münafiq, həmişə yaxşılıq və gözəl əxlaq gördüyü müsəlmanlara qarşı çox nankordur

✓ Münafiq, özünə verilən hər imkandan küfr əhli ilə əlaqə yaradıb müsəlmanlar əleyhinə fəaliyyət göstərmək üçün istifadə edər

✓ Münafiqin danışdığı hər sözdə tələ vardır; dolayısilə münafiqin söylədiklərinin tam əksini etmək lazımdır

**Münafiqin yaxalanma qorxusu**

✓ Münafiqin ən qorxduğu şey məlumat toplanmasıdır; müsəlmanların onun haqqında məlumat əldə etmələrindən çox çəkinər

✓ Münafiq, hiyləgər fəaliyyətlərinin görülməsindən və ifşa olmaqdan çox qorxar

✓ Münafiq, günah işləyərkən yaxalanmamağa diqqət yetirər; ardıcıl yalanlarla günahlarını ört-basdır edərək özünü günahsız göstərməyə çalışar

✓ Münafiq yaxalandığını düşünsə hərəkətlərinə bir müddət fasilə verə bilər

✓ Münafiq hadisələr qarşısında həmişə taktika dəyişdirər; münafiqin həmişə a, b, c planları vardır

✓ Münafiq hiss edilmədiyini zənn etdikcə, özünü daha da açıq şəkildə ələ verər

✓ Münafiqin ən iztirab çəkdiyi məsələlərdən biri, münafiq əlamətlərinin anladılmasını dinləməkdir

✓ Münafiq ağıllanmaz; ən çətin şərtlərdə belə münafiqliyindən əl çəkməz və hər dəfə yaxalandıqda başqa bir yeni hərəkət yolu tapar

✓ Münafiq, özündə yaranan "münafiqlik əlamətlərini" gizlətməyi bacara bilməz

**Münafiqin müsəlmanlardan ayrılma planları**

✓ Münafiq həmişə qaçıb getmək meylində olar, lakin müsəlmanlardan əldə etdiyi mənfəətlərdən imtina edə bilməz

✓ Münafiq, müsəlmanlara zərər verməyə davam edə bilmək üçün ayrılma vaxtını təxirə salar

✓ Münafiq həmişə ayrıldıqdan sonra yaşayacağı çirkli həyatın planlarını qurar

**Müsəlmanların münafiqə Quran əxlaqı ilə yaxınlaşmaları**

✓ Münafiqə heç vaxt qəti şəkildə "münafiq" diaqnozu qoyula bilməz

✓ Münafiqi səbir və diqqətlə izləyib onun şeytani sənətini öyrənmək lazımdır

✓ Münafiq əlamətlərini dinləyib öyrənmək müsəlmanlara fayda verər

✓ Münafiqin mövcudluğu müsəlmanlar üçün həmişə xeyirə dönər

✓ Münafiq "bəlkə iman gətirər" deyə səbir etmək və onu Quran əxlaqına dəvət etmək mühüm bir müsəlman xüsusiyyətidir

**Münafiqliyin aqibəti mütləq ziyandır**

✓ Münafiqin həyatı zəlil şəkildə bitər

**Nəticə**

**Mehdiyyət dünyanı Günəş kimi aydınlandıracaq, münafiqlik hz. Mehdi (ə.s) vəsiləsi ilə yox olacaq**

**Əlavə hissə: Təkamül yalanı**

# OXUCUYA

Bu kitabda və digər işlərimizdə təkamül nəzəriyyəsinin süqutuna xüsusi yer ayrılmasının səbəbi bu nəzəriyyənin hər cür din əleyhdarı olan fəlsəfənin təməlini meydana gətirməsidir. Yaradılışı və dolayısilə, Allahın varlığını inkar edən darvinizm 150 ildir ki, bir çox insanın imanını itirməsinə və ya şübhəyə düşməsinə səbəb olmuşdur. Buna görə də, bu nəzəriyyənin yalan olduğunu gözlər önünə gətirmək əhəmiyyətli imani bir vəzifədir. Bu əhəmiyyətli xidmətin bütün insanlığa çatdırılması isə zəruridir. Bəzi oxucularımız ola bilər ki, yalnız bir kitabımızı oxumaq imkanı tapa bilər. Bu səbəblə, hər kitabımızda bu mövzuya xülasə də olsa yer ayrılması uyğun hesab edilmişdir.

Qeyd edilməsi lazım olan başqa bir xüsus da bu kitabların məzmunu ilə əlaqədardır. Yazıçının bütün kitablarında imani mövzular Quran ayələri yönündə izah edilir və insanlar Allahın ayələrini öyrənməyə və yaşamağa dəvət edilirlər. Allahın ayələri ilə əlaqədar bütün mövzular oxucuda heç bir şübhə və ya sual buraxmayacaq şəkildə açıqlanmışdır.

Bu mövzuda istifadə edilən səmimi, sadə və səlis üslub isə kitabların hamı tərəfindən rahat başa düşülməsini təmin edir. Bu təsirli və sadə izah sayəsində kitablar "bir nəfəsə oxunan kitablar" ibarəsinə tam uyğun gəlir. Dini qəti şəkildə rədd edən insanlar belə bu kitablarda bildirilən həqiqətlərdən təsirlənir və yazılanların doğruluğunu inkar edə bilmirlər.

Bu kitab və yazıçının digər əsərləri oxucular tərəfindən şəxsən oxuna biləcəyi kimi, qarşılıqlı söhbət şəraitində də oxuna bilər. Bu kitablardan istifadə etmək istəyən bir qrup oxucunun, kitabları bir yerdə oxumaları mövzu ilə əlaqədar öz təfəkkür və təcrübələrini də bir-birlərinə ötürmək baxımından faydalıdır.

Bununla belə, yalnız Allahın razılığı üçün yazılan bu kitabların tanınmasında və oxunmasında iştirak etmək də böyük xidmətdir. Çünki yazıçının bütün kitablarında isbat və razı salıcı yön son dərəcə güclüdür. Bu səbəblə, dini izah etmək istəyənlər üçün ən təsirli üsul bu kitabların digər insanlar tərəfindən də oxunmasının təşviq edilməsidir.

Kitabların arxasına yazıçının digər əsərlərinin təqdimatının əhəmiyyətli səbəbləri vardır. Bu sayədə kitabı nəzərdən keçirən şəxs yuxarıda yazılan xüsusiyyətləri daşıyan və oxumaqdan xoşlandığını ümid etdiyimiz bu kitabla eyni xüsusiyyətlərə sahib daha bir çox əsərin olduğunu görər, imani və siyasi mövzularda faydalana biləcəyi zəngin bir qaynağın mövcudluğuna şahid olacaq.

Bu əsərlərdə digər bəzilərində görülən, yazıçının şəxsi qənaətlərinə və şübhəli qaynaqlara əsaslanan izahlara, müqəddəsata qarşı lazım olan ədəb və hörmətə diqqət yetirilməyən üslublara, şübhəli və həmçinin incidici yazılara rast gələ bilməzsiniz.

# YAZIÇI VƏ ƏSƏRLƏRİ HAQQINDA

Harun Yəhya təxəllüsündən istifadə edən yazıçı Adnan Oktar 1956-cı ildə Ankarada anadan olmuşdur. İbtidai və orta təhsilini Ankarada almışdır. Daha sonra İstanbul Memar Sinan Universitetinin İncəsənət fakültəsində və İstanbul Universitetinin Fəlsəfə bölməsində təhsil almışdır. 1980-ci illərdən bu yana imani, elmi və siyasi mövzularda bir çox əsər hazırlamışdır. Bununla yanaşı, yazıçının təkamülçülərin saxtakarlıqlarını, iddialarının əsassızlığını və darvinizmin qanlı ideologiyalarla olan qaranlıq əlaqələrini ortaya qoyan çox əhəmiyyətli əsərləri vardır.

Harun Yəhyanın əsərləri təxminən 30.000 şəklin olduğu cəmi 45.000 səhifəlik külliyyatdır və bu külliyyat 60 fərqli dilə tərcümə edilmişdir.

Yazıçının təxəllüsü inkarçı düşüncəyə qarşı mübarizə aparan iki peyğəmbərin xatirəsinə hörmət olaraq adlarını yad etmək üçün Harun və Yəhya adlarından götürülmüşdür. Yazıçı tərəfindən kitabların üz qabığında Rəsulullahın (səv) möhürünün olmasının simvolik mənası isə kitabların məzmunu ilə əlaqədardır. Bu möhür Qurani-kərimin Allahın son kitabı və son sözü, Peyğəmbərimizin (səv) xatəmül-ənbiya olduğunun rəmzidir. Yazıçı bütün yayımlarında Quranı və Rəsulullahın sünnəsini özünə rəhbər etmişdir. Bu surətlə, inkarçı düşüncə sistemlərinin bütün təməl iddialarını bir-bir ortadan qaldırmağı və dinə qarşı yönələn etirazları tam susduracaq son sözü söyləməyi əsas almışdır. Böyük hikmət və kamal sahibi olan Rəsulullahın möhüründən bu son sözü söyləmək niyyətinin duası olaraq istifadə edilmişdir.

Yazıçının bütün işlərindəki ortaq hədəf Quranın təbliğini dünyaya çatdırmaq, beləliklə, insanları Allahın varlığı, birliyi və axirət kimi təməl imani mövzular üzərində düşünməyə sövq etmək və inkarçı sistemlərin əsassız təməllərini və azğın tətbiqlərini gözlər önünə çəkməkdir.

Necə ki, Harun Yəhyanın əsərləri Hindistandan Amerikaya, İngiltərədən İndoneziyaya, Polşadan Bosniya-herseqovinaya, İspaniyadan Braziliyaya, Malayziyadan İtaliyaya, Fransadan Bolqarıstana və Rusiyaya qədər dünyanın əlavə bir çox ölkəsində sevilərək oxunur. İngilis, fransız, alman, italyan, ispan, portuqal, urdu, ərəb, alban, rus, boşnaq, uyğur, İndoneziya, Malay, benqal, serb, bolqar, Çin, Danimarka və İsveç dili kimi bir çox dilə tərcümə edilən əsərlər xaricdə geniş oxucu kütləsi tərəfindən izlənilir.

Dünyanın dörd tərəfində fövqəladə təqdir toplayan bu əsərlər bir çox insanın iman etməsinə, bir çoxunun da imanında dərinləşməsinə vəsilə olur. Kitabları oxuyub araşdıran hər kəs bu əsərlərdəki hikmətli, dolğun, asan aydın olan və səmimi üslubun, ağıllı və elmi yanaşmanın fərqində olar. Bu əsərlər sürətli təsir etmə, qəti nəticə vermə, etiraz və təkzib edilə bilinməyən xüsusiyyətləri daşıyır. Bu əsərləri oxuyan və üzərində ciddi şəkildə düşünən insanların artıq materialist fəlsəfəni, ateizmi və digər azğın görüş və fəlsəfələrin heç birini səmimi olaraq müdafiə etmələri mümkün deyil. Bundan sonra müdafiə etsələr də, ancaq romantik inadla müdafiə edəcəklər. Çünki fikri dayaqları aradan götürülmüşdür. Dövrümüzdəki bütün inkarçı cərəyanlar Harun Yəhya külliyyatı qarşısında fikirlə məğlub olmuşlar.

Şübhəsiz, bu xüsusiyyətlər Quranın hikmət və ifadə təsirliliyindən qaynaqlanır. Yazıçı bu əsərlərə görə öyünmür, yalnız Allahın hidayətinə vəsilə olmağa niyyət etmişdir. Bundan başqa, bu əsərlərin çap və nəşrində hər hansı bir maddi qazanc güdülmür.

Bu həqiqətlər göz önünə gətirildikdə insanların görmədiklərini görmələrini təmin edən, hidayətlərinə vəsilə olan bu əsərlərin oxunmasını təşviq etməyin də çox əhəmiyyətli xidmət olduğu ortaya çıxır.

Bu qiymətli əsərləri tanıtmağın yerinə insanların zehinlərini bulandıran, fikri qarışıqlıq meydana gətirən, şübhə və tərəddüdləri aparmaq və imanı qurtarmaq üçün güclü və iti təsiri olmadığı ümumi təcrübə ilə sabit olan kitabları yaymaq isə əmək və zaman itkisinə səbəb olar. İmanı qurtarmaq məqsədindən çox, yazıçının ədəbi gücünü vurğulamağa yönələn əsərlərdə bu təsirin əldə edilə bilməyəcəyi məlumdur. Bu mövzuda şübhəsi olanlar varsa, Harun Yəhyanın əsərlərinin tək məqsədinin dinsizliyi yox etmək və Quran əxlaqını yaymaq olduğunu, bu xidmətdəki təsir, müvəffəqiyyət və səmimiyyətin açıq şəkildə göründüyünü oxucuların ümumi qənaətindən anlaya bilərlər.

Bilmək lazımdır ki, dünyadakı zülm və qarışıqlıqların, müsəlmanların çəkdiyi əziyyətlərin təməl səbəbi dinsizliyin fikri hakimiyyətidir. Bunlardan xilas olmağın yolu isə dinsizliyin fikirlə məğlub edilməsi, iman həqiqətlərinin ortaya qoyulması və Quran əxlaqının insanların qavrayıb yaşaya biləcəkləri şəkildə izah edilməsidir. Dünyanın gündən-günə daha çox büründüyü zülm, fəsad və qarışıqlıq mühiti diqqətə alındığında bu xidmətin mümkün qədər sürətli və təsirli şəkildə edilməsinin lazım olduğu aydındır. Əks halda, çox gec ola bilər.

Bu əhəmiyyətli xidmətdə öndərliyi üzərinə götürən Harun Yəhya külliyyatı Allahın izni ilə 21-ci əsrdə dünya insanlarını Quranda təsvir edilən hüzur, sülh, düzgünlük, ədalət, gözəllik və xoşbəxtliyə daşımağa vəsilə olacaq.

# Ön söz

Bəşər oğlunun ilk yaradıldığı gündən bəri ikiüzlü, pislik arxasınca qaçan, narahatçılıq törədənlər həmişə mövcud olmuşdur. Məhz bu cür münafiqlik edən hər insan, **"əxlaqsızlıqları və alçaqlıqları ilə"** tarixə keçmişdir. Bu insanlar nəsildən-nəslə, həyatları boyu iman gətirənlərə qarşı apardıqları xain mübarizə ilə xatırlanmış və hər dövrdə **"alçaldılmış"** kəslər kimi tanınmışlar. Kiçik-böyük etdikləri hər alçaqlıq, tarixin bir hissəsi olaraq yaddaşlara həkk olunmuşdur.

**Tarixdəki tanınmış münafiqlərin hər biri necə kitablara və ya tarixi qeydlərə düşdüsə; fironlar, nəmrudlar, Qarun, Samiri, hz. Lut (ə.s)-ın və hz. Nuh (ə.s)-ın həyat yoldaşları necə etdikləri alçaqlıqlarla Quran hekayələrində xatırlandılarsa, hazırkı münafiqlərdə eyni şəkildə kitablara mövzu olacaqlar.** Necə ki, o dövrlərin münafiqləri əxlaqsızlarıyla tanınırlarsa, Axırzamanın münafiqləri də eyni şəkildə şeytanlıqlarıyla tanınacaqlar. Onların adları da nəsildən-nəslə ötürüləcək, onların xainlikləri və əxlaqsızlıqları da digərləri kimi tarixə keçəcək.

Həmçinin bu alçaldılma təkcə dünya həyatı ilə məhdudlaşmayacaq. Qiyamətə qədər hər biri **"dövrünün tanınmış münafiqi"** kimi tanınacaq bu şeytani varlıqlar, axirətdə də yenə əxlaqsızlıqlarıyla tanınacaq və əbədiyyən yenə həmişə alçaldılaraq yaşayacaqlar.

Eləcə də, orada, münafiqlərin alçaqlıqlarına səbir etmələri və gözəl əxlaq göstərmələrindən ötrü cənnətlərlə və nemətlərlə mükafatlandırılan müsəlmanları görməyin əzabını da dadacaqlar. Həmçinin əbədiyyən, müsəlmanlara qarşı etdikləri hər şeytanlığın, onların cənnətdəki mövqeyini, şanını, şərəfini daha da artırmış olduğunu görməyin əzabını yaşayacaqlar. Bütün ömürlərini müsəlmanlara əziyyət verib zərər verə bilmək üçün keçirən münafiqlər, əslində bütün etdikləriylə, təkcə öz əzablı aqibətlərini hazırlamış olduqlarını görəcəklər. Dünyada müsəlmanlara qarşı bəslədikləri kin və qəzəb, axirətdə əbədi olaraq heç vaxt bitməyəcək əlacı olmayan əzaba çevrilərək onları bürüyəcək.

Onlar bu əzabı yaşayarkən, bütün həyatlarını zərər verməyə həsr etdikləri müsəlmanlar isə, bənzərsiz nemətlərlə dolu cənnət köşklərində, əbədiyyən xoşbəxtliyin ən gözəlini dadacaqlar. Allahın sevgisini, dostluğunu qazana bilmiş olmağın sevincini yaşayacaqlar.

Bu kitabın məqsədi, **"hələ tövbə etmə imkanı varkən; bütün münafiqlərə və münafiq əxlaqına bənzər rəftarlar göstərən insanlara bu mühüm həqiqətləri xatırlada bilmək"**dir. Bu insanların, **"axirətdə geri dönüşü olmayan bir əzabla qarşılaşmadan əvvəl, düşünüb öyüd almalarına və Allaha səmimi-qəlbdən iman gətirmələrinə vəsilə ola bilmək"**dir. Əxlaqsızlıqla, hiyləgər oyunlarla, şeytani əməkdaşlıqlarıyla, alçaqca tələlərlə heç nə əldə edə bilməyəcəklərini və bütün bunların sonunda əllərinə keçəcək yeganə şeyin, cəhənnəm əzabıyla qarşılaşmaq olduğunu bildirərək onları xəbərdar etməkdir. Həmçinin onlara, **"əgər tövbə edərək Allahı çox böyük sevgi ilə sevəcəkləri və Allahın**

**bəyəndiyi əxlaqı yaşayacaqları təqdirdə, dünyada və axirətdə, istədikləri, həsrət duyduqları hər şeyin ən gözəlini tapacaqlarını onlara xatırlatmaq**"dır.

Lakin bunu da unutmamaq lazımdır ki, Allah Quranda; **"...təkcə təmiz ağıl sahibləri öyüd alıb düşünər"** (Bəqərə surəsi, 269) deyə buyurmuşdur. Bütün Quran ayələrində olduğu kimi, münafiq ayələrinin deyilməsindən, **"münafiqlik təhlükəsinə qarşı edilən xəbərdarlıq və xatırlatmalardan da tək istifadə edə biləcək kəslər təkcə həqiqi müsəlmanlar**"dır. Dolayısilə bu kitabda bütün qeyd edilənlər (Allahın icazəsi ilə) müsəlmanların Allaha olan bağlılıqlarının və imanlarının artmasına, əxlaqlarının daha da gözəlləşməsinə vəsilə olacaq.

Münafiqlikdə israr edib qətiyyət göstərən; öyüd alıb düşünmək və tövbə edərək doğru yola dönmək istəməyən kəslər isə, bunu heç vaxt unutmamalıdırlar:

Onların bilmədikləri və ya anlamaq istəmədikləri qəti bir həqiqət var. Rəbbimiz bu həqiqəti Quranda; **"...Allah kafirlərə, möminlərin əleyhinə nə isə etmələrinə qətiyyən imkan verməz"** (Nisa surəsi, 141) sözləriylə xəbər vermişdir. **Küfr əhlindən biri və ya münafiq, hər kim müsəlmanların əleyhinə nə isə etməyə çalışsa; onlara qarşı alçaqcasına və namərdcəsinə oyunlar oynamaq istəsə, Allah bu kəslərə heç vaxt müvəffəqiyyət verməyəcək. Bu, Allahın qəti dəyişməz vədidir. Həmçinin Allah, vədindən heç vaxt dönməyəndir**.

Məhz münafiqlərin unutduqları böyük həqiqət budur. Onlar ən alçaqca üsullarla səy göstərəcək; zərər vermək üçün əllərindən gələni edəcəklər. Bəlkə də bəzən, zahirən zəfər kimi görünən bəzi uğurlar və bəzi kiçik mənfəətlər qazanacaqlar. Lakin bütün bunlar müvəqqəti və zahiri qazanclar olacaq. Nə vaxtsa mütləq **"qalib gələcək olanlar Allahın tərəfdarları olan səmimi müsəlmanlar**"dır. Çünki Allahın Quranda bildirdiyi kimi; **"...şübhəsiz ki, bütün "izzət və güc" bütövlükdə yalnız Allaha məxsusdur"** (Yunis surəsi, 65). Dolayısilə dünyada və axirətdə, məğlub olanlar həmişə, mütləq münafiqlər olacaq.

# Giriş

**Münafiq təhlükəsi,** İslam aləminin ən vacib və ən mühüm mövzularından biridir. Çünki İslamın qarşısındakı ən hiyləgər qüvvə "**münafiqlik**"dir. Münafiqlik, əsrlərdən bəri "**müsəlman aləmini hiyləgərcəsinə gəmirən**" və "**məhv etməyə çalışan**" şeytani bir sistemdir. Lakin müsəlmanların böyük əksəriyyəti bu böyük təhlükədən lazımınca xəbərdar deyil. Əksər insan İslam aləminin qarşısında dayanan əsil qüvvənin, "**inkarçılar**" olduğunu düşünür. Halbuki müsəlmanların ən böyük düşməni "**münafiqlər**"dir. Münafiqin, müsəlmanlara qarşı duyduğu kin, qəzəb, nifrət və həsəd, inkarçılarınkından çox şiddətlidir. Eynilə narkotikdən istifadə edən birinin narkotikdən olan asılılığı kimi; **münafiqin də müsəlmanlara alçaqlıq, pislik, düşmənçilik etmək, böhtan atıb tələ qurmaq asılılığı var.** Küfr əhli də İslamı və müsəlmanları sevməz; lakin onlardakı kin və nifrət münafiqlərdəki kimi şiddətli deyil.

**Bu gün İslam aləminin bu vəziyyətə düşmüş olmasının əsas səbəbi də yenə münafiqlikdir.** Suriyada, İraqda, Əfqanistanda, Fələstində, Sudanda, Misirdə, Liviyada, Yəməndə, Arakanda və daha bir çox yerdə yaşanan zülm və əzabların ən mühüm səbəblərindən biri, İslam aləmindəki münafiqlərdir. İslam aləmində "**müsəlmanların əzilməsini, kütlələr halında qətlə yetirilməsini təşkil edən**" alçaq dəstə həmişə münafiqlərdir. Dünyada hökm sürən dərin dövlətlərin və dinsiz ideologiyaların əldə etdikləri güc də, yenə həmişə münafiqlərdən aldıqları dəstək sayəsində güclənmişdir. Münafiqlərin dünya dərin dövlətləriylə əməkdaşlıq edərək müsəlman cəmiyyətlər üzərində oynadıqları oyunlar, "**İslam aləmində qanın su kimi axıdılmasına, minlərlə müsəlmanın şəhid edilməsinə**" səbəb olmuşdur. Hələ də hər keçən gün oynanan bu oyunlara yenisi əlavə olunur və müsəlman cəmiyyətlər yeni-yeni əzabların içinə doğru sürüklənməyə çalışılır.

**Dolayısilə bütün bu tələlərin puç edilə bilməsi üçün, İslam aləmində münafiqlik yolunun möhkəm şəkildə bağlanılması əsas şərtdir. Bunun üçün də əvvəlcə "münafiqlik təhlükəsi çox yaxşı görünməli" və sonra da "dünya səviyyəsində bütün müsəlmanlar münafiqləri çox yaxşı müəyyənləşdirə biləcəkləri şəkildə məlumatlandırılmalıdırlar".**

Bu çox yaxşı başa düşülməlidir ki; "**münafiqlərin məğlub olması, İslamın qalib olması deməkdir". Münafiqlər məğlub olmadan, İslam da qalib ola bilməz.** Buna görə də, **İslamın dünya hakimiyyətini həsrətlə gözləyən, gecə-gündüz bu məqsəd üçün səy göstərən bütün müsəlmanlar, əvvəlcə münafiqliyin elmi cəhətdən zərərsizləşdirilməli olduğunu unutmamalıdırlar.** Əgər İslam aləmindəki münafiqlik fitnəsi həll olsa, müsəlman aləmində əsrlərdir ki, görünməmiş şəkildə böyük hüzur, bərəkət və fərəhlik yaşanacaq.

1400 ildən bəri bu məqsədlə hərdənbir münafiqlərlə bağlı müxtəlif əsərlər yazılmış; tarixdəki münafiqlər haqqındakı bəzi məlumatlar bu kitablarda bir yerə toplanmışdır. Lakin **1400 ildən bəri, münafiqin hiyləgər aləminin, alçaq xarakterinin, şeytani oyunlarının və namərd üsullarının üstünü açan; münafiq əxlaqsızlığını, gündəlik**

**həyata dair bütün incəlikləriylə ortaya qoyan bir əsər hazırlanmamışdır.** Müsəlmanların böyük əksəriyyəti bu mövzuya kifayət qədər əhəmiyyət verməmiş və "**münafiqin əxlaqsızlığını bütün İslam aləminə tanıtmağın**" nə qədər mühüm mövzu olduğunu görməyiblər. Halbuki əsrlərdən bəri, hər dövrdə müsəlman aləmindəki bütün fitnələri münafiqlər törətmiş və etdikləri hərəkətlərlə İslam aləminin parçalanmasına, müsəlmanların əzab çəkməsinə səbəb olmuşlar.

**Məhz bu kitab, İslam aləmindəki bu böyük fitnənin bitməsinə vəsilə olacaq "münafiqliyin üstünü açmaq" məqsədiylə hazırlanmışdır.** Allahın Quran ayələri ilə müsəlmanlara tanıtdığı bu ikiüzlü, saxtakar insanların "**hiyləgər və alçaqca üsulları, psixoloji təzyiq və usandırma üsulları**" bu əsərdə çox ətraflı analizlərlə açıqlanmışdır. Oyundan-oyuna, saxtakarlıqdan-saxtakarlığa keçən, şeytan kimi hiyləgər və alçaq bir varlıq olan münafiqin bütün pisliklərinin üstü açılmışdır. Gizlicə göstərdikləri hiyləgər fəaliyyətlərlə müsəlmanları yox etməyi hədəfə alan bu şeytani dəstəyə qarşı, "**Quran əsasında necə bir mübarizə aparılmalı olduğu və münafiqlərin müsəlmanlara oynamaq istədiyi oyunların necə zərərsizləşdirilə biləcəyi**" də, yenə bütün incəlikləriylə bu kitabda qeyd edilir.

Müsəlmanların, Quranda və hədislərdə tanıdılan, "**tarixdəki tanınmış münafiqlər**" qədər, "**əsrimizdəki münafiqlərin hansı hiyləgər üsullarla mübarizə apardıqlarını bilmələri**" də olduqca əhəmiyyətlidir. Buna görə də, kitabda, hazırkı münafiqlərin, "**XXI əsrin bütün texnologiya, sosioloji imkanlarından və psixoloji müharibə üsullarında da istifadə edərək**", müsəlmanlara qarşı necə bir mübarizə apardıqları da, gündəlik həyatdan çox ətraflı nümunələr verilərək açıqlanmışdır.

Allahın bu mühüm əsərdə qeyd edilənləri vəsilə etməsiylə, dünyada müsəlman aləmini daxilən yox etməyi hədəf alan bu hiyləgər qüvvəyə qarşı çox böyük müvəffəqiyyət əldə edilmiş olacaq. Hazırda "**ifşa edilmədiyi üçün hiyləgərcə və gizlicə hərəkət edə bilən münafiq dəstəsi, bu əsərlə birlikdə bütün gücünü itirmiş olacaq**". Münafiqliyin gizliliyinin aşkar hala gətirilməsiylə, münafiqin şeytani sistemi də zərərsizləşdiriləcək. Beləliklə də, hazırda "**İslam aləmində təsirli mübarizə aparan münafiq sistemi tam mənasıyla çökəcək və münafiqliyin dünya səviyyəsindəki hakimiyyəti və təxribatı da aradan qalxacaq**".

Bu kitab vəsiləsiylə müsəlmanlar, "**İslam aləminə gizlicə daxil olan bu alçaq xarakterli insanları tanıyıb, müəyyənləşdirə biləcək**" və onların müsəlmanlar üzərində təsirli ola biləcəkləri mövqelərə gəlmələrinin qarşısını ala biləcəklər. **Həmçinin aldıqları tədbirlərlə münafiqlərin İslam aləmi üzərindəki mümkün ola biləcək təxribatlarının və zərərlərinin də, əvvəlcədən qarşısını almış olacaqlar.**

İslam aləmində oynamaq istədikləri bütün çirkli oyunları üçün münafiqlərdən istifadə edən **dəccali sistemlər və dünyanın dərin dövlətləri də, müttəfiqlərinin zəifləməsiylə, müsəlmanlar qarşısında böyük məğlubiyyət yaşayacaqlar.**

Dəccaliyyət, küfr əhli və münafiqlərin bu çirkli ittifaqı zərərsizləşdirildikdən sonra, hazırda bir-birlərindən qopmuş halda olan müsəlman aləmi birləşərək “**İslam Birliyini meydana gətirə biləcək” və ardınca da “İslam əxlaqını bütün dünyaya hakim edəcəklər”.**

Lakin bütün bu qeyd edilənləri qiymətləndirərkən, bu həqiqəti də heç vaxt unutmamaq lazımdır: Allah Quranın; **“...şübhəsiz ki, şeytanın hiyləsi çox zəifdir”** (Nisa surəsi, 76) ayəsiylə, şeytanın əslində nə qədər gücsüz olduğunu xatırlatmışdır. Digər bir ayədə isə Allah; **“həqiqət budur ki, iman gətirənlər və Rəbbinə təvəkkül edənlər üzərində onun (şeytanın) heç bir məcburedici gücü (hakimiyyəti) yoxdur. Onun məcburedici gücü (hakimiyyəti) təkcə onu özünə vəli tutanlar və Onunla Ona (Allaha) şərik qoşanlar üzərindədir”“** (Nəhl surəsi, 99-100) deyə buyurmuşdur. **“Münafiq də, şeytanın insan surətinə bürünmüş halıdır”**. Dolayısilə **“münafiqin də, Allahın sonsuz gücü qarşısında çox gücsüz və aciz varlıq olduğunun heç vaxt unutmamaq”** lazımdır. Münafiq zahirdə dünyadakı bütün dəccali sistemləri və şeytani təşkilatları arxasına almış, böyük güc sahibi kimi görünsə də, **“Allahın nəzarəti altında olan”** və **“sonunda mütləq məğlub olmağa məhkum olaraq yaradılmış”** aciz varlıqdır.

Dolayısilə müsəlmanlar heç vaxt münafiqləri Allahdan müstəqil gücə sahiblərmiş kimi qiymətləndirməməli və Allahın Quranda; **“...bu, Allah üçün çox asandır”** (Əhzab surəsi, 19) ayəsiylə bildirildiyi kimi, **“bu şeytan dəstəsini zərərsizləşdirməyin Allah üçün çox asan olduğunu”** heç vaxt unutmamalıdırlar.

**Adnan Oktar**: “Münafiqlə bağlı kitablarımız risalələr halında nəşr olunacaq. **Bütün dünyaya münafiqliyi çox yaxşı izah edəcəyik. Həmçinin beləliklə yer üzündən bu münafiq sistemi inşaAllah siləcəyik**. Çünki İslam aləminin məhv olmasına səbəb olan münafiqlikdir. Mərakeş, Tunis, Əlcəzair, Liviya, İraq, Suriya... Hər yerdə münafiqlər həmişə İslam aləminin başına bəla olublar. Səksən və ya doxsan faizində İslam aləmində münafiqlər fəaliyyətdədir. Həmçinin müsəlmanları əzdirirlər və əzilmələrinə vəsilə olurlar. **Münafiq xarakterini müsəlmanlar səthi bilirdilər, hazırda çox əhatəli şəkildə öyrənirlər. Həmçinin təbii ki, bunu kitab halına gətirdiyimiz zaman, DVD-lərlə, filmlərlə izah etdiyimiz zaman, münafiq gün kimi ortaya çıxacaq. Həmçinin müsəlman da, münafiqləri çox rahat tanıyıb buna görə hərəkət edəcək”.** (A9 TV, 6 iyun 2016)

# Münafiq kimdir?

## Məlum olan ən alçaq insan xarakteri: Münafiqlər

**Münafiq,** tarixin başlanğıcından bəri, **“iman gətirən hər qövmün içində olan”; “iman gətirmədiyi halda iman gətirmiş kimi görünən”, ikiüzlü, saxtakar, yalançı, hiyləgər və səmimiyyətsiz insanlara verilən addır.** Hz. Adəm (ə.s)-dan bəri yaşamış hər cəmiyyətdə, iman gətirənlər və inkarçılar qədər, münafiqlər də mövcudluğunu davam etdiriblər. Etdikləri hiyləgər hərəkətlərlə, şeytani oyunlarla, küfr əhli ilə qurduqları əməkdaşlıq və tələlərlə, **“öz aləmlərində müsəlmanların gücünü yox etməyə və hiyləgərcə yer üzündə dinsizliyi hakim etməyə”** çalışıblar.

Bu şeytani dəstə, birbaşa küfr əhlinin arasına getmək əvəzinə, **“özlərini iman gətirənlərdən biri kimi göstərərək, İslama daxilən zərər verə bilməyi”** hədəf etmişlər. Bütün bunları edərkən də, müsəlmanların maddi-mənəvi bütün imkanlarından istifadə edib mənfəət əldə etməyə çalışmışlar.

Lakin Allahın Quranla bildirdiyi dəyişməz qanununa görə, **“münafiq başdan müvəffəqiyyətsiz olmaq üçün yaradılmışdır”**. Bütün həyatını rütubətli, qaranlıq və gizlin oyunlar oynayaraq, yalanlar söyləyərək, pislik təşkil edərək, saxtakarlıq edərək keçirər. Lakin bu etdiklərinin müsəlmanların əleyhinə olmasını gözləyərkən, **“etdiyi hər hərəkətlə müsəlmanların daha da gücləndiyini, bir-birlərinə daha da möhkəm sarıldığını, ağıllarının, imanlarının, güclərinin daha da artdığını”** görər.

**Münafiq, (özü bunu nə qədər istəməsə də) əlində olmadan, müsəlmanlara heyrətamiz dərəcədə fayda təmin edən varlıqdır.** Həmçinin yenə tam əksi üçün səy göstərdiyi halda, (Allahın qanununun tələbi olaraq) əlində olmadan, **həyatının sonuna qədər müsəlmanlara xeyir və bərəkət qazandırmağa davam edəcək**. Etdiyi hər əxlaqsızlıq, müsəlmanların daha da güclənməsinə, daha da bərəkət tapmasına vəsilə olacaq. Münafiqin şeytani sistemi isə, nə vaxtsa daxilən çürüyüb yox olacaq.

## Münafiq müsəlmanların arasına girmiş köstəbək kimidir

**“Münafiq”** sözü ərəbcədə, iki tərəfi açıq **“dəhliz; yəni tunel”** mənasını verən **“en-nefeku”** və y **“köstəbək dəliyi”** mənasındakı **“ən-nafikatu”** sözündən gəlir. Xalq arasında casusluq edən kəslərdən **“köstəbək”** kimi bəhs edilməsi də, yenə bu sözün kökünə əsaslanır. Necə ki, bir köstəbək tunelin bir tərəfindən girib digər tərəfindən çıxarsa, münafiq də eynilə belədir. **Eynilə bir köstəbək kimi, müsəlmanların arasına bir ucdan daxil olar, digər ucdan çıxar. İki istiqamətə doğru da yolu açıqdır. Hər an küfr əhlinin arasına da gedə bilər, müsəlmanların arasına da girə bilər.** Eynilə köstəbək kimi, gah bu tərəfə dönər, gah da o tərəfə. Mənfəətləri hansı tərəfdədirsə o tərəfi seçər. Məhz bu söz də, münafiqin bu **“dəyişkənliyini”** vurğulayar. Quranın; **“onlar tərəddüd edər nə bunlara,**

**nə də onlara tərəf olarlar..."** (Nisa surəsi, 143) ayəsiylə, **Allah münafiqin bu vəziyyətinə diqqət çəkmiş və münafiqin köstəbəyə bənzəyən bu xarakterinə qarşı müsəlmanları xəbərdar etmişdir.**

Müsəlmanlar, münafiqin təhlükəsini, alçaqlığını, əxlaqsızlığını və küfr əhlinə olan həmrəyliyini çox yaxşı bilmələrinə baxmayaraq, bu insanları səbirlə imana və Quran əxlaqını yaşamağa dəvət edərlər. Lakin münafiqlər, **"ruhi xəstə kimi ruhla münafiq olmalarına israr edər"** və mənfəətlərinin arxasınca qaçmağa davam edərlər. **Eynilə bir köstəbəyin, tunelində aşağı-yuxarı hərəkət etməsi kimi, münafiq də mənfəət əldə edə bilmək üçün müsəlmanların arasında hərəkət etməyə davam edər.**

**Münafiqliyin həlli isə, münafiq xarakterinin gün kimi açıq-aydın görünəcək şəkildə təsvir edilməsi və beləliklə də, dünya səviyyəsindəki bütün müsəlmanların bu səmimiyyətsiz insanları çox yaxşı müəyyənləşdirə biləcək hala gəlməsidir.** Bütün əxlaqsızlığı və alçaqlığı ifşa edilmiş bir münafiqin, artıq bu dünyada münafiqlik edəcək yeri də qalmamış olar.

**Necə ki, kənd təsərrüfatı sahələrində, kəndlərdə və ya tarlalarda, köstəbək dəliklərinə iki tərəfdən su verilər və beləliklə də, köstəbək qaçacaq yer tapa bilməzsə; məhz münafiqin ifşa edilməsi də, onun "münafiqlik edəcək yer tapa bilməməsiylə" nəticələnər.** Lakin, əlbəttə ki, köstəbək burada yalnız münafiqin vəziyyətinin başa düşülməsi üçün verilən bir nümunədir; yoxsa köstəbək sevimli heyvandır. Münafiq isə, onunla müqayisə edilməyəcək qədər **"əclaf və alçaq məxluq"** dur.

Məhz müsəlmanların Quran ayələri əsasında, münafiqin gündəlik həyatdakı bütün oyunlarını ifşa etmələri ilə birlikdə **"münafiqlik imanın nuru içərisində mənəvi cəhətdən boğulub yox olacaq".** Bütün səmimiyyətsizlikləri, alçaqlıqları hər kəs tərəfindən çox yaxşı bilinən vəziyyətə gəldikdə münafiq, artıq heç kimə qarşı bu oyunları oynaya bilməyəcək hala gələcək.

**Buna görə də, münafiq əlamətlərini müsəlmanlar arasında gecə-gündüz həmişə gündəmdə saxlamaq, əzbərlətmək, yazılı hala gətirmək, söyləmək dünyanın hər yerində münafiqin həyat sahəsini yox etmiş olacaq.** Bunun nəticəsində də müsəlmanlar münafiqlik fəaliyyəti olmayan bir dünyada yaşayacaq və həyatlarında heyrətamiz dərəcədə lüks, rahatlıq və bərəkət meydana gələcək.

## Münafiqin təsvir edilməsi və bütün islam aləmində tanınıb müəyyən edilə bilməsi çox əhəmiyyətlidir

Quranda münafiqin təsviri çox ətraflı şəkildə müsəlmanlara bildirilmişdir. Lakin bununla yanaşı, insanların bu ayələrin praktiki həyata keçməsini, münafiqlərin, ayələrdə bildirilən şeytani əxlaqı nə cür tətbiq etdiklərini görə bilmələri üçün, **"münafiqin gündəlik həyatdakı təsvirini"** də vermək olduqca əhəmiyyətlidir.

Münafiqlərin 1400 ildən bəri İslam aləmini məhv etmiş, müsəlman cəmiyyətlərə istədikləri kimi nifaq salıb fitnə törədə bilmiş olmaları, məhz həmişə insanların **"münafiq təsvirini tam bilməmələrindən"** irəli gəlmişdir. Münafiqin çox genişmiqyaslı analizinin edilməmiş olması, müsəlmanların münafiqləri **"müəyyənləşdirməkdə çətinlik çəkmələrinə"** səbəb olmuşdur. Müəyyənləşdirməkdə çətinlik çəkdikləri üçün, münafiqlərin hər yerdə əli olmuş, hər yerə asanlıqla daxil olmuş və hər cür **"məxfi məlumatı"** əldə edə bilmişlər. Hətta belə ki, tarixdəki bəzi İslam ölkələrində bəzi müsəlmanlar, qeyri-sabit rəftarlarına rast gəldikləri halda, imanlarında xəstəlik olduğunu görə bilmədikləri insanların liderliyini qəbul edib, arxasınca getmişlər.

Məhz bu təhlükənin aradan qalxması üçün, bütün müsəlman aləmi münafiqlik mövzusunu çox yaxşı qavramalı və bu insanların xarakterlərini analiz etmə qaydalarını çox yaxşı öyrənməlidirlər. **Bu məlumatı əldə etdikləri zaman, münafiqi gördükləri yerdə dərhal tanıyıb müəyyənləşdirə biləcək və beləliklə də, münafiqin törədəcəyi təxribatın qarşısını ən başından almış olacaqlar.** Eyni zamanda **"münafiq də tanındığını anlayıb" ya münafiqlikdən imtina edəcək, ya da özünə sığınacaq başqa yer tapmağa çalışacaq.**

Çünki münafiqin ən mühüm silahı **"gizlilik"**dir. Münafiqlərin bu günə qədər ki, ən böyük üstünlükləri, təsvir edilməyən, bilinməyən, insanlar tərəfindən müəyyən edilməmiş bir sistemdən istifadə etmələri olmuşdur. **Məhz münafiqin bu hiyləsi, gizliliyi əlindən alındığı anda bitər.** Münafiq sanki bir **"yarasa kimidir". Günəşi, işığı gördüyü zaman, pərişan olar. Dərhal gizlənmək üçün bir dəlik axtarmağa başlayar.** Məhz, əgər müsəlmanlar, münafiqin üzərinə bir proyektor tutaraq onu işıqlandırsalar, münafiqin gedə biləcəyi bir yer də qalmaz. Hara qaçsa da, mənəvi cəhətdən yaxalanacağını bilməsi münafiqi çox usandıracaq və gizli hərəkətini edə bilməyəcək hala gələcək.

Əgər münafiqin təsviri yaxşı bilinməsə, münafiqlər müsəlman məclislərində, iman gətirənlərin bütün nemətlərindən istifadə edərək sanki **"vərəm mikrobu"** kimi yaşamağa davam edər. Eynilə **"parazit və mikrob kimi" gizlicə müsəlmanların orqanizminə daxil olarlar.** Bir tərəfdən özlərini müsəlman kimi göstərib, onların imkanlarından istifadə edər, digər tərəfdən də İslama öz aləmlərində zərər verməyə çalışarlar. Buna görə də, münafiq xarakteri mütləq hər yerdə çox yaxşı bilinməli və tanınmalıdır.

Üstəlik **münafiq əlamətlərinin və bu xəstə xarakterin çox yaxşı öyrənilməsi, İslam aləmində çox xalis və keyfiyyətli müsəlmanların yetişməsinə vəsilə olar.** Çünki şeytanın bu çirkli əxlaqını öyrənən hər müsəlman, bütün bu deyilənlərdən öyüd alıb nəfsini qınayar və münafiqlərin əxlaqına bənzər kimi görünə biləcək bütün rəftarlarını düzəldər. Bunun nəticəsində də **"imanda, gözəl əxlaqda dərinləşmiş, təqva cəhətdən üstün, ağlı, şüuru çox açıq, keyfiyyətli müsəlman cəmiyyətlər"** meydana gələr.

**Adnan Oktar: "Əvvəla münafiqliyi çox yaxşı tanımaq lazımdır. Münafiqin üstünlüyü nədir? Təsvir edilməyən, bilinməyən, insanlar tərəfindən müəyyən edilməmiş bir sistemdən istifadə etməsidir. Münafiqin ən mühüm silahı budur. Münafiqin silahını çox**

**açıq hala gətirsən, münafiq gün kimi ortaya çıxmış olar.** Məsələn, necə danışar, necə oturar, nə edər və bütün bunları dövrümüzdəki hadisələrlə də əlaqəli şəkildə açıqlasan. **İndi biz bir müddətdir ki, münafiqləri izah edirik, bu dünya tarixində görülməmiş bir fəaliyyətdir. Belə bir işi heç bir yerdə görə bilməzsiniz. Heç bir İslam ölkəsində, heç bir alimin kitabında yoxdur. Ümumi və səthidir izahatlar. Biz həm praktiki həyata istiqamətli şəkildə izah edirik, həm də keçmişdəki halının ictimai zəminini və tarixi sənədlərini də açıqlayaraq izah edirik.** Çünki ümumiyyətlə keçmişi hekayə kimi izah edirlər; naməlum bir şeymiş kimi. O dövrə məxsus, qəribə hadisələrmiş kimi. Halbuki hər dövrdə görülən namərd bir sistemdir münafiqlik. **Dolayısilə bizim izahatımızla praktiki həyatda münafiqlik necə ortaya çıxar, bunu hər kəs görmüş olur.**

İndi izahatlarımız bir az daha davam etsə bir həftə, on beş gün, münafiqlik ayna kimi ortaya çıxmış olacaq. Münafiqin hərəkət edəcəyi heç bir yer qalmamış olacaq. Belə ki, hara qaçsa da mənəvi cəhətdən yaxalana bilsin. Çünki münafiq qaçaraq hərəkət edər, bir yerdə qala bilməzsə başqa yerə qaçar, oradan vurmağa davam edər. Bunun üçün də münafiqi çox yaxşı tanıtmaq lazımdır. Dünyada hara getsə də, yaxşı tanıdıldığı təqdirdə dərhal müəyyənləşdirilər”. (A9 TV, 7 fevral 2016)

# Dünyadakı ilahi qüvvələr və qarşısındakı şər mərkəzləri

## Yaxşılarla pislərin mübarizəsi tarixin hər dövründə davam etmişdir

Allah Quran ayələriylə, tarixin başlanğıcından bəri, həmişə iki əks qüvvənin mübarizə apardığını xəbər vermişdir: **"dəccaliyyət"** və **"mehdiyyət"**...

Bir tərəfdə dövrün **"hidayət rəhbəri"**, yəni **"Mehdi"**si olan insan, digər tərəfdə isə həmin dövrdə **"küfrün liderliyini edən, zülmü təşkil edən Dəccalı"** vardır.

Yaşadığımız bu dövrdə dəccaliyyət, **"bütün dünya dərin dövlətlərinin liderliyini edən Dünya Dərin Dövləti"** tərəfindən təşkil edilən bir qüvvədir. Tarixdə isə bu qüvvə, həmişə fərqli dəccalların nəzarəti altında olmuşdur. **Dəccaliyyət, hz. İbrahim (ə.s) dövründə Nəmrud, hz. İsa (ə.s) dövründə Roma rəhbərliyi, hz. Musa (ə.s) dövründə isə Firon** tərəfindən təşkil edilirdi. Dolayısilə **hər dövrdə bu dərin dövlətlər mövcudluğunu davam etdirmişdir.**

**Məhz bu dərin dövlətlər, bütün fikir sistemini, hərəkət tərzini, strategiyasını, hərəkət qərarlarını və ilhamını şeytandan alar.** Bunun nəticəsində də **"öz əsrinin dəccaliyyəti"** kimi ortaya çıxar və **"öz əsrinin mehdiyyətiylə"** mübarizə aparar. Məsələn, **Nəmrud dövrünün Mehdisi, hz. İbrahim (ə.s), Roma dövrünün Mehdisi isə, İsa Məsih (ə.s) idi.** Nəmrudun Dərin Dövləti də, Roma Dərin Dövləti də, mehdiyyətə qarşı qalib gələ bilmək üçün şeytandan aldıqları ilhamla hərəkət edirdilər. **Firon dövrünün Mehdisi isə, hz. Musa (ə.s) idi**; Firon var gücüylə və imkanlarıyla ona qarşı mübarizə aparırdı. **Axırzamanda da dəccaliyyətin nəzarəti altındakı Dünya Dərin Dövlətinin qarşısında olan ilahi qüvvə isə Peyğəmbərimiz (s.ə.v)-in nəslindən gələn və "Hatəməl-Vəli" yəni "ən son və ən böyük vəli" olan hz. Mehdi (ə.s)-dır.**

Axırzamanı yaşadığımız bu dövrdə hazırda dünyada "**dörd ayrı qüvvə**" var:

**1) Hz. Mehdi (ə.s)** və Quranda mehdi tələbələri olduğuna işarə edilən **Kəhf əhli,**

**2)** Axırzamanda ikinci dəfə yer üzünə gələcəyi bildirilən **hz. İsa (ə.s)** və Kəhf hekayəsində **İsa Məsih (ə.s)-ın** tələbələri olduğuna işarə edilən **Rəqim əhli,**

**3) Hz. Xızır (ə.s)**

**4) Dəccaliyyət.**

Bu 4 qüvvədən **hz. Xızır (ə.s)**, gizli və açıq göstərdiyi fəaliyyətlərlə mehdiyyətə dəstək verər və gücləndirər. Həm **hz. İsa (ə.s)-a** həm də **hz. Mehdi (ə.s)-a** kömək edər və onların işlərini asanlaşdırar. Lakin Xızır (ə.s) bəzən də, zahirən dəccaliyyətə kömək edərmiş kimi görünər. Halbuki bu istiqamətləndirmələrin hamısı, əslində İslama fayda

vermək və dəccaliyyəti, mehdiyyət qarşısında məğlub olmağa sürükləmək üçün edilən hərəkətlərdir.

**Bütün ilahi və şeytani güc mərkəzlərini yaradan isə Allahdır. Kainatda Allahdan başqa qüvvə yoxdur.** Dünyadakı bütün hadisələrə, bütün insanlara hökm edən Allahdır. Allah dünyada insanların imtahan olunmaları üçün **"yaxşıları"** və **"pisləri"** yaratmışdır. Bu həqiqəti bilməyən bəzi insanlar bu güc mərkəzlərinin, Allahdan müstəqil hərəkət etdiklərini zənn edə bilərlər. Halbuki bu yalnız yanılmadır. İstisnasız hər biri Allahın nəzarəti altında olan və Allah istəmədikcə heç nə etməyə gücü çatmayacaq varlıqlardır.

Həmçinin Allah Quranda; **"Mən və elçilərim qalib gələcəyik"** (Mücadilə surəsi, 21) demişdir. **Allahın sözünü dəyişdirə biləcək başqa heç bir qüvvə yoxdur.** Məhz Allah, bu qalibiyyət və hakimiyyətə elçilərini vəsilə edəcəyini bildirmişdir. Yaşadığımız Axırzamanda, Allahın, **"Hadi"** ismini təcəlli etdirərək **"insanları hidayətə yönəltməklə vəzifələndirdiyi", "Hatəməl-Vəli"** (yəni, Axırzamanda gələcək ən son və ən böyük övliya) etdiyi insanda **"hz. Mehdi (ə.s)"**-dır. **Hz. Mehdi (ə.s), Allahın hidayət elçisi olaraq, dəccaliyyətin, dərin dövlətlərin və münafiqlərin bütün inkarçı düşüncə və sistemlərinə qarşı fikrən qalib gələcək; dünyaya İslamı, Quran əxlaqını, sevgi və sülhü hakim edəcək.**

## Hər dövrün dəccaliyyət sistemi; şeytan, dünyanın dərin dövlətləri və inkarçıların çirkli ittifaqı ilə ortaya çıxar

Pisliyin mənbəyi olan dəccaliyyətin qarşısında, yaxşılığın müdafiəçisi olan mehdiyyətə əsaslanan **"güc ittifaqı"** var. **Hz. İsa (ə.s)** və dostları, **hz. Mehdi (ə.s)** və tələbələri və **hz. Xızır (ə.s)**, göstərdikləri ayrı-ayrılıqda fəaliyyətlərlə **"dəccaliyyətə qarşı", "haqdan yana mübarizə"** aparırlar. Dəccaliyyət də eyni şəkildə, mehdiyyətə qarşı apardığı şeytani mübarizəsində bəzi qruplarla ittifaq edər. Dəccaliyyətin bu çirkli ittifaqının başında "**şeytan**" gəlir. **O dövrün Dəccalını idarə edən və istiqamətləndirən, bu Dəccali hərəkatın başında olan, lider mövqeyindəki varlıq "şeytan"dır.** Dəccaliyyət, fikir sisteminin bütün təlimatları və hərəkətləri üçün lazım olan bütün əmrləri şeytandan alar.

**Dəccaliyyətin başında isə mütləq "lider mövqeyində bir şəxs" vardır.** Bu şəxs hər dövrdə dəyişər və biri öldükdə yerinə başqası keçər. Bu şəxs, eyni zamanda da **"şeytan ilə əlaqəni yaradan şəxs"**dir və şeytandan birbaşa təlimat alar. Şeytan, ona nə etməli olduğu məsələsində yol göstərər. **"Dinsiz ideologiyaların və azğın fikri cərəyanların yaradılmasında, bir yerdə zülm edilməsi qərarı verilməsində, bir bölgədə müharibə törədilməsində, bir yerin bombalanmasında, kütləvi qırğınlar və cinayətlər törədilməsində"** şeytan həmişə bu şəxsə birbaşa təlimat verər.

Bütün bu dəccallar, eyni zamanda da **"ruhi xəstələr"** və **"dünyanın ən böyük seriyalı qatilləri"**dirlər. Şeytan, dünya dərin dövlətlərinin başında olan bu şəxslərə, **"burada yaşayan bütün insanları, bütün uşaqları öldürməlisən"** kimi əmrlər ilham edərək onları bu

istiqamətdə yönləndirər. Bu şəxslər də, eynilə **"ruhi xəstələrdə və seriyalı qatillərdə olduğu kimi"**, şeytandan aldıqları bu **"qırğın əmrlərini"** yerinə yetirərlər. Məsələn, hazırda Suriyada, İraqda, Yəməndə, Əfqanistanda və **dünyanın daha bir çox yerində, dərin dövlətlərin seriyalı qatillərinin əmrləri ilə bu cür ardıcıl cinayətlər işlənir; sel kimi müsəlman qanı axıdılır.** Məhz bütün bunlar; bütün bu qırğınlar, birbaşa şeytanın əmri ilə və dəccaliyyətin tətbiqi ilə törədilən hərəkətlərdir. Şeytan, dərin dövlətləri idarə edən dəccallara; **"İslamı yer üzündən silməlisən, Mehdiliyindən şübhələndiyin hər kəsin üstünə yüyürməlisən, qan tökməlisən"** kimi təlimatlar verərək bu dəhşət mühitini hazırlayır.

Hz. Musa (ə.s) dövründə, Firon da şeytandan aldığı bənzər bir əmri yerinə yetirmişdir. O dövrdə, **"müəyyən müddətdə doğan uşaqlardan birinin dövrün Mehdisi olacağı"** ehtimalından bəhs edildiyi üçün, Firon Misirdəki bütün oğlan uşaqlarının öldürülməsi əmrini vermiş və hamısını şəhid etmişdir.

Şeytanın, bütün bu istiqamətləndirmələriylə qarşısına məqsəd qoyduğu şey isə, öz aləmində bütün insanların da özü kimi olduğunu göstərməkdir. Hədəfi, **"insanlar haqqındakı diaqnozunun"** Allahın sözündən daha doğru olduğunu sübut etməyi bacara bilməkdir (Allahı tənzih edirik). Lakin, əlbəttə ki, Allahın Quranda da bildirdiyi kimi, şeytan bu sözündə haqsız çıxacaq və səmimi müsəlmanlara təsir göstərə bilməyəcək.

**Şeytan, cinayət işləmək və hər cür azğınlıqdan asılı, ağılsız, ədabaz, asi, mübahisəçi və manyak ruhlu məxluqdur. Fironlar, nəmrudlar** və **dəccallar** da onun əmrləri istiqamətində hərəkət etdikləri üçün, **"onlar da şeytanla eyni anormal xarakteri"** göstərirlər. Dolayısilə bütün dəccallarda, eynilə şeytan kimi, **"şizofreniyalı ruha malikdirlər".**

**Dəccal və digər dərin dövlət mənsubları,** qaranlıq işlərini icra etdikləri mərkəzlərində, şeytandan aldıqları təlimatlar istiqamətində **"harada cinayət işlənəcək, harada müharibə törədiləcək, hansı ölkə yox ediləcək",** bütün bunların hər birini ayrı-ayrılıqda planlaşdırıb həyata keçirməyə başlayarlar.

Dünya dərin dövlətlərinin, şeytandan aldıqları təlimatları tətbiq etmək planlarını qurduqları **bu yığıncaqlarda hz. Xızır (ə.s) da gizlicə iştirak edər.** Hz. Xızır (ə.s) bu şeytani təşkilata qarşı hz. Mehdi (ə.s)-ın tərəfində çıxış edər. Mehdiyyətə dəstək təmin edəcək məlumatları toplamaq məqsədiylə bu yığıncaqlarda iştirak edər və hz. Mehdi (ə.s)-a kömək edər.

Dünya səviyyəsində **insanları həlaka sürüyən, aralarını vuran, müharibə və qarşıdurmaları qızışdıran marksizm, faşizm kimi bütün dinsiz ideologiyaların ortaya atılması kimi fəaliyyətlər də, yenə həmişə şeytanın rəhbərliyi altındakı bu inkarçı heyətlə həyata keçirilər.** Bunun nəticəsində də dünya səviyyəsində böyük fəlakətlər, qorxunc qırğınlar təşkil edilər, sel kimi insan qanı axıdılar. Məhz bütün bunlar, bu şeytani təşkilatın hiyləgər planlarının nəticəsidir.

**Dərin dünya dövlətlərinin başındakı dəccallar, tarixin hər dövründə eyni planı tətbiq etməyə çalışarlar. Bu isə, bütün bunların tək bir mərkəzdən idarə edildiyini açıqca göstərər.** Tarixdəki bütün dərin dövlətlər, blok olaraq həmişə şeytanın əmrindədir. Şeytan tək bir mərkəzdən hamısını, eyni məqsəd istiqamətində kütləvi şəkildə istiqamətləndirər. Tarixin başlanğıcından bəri tətbiq olunan eyni plan, bu gün də hələ eyni mərkəzdən idarə olunur. Müsəlman aləmini və xüsusən də hz. Mehdi (ə.s)-ın zühur yeri olan Türkiyəni bölüb parçalamağı və dünyaya hakim olmağı qarşısına məqsəd qoyan bu planı tətbiq edən də yenə **"şeytan"**dır.

Necə ki, əleyhinə qurulan bütün bu planlar və təşkil edilən fəaliyyətlər, ən sonunda hz. Mehdi (ə.s)-ın zühur etməsinə vəsilə olar. **Çünki şeytan şeytanlığını etdiyi zaman, (istəsə də, istəməsə də) hz. Mehdi (ə.s)-a xidmət etmiş olar. Dərin dövlətlər də (istəsələr də, istəməsələr də), əleyhinə etdikləri hər hərəkətə baxmayaraq, hz. Mehdi (ə.s)-a xidmət etmiş olarlar.**

Allah hz. Mehdi (ə.s)-ı, dünyadakı zülmü, əzab və çətinlikləri aradan qaldıracaq bir **"xilaskar"** olaraq vəzifələndirmişdir. Dolayısilə **dəccaliyyətin səbəb olduğu bu dinsizlik, inkar və zülm mühiti, hz. Mehdi (ə.s)-ın gəlişini sürətləndirir. Dəccaliyyətin fəaliyyətləri, hz. Mehdi (ə.s)-ın zühuruna vəsilə olacaq** və hz. Mehdi (ə.s), dəccaliyyətin törətdiyi təxribatı kökündən təmizləyərək bütün dünyada səmimi imanı, gözəl əxlaqı, hüzur və xoşbəxtliyi hakim edəcək. Həmçinin yaşanacaq bu gözəl nəticə, **"bütün gücün Allaha məxsus olduğunu; şeytanın və çirkli təşkilatının nə vaxtsa dağılıb yox olmağa məhkum olduğunu"** bütün insanların anlamasına səbəb olacaq.

# Şeytan ilə münafiqin dostluğu

## Münafiqin lideri şeytandır

**Münafiq xarakterində, ən məharətli və ən təcrübəli olan varlıq, şübhəsiz ki, "şeytan"dır.** Şeytan cənnətdən qovulduğu gündən bəri, bu əxlaqsızlığından imtina etməmişdir. Qiyamətə qədər də münafiqliyə, səmimiyyətsizliyə, yalana, ikiüzlülüyə və saxtakarlığa davam edəcəyinə dair and içmişdir. Dolayısilə **"münafiqin yol göstəricisi" də, "münafiqliyin sirlərini ən yaxşı bilən" varlıq olan "şeytan"dır.** Allah, Quranda **"münafiqin şeytanla olan əməkdaşlığına"** diqqət çəkmiş və münafiqlərin, şeytanlarına; **"biz sizinlə birlikdəyik", "iman gətirənlərə yalnız istehza edirik"** dediklərini xatırlatmışdır:

**İman gətirənlərlə qarşılaşdıqları zaman: "İman gətirdik!" deyərlər. Şeytanlarıyla təkbətək qalanda isə, belə deyərlər: "Şübhəsiz ki, sizinlə birlikdəyik. Biz (onlara) yalnız istehza edirik". (Bəqərə surəsi, 14)**

Münafiqlər müsəlmanların yanında olarkən onlara; **"Allahı və müsəlmanları çox sevdiklərini; hər cür pislikdən, küfrdən və inkarçıların zalım, qəddar əxlaqından nifrət etdiklərini"** söyləyərlər. Lakin şeytanla və şeytanın küfr əhli arasındakı dostları olan insanlarla qarşılaşdıqları zamanda, dərhal onların gözünə girməyə və onlara yaranmağa çalışan küfr xarakterli üslubdan istifadə edərlər. Allah bir Quran ayəsində, münafiqlərin özlərinə **"Allahı deyil, şeytanı vəli tutduqlarını"** belə xəbər vermişdir:

**Allah Öz bəndələrinin bir qismini doğru yola yönəltdi, digərlərinə isə haqq yoldan azmaq layiq görüldü. Çünki onlar Allahı qoyub şeytanları özlərinə vəli tutdular və onlar güman edirlər ki, onlar doğru yoldadırlar. (Əraf surəsi, 30)**

Dolayısilə **"münafiqlərin lideri, yol göstəricisi, vəlisi, kömək tələb etdikləri,** güvənib sığındıqları, güclü olduğuna inandıqları və ağlına tam itaət etdikləri varlıq şeytandır".

Digər bir ayədə isə Allah; **"Kim Mərhəmətli Allahın zikrindən üz döndərsə, Biz şeytanı ona calayarıq və o da ona yoldaş olar."** (Zuxruf surəsi, 36) sözləriylə, münafiqlərin **"şeytanın yaxın dostları"** olduğunu bildirmişdir. Allahdan, Qurandan, müsəlmanlardan üz döndərən, Allahın haqq sözünü rədd edən (Allahı tənzih edirik) münafiqlər, şeytanla ayrılmaz bütün halına gəlmişlər. **Şeytanın, münafiqin üzərini qabıq kimi bürüməsiylə; şeytanın hər cür küfr fəlsəfəsi, hiyləgər əxlaqı və üsulları münafiqin də canına işləyər.** Bundan sonra münafiq, (tövbə etmədiyi müddətcə), bu yaxın dostundan bir an belə ayrılmaz və tamamilə onun istiqamətləndirməsinə təslim olar. Şeytanla bir bütün olaraq

hərəkət edən **"münafiqlərin bu şeytani ittifaqları və möhkəm dostluqları"** yenə başqa bir ayədə belə xəbər verilir:

**...Biz, şeytanları iman gətirməyənlərin dostları etdik. (Əraf surəsi, 27)**

Quranda verilən bütün bu məlumatlar, **"münafiqin həqiqi liderinin şeytan olduğunu"** və **"şeytanın bütün alçaqca üsullarının, münafiq xarakterində də hakim olduğunu"** göstərir. Münafiq, şeytanın özünə göstərdiyi yolu izləyər və o da onun kimi, özüylə birlikdə bütün insanları azğınlığa sürükləyə bilməyin çirkli mübarizəsini aparar.

Buna görə də, şeytanın addımlarını izləyən münafiq xarakterli bir insan, hər fürsətdə oyunlarına və ikiüzlülüyünə davam edər. Necə ki, **şeytan səmimiyyətsizlik etməkdən, yalan danışmaqdan, oyun oynamaqdan bezməzsə; münafiq də** şeytanın ilhamıyla hərəkət etdiyi üçün, eyni şəkildə **bezmədən, usanmadan hiyləgərliyinə, alçaqlığına və ikiüzlülüyünə davam edər.**

## Münafiq, şeytanın insan formasıdır

Münafiqlər şeytanın insan formasıdır. Allah bir ayədə; **"məhz onlar şeytanın firqəsidir..."** (Mücadilə surəsi, 19) deyə bildirmişdir. Münafiqlər şeytanın, insandan əmələ gəlmiş firqəsidir. Ayənin davamında isə Allah, **"diqqət yetirin; şübhəsiz ki, şeytanın firqəsi ziyana uğrayanlardır"** deyə buyurmuşdur. Şeytan da firqəsi olan münafiqlər də sonunda mütləq ziyana uğrayacaqlar.

Digər bir ayədə isə; **"sonra onların yanına önlərindən və arxalarından, sağlarından və sollarından soxulacağam. Onların əksəriyyətini şükür edən görməyəcəksən"** (Əraf surəsi, 17) sözləriylə, şeytanın azdırmaq istəyəcəyi insanlara necə yaxınlaşacağı bildirilmişdir. **Görünməz bir varlıq olan şeytan, (maddə olaraq) insanlara önlərindən və arxalarından, sağlarından və sollarından yaxınlaşabilməz. Bu hiyləgərliyi onun üçün, şeytanın "insan formasındakı təcəlliləri olan münafiqlər" yerinə yetirirlər.** İnsan görünüşünə bürünmüş şeytanlar olaraq, insanları doğru yoldan, İslama tabe olmaqdan, Quran əxlaqını yaşamaqdan, müsəlmanlarla birlikdə olmaqdan uzaq tutmağa çalışarlar.

**Adnan Oktar**: "Yaxşılarla pislərin mübarizəsində şeytan görünməz qüvvədir. Bunun üçün şeytanla mübarizə aparmaq o qədər asan deyil. İman əhli olduqca diqqətli olmalıdır. **Münafiq şeytandan daha da şiddətlidir. Çünki insan görünüşündədir. Şeytan təkcə pıçıldayar, o danışar, yəni açıq-aşkar danışar. Hər yerdə danışar. Həmçinin şeytanlığını gecə-gündüz etməyə cəhd edər.** Buqələmun kimidir münafiq. Hər yerin formasını alar. Hər mühitin formasını alar. Hara getsə ora uyğunlaşar. Dərin dövlətlərlə əlaqə yaratdısa

onların adamı olar, müsəlmanların arasına gəldisə müsəlman kimi görünər. Başqa bir növü görsə onların formasını alar, hər formanı ala bilər". (**Adnan Oktar**, A9 TV, 1 iyun 2016)

**Adnan Oktar:** "Mücadilə surəsi, 19-da Allah; "şeytan onları hər tərəfdən əhatə etmişdir" deyə buyurur. Şeytan münafiqin hər yerinə, bütün bədəninə nüfuz etmişdir. Bədənini, elektromaqnit dalğa kimi bürüyür; qollarına, ayaqlarına, beyninə, hər yerinə hakim olur şeytan. Ayənin davamında da Allah; "...beləliklə onlara Allahın zikrini unutdurmuşdur" deyə bildirir (A9 TV, 22 yanvar 2016)

## Münafiq, şeytanın "insan cildinə" və "müsəlman örtüyünə" bürünmüş xidmətçisidir

**Qövsül-əzəm, Şeyx Əbdülqadir Gilani həzrətləri** bir sözündə münafiqləri müsəlmanlara belə tanıtmışdır:

Münafiqlər, şeytanın insan cildinə və müsəlman örtüyünə bürünmüş xidmətçisidir. Bunlar yalnız, Quran bəsirətiylə, iman fərasətiylə və peyğəmbərlik dürbünüyle görülüb bəlli olar. Əsil mərifət, mömini və ya kafiri deyil, münafiqi tanımaq və xalqdan bir çox itaətkarı və hamisi olan bu müzirmərəzliləri (zərərli xəstələri) cəmiyyətə tanıdıb onları xəbərdar etməkdir. (Fethür-Rabbani vel Feyzül-Rahmani- 61-ci Məclis söhbəti)

Əbdülqadir Gilani həzrətləri bu sözüylə, münafiqin həm **"insan görünüşündə bir şeytan"**, həm də **"şeytanın, müsəlman təqlidi edən bir xidmətçisi"** olduğunu bildirmişdir. Münafiq məhz bu hiyləgər üsuluyla şeytanın əldə etmək istədiyi hər yeri asanlıqla əldə edə bilir və şeytanın orada danışaraq etmək istədiyi hər şeyi, onun üçün edir. Çünki **münafiq, bu mənada apardığı hiyləgər mübarizədə şeytandan daha üstündür. Şeytan, insanların yalnız beyinlərinə təsir edə bilər. Münafiqin isə fiziki müdaxilə etmək imkanı da var.** Şeytan kimi insanların yalnız zehinlərinə pıçıldayaraq deyil, birbaşa rəftar və danışıqları ilə, aktiv olaraq da onlara təsir etməyə çalışar.

Məhz bu istiqamətiylə münafiq **"zəhərli varlıq"**dır. Lakin münafiqin **"müsəlman cildinə bürünərək"** hiyləgərcəsinə özünü gizlətməsi daha böyük təhlükədir. İnkarçılarında bir çox xüsusiyyəti münafiqə bənzəyər, lakin onlar açıqca iman gətirmədiklərini ifadə edərək əsil üzlərini üzə vurarlar. Münafiqi anlayıb müəyyənləşdirmək isə çətindir. Çünki **münafiq çox hiyləgər, ikiüzlü və saxtakar varlıqdır. Xüsusi olaraq yaradılmış, şeytani və xəbis məxluqdur.** Onu anlaya bilmək üçün, Əbdülqadir Gilani həzrətlərinin də ifadə etdiyi kimi, **"peyğəmbərlik durbini, Quran bəsirəti və iman fərasəti"** lazımdır. Yəni münafiqin alçaq xarakterini, ancaq səmimi iman gətirən, ağıl, fərasət, bəsirət sahibi müsəlmanlar müəyyənləşdirə bilərlər.

**Adnan Oktar**: "Müsəlmanların ən çox qarşılaşdıqları şey münafiqlərdir. Kafirlər, küfr əhli, o qədər təsirli deyil, yəni çox zəifdir kafirin təsiri. Çünki kənarda olduğu üçün kafir o qədər təsirli olmaz. Bir də kafir daha açıq vuruşar, daha dürüst. Münafiq çox hiyləgərdir. Müsəlmanların içində olduğu üçün onunku çox çətindir. **Sanki "ətdən sümükdən bir şeytan"dır. Müsəlmanlar bir iblislə iç-içə olmuş olur, ona görə çox çətindir. Orada çox yaxşı ağıl işlədilməlidir"**. (**Adnan Oktar**, A9 TV, 23 yanvar 2016)

**Adnan Oktar**: "Münafiqlik çox yaxşı qavranması vacib olan bir mövzudur. İmtahanın mühüm istiqamətidir. Allah da uzun-uzadı bildirmişdir, **"bunlar xüsusi olaraq yaradılmış, insanlar arasına yayılmış, səpələnmiş insan görünüşlü şeytanlardır". Müsəlmanın bunlarla mübarizə aparması üçün, o, bu iblis dəstəsini yaxşı tanımalıdır. Tanısa çox asan nəticə əldə edər və İslam aləminin üstündəki bu bəla, bu yüklər, bu qarışıqlıq və qırğınlar hamısı aradan qalxar.** Müsəlmanların qətlə yetirilməsi əmrini verənlər yenə müsəlmanlar olur. Həmçinin bunları edənlər münafiqlərdir. Bunların böyük əksəriyyəti münafiqdir, diaqnoz edilə bilmədiyi üçün belə olur. Bir çoxu münafiqdir və bunlar müsəlmanların arasındadır. Onsuz da danışıqlarından, üslublarından aydın olur. O zaman müsəlman belə məxluqlara hörmət bəsləməz. Müəyyənləşdirər və ibadət sevgisi içərisində onlara qarşı tədbir alar. Elmlə, fikirlə onları passivləşdirər. (A9 TV, 23 yanvar 2016)

## Münafiq küfr əhli ilə gizlicə əlaqə yaradarkən bilavasitə şeytandan əmr alar

Münafiqlər İslamı yaşamaq məsələsində zəif və laqeyd rəftarlarıyla müsəlmanlar arasında diqqət çəkərlər. **Allahın əmrlərini yerinə yetirmək, Quran əxlaqını yaşamaq və İslama xidmət etmək məsələsində çox şövqsüz və istəksizdirlər. Buna baxmayaraq, şeytanın təlqinlərini böyük şövqlə və dərhal yerinə yetirərlər.** Şeytan öz dostlarıyla əlaqə yaratmalarını təlqin etdiyi zaman, heç dayanmadan dərhal inkarçılarla əlaqə yaradarlar. Allah bir Quran ayəsində münafiqlərin küfr əhli ilə birlikdə, müsəlmanların əleyhinə etdikləri gizli pıçıldaşmaların, qurduqları məkrli planların, həmişə **"şeytan məhsulu olan"**, yəni **"şeytanın təlimatıyla baş verən"** hadisələr olduğuna diqqət çəkmişdir:

**Gizli söhbətlər iman gətirənləri kədərləndirməyə çalışan şeytandandır. Amma Allahın izni olmadıqca o, onlara heç bir zərər yetirə bilməz. Qoy möminlər Allaha təvəkkül etsinlər. (Mücadilə surəsi, 10)**

Digər bir ayədə də şeytanın, cəhənnəmdə ona itaət edən münafiqlərə; **"mənim sizin üstünüzdə heç bir məcburedici gücüm (hökmranlığım) yox idi, təkcə sizi dəvət etdim, siz**

**də dəvətimi qəbul etdiniz”** dediyi xəbər verilmişdir. Bu da yenə münafiqlərin, bilavasitə **“şeytanın dəvəti ilə və təlimatlarıyla hərəkət etdiklərini”** göstərir:

**İş bitdikdə şeytan deyəcək: “Həqiqətən də, Allah sizə gerçək vəd vermişdi. Mən də sizə vəd vermişdim, lakin vədimə xilaf çıxdım. Mənim sizin üstünüzdə heç bir hökmranlığım yox idi. Mən sizi azğınlığa dəvət etdim, siz də dəvətimi qəbul etdiniz. Buna görə də məni yox, özünüzü qınayın. Nə mən sizin köməyinizə çata bilərəm, nə də siz mənim köməyimə çata bilərsiniz. Heç şübhəsiz ki, mən əvvəllər də sizin məni Allaha şərik qoşmağınızı rədd etmişdim”. Həqiqətən, zalımlar üçün ağrılı-acılı bir əzab hazırlanmışdır. (İbrahim surəsi, 22)**

Münafiqlər, inkarçılarla bu yolla gizlicə əlaqə yaradaraq və öz aləmlərində müsəlmanlar əleyhinə əməkdaşlıq edərək, iman gətirənlərə zərər verə biləcəklərini zənn edərlər. Necə ki, Allahın hər şeyin üzərindəki gücündən və hakimiyyətindən xəbərsizdirlər. Allah yuxarıda qeyd olunan ayənin davamında, (Allahın diləməsi xaricində), **“münafiqlərin müsəlmanlara qətiyyən zərər verə bilməyəcəklərini”** (Mücadilə surəsi, 10) bildirmişdir.

**Adnan Oktar**: “Ənam surəsi, 121-ci ayə: **“...Həqiqətən, şeytanlar”; münafiqlər, yəni iblis ordusu, “sizinlə mübarizə aparmaları üçün”**; müsəlmanlarla mübarizə aparmaq, onları narahat etmək, onları hər hansı şəkildə əzaba və narahatlığa sürükləmək üçün, **“öz dostlarına gizli təlqinlər edərlər”.** Baxın gizli. Əsrimizdə necə olar gizli? İnternetlə olar, telefonla olar. Ən əsaslı bu şəkildə ola bilər”. (A9 TV, 26 yanvar 2016)

# Dərin dövlətlərin münafiqlərlə ittifaqı

## Münafiq güclü hesab etdiyi tərəfi müdafiə edər

Münafiqlərin mühüm bir xüsusiyyəti; **“Allahın rizasının deyil, şəxsi mənfəətlərinin arxasında olmaları”**dır. Hər hansı məsələdə özlərinə bir yol cızacaqları vaxt; **“hansı tərəfdə və ya kimin yanında olsam daha çox mənfəət və imkan əldə edə bilərəm?”** deyə düşünərlər. Həmçinin bu hesabları istiqamətində, həmişə öz aləmlərində daha çox güc və etibar sahibi olduğunu güman etdikləri tərəfi müdafiə edərlər.

Bir ayədə Allahın; **“onlar tərəddüd edər nə bunlara, nə də onlara tərəf olarlar...”** (Nisa surəsi, 143) sözləriylə bildirdiyi kimi, güc **hansı tərəfə keçsə, münafiq də onun tərəfini tutar. O dövrdə küfr əhli kimdirsə, kim güclüdürsə, münafiq ona xidmət etmək istəyər.** Firon dövründə olsa Firona, Nəmrud dövründə olsa Nəmruda yanaşar. Digər bir sözlə, **“o dövrün Fironu və Firon dövləti hansıdırsa, münafiq onun ucalığına inanar və gücün orada olduğunu zənn edərək oraya sığınar”**. Hazırkı dövrdə də, **“hansı dünya dərin dövlətləri, hansı çirkli təşkilatlar və hansı şeytani güc mərkəzləri daha güclüdürsə”**, münafiqlər dərhal onlarla əlaqə yaradarlar. Bəsit ruha və alçaq xarakterə sahib olan münafiqlər, **“bu qaranlıq güc mərkəzlərinin özləri üçün bir növ xilaskar olduğuna inanar”** və onlarla şeytani əməkdaşlıq edərlər.

Lakin müsəlmanlar müvəffəqiyyət qazansa, o zaman da həyasızca, **“...sizinlə birlikdə deyildikmi?”** (Hədid surəsi, 14) deyərək onlara yanaşarlar. Mənfəətləri üçün bir müddət daha hiyləgərcəsinə müsəlman təqlidi etməyə davam edərlər. Təkrar küfr əhlinin güclü olduğuna qənaət gətirdikləri zamanda, müsəlmanlar əleyhinə onlarla ittifaq yaratmağa üz tutarlar. Digər bir ayədə; **““...bu işdə bizim üçün nə xeyir var?” deyirdilər”** (Ali İmran surəsi, 154) sözləriylə bildirildiyi kimi, münafiqlər həmişə hesablı şəkildə **“mənfəət hesablaması”** apararlar. Əgər müsəlmanlardan mənfəət əldə edə biləcəklərini düşünsələr onlara tərəf, küfr əhlində imkan tapdıqlarını zənn etsələr də, dərhal inkarçılara tərəf üz tutarlar.

Münafiqin bu **“dəyişkən xarakteri”** və **“güc kimdədirsə ona yanaşmağa çalışan rəftarı”** həmçinin Quranın; **“...kafirlərə bir pay düşsə: “Sizə üstünlük təmin etmədik mi? Möminlərdən sizə (gələcək təhlükələrin) qarşısını almadıqmı?”** (Nisa surəsi, 141) ayəsiylə də təsvir edilmişdir. Ayədə həmçinin münafiqlərin müsəlmanların əleyhinə hiyləgərcəsinə və namərdcəsinə göstərdikləri o qədər səyin əvəzi olaraq, küfr əhlinin əldə etdiyi gücdən bir pay tələb etdikləri də bildirilir.

Digər bir ayədə isə, Allah Şueyb peyğəmbər (ə.s)-ın qövmündən nümunə vermiş və xalqının ona; **“ey Şueyb, sənin dediklərinin çoxunu biz qavrayıb anlamırıq. Həqiqətən, biz səni aramızda zəif biri hesab edirik. Sən bizə qarşı güclü və üstün deyilsən”** dediklərini xəbər vermişdir:

**“Ey Şueyb” dedilər. “Dediklərinin çoxunu biz “qavrayıb anlamırıq”. Həqiqətən biz səni aramızda zəif biri hesab edirik. Əgər yaxın ətrafın olmasaydı, həqiqətən səni daşlayıb öldürərdik. Sən bizə qarşı güclü və üstün deyilsən. (Hud surəsi, 91)**

Şueyb peyğəmbər (ə.s)-ın qövmündəki inkarçıların bu sözləri, münafiqlərin iman gətirənlərə olan baxış aspektlərini anlamaq baxımından olduqca diqqət çəkəndir. Bu insanlar; **“Peyğəmbərin sözlərinin çoxunu qavrayıb anlamadıqlarını”; yəni “söylədiklərinin özlərini maraqlandırmadığını buna görə də söylədiklərinin yalnız mənfəətlərinə uyğun olan hissələrini qavradıqlarını”** bildirmişlər. Həmçinin Peyğəmbərə, **özünü küfr əhlinin arasında” gücsüz biri hesab etdiklərini”** bildirmişlər (Peyğəmbəri tənzih edirik).

Münafiqlərin bu yanlış qənaətlərinin tək səbəbi, **“küfr əhlinin Allahdan müstəqil güc olduğunu zənn etmələri”**dir. Allahın sonsuz gücünü təqdir edə bilmədikləri üçün, zahirən **“gördükləri şərtlərə görə”** qiymətləndirmə aparardar. Küfr sistemləri, dərin dövlətlər, maddi cəhətdən, ətraf və nüfuz cəhətdən onlara daha güclü kimi görünər. Müsəlmanların isə, dünyaya hakim olan bütün bu güc mərkəzləri içərisində, yalnız kiçik dəstə olaraq iştirak etdiyini düşünürlər.

Halbuki küfr əhlinin çoxluq, müsəlmanların isə azlıq təşkil etməsi Allahın xüsusi olaraq yaratdığı qanunudur. Həmçinin müsəlmanların sayca azlıq təşkil etdiyi yerdə, Allahın sonsuz gücü təcəlli edir. Çünki **Allah, elçilərini və Özündən yana olan iman gətirən qullarını sonsuz gücüylə dəstəkləyir.** Küfr əhli arasındakı güclü kimi görünən **bütün şeytani strukturları yaradan və onların atdıqları hər addımı idarə edən Allahdır.** Onlar kimi dünyadakı bütün insanları, cəmiyyətləri, təşkilatları, ölkə rəhbərlərini yaradan və addım-addım etdikləri hər işi, söylədikləri hər sözü istiqamətləndirən tək güc də, yenə yalnız Allahdır. Tarix boyu Allahın qanunu və imtahan mühitinin bir tələbi olaraq inkarçılar hər dövrdə iman gətirənlərdən sayca çox olmuşdur. Lakin məhz Allahın sonsuz gücü və qüdrəti həmişə, bu sayca az olan, səmimi iman gətirən insanlardan yana olmuşdur.

Bütün bu həqiqətlərdən xəbərsiz olan münafiqlər isə, güclü gördükləri küfr əhli arasındakı dostlarına özlərini bəyəndirə bilmək və onların az da olsa diqqətlərini çəkə bilmək üçün görünməmiş səy göstərərlər. Hər fürsətdə onların baxış aspektlərini, ideyalarını, fikirlərini nə qədər yaxşı mənimsədiklərini və nə qədər yaxşı tərəfdar olduqlarını sübut edib bu insanların gözünə girməyə çalışarlar.

Lakin məlum olduğu kimi, **səmimiyyətsizlik əsasında qurulan heç bir yaxınlıq heç vaxt daimi ola bilməz və yox olmağa məhkumdur**. Belə ki, müsəlmanlar bu güclü görünən şeytani strukturların oyunlarını pozub, onların şeytani tələlərini ifşa etdikləri zaman, münafiqlər də dərhal tərəf dəyişdirərlər. Hətta mənfəətləri baxımından zəruri hesab etsələr, onların ciddi müxalifi mövqeyinə belə gələ bilərlər. Həmçinin daha sonra özlərinə mənfəət əldə edə biləcəkləri başqa mərkəzlər axtarmağa başlayarlar. Çünki kim

güclüdürsə o tərəfə dönən münafiqin tərəfdarlığı, dostluğu, yaxınlığı yalnız saxta, səmimiyyətsiz və riyakar oyundan ibarətdir.

**Adnan Oktar**: **"Əgər düşmənləri güclü deyilsə, onları da tərk edirlər, ayədə bildirilib**. Məsələn, müsəlmanlar, küfr əhlini fikrən əzsə, o zaman müəyyən yolla onlardan da qopurlar. **Güclünün tərəfində olar münafiqlər.** Sonra arsızca möminlərə; "sizinlə birlikdə deyildikmi?" deyirlər. Bu da, məhz dəliliklərinin əks olunmasıdır... . Deyir ki, Allah Münafiqun surəsinin 8-ci ayəsində; **"and olsun"** deyir, and içirlər bir də, **"Mədinəyə qayıtmalı olsaq"**, o şəhərə yenidən gəlməli olsaq, **"gücü və qüruru çox olan"**, baxın kimin tərəfindədirlər görürsünüzmü? Gücü və qüruru çox olan. Məsələn, dünya dərin dövləti və ya hər hansı dinsiz dəstə, lakin güclü görünən, təcavüzkar və müsəlmanlara düşmən olan bir dəstə, məsələn, terrorist bir dəstə. **"Gücü və qüruru çox olan"**, güc deyildikdə hər cür mənəvi və fiziki güc nəzərdə tutulur. **"Və qüruru çox olan"**, yəni cahil qüruru, küfr qüruru. Küfr özündən razıdır. **"Aciz və zəif olanı"**, müsəlmanları necə görür? Aciz və zəif. **"Əlbəttə, oradan çıxardacaq!"**, yəni darmadağın edəcək müsəlmanları deyir. **Onların şüur altında həmişə bir gün müsəlmanlara hücum ediləcəyi və onların darmadağın ediləcəyi fikri vardır. Münafiqlər həmişə bu həsrət içində yaşayarlar.** Buna görə də, həmişə küfr əhli ilə əlaqə saxlayarlar". (A9 TV, 22 yanvar 2016)

## Münafiq, dərin dövlət təşkilatlarını və küfr güc mərkəzlərini, haşa Allahdan daha böyük hesab edər

**Möminləri qoyub kafirləri özlərinə dost tutanlar gücü və əzəməti onlardamı axtarırlar? Halbuki qüvvət və əzəmət tamamilə Allaha məxsusdur. (Nisa surəsi, 139)**

Münafiqlərin ən mühüm xüsusiyyətlərindən biri də, gizli planlar qurub bunları tətbiq etməyə çalışarkən, **"Allahın sonsuz gücünü və bütün varlıqlar üzərindəki hakimiyyətini unutmaları"**dır. Məhz buna görə də, hadisələrin yalnız xarici görünüşünə baxaraq müəyyən mühakimə sahibi olarlar. Dünyadakı tarazlıqlara baxıb analiz aparar və buna əsasən seçimlərini müəyyənləşdirərlər. Güclü bir dəstə vardırsa, bu gücün daimi olacağını zənn edər və onların tərəfində çıxış edərlər. Halbuki Allah Quran ayələrində, **"tarix boyu neçə-neçə güclü cəmiyyətlər, neçə-neçə güclü insanlar yaratdığını; lakin bunların Allahın tək bir əmri ilə kəlləmayallaq aşaraq yox olduğunu"** xatırlatmışdır.

Məhz münafiqlər, içlərindəki dünya həvəsi və ehtirasından ötrü, bu həqiqətləri görə bilməzlər. Dünyadakı tarazlıqlara görə hansı dövlətlər, hansı gizli strukturlar güc sahibi görünürsə, onların tərəfini tutmağın lazım olduğunu düşünərlər. Allah Nisa surəsinin 139-cu ayəsində; **"onlar, möminləri qoyub kafirləri dost (vəli) tutarlar"** deyə bildirmişdir. Həmçinin münafiqlərin **"güc və qüruru"**, **"iman gətirməyənlərin yanında axtardıqlarına"**

diqqət çəkmişdir. Ayədəki **"güc və qürur"** sözləriylə, bu **"dünyanın hakimiyyətinə, dünyaya yön verməyə çalışan dərin dövlətlərə"** də diqqət çəkilmişdir.

**Allah, "güc və qüruru", yəni "özündən razı olmağı, hər kəsdən fərqli və daha etibarlı olmağı", "onların yanındamı axtarırlar?"** deyə bildirmişdir. Çünki ayədə xatırladıldığı kimi; **"şübhəsiz ki, "bütün güc və qürur", Allaha məxsusdur"". Allahın sonsuz gücü yanında, dərin dövlətlərin, dərin strukturların və ya bənzəri gizli təşkilatların heç bir gücü yoxdur.** Zahirə aldanan insanlara hər nə qədər özündən razı, göstərişli və ya güclü görünsələr də, bunların hər biri, **"Allah istəmədən heç nə edə bilməyəcək aciz cəmiyyətlər"**dir. Bu təşkilatların rəhbərləri və ya üzvləri də, küçədə rast gəldiyiniz digər bütün insanlar kimi acizlikləri olan, xəstələnən, yaşlanan və bir gün mütləq öləcək olan, Allahın qorumasına möhtac, adi insanlardır. Lakin **bu həqiqətləri düşünməyən münafiq xarakterli insanlar, onları gözlərində çox böyüdər və bu təşkilatların adlarını belə çəkərkən böyük heyranlıq duyarlar**.

## Dəccali dərin dövlətlər, şeytani hədəflərinə nail olmaq üçün münafiqlərdən istifadə edərlər

**"Münafiq təhlükəsi"** və **"münafiqləri zərərsizləşdirmək üçün aparılacaq fikri mübarizə"**, İslam aləmi üçün ən mühüm məsələlərdən biridir. Tarix boyu, dünyadakı **"bütün dəccali sistemlər, dərin dövlətlər, şeytani təşkilatlar və qeyri-qanuni strukturlar"**, İslam aləmi üzərində oynamaq istədikləri oyunlarda və çirkli hədəflərinə nail ola bilmək üçün **"münafiqlərdən"** istifadə etmişlər. Çünki **münafiq xarakteri, bu çirkli təşkilatların alçaqca oyunlarını və namərdcə tələlərini tətbiq edə bilmələri üçün vacib əhəmiyyət daşıyır. Münafiq, alçaq, xain, namərd, hiyləgər, saxtakar və əclaf xarakterli, psixopat və manyak ruhlu varlıqdır. Dürüstlüyə, yaxşılığa və doğruya müharibə başlatmışdır. Həmçinin üzərində, şeytandan aldığı namərd cəsarət də vardır. Mənfəətlərinə nail olmaqda, qanun tanımaz. Əxlaqsızlıqda tanıdığı heç bir imani, əxlaqi, etik və ya insani hüdud yoxdur. Gözü dönmüşdür. Mənfəət üçün hər cür alçaqlığı etməyə, hər cür pis oyunu oynamağa hazırdır.**

Məhz bu alçaq və şeytani ruhundan ötrü, **dəccali qüvvələr, dərin dövlətlər və qeyri-qanuni təşkilatlar üçün, münafiq, sanki biçilmiş xalat kimidir. Çünki çirkli işlərini gördürmədə ən cəsarətli, həyasız və əxlaqsız xarakteri münafiqlərdə taparlar.** Buna görə də, tarixin başlanğıcından bəri, gəlib-keçmiş bütün şeytani strukturlar münafiqi əldə olunmaz fürsət kimi xarakterizə etmiş və **bütün pis işlərində və şeytani planlarını tətbiq etməkdə, həmişə münafiqlərdən istifadə etmişlər**.

Necə ki, **şeytani strukturların bu tələbi birtərəfli deyil. Münafiq də, öz hiyləgər planları istiqamətində, sığına biləcəyi "küfri qüvvə" tapmaq axtarışındadır.** Qarşısındakı güc, nə qədər böyük strukturdursa və dünya səviyyəsində nə qədər böyük təsirə malikdirsə, münafiq də onu gözündə o qədər böyüdər. Lakin münafiq **"qanuni və dürüst**

**qüvvə" axtarmaz.** Çünki dünyada nə vaxtsa küfrün hakim olacağına inanar. Dolayısilə də, mütləq onların tərəfində iştirak etməli olduğunu düşünər. Buna görə də özü kimi, mənfəətlərinə asan yoldan və hiyləgərliklə, oyunla, intriqa ilə nail olan; alçaqlıqda, namərdlikdə, əclaflıqda hüdud tanımayan **"şeytani bir struktura"** sığınmaq istəyər. Məhz bu iki tərəfli tələb nəticəsində də ortaya, tarix boyu hər dövrdə təsirini göstərmiş **"namərd, alçaq və şeytani ittifaq"** çıxar.

**Dərin dövlətlər, İslam aləmində oynamaq istədikləri hər alçaqca oyunda və hər cür pis işlərində münafiqlərdən istifadə etmiş və onların daxildən verdikləri şeytani dəstək sayəsində, müsəlmanlara qarşı namərdcə tələlər qurmuşlar. Ölkələrin dağılmasında, parçalanıb bölünməsində və ələ keçirilməsində bu şeytani strukturlar həmişə münafiqlərin daxildəki gücündən istifadə etmişlər.** Tarix boyu dövlət liderlərinə tələ qurarkən, siyasətçilərə təzyiq göstərib istiqamətləndirərkən, istədikləri kəsləri vəzifədən götürüb yerinə öz tərəfdarlarını gətirərkən, onlara ən böyük dəstəyi verən, yenə həmişə münafiqlər olmuşdur.

**Adnan Oktar**: "Dünya Dərin Dövləti, İslam aləmindəki münafiqləri tək-tək seçər. Biz necə ki, müsəlmanı anlayıb seçirik, elə deyil? Təqvalı insan, gözəl insan, gözəl əxlaqlı, vicdanlı insan axtarırıq. Dünya Dərin Dövləti də, **"bu millətin içində ən əxlaqsız, ən şərəfsiz, ən murdar, ən üzüqara, qulağı kəsik, hər cür şərəfsizliyə meylli, nə qədər özünü bəyənən, eqoist, psixopat, manyak xarakterli, ruhu qaranlıq İblis vardırsa, gedib araşdırın, bizə xəbər verin"** deyər. Bunları da adamları axtarıb tapar. Onlar onsuz da özünü göstərər, "mən şeytanam" deyə bağırarlar. Çünki onlar da reklama maraqlı olurlar. **"Burada şeytan var, xəbəriniz vardırmı?"** deyə xəbər verər. Hədisdə deyir ki, **"Dəccal şeytanları çağırar"**. Deməli, var, hazır ki, çağırır. "Onlara gedin insanların Rəbbi olduğumu söyləyin deyər" deyir. "Onlar da dünyaya yayılar hər cür pisliyi, məlanəti, pisliyi insanlara söyləyər və yayarlar", yəni müsəlmanların başına bəla olmağa çalışarlar, küfr əhlinə yaltaqlıq edərlər, dəccaliyyəti də dünyaya hakim etmək üçün çalışarlar. Amma təbii ki, bu Dəccaliyyət hz. İbrahim (ə.s) dövründə də var, Firon dövründə də var, hz. Nuh (ə.s) dövründə var; hər dövrdə var. Şeytanlar gedir eyni zamanda Dəccalı tapırlar. Deyirlər ki, şeytanlar Dəccala, **"nə istəyirsənsə söylə edək"**, yəni yaltaqlıq edirlər. Yəni o onları tapmır, eyni zamanda onlar da onu tapırlar, tək tərəfli deyil. O da; **"durmayın gedin, insanlara mənim onların Rəbbi olduğumu söyləyin"** deyib hər birini bir tərəfə göndərəcək, yəni vəzifələndirəcək. Artıq o onun xidmətçisi olur; dərin dövlətin casusu və xidmətçisi olur. Bunu kim söyləyir? Bunu Mədinəli əllamə Məhəmməd İbn Rəsul Əl-Hüseyn Əl-Bərzənci. Kürd əsillidir, böyük alimdir, əsrinin mücəddidi və müctəhididir. "Qiyamət əlamətləri" adlı məşhur əsərində söyləyir. Səhifə 212-213". (A9 TV, 9 fevral 2016)

**...ŞEYTANLAR ONA: "NƏ İSTƏYİRSƏNSƏ SÖYLƏ, EDƏK!" deyəcəklər. O da: "Dayanmayın gedin, insanlara mənim onların Rəbbi olduğumu söyləyin!" deyib HƏR BİRİNİ**

**BİR TƏRƏFƏ GÖNDƏRƏCƏK...** (Allahı tənzih edirik). (Mədinəli Əllamə Muhamməd ibn Rəsul əl-Hüseyni əl-Bərzənci, Kıyamet Alametleri, səh. 212-213)

## Dərin dövlətlər münafiqləri müəyyən etməkdə mütəxəssisdirlər

Dərin dövlətlər, şeytani məqsədlərini həyata keçirməkdə münafiqlərdən **"bir piyada kimi"** istifadə edərkən, özlərini də həmişə gizləmiş, pərdə arxasında gizlətmiş və bəzi hadisələrin tarixə də fərqli şəkildə keçməsini təmin etmişlər.

Hal-hazırda da, dəccaliyyətə liderlik edən dünya dərin dövlətləri, **"tarixdəki bu şeytani ənənəni"** araşdırmışlar. Ən qısa yolla şeytani nəticələr əldə edə bilməyin fironların, nəmrudların üsullarını tətbiq etmək olduğunu görmüş və onların izindən getmişlər. Həmçinin **hər cür çirkli işlərini həll edərkən münafiqlərdən istifadə etməyə başlamışlar.**

Hal-hazırda İslam aləminin müxtəlif əzablar və çətinliklər içində yaşaması da, məhz bu dəccali dərin dövlətlərlə münafiqlərin çirkli əməkdaşlığının bir nəticəsidir. **"İslam aləmini necə nəzarət altına ala bilərik?", "müsəlmanları necə zərərsizləşdirə bilərik?"** deyə düşünən dəccaliyyət qüvvələri, ən təsirli yolun "münafiqləri nəzarət altına almaq və mənfəət təqdim edərək onları istədikləri kimi istiqamətləndirmək" olduğunu görmüşlər. Həmçinin münafiqləri əllərində saxladıqları halda, (Allahın diləməsi xaricində) İslam aləmində asanlıqla çirkli planlarını tətbiq edə biləcəklərini görmüşlər.

Münafiq Allahdan qorxmadığı, alçaq xarakterli, böyüklük, üstünlük, məqam, mövqe, pul və mənfəət arxasınca qaçan, psixopat ruhlu varlıq olduğu üçün, **dərin dövlət mənsubları, münafiqləri asanlıqla müsəlmanların başına bəla olacaq hala gətirməyi bacardılar. Demək olar ki, hər ölkədə, müxtəlif mənfəətlər təqdim edərək əllərində saxlamağı bacardıqları minlərlə münafiqlə, dünya səviyyəsində təsirli, çox böyük şeytani təşkilatlar meydana gətirmişlər.** Bunların bir hissəsi **"müsəlmanları ümidsizliyə sövq edərək"**, bir hissəsi **"müsəlman cəmiyyətlərinin aralarını vuraraq"**, bir hissəsi də **"satqınlıq edib dərin dövlətlərə xəbərçi işləyərək"** qarışıqlıq çıxartmışlar. Bir hissəsi isə **"müsəlmanların malını və mülkünü talan edib onları kasıblaşdıraraq"** və ya **"müharibə və qırğına qızışdıraraq, kütləvi bombardmanları təşkil edib, sel kimi qan axıdılmasını təmin edərək"** İslam aləmində böyük təxribat törətmişlər.

**Lakin müsəlmanlar bütün bu deyilənləri, yaşadıqları mühitdən çox uzaqda baş verən oyunlar kimi görməməlidirlər.** Çünki bəhs edilən dərin dövlət mənsubları, istifadə etdikləri münafiqləri, "həyatın tam içindən"; bütün insanlar yolda gedərkən, məktəbdə, işdə və ya internetdə asanlıqla rastlaşa biləcəkləri kəslər arasından seçərlər. Hər hansı ölkədə bir xəstəxanada çalışan savadlı həkim, hər gün yazıları hər kəs tərəfindən izlənilən tanınmış bir yazıçı, bir çox simpatiyası olan bir müğənni və ya dövlət idarəsində çalışan adi bir məmur, **facebook, twitter, instagram** kimi sosial şəbəkə platformalarında izlənilən **hər hansı bir insan da, bu dərin dünya dövlətlərinin oyuncaqlarından biri ola bilər.** Xalqdan hər hansı biri kimi görünən bu insanlar, bəzən boyunlarına götürdükləri **"agentlik vəzifəsi"**nin tələbi olaraq, xüsusən **"özlərini dindar kəslər kimi tanıdıb"** müsəlmanlar arasında özlərinə yer tutmağa çalışarlar. Bəzən də, onsuz da **müsəlman**

**qruplardan birinin mənsubu olarkən, şeytani qabiliyyətləri ilə dərin dövlət mənsubları tərəfindən görülər və yavaş-yavaş müsəlmanlar əleyhinə hiyləgərcəsinə hərəkətlər edəcək bir agent kimi yetişdirilər.**

Şeytanın, dəccalların və dərin dövlətlərin münafiqlərlə olan bu əməkdaşlığına və əsrlərdir ki, İslam aləmi üzərində oynadıqları oyunlara qarşı, hər müsəlman çox diqqətli olmalıdır. Lakin iman gətirənlər bunu da heç vaxt unutmamalıdırlar ki, **dəccalların və ya dərin dövlətlərin qurduqları bir tələ, oynadıqları bir oyun vardırsa, onların hamısından üstün güc sahibi olan Allahın da bir planı var. Allah, tarixin başlanğıcından bəri taleyi bu plan istiqamətində hərəkət etdirir.** Buna görə də, taleyin hərəkəti qəti və dəqiq şəkildə bəllidir. **Dolayısilə küfr əhlinin bu oyunlarından və tələlərindən narahat olmaq da yersizdir.**

**Şeytan Allahın yaratdığı olduqca gücsüz məxluqdur. Eynilə küfr əhlinin də müstəqil heç bir gücü yoxdur.** Küfr əhlini yaradan və bu şəkildə hərəkət etməsinə icazə verən Allahdır. **Münafiq də Allahın zavallı və aciz quludur. Hər biri, müsəlmanların cənnətdə yüksək məqamlarla mükafatlandırıla bilmələri üçün yaradılan, imtahan mühitinin xüsusi varlıqlarıdır. Heç birini gözdə böyütmək üçün bir dəlil və ya səbəb yoxdur. Gözdə böyüdüləcək və sonsuz böyük olan yalnız Allahdır.** Həmçinin bu imtahan mühiti də Allahın idarəsində mükəmməl şəkildə işləyir. **Allah, nəticədə "qalib gələcək olanların mütləq müsəlmanlar olduğunu" xəbər vermişdir.**

**Adnan Oktar**: "**Dünya səviyyəsində münafiqləri təşkil edən Dünya Dərin Dövlətidir.** Çünki münafiqin heyrətamiz dərəcədə şeytani zəkası var. Bunlar da **münafiqi çox asanlıqla seçib taparlar və onlardan müsəlmanların əleyhinə istifadə edərlər. Hər cür kəşfiyyatda və fitnədə istifadə edilə bilər münafiq... Adam şeytani düşüncədə bir sistem yaradıb. Şeytanlığı müdafiə edir. Kimə müraciət etməlidir? Müsəlmana müraciət etsə olmaz. Axmağa müraciət etsə olmaz. Şeytan kimi adama ehtiyacı olur. Bunun üçün də, dərin dövlətlər şeytan kimi adamları tapmaqda mütəxəssisdirlər. Münafiq tapmaqda mütəxəssisdirlər. Lakin münafiqlərin onsuz da zəncirvarı bir-birlərini tapmaq gücləri var, bu da böyük möcüzədir. Münafiq münafiqi çox rahat tapa bilər...**

**Bunun üçün İngiltərə dərin dövləti, məsələn, Pakistanın münafiqlərini toplayır, Hindistanın münafiqlərini toplayır, lakin zəncirvarı. Məhz bu, şeytanın verdiyi qabiliyyətdir. Yəni bu çətindir əslində, münafiqi müəyyən etmək. Nəhəng ölkədə adam münafiqi çox asanlıqla tapır. Banqladeşdə, məsələn, gedib çox asanlıqla tapır. Misirin bütün münafiqləri İngiltərə dərin dövlətinin əmrindədir. Öz aləmində böyük bir təşkilat yaradır.** Sonra da öz guşəsinə çəkilib viskisini qurtumlayır, zəhərləməyə davam edir. Münafiqlər də it kimi o tərəfdar azğınlığı ilə onlara xidmət edirlər. Məhz münafiq, İslama xidmət etməkdə çox tənbəldir, lakin münafiqliyə xidmət etməkdə hərarətli enerjisi var". (A9 TV, 28 may 2016)

## Münafiqlər Dəccalın və dərin dövlətlərin əsgərləridir

Əvvəlki sətirlərdə qeyd edildiyi kimi, **dərin dövlətlər "hər cür pis, qeyri-qanuni və çirkli işlərində" münafiqlərdən istifadə edərlər.** Bu mənada **"münafiqlər, dərin dövlətlərin ordusunu meydana gətirən əsgərləridir". "Münafiqlərin Ali Baş komandanı da dərin dövlətlərdir".** Onun da ən başında **"şeytan"** vardır. **Dərin dövlətlər münafiqləri, şeytandan aldıqları əmrlər istiqamətində idarə etməklə məsuldurlar.**

Allah bir Quran ayəsində; **"Allahın özlərinə qəzəbləndiyi bir qövmü vəli (dost və müttəfiq) tutanları görmədinmi?..."** (Mücadilə surəsi, 14) sözləriylə, **"münafiqlərin, şeytan və küfr əhli olan bu ittifaqına"** diqqət çəkmişdir. Münafiqlər ayədə bildirildiyi şəkildə, Allahın dininə düşmən olan, bu uğurda mübarizə aparan, İslamı və müsəlmanları dünyadan tamamilə yox etməyi hədəfləyən insanları **"dost və müttəfiq"** hesab etmişlər.

Digər bir ayədə isə Allah; **"və dedilər: "Ey Rəbbimiz, həqiqətən biz ağalarımıza və böyüklərimizə itaət etdik..."** (Əhzab surəsi, 67) sözləriylə, münafiqlərin bu ittifaqlarını və dərin dövlətlərlə olan **"əməkdaşlıqlarını cəhənnəmdə də etiraf edəcəklərini"** xəbər vermişdir. Bu dərin qüvvələrin, özlərinin **"ağaları və böyükləri olduğunu"** və **"onlara itaət etdiklərini"**, yəni güclü gördükləri **"bu şeytan dəstəsindən gələn hər əmr və təlimatı tətbiq etdiklərini"** söyləmişlər. Ayənin davamında isə, **"beləliklə onlar bizi yoldan azdırmış oldular"** sözləriylə, münafiqlərin onlara itaət edərək doğru yoldan azmış olduqları da bildirilmişdir. **Ağaları kimi gördükləri dəccali strukturlar, münafiqlərdən hər cür alçaqlıq, əxlaqsızlıq və casusluq üçün istifadə etmişlər.**

Həmçinin Quranın bir ayəsində Allah; **"şübhəsiz ki, gizli yığıncaqlardakı pıçıldaşmalar, iman gətirənləri zərər vermək üçün təkcə şeytan (məhsulu olan işlər) dəndir..."** (Mücadilə surəsi, 10) sözləriylə, münafiqlərin müsəlmanlara zərər vermək, İslam əleyhinə fəaliyyət göstərmək məqsədiylə **"gizli yığıncaqlar"** təşkil etdiklərinə diqqət çəkmişdir. Ayədə həmçinin bu yığıncaqlardakı **"pıçıldaşmalara"** da toxunulmuşdur. Məhz şeytanın əmrləri istiqamətində hərəkət edən **dəccallar və dərin dövlət mənsubları**, hər cür pis işləri üçün istifadə etdikləri **münafiqlərlə bu gizli yığıncaqlarda bir yerə toplanarlar. Həmçinin aralarındakı pıçıldaşmalarla da münafiqlərə, İslam aləmi və müsəlmanlar əleyhinə edəcəkləri şeytani hərəkətlərin təlimatlarını verərlər.**

**Məhz müsəlmanlar bütün bu həqiqətlərdən və bu şeytani ittifaqdan çox yaxşı xəbərdar olmalıdırlar.** Çünki münafiq təkbaşına hərəkət edən varlıq deyil. Bu həqiqətlərdən xəbərdar olmayan bəzi müsəlmanlar, **"münafiqlərin müstəqil və sayları beş-on nəfəri keçməyən, yalnız özlərinə zərərləri olan kəslər olduqlarını"** düşünə bilərlər. **Lakin əgər dərin dövlətlərin münafiqlər üzərindəki planlarından və onlardan istifadə edərək İslam aləmində və müsəlmanlar arasında oynadıqları oyunlardan xəbərdar olsalar, bu baxış prizmaları dəyişəcək. Şeytanın liderliyindəki bu çirkli strukturun, dünyanın hər tərəfindəki münafiqlərin şeytani gücünü bir yerə toplayaraq, nəticədə böyük dəccali güc əldə etdikləri çox yaxşı bilinməlidir.**

Həmçinin **"münafiqin, adi bir insan deyil; arxasına şeytanı, Dəccalı və dünya dərin dövlətlərini almış, qaranlıq bir strukturun üzvü olan bir varlıq olduğu"** da unudulmamalıdır. Çünki **bu ittifaq ilə, dərin dövlətlərin gücü, eyni zamanda da hər bir münafiqin şəxsi gücü halına gəlmiş olar.** Buna görə də, bir münafiqin üzərindən şeytanın təsirini qaldırıb, onu doğru yola çağırarkən də, bu həqiqətləri dərk edərək çox diqqətli və ağıllı bir fikri mübarizə aparılmalıdır.

Şeytanın liderliyindəki dərin dövlətlər, inkarçılardan və münafiqlərdən istifadə edərək İslama qarşı amansız mübarizə aparır və müsəlman aləmində böyük zülmün liderliyini edirlər. Lakin **bunu heç vaxt unutmamaq lazımdır ki, əsgəri olmayan dərin dövlətin, gücü də olmaz. Əgər İslam aləmində münafiqliyə qarşı Quran əxlaqı ilə təsirli fikri mübarizə aparılsa, şeytan və onun əmrindəki dərin strukturlar əllərindəki bütün əsgərlərini və güclərini itirəcəklər.** Bunun üçünsə **"münafiqliyin nə olduğu"** və **"gündəlik həyatda necə ortaya çıxdığı"** məsələsində müsəlmanların çox yaxşı məlumatlandırılması və hər müsəlmanın, **"bir münafiqi müəyyənləşdirə biləcək vəziyyətə gəlməsi"** əsas şərtdir. **Məhz bu kitabla, münafiqliyin bütün incəlikləriylə ifşa edilib bu məlumatların bütün İslam aləminə çatdırılması, Allahın icazəsi ilə bu gözəl nəticəyə vəsilə olacaq.**

Axirətdə isə bu çirkli şeytani ittifaq, nə vaxtsa mütləq cəhənnəmlə nəticələnəcək və ağaları olan inkarçılar kimi münafiqlər də, etdiklərinin əvəzini əbədi əzab içində yaşayaraq alacaqlar.

## Münafiqlər, şeytan və dərin dövlətlər birləşərək bir "kirli mühit" meydana gətiriblər

Allah bir Quran ayəsində, münafiq qadınlar və münafiq kişilərin axirətdə qarşılaşacaqları əzabı xəbər verərkən, bir **"kirli mühit"**dən bəhs etmişdir:

**Həm də ona görədir ki, Allah Özü barəsində pis fikirdə olan münafiq kişi və münafiq qadınlara, müşrik kişi və müşrik qadınlara əzab versin. Onların pis niyyəti özlərini bəlaya salsın! Allahın onlara qəzəbi tutmuşdur. Allah onları lənətləmiş və onlar üçün Cəhənnəm hazırlamışdır. Ora nə pis dönüş yeridir. (Fəth surəsi, 6)**

Ayədə keçən **"kirli mühit"** ifadəsi **"münafiqlərin, şeytanın əmrindəki dəccallar və onların nəzarətindəki dünya dərin dövlətləri ilə olan ittifaqlarına"** diqqət çəkməsi baxımından çox əhəmiyyətlidir. Belə bir kirli mühitin mövcudluğu, dünyadakı **"pisliyin təkcə bir mərkəzdən təşkil edildiyini"** və **"çox genişmiqyaslı bir struktur olduğunu"** açıqca göstərir. Buna görə bir-birləriylə ittifaq halında hərəkət edən münafiqlərin meydana gətirdiyi bir çevrə var və onun ortasında da dərin dövlətin mənsubları iştirak edir. Ancaq Allah ayənin davamında **"bu kirli mühitin mütləq təpələrinə çöküb yox olacağını"** da xəbər

vermişdir. Yəni küfr əhlinin qabaqcılları və münafiqlərin ortaq şəkildə qurduqları çevrə, yenə öz təpələrinə çökəcək və öz qurduqları tələ həlak olmalarına gətirib çıxardacaq. Allah bu şeytani ittifaqa daxil olanların hamısına qəzəblənmiş, onları lənətləmiş və onlar üçün cəhənnəmi hazırlamışdır.

## Münafiq, müsəlmanlara yalan deyər; küfr əhli arasındakı dostlarını və dərin dövlət adamlarını isə sirdaş tutar

Allah, Quranın; **“Onlar, möminləri qoyub kafirləri dost (vəli) tutarlar...”** (Nisa surəsi, 139) ayəsiylə, münafiq xarakteri haqqında çox mühüm bir məlumat daha verir. Bu insanlar müsəlmanlar arasında yaşadıqları, onlardan həyatlarının hər mərhələsində həmişə sevgi, hörmət, yaxşılıq və mərhəmət gördükləri, qorunduqları halda, yenə də onları həqiqi dostları kimi görməzlər. Müsəlmanlara qarşı həmişə nöqsan axtaran, günahlandıran, böhtan atan, narazı, nankor və şikayətçi rəftar göstərərlər. Münafiqlərin əxlaqından, rəftarından və danışıqlarından, **“dostlarının və etimad etdikləri insanların müsəlmanlar olmadığı”** açıqca aydın olar. Hər halları əsrarəngiz və sirlidir. Şişirdilmiş və süni olan yaxınlıqları isə, daha da şübhə vericidir. İman gətirənlərdən gördükləri yaxşılıqları, bəlkə də həyatları boyu başqa heç kimdən görmədikləri halda, həyatlarındakı demək olar ki, hər şeyi onlardan gizlədərlər.

Müsəlmanlara qarşı rəftarları belə olduğu halda, **iman gətirməyən, Allah sevgisi olmayan, İslamın mənfəətlərini düşünməyən, hətta müsəlmanlara qarşı düşmənçilik bəsləyən kəsləri isə özlərinə daha yaxın hesab edərlər.** Həmçinin onları asanlıqla sirdaş tutarlar. Saatlarla və heç sıxılmadan bu insanlarla boş söhbətlər etmək, dərin dostluqlar qurmaq, onlar arasında yer tutub etimad qazanmağa çalışmaq, münafiq xarakterli insanlara olduqca cəlbedici gələr. **Hətta hərdənbir Allah, Quran, iman və ya müsəlmanlar əleyhinə danışıqlar və ya qiymətləndirmələr etmək də, bu kəslərə şeytani həyəcan verər.**

İman gətirənlərlə birlikdə olarkən belə, gizlin-gizlin və hiyləgər üsullarla bu insanlarla əlaqə yaradar, onlarla vaxt keçirməyin yollarını axtararlar. Müsəlmanlar onlara dünyanın heç bir yerində rast gələ bilməyəcəkləri qədər gözəl əxlaqla yaxınlaşdıqları halda, onlar inkarçıların dostluğunu daha həyəcan verici hesab edərlər. Həmçinin bu insanların gözlərinə girə bilmək, aralarında bir yer tutub etimad qazana bilmək üçün də, yenə müsəlmanlardan istifadə etməyə cəhd edərlər. Özlərinə hər cür gözəlliyi, etimad və sevgi mühitini təqdim edən möminlərdən əldə etdikləri kiçik-böyük hər cür məlumatı, heç tərəddüd etmədən müsəlmanları özlərinə düşmən qəbul etmiş bu insanlarla bölüşərlər. Öz həyatlarına dair şəxsi məlumatlarını da yenə etimad edib müsəlmanlarla bölüşmədikləri halda, bütün bunları sirdaş tutduqları bu yad insanlara söyləməkdə heç bir problem görməzlər.

Allah bir Quran ayəsində münafiqlərin bu alçaqlıqlarını müsəlmanlara; **"onlar, sənin yanına gəlməyən başqa bir camaat üçün qulaq asanlar (xəbər toplayanlar)dır"** sözləriylə xəbər vermişdir:

**Ey Elçi! Qəlbləri iman gətirmədiyi halda ağızları ilə: "İman gətirdik!" – deyən kimsələrdən küfrə can atanlar qoy səni kədərləndirməsin. Həm yəhudilərdən yalana həvəslə qulaq asanlar, həm də sənin yanına gəlməyən başqa bir camaata həvəslə qulaq asanlar vardır... (Maidə surəsi, 41)**

Ayədə münafiq xarakterli insanların, **"ağızlarıyla iman gətirdik deyən, lakin əslində qəlblərində belə inanc olmayan kəslər"** olduqları bildirilmişdir. Həmçinin bunların, **"müsəlmanlardan olmayan insanlara söyləyə bilmək üçün, iman gətirənlər arasından gizlicə məlumat və xəbər toplayan"** kəslər olduqları da xəbər verilmişdir. Münafiqlər bu xəbərləri, müsəlmanların əleyhinə hərəkət edən insanlara çatdırdıqları zaman, verdikləri məlumatlar sayəsində onların dostluqlarını və etimadlarını qazanacaqlarını ümid edərlər. Böyük həyəcan və heyranlıq yaradacaqlarını və beləliklə də onlar arasında yaxşı yer tuta biləcəklərini zənn edərlər.

Halbuki xəyalları heç vaxt həyata keçməz. Çünki iman əsasında yaradılmayan, mənfəət əlaqəsinə əsaslanan əlaqələr aldadıcı və müvəqqətidir. Məhz **münafiqlər də** bunu bildiklərindən, həmişə bu həyəcanı davam etdirə bilməyin yollarını axtararlar. **Həmişə yeni məlumatları, gizli sirləri əldə edə bilmək və bunları həqiqi dostları qəbul etdikləri inkarçılara çatdıra bilməyə çalışarlar.**

Bu çox açıq bir həqiqətdir ki, qəlbində həqiqi imanı və Allah sevgisini yaşayan bir insan, imandan uzaq insanlarla dostluqdan, onlarla saatlarla boş söhbətlər etməkdən heç vaxt səmimi zövq ala bilməz. Müsəlmanların həyatını təhlükə altına salacaq, onlara zərər verəcək, təhlükəsizliklərinə xələl gətirəcək məlumatlar ötürməsi isə heç vaxt mümkün olmaz. Əksinə iman gətirən biri, Allahın xatırlanmadığı, boş sözlərin danışıldığı, İslam və müsəlmanlar əleyhinə söhbətlərin edildiyi bir mühitdə olmağı heç vaxt qəbul etməz. Müsəlmanların təhlükəsizliyini və rahatlığını təmin etmək üçün də fədakarca səy göstərər. Bu istiqamətdə zərər verəcək ən kiçik rəftara yanaşmaz. Dolayısilə **münafiq xarakterli insanların, imandan uzaq kəslərə duyduqları bu maraq, heyranlıq və bağlılıq, onların etibarsız və ikiüzlü şəxsiyyətlərinin başa düşülməsində çox mühüm dəlil meydana gətirər.**

# Münafiqin qaranlıq dünyası

## Münafiqin ağlı, küfr əhli arasındakı keçmiş həyatındadır və o həyata böyük həsrət duyar

Allah Quranda hz. Musa (ə.s) və qövmünün yaşadıqları bəzi hadisələri nəql edərək, bu hadisələrdəki hikmətləri görüb düşünməyimizi istəmişdir. Məhz hz. Musa (ə.s) hekayəsindəki nümunələrdən biri belədir:

Hz. Musa (ə.s) İsrail oğullarına peyğəmbər kimi göndərildiyi dövrdə, İsrail oğulları, Fironun rəhbərliyindəki Misir torpaqlarında yaşayırdı. Misirlilər İsrail oğullarından kölə kimi istifadə edir və onları işgəncəylə təzyiq altında saxlayırdılar. Hz. Musa (ə.s), Fironun zalım tətbiqləri, təzyiq və işgəncələri altında əzilən İsrail oğullarını yaşadıqları bu zülmdən xilas etdi və onları Fironun torpaqlarından çıxartdı.

Allah hz. Musa (ə.s)-ı bir xilaskar kimi göndərməklə İsrail oğullarına çox böyük lütf etmişdir. Hz. Musa (ə.s), Firona qarşı mübarizə apararaq onları uzun illərdir ki, uğradıqları zülmdən xilas etmişdir. Lakin İsrail oğulları Allahın bu nemətinə; zülmdən, köləlikdən və işgəncədən xilas olduqlarına şükür edib sevinməli olduqları halda, hz. Musa (ə.s)-a qarşı; **"sən bizə gəlməmişdən əvvəl də, gəldikdən sonra da əziyyətə düçar edildik!"** kimi nankorca bir ifadə işlətmişlər:

**Onlar dedilər: "Sən bizə peyğəmbər gəlməzdən əvvəl də, sənin gəlişindən sonra da bizə əziyyət verildi". Musa dedi: "Ola bilsin ki, Rəbbiniz düşməninizi məhv edib sizi yer üzünün varisləri təyin etsin, sonra da necə hərəkət edəcəyinizə baxsın". (Əraf surəsi, 129)**

Buna baxmayaraq, hz. Musa (ə.s) qövmünə; **"gəlin sizi Fironun zülmündən qurtarım", "sizi azad şəkildə yaşayacağınız, Allahın vəd etdiyi torpaqlara aparım", "burada sizi əzirlər, alçaldırlar, orada rahat olarsınız"** dedi. Fironun zülmündən xilas olmaq istəyən İsrail oğulları, hz. Musa (ə.s)-ın bu təklifini qəbul edib onunla birlikdə yola düşdülər.

O dövrdə İsrail oğulları, tərk etdikləri torpaqlarda həmişə zülm və işgəncə altında yaşadıqları halda, yenə də əvvəlki əziyyət dolu həyatlarının həsrətini çəkirdilər. Buna görə də, hz. Musa (ə.s)-a; **"biz orada qoyduğumuz mədəniyyəti, keyfiyyət anlayışını, oradakı yemək mədəniyyətini; bir sözlə, oradakı həyatı istəyirik. Biz burada səhrada bunları tapa bilmirik. Keçmiş həyatımızı özlədik. Kölə olsaq da, alçaldılsaq da, biz o mədəniyyətə, Fironun orada təqdim etdiyi həyata geri qayıtmaq istəyirik"** dedilər.

İsrail oğullarının, Firon kimi zalım bir insanın zülm və işgəncələrindən xilas olduqlarına sevinməli olduqları, ağılları onun təqdim etdiyi həyat tərzində qalmışdır. **"Fironun keyfiyyət və zənginlik anlayışı, Misir mədəniyyətinin ehtişamı xeyli yaxşı idi, indi**

**isə biz səhrada qalırıq"** deyərək hallarından gileylənmiş və Fironun yanına geri qayıtmaq istədiklərini dilə gətirmişlər. Halbuki əgər səmimi iman gətirmiş insanlar olsaydılar, harada və hansı şərtlər altında olsalar da, məqsədləri Allah üçün yaşamaq olardı. Allahın özlərinə verdiyi hər cür nemətə şükür edib yaşayardılar. Lakin səmimi iman gətirmədikləri üçün, Fironun zalım sistemi altında əziyyət görmək bahasına belə olsa, ağılları Fironun yanındakı göstərişli həyatda və istifadə etməyi ümid etdikləri imkanlarda qalmışdır.

Məhz Allah hz. Musa (ə.s) qövmündəki bu nümunələrlə bizə hər dövrdə, **"münafiq xarakterli insanların küfr əhlinə heyranlıq duyduqlarını"** xəbər vermişdir. İman gətirənlərlə birlikdə olub Allahın özlərinə bəxş etdiyi nemətlərə sevinmək əvəzinə, küfr edən insanlar kimi yaşamaq, onların əhəmiyyət verdiyi əşyalara sahibi olmaq, onlar kimi danışmaq, onlar kimi yeyib içmək istədiklərini; onların göstəriş etdikləri şeylərlə göstəriş edə bilməyi arzuladıqlarını bildirmişdir. Əlbəttə ki, müasirliyin, mədəniyyətin və ehtişamın olduğu bir mühit, hər insanın zövq ala biləcəyi gözəlliklərdir. **Lakin hz. Musa (ə.s)-ın qövmü, sırf bu imkanlar üçün, haqq dini tərk edib Peyğəmbər (ə.s)-ın yanından ayrılmağı seçmiş və Fironun ən dözülməz işgəncələri altında yaşamağı belə cəlbedici görmüşlər.** Allah Quranda Musa qövmünün bu rəftarını bizə belə bildirmişdir:

**O zaman Musa öz xalqı üçün su istədikdə, Biz: "Əsanla daşa vur!" - dedik. Daşdan on iki çeşmə qaynayıb çıxdı. Hər qəbilə su içəcəyi yeri tanıdı. Onlara dedik: "Allahın sizə verdiyi ruzidən yeyin-için və yer üzündə fəsad yayıb pis işlərə qurşanmayın!" Onda siz dediniz: "Ey Musa! Biz eyni cür yeməklərə dözməyəcəyik. Ona görə də bizim üçün Rəbbinə bizə yerin bitirdiklərindən - tərəvəzindən, xiyarından, sarımsağından, mərciməyindən və soğanından yetirməsi üçün dua et!" O dedi: "Siz xeyirli olan şeylərin daha dəyərsiz şeylərlə əvəz olunmasınımı istəyirsiniz? Şəhərə girin! Şübhəsiz ki, orada istədiyinizi taparsınız!" Onlara zəlillik və düşgünlük üz verdi və onlar Allahın qəzəbinə düçar oldular. Bu cəza ona görə idi ki, onlar Allahın ayələrini inkar edirdilər və bəzi peyğəmbərləri haqsız yerə öldürürdülər. Bu həm də onların asi olduqlarına və həddi aşdıqlarına görə idi. (Bəqərə surəsi, 60-61)**

Ayələrdə bildirildiyi kimi, Allah hz. Musa (ə.s) ilə birlikdə Misirdən çıxan İsrail oğullarına lütfündən bəxş edib onlara çeşmələr və yeməklər bəxş etmişdir. Lakin bütün bu gözəlliklərə şükür etməli olduqları halda, onlar; **"ey Musa, biz bir növ yeməyə dözməyəcəyik, Rəbbinə yalvar ki, bizim üçün yerin bitirdiklərindən paxla, acur, sarımsaq, mərcimək və soğan çıxartsın"** deyiblər. Təbii ki, **"sarımsaq, soğan, acur, mərcimək"** deyərkən, təkcə bu yeməklərin özlərinə heyranlıq duymurdular. O dövrdə Firon camaatının bu yeməkləri ənənəvi bişirmə forması vardı və onlar da, əslində bu göstərişə böyük heyranlıq və həsrət duyurdular.

Bunun kimi yenə Firon cəmiyyətində mühüm bir göstəriş vəsiləsi olan **"qızıl buzov heykəli"**, onun ehtişamı və göstərişi də onları çox valeh edirdi. Oradakı **"ədabaz sistem"**

çox xoşlarına gəlirdi. Eynilə onların danışdıqları dilə qarşı da böyük heyranlıq duyurdular. Normalda öz dilləri ivrit dili idi, lakin **Fironun işlətdiyi dili daha göstərişli hesab edir və onlar da bu dili işlədərək, öz aləmlərində eyni şəkildə göstərişli olmaq istəyirdilər.**

Buna görə də, Firon sisteminin zülmü altında yaşamaq bahasına, ölümü belə gözə alır, bu sistemin göstərişli, ehtişamlı mühitindən istifadə etməyi arzulayırdılar. Bu küfri sistemə duyduqları heyranlıq, şüurların altından çıxmırdı. Hz. Musa (ə.s) onlara doğrunu nə qədər söyləsə də, ağılları həmişə Firon sistemində qaldığı üçün heç cür razı olmur, eləcə də, gizli və ya açıq şəkildə əvvəlki həyatlarına duyduqları həsrəti dilə gətirirdilər.

**Əlbəttə ki, İsrail oğullarının bu sözləri və heyranlıqları təkcə onlara məxsus olan bir düşüncəni əks etdirmir. Allah burada bizə, tanımalı olduğumuz mühüm bir insan xarakterini tanıdır.** Tarixin hər dövründə, imanı tam mənimsəməyən insanlarda bu xarakter həmişə ortaya çıxmışdır. Hal-hazırda da, bu baxış prizması münafiq xarakterinin mühüm xüsusiyyəti olaraq diqqət çəkər.

Həqiqətən də müsəlmanlar arasında olub da, hələ də imandan əvvəlki keçmiş həyatlarının həsrətini çəkən insanlara rast gələrik. Həmçinin tarix boyu hər müsəlman cəmiyyətdə belə insanlar olmuşdur. Əslində bu insanlar, müsəlmanlarla birlikdə olduqdan sonra, imansız insanlarınkı ilə müqayisə edilməyəcək qədər gözəl həyat yaşamağa başlayarlar. Bundan əvvəl, Allah qorxusu olmayan insanlarla birlikdə olduqları üçün, ətrafındakı insanlardan hər cür pisliyi görmüş, hər cür mənfəət əlaqəsinə, səmimiyyətsizliklərə, yalanlara, ikiüzlülüklərə, mərhəmətsizliyə, hörmət və sevgi çatışmazlığına şahid olublar. Bu iki həyat arasındakı dəhşətli ziddiyyəti açıqca görürlər. Birində sevginin, hörmətin, gözəl əxlaqın, dostluğun, etimadın, səmimiyyətin ən gözəl halı yaşandığı halda; digərində isə yalnız əzab, sıxıntı, bədbəxtlik və zülm vardır. Bu aydın həqiqətə baxmayaraq, bu insanların hələ də müsəlmanlardan əvvəl yaşadıqları həyatlarına heyranlıq və həsrət duymaları, yalnız qəlblərindəki küfr əhlinə olan sevgilərindən ötrüdür.

Yenidən imansız insanlarla yaşamalı olsalar, yenə bədbəxt olacaqlarını, yenə alçaldılacaqlarını, heç dəyər görməyəcəklərini, mənfəət üçün istifadə olunacaqlarını bildikləri halda, yenə də bu alçaldılmağa geri qayıtmağı daha gözəl görərlər. Həmişə **"o mühitlərdə o insanlarla birlikdə olsalar, həyatları necə olardı?"** bunun xəyallarını və planlarını qurarlar. **"Yaxşı, bəlkə burada müsəlmanlar bir-birlərini qoruyur, bir-birlərinə kömək edirlər, lakin küfr əhli ilə birlikdə olsaydım, məni daha çox qoruyardılar, daha çox sevərdilər, mənə qarşı çox hörmətkar və çox gözəl davranardılar"** kimi həqiqətdən kənar düşüncələrlə özlərini aldadarlar.

Halbuki bu çox böyük yanılmadır və bu həqiqəti əslində özləri də çox yaxşı bilirlər. Çünki **iman gətirməyən insanların bütün həyatları, insanlarla olan bütün əlaqələri mənfəət üzərinə qurulub.** Dolayısilə imanın olmadığı bir mühitdə heç bir insan, ciddi mənfəət təqdim edilmədiyi müddətcə, heç vaxt əbəs yerə başqasına hər hansı gözəllik təqdim etməz. Əgər Allah qorxusu və imanı olmayan bir insan, səbəbsiz yerə başqasına

yaxınlaşırsa, deməli, zehnində mütləq **“incə bir mənfəət planı”** var. Ya bu insandan maddi mənfəət təmin etməyi ümid edir, ya da bu insandan fiziki mənada istifadə edə bilməyi planlaşdırır. Ya bu insanın ətrafında çatmağı ümid etdiyi bəziləri var, ya da ailəsindən əldə etməyi ümid etdiyi mənfəətlər var. Bu mövzuda əks ehtimal heç vaxt mümkün deyil. Onsuz da bu insan, həmin insana qarşılıqsız, tərtəmiz, saf və yaxşı niyyətli düşüncələrlə yaxınlaşırsa, onun kimi qarşısına çıxan hər insana kömək əlini uzadan əxlaq göstərməlidir. Küçədə gördüyü bir dilənçini də götürüb ən yaxşı şəraitdə yaşadar, kimsəsiz bir uşağa da əlində, ovcunda olan maddi-mənəvi hər imkanı təqdim edər. Lakin aydındır ki, ortada belə vəziyyət yoxdur. Bu da bu insanın, yalnız mənfəət üçün yaxınlaşdığının sübutudur.

Bütün bunlar bir insanın küfr əhlinin əsil üzünü anlaması üçün kafi nümunələrdir. Lakin münafiq, küfr əhlinə olan heyranlığından və yenidən o həyatı yaşamağa duyduğu həsrətdən ötrü bu həqiqətləri anlamazlıqdan gələr. Bunun əvəzində də, həyatı sevgisizlik, bədbəxtlik və narahatlıq içində, alçaldılmaqla keçər.

**Adnan Oktar**: “Münafiqlər ilk fürsətdə əvvəlki inanclarına, əvvəlki həyatlarına qayıdırlar. Beynində həmişə o olur, heç cür getmir. Müsəlman olduqdan sonra, əvvəlki əxlaqsızlığı, əvvəlki macəraçılığı, əvvəlki fırıldaqçılığı, əvvəlki oğurluğu, əvvəlki şərəfsizliyi, əvvəlki namussuzluğu, əvvəlki fahişəliyi, hər nə varsa ona geri qayıtmaq istəyir. Məsələn, hz. Musa (ə.s)-ın yanındakılar da, Musa peyğəmbər (ə.s) aralarından ayrılan kimi, o mədəniyyətə geri qayıtmaq arzusuyla dərhal buzov heykəli düzəldirlər. Keçmiş Misir dininə qayıtmaq istəyindədirlər; **“Misirdəki yeməkləri özlədik, o həyatı özlədik, o mühiti özlədik”** deyirlər. Halbuki orada əzilirlər, qamçıyla işlədilirlər, alçaldılırlar. Kölgədə təxminən əlli dərəcə temperaturda işlədilirlər; hələ də belədir Misirdə. Urga verirlər, məsələn; on santimetr diametrində yağlı kəndir, tutur onu. Əlli tonluq, atmış tonluq qayalar. Yağlı odunların üstündə sürüşdürərək onları kürəklərində çəkirlər və çəkə bilməsələr ağlasığmaz şəkildə qamçılanırlar. Axşamları da bunlara müəyyən ödəniş verilir işləri bitdikdə. Onunla da gedib sarımsaqlı, soğanlı, qarışıq Misir yeməkləri, kələmlə və o cür ləvazimatlarla hazırlanmış Misir yeməkləri var onları yeyirlər. Özlərini alçaldırlar. **“Bu alçaq olan şeyə mi qibtə edirsiniz?”** deyir həzrəti Musa (ə.s). **“Sırf bunun üçünmü bunu edirsiniz?”** deyir.

Qəribə şəxsiyyətsizdirlər münafiqlər. O həyatını unuda bilmir, axırda yenə eyni nöqtəyə gəlir. Münafiqin ağlı həmişə küfr əhlindədir. Keçmiş həyatında. Misirdə **“öküz”**, yəni **“Bəqərə heykəlləri”**, arxasından və önündən boşluq qoyularaq düzəldilir; ağzından və arxa hissəsindən. Külək toxunduqda da bu buzov heykəlləri **“böyürmək səsi kimi”** səs çıxardırlar. Təbii ki güclü küləkdə, normal küləkdə deyil. Xüsusi olaraq düzəldilir, lakin sırf qibtə etdiklərinə görə. Münafiqlər sırf o mədəniyyəti, o fəlsəfəni yaşamaq üçün istəyirlər. **Buzov heykəli, yəni öküz heykəli “sərvəti əlində saxlamağın simvolu idi” o zamanlar yəni zənginlik əlaməti idi.** Prospekt və meydanlarda həmişə öküz heykəli

dikilmişdi. Bunun üçün küfr əhli belə şeylərə çox maraq göstərir. Fironun sarayına çıxan yol da, hər iki tərəfi eyni şəkildə buzov, yəni öküz heykəlləriylə dolu idi. Məhz Quranın ən uzun surəsi olan Bəqərə surəsi **"öküz-inək"** mənasını verər". (A9 TV, 25 yanvar 2016)

## Münafiq, müsəlmanların arasında olarkən gizlincə öz tərəfdaşlarıyla xəbərləşər

Münafiqin iman gətirmədiyi halda müsəlmanlar arasında qalmasının bir səbəbi də, **"aldığı məlumatları küfr əhlindəki dostlarına ötürərək onlara iman gətirənlər əleyhinə dəstək vermək istəməsi"**dir. Kiçik-böyük, əhəmiyyətli-əhəmiyyətsiz əldə etdiyi hər cür məlumatı əlaqədə olduğu digər münafiqlərə və inkarçılara ötürdüyü zaman, onlar arasında etimad və nüfuz qazanacağına inanar. Onlarda; **"məlumat toplayan, həlledici mövqedə olan, mühüm bir şəxs"** təəssüratını yaratdığı zaman, **"küfr əhlinin özünə heyranlıq duyacağını"** və əvəzində də **"özünə mühüm mənfəətlər təmin edəcəklərini"** düşünər. Bu məqsədlə müsəlmanlar arasında əlindən gəldiyi qədər mühüm məlumatlara çatmağa və bunlardan onların əleyhinə istifadə etməyə çalışar.

**Lakin müsəlmanlar Allah qorxusu olan, dürüst, vicdanlı və tərtəmiz həyat yaşayan insanlar olduqları üçün münafiqlərin bu cür əleyhinə məlumat axtarışları həmişə uğursuzluqla nəticələnər.** İman gətirənlər həyatları boyu insanların yaxşılığı və nicat tapması üçün səy göstərən, hər cür pislikdən çəkinən, qarışqanı belə incitməkdən çəkinən, yaşadıqları hər cəmiyyətə xeyir və bərəkət gətirən kəslərdir. İnancları, fikirləri, fəaliyyətləri və həyatları olduqca şəffafdır. Dolayısilə bu vəziyyətdə münafiqin edə bildiyi yeganə şey, çox şişirdərək, müsəlmanlar haqqında böhtana əsaslanan xəyali ssenarilər yaratmaq və küfr əhlindəki dostlarına yalan xəbərlər ötürmək olar.

Allah bir Quran ayəsində, müsəlmanlar arasında olan münafiqlərin **"küfr əhlinə xəbər daşıdıqlarını"** belə bildirmişdir:

**Sizinlə birlikdə çıxsaydılar, sizə təkcə "pislik və zərər" verər və aranıza mütləq fitnə salmaq üçün səy göstərərdilər. Aranızda onlara xəbər daşıyanlar var. Allah zalımları tanıyır. (Tövbə surəsi, 47)**

Digər bir Quran ayəsində isə Allah; **"...həqiqətən, şeytanlar sizinlə mübarizə aparmaları üçün öz dostlarına gizli təlqinlər edərlər..."** (Ənam surəsi, 121) sözləriylə, münafiqlərin küfr əhlinə xəbər daşımalarının tək səbəbinin mənfəət əldə etmək olmadığını bildirmişdir. Ayədə **"sizinlə mübarizə aparmaları üçün"** ifadəsiylə vurğulandığı kimi, münafiqlərin müsəlmanların yanında olma məqsədləri, şeytanın, Allaha və dinə qarşı apardığı mübarizədə şeytanın ordusu olan **"inkarçılara arxa çıxmaq, onlara dəstək verərək gücləndirmək istəmələri"**dir. Necə ki, münafiqlərin ən böyük hədəflərindən biri,

müsəlmanların icra etdiyi xeyirli fəaliyyətləri dayandıraraq İslam əxlaqının yer üzünə yayılmasına əngəl törətməkdir. Bunu həyata keçirə biləcək qüvvənin isə inkarçılar və özləri kimi münafiqlik edən tərəfdarları olduğunu düşünərlər. Buna görə də, müsəlmanlar arasında bilərəkdən vaxt keçirər və bu müddət ərzində inkarçılar və münafiq dostlarıyla ünsiyyət halında olarlar.

Allah; **"...həqiqətən, şeytanlar sizinlə mübarizə aparmaları üçün öz dostlarına gizli təlqinlər edərlər..."** (Ənam surəsi, 121) ayəsiylə, münafiqlərin bu alçaqlığına bir daha diqqət çəkmiş və **"bu ikiüzlü insanların inkarçılarla və özləri kimi olan digər münafiqlərlə gizlincə xəbərləşdiklərini"** xəbər vermişdir.

Məhz səmimi iman gətirməyən və müsəlmanlara qarşı qəlblərində kin və qəzəb bəsləyən münafiqlərin, israrla müsəlmanların yanında qalmağa çalışmalarının ən mühüm səbəblərindən biri budur. Müsəlmanlara qarşı apardıqları mübarizələrində inkarçılara, dərin dövlətlərə və gizli strukturlara kömək edərək İslama irimiqyaslı zərər verə bilməyi ümid edərlər.

## Münafiq, maqnit kimi dünyanın hər yerindəki münafiqləri tapmaq məsələsində çox bacarıqlıdır

**Necə ki, şeytan öz əxlaqındakı insanlara asanlıqla yanaşa bilirsə, münafiq də eyni şəkildə, özü kimi münafiq ruhlu insanları heç çətinlik çəkmədən tapar və onlarla dərhal yaxınlaşar.** Şeytanın öz dostlarını dərhal tanıyıb tapması kimi, münafiq xarakterli insanlar da sanki maqnit kimi bir-birlərini cəzb edərlər. Hamısı birlikdə eyni şeytani xarakteri və alçaq ruhu daşıdıqları üçün, bir-birlərini müəyyən edib anlamaqda heç çətinlik çəkməzlər.

Əgər münafiqin bu oyunu pozulsa və mənfəət üçün yaxınlaşdığı digər münafiqlər fikrən gücsüz vəziyyətə gətirilsə; o zaman münafiq dərhal özünə mənfəət təqdim edəcək yeni münafiq mərkəzləri axtarmağa başlayar. Müsəlmanlar onu hər dəfə çirkin içindən çıxardıqları zaman və ona hər dəfə doğrunu göstərdikləri zaman, münafiq imtina etmək əvəzinə, özünə yeni münafiq dəstəsi tapmağa üz tutar. Hər dəfə ifşa olduqda, hər oyunu hər dəfə pozulduqda, yolunu və üsulunu dəyişdirərək, digər bir hiyləgər üsulla bu münafiq xarakterli əlaqələri qurmağa davam edər.

**Buna görə də, münafiqin dəstək aldığı səmimiyyətsiz mərkəzlərin ifşa edilməsi və şeytanın ona yaxınlaşa biləcəyi bütün yolların ağıllı şəkildə bağlanılması çox əhəmiyyətlidir.** Çünki münafiq həmişə yeni bir yol axtaracaq, bir yolu bağlansa başqa bir yol axtarmağa başlayacaq. Lakin **əgər şeytanın oyunları Quran əxlaqının tələb etdiyi şəkildə qətiyyətlə pozulsa, münafiq artıq oyun oynaya bilməyəcək hala gələr.** İfşa olan və hər dəfə oyunları pozulan münafiq bir nöqtədə seçimini etmək məcburiyyətində qalar. Ya imanı seçərək müsəlmanlarla birlikdə dürüst həyat yaşamağı qəbul edər, ya da

oyunlarının pozulmasından və şeytani hədəflərinə çata bilməməkdən usanaraq inkarçılardan yana olduğunu açıqca göstərər.

## Münafiq, hiyləgərcəsinə həmişə müsəlmanların əleyhinə çalışar

Münafiq həyatı boyu həmişə müsəlmanların əleyhinə çalışar. **Günün 24 saatı ərzində nə cür şeytani əməl edəcəyini düşünər. Səhər oyandıqdan axşam yatana qədər səmimiyyətsizlik, hiyləgərlik və xainlik arxasınca qaçar.** Gizlin-gizlin müsəlmanları əldən salmaq, güclərini yox etmək və onları narahat etmək üçün edə biləcəyinin ən çoxunu etməyə çalışar. Lakin bu planlarını açıq şəkildə istədiyi kimi həyata keçirə bilmədiyi üçün, təkcə hiyləgərcəsinə gücünün çatdığı qədər hərəkət edər. Yoxsa münafiq çox **"alçaq xarakterli və şirret"** varlıqdır. Əlinə imkan keçsə və ya kiçik də olsa bir fürsət tapsa, müsəlmanlara zərər verə biləcək hər cür pis işin içinə girər. Onların əleyhinə olan hər yola müraciət edər. Hər dəfə imkan tapdıqda müsəlmanların düşmənləriylə ittifaq qurar, casusluq edər və onlara məlumat daşıyar. Öz aləmində müsəlmanlara zərər verəcəyini düşündüyü hər cür fəaliyyəti göstərmək istəyər.

Allah bir Quran ayəsində **"münafiqlərin əsil məqsədlərinin müsəlmanların əleyhinə fəaliyyət yürütmək olduğunu"** belə xəbər vermişdir:

**Müsəlmanlara zərər vurmaq, küfr etmək, möminlərin arasına təfriqə salmaq məqsədilə, əvvəlcədən Allaha və Onun Elçisinə qarşı müharibə edən kimsəni gözləmək üçün məscid tikənlər, əlbəttə: "Biz yaxşılıqdan başqa bir şey istəmədik" - deyə and içəcəklər. Allah şahiddir ki, onlar yalançıdırlar. (Tövbə surəsi, 107)**

Allah bu ayədə münafiqin **"zərər vermək"** və **"inkarı gücləndirmək"** məqsədiylə hərəkət etdiyini bildirmişdir. Zərər verməyin forması isə, münafiqin əlindəki imkanlara əsasən dəyişər. Əgər gücü çatsa ola biləcək ən çox maddi və mənəvi zərəri vermək istəyər. Lakin buna imkan tapa bilmədiyi zaman da, çox kiçik dozalarda belə olsa mütləq müsəlmanların əleyhinə nə isə  etməyə çalışar. Bəzən **"yalan danışaraq, böhtan ataraq, davakar, təcavüzkar, ədabaz və həyasız üslubla danışaraq"**, bəzən **"eqoistlik və ya tənbəllik edərək"**, bəzən də **"boş işlərlə müsəlmanları məşğul edib vaxtlarını alaraq, onları yuxusuz buraxıb, yormağa çalışaraq"** narahatçılıq çıxartmağa və müsəlmanları narahat etməyə cəhd edər.

Ayənin davamında xəbər verilən münafiqin müsəlmanlar əleyhinə digər bir səyi də **"inkarı gücləndirmək"**dir. Münafiq əlindən gəldiyi qədər **"İslama zərər verə bilmək, müsəlmanları gücsüz hala gətirə bilmək, dinsizliyi, səmimiyyətsizliyi, küfr əxlaqını yaya bilmək"** istəyər. İslam əleyhinə təsirli olacağını düşündüyü hər cür təşəbbüs və fəaliyyəti

dəstəkləyər. Küfrün güclənməsi üçün müsəlmanlardan məlumat toplayıb inkarçılara ötürər. Dinsiz ideologiyaların güclənməsi üçün gizlincə fəaliyyət göstərər. Müsəlmanların Quran əxlaqını dünyada hakim edə bilmək üçün gördükləri işlərin təsirini yox etmək, onları müvəffəqiyyətsizliyə düçar etmək üçün müxtəlif oyunlar oynayar və tələlər qurar.

Ayədə bildirilən, münafiqin müsəlmanlar əleyhinə apardığı digər bir fəaliyyət də, **"müsəlmanların arasını ayırmaq"**dır. Müxtəlif **"yalan, böhtan və oyunlarla müsəlmanların arasını vurmağa çalışmaq, anlaşmazlığa düşmələrini təmin etmək, bir-birləriylə görüşmələrinə, yaxın dostluqlar qurmalarına əngəl törətməyə çalışmaq"** da yenə münafiqin müsəlmanlar əleyhinə oynadığı oyunlardandır.

Münafiqin bu məsələdəki digər hücumu isə **"daha əvvəl Allaha və Onun Elçisinə qarşı vuruşanları gözətləmək"**dir. Münafiq öz aləmində müsəlmanlara zərər verə bilmək üçün, daha əvvəl müsəlmanlara qarşı hər kim mübarizə apardısa gedib onları tapar və onlarla yaxın əlaqə yaradar. **Məsələn, bir yerdə bir münafiq qrup vardırsa və ya inkarçılardan müsəlmanları hədəf almış bir dəstə vardırsa, münafiq dərhal onlarla dialoq yaradıb onları iman gətirənlər əleyhinə daha da qızışdırmaq istəyər.**

Münafiqin müsəlmanlar əleyhinə göstərdiyi bu cür xain fəaliyyətlərin həddi-hüdudu və ucu-bucağı yoxdur. Şərtlərə və imkanlara görə, həmişə yeni hiyləgərliklər tapar, saxtakarca üsullar meydana gətirər. Lakin buna baxmayaraq, münafiqlər; **"biz yaxşılıqdan başqa heç nə istəmədik"** deyərək guya **"nə qədər təmiz insanlar olduqlarına dair"** and içərlər. Özlərini hər zaman yalnız yaxşılıq arxasınca qaçan, ağıllı, dürüst, yaxşı niyyətli insanlar kimi tanıtmağa çalışarlar. Lakin əslində həmişə şeytani əməl və pislik arxasınca qaçarlar və bu sözləri də yalandır. Necə ki, Allah ayənin sonunda; **"Allah onların, şübhəsiz ki, yalançı olduqlarına şahidlik edir"** sözləriylə münafiqin bu alçaq xarakterini xəbər vermişdir.

Lakin Allah Quranda; **"Allah kafirlərə möminlərin əleyhinə nə isə etmələrinə qətiyyən imkan verməz"** (Nisa surəsi, 141) buyurmuşdur. Məhz buna görə də, **münafiq də küfr əhli olan ittifaqından, Allahın bu ayəsinin tələbi olaraq, hər nə etsə də, istədiyi müvəffəqiyyəti heç vaxt əldə edə bilməz.** Allah müsəlmanların mütləq üstün gələcəyini Quranda belə xəbər vermişdir:

**And olsun, göndərilən bəndələrimiz haqqında (bu) sözümüz keçmişdir: "Həqiqətən onlar, mütləq nüsrət (kömək və zəfər) tapacaqlar. Həmçinin, şübhəsiz; Bizim ordularımız, üstün gələcək olanlar onlardır. (Saffat surəsi, 171-173)**

# Münafiqin özünü küfr əhlinə bəyəndirmək səyi

## Münafiq, öz aləmində dini darıxdırıcı hesab edər

Münafiqlər müsəlmanların yanında olduqları müddət ərzində həmişə Allahdan, dindən, gözəl əxlaqdan bəhs edilən və Quran oxunan mühitlərdə olarlar. Həmçinin müsəlmanların arasında dinin bütün gözəlliklərinə və iman gətirənlərin gözəl əxlaqına şahidlik etdikləri halda, dindən yana qəlbləri daş kimi olduğu üçün, bütün bunlardan bir an belə müsbət mənada təsirlənməzlər. Şeytanın anarxiya və xaos dolu qaranlıq dünyasına duyduqları heyranlıqla dini öz aləmlərində **"bəsit və cansıxıcı"** hesab edərlər. Münafiqlər üçün əsil cəlbedici olan; **"qarışıqlığın, mənfəətpərəstliyin, sevgisizliyin, saxtakarlıqların hakim olduğu, hər kəsin bir-birini aldatdığı və bir-birindən nifrət etdiyi küfri həyat tərzi"**dir. Olduqca ürküdücü olan bu şeytani struktura və bu həyatı yaşayan inkarçılara (haşa) Allaha ibadət edən kimi ibadət edər, var gücləriylə onların qaranlıq dünyasında özlərinə bir yer tutmağa çalışarlar.

Həmçinin münafiqlər axirətdə alacaqları qarşılığı deyil, dünyada əldə edə biləcəkləri mənfəətləri əhəmiyyətli hesab edərlər. Dolayısilə öz zəif və şeytani ağıllarına əsasən, dinin bu istiqamətiylə özlərinə heç bir mənfəət qazandırmayacağını düşünərlər. **Dini yaşayaraq ətraflarındakı insanlar içində uğur qazana bilməyəcəkləri və göstəriş edə bilməyəcəkləri qənaətindədirlər.** Həmçinin onlara görə din asan və sadədir. Allah dini insan fitrətinə ən uyğun və ən rahat bir həyat tərzi olaraq yaratmışdır, buna görə din asan və sadədir. Münafiq isə **"küfr əhlinin qarmaqarışıq fəlsəfi ifadələrinə, təmtəraqlı və hara çatmaq istədiyi heç cür anlaşılmayan əntəl danışıqlarına, özlərini çox müdrik və təcrübəli insanlar kimi göstərmək səylərinə"** böyük heyranlıq duyar.

**Münafiq, istədiyi bu şeytani gümanların heç birini dində tapa bilməz. Dini öz aləmində çox sadə və cansıxıcı hesab edər** (İslamı tənzih edirik). **Dolayısilə özünə göstəriş qazandıracaq şeyin, onlar kimi dindən uzaq danışıqlar edib, onların dindən kənar fəlsəfələrini müdafiə etmək olduğuna inanar.** Buna görə də, demək olar ki, hər platformada özünü insanlara onlardan biri kimi tanıda bilmək üçün **"bu fəlsəfi ifadələr və onların əntəl fikirlərindən"** istifadə edər. **Sosial şəbəkə hesablarında bunlardan bəhs edən şəkillər, sözlər, filmlər paylaşar.** Bu məsələlərdə küfr əhlində **"ustad"** kimi tanınan kəslərin paylaşdıqlarını bəyənər və səhifələrində onlardan gətirilmiş sitatlara yer verər. Beləliklə də, özünü guya **"monoton müsəlman"** kimi görünməkdən xilas etdiyinə və bununla da böyük **"göstəriş etdiyinə"** inanar.

**Halbuki əsil monoton olan, küfr əhlinin və münafiqin inandığı batil fəlsəfələr, yaşadıqları bəsit əxlaqa əsaslanan həyatdır. İslam, insanlara dünyanın bütün gözəlliklərini ən yaxşı şəkildə yaşamağı, dünyada ən çox xoşbəxt olmağın yolunu öyrədən haqq dindir.** Dini yaşayan müsəlman dünyanın hər cür nemətindən ən mükəmməl şəkildə istifadə edən, hər şeydən ən çox zövqü ala bilən insandır. Küfr əhlinin soyuq, qaranlıq, donuq, kompleks ruhu isə, onlara yalnız bədbəxtliyin, narahatlığın və

çıxılmaz vəziyyətlər içində sürünüb qalmağın yolunu göstərər. Bu münafiqin və küfrün yalnız dünyada çəkdiyi acıdır. Axirətdə isə dəhşətli əzab onları əbədiyyən buraxmayacaq.

**Adnan Oktar: "Münafiqlər İslamı (haşa) bir az cansıxıcı hesab edərlər. Öz aləmlərində onu küfrlə dəyişdirmək istəyərlər. Məsələn, İslami bir əsər, Qurani bir əsər onu sıxar. Mütləq küfrdən bir əsər olsa xoşuna gələr; bunları oxumaq istəyər. Allahdan, Kitabdan, dindən bəhs edən kitabları oxumaq istəməz. Onları bəyəndiyini də söyləmək istəməz, onu (haşa) alçaldıcı hesab edər. Lakin küfrdən nə olduğu bilinməyən, nə söylədiyi, başa düşülməsi çətin kitablar, yazılar olduqda, ədabazlıq olsun deyə onları bəyənər və oradan özünə bir payə çıxardar.** Özünü ucaltdığını zənn edər. Halbuki, Allah küfr əhlini tənqid edir, **"gücü və qüruru onların yanındamı axtarırlar?"** deyir. Məhz münafiqlər gücü və qüruru həmişə küfr əhlinin yanında axtararlar". (A9 TV, 23 yanvar 2016)

## Münafiq, müsəlmanları deyil, küfr əhlini keyfiyyətli hesab edər

Allahın Quranda; **"onlar, möminləri qoyub kafirləri dost (vəli) tutarlar. "Güc və qüruru (izzəti)" onların yanındamı axtarırlar? Şübhəsiz ki, "bütün güc və qürur", Allaha məxsusdur"** (Nisa surəsi, 139) sözləriylə bildirdiyi kimi, münafiqlər möminləri deyil, küfrü güclü hesab edərlər. Münafiqlər bu baxış prizmalarından ötrü dünya həyatı ilə bağlı hər mövzuda, küfr əhlinin müsəlmanlardan üstün olduğuna inanarlar. Təkcə onların yanında olacaqları zaman güclü və qürurlu olacaqlarını və təkcə bu şəkildə etimad qazana biləcəklərini düşünərlər. Öz zəif ağıllarına görə küfr əhlindən biri olmağın guya **"keyfiyyət əlaməti"**, müsəlmanlardan biri kimi görünməyin isə **"keyfiyyətsizlik"** olduğuna inanarlar.

Müsəlmanları keyfiyyətsiz, küfr əhlini isə keyfiyyətli görmələrindən ötrü də, **"inkarçıların həyat tərzlərinə qibtə edər, onların hər cür azğın əxlaqını guya müasirlik kimi xarakterizə edərlər". Ədabazlıqlarını, dinsiz rəftar və danışıqlarını bəyənər, onlar kimi olmağa çalışarlar. Özlərini heç kimin çata bilməyəcəyi yuxarı səviyyədəki keyfiyyətə sahibmiş kimi göstərən, heç kimə sevgi və hörmət bəsləməyən, heç kimə dəyər verməyən, kəskin izah və rəftarlarıyla cəmiyyət içində fitnə törədən küfr əhlinin davranışlarına qibtə edərlər.** Onların dünyasında yer tuta bilmək, onlar kimi olmaq, onlar kimi yaşamaq istəyərlər.

**Halbuki həm dünyada, həm də axirətdə, Allah tərəfindən "ən üstün" olaraq xarakterizə edilən insanlar müsəlmanlardır.** Allah Özünə qəlbən bağlı möminlərə keyfiyyətin ən yüksək səviyyəsini meydana gətirə biləcək ağıl və estetika anlayışı verər. Hz. Süleyman (ə.s)-ın həyatında müsəlmanların bu xüsusiyyətinin diqqətçəkən nümunəsini görmək mümkündür. Allah hz. Süleyman (ə.s)-a böyük ehtişam və zənginlik

vermiş, onu üstün güc və keyfiyyət içində yaşatmışdır. **Gəlib-keçmiş bütün saleh müsəlmanlar həm yüksək insani keyfiyyətə sahib olmuş, həm də həyatın hər sahəsində maddi-mənəvi hər şeyi ən keyfiyyətli şəkildə yaşamışlar.**

## Münafiq, müsəlman kimi görünməkdən utanar

Münafiqlər heç vaxt müsəlman kimi görünmək istəməz, müsəlman kimi tanınmaqdan utanarlar (müsəlmanları tənzih edirik). **İman gətirənlərin olmadığı və ya onların özlərini görmədiklərini düşündükləri yerlərə getdikləri zaman, eynilə küfr əhlindən biriymiş kimi davranarlar. Müsəlmanlarla birlikdə görünmək heç xoşlarına gəlmədiyi halda, adları küfr əhli ilə çəkildiyi zaman xoşbəxt olarlar. Adlarının onlarla birlikdə çəkilməsində göstəriş axtararlar.** Özlərinə məxsus sosial şəbəkə hesablarında küfrün ruhunu əks etdirən şeylər paylaşmalarının səbəbi də yenə bu baxış prizmalarıdır. Gündəlik həyatlarında olduğu kimi, bu platformalarda da müsəlman kimi görünməkdən çəkinərlər. Demək olar ki, hər fürsətdə qəlblərindəki şeytani istiqaməti üzə vuran və küfr əhlinə simpatiya duyduqlarını hiss etdirən şeylər paylaşarlar. Müsəlmanlara özlərini hiss etdirməmək üçün bir neçə imani şeylər paylaşsalarda, bunların digərlərindən çox az və görülməyəcək şəkildə olmasına diqqət yetirərlər.

Bu hiyləgər üsullarla hərəkət edən münafiqin unutduğu mühüm bir məsələ var: münafiqin müsəlmandan fərqi, üzərindəki küfri əlamətlərdən onsuz da dərhal aydın olur. Həmçinin bu da onun üçün çox alçaldıcıdır. **Müsəlman nur kimidir; gözəl əxlaqı, nəcibliyi, keyfiyyəti, kəskin ağlı və sevgisi ilə bütün insanlara nümunə olan varlıqdır. Girdiyi hər yer nur kimi işıqlanar. Bütün dünya üçün xeyirli insandır.** Onun əxlaqının, sözlərinin, rəftarlarının çatdığı hər yer insanlara fayda və xeyir gətirər. Sosial şəbəkədə bir müsəlmanın paylaşdıqlarıyla qarşılaşan hər insan, (iman gətirib-gətirməməsindən asılı olmayaraq) bu gözəl əxlaqa istər-istəməz heyran olar və bunun təsiri altında qalar.

**Müsəlman olmaq insan üçün böyük şərəfdir. Münafiqin, müsəlmanlar kimi olmadığını vurğulamaq istəməsi, iman gətirənlər üçün xeyirə dönər. Beləliklə münafiqin qəlbindəki pislik, imansızlıq, küfrə olan meyllik və müsəlmanlara duyduğu kin və qəzəb ortaya çıxmış olar.**

**Adnan Oktar**: **“Şeytanlarıyla təkbətək qalanda isə, belə deyərlər**: **“Şübhəsiz ki, sizinlə birlikdəyik”“. Biz əslində onlarla heç birlikdə olmamışıq deyirlər.** Buna görə də, adlarının müsəlmanlarla birlikdə çəkilməsini istəməz münafiqlər. Çox çəkinərlər. Adlarının müsəlmanlarla birlikdə çəkilməsini heç istəməzlər. **“Biz (onlara) yalnız istehza edirik” (Bəqərə surəsi, 14)” əylənirik onlarla, məlumat toplayırıq, onlardan istifadə edirik. Bizim onlarla heç bir işimiz olmaz”** deyərlər. Müsəlmanla adının birlikdə çəkilməsi

münafiq üçün çox mühümdür. Küfr əhli içində rahat hərəkət etməsi üçün buna ehtiyacı olar. Təbii ki öz ağlına görə". (A9 TV, 24 yanvar 2016)

**Adnan Oktar**: "Bir münafiqin xəstəliyini anlamaq istəyirsinizsə əsrimizdə Allah asanlıq yaratmışdır. Baxın facebookuna, internet səhifələrinə, bütün xəstəliyini görərsiniz, portret kimi qarşınıza çıxar. Kimlərlə görüşür, nə edir, Allaha baxış prizması necədir, Qurana baxış prizması necədir? Bu səhifələrdə, **Allah sevgisindən, Peyğəmbər sevgisindən heç bəhs etməz münafiq. Dini mövzulardan tək söz belə bəhs etmək istəməz, xoşuna gəlməz, utanar". (A9 TV, 25 yanvar 2016)**

## Münafiq, dini əsərləri oxuyan biri kimi tanınmaq istəməz

Münafiqin mühüm bir xüsusiyyəti də dindən bəhs edən əsərləri oxumaqdan şiddətlə qaçmasıdır. Münafiqlər bütün mənlikləriylə şeytanın dünyasına yönəldilməsindən olduqları üçün **Quran ayələrini, Allahdan və dindən bəhs edən kitabları qətiyyən oxumaq istəməzlər. Qurandakı, küfr əhlinin azğın məntiqlərini yerlə-yeksan edən möhtəşəm üslub onlara dəhşətli dərəcədə iztirab verər.**

Bunun müqabilində **münafiqlər, küfr əhlinin fəlsəfəsini müdafiə edən kitabları böyük şövqlə oxuyarlar.** Bu kitablardakı şeytani izahlar və küfri məntiqlər qaranlıq ruhlarıyla üst-üstə düşdüyü üçün, onları oxumaq çox xoşlarına gələr. Xüsusən də **əllərində, çantalarında, olduqları məkanlarda bu kitablarla görülmək onlar üçün çox mühüm məsələdir.** Buna görə də, **inancsız insanlar arasında məşhurlaşmış dinsiz-ateist müəlliflərin kitablarını satın alıb yanlarında saxlayar, evlərində də bunları görüləcək bir yerə qoyarlar. Facebook, tvitter, instaqram kimi sosial şəbəkə saytlarında bu kitabları oxuduqlarına dair şeylər paylaşarlar. Əllərində bu cür bir kitabı oxuyurmuş kimi tutarkən və ya bu müəlliflərin kitablarının olduğu bir kitabxananın qarşısında poz verərkən çəkdirdikləri fotoşəkilləri sosial şəbəkə hesablarına yükləyərlər.**

Əlbəttə ki, buna bənzər davranışlara münafiqlərdən başqa bir çox insanda da rast gəlmək olar. Lakin onlar, dürüst şəkildə fikirlərini ortaya qoyan, dinsiz, ateist və imansız olduqlarını açıqca ifadə edən kəslərdir. Dolayısilə bu inanclarını dəstəkləyən fəaliyyətlər göstərmələri də normaldır. Münafiqin fərqi isə, **"dinsizliyini gizlətməsi"**, insanlara **"iman gətirdiyini"** və **"İslamı müdafiə etdiyini"** söyləyib ardınca da paylaşdıqlarıyla hiyləgərcəsinə **"dinsizliyin təbliğatını aparmağa çalışması"**dır.

Məhz buna görə də, münafiqlər **Quranın göründüyü, Allahdan, dindən bəhs edən İslami əsərlərin iştirak etdiyi bir şey paylaşmaqdan çəkinərlər. Bu davranışlarındakı məqsədləri, küfr əhlindəki ədabaz insanların rəğbətini qazanmaq, onların gözünə girməkdir.** Bu yolla onların diqqətini çəkmək, onlar tərəfindən təqdir edilmək istəyərlər.

Onlar zəhmətlə küfr əhlinin rəğbətini qazanmaq üçün səy göstərərkən, ortaya qoyduqları küfri modellə müsəlmanlara qarşı özlərini ələ vermiş olarlar. **Bütün bu**

**etdiklərindən, Allahı sevən səmimi müsəlman deyil, əksinə küfr əhlinə heyranlıq duyan və münafiq xüsusiyyəti göstərən insanlar olduqları açıqca aydın olar.** Əlbəttə ki, bu vəziyyət aralarında səmimiyyətsiz bir insan olduğunu görmək imkanı tapan müsəlmanlar üçün rəhmətdir. Tədbirli davranmaları və diqqət yetirməli olduqları bir insanla birlikdə olduqlarını anlamış olarlar.

**Adnan Oktar:** "Allah Muminun surəsinin 67-ci ayəsində; **"ayələrimizə qarşı təkəbbür göstərərək"** deyir, yəni İslama, Qurana qarşı təkəbbür göstərərək. Məsələn, münafiq Quranla şəkil çəkdirə bilməz, utanar. Adının müsəlman adı olmasından utanar. İslamdan bəhs edən kitablardan utanar. Allahdan utanar (Allahı, Quranı və dini mövzuları tənzih edirik). **"Lə ilahə illəlAllah Muhammədən Rəsulullah"** yazan bir yazının yanında şəkil çəkdirmək istəməz. Lakin belə, əntəl, dinsiz, imansız olanların kölgəsində olmağı istəyər. Onlarla tanınmaq istəyər. Allah; **"ayələrimizə qarşı təkəbbür göstərərək gecə vaxtı sayıqlayırdınız"** deyir. Məhz münafiq sayıqlayar, yəni cəfəngləyər. Psixopatcasına, məsələn, gizlincə yazışır, telefonla yazır, internetdən yazır və ya gecə yarısı geyinir, gizlincə bir yerdən enib bir yerə gedir. Digər münafiqlərlə əlaqə yaradıb onlara məlumat verir. (A9 TV, 24 yanvar 2016)

**Adnan Oktar:** **"Məsələn, əsrimizə baxın, münafiq internetdə paylaşma saytlarında "müsəlmanam" deyər. Lakin müsəlman olduğuna dair bir ifadə; bir ayə, bir Quran şəkli, Quran ayələrindən bəhs edən ifadələr və ya müsəlmanların hər hansı hərəkətini yaxud Qurandan izah etdiklərini münafiqin səhifəsində, yazılarında görmək qeyri-mümkündür.** İndi əsrimizdə nə var? İnternet var, internetdəki müxtəlif paylaşma səhifələri var. Bu yerlərdə **adının həmişə küfr əhli ilə birlikdə çəkilməsini istəyər münafiq. Müsəlmana yaraşan şəkildə tanınmaq istəməz.** Məsələn, səhifəsində ayə olması çox narahat edər münafiqi. (Haşa) Onu alçaldıcı hesab edər. **"Facebook"unda ayə paylaşmaq və ya Quran yaxud müsəlmanlara yer vermək münafiqin heç xoşuna gəlməz. Əlindən gəlsə hamısını çıxardıb silmək istəyər,** lakin tamamilə ifşa olacağını bildiyi üçün, istəmədən, məcburən paylaşar. Lakin nifrət edər, **ona görə əsil insanlar küfr əhlidir. əsl izdiham küfrdür. Müsəlman olmaqdan çox utanar, kafir ruhu olduğu üçün** (dini mövzuları tənzih edirik)". (A9 TV, 29 yanvar 2016)

## Münafiq, dini mövzulardan bəhs edərkən belə hiyləgərcəsinə dinsizliyi təlqin edər

Münafiq bəzən, qəlbindəki səmimiyyətsizliyin, kin və qəzəbin başa düşülməməsi məqsədiylə Allahla, dinlə əlaqədar (əvvəlcə müsbət kimi görünən) danışıqlar edə bilər. Lakin bu danışıqların içinə mütləq hiyləgərcəsinə bir **"fitnə ünsürü"** qatar. **İlahi danışıq**

**edəcəkmiş kimi bir rəftar göstərərək etdiyi demək olar ki, hər danışığının arasına, mütləq şeytani ünsürlər yerləşdirər.**

Məsələn, möminlərin gözəl əxlaqından bəhs etmək üçün başladığı bir sözü, müəyyən şəkildə onların əleyhinə bir danışığa döndərər. Guya İslamı tərifləmək məqsədiylə başladığı danışıqlara həmişə tənqidi cümlələr əlavə edər. Bir sözlə, münafiq, dinin lehinə kimi görünən hər danışığını, mütləq **"dindən kənar bir açıqlama ilə, mənfi bir şərh"** və ya **"səhv başa düşülməyə açıq, şübhə verən üslublarla"** tamamlayar. Bunu da açıq-aşkar deyil, **"hiyləgərcəsinə, üstüörtülü və gizli üsullarla"** edər. Bunları hazırlamaqdakı məqsədi həm **"öz aləmində İslamı degenerasiya edib zərər verə bilmək, həm dinsizliyi təlqin edə bilmək, həm də küfr əhlinə özünü bəyəndirə bilmək"**dir.

Dolayısilə münafiqin bu fitnə dolu hiyləgər üslubu, səmimi müsəlmanların sözlərindən tamamilə fərqli olmasıyla diqqət çəkər. **Müsəlmanlar, münafiqlərin insanlara Allah və din haqqında şübhə vermək, onları tərəddüdə salmaq, başlarını qarışdırıb, doğru yoldan ayırmaq üçün bilərəkdən etdikləri bu incə oyunlarını dərhal pozarlar.** Dərhal Quran ayələri və elmi dəlillərlə, əlaqədar mövzuların doğrularını sübut edərək göstərib dinləyənlərin məlumatlandırılmasını təmin edərlər.

## Münafiq, İslamı deyil, öz şeytani fəlsəfəsini təbliğ edər

Münafiq, İslamdan bəhs edirmiş təəssüratını verərək gizlincə öz şeytani fəlsəfəsini təbliğ edər. Məqsədi fitnə törətmək, insanların qəlbinə dinə dair şübhə salmaq və xüsusən də imanı zəif insanları öz azğın düşüncələrinə çəkməkdir. Məsələn, hazırkı dövrdə özünü guya **"müsəlman analitiklər"** kimi tanıdan bəzi **"münafiq ruhlu insanlar"** qoşulduqları fəaliyyətlərdə, televiziya proqramlarında, yazdıqları məqalələrdə, kitablarda, qəzetlərdə və ya sosial şəbəkə profillərində **"Qurana əsaslanmayan yanlış məlumatlarla, insanları din haqqında yanlış düşüncələrə salmaq, onları Allahdan, dindən uzaqlaşdırmaq və azğınlığa sürükləmək"** üçün fəaliyyət göstərərlər. Bu insanların əsas taktikası, **"Qurana uyğun olmayan azğın düşüncə və ya tətbiqləri, sanki dində varmış kimi göstərmək"**dir. Öz aləmlərində ayələrin mənalarını təhrif edərək dinə zərər verməyə çalışarlar. Bunu edərkən də, din haqqında çox əhatəli məlumat sahibi olduqlarına dair təəssürat yaradaraq, əslində Quranla ziddiyyət təşkil edən düşüncələrini Qurana uyğun kimi göstərməyə çalışaraq geniş kütlələrə yaymağı hədəfləyərlər.

Hazırkı dövrdə istər yazılı, istər vizual, istərsə də sosial şəbəkədə bu yolla fəaliyyət göstərən və **"dində haram edilən bəzi hərəkətləri, guya halal olaraq təqdim edən"** bəzi münafiq qruplara rast gəlmək mümkündür. Bu cür təşkil edilmiş qruplar, Quranda haram edilən hərəkətlərdən biri olan **"homoseksuallığı"** və ya dünya səviyyəsində dinsizliyi hakim etməyə çalışan **"Rumilik fəlsəfəsi"** kimi azğınlıqları müdafiə edər və bunları qanuni göstərməyə çalışarlar. Bütün bunların nəticəsində də, insanları həqiqi İslamdan uzaqlaşdırıb azğınlığa sövq etməyə çalışarlar.

Lakin Allah Quranın; **"Şübhəsiz ki, Zikri Biz nazil etdik, əlbəttə, Biz də onu qoruyacağıq"** (Hicr surəsi, 9) ayəsiylə İslamı qoruyan olduğunu bildirmişdir. Allah, qiyamətə qədər haqq dinini qoruyacaq. **"Onlar Allahın nurunu öz ağızları ilə söndürmək istəyirlər. Halbuki kafirlər istəməsələr də, Allah Öz nurunu tamamlayacaqdır"** (Saff surəsi, 8) ayəsi isə **Allah, inkarçıların və münafiqlərin danışıqlarıyla, etdikləri təlqinlərlə İslamı pozmağa və degenerasiya etməyə çalışacaqlarına diqqət çəkmiş, lakin bunda heç vaxt müvəffəqiyyət qazana bilməyəcəklərini xatırlatmışdır.** Allah münafiqlərin bütün səylərinə baxmayaraq, dinini batil inanc və fəlsəfələrdən üstün edəcək və İslam əxlaqını bütün dünyada hakim edəcək.

## Münafiq, Allahı Quranla deyil, şeytani şəkildə zikr edər

Münafiqin heç istəmədiyi və ən əzab çəkdiyi məsələlərdən biri Allahı zikr etməkdir. Lakin Allahı zikr etmək müsəlmanların ən əhəmiyyət verdiyi və diqqətlərinin ən açıq olduğu məsələlərdən biridir. Dolayısilə bu məsələdə əskikliyi olan kəslər də müsəlmanların nəzərindən yayınmaz. Məhz münafiq də, ifşa olmamaq üçün, hərdənbir, nə qədər istəməsə də, Allahın adı çəkilən söhbətlərə qoşulmaq məcburiyyətində qalar. Lakin bu cür vəziyyətləri də, yenə şeytani oyunları istiqamətində qiymətləndirməyə çalışar. **Allahı zikr edirmiş kimi edərkən, danışıqlarına daxil etdiyi şeytani incəliklərlə, əslində hiyləgərcəsinə Allah əleyhdarı inanc, ideologiya və fəlsəfələri müdafiə edər.** Məsələn, Allahı zikr edirmiş kimi başladığı bir danışıqda **Allahı, Quranda Allahın Öz Zatını izah etdiyi şəkildə deyil, fəlsəfə ilə izah edər. Allahı Quranla deyil, məntiqlə izah etməyə cəhd edər. Allahın gücünə deyil, küfr əhlinin və elmin gücünə inandığını vurğulayar. Məsələn, kainatın yaradılışını Quranla deyil, fəlsəfə ilə açıqlamaq istəyər.**

Tam mənasıyla bir **"elm ədabazı"** olan münafiq **"heç bir mövzunu Quranla izah etməz"**. Danışıqlarında **yaradılışı inkar edən elm adamlarının ədabaz izahatlarından, fəlsəfənin mürəkkəb və məntiqsiz izahlarından istifadə edər. Elm, əlbəttə ki, Allahın böyüklüyünü qavramaqda yol göstərici olan böyük nemətdir. Lakin münafiq elmdən (haşa), onu Allahdan müstəqil və daha böyük güc zənn edərək danışar ki, bu da qəti yanılmadır.**

Həmçinin münafiq, Allahın mövcudluğundan, vahidliyindən Quran ayələriylə bəhs etmək əvəzinə, şeytanın yönləndirməsi ilə, Quranın ruhundan tamamilə uzaq üslubla, şeytani məntiqsizliklərlə bəhs edər. Qəlbindəki xəstəlikdən ötrü, danışarkən Allahdan, dindən və imandan səmimi coşğuyla bəhs edə bilməz. (Haşa) **Özünün Allahdan üstün olduğunu düşünən, Qurandan tamamilə uzaq, soyuq üslubu vardır.** Heç vaxt Allaha təslim olmuş ruhla danışmaz. **Özünün Allahdan üstündə bir varlıq olduğunu düşündüyü başa düşülən təkəbbürlü üslubu vardır** (Allahı tənzih edirik). Bu şeytani təkəbbür münafiqin səsinə, danışıqlarına və mimikalarına da əks olunar.

Müsəlmanlar, münafiqin Allahı zikr edərkən istifadə etdikləri ədabaz, lovğa və asi üslubu gördükləri zaman, ondakı aydın bir "**münafiq əlamətini**" daha müəyyənləşdirmiş olarlar. Münafiqin bu üslubuyla, imanı zəif və ya din haqqında məlumatı olmayan şəxslər üzərində yaratmaq istədiyi dinsizliyə sövq edən təsiri, Qurani dəlillərlə və səmimi izahatlarıyla aradan qaldırarlar.

**Münafiq (Allahı tənzih edirik) Allahı qəbul etmədiyini göstərən üslubuyla guya öz böyüklüyünü vurğulamaq istəyər. Halbuki ağzından çıxan hər sözü təkcə Allah istədiyi üçün danışır.** Əlbəttə ki, etdiyi şeytani əməllərin hər birini Allah görür. Allah istəsə, münafiqi istədiyi anda, etdiklərindən ötrü əzablandırmağa qadirdir. Lakin Allah, dünya həyatında yaratdığı qanununun tələbi olaraq, ona müəyyən möhlət verir və onu sınayır. Bu müddəti Allaha qarşı təkəbbürlənər, hiyləgərcəsinə (haşa) Allahdan daha böyük olduğunu vurğulamağa çalışaraq keçirməsi isə, təkcə münafiqin axirətdə alacağı əvəzin və çəkəcəyi əzabın miqyasını böyüdür.

## Münafiq, İslama xidmət etməsi lazım gəlsə, bunu hiyləgərcəsinə küfr əhlinə xidmət etməyə döndərər

Münafiq Allahı zikr etməkdən və Allahın zikr edildiyi mühitdə olmaqdan çox narahat olduğu kimi, Allah yolunda xidmət etməkdən də "**böyük sıxıntı**" duyar. İman gətirmədiyi halda Allahın dininə müəyyən töhfə vermək məcburiyyətində olması, ona şiddətli əzab verər. Buna görə də, İslama fayda verən, az da olsa, hər hansı şey etməkdən diqqətlə qaçınar.

Lakin bütün müsəlmanların gecə-gündüz Allah yolunda xidmət etdiyi bir cəmiyyətdə, əlbəttə ki, münafiq diqqət çəkməmək üçün hərdənbir bəzi məsələlərdə nə isə edirmiş kimi görünməyə çalışar. Məsələn, bəzən Allahla, dinlə əlaqədar bir yazı yazmaq, Allahın gücünü, qüdrətini, uca xüsusiyyətlərini dilə gətirən bir izahat vermək, belə bir yazını və ya danışığı özünəməxsus sosial şəbəkə səhifələrində paylaşmaq məcburiyyətində qala bilər. Lakin bu onun üçün çox böyük iztirab vəsiləsidir. Çünki həm ətrafındakı insanlara "**Qurana tabe olmuş, dindar insan kimi görünmüş olacaq**", həm də bu yazı və ya danışıq insanların qəlbində dinə dair müsbət təsir yaradacaq. Məhz münafiq heç vaxt belə xeyirə vəsilə olmaq istəməz. Çünki onun məqsədi "**insanları dinə dəvət etmək deyil, tam əksinə dindən uzaqlaşdırmaq**"dır. Öz şeytani fəlsəfəsinə öldürücü zərbə endirəcək Qurani bir fəaliyyəti, öz əli ilə hazırlaması, münafiq üçün sanki ölüm kimidir. Məhz buna görə də, əgər bir iş görməyə məcbur olsa, bunun içinə mütləq "**münafiq ünsürlər**" daxil edər. Məsələn, Allahdan, dindən bəhs edən bir yazı yazması lazım gəlsə, yazının içinə "**fitnə ünsürləri**" daxil edər. Beləliklə yazı Allah sevgisi və Quran əxlaqı ilə yazılmış bir yazıdan çox fərqli olar. Sətir aralarına hiyləgərcəsinə; "**insanları Allahdan uzaqlaşdırmağa, ağıllarında din və müsəlmanlar haqqında sual işarələri yaratmağa,** (Allahı tənzih edirik) **Allahın ədaləti, ağlı və yaratması ilə əlaqədar mövzularda şübhə və**

**vəsvəsə verməyə, azğın ideologiyaları qanuni göstərməyə çalışan”** ifadələr daxil edər. İnsanların **“şüur altına şübhə salmağı qarşısına məqsəd qoyan, dindəki istiqanlılığı qətiyyən əks etdirməyən”**, olduqca soyuq və texniki dildən istifadə edər.

Münafiqin istifadə etdiyi hər bir şeytani ünsür, eyni zamanda onun **“küfr əhlindəki dostlarına verdiyi incə bir mesaj”**dır. Onlara, müsəlman kimi görünsə də, əslində iman gətirmədiyini, müsəlmanlarla eyni inancı və eyni fikirləri bölüşmədiyini və **“məqsədinin dinə deyil, küfrə xidmət etmək olduğunu”** tam istədiyi şəkildə, açıq dillə izah etmiş olar. **Bir münafiqin İslam üçün yazdığını iddia etdiyi bir yazını oxuyan insan, əslində onun İslamdan nə qədər uzaq və dinə qarşı çıxan biri olduğunu açıqca görər.**

Lakin bütün oyunlarında olduğu kimi, münafiq etdiyi bu hərəkətlə də müvəffəqiyyət qazana bilməz. Çünki müsəlmanlar onsuz da səmimi iman gətirən insanlar olduqları üçün, münafiqin bu hiyləgər səyindən qətiyyən təsirə düşməzlər. İnkarçılar isə, onsuz da münafiqlə eyni məntiqdə olduqları üçün, münafiqin bu şeytani izahatları onları da maraqlandırmaz. Münafiqin bu oyunlarla əldə edə bildiyi yeganə şey; **“özünə küfr əhlindən səmimiyyətsiz dostlar tapması”** olar. **Münafiqdən müvəqqəti olaraq mənfəətləri istiqamətində istifadə etmək istəyən inkarçılar, münafiqin bütün bunlarla verdiyi mesajı alar və bu istiqamətdə münafiqlə əməkdaşlıq edə bilmək üçün hərəkətə keçərlər. Lakin bu da Allahın icazəsi ilə, çox qısa davam edəcək mənfəət əlaqəsindən ibarətdir.** Küfr əhlindəki tərəfdaşları münafiqdən istədikləri kimi mənfəətləri üçün istifadə etdikdən sonra, ondan üz döndərəcək və onu qaranlıq şeytani dünyasında yenə təkbaşına qoyacaqlar. Münafiq dünyada olduğu kimi axirətdə də bu təkliyi dadacaq; Allahın hüzuruna haqq-hesab verməyə heç bir dostu olmadan tək-tənha çıxacaq. Sonunda isə etdiyi bütün xainlikləri əvəzini əbədiyyən cəhənnəmdə dadacağı ağrılı-acılı əzabla alacaq.

# Münafiqin texnologiya və sosial mediadan çirkli oyunları üçün istifadə etməsi

## Texnoloji imkanlardan hiyləgərcəsinə istifadə etmək münafiqə şeytani həzz və cəsarət verər

Peyğəmbərimiz (s.ə.v) dövründə münafiqlər "**çadırdan-çadıra, əldən-ələ ötürdükləri əl yazılarıyla məlumat və xəbər göndərdikləri halda**", hazırkı dövrdə münafiqlərin əlində bunlarla heç müqayisə edilməyəcək qədər geniş imkanlar var. Münafiqlər hazırkı müasir texnologiya və imkanlar içərisində, xeyli geniş və təsirli "**münafiq hərəkət sahəsinə**" sahibdirlər. **İnternetin, smartfonların, kompyuterlərin; "gizlincə və heç kimə hiss etdirmədən fəaliyyət göstərməyə və sonra da bütün bunları dərhal yox etməyə imkan verən texnologiyaların mövcudluğu**", hazırkı münafiqlər üçün "**şeytani həyəcan verən zənginlik**"dir. Dolayısilə əsrimizdə münafiqin ən təsirli silahlarından biri "**internet, kompyuter və mobil telefon texnologiyaları**"dır.

Əlbəttə ki, bütün bu texnoloji imkanlar, bütün insanların həyatını asanlaşdıran və həyatlarına rahatlıq bəxş edən çox mühüm nemətlərdir. Lakin münafiqin fərqi, bu nemətlərdən şeytani planlarını həyata keçirə bilmək və dürüst insanları aldatmaq üçün istifadə etməsidir.

**Münafiq, özünə hər mövzuda böyük hərəkət imkanı təmin edən kompyuter, internet, rabitə kimi texnologiyaların hamısı barədə çox ətraflı məlumat sahibidir.** Sanki tamamilə "**texnologiya mütəxəssisi**"dir. Şeytanın dəstəyi və ilhamı sayəsində, bütün bu məsələlərdə "**heyrətamiz bacarığa sahibdir". Çox çevik və sürətli hərəkət edə bilmək, etdiyi hərəkətlərin izini çox sürətlə silib yox edə bilmək qabiliyyəti vardır.** Dolayısilə də münafiq, bu cür hiyləgər fəaliyyətlərini icra edərkən asanlıqla hiss edilməyə bilər.

Münafiqin "**şeytanın zəkasıyla hərəkət edən varlıq**" olduğu düşünüldüyü zaman, texnoloji imkanlardan və internetdəki məlumatlardan, hiyləgər planları üçün "**nə qədər təsirli şəkildə istifadə edə biləcəyi**" də daha yaxşı aydın ola bilər. Həmçinin **dərin dövlət mənsublarını tapıb onlara çata bilmək, əlaqədə olduğu çirkli strukturlara müsəlmanlar əleyhinə məlumat göndərmək və bütün bunları edərkən olduqca səssiz və gizlincə hərəkət edə bilmə məsələlərində də münafiq çox məharətlidir.** Tam mənasıyla "**texnologiya qurdu**" olduğu üçün, **yaxalanma ehtimalına qarşı da, hər şeyin avtomatik şəkildə silinib yaddaşı təmizliyəcəyi şəkildə texnologiya tədbirlər alar.**

**Lakin münafiq Allahın özünü gördüyünü və etdiyi hər hərəkətin tək-tək Allah dərgahında yazıldığını, axirətdə isə bütün bunlardan sorğu-sual olunacağını heç düşünməz.** Onun əhəmiyyət verdiyi yeganə şey, bütün bu fəaliyyətlərini insanlardan gizli şəkildə icra edə bilməkdir. **İnsanlara yaxalanmadığı təqdirdə, bütün planlarının mükəmməl şəkildə irəliləyəcəyini zənn edər. Halbuki münafiqin bir planı vardırsa, Allahın**

**sonsuz ağılda və sonsuz gücdə bir planı var.** Etdiyi hər münafiq hərəkət, axirətdə tək-tək ortaya çıxacaq, bütün insanlar onun bütün bu mərhələlərdə etdiyi hiyləgərlikləri öyrənəcəklər. **Dünyada gizlincə nə isə etdiyi zaman böyüdüyünü zənn edən münafiq, axirətdə rəzil-rüsvay olacaq və əbədiyyən xor görülüb alçaldılacaq. Nə texnologiya, nə şeytani zəkası, nə də dərin dövlət mənsublarından ibarət olan tərəfdaşları onu xilas edəcək.**

**Adnan Oktar: Münafiqlər əsrimizə uyğun şəkildə çox incə və ətraflı izah edilməlidir. Çünki kompyuter var, internet var, telefon var. Münafiqin yeni silahları bunlardır, yəni münafiqin indiki imkanları, keçmişdəki silahlara bənzəmir. Amansız silahlarla təchiz edilib. Məsələn, axşam yatağından qalxır, mobil telefonu var, onu açır, oradan dünyanın bir yerindəki dərin dövlətin murdar bir nəfəri ilə pıçıltıyla və ya yazışaraq əlaqə yarada bilir. Əlaqə yaratdıqdan sonra da bu danışığını silib yox edə bilir, yəni heç kimin bu məlumatı əldə edə bilməsi mümkün deyil. Buna görə də, əsrimizə uyğun şəkildə çox əhatəli izah edilməlidir münafiqin xüsusiyyətləri.** (A9 TV, 10 fevral 2016)

## Münafiq, küfr əhli ilə olan gizli əlaqəsini və məlumat nəqlini, interneti və kompüter texnologiyalarını istifadə etməklə həyata keçirər

Allah bir ayədə; **"...onlar yalana qulaq asanlar, sənin hüzuruna gəlməyən başqa bir camaat üçün qulaq asanlar (xəbər toplayanlar)dır"** (Maidə surəsi, 41) sözləriylə, münafiqlərin ən mühüm xüsusiyyətlərindən birinin, **"gizlincə müsəlmanlardan xəbər toplayıb, bunu küfr əhlindəki dostlarına ötürmələri olduğunu"** xəbər vermişdir. Ayədə işlənən; **"sənin hüzuruna gəlməyən"**, sözləriylə **"müsəlmanlarla əlaqəsi olmayan, onlarla görüşməyən insanlar üçün"** münafiqlərin iman gətirənlərin arasına daxil olub, orada **"məlumat topladıqları"** bildirilmişdir.

Məhz münafiqlər, **"müsəlmanlar haqqında topladıqları xəbərləri küfr əhlindəki dostlarına ötürmək fəaliyyətlərini" əsrimizdə "internetdən, kompyuter texnologiyalarından və smartfonlardan" istifadə edərək həyata keçirərlər**. Müsəlmanlar arasında olarkən, qaranlıq yerlərdə, rütubətli künclərdə, gizlincə və alçaqcasına küfr əhli ilə əlaqə yaradaraq müsəlmanlar əleyhinə hiyləgər fəaliyyətlər icra edərlər.

Quranın digər bir ayəsində Allah münafiqlərin küfr əhli olan bu əlaqələrini; **"...həqiqətən, şeytanlar sizinlə mübarizə aparmaları üçün öz dostlarına gizli təlqinlər edərlər..."** (Ənam surəsi, 121) sözləriylə xəbər vermişdir. Məhz əsrimizdə münafiqlər bu hərəkətlərini təkmilləşmiş rabitə vasitələrindən istifadə edərək edərlər. Bu yolla həqiqi dostları olan inkarçılara; ayədə bildirildiyi kimi **"gizli təlqinlər edərlər"**. Həmçinin bu təşəbbüslərini də, **"əsrimizin təmin etdiyi texnoloji imkanlardan istifadə edərək internet**

**vasitəsilə yazışmaqla, smartfonlardakı çoxsaylı mesaj proqramlarıyla və ya twitter, facebook, instaqram kimi sosial paylaşma saytları vasitəsilə"** həyata keçirərlər. **İnternet sürətiylə, inkarçı və münafiq dostlarıyla xeyli asan və sürətli şəkildə təmasa keçə bilər və eyni zamanda dünyanın ən uzaq guşəsindəki dərin dövlət mənsublarıyla belə çox rahat şəkildə əlaqə yarada bilərlər.** Ardınca yenə çox çevik şəkildə **müsəlmanlar əleyhinə topladıqları məlumatları sirdaşlarına ötürə və müsəlmanlara zərər verəcəklərini düşündükləri hərəkət planlarını onlarla danışa bilərlər.**

Münafiq, bütün bu etdiklərini müsəlmanlara hiss etdirmədiyini düşündüyü zaman, bundan "**böyük və şeytani həzz**" alar. **Gizlin-gizlin küfr əhlindən biriylə görüşmək, onların fəlsəfələrini dinləmək, onlarla o küfr məntiqi içərisində danışmaq, onlara istədiyi kimi ədabaz cavablar vermək, ruhuna sanki şeytani qida kimi gələr.** Gecə yarısı digər bir münafiqə və ya küfr əhlindəki bir dostuna kiçik də olsa bir xəbər aparmaq, onun üçün sanki şeytani ehtiyac kimidir. "**Facebook**"dan, "**twitter**"dan, "**whatsapp**"dan və ya başqa gizlin mesajlaşma proqramından "**küfr əhlindən bəziləriylə yazışmaq; zəngləşmək və ya qarşılıqlı surətdə veb kameradan istifadə edərək görüntülü söhbətlər etmək**" münafiqi çox həyəcanlandırar. Küfr əhlindən, mənfəət əldə edə biləcəyi yeni-yeni dostlar əldə etmək və bütün bunları müsəlmanlara hiss etdirmədən edə bilmək, münafiqə şeytani zövq verər. Müsəlmanlardan gizlin bir şey edə bilməmək və inkarçı biriylə küfr ruhunu istədiyi kimi yaşaya bilməməkdən isə münafiq çox ciddi narahatlıq duyar.

**Bütün bu texnoloji imkanlar; internet, kompyuter və ya smartfon texnologiyaları əslində münafiqin təkcə küfr əhli ilə deyil, əsasən" şeytanla olan əlaqəsi üçün istifadə etdiyi bir vasitə"dir.**

Bu texnoloji imkanların hər biri münafiq üçün, "**sanki şeytana açılan bir qapı kimi**"dir. Halbuki **münafiq üçün "şər qapısı" olan bütün bu texnologiyalar müsəlmanlar üçün böyük nemət, rəhmət və "xeyir qapısı"dır. Müsəlman bunlardan rəhmətə vəsilə olsun deyə istifadə etdiyi halda; münafiq şeytani əməl üçün istifadə edər.**

Münafiq, telefonun tək bir düyməsinə və ya kompyuterinin tək bir düyməsinə basmasıyla birlikdə, sanki şeytanı ilə əlaqəyə keçər. Həmçinin sonra da şeytanla qurduğu bu əlaqəni saatlarla davam etdirər. Özünü görən heç kəs də olmadığı üçün, necə küfri ruhla yaşadığını heç kəsə hiss etdirməmiş olar. Lakin hər hansı birinin özünü görmək və ya küfr əhli ilə qurduğu əlaqəni görmək ehtimalına qarşı da lazım olan hər cür tədbirini alar. Məsələn, etdiyi hər telefon söhbətinin, kompyuter vasitəsilə yaratdığı hər cür əlaqənin arxa planını, tək bir düyməyə basaraq dərhal silə biləcəyi bir sistemi mütləq fəaliyyətdə saxlayar. Yaxud istifadə etdiyi internet tətbiqetmələrinin dərhal yaddaşlarını təmizləmək və ya özlərini silib yox etmək xüsusiyyətlərini aktivləşdirər. Münafiq, texnologiyanın ən təkmilləşmiş imkanlarından istifadə edərək hələ ən başından bütün bu mərhələləri və baş verə biləcək gedişatları düşünərək, lazım olan hər cür tədbirini alar. Buna görə də, əksi sübut edilməsi mümkün olmayacaq şəkildə, hiyləgərcəsinə küfr əhli ilə qurduğu əlaqəsini davam etdirər.

Allah münafiqlərin bu gizlin əlaqələrinə; **"şübhəsiz ki, gizli yığıncaqlardakı pıçıldaşmalar, iman gətirənləri kədərləndirmək üçün təkcə şeytan (məhsulu olan işlər)dəndir..."** (Mücadilə surəsi, 10) ayəsiylə diqqət çəkmişdir. Ayədə bildirilən münafiqlərlə küfr əhlinin, öz aralarında **"pıçıldaşmaları"**, həmişə üz-üzə edilən hərəkət deyil. **Əsrimizdə münafiqlər bunu internet yolu ilə, kompyuter və ya smartfon vasitəsilə də edərlər.**

Lakin Allah ayənin davamında; **"halbuki Allah icazə vermədikcə o, onlara heç nə ilə zərər verə bilməz"** sözləriylə çox mühüm bir həqiqəti xatırlatmışdır. **Küfr əhli ilə münafiqlər arasında keçən hər danışığı yaradan təkcə Allahdır.** Heç birinin Allahdan müstəqil gücü yoxdur. Bütün güc və qüvvə Allaha məxsusdur. Münafiq küfr əhli ilə əməkdaşlıq edib müsəlmanlar əleyhinə tələ qurarkən, Allah da onlara bir tələ qurar. Dolayısilə bunların heç biri müsəlmanların narahat olmasına səbəb olmamalıdır. Allah ayənin son cümləsindəki; **"o zaman möminlər yalnız Allaha təvəkkül etsinlər"** sözləriylə, müsəlmanlara yalnız Özündən qorxmalarını və yalnız Allahın gücünə etimad etmələrini bildirmişdir. Çünki münafiqin bütün bu sayılan hərəkətlərini yaradan Allahdır. **Müsəlmanlar da bundan ötrü münafiqləri heç vaxt Allahdan müstəqil güc kimi görməzlər. Nə vaxtsa münafiqlərin məğlubiyyətə düçar olacaqlarını, müsəlmanların isə qalib gələcəklərini heç vaxt unutmazlar.**

## Münafiq, küfr əhli ilə yaratdığı gizli əlaqəni hiyləgər üsullarla gizlətməyə çalışar

Münafiq, bir gün mütləq küfr əhlindəki həyatına geri qayıdacağının planlarını quraraq yaşayar. Buna görə də, müsəlmanların yanında olduğu hər vaxtı küfr əhli arasında yaşayacağını ümid etdiyi, gələcək illərini öz aləmində zəmanətə almaqla məşğul olaraq keçirdər. Bu istiqamətdəki ən mühüm fəaliyyəti isə, **"küfr əhlinin rəğbətini qazanmaq, aralarında yaxşı yer tutmağa çalışmaq və onların gözündə etimad qazanmaq"**dır. **Münafiqə görə bunun yolu isə, küfr əhlinə möminlərlə əlaqədar məlumat ötürməkdən keçər. Nə qədər çox məlumat ötürsə, küfr əhlindəki tərəfdaşlarının gözünə bir o qədər çox girə biləcəyini düşünər.**

Münafiq bu son planını həyata keçirə bilmək üçün **"hər cür şeytani macəraya və təhlükəyə atılmağa"** hazırdır. Əlindəki bütün imkanlardan hiyləgərcəsinə istifadə edib, **bu əlaqələri yaratmaq məsələsində, sanki "gözü dönmüş ehtiras" içərisindədir. Bəzən kompyuterindən, bəzən telefonundan küfr əhli ilə etdiyi həyata keçirdiyi danışıqlarla həmişə bunun zəminini hazırlamağa çalışar. Bunu edərkən də möminlər tərəfindən hiss edilməmək üçün şeytani zəkasıyla mütləq bəzi tədbirlər alar.** Məsələn, yaxınlığında müsəlmanlar vardırsa, **olduğu yerin qapısını bağlayaraq uca səsdə musiqi açar və musiqi dinləyirmiş təəssüratı verərkən əslində gizlincə və saatlarla küfr əhlindəki dostlarıyla telefonda danışar.** Yaxud otağında **yatırmış oyunu oynayaraq heç kimin özünü narahat**

**etməməsini təmin edər. Ardınca da qaranlıqda gizlincə kompyuterini açıb inkarçı dostlarıyla və ya digər münafiqlərlə əlaqə yaradar.** Otağına qəfildən biri gəlsə də, çox sürətli şəkildə başqa məsələ ilə maraqlanırmış kimi edərək yazışmalarını gizlədər. Bəzən də müsəlmanların olduğu bir mühitdən uzaqlaşa bilmək üçün **olduğu yerin vanna otağına keçərək, gizli danışıqlarını orada həyata keçirməyi planlaşdırar. Vanna otağında pıçıltıyla küfr əhli ilə telefon danışıqlarını edərkən də suyu açaraq və ya saç qurutma maşınını işə salaraq səsinin eşidilməsinə əngəl törətməyə və hiyləgər fəaliyyətini gizlətməyə çalışar.** Ardınca da oradan çıxmadan əvvəl, **küfr əhli ilə etdiyi danışıqlarına dair telefonundakı bütün yaddaş qeydlərini mütləq silər.**

Əgər bu cür texnoloji imkanlardan istifadə edərək, küfr əhli ilə ünsiyyət yaratmasına görə bir problem yaransa, münafiq bu dəfə də olduğu yerdəki digər imkanları araşdıraraq özü üçün müxtəlif yollar tapmağa çalışar. Məsələn**, kompyuteri hər kəsin görəcəyi bir yerdədirsə, telefonunu yanına götürüb bir yerə gizlənməsi çox diqqət çəkəcəksə, münafiq olduğu yerdəki internetlə əlaqəsi olan bir televizordan və ya "Ipod" adlandırılan internet əlaqəsi olan musiqi playerlərdən istifadə edərək küfr əhlindəki dostları ilə əlaqə yaratmağa çalışar. Əksər insanın incəliklərini çox yaxşı bilmədiyi texnologiyaları, sırf bu məqsədlə çox yaxşı öyrənən münafiq, ağıllı televiziyalar üzərindəki kameralar vasitəsilə başqa münafiq dostunun və ya küfr əhlindəki dostlarının kompyuterinə bağlanar. Yaxud bu televiziyalar vasitəsilə də youtube və ya facebook kimi canlı yayın həyata keçirilməsinə imkan verən bir çox proqram vasitəsilə müsəlmanların xəbəri olmadan əlaqələr yaradar.**

Gecənin zülmətində bir-birindən çətin şərtlər altında sırf inkarçılarla dostluq yarada bilmək üçün bu qədər çətinliyə girməsi, münafiqə heç vaxt çətin gəlməz. Əksinə bütün bunlar ona heyrətamiz dərəcədə fəallıq, şeytani həyəcan və dinamiklik bəxş edər. **Müsəlmanlardan gizlin şəkildə etdiyi hər şeytani əməl, onun öz ağlına olan etimadını, böyüklüyünə olan axmaqcasına inancını daha da artırar.** Məhz bütün bu hiyləgər hərəkətləri etməkdən aldığı şeytani həzz də bundan irəli gəlir.

Küfr əhli arasında hörmətli və etimad sahibi olmaq münafiqlər üçün sanki **"ölüm-qalım məsələsidir"**. Küfr əhlinə müsəlmanlarla bağlı mümkün qədər çox xəbər daşıyaraq onların gözündə ucalacaqlarını düşündükləri üçün, hər anlarını bu məqsəd istiqamətində qiymətləndirmək istəyərlər. İfşa olmadan məlumat toplamağa davam edə bilmək üçünsə lazım olan hər yola müraciət edər, hər cür hiyləgərliyi göstərərlər.

Lakin münafiqlər bu qədər çətin və çirkli səy göstərərkən, bu mühüm həqiqəti heç anlamazlar. **Müsəlmanlar onsuz da bütün həyatları insanların gözləri qarşısında olan, Quran əxlaqına uyğun həyat yaşayan, hər anlarını yaxşılığa və gözəlliyə vəsilə olmaq üçün yaşayan kəslərdir. Allahdan qorxan, buna görə də, hər cür pislikdən çəkinən, hər cür zülmün, qeyri-qanuni və qaranlıq işlərin qarşısında dayanan insanlardır. Dolayısilə münafiqlər, müsəlmanlar əleyhinə məlumat toplayıb bunu inkarçı dostlarına çatdırmaq üçün nə qədər çalışsalar da; yaxşılıq, gözəllik və xeyirli fəaliyyətlər üçün göstərilən**

**şeydən başqa heç nə tapa bilməzlər.** Buna görə də, bacardıqları yeganə şey, bu xeyirli şeylərin məlumatını verərək, İslamın yayılması üçün həyata keçirilən fəaliyyətlərə əngəl törətməyə çalışmaq olar.

**Lakin münafiq bütün bunları edərkən Allahın özünü gördüyünü və sonsuz gücüylə müsəlmanları dəstəklədiyini heç düşünməz. İnsanların etdikləri şeytani əməlləri ən incə nöqtəsinə qədər bilən sonsuz ağıl və sonsuz güc sahibinin müsəlmanlara kömək edərkən; Allahdan müstəqil gücü olmayan münafiqin, yenə Allahın nəzarəti altında olan zəif ağlıyla müvəffəqiyyətli ola bilməsi isə, əlbəttə ki, heç vaxt mümkün deyil.**

## Münafiq, sosial media hesablarından özünü küfr əhlinə bəyəndirmək üçün istifadə edər

Hazırkı dövrdə münafiqliyə meylli şəxslərin gizli fəaliyyətlərini davam etdirə bilmək üçün ən çox faydalandıqları imkanlardan biri də, **"sosial şəbəkə platformları"**dır. Lakin **münafiq**, demək olar ki, hər insanla asanlıqla əlaqə yaratmaq imkanı təmin edən bu **internet səhifələrində, özünü, Allahı sevən, Qurana iman gətirən, müsəlmanlarla dost olan, inanclı insan kimi tanıtmağı heç vaxt istəməz.** Əksinə **bu platformalardan, özünü küfr əhlinə bəyəndirə bilmək, onların diqqətlərini üzərinə çəkə bilmək və onlarla mənfəət əldə edə biləcəyi yaxın dostluqlar qura bilmək üçün istifadə etməyə çalışar.**

Buna görə də, **istər səhifəsindəki profil məlumatlarında, istər dost siyahısında, istərsə də paylaşdıqlarında həmişə özünü küfr əhlinə bəyəndirə biləcək hər hansı məzmun olmasına heyrətamiz dərəcədə diqqət yetirər.** Allahın bir Quran ayəsində; **"onların əksəriyyətinin inkarçılarla dost olduqlarını görərsən..."** (Maidə surəsi, 80) sözləriylə bildirdiyi kimi, məqsədi yalnız, **"hər cür azğınlığı dəstəkləyən bu insanlarla yaxın dost ola bilmək, onların gözünə girə bilmək"**dir.

Münafiqlər internetdəki bu cür platformalardan istifadə edərək, küfr əhlindəki insanlarla yaxın təmasa keçib, sonra da onların mövqe, ətraf, iş və maddi qazanc kimi imkanlarından mümkün qədər istifadə edə bilmək istəyərlər. Bu məqsədlə, **gözlərinə kəstirdikləri, küfr əhlində göstərişli görünən, nüfuz sahibi və qabaqcıl insanlarla "mesajlaşma yolu ilə" tanış olmağa çalışarlar.** Həmçinin zamanla bu insanlarla saatlarla yazışıb söhbət edəcək qədər səmimi dostlara dönərlər. Əgər küfr əhli ilə olan bu səmimiyyətləri müsəlmanların diqqətini çəksə və özlərinə bu istiqamətdə bir sual verilsə, bunun cavabını da əvvəlcədən hazırlamış olarlar. **"Niyə bu insanlarla əlaqə yaratdıqları"** sualına, **"mən onlara İslamı izah etməyə çalışıram, buna görə vaxt ayırıb danışıram"** kimi yalanlarla cavab verərlər. **"Yaxşı bəs niyə onlarla müsəlmana yaraşan rəftarla deyil də, küfri üslubla danışırsan?"** deyə sual verildikdə isə, bu dəfə də **"onlara özlərindən biriymiş kimi bir üslubla yaxınlaşdıqda daha çox təsir göstərə bildikləri"** kimi yeni bir yalan daha söyləyərlər.

Halbuki əsil məqsədləri, qaranlıq ruhlu, küfrə, azğınlığa və münafiqliyə meylli digər insanlarla iç-içə olmaq, onların rəğbətini qazanıb onlar arasında özlərinə küfri nüfuz qazanmaqdır. Bu yolla öz aləmlərində, gələcəkdə bu insanların arasındakı yerlərini indidən möhkəmlətmiş olacaqlarına inanarlar.

Burada bunu da xatırlatmaq lazımdır ki, **hal-hazırda insanların böyük əksəriyyəti sosial şəbəkə platformalarından dost və ətraf əldə etmək və ya iş imkanlarını genişlətmək kimi məqsədlər üçün istifadə edirlər. Həmçinin bu vəziyyət həqiqətən də bir çox insana yeni-yeni dostluqlar və müxtəlif faydalar qazandırar. Lakin bənzər üsullardan istifadə edən münafiqin vəziyyəti və hədəfi bütün bu insanlarınkından çox fərqlidir. Münafiq, sosial şəbəkə yolu ilə əldə etdiyi imkanlarla küfr əhli ilə olan ittifaqını gücləndirmək və ardınca da özünə dürüstlük və gözəl əxlaqla yaxınlaşan tərtəmiz müsəlmanlar əleyhinə xain tələlər qurmaq və sui-qəsdlər hazırlamaq məqsədini güdər.**

Lakin münafiq bütün bu imkanları yaradan və nəzarəti altında saxlayan gücün Allah olduğunu unutmuşdur. Nə qədər hiyləgərcə hərəkət etsə də, Allahın icazəsi olmadan müsəlmanlara zərər verə bilməsi qeyri-mümkündür. Çünki; **"şübhəsiz ki, mənim hamim Kitabı nazil edən Allahdır və O, əməlisalehlərə himayədarlıq edir"** (Əraf surəsi, 196) ayəsi ilə xəbər verildiyi kimi, Allah **"saleh müsəlmanların qoruyucusu"**dur.

## Münafiq, sosial media hesablarında dini xatırladan mövzuları heç vaxt görmək istəməz

**Müsəlmanlar, bircə şey paylaşmaqla on minlərlə insanla təmas yarada biləcəkləri sosial şəbəkə imkanlarından, İslamı təbliğ etməkdə ən təsirli şəkildə istifadə etməyə çalışarlar.** İnsanları Allaha iman gətirməyə, Quran əxlaqını yaşamağa, səmimi müsəlman olmağa dəvət edən **hər cür yazı, şəkil, video və məlumatı** ən geniş kütlələrə çatdıra biləcək şəkildə sosial şəbəkə hesablarında paylaşarlar. **Profillərində isə özlərini eynilə həqiqətdə olduqları kimi, "Allah aşiqi, səmimi müsəlman" olaraq tanıtmaqdan qürur duyarlar.** Paylaşdıqlarıyla nə qədər dindar olduqlarını, Allahı nə qədər çox sevdiklərini, Quran əxlaqını yaşamaqda nə qədər həssas və şövqlü olduqlarını açıqca vurğulayarlar. **İnternetdə olan bütün sosial şəbəkə platformalarındakı digər müsəlmanların xeyirli fəaliyyətlərini də mümkün qədər dəstəkləyərlər. Faydalı və təsirli olacaq, Quran ayələrini izah edən, İslam əxlaqını təbliğ edən hər cür paylaşılan şeyi bəyənər və ya öz səhifələrində də paylaşarlar.**

**Münafiq isə müsəlmanların tam əksinə, paylaşılan bütün bu şeyləri paylaşmaqdan diqqətlə qaçar.** İslamın xeyrinə olacaq, dini gücləndirəcək, insanlara Allah sevgisini izah edən hər hansı məlumat və ya şəklin səhifəsində görünməsini qətiyyən istəməz. **Dindar müsəlman kimi görünməyi, Quran ayəsi paylaşmağı heç xoşlamaz.** Küfrü tənqid edən, dinsiz ideologiyaların ziddiyyətlərindən bəhs edən, Allahın mövcudluğunu elmi dəlillərlə göstərən məlumatları səhifəsinə əlavə etməyə isə heç vaxt yanaşmaz. **Özü bu**

**məlumatları əlavə etmədiyi kimi, müsəlmanların paylaşdıqları xeyirli şeyləri də "bəyənməz" və bu məlumatların yayılmasını istəmədiyi üçün, bunları "paylaş" seçimini təsdiqləməklə də öz səhifəsində paylaşmaz.**

Münafiq bunları etmədiyi kimi; insanlara Allahı sevdirən, Quran əxlaqını öyrədən, İslamın lehinə olan şeylər paylaşmaq əvəzinə, "**insanları İslamdan soyutmaq məqsədi daşıyan, küfr əhlinin, dinsizlərin, ateistlərin, azğın cərəyanları dəstəkləyən insanların paylaşdıqlarını bəyənib, bunları öz səhifələrində də paylaşar**". Bunların əksəriyyəti, **rumilik, homoseksuallıq, darvinizm cəfəngiyatı, ateizm, marksizm, kommunizm** kimi, insanları İslamdan uzaqlaşdıran azğın ideologiyaları müdafiə edən insanlardır. Buna baxmayaraq, **münafiq bu insanları açıqca dəstəkləməkdən və bunlarla dostluq qurmaqdan heç çəkinməz.**

Həmçinin münafiqin sosial şəbəkə hesablarında heç vaxt yer vermək istəmədiyi mövzulardan biri də "**münafiqlik**"dir. Çünki **bu, münafiqin eşitməyi heç vaxt istəmədiyi mövzulardan biridir. Bu mövzudan bəhs edən bir ayəni, məlumatı, videonu və ya şəkilli izahatı heç bir yerdə görmək istəməz. Buna görə də, müsəlmanların bu mövzudakı məlumatlandırıcı fəaliyyətlərini də qətiyyən öz səhifəsində paylaşmaz. Həmçinin bu mövzularda müxtəlif şeylər paylaşan, səhifələrində münafiqliklə bağlı çoxlu məlumat olan müsəlmanların sosial şəbəkə hesablarını da qətiyyən görmək istəməz.**

Lakin digər tərəfdən bunu açıqca tətbiq etməsinin, birlikdə olduğu müsəlmanların da diqqətini çəkəcəyini bilər. Buna görədə, **hər nə qədər istəməsə də hərdənbir, İslamın təbliğ edilməsində çox təsirli olmayacağını düşündüyü, bəzi səthi şeylər paylaşar. Lakin bunda da çox hiyləgər bir üsuldan istifadə edər. Müsəlmanların lehinə bir şey paylaşırsa, dərhal ardınca bunu düzəltmək üçün, insanları küfrə və azğın cərəyanlara özəndirəcək ən azı dörd-beş şey paylaşar.**

Bəzən də, **İslamın lehinə olan, zərurət qarşısında paylaşdığı şeyi, əsas səhifəsində ön plana çıxmasın deyə, onu tarix sırası ilə geridə qoyacaq və görülməməsini təmin edəcək şəkildə şeytani üsul işlədər.** Paylaşdığı bu şeyin ardınca hikmətsiz və boş məsələləri izah edən müxtəlif şəkillər, yazılar, videolar paylaşar və beləliklə də, İslamı izah edən məlumatı öz aləmində təsirsiz hala gətirdiyini düşünər. Başqa üsul olaraq da, "**paylaşma tənzimləmələrini**" yalnız inkarçı dostlarının görəcəyi şəkildə tənzimləyər və beləliklə də, şeytani təşəbbüslərini və küfrə dair paylaşdıqlarını müsəlmanların görməməsini təmin edər.

Münafiqin eyni məqsədlə işlətdiyi digər üsul isə; "**özünü büruzə verməmək üçün paylaşdığı İslami məlumatı əvvəlcə səhifəsinə əlavə edib müsəlmanların bunu görməsini təmin etmək; sonra da bir neçə saat ərzində bunu gizlincə silərək səhifəsindən götürmək**"dir. Bu hiyləgər üsulunu hər kəsin gördüyünü və nə məqsədlə etdiyini anladığını bilməsinə baxmayaraq, müsəlmanları aldatdığını zənn edərək həyasızca bu üsulu tətbiq etməyə davam edər.

## Münafiq, sosial media hesablarında müsəlmanları izləmək istəməz

Sosial şəbəkə platformalarında özlərini müsəlman kimi tanıtmaqdan diqqətlə qaçan və hətta bu vəziyyətdən ciddi şəkildə sıxıntı keçirən **münafiq, kompyuterini açdığı, internetə daxil olduğu və ya öz sosial şəbəkə hesablarına baxdığı zaman, heç vaxt Allahı xatırladan və Quran əxlaqını izah edən bir məlumat görmək istəməz.** Lakin münafiq, özünü müsəlmanlardan biri kimi göstərməli və dindar kimi tanıtmalı olduğundan da xəbərdardır. Məhz bu zərurət, münafiqin heç dözə bilmədiyi və ciddi şəkildə qəzəbləndiyi məsələlərdən biridir. Lakin buna baxmayaraq, zəruri hesab etdiyi üçün, ətrafındakı **müsəlmanlarla sosial şəbəkə üzərindən "takipləşmək" və** onların facebook, twitter, instaqram kimi platformalarda göndərdikləri "dostluq təkliflərini" qəbul etmək məcburiyyətindədir. Lakin bu vəziyyətin ortaya çıxartdığı mənzərə münafiq üçün daha da içindən çıxılmaz və çox çətin dözülən vəziyyət yaradır. Çünki məlum olduğu kimi, facebook, twitter və instaqram kimi sosial şəbəkə platformalarında, dost kimi qəbul edilən və ya izlənilən şəxslərin bütün paylaşdıqları, istər-istəməz qarşı tərəfin "əsas səhifəsi"ndə görünür. Bu təqdirdə insan, "dostlar siyahısı"nda olan və ya izlədiyi hər kəsin hər paylaşdıqlarını anbaan görmək məcburiyyətində qalar. Həmçinin müsəlmanlar da "müntəzəm şəkildə İslamı və Quran **əxlaqını təbliğ etdikləri, küfr əhlinin və münafiqlərin yanlış fəlsəfəsini izah etdikləri üçün", münafiq həmişə paylaşılan bu şeylərlə üz-üzə gələr.** Məhz bu da münafiqi hövsələdən çıxardar. Çünki **bu şərtlərdə qaçdığı hər cür məlumat onun qarşısına çıxır; eşitmək və ya görmək istəmədiyi hər cür ilahi mövzunu istəmədən oxumaq məcburiyyətində qalır.**

Məhz münafiqin bunun üçün tapdığı ağılsız çıxış yolu da; **"izlədiyi və ya dost olduğu müsəlmanları yavaş-yavaş və hiss etdirmədən dostlar və izlənilənlər siyahısından çıxartmaqdır".** Bəzən bununla da kifayətlənməz və qəzəbindən ötrü müsəlman şəxslərin səhifələrini **"blok edərək əngəlləyər".** Lakin bunun bilinməsi və diqqət çəkməsi ehtimalına qarşı münafiqin hazırladığı şeytani bəhanələri var. Məsələn, **internetdəki bir sistemin, onun hər hansı müdaxiləsi olmadan avtomatik şəkildən bu insanları dostlar siyahısından çıxartdığını və ya əngəllədiyini iddia edər. Hətta əks hücuma keçərək, əsas qarşı tərəfin özünü dostlar siyahısından çıxartdığını və ya blok etdiyini iddia edərək özünü müdafiə etməyə çalışar.** Praktikada belə ehtimalın baş verməsi texniki cəhətdən mümkün olmadığı halda, bu bəhanələrin əksini sübut etmək imkanı olmadığı üçün, münafiq hiyləgərcəsinə hərəkətini tamamlamış olar.

**Münafiqin dostlar siyahısında müsəlmanların olmasını istəməməsinin bir səbəbi də, küfr əhlindəki dostlarına müsəlmanlardan yana bir insanmış kimi görünmək istəməməsidir.** İnsanların; **"görəsən bu insan kimləri izləyir?"** deyə maraqlanıb baxdıqları zaman, öz aləmində **"inkarçı dostlarına qarşı göstəriş edə biləcəyi küfr əhlinin qabaqcıllarının görülməsini"** istəyər. Dostlar siyahısında müsəlmanlarla küfr əhlindən

olan şəxslərin sayı müqayisə olunsa, müsəlmanların sayının bir neçə nəfəri keçmədiyini, əksəriyyəti isə inkarçıların təşkil etdiyini görülməsini hədəfləyər.

Müsəlmanlar, əlbəttə ki, münafiqin bütün bu oyunlarını və bütün bunlarla necə bir nəticə əldə etməyə çalışdığını açıqca görərlər. **Lakin bunu unutmamaq lazımdır ki, münafiqin İslamı izah edən şeylər paylaşmaqdan qaçması, İslamın yayılmasına, insanların dəstə-dəstə Quran əxlaqına yaxınlaşmalarına heç vaxt əngəl törədə biləcək hərəkət deyil.**

**Münafiqin bu vəziyyəti başını quma salmış dəvəquşunun ağılsızlığına bənzəyir. Münafiq bu oyunlarıyla, İslamın təbliğini təkcə özünün görməsini əngəlləyə bilir. Lakin digər tərəfdən on minlərlə insan, müsəlmanların paylaşdıqları səmimi şeylər vasitəsilə küfrün və münafiqlərin oyunlarını görüb, İslam əxlaqını yaşamağa başlayar.**

## Münafiqin sosial mediadan küfr əhlindən tərəfdar toplamaq üçün istifadə etmə üsulları

**İnternet Allahın Axırzamanda yaratdığı ən böyük nemətlərdən biridir. Quran əxlaqının gözəlliklərini izah etmək, yeni dostlar əldə etmək, müsəlman əxlaqını dünyaya yaymaq üçün sosial media çox gözəl vasitədir.** Dünyanın müxtəlif guşələrindəki insanlar bu sayədə bir-birlərini tanıya bilir, qarşılıqlı görüşərək xeyirli fəaliyyətlər icra edə bilirlər. **"Twitter"**da tanış olduqları bir insanla dostyana söhbətlər edərək Allahı zikr edir, **"facebook"**da qarşılaşdıqları keçmiş dostları ilə ortaq fəaliyyət göstərmək imkanı tapa bilirlər.

Müsəlmanlar bütün bu sosial media platformalarından xeyirli məqsədlər üçün istifadə etdikləri halda, münafiqlər də bu imkanlarla küfr əhli olan əlaqələrini daha yaxşı hala gətirə bilməyin planlarını qurarlar. Çünki münafiqlər müsəlmanlarla birlikdə hərəkət edərlərkən mənfəət hesabları apardıqları kimi, küfr əhlinə yaxınlaşarkən də yenə mənfəətlərini qorumağı əsas götürərlər. Əllərindəki hər imkandan, küfr əhlindən, öz aləmlərində güclü gördüklərinə yaxınlaşmaq üçün istifadə etməyə çalışarlar. **"Görəsən onlara necə yaxınlaşa bilərəm?" Necə tanış olub, necə səmimi ola bilərəm?", "aralarında necə yer tuta bilərəm?", "imkanlarından necə istifadə edə bilərəm?"** kimi düşüncələrlə gizlincə və hiyləgərcəsinə həmlələr etməyə başlayarlar.

Məsələn, **twitter, facebook, instagram** kimi sosial media mühitlərində əvvəlcə **"dünya səviyyəsində ən məşhur olan adları müəyyənləşdirməyə"** çalışarlar. **Hər ölkənin mətbuatda, siyasətdə, iqtisadiyyatda ən qabaqcıl, ən dərin əlaqələrə, ən geniş kütləyə və ən güclü maliyyə resurslarına sahib təşkilatlarını tapıb, bunların rəhbərlərini tək-tək izləməyə başlayarlar.** Sonra bu kəslərin diqqətlərini üzərlərinə çəkə bilmək üçün, onların yazdıqları yazılara, özlərini görmələri üçün bu kəsləri də **"etiketləyərək" diqqətçəkən cavablar yazarlar. Yazılarının altındakı "bəyən" seçimini işarələyərək, bir daha onlara duyduqları simpatiyanı ifadə edib fərq edilməyə çalışarlar.** Həmçinin onların yazdıqları

yazıları, **“twitter”**dəki **“retweet”** və ya **“paylaş”** seçimlərindən istifadə edərək, öz sosial media səhifələrində də yayımlayaraq onlara duyduqları rəğbət və heyranlıqlarını göstərə bilməyi ümid edərlər. Bu mərhələdə, əgər planladıqları kimi qarşı tərəfin diqqətini çəkə bilməyi bacarsalar, **bundan dərhal sonra bilavasitə “xüsusi mesajlaşma” hissəsindən yazışmağa başlayaraq bu kəslərin dostluqlarını qazanmaq yoluna gedərlər.**

Bütün bunlar, əlbəttə ki, adi bir insanın da, sosial media platformalarında demək olar ki, hər gün tez-tez edə biləcəyi olduqca normal hərəkətlərdir. Lakin münafiqlər bu təfərrüatlardan səmimiyyətsiz şəkildə istifadə edərək hiyləgərcəsinə və saxtakar üsullarla şeytani hədəflərinə çata bilməyi ümid edərlər.

Məqsədləri, bu kəslərdən istədikləri kimi mənfəət əldə edə bilməkdir. **Bu kəslərin ölkə xaricindəki imkanlarıyla xarici bir ölkəyə gedib orada yerləşib yaşamaq fürsətini qazanmağı yaxud orada özlərinə yaxşı bir iş tapmağı yaxud da yaxşı qrup içərisinə girərək etibar qazana bilməyi ümid edərlər. Sonra da əldə etdikləri bu imkanlarla öz aləmlərində müsəlmanlar əleyhinə daha təsirli fəaliyyət göstərə biləcəklərini düşünərlər.**

Cahil mühitdəki insanlar, **münafiqlərin göstərdiyi bu xarakteri,** öz aralarında istifadə etdikləri deyimlə **“tərəfdarlıq” kimi adlandırırlar.** Bu, inkar edən və münafiqlik edən bütün insanlarda görülən ortaq bir xarakter xüsusiyyətidir. Dolayısilə hər iki tərəf də bir-birinə eyni **“mənfəətpərəst baxış prizması”** ilə yaxınlaşır. Münafiq işlətdiyi üsullarla onlardan mənfəət əldə edə bilməyi ümid edərkən; aydındır ki, küfr əhlindəki yaranmağa çalışdığı insanlar da münafiqdən necə istifadə edə biləcəklərinin planlarını qururlar.

**Bu məqamda münafiqi bu ikiüzlü və hiyləgər təşəbbüslərindən döndərə bilməyin yolu, mənfəət gözlədiyi mənfəət mərkəzlərinə istiqamətli şəkildə oynadığı hiyləgər oyunlarını ifşa etmək və əlaqə yaratmağa çalışdığı insan və ya təşkilatların, Allahın sonsuz qüdrəti qarşısındakı gücsüzlüyünü ona sübut etməkdir.** Özünə böyük mənfəətlər təmin edəcəyini ümid etdiyi mərkəzlərin öz gözündə alçaldığını düşünməsi münafiqi məyus edər. **Gözündə böyütdüyü o məşhur və tanınmış insanların, məşhur təşkilatların, adi bir struktura çevrildiyini görmək münafiqin geri çəkilməsinə səbəb olar.** Rəzil-rüsvay olduğunu gördüyü insanların artıq özünə heç nə qazandıra bilməyəcəyini düşünər. Məhz buna görə də belə vəziyyətlə qarşılaşdığı vaxt, bu şəxslərə və ya təşkilatlara istiqamətli yaltaqlanmaq səyindən imtina edər.

**Lakin, əlbəttə ki, bu müvəqqəti ləngimədir və çox qısa müddətlidir.** Münafiq imkan tapdığı ilk fürsətdə şeytanın ilhamı və şeytani zəkasıyla, küfr əhlinə yaxınlaşa biləcəyi yeni imkanlar tapmaq üçün mütləq yeni bir hiyləgər fəaliyyətə daha girişəcək.

# Münafiqin kəşfiyyat və casusluq fəaliyyəti

## Mühüm bir münafiq xüsusiyyəti: Hiss etdirməmək

Münafiqlər, şeytanın zəkasıyla hərəkət etdikləri üçün bir çox mövzuda **“dərrakəli şəkildə planlar qura bilər və məharətlə oyunlar oynaya bilərlər”.** Şeytanın ilham etdiyi zəka oyunları ilə ətrafındakı **“bir çox insanı istədikləri kimi istiqamətləndirə, razı sala və ya öz tərəfdarları halına gətirə bilərlər”.** Özlərini, səmimiyyətsizliklərini, həqiqi məqsədlərini və oyunlarını hiyləgərcəsinə gizlədə bilərlər.

Tarix boyu münafiqlər şeytanın üsullarından istifadə edərək çox hiyləgərcə oyunlar oynamış, çox sayda qaranlıq iş görmüşlər. Hər birində də özləri, pərdə arxasında qalaraq hiyləgərcə gizlənmiş və hadisələri təşkil edib, idarə edən kəslər olaraq başqalarını ön plana çıxartmışlar. **Bu, münafiqlərin çox tez istifadə etdikləri mühüm üsuludur: etdikləri hər bir hərəkət üçün, “günahı üstlərinə ata biləcəkləri” bəzilərini taparlar.** Bu bəzən **“xalq arasındakı adi bir insan”**, bəzən **“bir təşkilat”**, bəzən də **“dövlətlər və ya hökumətlər”** belə ola bilər. **Oynadıqları oyunun miqyası nə qədər böyükdürsə, günahlandıracaqları mərkəzlər də bir o qədər əhəmiyyət qazanar.** Beləliklə insanlar, cəmiyyətlər və ya dövlətlər, bir hadisənin məsulu olaraq təqdim edilən başqa bir hədəfin arxasınca gedərkən, bu hiyləgər oyunu oynayanlar da, arxa planda rahat-rahat planlarını icra etməyə davam edərlər.

Məhz bu, münafiqlərin və onlardan hiyləgərcəsinə öz mənfəətləri istiqamətində istifadə edən mərkəzlərin əsas xüsusiyyətlərindən biridir: **hiss etdirməmək və büruzə vermədən çirkli oyunlar oynamaq...**

**Lakin münafiqlər oyunlarının nə vaxtsa puç olacağından xəbərsizdirlər.** Ağlasığmaz lovğalıq, düşüncəsizlik və yuxarıdan aşağı baxma ruhu içərisində, özlərinin hər kəsdən xeyli üstün ağıla sahib olduqları zənninə qapılarlar. Halbuki onları bu aldanışa sürükləyən təkcə şeytanın hiyləgər zəkasıdır. Lakin şeytan da, münafiq də Allahın ayələrdə bildirdiyi kimi, **“səmimi iman”** qarşısında mütləq məğlub olmağa məhkumdur. Allah Quranda; **“ona bir tələ qurmaq istədilər, lakin Biz onları daha çox ziyana uğrayanlar etdik”** (Ənbiya surəsi, 70) deyə bildirir.

**Dolayısilə münafiqlər, özlərini gizlədərək bu hiyləgər oyunlarını səmimi müsəlmanlara oynamağa cəhd etdikləri vaxt, (nə qədər inandırıcı və qəti dəlillərlə ortaya çıxsalar da), Allah səmimiyyətsizliklərini müəyyən şəkildə iman gətirənlərə göstərər və onları məğlub edər.** Allah inkarçılarla münafiqlərin gizli oyunlarla əldə etdikləri şeytani gücü mütləq təsirsiz hala gətirər və əsil təsirli olan gücü səmimi müsəlmanların tərəfinə verər. Quranda münafiqlərin qarşılaşacaqları bu mütləq məğlubiyyət belə bildirilmişdir:

**Bir zaman kafirlər səni həbs etmək, öldürmək və ya yurdundan qovmaq üçün sənə qarşı hiylə qururdular. Onlar hiylə işlətdilər, Allah da hiylə işlətdi. Allah hiylə işlədənlərin ən yaxşısıdır. (Ənfal surəsi, 30)**

## Münafiq, inkarçı dostlarıyla gizli və xüsusi bir dildən istifadə edərək razılaşar

Münafiqlər, inkarçılar və digər münafiqlərlə əlaqə qurarlarkən müsəlmanlar tərəfindən fərq edilmə ehtimalını nəzərə alaraq, **"yalnız özlərinin anlayacaqları xüsusi bir dillə danışarlar"**. İfşa olduqları təqdirdə, **"açıqlayaraq yalanlaya biləcəklərini"** düşündükləri bir danışıq tərzləri vardır. Müsəlmanlar əleyhinə açıqca bəyanatlar vermək əvəzinə, əldə etdikləri məlumatları **"şifrəli dillə"** qarşı tərəfə ötürərlər. Münafiqlər, inkarçılar və digər münafiqlərlə olan hər əlaqələrində, diqqətlə bu xüsusi dili işlədər və qətiyyən özlərini ələ verməməyə diqqət yetirərlər.

Münafiqlər küfr əhli ilə əlaqə yarada bilmək üçün olduqları müxtəlif mühitlərə uyğun, müxtəlif **"xəbərləşmə və mesajlaşma üsulları"** meydana gətirərlər. Əsasən də indiki vaxtda geniş şəkildə istifadə edilən **sosial mediadakı ünsiyyət imkanları, münafiqlərin xəbərləşmələri və bir-birlərinə mesaj göndərmələri baxımından çox münasib mühitlərdir**. Münafiq bu platformalarda, xüsusi bir dildən və hiyləgər üsullardan istifadə edərək küfrdəki dostlarına və ya münafiq tərəfdarlarına xəstə fikir və düşüncələrini çatdırar. Gələcəyə dair planları və ya istəkləri barədə onlara gizli mesajlar verər. **Müsəlmanlardan əldə etdiyi məlumatları da, yenə bəzən bu cür gizli mənalar daşıyan şifrəli mesajlarla küfr əhlində əlaqə saxladıqları kəslərə yönəldər.**

Təmiz və əlaqəsiz məntiqlə düşünən bir insanın heç vaxt ağlına gəlməyəcək **yazılar, şeirlər, kitab adları, sitatlar, simvollar, şəkillər, videolar və ya bənzəri paylaşmalardan; münafiqlər və küfr əhli arasında dərin mənalar daşıyan mesajlar kimi istifadə edilə bilər.** Məsələn, bir insanın internetdə yayımladığı bir **"müşahidə qülləsinin tarixi portreti"**, münafiqin məntiqini bilməyən biri tərəfindən olduqca **"günahsız, hətta incəsənət paylaşması"** kimi qiymətləndirilə bilər. Lakin **münafiqin dilində bu, bu portreti çəkən sənətkarın ölkəsindəki dərin dövlət strukturlarının casusluq və kəşfiyyat fəaliyyətlərinə diqqət çəkə bilər.** Yaxud **"müəyyən məkanın, dənizin və ya gölün şəkilləri" öz aralarında xüsusi məna daşıyan mesajlar kimi işlədilə bilər.** Adi görünən **"tək bir söz"** belə başqa insanların anlamayacağı; lakin münafiqlərin öz aralarında istifadə etdikləri **"xüsusi bir şifrə"** ola bilər. Eynilə münafiqin sosial media hesablarında izlədiyi, paylaşdıqlarını **"twitter"**-da **"retweet"** etdiyi, yaxud digər saytlarda **"paylaşdığı"** və ya **"bəyən"** variantını işarələdiyi kəslər, yaxud da paylaşdığı özünəməxsus bir şeydə **"etiketlədiyi"** insanlar və ya bir şey paylaşarkən yanına əlavə etdiyi, axtarıldığı zaman tapılmasını təmin edəcək **"etiketlər"** də, həmişə bu şəkildə gizli mesaj və ya müəyyən məna daşıya bilər.

Lakin münafiqlərin, küfr əhli və tərəfdarlarıyla dialoqlarında işlətdikləri bu "xüsusi və şifrəli dil" həmişə danışılaraq tətbiq edilməz. Münafiqlər bir-birləri ilə gizlincə razılaşıb mesajlaşmaq istədiklərində **bəzən də, bu hiyləgər və gizli işarələşmə üsulundan "üzlərini şəkildən şəklə salmaqla" istifadə edərlər**. Bir münafiq, fərqli mənalar daşıyan onlarla mimika hərəkətiylə qarşısında oturan digər münafiq xarakterli insana, ağzını heç tərpətmədən çox əhatəli mesajlar verə bilər. Öz aləmlərində müsəlmanların görmədiyini düşündükləri anlarda bir-birlərinə **"qaş-göz hərəkəti"** ilə nə düşündüklərini, nə etmək istədiklərini dərhal təsvir edə bilərlər. Məsələn, bir münafiq bir müsəlmanla danışarkən, onun üzünə baxıb dediyini qəbul edirmiş kimi görünsə də, dərhal arxasında dayanan tərəfdarına qaşlarını hiyləgərcə qaldıraraq, **"əslində o deyiləni qəbul etmədiyi"** mesajını verər. Yaxud müsəlmanlarla danışarkən mülayim üslubla **"oldu, yaxşı"** deyərkən, ağzını azacıq yana doğru əyərək qarşısındakı digər münafiqə lağlağı şəkildə gülümsəyər. Öz aləmində o müsəlmanın sözlərini əslində nəzərə almadığı mesajını vermiş olar.

Allah Quranda münafiqin bu səmimiyyətsiz və hiyləgər xarakterini müsəlmanlara çox təfərrüatlı şəkildə tanıtmışdır:

**Doğrudan da, günah edənlər iman gətirənlərə gülürdülər, onların yanından keçdikdə bir-birinə qaş-göz edirdilər, öz ailələrinin yanına fərəhlə qayıdırdılar, möminləri gördükdə isə deyirdilər: "Həqiqətən, bunlar azmışlardır!". (Mutaffifin surəsi, 29-32)**

Münafiq digər tərəfdarlarıyla bu yolla işarələşərək mesajlaşmadan əvvəl, bəzi hiyləgər təsbitlər edər. Əvvəlcə olduğu mühitdə kimin sağlam xarakterli və dindar olduğunu, kimin isə daha zəif xarakterli və daha səthi imana sahib olduğunu məharətlə müəyyən edər. Özü də xəstə olduğu üçün, başqa kimin qəlbində xəstəlik olduğunu görər. Hiyləgərliyi, sədaqətsizliyi, qəddarlığı, cinayət işləmə soyuqqanlılığını, bir sözlə, münafiq əlamətlərini çox yaxşı bildiyi üçün, başqa bir münafiqi də dərhal tanıyar. Ardınca da bəhs edilən **"gizli və şifrəli işarələşmə üsullarını"** da bu şəxslərə qarşı tətbiq edər. Şeytanın gizlincə insanlara yaxınlaşması kimi, münafiq də gizlincə zəif imanlı, zəif xarakterli, zəif ağıllı kəslərə yanaşar. Əvvəlcə sınaq keçirər və ortaya sanki yem atar. Məsələn, müsəlmanların ən güvəndikləri kəslərdən birini hiyləgərcə ittiham edər. Əgər qarşısındakı insan buna reaksiya verməz və qarşı çıxmazsa, münafiq bu insanın yemi udduğunu düşünər. Sonra da torunu xeyli dolamağa başlayar və bu kəslərlə istədiyi mimikalarla, qaş-göz işarələriylə gizli və şifrəli şəkildə mesajlaşmağa başlayar.

Lakin bunu heç vaxt unutmamaq lazımdır ki, münafiq başdan məğlubiyyətə uğramış şəkildə yaradılmış varlıqdır. Nə qədər çalışsa da; nə qədər gizli və hiyləgər üsullar işlətsə də, münafiqin aqibəti mütləq ziyana düçar olmaq olacaq. Bəlkə küfr əhlindəki dostlarıyla və ya münafiq tərəfdarlarıyla bu şifrəli mesajlarıyla ittifaq yaradıb **"bir neçə müvəqqəti mənfəət"** əldə edəcək. Lakin qısa müddətdə əlindəki hər şey tükənib

yox olacaq. Münafiq mütləq Allahın hüzuruna tək və tənha çıxacaq və etdiklərindən ötrü haqq-hesaba çəkiləcək. Həmçinin ölümündən əvvəl tövbə edib bu hiyləgər əxlaqından imtina etməyibsə, əbədi əzabla qarşılaşacaq.

Allah Hüməzə surəsinin ilk ayəsində **“arxasınca qeybət edən, qaş-göz hərəkətləri ilə lağ edən hər insanın vay halına”** sözləriylə, bu şeytani işarələşmənin çirkinliyini, bu kəslərin dünyada və axirətdə düşəcəkləri alçaq mövqeyə diqqət çəkmişdir.

**Adnan Oktar**: “Münafiqlərin qaşı, gözü, ağzı, burnu, hər yerləri oynayar. Çox hiyləgərdirlər”. Həqiqətən, “cinayət və günah işləyənlər,” kimi iman edənlərə gülüb keçərlərdi” (Mutaffifin surəsi, 29) Tülkü kimi lağ edirlər.” Yanlarına vardıqları zaman , bir-birinə qaş-göz edirdilər” (Mutaffifin surəsi, 30). Yəni işarə ilə danışırlar; məsələn, rumiliyin işarələrindən istifadə edir və ya şəkil simvollarıyla razılaşırlar. Məsələn, **“açıq qapı”**, **“oradan qaç”** mənasını verir. **“Açıq qapı”**, **“müsəlmanlıqdan çıx”** mənasına gəlir. Münafiqlər olaraq öz aralarında elə xəbərləşmə dilləri var”. (A9 TV, 1 iyun 2016)

**Adnan Oktar**: **“Münafiq yazılarında, danışıqlarında həmişə gizli mesajlar verər. Münafiqin dili çox gizlidir. Münafiq, məsələn, qaş-göz hərəkətləri ilə də danışar.** Bir cəmiyyətdə bir qaş hərəkəti və ya bir göz hərəkəti edər; əgər qarşısındakı da münafiqdirsə onun mesajını alar. **Quranda bildirilir, “qaş-göz işarələriylə, müxtəlif mimikalarla razılaşırlar”. Məhz bu onların gizli və şifrəli danışıqlarının əlamətidir.** Danışıqları çox gizli və hiyləgər olar. O danışığından onun bütün pis əxlaqı, kini və nifrəti aydın olar. Məsələn, Peyğəmbərə düşməndir, müsəlmanların sevdiyi insanlara düşməndir. Ağzından sanki lağım axar. Çox kin doludur, nifrət doludur. Dərhal buradan anlayarsan. **Münafiqlərin küfr əhli ilə saatlarla davam edən, çox uzun və gizli, səhifələrlə yazışmaları olar. Baxın, öz aralarındakı bu gizli yazışmalarında tək sözdə belə Allahdan bəhs etməzlər. Millət yatarkən onlar saatlarla yazışarlar. Tənha yerlərdə, səssiz yerlərdə belə yarasa kimidirlər, qaranlıqlar içində uçan yarasa kimi. Kimə nə vaxt yapışacağı da bəlli olmaz münafiqlərin”.** (A9 TV, 24 yanvar 2016)

## Münafiqin küfr əhli ilə olan pis ittifaqı: Agentlik və casusluq

Münafiqlər, inkarçılara heyranlıq duyduqları və onlar arasında yer tutmağa çalışdıqları üçün, onların dostluğunu qazana bilmək naminə lazım olan hər şeyi etməyə hazırdırlar. Məhz gözlərində böyütdükləri bu insanların etimadlarını qazanıb onların dünyalarında yaxşı bir yerə gələ bilmək üçün müraciət etdikləri ən çirkli üsullardan biri də, **“müsəlmanlar əleyhinə agentlik və casusluq fəaliyyətləri”** göstərmələridir.

**Tarix boyu müsəlman dövlətlər üzərində oynanılan oyunlarda, bəzi dövlətlərin dağılmasında, zəiflədilməsində və ya qarışıqlığa sürüklənməsində də yenə həmişə, bu cəmiyyətlər içərisində hiyləgərcə fəaliyyət göstərən münafiqlər rol oynamışdır.** Özlərini müsəlmanların cərgəsindəymiş kimi tanıdan bu ikiüzlü insanlar, iman gətirənlər əleyhinə məhvedici hərəkətlər etmək istəyən inkarçılara hər cür dəstəyi veriblər.

Münafiqlər bütün bu kəşfiyyat fəaliyyətlərini sanki şeytani bir impulsla həyata keçiriblər. Ruhlarındakı dünya ehtirasını, küfr əhlinə olan heyranlıqlarını və insanların gözünə girə bilmə arzusunu görən şeytan, münafiqlərlə sanki dərin transa keçər. Həmçinin şeytanın ilhamı ilə münafiqlər, artıq küfr əhlinə məlumat daşımağı öz aləmlərində "müqəddəs vəzifə" kimi görməyə başlayarlar. Müsəlmanlardan gizlin və hiyləgərcə bir şeylər etməyin və bunun nəticəsində də gizli mənfəətlər əldə edə biləcəklərini ümid etməyin verdiyi həyəcan, münafiqin ruhunda şeytani həzz meydana gətirər.

Quranda; **"onlar tərəddüd edir, nə bunlara, nə də onlara tərəf olurlar..."** (Nisa surəsi, 143) ayəsiylə bildirildiyi kimi, münafiqlər nə inkarçıların, nə də müsəlmanların tərəfini tutan rəftar göstərərlər. İman gətirənlərlə birlikdə olmalarına baxmayaraq, küfr əhlinə qarşı daha dərin heyranlıq duyarlar. Buna görə də mümkün olan hər imkanda, onlarla olan yaxınlıqlarını artırmağa və əlaqələrini daha da gücləndirməyə çalışarlar.

Dolayısilə münafiqlərin bu baxış prizmalarını bilən **inkarçıların, qəlbləri imanla küfr arasında gedib gələn bu kəslərə yanaşmaları və onları istədikləri kimi yönləndirmələri xeyli asan olar.** Küfr əhlinə heyranlıq duyan münafiqlər, cəmiyyətdə (öz cahil meyarlarına görə) göstərişli yerlərə gələ bilmiş kəslərlə, az da olsa yaxınlıq yarada bilmək üçün nə lazımdırsa etməyə hazırdırlar. **Dünya səviyyəsində tanınan bir qəzetin bir köşə yazarı, məşhur bir televiziya kanalında proqram prodüseri, adı eşidilmiş bir siyasi analitik, qabaqcıl bir beyin mərkəzinin rəhbəri və ya mühüm bir vəqfin qurucusu mövqeyindəki insanlarla yalnız tanış ola bilmək və ya onlara öz adlarını eşitdirə bilmək ehtimalı belə, münafiq xarakterli insanlarda böyük həyəcan yaradar.** Onlarla yalnız bir neçə kəlmə belə olsa danışa bilmək və diqqətlərini çəkib rəğbətlərini qazana bilmək üçün, özlərini əhəmiyyətli, qabiliyyətli və söz sahibi biriymiş kimi tanıtmağa çalışarlar. **Gələcəkdə bir gün bu insanların sahib olduğu məqam, mövqe və etimad kimi imkanlardan, bir ehtimal belə olsa istifadə edə bilmə ümidi içərisindədirlər. Bəlkə bir gün onların da tanınmış bir jurnal və ya qəzetdə köşə yazısı çıxa biləcək, bəlkə tanınmış və xarici bir televiziya kanalında qısa müddətə də olsa görünüb bir neçə söz deyə bilmə imkanı qazana biləcəklər.** Belə fürsətlərdən istifadə edə bilmək, münafiqlər üçün dünyadakı hər şeyə bədəldir.

Məhz münafiq xarakterli insanlardakı bu zəifliyi çox yaxşı bilən inkarçı mərkəzlər də, **"içlərində amansız əcnəbi heyranlığı bəsləyən, yüksəlmə hərisliyi və şöhrət hərisliyi içində olan bu insanları tək-tək müəyyən edərlər".** Zəifliklərindən ən yaxşı şəkildə istifadə edib onlara **"ən diqqətçəkən təkliflərlə"** yaxınlaşarlar. Əldə etdikləri kiçik mənfəətlərlə çox

inandırıcı bir zəmin yaradar və nəticədə də **onları özlərinə ən yaxşı şəkildə xidmət edəcək, istədikləri hər şeyi edə biləcək hala gətirərlər. Qısa müddət ərzində bu insanlar, birlikdə olduqları müsəlmanlara, ən yaxın yoldaşlarına, ailələrinə və hətta öz millətlərinə, dövlətlərinə belə, ən xain şəkildə xəyanət edə biləcək; ən düşməncə üslublarla danışıb yazılar yaza biləcək bir həddə gəlirlər**.

Məhz müsəlman cəmiyyətləri dağıdıb zərərsizləşdirməyi qarşısına məqsəd qoyan şeytani qüvvələr üçün, küfr əhlinə böyük heyranlıq duyan münafiq xarakterli bu insanlar əldə olunmaz fürsətdir. Onların bu zəifliklərindən istifadə edərək, onları **"bir oyuncaq kimi necə yönləndirəcəklərini", "hansı vədlərlə onları asanlıqla razı sala biləcəklərini"** çox yaxşı bilirlər. Bir neçə kiçik mənfəət qarşılığında, onlara istədikləri hər şeyi etdirə biləcəklərini və özlərindən asılı hala gətirə biləcəklərini fərqindədirlər.

Burada bu açıq həqiqəti çox açıq şəkildə dərk etmək lazımdır ki; **inkarçılarla münafiqlər arasındakı alver tələbi və mənfəət gözləntiləri tamamilə qarşılıqlıdır.** Hər iki tərəfin də ən çox istədiyi şey, digərindədir. Məhz bu vəziyyəti gördükləri andan etibarən də, çirkli və hiyləgər bir ittifaqın ilk addımlarını atmağa başlayarlar.

## Dünya səviyyəsindəki bütün dərin və şeytani təşkilatlar, agentlik fəaliyyətlərində münafiqlərdən istifadə edərlər

Münafiqlərin **"göstərişə, mövqeyə, etimada olan heyranlıqlarını və bir yerlərə gələ bilmək məsələsindəki dəlisov hərsiliklərini"** bilən dərin şeytani strukturlar, onlara bu istədiklərini vermək üçün dərhal hərəkətə keçərlər. **Bu mərhələdə ya özlərini əhəmiyyətli və həlledici mövqelərdə vəzifə yerinə yetirən, geniş ətraf və səlahiyyət sahibi kəslər kimi tanıdar, ya da hal-hazırda onsuz da bu mövqedə olan kəslərdən, bir oyuncaq kimi istifadə edərlər.** İkinci mərhələdə isə, **bəzən sosial media yolu ilə, bəzən bir tanış vasitəsilə, bəzən də birbaşa yoldaşlıq quraraq münafiq xarakterli insanların diqqətini çəkməyə çalışarlar.** Məhz bu məqamda hər iki tərəfin də axtarıb da tapa bilmədiyi fürsət artıq qarşılarına çıxmışdır.

**Münafiq xəyal etdiyi pillələri çıxmasına köməkçi olacağına inandığı bu insanların hər cür istək və gözləntilərinə böyük şövqlə cavab verər.** Bunun nəticəsində də, dərin dövlətin agentləri qısa müddətdə münafiqlərin tez-tez yazışdıqları, uzun-uzadı söhbət etdikləri, hər mövzuda köməkləşdikləri yaxın dostlarına dönərlər. Həmçinin **bu yaxın söhbətlərin hər birində, özləri kimi bir agent olaraq istifadə etmək istədikləri bu münafiq xarakterli insanlara daha da çox etimad verməyə çalışarlar.** Onları **"nə qədər çox sevdiklərinə, dəyər verdiklərinə, həyatları boyu hər çətinliklərində, hər ehtiyaclarında onlara əllərindən gələnin ən artığı ilə kömək edəcəklərinə, heç vaxt tək qoymayacaqlarına, maddi-mənəvi hər mövzuda dəstəkləyəcəklərinə"** inandırarlar. Belə bir dostluğa inanmaları üçün də, hərdənbir onlara mühüm mənfəətlər təmin edər, onları nə qədər yaxşı qoruduqlarını sübut etməyə çalışarlar. **"Sən hər kəsdən daha fərqli, daha**

**qabiliyyətli bir insansan; sənin insanlar üzərində çox fərqli təsirin var; üslubun, izahatın, yazıların çox təsiredicidir**" kimi bəzəkli sözlərlə, onlara "**özlərini xüsusi hiss etdirəcək**" komplimentlər deyərlər. "**Onlardakı bu üstün xüsusiyyətləri ən yaxşı özlərinin gördüyünü, başqalarının isə bu xüsusi qabiliyyəti görüb təqdir edə bilmədiklərini**" söyləyirlər. Dolayısilə onlara layiq olduqları dəyəri verə biləcək yeganə insanların özləri olduğunu eyham edərək, münafiq xarakterli kəsləri özlərinə bağlamağı bacararlar.

Münafiq xarakterli insanlar isə, özlərinə göstərilən bu diqqətdən xeyli məmnundurlar. Həqiqətən güclü dostlar qazandıqlarını düşünərək onlara daha da çox yanaşarlar.

Özlərini bəzən "**mühüm yazıçı**", bəzən "**tanınmış həkim**", bəzən də "**mühüm siyasi məsləhətçi**" və ya "**dünyanın ən böyük təşkilatlarının qabaqcıl adlarından biri**" kimi tanıdan bu kəslər, əslində bəzi "**dərin strukturların ən qabaqcıl agentləri**"dir. Məqsədləri istiqamətində yönləndirməyi hədəf aldıqları bu insanlar vasitəsilə, eyni zamanda da "**işlərinə yarayacağını düşündükləri hər cür məlumat və sənədə çata bilməyi**" planlaşdırırlar. Bu, bəzən adi "**şəxsi məlumat**" ola biləcəyi kimi, bəzən də "**bir dövləti yox etməyə, zəiflətməyə, xaosa sürükləməyə, etimadını zədələməyə və ya digər bir ölkə ilə anlaşmazlığa düşməsinə**" səbəb olacaq "**gizli dövlət sirləri**" də ola bilər. Hədəflərinə nail ola bilmək üçün, oyuncaq olaraq seçdikləri münafiq xarakterli insanlara, "**onları çox sevən, qoruyan, onlar üçün hər cür fədakarlığı etməyə hazır olan yaxın dost**" kimi görünərlər. Məsələn, qarşılarındakı insan həkimdirsə, "**mən səni çox sevirəm. Çox qiymətli, qabiliyyətli və peşəsində də gələcək vəd edən bir insansan. Buna görə də gəl səni həkimlərin başçısı edək**" kimi sözlər söyləyərək ona mənfəətlərinə uyğun yeni imkanlar təmin edərlər. Sonra da, bu münafiqlər vasitəsilə, çatmaq istədikləri daha əhəmiyyətli kəslər və daha həlledici mərkəzlər haqqında məlumat əldə etmək axtarışına girərlər. Bu yolla münafiqlərdən istifadə edərək hiyləgərcəsinə əlaqə yaratdıqları bu insanların arxasından heç əl çəkməzlər.

Gün ərzində mümkün olan hər mərhələdə bu kəslərlə əlaqə halında olmağa cəhd edərlər. **Uzaqdadırlarsa mesajlaşma və ya telefon danışıqları yolu ilə; yaxınlarındaysalar da həmişə birlikdə olmağa çalışaraq, mümkün olan hər məlumatı toplamağa çalışarlar.** Yemək yeyərkən, dərs öyrənərkən, hətta yatarkən belə bəlkə ağzından bir söz buraxar, bəlkə bir açıq və ya işarə verər deyə yanlarından ayrılmazlar. Çünki onlara görə hər an əhəmiyyətli bir məlumatın gündəmə gəlməsi mümkündür. Bir insan nə qədər iradəsindən istifadə etsə də, dalğın olub bir açıq verə bilər. Çirkli əlaqələri və xaincə hədəfləri olan insanların istifadə edə biləcəyi, bağlı olduqları dərin strukturları maraqlandıran mühüm bir məlumat ağzından çıxa bilər. Buna görə də, "**nə vaxt ağzından bir məlumat ala bilərəm?**" düşüncəsiylə həmişə bu insanların başında gözləməyə başlayarlar. **Beləliklə onlar da topladıqları bütün bu məlumatları, dərhal mənsubu olduqları dərin strukturlara bildirərək, inanclı insanlar, cəmiyyətlər və ya dövlətlər əleyhinə fəaliyyətləri üçün istifadə etmə imkanı taparlar.**

## Tarixdəki bütün mühüm şəxslərin yanına, dərin şeytani təşkilatlar üçün məlumat toplayan münafiq agentlər yerləşdirilib

Tarixi mənbələrdə, "kəşfiyyat təşkilatlarının münafiqlərdən istifadə edərək göstərdikləri casusluq fəaliyyətlərinə" dair çox müxtəlif nümunələr var. Çünki əgər bir yerdə haqq olan bir dava, müvəffəqiyyətli bir haqq din mübarizəsi vardırsa, bunun qarşısında şeytani bir strukturun olmaması da qeyri-mümkündür. Bu, Quranda bizə bildirilən Allahın bir qanunudur. Dolayısilə, haqqa qarşı batil düşüncələrini hakim etmək istəyən mərkəzlər olacaq, həmçinin, əlbəttə ki, bu qruplar, qalib gələ bilmək üçün əllərindən gələn hər cür hiyləgər və xaincə oyunu oynayacaqlar. Çünki haqq, küfrü fikrən əzər və məğlub edər. Dolayısilə küfr də refleks olaraq özünü müdafiə etməyə və buna mane olmağa çalışar. Bunun üçün də haqq yolda gedən iman gətirənlərin arasına mütləq **"xəbərçilik edəcək kəşfiyyatçılar"** yerləşdirmək istəyər. Allah müsəlmanlar arasında qalaraq, küfr əhlinə məlumat aparan münafiq xarakterli insanların küfr əhli ilə olan çirkli ittifaqına bir ayədə **"...aranızda onlara "xəbər daşıyanlar" var..."** (Tövbə surəsi, 47) sözləriylə diqqət çəkmişdir. Bu ayə, tarixin başlanğıcından indiyədək yaşayıb-ölmüş və gələcəkdə də yaşayacaq olan bütün müsəlman cəmiyyətləri üçün qüvvədədir.

Məsələn, **Osmanlı imperiyası** dövründə, hiyləgər və ikiüzlü münafiqlər kiçik bir məlumat belə əldə edə bilmək üçün, **sultan Əbdülhəmidin** yanından heç ayrılmadan gözləmişdilər. Həmçinin bu yolla bir çox məlumat toplamağı da bacarmışdılar. **Bəziləri saray həkimi, bəziləri məsləhətçi, bəziləri də sultan Əbdülhəmidin guya ən yaxın dostları olaraq sarayda özlərinə həlledici mövqelərdə müəyyən yer tutmuşdular.** Bu kəslər gecə yarısına qədər padşahın yanından ayrılmırdılar. O da, bəlkə də bu insanların etibarlı, sadiq və özünə bağlı kəslər olduğunu zənn edirdi. Halbuki **onun yanında qalmaqdakı tək məqsədləri məlumat əldə etmək idi. Həmçinin əldə etdikləri bütün məlumatı, Osmanlı dövlətini parçalamağı hədəfləyən o dövrün İngiltərə Dərin Dövlətinə ötürdülər.** Ardınca da məlum olduğu kimi sultan Əbdülhəmidi maddi-mənəvi gözdən saldılar və vəzifəsindən götürərək zərərsizləşdirdilər.

Münafiqlərin bu cür cəhdləri Osmanlı imperiyası dövründə başa keçən hər padşahla birlikdə davam etdi. Münafiqlər Fateh Sultan Mehmedin yanına da, sultan Süleymanın yanına da, həmçinin bütün şahzadələr və saray böyüklərinin yanına da, həmişə bu hiyləgər üsullarla yanaşdılar.

## Münafiqlər, Peyğəmbərimiz (s.ə.v)-ə düşmən olan qruplar üçün də məlumat toplayırdılar

İslamın ilk təbliğ edildiyi illərdə münafiqlər Peyğəmbərimiz (s.ə.v)-in yanına da gəlirdilər. Ətrafına əyləşib **"hər söylədiyini diqqətlə dinləyir və hər getdiyi yerə də özü ilə getmək istəyirdilər". Səbəb olaraq da Peyğəmbərimiz (s.ə.v)-ə olan sevgilərini irəli sürürdülər.** Halbuki mane ola bilmədikləri pozulmuş və nifrət dolu baxışlarından, lovğa, şərəfsiz, qürurlu və tərs üslublarından, çirkin əxlaqlarından, əslində belə bir sevgi bəsləmədikləri açıqca aydın olurdu. Quranda; **"...səni az qala gözləri ilə devirəcəkdilər"** (Qələm surəsi, 51) sözləriylə xəbər verildiyi kimi, **içlərində Peyğəmbərimiz (s.ə.v)-ə qarşı böyük nifrət bəsləyirdilər.** Lakin buna baxmayaraq, sırf məlumat əldə edə bilmək üçün, bu **"dırnaqarası sevgi" bəhanəsindən istifadə edərək Peyğəmbərimiz (s.ə.v)-in olduğu hər mühitə girirdilər.** Həmçinin sonra da əldə etdikləri hər cür məlumatı Məkkə müşriklərinə və Peyğəmbərimiz (s.ə.v)-ə qarşı olan qruplara ötürüb, qarşılığında mənfəət təmin etməyə çalışırdılar. Çünki o dövrdə Peyğəmbərimiz (s.ə.v)-i sevən çox insan olduğu kimi, xristianlardan da, musəvilərdən də, Peyğəmbərimiz (s.ə.v)-ə düşmən olan çox müxtəlif qruplar da var idi. Dolayısilə **bütün bu kütlələr üçün Peyğəmbərimiz (s.ə.v)-in yanına yaxınlaşa bilmək və məlumat əldə edə bilmək çox mühüm məsələ idi.**

Bu məqsədlə gecə yarısına qədər Peyğəmbərimiz (s.ə.v)-in yanından ayrılmırdılar. Oradan uzaqlaşmaq istədikdə isə, bunu yenə hiyləgərcə və heç kimə bildirmədən edirdilər. Peyğəmbərimiz (s.ə.v)-in söhbət mühitlərinə heç kimin görməyəcəyi şəkildə sanki **"bir ilan kimi hiyləgərcə daxil olur və ayrılarkən də yenə eyni üsulla hiyləgərcə çıxırdılar"**. Söhbət vaxtı da, mümkün qədər **"başqalarını özlərinə sipər edərək"**, izdihamın arxasına gizlənirdilər. Xüsusən də Peyğəmbərimiz (s.ə.v)-in özlərini görməyəcəyini düşündükləri şəkildə, ya arxasında, ya da onun görüş sahəsində olmayan yerlərdə oturmağı seçirdilər. Dolayısilə xüsusi diqqət yetirilmədiyi təqdirdə, **"girdikləri də, çıxdıqları da, söhbət mühitində olduqları da anlaşılmaya bilirdi"**. Çünki bu söhbət mühiti olduqca izdihamlı olduğu üçün, Peyğəmbərimiz (s.ə.v)-in də, oradakı səhabələrin də münafiq xarakterli bu insanların hər birini tək-tək izləməsi çətin olurdu.

**Məhz bu üsullarla özlərinə hiss etdirmədən, sanki "ilan kimi süzülərək" tənha bir yerdən deyilənləri dinləyirdilər. Əldə etməyi ümid etdikləri məlumatı aldıqdan sonra da, yenə ilan kimi süzülərək birinin arxasına düşüb bildirmədən çıxıb gedirdilər.** Beləliklə özlərini hiss etdirməyərək, bəlkə də özləri varkən danışılmayacağını düşündükləri daha **"xüsusi və gizli mövzulardan"** xəbərdar ola bilməyi ümid edirdilər. Allah Quranda münafiqlərin bu **"hiyləgərcə süzülərək gizlin-gizlin girib çıxmalarını"** müsəlmanlara; **"Allah, sizdən digərinizi sipər edərək qaçanları həqiqətən bilir"** sözləriylə xəbər vermiş və münafiqlərin bu **"kəşfiyyatçı xarakterlərini"** vurğulamışdır:

**Elçinin çağırmasını, öz aranızda birinizin digərini çağırması kimi hesab etməyin. Allah, sizdən digərinizi sipər edərək qaçanları həqiqətən bilir. Beləliklə onun əmrinə qarşı çıxanlar başlarına bir fitnənin gəlməsindən və ya onlara ağrılı-acılı bir əzabın toxunmasından çəkinsinlər. (Nur surəsi, 63)**

**Adnan Oktar**: "Münafiqlər buna çox diqqət yetirər, məsələn, gəlib: **"Səni çox sevirəm, çox hörmət edirəm"** deyər. **Sonra gəlib ilan kimi danışılanları dinləməyə başlayar. Məqsədi orada danışılanları dinləməkdir. Bu danışıqlarda onun əleyhinə bir şey çıxacaq mı? Xəbərçilik edəcəyi, məlumatlandıracağı bir şey var mı? Yaxud o dövrün dərin dövlətinə, o dövrün küfr strukturu kimdirsə, məsələn, Firon dövlətinə və ya Nəmrud dövlətinə bildirəcəyi bir məlumat var mı buna baxar. Buna görə də, münafiqlər müsəlmanlara yapışmış halda gəzərlər. Heç ayrılmaq istəməz münafiqlər; bir məlumat çıxacaq deyə.**

Peyğəmbərimiz (s.ə.v)-in yanına **"katib"** kimi gəlir. Yapışmış kimi, gecə qalxır Peyğəmbərimiz (s.ə.v), o da qalxır. Peyğəmbərimiz (s.ə.v) yeməyini yeyir, o da oraya gəlir. **Məqsədi məlumat toplamaqdır. Peyğəmbər (s.ə.v) bir şey danışdıqda bunu küfr əhlinə çatdırmaqdır. Şeytançılığa bax, Allahdan qorxmamağın dərəcəsinə bax. Vəhy gələn bir Peyğəmbər olduğunu görür; əli-üzü tərtəmiz, nur kimi, dünyanın ən alicənab insanını görür. Alçağa bax, murdar müşriklərə, o dövrün alçaqlarına, qatillərinə, namərdlərinə xəbər aparmaq üçün çəkdiyi əziyyətə bax sən.** Nələrə dözür, yuxusuz qalır, lakin buna baxmayaraq, gecə qalxıb Peyğəmbər (s.ə.v)-in yanına gəlir. **"Fədakarlıq etdim, onu çox sevdiyim üçün gəldim" deyir. Sevdiyin üçün gəlmirsən, oradan məlumat toplamaq üçün gəlirsən".** (A9 TV, 26 yanvar 2016)

**Adnan Oktar**: **"Münafiqin hiyləgərcə daxilolma xüsusiyyəti var, tanınmış xüsusiyyətidir. Məsələn, bir məclisdə olarkən gəldiyindən, getdiyindən, yenidən gəldiyindən heç kimin xəbəri belə olmaz; ilan kimi hərəkət edər. Kəşfiyyatı güclüdür. Məsələn, qapı ağzına gedib dinləyər. Hətta qapıdan girməz, pəncərədən girər. Ayədə də var, Allah deyir ki; "pəncərələrdən girməyin" (Bəqərə surəsi, 189), məhz münafiq məlumatı əldə etmək üçün edir bunu. Çünki qapıdan girsə Peyğəmbər (s.ə.v) onu görəcək. Buna görə diqqət yetirəcək. O nə edir? Peyğəmbər (s.ə.v)-in danışdıqlarını gizlincə eşidə bilmək üçün, Peyğəmbər (s.ə.v)-in heç ümid etmədiyi bir yerdən pəncərədən girir.** O dövrdəki pəncərələr, ərəb pəncərələri bildiyiniz kimi ellips formasındadır. Bir insanın asanlıqla keçə biləcəyi kimidir. Bir də o dövrlərdə şüşəli çərçivə filan yoxdur. Yalnız örtük olur. Örtüyü açır, pəncərədən girir. Soruşanda da; **"qapının qarşısı izdihamlı idi"** deyir. **"Bura kəsə yoldur dedilər. Mən bundan ötrü buradan gəldim"** deyir. **"Rəsulullah (s.ə.v)-ə yetişmək üçün, asanlıq olsun deyə buradan gəldim" deyir. Çox alçaqdır münafiq. Əsil dərdi özü ilə əlaqədar nə danışıldığını bilmək, küfr əhlinə də həmişə xəbər çatdırmaq və özünü ön plana gətirmək.** Bir şey olduqda da müvəffəqiyyəti özünə aid etməkdir". (A9 TV, 11 fevral 2016)

# Peyğəmbərimiz (s.ə.v)-in vəhy katibi, küfr əhlinə məlumat daşıyırdı

Peyğəmbərimiz (s.ə.v) Allahın özünə vəhy etdiyi ayələri, oxuyub-yazmağı bilən səhabələr yolu ilə yazılı hala gətirtmiş və belə mühafizə edilməsini təmin etmişdir. Sayları 40-a yaxın olan bu kəslər **"vəhy katibləri"** adlandırılıb. Lakin **hədislərdə, Peyğəmbərimiz (s.ə.v)-in yanına vəhy katibliyi etmək üçün yaxınlaşdığı halda, əsil məqsədi təkcə Peyğəmbərimiz (s.ə.v) əleyhinə məlumat toplamaq olan bir münafiqdən də bəhs edilmişdir:**

*Ənəs ibn Malik (r.ə):* ***Bizdən, Nəccar oğullarından biri vardı. Bu şəxs, Bəqərə və Ali İmran surələrini oxumuş idi. Allah Rəsuluna da katiblik edirdi. Bir vaxt bu insan qaçıb getdi... Onlar özünü yüksək mövqelərə çıxartdılar və: "bu insan Məhəmmədə katiblik edirdi" deyərək özünü çox bəyəndilər. Aradan çox zaman keçmədən Allah onu həlak etdi..."*** *(Sahih-i Müslim, Hədis no: 4987)*

Nəccar oğullarından olduğu bildirilən bu münafiq, **Quranın bəzi uzun surələrini də əzbər bilən, mədəni və bilikli biri idi.** Peyğəmbərimiz (s.ə.v)-in yanında **vəhy katibliyi edir və "Peyğəmbərimiz (s.ə.v)-i çox sevdiyini söyləyərək" gecə-gündüz yanından heç ayrılmırdı.** Beləliklə, bütün müsəlmanlara da özünü, Peyğəmbərimiz (s.ə.v)-ə **"çox sadiq, ona çox yaxın olan biri"** kimi tanıdırdı. Əslində azğın münafiq olan bu şəxs, Peyğəmbərimiz (s.ə.v)-ə; **"ey Rəsulullah (s.ə.v), sənə nə vaxt vəhy gələcəyini bilmirəm, ona görə də sənin yanından heç ayrılmaq istəmirəm"** deyirdi. Belə ki, bəlkə də uzaqdan baxanlar, bu insanın Peyğəmbərimiz (s.ə.v)-ə **"güclü sevgi və bağlılıq duyduğunu"** düşünürdülər. Lakin bir an belə ayrılmadan Rəsulullah (s.ə.v)-in yanında olmağa çalışan bu vəhy katibinin məqsədi qətiyyən **"sevgi deyil"**, öz aləmində Peyğəmbər (s.ə.v) əleyhinə istifadə edə biləcəyi **"məlumat əldə edə bilmək"** idi.

**Peyğəmbər (s.ə.v)-ə nə qədər yaxın ola bilsə, o qədər çox hadisəyə şahid olacağını və küfrdəki dostları üçün o qədər çox məlumat toplaya biləcəyini ümid edirdi** (Peyğəmbərimiz (s.ə.v)-i tənzih edirik). Öz aləmində hz. Məhəmməd (s.ə.v)-in, **"guya Peyğəmbər olmadığını sübut edəcək bir dəlil, insani bir xəta, bir səhvlik"** axtarırdı.

**Ancaq əlbəttə ki, Allah digər bütün münafiq tayfanın əlindən olduğu kimi, bu alçaq xarakterli insanı da müvəffəqiyyətli buyurmamışdır. Allah, bütün müsəlmanlar üçün bir rəhmət olaraq yaratdığı Peyğəmbərimiz (sav)-i bu hiyləgər insanların fitnələrindən qorumuşdur.**

Bu insan, daha sonra Peyğəmbərimiz (s.ə.v)-in yanından qaçıb inkar edənlərin yanına sığındıqda, dövrün qabaqcılları, onu mövqe etibarilə çox əhəmiyyətli biri kimi gördülər və ona sahib çıxdılar. Peyğəmbərimiz (s.ə.v)-in yanında vəhy katibliyi etmiş olmasıyla küfrdə özü üçün **"şeytani göstəriş və üstünlük"** əldə etdi. Müsəlmanlar əleyhinə

danışdığı; orada eşitdiklərini, gördüklərini söylədiyi üçün, həmçinin inkarçılardan “maddi-mənəvi qazanc da təmin etdi”. İnkarçı dostları ona hər cür dəstəyi və imkanı verdilər. Lakin dırnaqarası vəhy katibi olan **bu münafiq, oynadığı şeytani oyunla küfr əhlindən yalnız çox qısa müddət faydalana bildi. Ölümlə birlikdə qazandığı bütün mənfəətlər əlindən getdi. Geriyə yalnız, etdiyi pisliklər ucbatından axirətdə yaşayacağı əbədi əzab qaldı.**

**Adnan Oktar:** “Ənəs ibn Malik (r.ə); **“bizdən Nəccar oğullarından biri vardı”** deyir. **“Bu şəxs Bəqərə və Ali İmran surələrini oxumuşdu”,** yəni əzbər bilirdi.” **“Allahın Rəsulu (s.ə.v)-ə də katiblik edirdi”** deyir. Çox mədəni, dedi-qodu edən biri. **“Sonra bu insan qaçıb getdi”.** Münafiq tutması tutur, qaçıb gedir. **“Onlar (yəni küfr) özünü yüksək mövqelərə çıxartdılar”. “Hz. Məhəmməd (s.ə.v)-in yanında çalışmış, bir də casusluq etmiş bir insan, pislik etmiş bir insan, biz də buna vəfa göstərək, buna yaxşı məqamlar verək, dəyər verək” deyirlər. “Həmçinin bu insan Məhəmmədə katiblik edir” deyərək özünü çox bəyəndilər. Aradan uzun müddət keçmədən Allah onun boynunu həlak etdi”.** deyir “Səhihi Müslim”də 4987-ci hədisdə. Sonra Allah bu münafiqi həlak edir”. (A9 TV, 25 may 2016)

**Adnan Oktar: Münafiqin hədəfi həmişə elçilərin, peyğəmbərlərin yanıdır. Münafiqin ən çox çatmaq istədiyi yer oradır. Çünki ən çox hücumu edəcəyi yer oradır.** Peyğəmbər (s.ə.v)-in və ya elçilərin fəaliyyətini dayandıra bilmək və şeytanlarına məlumat çatdıra bilmək üçün, mərkəz olan yer ora olduğu üçün, peyğəmbərlərin yanında olmağı çox mühüm məsələ hesab edər. Məsələn, Peyğəmbərimiz (s.ə.v)-in dövründə vəhy katibi olanlar var, həmişə yanında olurlar. **“Ey Rəsulullah (s.ə.v), sənə vəhy gəlməyini mən izləmək istəyirəm”** deyir. Sonra da; **“indi vəhy gəldi, dərhal yazım”** deyir. Halbuki Peyğəmbər (s.ə.v)-ə inanmır, (haşa) lağ edir. Çölə çıxdıqda; **“mən onlarla lağ etmək üçün onun yanındayam, o bir dəlidir”** deyir. **“Dəli olub”** deyir. **“Vəhy də gəlmir, cinlər ona söyləyir” deyir, inanmır Rəsulullah (s.ə.v)-in peyğəmbərliyinə. Sırf alçaqlıq və əxlaqsızlıq etmək üçün yanına yaxınlaşmaq istəyir.** (A9 TV, 28 fevral 2016)

## Münafiq, məlumat toplamaq məqsədiylə müsəlmanları həmişə izləyib güdər

Münafiqin Müsəlmanlar arasında yaşadığı vaxtlar, onun yavaş-yavaş gələcəkdəki həyatının təməlini meydana gətirdiyi və küfr əhlinə fayda verdiyi dövrlərdir. Bu həyatının təməlini meydana gətirəcək şey isə, müsəlmanlar əleyhinə yürütdüyü fəaliyyətlər və küfr əhlinə daşıdığı məlumatdır. **Küfr əhlinin gözünə girə bilməsi və onlardan əldə edəcəyi mənfəətlər, müsəlmanlar barəsində onlara çatdırdığı məlumatın çoxluğundan və əhəmiyyətindən asılıdır.** Öz aləmində **onlara nə qədər faydalı məlumatlar çatdıra bilsə,**

**küfr əhlindən olan insanlar da onu, o qədər yaxın dostları tutacaqlar.** Həmçinin onlar üçün **nə qədər mehriban dost ola bilsə, onların küfr əhlində ona təqdim imkanlardan da bir o qədər yaxşı istifadə edə biləcək.** Bələliklə küfr əhlində, **özünə o ölçüdə mənfəət təmin edə biləcək, o qədər yaxşı etimad və ətraf əldə edə biləcək və bunun nəticəsində də öz aləmində istədiyi həyata bir o qədər yaxınlaşmış olacaq.**

Məhz bu çirkli xəyallarına nail olmağın yolunun **"müsəlmanlardan əldə edəcəyi məlumatlara nail olmaq olduğuna"** inanan münafiq, gününün böyük hissəsini **"müsəlmanları izləməklə"** keçirdər. Allah Quranda münafiqlərin bu hiyləgər üsulunu; **"onlar Sizə göz qoyurlar..."** (Nisa surəsi, 141) ayəsiylə xəbər vermişdir. Münafiq səhərdən-axşama qədər müsəlmanların arxasında gəzərək onların **"nələr etdiklərini, nələrdən bəhs etdiklərini, kimlərlə nələr danışdıqlarını"** öyrənməyə çalışar. **Harada bir neçə insanın söhbət etdiyini görsə, dərhal bir bəhanə ilə ora gedib yanlarında dayanmağa çalışar. Birinin telefonda danışdığını eşitsə, dərhal ora yaxınlaşaraq başqa bir iş görürmüş kimi edib deyilənləri dinləməyə çalışar. Kompyuterində biriylə yazışan birini gördükdə, yenə orada işi varmış kimi edərək, tam kompyuterin ekranını görə biləcəyi şəkildə dayanıb yazılanları oxumağa çalışar. Hiss etdirmədən bir müsəlmanın telefonunu alıb, nömrələr siyahısındakı ad və telefon nömrələrinin surətini özünə götürər. Yaxud yalnız qısa bir şeyə baxacağını söyləyib bir müsəlmanın kompyuterini qısa müddət ərzində alıb, içində nələr olduğuna baxmağı qarşısına məqsəd qoyar.** Münafiq axşama qədər bu yolla hiyləgərcə güdməyə davam edər. Sonra isə münafiq gizlincə küfr əhlindəki dostlarıyla əlaqə yaradar və (kiçik-böyük) gün ərzində şahid olduğu hər şey haqqında əldə etdiyi məlumatları onlara çatdırar.

**Müsəlmanlar onsuz da həyatları, əxlaqları, etdikləri xeyirli fəaliyyətləri ilə şəffaf həyat yaşayan, cəmiyyətdəki hər kəsin yaxşılığını düşünən təmiz insanlardır. Dolayısilə gizlətdikləri heç nə yoxdur. Bütün həyatları, məqsədləri, səyləri onsuz da ortadadır. Buna görə də, münafiqin əldə etdiyi məlumatlar, münafiq nə qədər istəsə də, müsəlmanların əleyhinə bir nəticə gətirməz.**

Lakin münafiq şeytani hərəkət edə bilmiş olmağın verdiyi özünə inam və küfr əhlindəki dostlarının gözünə girə bilmiş olmağın həyəcanı ilə, bu etdiklərindən ötrü öz-özünə sevinər. Halbuki **şeytan və küfr əhli ilə etdiyi hər əməkdaşlıq dünyada da, axirətdə də onun əleyhinə olacaq. Müsəlmanlar isə, münafiqin bütün hiyləgər oyunlarına və tələlərinə baxmayaraq, mütləq qalib gələcəklər.** Allah bir ayədə inkarçılara müsəlmanların əleyhinə olan bir yol verməyəcəyini belə bildirmişdir:

**Onlar sizə göz qoyurlar (gözləyirlər ki sizə bir bəla gəlsin). Əgər Allahdan sizə bir qələbə gəlsə: "Məgər biz də sizinlə deyildikmi?" – deyərlər. Əgər kafirlərə bir qələbə nəsib olsa: "Məgər biz möminlərlə birlikdə sizə qalib gələ bilməzdikmi, sizi möminlərdən qorumadıqmı?" – söyləyərlər. Qiyamət günü Allah sizin aranızda hökm verəcəkdir. Allah kafirlərə möminləri məğlub etməyə yol verməyəcəkdir. (Nisa surəsi, 141)**

## Münafiq, məlumat toplaya bilmək üçün çox səssiz hərəkət edər

Müsəlmanlardan məlumat toplayıb, öyrəndiklərini küfr əhlindəki tərəfdarlarına çatdırmağı özü üçün çox **“müqəddəs vəzifə”** hesab edən münafiq, bu fəaliyyətlərini icra edərkən **“çox hiyləgərcə və səssizcə hərəkət etməyə”** böyük diqqət göstərər.

Münafiq üçün məlumat ötürülməsini təmin etmək çox əhəmiyyətlidir, çünki təkcə bu yolla müsəlmanların fəaliyyətlərinin qarşısını kəsə biləcəyini düşünər. Məsələn, münafiq, müsəlmanların Allah yolunda, İslam üçün edəcəyi xeyirli bir fəaliyyəti öyrənər. İslama fayda təmin edilməsini və müsəlmanların müvəffəqiyyətli olmalarını heç vaxt istəmədiyi üçün, bunu dərhal ya telefon, ya da internetdən bir mesaj göndərmə proqramı ilə digər tərəfdarlarına bildirər. Əlbəttə ki, bu məlumatı əldə edərkən çox məharətlə hərəkət edər. Müsəlmanların yanlarına **“özünü heç hiss etdirmədən”** və **“sanki bir ilan kimi səssizcə”** girər.

Çünki **münafiq əslində müsəlmanların özünün münafiq olmasından şübhələndiklərini bilər.** Əgər yanlarına **“səs çıxardaraq”** girsə müsəlmanların diqqətli danışacaqlarını bildiyi üçün, azacıq səs belə çıxartmadan müsəlmanların xüsusi danışıq mühitlərinə daxil olar. **Quran əxlaqını yaşayan səmimi və normal müsəlman bir mühitə girdikdə dərhal oradakı digər mömin qardaşlarına salam verər, halını soruşar. Lakin münafiq məlumat toplayacağı vaxt, bunu xüsusilə etməməyə çox diqqət göstərər. Müsəlmanların olduğu bir otağa səsini çıxartmadan girər, bir divarı, ya da bir əşyanı sipər edərək o mühitdəki müsəlmanların özünü görə bilməyəcəyi bir yerə əyləşər. Yaxud bağlı qapıların arxasında bir yerdə ayaqüstü dayanıb sanki başqa işlə məşğul olurmuş kimi vəziyyət alar.**

**Müsəlmanların onun varlığını hiss etmədən danışmalarını, beləliklə özünün də onların bütün fəaliyyət planlarını öyrənə bilməyini istəyər.** Bu şeytani əzmkarlıq münafiqin bədəninə o qədər nüfuz etmişdir ki, bu mövzuda ən kiçik dalğınlıq və ya diqqətsizlik etməz.

Münafiqlərin bu cür hiyləgər səyləri, tarixdə bir çox əhəmiyyətli hadisədə öz təsirini göstərmişdir. Bir çox sui-qəsdin və hücum planının həyata keçirilməsində, cəmiyyətlərin qarışıqlığa sürüklənib müharibələr törədilməsində həmişə münafiqlərin bu səssizcə yanaşıb məlumat toplamaq fəaliyyətlərinin təsiri olmuşdur.

Buna görə də, **müsəlmanlar, münafiq olmasından şübhələndikləri kəslərin yanında çox diqqətcil davranmalı və münafiqin səssiz və gizli şəkildə yanaşıb hiyləgərcə oyunlar oynamasına qarşı diqqətlərini tamamilə açmalıdır. Münafiqlərin, öyrəndikləri təqdirdə mane ola biləcəkləri, fitnə törədə biləcəkləri xeyirli fəaliyyətlər, Allah yolundakı xeyirli işlər barədə məlumatların bu insanlara çatmasına heç vaxt icazə verməməlidirlər.**

# Münafiqin İslam əvəzinə azğın ideologiyaları gücləndirmək səyi

## Münafiq, öz aləmində İslamı zəiflədə bilmək üçün dinə müxalif olan hər cür azğınlığı dəstəkləyər

Münafiqlərin müsəlmanlarla birlikdə olduqları vaxt, mütləq **"fitnə törətmək üçün səy göstərəcəklərini"** Allah Quranda bildirmişdir (Tövbə surəsi, 47). Məhz münafiqin ən müvəffəqiyyətli olduğu sahə **"fitnə"**dir. Çünki münafiq, eynilə şeytan kimi, qaranlıq və psixopat ruhlu varlıqdır. Həmişə şeytanın nəzarəti altında olduğu üçün, harada fitnə varsa, ora qaçaraq gedər. Xeyirlə, gözəlliklə, müsəlmanların mənfəətinə istiqamətli işlərlə, İslama səmimi xidmət etməklə isə heç maraqlanmaz. **Şeytani impulsla, harada pis, xoşagəlməz və səhv işlər varsa, ora üz tutar. Mənfi hallar, anormallıqlar, azğın rəftar və düşüncələr, münafiqi maqnit kimi cəzb edər. Allahın bəyənmədiyi, müsəlmanların çəkindikləri hər nə varsa ona meyl edər.** Bir müsəlmanın ağlına, xəyalına belə gəlməyə biləcək ağılsız, azğın düşüncə və davranışlar, münafiq üçün olduqca normaldır.

Müsəlmanlar Allahın müəyyənləşdirdiyi sərhədlər çərçivəsində yaşayan insanlardır. Quran əxlaqını yaşamaqda çox diqqətcildirlər. Qurana uyğun düşünər və Allahın bəyəndiyi şəkildə yaşayarlar. İnkarçılar isə, **"sərhədləri olmayan", "öz qaydalarını özləri müəyyənləşdirən"**, **"Quranla bildirilən əxlaq anlayışını tanımayan"** insanlardır. Lakin onlar, insanlardan gizlətmədən, nə düşündüklərini, hadisələrə necə baxdıqlarını və necə yaşadıqlarını açıqca söyləyərlər.

Münafiqlərin inkarçılardan daha təhlükəli tərəfi isə, **"özlərini müsəlman kimi göstərib həqiqəti gizlətmələri"**dir. İkiüzlü və hiyləgər olmalarıdır. Xarici görünüşləriylə müsəlmanlara bənzəmələrinə baxmayaraq, içlərində sanki başqa şeytani xarakter var. Allah bir ayədə, onların bu tərəfindən; **"Sən onlara baxdıqda bədən quruluşları xoşuna gəlir, danışanda onların dediklərinə qulaq asırsan. Halbuki, onlar divara söykədilmiş dirəklər kimidirlər. Onlar hər bir səs-küyün özlərinə qarşı olduğunu sanırlar. Onlar düşməndirlər. Sən onlardan çəkin! Allah onları məhv etsin, necə də haqdan döndərilirlər!"** (Münafiqun surəsi, 4) sözləriylə bəhs etmişdir.

Xarici görünüşləri müsəlmanlara bənzəyən bu insanlar, təmtəraqlı danışmağı bacarsalar belə, ayənin ifadəsi ilə əslində **"taxta kötük"** kimi olan, dayanıqsız, gücsüz, şəxsiyyətsiz, şərəfsiz varlıqlardır. Allah bu ayə ilə onların "düşmən" olduqlarını açıqca vurğulamışdır. O zaman münafiqlər düşmənçiliklərini göstərə biləcəkləri hər fürsəti gözləyəcəklər. **Müsəlmanlara hər cür düşmənçilik və pisliyi edə bilmək üçün hazırdırlar.** Bunun üçün **"anormallıqdan, azğınlıqdan və pozğunluqdan qaçmaz"**; bu xüsusiyyətdəki **"təhlükəli insanlarla əlaqə saxlamaqda da bir problem görməzlər"**. Hətta bu cür təhlükəli, ürküdücü kəslərlə yaxın əlaqələr qurmaq, münafiqlərin ruhuna **"küfri həyəcan"** verər. Etdikləri xainlikdən ötrü, **"şeytani həzz"** duyarlar.

**Müsəlmanlar isə, anormal, pozğun ruhlu və azğın insanların qaranlıq dünyasından şiddətlə qaçarlar.** Onlarla ünsiyyət saxlamaqdan, eyni havanı tənəffüs edib eyni mühitdə olmaqdan belə utandıqları halda; münafiqlər bunun əksini etməyi gizli müvəffəqiyyət kimi görərlər. Bu eyni zamanda da, onların özlərinə olan şeytani etimadlarını artırar. Xainliklərinin getdikcə artması, onların münafiqlikdəki dərəcələrini də artırarkən, bu vəziyyət onlara da böyük miqdarda özünəinam hissi verər.

Müsəlmanlar hər mövzunu mütləq Quran əxlaqı ilə qiymətləndirərlər. Digər **"insanların nə düşündükləri", "dövrün tələbləri", "həyatın həqiqətləri", "müasirlik", "maariflənmə", "islahat", "dövrə ayaq uydurma"** kimi məntiqlər etibarsız olar. Əgər **Allah bir hərəkəti, rəftarı, hadisəni, insan və ya insanları sevmirsə, müsəlman da sevməz. Allah bir mövzunu necə dəyərləndirirsə, müsəlman da eyni baxış prizması ilə baxar.**

Dolayısilə iman gətirən bir insan, **"azğın bir rəftara qarşı guya tolerant, anlayışlı və mərhəmətli olmağın lazım olduğu"** kimi yanlış məntiqlərin, şeytanın təlqinlərindən irəli gəldiyini bilər. Əlbəttə ki, **müsəlmanlar, cəmiyyətdəki ən mərhəmətli, ən anlayışlı, ən tolerant insanlardır. Lakin doğru-yanlış meyarları həmişə Qurana görədir.** Dolayısilə Qurana görə azğınlıq kimi xarakterizə edilmiş, **Allahın qəzəbləndiyini bildirdiyi pozğun hərəkətləri mənimsəmiş insanlara, (mərhəmətli olmaq naminə) heç vaxt qəbul etməz və hörmətlə yanaşmazlar.**

**Lakin təbiidir ki, bu, o insanlara nə mənəvi, nə də fiziki mənada ediləcək bir zülmü xoş qarşılamaq mənasını verməz. Müsəlman hər cür səhvin, "fikirlə düzəldilməsinin" lazım olduğunu müdafiə edər. Nə təzyiq, nə də gücdən istifadə edərək heç kimin heç kimə bir düşüncəni qəbul etdirməyə və ya bir azğınlıqdan imtina etdirməyə çalışması düzgün deyil. Lakin, əlbəttə ki, bu, "mərhəmət" adı altında o insanları dəstəkləməyi də tələb etmir.**

Məhz buna görə də, bir müsəlman belə bir vəziyyətdə tutduğu tərəfi və fikirlərini açıqca bəlli edər. İnsanların böyük əksəriyyəti bir azğınlığı dəstəkləsə belə, iman gətirən insanlar Allahın müəyyən etdiyi meyarla hərəkət edər və hadisələrə mütləq Quran əxlaqının tələb etdiyi şəkildə yaxınlaşarlar.

## Münafiq, İslamın yerinə azğın bir anlayışı yerləşdirə bilmək və küfr əhlinin gözünə girə bilmək üçün homoseksuallığı dəstəkləyər

Homoseksuallığın Qurana görə olduqca **"yanlış və azğın hərəkət"** olduğu aydındır. Tarix boyu müsəlmanların bu mövzudakı rəftarları həmişə çox açıq olmuşdur. **Homoseksuallığın "haram və eyni zamanda da çirkin iyrənclik olduğu" bütün müsəlmanlar tərəfindən bilinir.** Münafiqlərin bu məsələdəki rəftarları isə müsəlmanlarınkı kimi deyil. **Münafiqlər Allahın bəyəndiyi əxlaqı çirkin, bəyənmədiyi rəftarları isə gözəl**

**hesab edərlər.** Müsəlmanların həyat tərzini deyil, inkarçıların həyat tərzini bəyənərlər. **İslam əxlaqını, batil və ya azğın fikir və davranışlarla təhrif edə bilmək üçün mübarizə aparalar.** Güc və etibarı, haqq olanda deyil, zahirən o sırada kim daha güclü görünürsə onun yanında axtararlar.

Münafiqlər şərəfsiz insanlar olduqları üçün harada anormallıq, iyrənclik, səhvlik, nifaq, fitnə, azğınlıq varsa onun içinə sanki başıaşağı gedərlər. Allahın xoşuna gəlməyən, Allahın bəyənmədiyi nə varsa, bütün bu hərəkətlər, münafiqləri maqnit kimi cəzb edər. Səhv, azğın və qaranlıq hər cür insan və ya hərəkət, münafiqlərin həyat sahəsinin mühüm hissələridir. Buna görə də, **mütləq bu cür batil insan və ya cəmiyyətlərlə əlaqə yaradar və qaranlıq hadisələrlə iç-içə olmağa çalışarlar.** Məhz "**homoseksuallıq**" da bunlardan biridir. Münafiqlər "**iyrənc pozğunluq**" olduğunu bildikləri halda, "**homoseksual insanlarla dost olmaqdan, onlara simpatiya bəsləməkdən, onların tərəfdarı olmaqdan**" gizli zövq alarlar. **Bu şeytani simpatiya, etdiklərinin, Allahın xoşuna gəlməyən, Qurana zidd hərəkət olduğunu bilmələrindən irəli gələr.**

Çünki münafiqlər şeytanın özlərinə gözəl göstərdiyi bütün pis əməllərin ardınca gedər və zamanla "**şeytanın oyuncağı**" halına gələrlər. **Məhz şeytanın münafiqləri təhrik etdiyi məsələlərdən biri də, "homoseksual insanlara simpatiya bəsləmələri" və "onları dəstəkləyən rəftar göstərmələri"dir.** Normalda bu insanların iyrənc və əxlaqsız rəftarlarından diksinib onlardan uzaq dayanmağı istəməli olduqları halda; **münafiqlər onlarla dostluq əlaqələri qurub, əlaqə halında olmaqdan şeytani zövq alarlar.**

Münafiqlər zahir və dayaz insanlardır. Təkcə anlıq maraqlarını güdərlər. Küfr əhlinə isə, çox qibtə edərlər. Yaşadıqları cəmiyyətin qabaqcıl, tanınmış və populyar inkarçılarını gözlərində çox böyüdərlər. Xüsusən də öz hiyləgər axtarışlarına uyğun, "**çirkli, qaranlıq və qeyri-qanuni işlər görən dərin dövlət mənsublarına, gizli təşkilat üzvlərinə və qeyri-qanuni kəşfiyyat xidmətlərinin istifadə etdiyi insanlara**" qarşı heyrətamiz dərəcədə heyranlıq duyarlar. **Allahın sonsuz gücünə deyil, məhz bu qaranlıq dünyada gizli işlər görən insanların gücünə güvənərlər.** Öz zəif ağılları ilə dünyanı bu insanların idarə etdiyinə və qalib gələcək olanın da mütləq bu şeytani sistem olduğuna inanarlar.

Məhz qibtə və həsrətlə izlədikləri bu çirkli dünyanın insanları, münafiqlərdə çox böyük həyəcan yaradar. Qibtə edən ruhla, bu insanlara heyranlıqla yanaşar və onlara özlərini bəyəndirə bilmək üçün nə lazımdırsa etməyə çalışarlar. **Güc sahibi hesab etdikləri bu insanların kiçik alqış və ya rəğbətini qazana bilmək üçün, hər cür küfri aspekt və fikri heç tərəddüd etmədən müdafiə edərlər.**

Bununla yanaşı, münafiqlər küfr əhlinə bənzəməyin, öz aləmlərində onlara "**müasir, uzaqgörən və ya azad şəxsiyyət qazandıracağını**" zənn edərlər. Məhz indiki vaxtda, "**guya müasirlik naminə**" İslamda qətiyyən yeri olmayan azğın hərəkətləri müdafiə edən və beləliklə özlərini "**dinə əhəmiyyət verməyən müsəlman**"lar kimi tanıdaraq küfr əhli ilə güclü dostluq əlaqələri quran, "**saxta müsəlman**" modeli də var.

**Küfr əhlinə qibtə edən bu saxta müsəlmanların azğın yanaşma tərzlərinin də töhfəsi ilə, indiki vaxtda homoseksuallıq, dünya səviyyəsində geniş kütlələr tərəfindən dəstəklənən və qanuni hesab edilən vəziyyətə gəlmişdir.** Həmçinin bu vəziyyət, münafiqin tam da axtardığı kimi bir fürsətdir. Münafiq **cinsi azğınlara, homoseksual və bunlar kimi hər cür azğın həyat tərzini dəstəkləyərək, bu azğın ideologiyaları qanuniləşdirməyə çalışar.** Münafiqlərin belə alçaq hərəkətə göz yummalarının səbəbi isə, **"bəzi münafiqlərin özlərinin də bu azğınlığa meylli olmaları", "bəzilərinin də cəmiyyətdə guya "müasir", "ziyalı", "azad" bilinmək istəmələri"**dir. Bəziləri də özlərini **"dindar olmayan və küfr əhlinə simpatiya bəsləyən müsəlman"** kimi tanıtmaq məqsədi ilə homoseksualları dəstəkləyərlər.

Münafiqlərin bu seçimlərinin altında yatan səbəb isə, **"küfr əhlinə qarşı olduqca əzik, qibtə edən və kompleksli insanlar olmaları"**dır. Allahın gücünə təvəkkül etmədikləri üçün, gücü, **"o əsnada cəmiyyətdə məşhur olan fikirlərdə, insanlarda, ideologiyalarda"** və **"tendensiya kimi qəbul edilən mövzularda"** axtararlar. Cəmiyyətdə önə çıxmış, məşhur olmuş, öz aləmlərində keyfiyyətli və ziyalı kimi gördükləri insanların gözlərinə girə bilmək üçün, onların dəstəklədiyi təbəqələrə və ya mövzulara münafiqlər də arxa çıxarlar.

Məhz bu azğın və şeytani baxış prizmalarından ötrü, **"homoseksuallığı normal qarşılamaq, bəzi kəslər üçün, guya ziyalı olmaqla eyni"**dir. Homoseksualları qorumağın, guya **"sahib çıxılması lazım olan insan hüquqları problemi"** olduğunu müdafiə edərlər. Əslində bu, münafiqin kompleksli və əzik ruh halının əks olunmasıdır. Münafiqlər küfrdəki qabaqcıl şəxslər arasında yer tuta bilmək və onlar sayəsində bəzi maddi imkanlara nail ola bilmək üçün, **"homoseksual pozğunlara qarşı da şirin görünməyə çalışırlar".**

**"Dini daxilən təhrif etməyi və insanları İslam əxlaqından uzaqlaşdırmağı"** qarşıya məqsəd qoyan münafiqlər, bu azğınlıqlardan istifadə edərək, **İslam dinini poza bilməyi hədəfləyərlər.** Çirkin yalanlarla, **"bir müsəlmanın da homoseksuallığa isti baxa biləcəyi və bu insanların hüquqlarını müdafiə edə biləcəyi"** imicini verərək, öz aləmlərində **"İslama azğın şərh və anlayış gətirə bilməyi"** ümid edərlər. Çünki əsil din, onların düşüncələrindəki şeytani, küfri və nəfsani sistemə tabe olmamaqdır. Buna görə də **münafiqlər öz azğın şərhləriylə həmişə dini öz düşüncələrinə uyğunlaşdırmağa çalışarlar. Bunun üçün də küfr əhlinin əxlaqsızlıqlarından istifadə edərək bu azğınlıqları dinə daxil etməyə çalışarlar.**

Bunun üçün **"homoseksual evliliklərinə", "homoseksualların öz azğınlıqları istiqamətində qeyri-qanuni cinsi əlaqəyə girərək, yenə özləri kimi homoseksual kəslər yetişdirmək üçün övlad sahibi olmaları" kimi iyrənc, azğın və təhlükəli hərəkətləri dəstəkləyərlər.** Halbuki çox aydındır ki, bu iyrənc mühitdə, ciddi şəkildə **"uşaq tacizi"** olacaq və bu uşaqlar beləliklə böyük təhlükəyə atılacaq. Sonra isə, (bir çox araşdırmanın da göstərdiyi kimi), **homoseksual insanların əllərinə buraxılan bu uşaqlar,** sonda **"psixiatrik pozulmalar", "maddə asılılığı" kimi xəstəliklərə məruz qalacaqlar. "Cinsi hücuma və intihara meylli insanlar halına gəlmə"** və **"QİÇS kimi cinsi yolla keçən**

**xəstəliklərə yaxalanma riskləri"** də yaranacaq. Məsələn, hazırda **ABŞ-da homoseksual cütlərlə birlikdə yaşayan 94.627 uşaq var. Valideynlərindən birinin övladlığa götürdüyü uşaqla homoseksual əlaqəyə girdiyi uşaq sayı isə 6-14 milyon arasında dəyişir.** ***(http://www.lifelongadoptions.com/lgbt-adoption/lgbt-adoption-statistics)*** Məhz uşaqların məruz qaldığı bu qorxunc mənzərə belə, vəziyyətin ciddiliyini anlamaq üçün kifayətdir.

**İslam aləmindəki münafiqlərin də dəstəklədiyi bu hiyləgər oyunları görən müsəlmanların üzərindəki məsuliyyət isə çox böyükdür.** İman gətirənlər, azğınlıq içindəki bu insanlara ağıllı üslubla, etdiklərinin "**həyasızlıq və əxlaqsızlıq olduğunu**" başa salmalı və onları haqqa çağırmalıdırlar. **Bu iyrənc hərəkətin çirkinliyini qeyd edərək insanları öyrətməli və bu azğınlığın cəmiyyət içində yayılmasına mane olmalıdırlar. Əgər bu iyrənclik yaxşı izah edilsə və cəmiyyətlərin bu anormallığı anlamaları təmin edilə bilsə, cahil insanların bu azğınlığa meyl etmələri geniş miqyasda əngəllənmiş olacaq.**

**Dolayısilə homoseksuallığın qanuni göstərilməsinə, təşviq edilməsinə qarşı ciddi fikri mübarizə aparılması lazımdır.** Müsəlmanların məsuliyyəti, cəmiyyətdəki bu cür bütün pozğunluq və azğın hərəkətlərin qarşısını almaq üçün, doğrunu izah edən təbliğ fəaliyyətləri yürütməlidirlər. **Allahın qəzəbləndiyi və azğınlıq olduğunu bildirdiyi bir hərəkət, müsəlmanların təkcə uzaq dayanmaları lazım olan deyil, eyni zamanda da doğrusunu söyləməklə məsul olduqları vəziyyətdir. Lakin, əlbəttə ki, bəzi cahil kəslərin bu azğın insanlara fiziki cəhətdən zülm etmələri və zərər vermələri də, heç vaxt qəbul edilə bilməyəcək çox çirkin və yanlış yanaşma tərzidir.**

**Adnan Oktar**: "**İstər homoseksual olsun, istər oğru olsun, istərsə də qatil olsun, bir insanı başqa insanın öldürmə haqqı yoxdur. Qanun və hüquq vardır. Qanun və hüquqla hadisələr müəyyənləşdirilər, öldürmək, asmaq, kəsmək, bombalamaq, güllələmək, bunlar vəhşi üsullar, bəsit üsullardır.** Fikirlə, düşüncə ilə, məsələn, biz tamam homoseksuallığın yanlış olduğunu izah edirik. Necə izah edirik? Quranla izah edirik. Vicdana, ağla, bəsirətə, fərasətə xitab edəcək şəkildə izah edirik. Lakin güllələmək, bombalamaq, bunlar vəhşilikdir, bunlara şiddətlə qarşı çıxırıq. **Hər cür şiddəti artıq dərəcədə qınayırıq. Müsəlman hər cür dəhşəti, vəhşiliyi qəbul edə bilməz. Müsəlmanlıq, Qurandakı müsəlmanlıq, sülh dinidir, sevgi dinidir.** Heç kimin inancına, fikrinə müdaxilə yoxdur. Kim nə edirsə etsin, şəxsi cəzalandırma olmaz, həmişə qanun və hüquqla davranmaq lazımdır". (A9 TV, 12 iyun 2016)

**Adnan Oktar**: "**Allahın özlərinə qəzəbləndiyi bir qövmü vəli (dost və müttəfiq) tutanları görmədinmi?...**" (Mücadilə surəsi, 14) deyir Allah. **Müsəlmanlar homoseksuallığa qarşıdır, darvinizmə qarşıdır. Lakin münafiq onları vəli və dost tutur. Harada dərin dövlət mənsubu, harada hiyləbaz, yalançı, lovğa ədabaz, İslama pislik etmək istəyən, murdar insanlar varsa, münafiq gedib heyrətamiz şəkildə onları tapar.**

Onun tapdığını da müsəlman bilsə, oradan o şər mərkəzlərini fikri olaraq zərərsizləşdirə bilər. Yoxsa müsəlman murdar insanları asanlıqla tapa bilməz. Onları təkcə münafiqin əlaqəsi ilə müəyyən edə bilər. Çünki münafiq eyni zamanda **"ov iti kimidir".** Küfr əhlinin ən murdar adamlarını o tapacağı üçün, onun tapdığını da müsəlman diaqnoz edib, elmlə, irfanla zərərsizləşdirər. Yoxsa müsəlman haradan tapsın onları? Lakin münafiq, şeytani güclə o qoxunu hiss edər". (A9 TV, 12 may 2016)

## Münafiqlərin və İslam əleyhdarlarının Mövlana marağı

**İslam dininə açıqca qarşı çıxan bəzi kəslərin Mövlananın bəzi fikirlərinə böyük maraq və açıq simpatiya göstərmələri xeyli diqqətçəkəndir.** Allaha, Sevgili Peyğəmbərimiz (s.ə.v)-ə və dinimizin bütün müqəddəs şeylərinə istiqamətli təcavüzkar münasibət göstərən, hətta **"hər cür dini düşüncəyə qarşı olduqlarını"** açıqca söyləyən bəzi şəxslərin, **"Mövlananın fikirləri və əsərləri haqqında tam əks yanaşma tərzi göstərmələri"** yaxından araşdırılması lazım olan bir xüsusdur.

İslama qarşı olan bu kəslərlə yanaşı, **"özlərini müsəlman kimi tanıdan, lakin dinə qarşı soyuq olmalarıyla diqqətçəkən münafiq xarakterli kəslərin də, eyni şəkildə Mövlananın fikirlərinə isti yanaşmaları"** diqqətçəkəndir.

Bu vəziyyətin səbəblərini anlamaq üçünsə, əvvəlcə Mövlananın əsərlərinin və fikirlərinin daha yaxından araşdırılması lazımdır.

**Məlum olduğu kimi Mövlana Cəlaləddin Rumi XIII əsrdə yaşamışdır. Ən mühüm əsərlərindən biri "Məsnəvi"dir. Onun vəfatından sonra toplanmış və yazılmış olan bu əsərdəki fikirlərin nə qədərinin Mövlanaya, nə qədərinin başqalarına aid olduğu mübahisəli məsələdir. Bəzi tarixçilər "Məsnəvi"nin Mövlananın oğlunun yazıb atasına aid etdiyini, bəziləri də "Məsnəvi"nin 3 ayrı insan tərəfindən qələmə alındığını irəli sürür.**

"Məsnəvi"nin həqiqi müəllifi kim olsa da, bu əsərdə Qurana uyğun olmayan bir çox izahat var. Bu izahatlarda, Quranda açıqca **"haram"** olduğu bildirilən bəzi hərəkətlərin, **"İslama görə guya qanuni olduğu"** irəli sürülür. Çox açıq və qeyri-münasib üslublarla, **"homoseksuallıq və uşaqlara təcavüz edilməsinə aid hekayələrdən bəhs edilir", "qadınlar alçaldılaraq cinsiyyət ayrı-seçkiliyi edilir", "şərabın halal olduğu müdafiə edilir", "Məsnəvinin müqəddəs kitab olduğu irəli sürülür", "həyatın təkamüllə meydana gəldiyi bildirilir", "Mövlananın peyğəmbər olduğu eyham edilir".** Halbuki bunlar, İslama və Quran hökmlərinə tamamilə zidd fikirlərdir.

Məhz İslam əleyhdarlarının və müsəlman görünüşü altında İslamı hədəf alan kəslərin Mövlana marağının səbəbini tam da bu xüsusda axtarmaq lazımdır.

**"Məsnəvi"dəki İslama zidd olan fikirlər, Mövlanaya aid olmaya bilər. Həmçinin bu hissələri əlavə edənlər də bunu cahilliklərindən və ya məlumatsızlıqlarından ötrü etmiş ola bilərlər. Lakin, hər halda, Mövlanaya aid edilən; Qurana və Türk-İslam əxlaq**

**anlayışına uyğun olmayan izahatların "guya İslam üçün" yayılması həm dini, həm də ictimai baxımdan böyük təhlükədir.** İslam haqqında kifayət qədər məlumata sahib olmayan bəzi müsəlmanların, qarşılaşdıqları bu vəziyyətdən ötrü "zehinləri qarışa" bilər və şüursuzca Quranın qanunlarından və inanclarından uzaqlaşa bilərlər.

Üstəlik, bu vəziyyət, İslamı öz şirk inancları istiqamətində təhrif etmək istəyən münafiqlər üçün çox əlverişli zəmin yaratmışdır. **Mövlana Cəlaləddin Ruminin əsərlərinə (ehtimal ki, sonradan əlavə edilmiş olan) bu izahatlar,** özlərini müsəlmanmış kimi göstərərək **İslama zərər verməyə çalışan münafiqlər üçün mühüm "hərəkət sahəsi və kamuflyaj" təmin edir.** Tarixin hər dövründə Allaha şirk qoşan ideologiyaları müdafiə edərək İslamı pozmağa çalışan bəzi münafiq xarakterli insanlar, əsrimizdə də bu məqsədlə **"Məsnəvi"dəki Qurana zidd olan izahatlardan istifadə edirlər.**

**"Müsəlman adı daşıyan", lakin "özlərini müsəlman kimi görməyən" bu kəslər Mövlananın əsərlərini və fikirlərini mənbə göstərərək "guya din naminə" İslam əxlaqına zidd inanclar və düşüncələri müdafiə edirlər.**

Quran əxlaqı ilə əlaqəsi olmayan düşüncələr və davranışların müsəlmanların inanc sisteminə daxil edilməyə çalışılması çox ciddi **"təhlükə"**dir. Buna görə də, **"İslama qətiyyən uyğun olmayan bir fəlsəfənin saxtakarlığının ortaya çıxarılması" olduqca əhəmiyyətlidir.**

**Adnan Oktar: "Münafiqlər və qəlblərində xəstəlik olanlar dedilər: "Bunları (müsəlmanları) öz dinləri aldatdı!"**"; yəni **"din bunları yanlış yola sürüklədi"** (Ənfal surəsi, 49) deyirdilər. Öz ədabaz düşüncəsinin doğru olduğuna inanır. Bunun üçün, məsələn, münafiqlərə baxırıq, **müsəlmanları "darvinist" etməyə çalışırlar, "homoseksual" etməyə çalışırlar, "rumi" etməyə çalışırlar.**

**Qardaşım, Quran bizə kifayət edər. Homoseksuallıq çox iyrənc hərəkətdir. Allahın ifadəsi ilə; "iyrənc həyasızlıqdır". Müsəlmanın heç vaxt qəbul etməyəcəyi "iyrənc murdarlıqdır". Bunlar Qurandakı ifadələrdir.** (A9 TV, 25 may 2016)

**Adnan Oktar: "Bədiüzzaman deyir ki; "nifaq pərdəsi altında, münafiqlik pərdəsi altında Risaləti-Əhmədiyəni (s.ə.v) inkar edəcək** "haşa" Süfyan adında müdhiş bir şəxs əhli-nifaqın başına keçəcək". Yəni küfr əhlinin başına keçəcək. **Nifaq nədir? "Münafiq".** Münafiqlərin başına keçəcək. Bu hadisəni təşkil edir. Yəni dünya dərin dövlətinin başçısı olaraq düşünün. Onların İslam aləmindəki casusu olaraq düşünün. **"Şəriəti-İslamiyənin təxribinə çalışacaq".** Nə edəcək? **Müsəlmanlara "homoseksuallığı öyrədəcək". "Rumilik"** adı altında azğın bir din anlayışı yaratmağa çalışacaq. **"Darvinizm"i** öyrədəcək, Allahsız, Kitabsızlarla dost olacaq. Allahsızlığı təbliğ edəcək. **"Şəriəti-İslamiyənin təxribinə çalışacaq".**

**“Ona qarşı, Ali-Beyti-Nəbəvinin silsiləyi-nuranisinə bağlanan”,** yəni **“Peyğəmbərimiz (s.ə.v)-in nəslinə silsilə ilə bağlanan”.** Deməli, hz. Mehdi (ə.s)-ın silsiləsi bəlli olacaq. Çünki bax, **“silsilə ilə bağlanan”,** “silsiləyi-nuranisinə bağlanan”. **“Silsilə”** deyir. **“Sözlə deyil, silsilə ilə, “bağlanan əhli-vəlayət”,** yəni vəlilər. **“Və əhli-kamalın başına keçəcək”,** yəni alimlərin, üləmanın və kamil insanların başına keçəcək.

Əhli-kamal ayrı şeydir. Kəmalat. Baxın; **“əhli-vəlayət və əhli-kamalın”** deyir. Əhli-vəlayəti ayırır. Bir də **“əhli-kamalın başına keçəcək”** deyir. **“Ali-Beytdən”,** Peyğəmbərimiz (s.ə.v)-in nəslindən, adını da verir. **“Məhəmməd Mehdi adında”** şəxs, şəxsi-mənəvi deyil. Baxın, **“adını verirəm”** deyir. **“Məhəmməd Mehdi adında bir zatı-nurani”** zat, insan. Şəxsi-mənəvi deyil. **“Zatı-nurani, o Süfyanın şəxsi-mənəvisi olan”** şəxsi-mənəvini qəbul edir. Süfyan şəxsi-mənəvi olacaq, lakin **“Mehdi şəxs olaraq gələcək”** deyir. **“O Süfyanın şəxsi-mənəvisi olan”,** deməli, Süfyan ölmüş olacaq, hz. Mehdi (ə.s) dövründə. Bax, indi **“O Süfyanın şəxsi-mənəvisi olan cərəyanı-münafiqanəyi”,** münafiqlik cərəyanını **“zərərsizləşdirib dağıdacaq”.** Altıncı İşarə, *Məktubat*, səh. 56-57-də Bədiüzzaman söyləyir. Hazırda bu edilir. Münafiqlər hər yerdə sıxışdırılır”. (A9 TV, 1 iyun 2016)

## Lut qövmündəki münafiqlər də homoseksuallığı dəstəkləyirdilər

Keçmişdəki münafiqlərin həyatlarıyla dövrümüzdəki münafiqlərin maraqlandıqları mövzular, tərzləri, xarakterləri, rəftarları böyük eynilik təşkil edir. Dolayısilə **dövrümüzdəki münafiqləri yaxşı müəyyənləşdirə bilmək üçün, keçmiş münafiqlərə baxmaq, onların vəziyyətlərini də araşdırmaq lazımdır.** Məhz şiddətli azğınlıq və Allahın bütöv bir qövmə əzab verməsinin səbəbi olan **“homoseksuallığın qanuniləşdirilməsində, genişləndirilməsində və normal qarşılanmasında, münafiqlərin də rolunun böyük olduğu”**, Qurandakı keçmiş qövmlərin hekayələrində qeyd edilir.

Tarixdə **“homoseksuallıq”** deyildikdə ilk ağla gələn, əlbəttə ki, **“Lut qövmü”**dür. Allah bu həqiqəti Quranda belə bildirir: **“Bir zaman Lut qövmünə belə demişdi: “Sizdən əvvəl bəşər əhlindən heç kəsin etmədiyi həyasız-çirkinliyi mi edirsiniz?”** Ayənin ifadəsindən göründüyü kimi, **Lut qövmündən əvvəl homoseksuallıq heç bir qövmdə görülməmişdir. Bu, Allahın bəyənmədiyi şiddətli azğınlıqdır.** Lut qövmündə homoseksuallıq geniş yayılmışdı və bu qövm hz. Lut (ə.s)-ın xəbərdarlıqlarına baxmayaraq, bu azğın hərəkətlərindən imtina etmədikləri və azğınlıqlarına davam etdikləri üçün həlak edilmişdir. Quranda hz. Lut (ə.s)-ın, bu homoseksual azğın dəstəni xəbərdar edib doğru yola dəvət etdiyi belə xəbər verilib:

**Doğrudanmı siz insanlar içində ancaq kişilərlə yaxınlıq edir və Rəbbinizin sizin üçün yaratdığı qadınlarınızı tərk edirsiniz? Siz, həqiqətən də, həddi aşan adamlarsınız". (Şuəra surəsi, 165-166)**

**Siz, qadınları qoyub şəhvətlə kişilərin yanına gedirsiniz. Həqiqətən, siz, həddi aşmış adamlarsınız". (Əraf surəsi, 81)**

**Homoseksuallığı qanuni hesab edib tətbiq edənlərə, açıqca Allahın qoyduğu həddi aşırlar.** Çünki Allah Quranda bu azğınlığı **"haram etmişdir"**. Lakin Lut qövmü **"azğın qövm"**dür. Bu hərəkətlərindən imtina etmədikləri kimi, özlərini doğru yola dəvət edən, həqiqətləri açıqlayıb, etdiklərinin səhv olduğunu söyləyən peyğəmbərlərini yurdundan sürgün etməklə təhdid ediblər:

**Dedilər: "Ey Lut! Əgər (bu sözlərinə) son qoymasan, həqiqətən (buradan) sürgün edilənlərdən olacaqsan". (Şuəra surəsi, 167)**

Onların bu azğınlıqlarına və təhdidlərinə baxmayaraq, hz. Lut (ə.s) qətiyyətindən güzəştə getməmiş, eyni şəkildə onları xəbərdar etməyə davam etmişdir:

**Dedi: "Həqiqətən, mən sizin bu əməlinizə qəzəblə qarşı çıxanlardanam. Ey Rəbbim! Məni və ailəmi bunların etdiklərindən xilas et". (Şuəra surəsi, 168-169)**

**Lut Peyğəmbər (ə.s)-ın bu reaksiyası, homoseksuallığın heç vaxt qəbul edilə bilməz, haram hərəkət olmasındandır.** Əlbəttə, bunu da qeyd etmək lazımdır ki, **"homoseksuallığa qarşı olmaq; heç vaxt bu insanlara feli surətdə zərər verilməsini qanuni hesab etmək mənasını verməz"**. Edilməsi lazım olan, insanları bu azğınlığa qarşı xəbərdar etmək, onlara doğrusunu başa salmaq və bu əxlaqsızlığın cəmiyyətə yayılmasına mane olmaqdır.

Homoseksuallıq Quranda açıqca bildirildiyi kimi, **"çirkin həyasızlıqdır". Belə azğınlığın cəmiyyətdə yayılmasına mane olmaq bütün müsəlmanların məsuliyyətidir.** İman gətirənlər bu vəziyyətə tamaşaçı qalmamalıdır. **Bu əxlaqsızlığın təbliğatının edilməsinə göz yummamalı, reklamı etdirilməməli, insanlar bu əxlaqsızlığa təşviq edilməməlidir. Şüursuzca bu azğınlığa dəstək verməmələri və belə əxlaqsızlığa meyl göstərməmələri üçün, cahil və məlumatsız insanlar Quranla öyrədilməlidir.**

Necə ki, hz. Lut (ə.s) da qövmünü çox açıq, səmimi və aydın üslubla xəbərdar etmiş, onlara gördükləri işin pisliyini, iyrəncliyi və çirkinliyini başa salmışdır. Bu etdiklərindən ötrü həddi aşan azğın qövm olduqlarını ifadə etmişdir. Bunun qarşılığında

qövmü təhdidamiz və azğın cavab vermiş; hz. Lut (ə.s) və yanındakı inanclı insanların, yaşadıqları torpaqlardan sürgün edilib çıxardılmasına qərar vermişlər. Lut Peyğəmbər (ə.s), bu pozğun, homoseksual, azğın qövmdən özünü və ailəsini xilas etməsi üçün Allaha üz tutub dua etmişdir. Allah onun bu duasını qəbul etmiş, **"həyat yoldaşı istisna olmaqla"** peyğəmbəri və bütün ailəsini xilas etmiş, qövmünün geri qalanını isə həlak etmişdir. Allah bu vəziyyəti Quranda belə xəbər vermişdir:

**Biz onu və onun bütün ailəsini xilas etdik. Geridə qalanlar arasındakı yaşlı qadından başqa. Sonra da o birilərini darmadağın etdik. (Şuəra surəsi, 170-172)**

Lut qövmünün homoseksuallıq məsələsindəki bu azğınlıqları və bunun nəticəsində də kütləvi şəkildə həlak olmaları, demək olar ki, hər kəs tərəfindən bilinir. Lakin **bu pozğunluğun genişləndirilməsində o "dövrün münafiqlərinin oynadığı rol" çox vaxt diqqətdən yayınar. Halbuki münafiqlərin bu təhlükəli cəhətinin bütün müsəlmanlar tərəfindən çox yaxşı bilinməsi olduqca əhəmiyyətlidir.** Çünki münafiqlər tarixin başlanğıcından bəri, bütün peyğəmbərlərin dövründə hansı oyun və hiyləgər üsullarla ortaya çıxdılarsa, indiki vaxtda da şeytanın eyni sistemini davam etdirəcəklər. Dolayısilə Quranda bildirilən münafiq xarakterinə dair hər təfərrüat, bütün müsəlmanlar üçün çox əhəmiyyətli və yolgöstəricidir.

Peyğəmbərimiz (s.ə.v) bir hədisində; **"ümmətim içində qorxduğum şeylərin qorxuncu homoseksuallıqdır"***( İbn-i Mace, Hudûd 12-də)* sözləri ilə, bu təhlükəyə diqqət çəkmişdir. Başqa hədisində isə, **"Lut qövmünün etdiyi hərəkətin ən qorxunc, ən iyrənc və ən diksindirici şey olduğunu"** söyləyərək qövmünü belə xəbərdar etmişdir:

***Lut qövmünün etdiyi iyrənc hərəkəti edən kimsə lənətlənmişdir.*** *(Kütüb-i Sitte, Hədis No : 1607, Ravi: İbnu Abbas, Kaynak: Tirmizi= Kütüb-i Sittə, hədis No : 1607, Ravi: İbnu Abbas, Qaynaq: Tirmizi)*

Rəsulullah (s.ə.v) həmçinin, **"Allah kişi ilə cinsi təmas yaradan insanın üzünə baxmaz, (onu rəhmətindən qovar)"** *(Kütüb-i Sitte, Hədis No : 1607, Ravi: İbnu Abbas, Kaynak: Tirmizi, Rada 12, (1165))* sözləriylə də yenə **"homoseksuallığın, Allahın haram etdiyi bir azğınlıq olduğuna"** diqqət çəkmişdir. Bununla yanaşı, **İslam üləması da hər dövrdə, homoseksuallığın haram olduğu məsələsində fikir birliyi içində olmuş və bu mövzuda heç vaxt ixtilafa düşməmişlər.** Dolayısilə həm Quran ayələrindən, həm də Peyğəmbərimiz (s.ə.v)-in hədislərindən homoseksuallığın çirkin, azğın, anormal və nifrət edilən, diksindirici hərəkət olduğu açıqca aydın olur.

Bir Quran ayəsində; **"Allahın özlərinə qəzəbləndiyi qövmü vəli (dost və müttəfiq) tutanları görmədinmi?..."** (Mücadilə surəsi, 14) sözləriylə, münafiqlərin **"Allahın bəyənmədiyi, haram etdiyi hərəkətləri edən insanlarla dostluq əlaqəsi qurduqlarına"** diqqət çəkilmişdir. Məhz hz. Lut (ə.s) dövründə də bu ayə təcəlli etmiş, **Peyğəmbər (ə.s)-**

**ın yanında olan münafiqlər, Lut qövmündəki homoseksuallara gizlincə dəstək vermişlər. Bu azğın insanların iyrəncliklərini rahatlıqla yaşaya bilmələri üçün, onlara "məlumat ötürmüş" və onları gücləndirə bilmək üçün əllərindən gələni etmişlər.**

**Münafiqlər tarixin hər dövründə bu azğın və çirkli ittifaqı qurmuş; dövrün homoseksuallarına, iyrənc pozğunlarına, azğın fikirlərinə həmişə dəstək olmuşlar. Bu azğınlıqların yayılması üçün səy göstərmiş, iyrənc həyasız əməlləri edən insanları qorumuş və bu pozğun insanların qanuni görülməsini təşviq etmişlər.**

**Lakin nəticə münafiqlərin əleyhinə olmuş; özlərini çox hiyləgər və ağıllı zənn edən Lut qövmü münafiqləri Allahın əzabı ilə qarşılıq almışlar.** Həmçinin beləliklə Allah onları, hiyləgərcəsinə müsəlmanları aldatdıqlarını düşünən bütün münafiq dəstəsi üçün də ibrət etmişdir.

**Adnan Oktar: "Ümumiyyətlə şizofreniyalı ruhu vardır; yəni homoseksual və şizofreniyalı xarakteri göstərər şeytan.** Bunu bəzi yönləri ilə görürük onsuz da Qurandakı üslubunda. Məsələn, **Lut qövmünə gələn də şeytandır. Homosesksual olaraq gəlmişdir və oradakı qövmü pozmuşdur. Onlara da homoseksuallığı bulaşdırmışdır.** O dövrə qədər tarixdə heç bir qövm bilmirdi belə bir azğınlığı. Lut qövmü homoseksuallığın nə olduğunu bilmirdi. **İlk dəfə onlara öyrədən "şeytan"dır. İnsan formasında gəlmişdir. Onları o şəkildə yönləndirmişdir.** Mələklər gəldikdə, hətta mələklərin də üstünə gedirlər orada bildiyiniz kimi. Şeytan təhrik edir onları mələklərə yönəlmələri üçün. **Bildiyiniz kimi Allah yeri alt-üst edir, həlak edir bu qövmü. Oradakı günah homoseksuallıqdır. Lut qövmünün darmadağın edilməsinin səbəbi budur; homoseksual azğınlıq. "Siz qadınları tərk edib kişilərə mi gedirsiniz?"** deyir Allah. **"Qadınları tərk edib"**, amma hazırda qadın düşmənçiliyi var bir çox yerdə. Qadını tərk edib, o kişiyə yönəlib artıq". (A9 TV, 3 iyun 2016)

## Hz. Lut (ə.s)-ın münafiq həyat yoldaşı, ətrafındakı inkarçılar üçün məlumat toplayır və dövrün homoseksuallarını dəstəkləyirdi

Allah Qurandakı hekayələrlə, dövrümüzdə nümunələriylə qarşılaşdığımız zaman necə reaksiya verməli və necə davranmalı olduğumuzu anlamağımız üçün bizə yol göstərir. **Məhz münafiqlərin homoseksuallarla olan əlaqələrini və onlara verdikləri dəstəyi anlamaq üçün, Quranda verilən nümunələrdən biri də hz. Lut (ə.s)-ın həyat yoldaşıdır.** Bu qadın hz. Lut (ə.s)-ın ailəsindən biridir və hətta həyat yoldaşı olmasına baxmayaraq, **münafiq xarakterli olduğu üçün, Peyğəmbərin şiddətlə mübarizə apardığı bu azğın və homoseksual cəmiyyətlə əlaqə yaratmışdır. Onlarla dost və sirdaş olmuş və Peyğəmbərə qarşı onların cərgəsində iştirak etmişdir.**

**Hz. Lut (ə.s)-ın həyat yoldaşı, güc və qürurun hz. Lut (ə.s) və iman gətirənlərin yanında deyil, homoseksual qövmün yanında olduğuna inanmışdır.** Homoseksualların, cəmiyyətin məşhur, qabaqcıl, zəngin və etibarlı çoxluğu tərəfindən qəbul edilən və arxa çıxılan bir cəmiyyət olduğunu düşünərək aldanmış və onların tərəfində dayanmasının daha ağıllı olduğuna qərar vermişdir.

Bu, **əzik, kələkbaz ruhlu, mənfəətpərəst, küfr əhlinə yaltaqlanmağa çalışan yanaşma tərzi, münafiqlərin ümumi rəftarıdır**. Özlərinin "**çox ağıllı və ayıq**", müsəlmanların isə, "**guya öz dünyəvi mənfəətlərini qorumağı bacarmayan**" və ayədə bildirildiyi kimi "**zəif ağıllı**" (Bəqərə surəsi, 13) kəslər olduqlarına inanarlar. Özləri, güc sahibi zənn etdikləri insanların cərgəsində iştirak edərək dünyadakı mənfəətlərini xilas etdiklərinə; müsəlmanların isə zəiflərin yanında dayanmaqla böyük ağılsızlıq etdiklərinə inanarlar. **Sırf mənfəət üçün, bu iyrənc murdarlığı mənimsəmiş insanlarla dostluq əlaqələri qurmağın nə qədər alçaldıcı olduğunu isə dərk etmirlər.**

Məhz hz. Lut (ə.s) dövründə də, bütün münafiq xarakterli insanlar kimi, Peyğəmbərin münafiq həyat yoldaşı da bu küfri qiymətləndirmələrlə hərəkət edirdi. **Lut Peyğəmbər (ə.s), qövmündəki pozğun dəstə ilə mübarizə apararkən, münafiq əxlaqlı həyat yoldaşı da, gizlincə homoseksuallarla birlik olub Peyğəmbərə qarşı münafiq xarakterli işlər görə bilməyin arxasında idi** (hz. Lut (ə.s)-ı tənzih edirik). **Peyğəmbər (ə.s)-ın rəftarını doğru hesab etmir, ona qarşı çıxmaq bahasına homoseksualların cərgəsində iştirak edib onları müdafiə edirdi. Qövmündəki homoseksualların çox olduğunu gördüyü və onları daha güclü hesab etdiyi üçün, onlardan mənfəət əldə edə bilməyi ümid edirdi. "Bəlkə onlar sayəsində güc və pul qazanaram, etimad qazanaram, qorunaram, arxamı güclü insanlara yaslayaram, həyat boyu rahat olaram, mühüm insan olaram**" kimi məntiqlərlə dünyəvi hesablar görürdü. Yoxsa, əlbəttə ki, bu azğın qövmün əxlaqsız, diksindirici, alçaq xarakterdə insanlardan ibarət olduğunu çox yaxşı bilirdi. Lakin özü də **yüksək əxlaqi dəyərə sahib olmadığı üçün onların etdiyi iyrənc azğınlığa biganə yanaşırdı.**

Hz. Lut (ə.s)-ın münafiq həyat yoldaşı, istəsə Peyğəmbər və iman gətirənlərin yanından ayrılıb, heyran olduğu bu azğın insanların arasında yaşaya bilərdi. Lakin iman gətirənlər arasında qalıb, hiyləgərcə azğınlığa dəstək vermək və iman gətirənlərə qarşı alçaqca oyunlar oynamaq, ona daha cəlbedici gəlmişdir. **Müsəlmanlar əleyhinə nə qədər xainlik edə bilsə, küfr əhlinin və homoseksualların arasında o qədər mühüm şəxsiyyət olacağını zənn edərək, Peyğəmbərin yanında qalaraq oyunlarına orada davam etməyi seçmişdir.**

Bu baxış prizması hərəkət edən **hz. Lut (ə.s)-ın həyat yoldaşı, Peyğəmbərdən və iman gətirənlərdən məlumat toplayıb, bunları qövmündəki homoseksuallara çatdırmağı öz aləmində çox mühüm vəzifə kimi görmüşdür**. İman gətirənlərlə homoseksual pozğunlardan ibarət inkarçı cəmiyyət arasında şiddətli mübarizənin yaşandığı o günlərdə, bu münafiq qadın mömin təqlidi edərək, "**topladığı bütün məlumatları qövmündəki**

**homoseksuallara çatdırmışdır**". Hiyləgərcə iman gətirənlər əleyhinə "**casusluq etmişdir**". Alçaqca, şəxsiyyətsizcə qarşı tərəfə "**məlumat daşımışdır**". "**Peyğəmbər və yanındakılar sizin haqqınızda bunları danışdılar**", "**burada toplanacaqlar, bunu edəcəklər**" tərzində, gecə-gündüz həmişə inkarçılara məlumat verərək homoseksuallara dəstək olmuşdur.

Məhz **dövrümüzdə də münafiqlər** Quranda; "**...aranızsa onlara "xəbər daşıyanlar" var...**" (Tövbə surəsi 47) ayəsiylə xəbər verildiyi kimi, **müsəlmanlar əleyhinə homoseksual dəstəyə məlumat daşıyaraq dəstək verirlər. Həmçinin "niyə homoseksuallara icazə vermirsiniz?", "niyə onlara azadlıq tanımırsınız?", "rahat yaşamalarına niyə qarışırsınız?" kimi hiyləgər üslublarla, İslamda qətiyyən yeri olmayan bir azğınlığın qanuniləşməsi üçün çalışırlar. Homoseksualların əxlaqsız olması isə münafiqi heç maraqlandırmaz**; o da bunun azğınlıq olduğunu açıqca bilir, lakin maraqlanmaz. **Yalnız öz maraqlarını qoruyur. Çünki həyasızdır; münafiqin Allah qorxusu, əxlaqi dəyərləri, şərəfsizlik etmə narahatlığı və özünə hörməti yoxdur.**

Peyğəmbərin evində yaşadığı halda gecə-gündüz homoseksuallara dəstək verən və onlara mühit hazırlayan bu münafiq qadın, bütün iman gətirənlər üçün ibrət vəsiləsidir. **Bu qadın, yaşadığı dövrdə çirkin həyasızlıq edən homoseksualların baş dəstəkçisi olmuşdur. Tarixə də belə keçmişdir. "Təbəri Təfsiri"**ndə bu münafiq qadının vəziyyəti belə xəbər verilmişdir:

***Hz. Lutun xanımı isə, o da iman gətirmədiyi kimi, Luticilik edənlərin işlərinə kömək edir, gələn qonaqları bir yolla onlara xəbər verirdi.*** *(Taberi, Zemahşeri, Razi, İbn Kesir, Kurtubî, Təhrim surəsi, 10-cu ayənin təfsiri)*

Hz. Lut (ə.s)-ın münafiq həyat yoldaşı, mənfəət əldə etməyi ümid edərək homoseksual qövmünə dəstək vermiş, lakin bunun nəticəsində istədiyi mənfəətlərə nail ola bilməmişdir. **Allah azğın Lut qövmü ilə birlikdə onu da həlak etmişdir**. Birlikdə saf tutduğu, qorxunc cinayətlərinə və iyrənc əxlaqsızlıqlarına ortaq olduğu insanlarla birlikdə əzaba uğramışdır. Peyğəmbər xanımı olması da ona heç bir fayda verməmişdir:

**Biz onu və ailəsini xilas etdik. Yalnız arvadından başqa. Biz onun arvadının geridə qalanlardan olmasına qərar verdik. Biz onların üstünə daşlardan yağış yağdırdıq. Qorxudulanların yağışı nə yaman imiş! (Nəml surəsi 57-58)**

**Mələklər dedilər: "Ey Lut! Biz sənin Rəbbinin elçiləriyik. Onlar əsla sənə zərər yetirə bilməzlər. Gecənin bir vaxtında arvadından başqa bütün ailənlə yola düş. Qoy içinizdən heç kəs dönüb arxaya baxmasın. Çünki onların başına gələcək müsibət onun da başına gələcəkdir. Onların həlak olmaq vaxtı səhərdir. Məgər səhər yaxın deyilmi?" (Hud surəsi 81)**

## Tövratda bildirildiyinə görə, hz. Lut (ə.s)-in həyat yoldaşı "duz dirəyi" olmuşdur

Bu hadisənin Tövratdakı izahatı isə belədir:

*Və **Rəbb, Sodom və Qomorra üzərinə göydən "kükürd" və "od" yağdırdı.** Və o şəhərləri və bütün bölgəni; şəhərlərdə yaşayanların hamısını və torpağın bitkisini "alt-üst etdi". Lakin (Lutun) zövcəsi, onun arxasından geriyə baxdı və "duz dirəyi" oldu. Həmçinin İbrahim səhər tezdən qalxıb, Rəbbin önündə dayandığı yerə getdi. Və Sodom və Qomorraya və bütün bölgə məmləkətinə doğru baxdı. Və gördü. Və məhz yerin dumanı, "ocaq dumanı" kimi çıxırdı. (Tevrat, Tekvin, 19: 23, 28)*

*[Allah] **Sodom və Qomorra** şəhərlərini darmadağın edərək mühakimə etdi. Beləliklə Allahsızların başına gələcəklərə nümunə verdi. Lakin **qanun tanımayan kəslərin səfeh yaşayışından** əzab çəkən dürüst insan Lutu xilas etdi. Çünki onların arasında yaşayan bu dürüst insan, **görüb eşitdiyi qanun tanımaz davranışlar ucbatından doğru qəlbində hər gün iztirab çəkərdi.** Görünür ki, Rəbb Öz yolunda yeriyənləri qarşılaşdıqları sınaqlardan necə xilas edəcəyini bilir. **Dürüst olmayanları, xüsusilə mənliyin korlanmış ehtiraslarının ardınca gedən və səlahiyyətini xor görənləri cəzalandıraraq məhkəmə gününə qədər necə qoruyub saxlayacağını da bilir.** (Petrusun 2-ci məktubu, 2:6-10)*

## Hz. Nuh (ə.s)-ın münafiq həyat yoldaşı, qövmünün azğınlıqlarını dəstəkləyir, peyğəmbərin əleyhinə inkarçılar üçün məlumat toplayırdı

Hz. Nuh (ə.s), azğın yolda olan qövmünü, Allahın dininə tabe olmaları və azğınlıqlarından imtina etmələri məsələsində dəfələrlə xəbərdar etdiyi halda, onlar Peyğəmbəri yalançı saydılar və şirk qoşmağa davam etdilər. Sonra da qövmünün qabaqcılları **hz. Nuh (ə.s)**-ı, öz aləmlərində "**onlara qarşı üstünlük əldə etməyə çalışmaq**" və "**dəlilik**" kimi böhtanlarla ləkələməyə çalışdılar. Həmçinin onu müşahidə etməyə, təzyiq altında saxlamağa qərar verdilər. Bundan sonra Allah hz. Nuha, bir gəmi inşa etməsini; inkarçıların suda boğularaq əzab çəkəcəyini və təkcə iman gətirənlərin xilas olacağını vəhy etdi.

Allah Quranın; "***Allah, kafirlər üçün Nuhun həyat yoldaşı ilə Lutun həyat yoldaşını misal çəkdi. İkisi də bəndələrimizdən saleh olan iki bəndəmizin kəbini altında idilər, lakin onlara xəyanət etdilər. Bundan ötrü, (ərləri) özlərini Allahdan gələn heç bir vəchlə xilas edə bilmədilər. İkisinə də: "Oda digər girənlərlə birlikdə girin" deyildi***" (Təhrim surəsi, 10) ayəsi ilə, hz. Nuh (ə.s)-ın həyat yoldaşının da, hz. Lut (ə.s)-ın həyat yoldaşı kimi, inkarçı qövmü ilə birlikdə həlak edildiyini xəbər vermişdir.

Çünki hz. Nuh (ə.s)-ın həyat yoldaşı da, eynilə hz. Lut (ə.s) Peyğəmbərin həyat yoldaşı kimi münafiqlik edərək, "**Peyğəmbərə xəyanət etmiş və dövrün inkarçılarıyla əməkdaşlıq etmişdi**". Onlara "***Peyğəmbərin və müsəlmanların əleyhinə məlumat daşımış, öz cəmiyyətindəki zülm edən insanlara iman gətirənləri xəbər vermişdir***". *((İbn Cerir) Mevdudi, Tefhimul-Quran, İnsan nəşriyyatı: 6/369)* Həmçinin hz. Nuh (ə.s)-a göstərdikləri azğın rəftarlarında din düşməni olan qövmünə dəstək olmuşdur. Həmçinin inkarçılarla eyni alçaqca iddialar edərək "**Peyğəmbəri "dəliliklə" ittiham etməyə cəhd etmiş və aravuranlıq etmişdir**". "**Qövmü ilə bir olmuş və öz aləmində Peyğəmbərə lağ etmişdir**" (Peyğəmbəri tənzih edirik). "**Hz. Nuh (ə.s)-ın sirr kimi qəbul etdiyi vəhy xəbərlərini də müşriklərə və münafiqlərə elan etmişdir**". *(Ragıb el-İsfehani, Müfredat: 163)* Azğın yolda olan inkarçı qövmü ilə dost olub çirkli ittifaqlar quraraq onların azğınlıqlarına dəstək olmuşdur.

Hz. Nuh (ə.s)-ın həyat yoldaşının, eynilə Lut Peyğəmbər (ə.s)-ın həyat yoldaşı kimi münafiqlik etdiyi, "Kurtubi Təfsiri"ndə belə bildirilmişdir:

*Belə aydın olur ki, **bu iki Peyğəmbər yoldaşı, iman gətirmiş görünür, lakin əslində iman gətirməyib münafiqlik edirdilər.** (Kurtubî, Beydavî)*

Hz. Nuh (ə.s)-ın həyat yoldaşı, Allahın sevdiyi, razı olduğu, cənnətiylə müjdələdiyi mübarək Peyğəmbərlə evli olduğu halda; bu yaxınlıq, ona heç nə qazandırmamışdır. Tam əksinə Peyğəmbərin yanında göstərdiyi münafiq xarakterindən ötrü Allahın əzabı ilə qarşılaşmışdır.

*İbn Abbas bu xəyanətin formasını belə ifadə etmişdir: **"Hz. Nuh (ə.s)-ın xanımı, yoldaşına iman gətirmədiyi (Peyğəmbər olduğuna inanmadığı) kimi, insanlara onun dəli olduğunu söyləyirdi".*** (Taberi, Zemahşeri, Razi, İbn Kesir, Kurtubî, Təhrim surəsi, 10-cu ayənin təfsiri)

*Digər bir rəvayətə görə, **hz. Nuh (ə.s)-ın xanımı, iman gətirənləri (onlara işgəncə versinlər deyə) cəmiyyətin güclü olan zalım despotlarına xəbər verirdi.*** (Taberi) (Kurtubî, Beydavî)

# Münafiqin əxlaqsızlığı və oyunları

## Müsəlmanlar "vicdanları", münafiqlər isə "məntiqləri" ilə hərəkət edərlər

İman gətirənlərlə, müsəlman əxlaqını yaşamayan insanların həyatlarının hər anı bir-birlərindən tamam fərqlidir. Bunun ən mühüm göstəricilərindən biri də, iman gətirənlərin "**vicdanları**", iman gətirməyənlərin isə "**məntiqləri**" ilə hərəkət etmələridir. Müsəlmanlar qarşılaşdıqları hər hadisədə, alacaqları hər qərarda, atacaqları hər addımda, söyləyəcəkləri hər sözdə, hər düşüncələrində, hər seçimlərində vicdanlarının səsinə qulaq asarlar. İman gətirməyənlər isə bütün bu mərhələlərdə həmişə dünyəvi hesablar edər və hər şeyi məntiq süzgəcindən keçirərək hərəkət edərlər. Dolayısilə müsəlman əxlaqı ilə yaşamağa qərar verən insanın, özündə mütləq bu sorğunu aparması, eləcə də, "**vicdanı**", yoxsa "**məntiqi**" ilə hərəkət etdiyini nəzərdən keçirməsi lazımdır.

Necə ki, bu sorğunu aparmamış olub iman gətirdiyini söyləyən birinə; "**müsəlman olduqdan sonra həyatında nə dəyişdi?**" deyə sual verdiyimiz vaxt; "**artıq namaz qılıram, haramlara diqqət yetirirəm**" deyə bilər. Əlbəttə ki, bunlar İslam əxlaqını yaşamağın bir tələbidir və bu hökmlərə diqqət göstərməyə başlamış olması olduqca gözəldir. Lakin müsəlman olan birinin, digər insanlardan fərqi bir də bu olmalıdır: "**Sən daha əvvəl məntiqinlə hərəkət edirdin, indi artıq vicdanınla hərəkət edəcəksən. Allah hər an sənin vicdanına vəhy edəcək sən də vicdanına tabe olacaqsan. Vicdandan istifadə etmədən məntiqlə hərəkət etmək vərdişi isə artıq sənin üçün bitəcək**".

Bir insanın iman gətirdiyi halda, hələ də Quran əxlaqı və vicdanı əvəzinə, məntiqi ilə düşünüb həyatını bu yöndə istiqamətləndirməsi, onu səmimiyyətsiz xarakterdə qoyacaq və səmimi iman gətirməsinə mane olacaq.

Çünki münafiqlər də məhz həyatlarını həmişə belə "**məntiq hesabları**" edərək keçirərlər. Allah bir Quran ayəsində münafiqlərin bu əxlaqına belə diqqət çəkmişdir:

**Əgər səfəriniz gəlir gətirən və yüngül bir yürüş olsaydı, onlar mütləq sənin ardınca gedərdilər. Lakin əziyyətli yol onlara çətin gəldi. Onlar: "Əgər taqətimiz olsaydı, biz də sizinlə bərabər çıxardıq!" – deyə Allaha and içəcəklər. Onlar özlərini həlak edirlər. Çünki Allah onların yalançı olduqlarını bilir. (Tövbə surəsi, 42)**

Ayədə münafiqlərin müsəlmanlarla birlikdə olmaq üçün "**yaxın fayda**", yəni "**qısa müddətdə əllərinə keçəcək mənfəət axtardıqları**" xəbər verilmişdir. Məntiqlə hərəkət edən münafiqlər üçün "**şəxsi maraqları**" dünyadakı hər şeydən önəmlidir. Dolayısilə bir seçim edərkən, daha az zəhmət çəkərək, daha qısa müddətdə və daha çox mənfəəti kimdən əldə edə biləcəklərinin hesabını aparar və bu tərəfin yanında dayanarlar. Həmçinin əldə

edəcəkləri mənfəətin də mütləq konkret mahiyyətli olmasına diqqət yetirərlər. Məhz Allahın ayədə diqqət çəkdiyi vəziyyət də münafiqin bu əxlaqını çox açıq şəkildə göstərər. Münafiq, əgər "**yaxın fayda**", "**zəhmət çəkmədən əldə ediləcək**", "**asan qazanc**" mövcud olsa, o zaman müsəlmanların tərəfində dayana bilər. Lakin bunlar olmadıqda, mütləq bunları tapacağı başqa yer axtarmağa başlayar.

Məhz münafiqin həyatının hər mərhələsində, etdiyi hər seçimdə diqqətçəkən bu küfri xüsusiyyət, münafiq xarakterini tanımaq baxımından olduqca əhəmiyyətlidir.

**Adnan Oktar: "İnsanın ruhunda iki qüvvə də mübarizə aparar: vicdanı və məntiqi. Mömin həmişə vicdanının tərəfində olmalıdır...** Məsələn, mən Memar Sinan Gözəl Sənətlər Universiteti daxili arxitektura oxuyurdum. Yaxşı, daxili memar olarsan, nə edər adam, bir atelye açar, bir şeylər edər, davam edir. Məsələn, adam deyər: "Mən evlənim, övlad sahibi olum, cəmiyyətdə bu daha yaxşı qarşılanar. "Evli insandır, uşaqları var, təbliğ edir. Belə insan çox məqbul görülər" deyə düşünə bilərəm. Yaxud: "Niyə həmişə İstanbulda qalım? Bir az da Antalyada İslamı təbliğ edə bilərəm" deyə bilərəm, elə deyil? Yaxud da: "Ölkə xaricinə gedim, orada İslamdan bəhs edim" deyə bilərəm. **(1980-ci illər baxımından) ən təhlükəli olan yerdə qalıram, təhlükənin mərkəzində, ətrafım sarıldığı bir vaxtda, gedib orada təbliğ edirəm. Bunu mənə kim deyir? Vicdanım deyir. Məntiqim nə deyər? "Qardaşım başına bəla axtarırsan?"** deyər. **"Get başqa ölkəyə, elə deyil? Nə təhlükə olar, nə də başqa şey. Elə heç kim də başına iş açmaz, orada istədiyin kimi yaşa"** deyə bilər. "Evlən, övladına, işinə, gücünə bax, lakin yenə də təbliğini et" də deyə bilər. **Bunu kim deyər? Məntiq deyər. Məntiq insanı həlak edər. Mən həmişə vicdanıma tabe oldum, insanlar həmişə təəccübləndi vicdanıma tabe olduğum üçün. "Sən bəlanı axtarırsan?" deyirlər. Halbuki vicdana tabe olunduğu üçün Allah həmişə zənginlik, bərəkət və gözəllik verir, həmişə müvəffəqiyyət verir. İqtidar, müqtədir sistem hər yerdə yerləşir. İslam yavaş-yavaş inkişaf edir".** (A9 TV, 21 yanvar 2016)

## Münafiq haqq olana deyil, güclü və özündən razı olduğuna inandığı tərəfə yanaşar

Münafiqlərin, güclü olan tərəf hansıdırsa dərhal onun tərəfində dayanmaları, bu səmimiyyətsiz insanların ən xarakterik xüsusiyyətlərindəndir. Küfr əhlinə duyduqları həsrət, onların küfr əhlinin, dünyanın hər yerində və hər sahədə müsəlmanlardan daha güclü və daha özündən razı olduğunu zənn etmələrindən irəli gələr. Lakin müsəlmanlar dünya səviyyəsində güc qazandıqları zaman da, bu dəfə də dərhal onlara yanaşar və özlərini onlara, "**müsəlmanların ən təqvalı olanlarındanmış kimi tanıtmağa**" çalışarlar.

Tarixin hər dövründə münafiqlər bu xarakter xüsusiyyətini göstəriblər. İçərisində olduğumuz Axırzamanda İslam əxlaqı təkrar dünyaya hakim olduğu zaman da, münafiq

xarakterli insanlar yenə müsəlmanların tərəfindəymiş kimi görünməyə çalışarlar. Allah Quranda onların bu səmimiyyətsiz rəftarını bizə belə bildirmişdir:

**Münafiqlər onları haraylayıb deyəcəklər: "Məgər biz sizinlə birlikdə deyildikmi?" Möminlər deyəcəklər: "Bəli, lakin siz öz-özünüzü aldadırdınız, möminlərə bəla üz verməsini gözləyirdiniz, haqqa şübhə edirdiniz və Allahın əmri gələnədək xülyalar sizi yoldan çıxartdı. Tovlayan şeytan Allah barəsində sizi yaman aldatdı. (Hədid surəsi, 14)**

**Onlar sizə göz qoyurlar (gözləyirlər ki sizə bir bəla gəlsin). Əgər Allahdan sizə bir qələbə gəlsə: "Məgər biz də sizinlə deyildikmi?" - deyərlər. Əgər kafirlərə bir qələbə nəsib olsa: "Məgər biz möminlərlə birlikdə sizə qalib gələ bilməzdikmi, sizi möminlərdən qorumadıqmı?" - söyləyərlər. Qiyamət günü Allah sizin aranızda hökm verəcəkdir. Allah kafirlərə möminləri məğlub etməyə yol verməyəcəkdir. (Nisa surəsi, 141)**

Ayədə müsəlmanlar müvəffəqiyyət qazandıqları zaman və güc əldə etdikləri zaman, münafiqlərin dərhal onların yanına gedib; "**biz də sizinlə birlikdə deyildik**?" deyərək bu gücdən istifadə etməyə çalışdıqları xəbər verilmişdir. Açıq-aydın görünən o qədər səmimiyyətsiz rəftarlarına baxmayaraq, belə vəziyyətdə heç utanıb sıxılmadan üzsüz şəkildə; "**biz onsuz da sizinlə birlikdə idik**" deyə bilirlər. Bunun səbəbi isə, əlbəttə ki, ağılsızlıqlarıdır. Münafiqlər etdikləri anormal və müsəlman əxlaqı ilə uyğun gəlməyən rəftarlarının, səmimiyyətsizliklərinin, ikiüzlülüklərinin və gizlin-gizlin yürütdükləri hiyləgərcə fəaliyyətlərin heç anlaşılmadığından əmindirlər. Buna görə də "**biz onsuz da sizinlə idik, İslam əxlaqını dünyaya birlikdə hakim etdik, birlikdə səy göstərdik**" kimi sözlər söylədikləri vaxt, bunun dərhal qəbul ediləcəyini zənn edərlər.

Ayənin davamında bildirildiyi kimi, güc küfr əhlinin əlinə keçdiyi zaman da, münafiqlər bu dəfə də onların yanına gedib; "**müsəlmanlardan sizə gələcək təhlükələrin qarşısını alıb sizə kömək etmədikmi**?" "**sizin üstün gəlməyiniz üçün sizə dəstək vermədikmi**?" deyərlər. Məhz bu münafiqin səmimiyyətsizliyinin çox açıq göstəricisidir. Öz mənfəət hesablarına görə, hansı tərəf daha təsirli, müvəffəqiyyətli və göstərişlidirsə, münafiq mütləq onların tərəfində dayanar.

Lakin Allah Quranda münafiqlərin məntiqləriylə etdikləri bu mənfəət hesablarının onlara heç bir fayda verməyəcəyini xatırlatmışdır. Əvvəlki dövrlərdə də münafiqlər məntiqləriylə hərəkət etmiş; güclü və göstərişli zənn etdikləri tərəfin cərgəsində iştirak etmişlər. Onlardan əldə etdikləri mənfəətlərin onlara da güc və iqtidar qazandıracağını zənn ediblər. Allah onların bu vəziyyətini; **"...siz də, sizdən əvvəlkilərin öz paylarıyla faydalanmağa cəhd etmələri kimi, öz paylarınızla faydalanmağa baxdınız və siz də (dünyaya və zövqə) dalanlar kimi daldım..."** sözləriylə xatırlatmışdır. Lakin əldə etdikləri özündən razı və dəbdəbəli mənfəətlər, onları Allahın əzabından xilas edə bilməmişdir.

Allah Quranda bu insanların həm dünyada, həm də axirətə ziyana uğradıqlarını xəbər vermişdir:

**Onlar da sizdən əvvəl yaşamış münafiqlər kimidirlər. Onlar sizdən qüvvədə daha üstün, mal-dövlət və övlad baxımından daha çox idilər. Onlar öz paylarından zövq aldılar. Sizdən əvvəlkilər öz paylarından zövq aldıqları kimi, siz də öz payınızdan zövq aldınız. Onlar batil fikirlərə daldıqları kimi, siz də daldınız. Onların əməlləri dünyada da, axirətdə də heçə getmişdir. Məhz onlar ziyana uğrayanlardır. (Tövbə surəsi, 69)**

## Münafiq həmişə mənfəət ardınca qaçar

**Münafiqlər Allahın rizasını qazanmaqdansa, dünyanın göstərişli həyatına dair çox kiçik və adi mənfəəti əldə edə bilməyi daha da əhəmiyyətli görərlər.** Allah Quranda onların bu xarakterini belə xəbər vermişdir:

**Onlar: "Bu işdə bizim üçün bir xeyir varmı?" - deyə Allah barəsində haqsız olaraq, cahiliyyə dövründəkinə bənzər düşüncələrə qapıldılar. De: "Bütün işlər Allaha aiddir!" Onlar sənə bildirmədiklərini öz içərilərində gizlədir: "Əgər bu işdə bizim üçün bir xeyir olsaydı, elə buradaca öldürülməzdik" - deyirlər. (Ali İmran surəsi, 154)**

Münafiqlər Allahın məmnun olacağı və İslamın xeyirinə olacaq bir mövzuda səy göstərməkdən, müsəlmanlara dəstək olub kömək etməkdən diqqətlə qaçarlar. Özlərindən kömək tələb edildikdə, "**müxtəlif yalanlarla, oyalamalarla, təxirə salmalarla və saxtakarlıqlarla**" bu işi görməməyə çalışarlar. Allahın rizasını əhəmiyyətli hesab etmədikləri üçün, bu səylərinin nəticəsində əllərinə keçəcək "**konkret mənfəət**" olmadığını düşünərlər. Belə vəziyyətdə də öz aləmlərində "**puç olacaq bir şey üçün zəhmət çəkməyi, özlərini yormağı**" lazımsız və mənasız hesab edərlər. Vicdanlarıyla deyil, məntiqləriylə hərəkət edən münafiqlərdə belə səy göstərmək üçün içlərində ən kiçik maraq, istək, şövq və ya həyəcan yaranmaz. Məhz buna görə də ayədə bildirildiyi kimi, İslam üçün nə isə etmələri lazım olduqda, ilk yanaşma tərzləri "**Bu işdə bizim üçün nə var ki**?" şəklində olur.

Ayənin davamında bu kəslərin; "**bu işdə bizim üçün bir şey olsaydı, elə buradaca öldürülməzdik**" dedikləri də bildirilmişdir. Peyğəmbərimiz (s.ə.v) dövründəki münafiqlər bu sözləriylə, müsəlmanlarla birlikdə hərəkət etməli olsalar bundan heç bir mənfəət əldə edə bilməyəcəkləri kimi, bir də öldürülmə ehtimalları olacağını dilə gətirmişlər. Dolayısilə Peyğəmbərimiz (s.ə.v) ilə birlikdə hərəkət etməyi özləri üçün böyük zərər kimi görmüşlər.

Halbuki, Allah təqdir etdisə, orada və ya başqa yerdə, onsuz da mütləq öləcəklər. Mənfəət hesabları etməklə, nə ölümdən, nə də özlərinə gələ biləcək zərərdən qaçmaları

mümkün deyil. Eynilə Allah onlar üçün xeyir istəsə, lütf etmək istəsə, ən çətin şəraitdə belə olsalar bu nemətlər onlara mütləq çatacaq. Lakin münafiqlər, hadisələri müsəlmana yaraşan baxış prizması ilə qiymətləndirmədikləri üçün, bu mühüm həqiqətləri görə bilməzlər.

## Münafiq özünü müsəlmanların ən təqvalısı kimi göstərməyə çalışar

**Münafiqlər istədikləri qəlibə girə bilməkdə xeyli məharətlidirlər**. İstədikləri anda, şəxsiyyətlərini əvvəlkinə tamamilə zidd şəkildə dəyişdirmiş kimi göstərə biləcək "**şeytani zəka və iradəyə**" sahibdirlər. **Olduqları mühitə, qarşılarındakı kəslərə, danışılan mövzulara və şərtlərə görə istədikləri xarakterə bürünə bilərlər**. Dinsiz insanlarla, sanki dinsiz biri kimi "**dinsiz üslubuyla**", müşrik xarakteri göstərən kəslərlə "**müşrik məntiqiylə**", münafiq xarakterli insanlarla bir yerə gəldikləri zaman da "**münafiq ağzı ilə**" danışarlar.

Lakin münafiqlər, şeytani zəkaları sayəsində, bütün bu xarakterlərin əksi olan müsəlman əxlaqını da çox yaxşı müşahidə ediblər. Dolayısilə şərtlər tələb etdikdə; "**özlərini günahsız göstərmək, gizli hərəkətlərinin üstünü örtmək, münafiqlikdən və hiyləgər fəaliyyətlərindən imtina etdikləri qənaətini yaratmaq istədikdə**", dərhal təqvalı müsəlmana bənzər rəftarlar göstərərlər. Həqiqətən də görənlərin, əleyhinə zənn bəsləyə bilməyəcəkləri qədər mükəmməl təfərrüatlarla, çox yaxşı niyyətli, səmimi, dürüst, Allah rizası üçün səy göstərən, müsəlmanların tərəfində dayanan insan görünüşü verə bilərlər. **Normalda olduqca alçaq, hiyləgər, ədabaz, lovğa, qürurlu, sözün altında qalmayan, davakar, yalançı, böhtançı, həmişə hadisə törədib müsəlmanları narahat etməyə çalışan, onların xeyirli fəaliyyətlərinə əngəl törətməyə, sevinclərini yox etməyə, vaxtlarını almağa istiqamətli tədbirlər görən biri olarkən, istədikləri anda bütün bunlardan taktika məqsədiylə imtina edə bilərlər.** Sanki ətrafındakı səmimi müsəlmanların əxlaqından belə daha üstün əxlaqa sahibmiş kimi; **itaətkar, təvazökar, uyğun, mülayim, söz dinləyən, nəzakətli, hörmətkar, nəzakətli, hörmət və sevgi dolu, fədakar, anlayışlı, şövqlü, çalışqan, təmiz insan xarakteri nümayiş etdirər**. Peyğəmbərimiz (s.ə.v) hədislərində, "**münafiqlərin bu şəkildə iki fərqli insan xarakteri göstərərək müsəlmanları aldatmağa çalışmalarından**" belə bəhs etmişdir:

*Əbu Hüreyrə belə dedi: Peyğəmbər (s.ə.v): "Sən qiyamət günü Allah qatında insanların ən şərlisindən bir növünü (iki sinif xalq arasında)* ***bunlara bir üzlə, onlara başqa üzlə gəlməkdə olan iki üzlü (münafiq kimsə) taparsan" deyə buyurdu.*** *(Sahih-i Buhari 13-cü cild, səh. 6040, Hədis no: 87)*

*Əbu Hüreyrə rəvayət etmişdir: Gələn rəvayətə görə, Peyğəmbərimiz (s.ə.v) belə buyurmuşdur:* ***İnsanların şərlisi də iki üzlü olan bu (münafiq) kimsələrdir ki, (iki sinif xalq***

***arasında) onlara bir üzlə gələrlər**, bunlara da başqa üzlə gələrlər. (Sahih-i Buhari, Hədis no: 1421)*

Ancaq **bu cür şeytani oyuna aldanmayacaq və hiyləgər planları açıqca görə biləcək qədər böyük ağıl və anlayışa sahib olan səmimi müsəlmanlar buradakı hiyləgərliyə də aldanmazlar**. Münafiq rəftarı göstərən insan nə qədər yaxşı olsa da, yenə də ayıq halından imtina etməz və yeni oyuna qarşı hazırlıqlı olar.

## Münafiq görülmədiyini düşündüyü yerdə dəstəmaz almaz və namaz qılmaz

Münafiqin heç xoşlamadığı məsələlərdən biri də, içindəki kinə və nifrətə baxmayaraq, "**Allaha səcdə etmək məcburiyyətində qalmaq, yəni namaz qılmaq"dır. Allaha baş əymək münafiq üçün çox iztirab vericidir. Çünki özünü haşa Allahdan daha böyük hesab edər**. Səcdəyə qapanmaq məcburiyyətində olması, sanki ciyəri parçalanırmış kimi münafiqin içini yandırar və çox qəzəbləndirər. Allah münafiqlərin namaz qılarkən necə istəksiz olduqlarını və inanmadan qıldıqları üçün necə çətinlik çəkdiklərini Quranda belə xəbər vermişdir:

**Münafiqlər, həqiqətən də, Allahı aldatmağa çalışırlar. Halbuki Allah onları aldadır. Onlar namaza durarkən könülsüz qalxar, özlərini camaata göstərər və Allahı olduqca az yad edərlər. (Nisa surəsi, 142)**

**Müsəlman üçün namaz vaxtı həyəcan içində gözlənilən vaxtdır**. Çünki Allaha sevgiylə bağlı olan insan üçün, sevdiyi Rəbbimizə sevgisini ifadə etmək, Onun bəyənəcəyi bir rəftar göstərmək, Ona bağlılığını, sədaqətini göstərmək, Onu ucaltmaq, Ona təşəkkür etmək, Ona yaxınlaşmaq heyrətamiz zövqdür.

Lakin **münafiq Allaha düşməndir** (Allahı tənzih edirik). **Allahın dininə, Allahın gözəl gördüyü inanc və əxlaq sisteminə qarşı döyüşərək yaşayar**. Allahın bəyəndiyi haqq dini yer üzündən silə biləcəyini, Onun qoruduğu, Onun vəli etdiyi insanları məğlub edə biləcəyini düşünər. **Bu nifrət bütün vücuduna hakim olarkən, Allahın qarşısında əyilmək, alnını yerə qoyub səcdə etmək, Allahın fərz buyurduğu bir əmrini yerinə yetirmək heyrətamiz dərəcədə münafiqin heç xoşuna getməz**. Dolayısilə əgər namaz qılırsa, bu tamamilə müsəlmanları iman gətirdiyinə inandırmaq və onlara dindar insan imici vermək üçündür. Buna görə də Allah Quranda münafiqin namazı yalnız "**göstəriş üçün qıldığını**" bildirmişdir.

Namaz qılmağı da hiyləgər oyunlarının parçası kimi qiymətləndirən münafiq, **iman gətirənlərin yanında olduğu vaxtlarda beş vaxt namazını huşu içində qılan təqvalı**

**müsəlman görünüşünə bürünər. Namaz saatlarını diqqətlə təqib edər, hətta müsəlmanlara da namaz saatlarını və namazı qaçırmadan vaxtlı-vaxtında qılmalarını xatırladar. Namaz qılar və sonra da uzun-uzadı dua edirmiş kimi edər.** Namazdan əvvəl mütləq hər kəsin görəcəyi şəkildə dəstəmaz alar. Hətta hər kəsdən uzunmüddətli və təfərrüatlı dəstəmaz alaraq, ibadətlərə olduqca diqqətli olduğu təəssüratı verməyə çalışar.

**Lakin ətrafda münafiqi görəcək müsəlman olmadıqda isə, münafiq heç vaxt namaz qılmaz. Namaz üçün dəstəmaz da almaz. Namaz saatında qalxıb vanna otağına girər, dəstəmaz alacağı qədər bir müddət vanna otağında vaxt keçirdib dəstəmaz almadan çölə çıxar.** Namaz qılmaq üçün bir yerə gedib qapısını bağlayar, lakin orada da bir müddət yalnız vaxt keçirib, namaz qılmadan geri gələr. Münafiq bunları edərkən öz aləmində müsəlmanlarla lağ etdiyini, onları aldatdığını, saf yerinə qoyduğunu və planını məharətlə həyata keçirdiyini düşünüb şeytani sevinc yaşayar.

**Halbuki çəkdiyi bu iztiraba, hiyləgərlik edə bilmək üçün dözdüyü min bir cür çətinliyə baxmayaraq, həyat boyu alçaldılan, xor görülən, həmişə qorxaraq, qaçaraq, gizlənərək yaşayan və sonunda heç nə əldə edə bilməyən özüdür.** Müsəlmanlar tərtəmiz evlərində, sevdikləri Allahın hüzurunda, içlərindən gələrək namaz qılmağın sevincini və rahatlığını yaşayarkən; münafiq tənha otaqların qaranlıq guşələrində yaxalanma narahatlığı içində hiyləgərcə namaz vaxtının keçməsini gözləyər.

**Müsəlman Allahın sonsuz gözəllikdəki sevgisini doyunca hiss edib, bunun rahatlığını həm dünyada, həm də axirətdə yaşayarkən, münafiq əbədiyyən ağılsızlığının və axmaqlığının cəzasını çəkər.** Münafiqin namaz qılmaması müsəlmanlara heç bir zərər verməz. Lakin münafiq imansız, inancsız və ibadətsiz yaşamağın kirini sonsuza qədər üzərində daşıyar.

**Bütün bunlar onların yer üzündə təkəbbür göstərmələrinə və yaramaz hiyləgərliklər törətdiklərinə görə idi. Yaramaz hiylələr isə ancaq öz sahiblərini qaplayar. Onlar əvvəlkilərin başlarına gələn aqibətdən başqasınımı gözləyirlər? Sən Allahın qayda-qanununa heç bir əvəz tapa bilməzsən, Allahın qayda-qanununda heç bir dəyişiklik də tapa bilməzsən. (Fatir surəsi, 43)**

## Münafiq, mənfəət əldə edə bilmək üçün “tərəfdar” xarakter göstərər

Münafiqlər, müsəlmanların ən yaxınlarında ola bilmək və onlar haqqında daha xüsusi, daha strateji məlumatlara nail ola bilmək üçün, özlərini mümkün qədər “**səmimi, etibarlı və sadiq kəslər**” kimi tanıtmağa çalışarlar. Qəlbləri kin, nifrət və qəzəblə dolu olduğu halda, bunu mümkün qədər gizlədər və dilləri ilə tam əksini danışarlar. **Müsəlmanların sevgini mühüm səmimiyyət ölçüsü kimi gördüklərini düşünüb, sevgi**

**mövzusundan ən hiyləgər üsullarla, ən yaxşı şəkildə istifadə etməyə çalışarlar. Bunun mühüm etimad əlaməti kimi qiymətləndiriləcəyini və beləliklə bütün səmimiyyətsizliklərini, ikiüzlülüklərini, gizli əxlaqsızlıqlarını və oyunlarını ört-basdır edə biləcəklərini düşünərlər.**

Məhz Peyğəmbərimiz (s.ə.v) dövründəki münafiqlər də bu üsulu tətbiq edir və bunun nəticəsində də mühüm mənfəətlər əldə edə bilməyi ümid edirdilər. Bu məqsədlə demək olar ki, hər fürsətdə **Peyğəmbərimiz (s.ə.v)-i tərifləyir**; hər kəsdən çox kompliment edən, hər kəsdən çox dəstəkləyən kəslər kimi öz aləmlərində **Peyğəmbərimiz (s.ə.v)-in gözünə girməyə və ön plana çıxmağa çalışırdılar. Bir hadisə olduqda mütləq Peyğəmbərimiz (s.ə.v)-dən yana rəftar göstərir; onun haqlılığını, dürüstlüyünü hər kəsdən daha çox və daha diqqət çəkəcək şəkildə vurğulayırdılar. Mümkün olan hər imkanda, Peyğəmbərimiz (s.ə.v)-ə olan dərin sevgilərini, heç vaxt qopmayacaq olan bağlılıqlarını və sanki bir kölə kimi, ölümünə sadiq olduqlarını ifadə edirdilər.** Onun məqamını, qürurunu, şanını, şərəfini qorumaq üçün, canlarını və mallarını, gözlərini belə qırpmadan rahatlıqla fəda edə biləcəklərini söyləyirdilər. Peyğəmbərimiz (s.ə.v)-in təhlükəsizliyini, hüzurunu və rahatlığını təmin edə bilmək üçün hər cür fədakarlıq göstərməyə hazır olduqlarını dilə gətirirdilər.

**Onu hər kəsdən daha çox düşünən, daha çox sevən və hörmət göstərən, onun ən yaxın dostları olan kəslər olduqlarını iddia edirdilər.** Həmçinin hər hansı çətinlik mühiti olsa, guya hər kəsin öz dərdinə düşüb Peyğəmbərimiz (s.ə.v)-i tənha qoyacağını; yalnız özlərinin onun yanında olub, ən ağıllı və təsirli şəkildə onu qoruyub dəstəkləyə biləcəklərini irəli sürürdülər.

Həmçinin münafiqlər, Quran əxlaqını təbliğ etmək məsələsində də, Peyğəmbərimiz (s.ə.v)-ə ən çox dəstək verən, İslamın və müsəlmanların mənfəətlərini ən yaxşı qoruyan başlıca bir neçə insandan biri olduqlarını iddia edirdilər. Ən mühüm fəaliyyətləri və ən mühüm vəzifələri, ən müvəffəqiyyətli şəkildə özlərinin nəticələndirə biləcəyi kimi yalan sözlər söyləyirdilər. **Beləliklə təlqin yolu ilə hər kəsi, özlərinin müsəlmanlar üçün olduqca əhəmiyyətli və böyük xidmətlər göstərən kəslər olduqlarına inandırmağı qarşıya məqsəd qoyurdular.**

Peyğəmbərimiz (s.ə.v) dövründəki bu münafiq xarakteri, şeytandan aldıqları ortaq ilhamla, o gündən indiyədək yaşamış bütün münafiqlərdə eyni şəkildə ortaya çıxmışdır. Bu gün hələ də müsəlman cəmiyyətlər arasında özlərinə yer tutmağa çalışan münafiq ruhlu insanlar, eyni səmimiyyətsiz üsulları tətbiq edirlər. Müsəlmanların və onlara başçılıq edən kəslərin etimadını qazana bilmək üçün dilləriylə həmişə "**onları nə qədər çox sevdiklərini, onlara nə qədər bağlı olduqlarını**" söyləyərlər. Bir müvəffəqiyyət qazanıldıqda, müsəlmanların qabaqcıl şəxslərinin gözlərinə girə bilmək üçün, həmişə onları ucaldan sözlər söyləyər və bu müvəffəqiyyətdən duyduqları sevinci də ən şişirdilmiş şəkildə dilə gətirərlər. Müsəlmanlar inkarçılara qarşı zəfər qazandıqları zaman,

onlar da sanki səmimi müsəlmanlar kimi böyük sevinc və coşğuya qapılmış kimi şişirdilmiş sözlər söyləyərlər.

Peyğəmbərimiz (s.ə.v) dövründə də, müsəlmanlar inkarçılar qarşısında gücləndiyi, İslam getdikcə geniş torpaqlara yayılmağa başladığı və ya müsəlmanlar bir yerdə zəfər qazandıqları zaman, münafiqlər bu cür söhbətlər edərdilər. "**Sən Allahın Rəsulusan (s.ə.v), səni çox sevirik, sən bənzərsiz lidersən. Çox ağıllısan, çox uzaqgörənsən. Heyrətamiz zəfər qazandın, inkarçıları məğlub etdin, oyunlarını zərərsizləşdirdin**" və ya "**Allah sənə zəfər verir, görünən odur ki, sən Allahın haqq Elçisisən, buna görə biz səni çox sevirik, sənə çox bağlıyıq**" kimi tərif dolu sözlər söyləyirdilər. Allah münafiq xarakterli insanların, əslində tam əksini düşündükləri halda, sırf etimad qazana bilmək üçün söylədikləri bu sözlərin səmimiyyətsizliyini Peyğəmbərimiz (s.ə.v)-ə belə bildirmişdir:

**Münafiqlər sənin yanına gəldikləri zaman: "Biz həqiqətən şəhadət edirik ki, sən qəti olaraq Allahın Peyğəmbərisən" dedilər. Allah da bilir ki, sən Onun Peyğəmbərisən. Allah, şübhəsiz ki, münafiqlərin yalan söylədiklərinə şahidlik edər. (Münafiqun surəsi, 11)**

Münafiqlər inanmadıqları bütün bu sözləri söyləyərkən "**sanki ciyərləri yanır və ağlasığmaz iztirab çəkirdilər**". Peyğəmbərimiz (s.ə.v)-ə: "**Sən Allahın Rəsulusan (s.ə.v), buna görə biz səni çox sevirik**" deyirdilər, lakin əslində qəlbən ondan nifrət edirdilər. Daxilən ona qarşı böyük kin bəsləyirdilər. "**Görəsən ona harada, necə zərər verə bilərəm? Necə bir pislik və ya xainlik edə bilərəm? Müsəlmanlar arasında necə fitnə, narahatlıq, qarışıqlıq çıxarda bilərəm**?" kimi düşüncələrlə alçaq planlar qururdular.

Məhz bu gün də eyni şəkildə, müsəlmanların lehinə bir hadisə olduqda; iman gətirənlər münafiqlərin oyunlarını puç edib, inkarçıları fikri olaraq məğlub etdikləri zaman, dövrümüzdəki münafiqlər eyni şəkildə daxilən çox böyük əzab yaşayarlar. Münafiqlərlə küfr əhli arasındakı hiyləgər əməkdaşlıq ortaya çıxıb, qurmağa cürət etdikləri tələlər pozulduqca, münafiqlər sanki "**can çəkişməyə**" başlayarlar. Çünki müsəlmanların güclənməsi, münafiqlərin heç istəmədiyi şeylərdən biridir. Allah onların bu alçaqlıqlarını bir ayədə, "**sizə mənfəət yetişəndə onlar qəmgin olar, sizə zərər toxunanda isə ona sevinərlər...**" (Ali İmran surəsi, 120) sözləriylə açıqlamışdır. Lakin buna baxmayaraq, bundan duyduqları qəzəb, kin və nifrəti içlərində saxlayar və buna tam əks üslubdan istifadə edərlər. İnkarçıların oyunlarının puç olmasından duyduqları dırnaqarası xoşbəxtliyi böyük coşğu ilə ifadə edərlər. Əsil məqsədləri müsəlmanlara zərər vermək, onları müvəffəqiyyətsizliyə düçar etmək olduğu halda, öz baxış prizmaları ilə "**yaltaqlıq**" kimi xarakterizə etdikləri səmimiyyətsiz əxlaqı göstərər və bu vəziyyətə hər kəsdən çox onlar sevinmiş kimi hərəkət edərlər.

Quranda münafiqlərin bu "**ikiüzlü oyunu**" və əslində "**qəlblərində sevgi deyil, əksinə böyük kin, qəzəb, nifrət gizlətdikləri**" belə xəbər verilmişdir:

**Ey iman gətirənlər! Sizlərdən olmayanı özünüzə sirdaş tutmayın. Onlar sizə qarşı fəsad törətməkdən əl çəkməzlər, sizin sıxıntıya düşməyinizi istəyərlər. Düşmənçilikləri onların ağızlarından çıxan sözlərdən bəllidir. Köksləriндə gizlətdikləri düşmənçilik isə daha böyükdür. Əgər anlayırsınızsa, Biz ayələri artıq sizə bəyan etdik. (Ali İmran surəsi, 118)**

**Siz o kəslərsiniz; onları sevirsiniz, onlar isə sizləri sevməzlər. Siz Kitabın hamısına inanırsınız, onlar sizinlə görüşdükləri zaman: "İman gətirdik!" Deyərlər, təklikdə qalanda isə sizə qarşı qəzəblərindən barmaqlarını gəmirirlər. De ki: "Acığınızdan ölün!". Şübhəsiz ki, Allah kökslərdə olanları bilir. (Ali İmran surəsi, 119)**

**Sizə bir mənfəət yetişəndə onlar qəmgin olur, sizə bir zərər toxunanda isə ona sevinirlər. Əgər səbir etsəniz və Allahdan qorxsanız, onların hiyləsi sizə heç bir zərər verə bilməz. Şübhəsiz ki, Allah onların nə etdiklərini biləndir. (Ali İmran surəsi, 120)**

Allah ayələrdə, "**münafiqlərin bu oyunlarının və hiyləgər cəhdlərinin, iman gətirənlərə zərər verə bilməyəcəyini**" bildirmişdir. Məhz bu vəziyyət, münafiq üçün çox böyük məğlubiyyətdir.

Münafiq, inkarçılarla əməkdaşlıq etdiyi təqdirdə, hər şeyin çox asan olacağını, müsəlmanları istədiyi kimi, heç hiss etdirmədən aldadıb məqsədinə nail ola biləcəyini zənn edər. Belə böyük müvəffəqiyyət ümid edərkən, çox güclü olduğunu zənn etdiyi küfr əhlinin, heç gözləmədiyi bir anda fikri olaraq əzilib məğlub olması, münafiqin böyük iztirab çəkməsinə səbəb olar.

## Münafiqin içi kin doludur; qəlbindəki kir və pislik bütün sifətinə əks olunar

Müsəlmanların yaxşılıqla qarşılaşması, müvəffəqiyyət qazanması və ya güclənməsi münafiqləri daxilən qəhr edər. Onların nemət içində, şən, hüzurlu olmaları, öz aralarında sevgini, dostluğu mümkün qədər ən gözəl şəkildə yaşamaları, münafiq üçün məhvedici sıxıntı səbəbidir. Çünki münafiq bunun tam əksinə; hər an bədbəxt, sıxıntılı və əzab içində yaşayar. Müsəlmanlarla birlikdə olmağı seçmiş, lakin ağlı küfr əhlində qalmışdır. Dünya ehtirasına qapıldığı üçün, küfr əhli ilə birlikdə ola bilsə, müsəlmanlarla olduğundan çox gözəl həyat yaşaya biləcəyini zənn edir. Məhz onlarla ola bilməmək, o mühitin əxlaqsızlıqlarını istədiyi kimi yaşaya bilməmək, oradakı insanlardan mənfəət əldə edə bilməmək münafiqi böyük əzaba sürükləyər. **Müsəlmanlarla olmaqdan yaşadığı**

**peşmançılıq və bundan ötrü hiss etdiyi kin və qəzəb ruhunu bürümüşdür. Bunun üstünə bir də, demək olar ki, baxdığı hər yerdə, ətrafındakı müsəlmanların cənnət bənzəri həyatını görmək, münafiqin əzabını, kinini və narahatlığını daha da artırar. Bu kin getdikcə elə dözülməz həddə çatar ki, münafiq artıq bunu istəsə də gizlədə bilməz hala gələr. Qəzəbi, nifrəti, qısqanclığı artıq münafiqin ağzından, dilindən, gözlərindən, üzündən, bədənindən kənara əks olunmağa başlayar**. Allah Quranda münafiqlərin bu şeytani ruh halını belə bildirmişdir:

**Ey iman gətirənlər! Sizlərdən olmayanı özünüzə sirdaş tutmayın. Onlar sizə qarşı fəsad törətməkdən əl çəkməzlər, sizin sıxıntıya düşməyinizi istəyərlər. Düşmənçilikləri onların ağızlarından çıxan sözlərdən bəllidir. Kökslərində gizlətdikləri düşmənçilik isə daha böyükdür. Əgər anlayırsınızsa, Biz ayələri artıq sizə bəyan etdik. (Ali İmran surəsi, 118)**

Məhz münafiq günün hər saatı ruhunda bu amansız qəzəblə yaşamağa başlayar. Heç nə qəzəbini sakitləşdirməyə kifayət etməz. Səhər oyandığı andan gecə təkrar yatana qədər hər anı, hər rəftarı, bu ruh halını əks etdirər. Quranın; "**sizə bir mənfəət yetişəndə onlar qəmgin olur, sizə bir zərər toxunanda isə ona sevinirlər**..." (Ali İmran surəsi, 120) ayəsi ilə, Allah münafiqin bu kininin səbəbini bildirmişdir. Müsəlmanların yaxşılıq, gözəllik, nemət, bolluq, hüzur, sevinc, sevgi, dostluq və xoşbəxtlik içində yaşaması, münafiq üçün kin, qəzəb və kədər səbəbidir.

Müsəlmanlar günə sevinclə, Allaha və özlərinə verdiyi nemətlərə şükür edərək başladıqları halda, **münafiq hər səhər gözlərini günə bədbəxtlik içərisində açar**. Yenə istəmədiyi, sevmədiyi, eyni idealları və inancı bölüşmədiyi insanlarla birlikdədir. Həsəd apardığı, kin və qəzəb duyduğu, dost kimi görmədiyi, sevmədiyi insanlara qarşı yenə rol oynamağa davam etmək məcburiyyətindədir. İstəmədiyi halda onlara sevgi və hörmət göstərəcək, kompliment deyəcək, etdikləri xeyirli fəaliyyətlərə dəstək vermək və qazandıqları uğurlardan ötrü onlarla birlikdə sevinmə təqlidi etmək məcburiyyətində qalacaq.

O bu əzabverici ruh halını yaşayarkən, müsəlmanlar, səmimi olmağın, əsil sevgini və dostluğu yaşamağın, dünyanın ən etimad dolu mühitində, ən təmiz, ən etibarlı və dürüst insanları ilə, hüzurlu həyat yaşamağın xoşbəxtliyi içindədirlər. Məhz bu əzabverici əks vəziyyəti çox yaxşı dərk etmələri, onların gün boyu çox pis əhvali-ruhiyyə və qəzəb içində yaşamalarına səbəb olar.

## Münafiqin qəlbindəki kin, qəzəb və həsəd gün boyu rəftarına əks olunar

Münafiqi ələ verən ən mühüm əlamətlərindən biri də, "**vücud dili**"dir. Allah bir ayəsində; **"əgər Biz istəsək, sənə onları, əlbəttə, göstərərik, beləliklə onları simalarından tanıyarsan. And olsun, sən onları, sözlərin deyilmə tərzindən də tanıyarsan"** (Məhəmməd surəsi, 30) sözləriylə münafiqlərin danışma, hal və rəftar pozuntularını vurğulayır, buna diqqət çəkir, diqqətlə izlənilsə Allahın icazəsi ilə münafiqlərin bu əlamətlərinin görülə biləcəyinə işarə edir.

**Müsəlmanların sevincini, müvəffəqiyyətini, zənginliyini, rahatlığını, ağıl dərinliyini, gözəlliyini, sağlamlığını, heybətini görmək münafiqlərin ruhlarındakı həsədi, kin dolu qəzəbə döndərər**. Buna görə də qəzəbdən gözləri dönən münafiqlər gün ərzində müsəlmanlara həmişə sıxıntı verməyə çalışarlar. **Böyük ehtirasla onların imkanlarını məhdudlaşdırmağa, sevinclərini yox etməyə, müvəffəqiyyətlərinə əngəl törətməyə səy göstərərlər.** Lakin təbiidir ki, bunu açıq-açıq deyil, şeytani zəkalarıyla gizlin-gizlin və hiyləgər üsullar işlədərək edərlər. Öz zəif ağılları ilə, bu yolla müsəlmanları "**psixoloji cəhətdən zəiflədib əldən sala biləcəklərini**" zənn edərlər.

**Halbuki müsəlmanlar üzərində münafiqlərin psixoloji təzyiqinin, gizli mübarizəsinin mənfi təsiri heç vaxt olmaz. Əksinə münafiq, müsəlmanın gücünə güc, sevincinə sevinc qatar, şövqünü artırar**. Üzərindəki tənbəllik hissini yox edir, İslamdan bəhs etmək və yaymaq səyini gücləndirər. Müsəlmanın diqqətinin daha da açılmasını təmin edər. Təhlükələrə qarşı tədbir ala bilmək qabiliyyətini və hamısından əhəmiyyətlisi Allaha olan sevgisini, bağlılığını və Allah qorxusunu artırar.

## Münafiq müsəlmanları narahat etmək və narahatçılıq yaratmaq üçün pis baxışlarından istifadə edər

**Münafiq, daxilən nifrət etdiyi müsəlmanlara qarşı açıqca bir hərəkət edə bilməməyin sıxıntısı içindədir**. Onlardan əldə etməyi ümid etdiyi qazanc və mənfəətlər naminə, özünü hiyləgərcə gizlətmək məcburiyyətindədir. Buna görə də həqiqi düşüncələrini dilə gətirə bilmir, istədiyi kimi onlara açıqca zərər verə bilmir və dağıdıcı əks mübarizə apara bilmir. Məhz münafiqin bu vəziyyətdə edə biləcəyi tək şey, hiyləgərcə və gizlincə zərər verməyə çalışmaqdır. Fəaliyyətlərini sübut edilə bilməyəcək və izah edilə biləcək şəkildə yürüdə bilməlidir. Məhz bu məqamda münafiqin öz imkanları içərisində ən təsirli hesab etdiyi üsul "**baxışlarıyla hərəkət etmək**"dir.

**Müsəlmanların ən mühüm xüsusiyyətlərindən biri baxışlarındakı təmizlik, hüzur, etimad və sevgi dolu ifadədir. Allah bir ayədə iman gətirənlərin üzlərindəki iman dolu bu**

**gözəl ifadəni belə bildirmişdir: "...Onları rüku edən, səcdəyə qapanan, Allahdan lütf və razılıq diləyən görərsən. Əlamətləri isə üzlərində olan səcdə izidir..." (Fəth surəsi, 29)**

Hər insan istədiyi təqdirdə üzünə müxtəlif ifadələr verə bilər. Bəzən "**kədərli, bəzən də xoşbəxt və ya qəzəbli üz ifadəsinə sahib olmaq**" bir çox insan üçün mümkündür. Lakin Allahın ayədə "**səcdə izi**" kimi təsvir etdiyi mənəvi gözəllik, nə təqlid, nə də zəhmət çəkərək əldə edilə bilər. Bu təkcə Allahı çox sevmək, Allahın yaratdığı taleyə təslim olmaq və Quran əxlaqını səmimi yaşamaqla, insanın üzünə təbii olaraq əks olunan gözəllikdir. Dolayısilə bu möcüzəvi müsəlman xüsusiyyəti, eyni zamanda da münafiq xarakterli insanlardakı ziddiyyəti göstərən mühüm dəlil meydana gətirər.

**Müsəlman gün boyu hüzur, sevgi, hörmət dolu üzü ilə diqqət çəkdiyi halda, münafiq də kin və qəzəbdən qaralmış pis çöhrəsi ilə özünü büruzə edər**. Üzündə İblis kimi, uğursuz, pis və şeytani ifadə vardır. Bəzən boş-boş, bəzən nifrət dolu, bəzən narazı, bəzən də tərs və təcavüzkar baxışlarla baxar. Bir Quran ayəsində; "...**qəlbində xəstəlik olanların sənə ölüm ayağında bayılan kimsənin baxışı ilə baxdıqlarını görərsən**..." (Məhəmməd surəsi, 20) sözləriylə təsvir edildiyi kimi, donuq baxışlıdır. Gözləri Akik və mənasızdır. **Ruhu alınmış kimi ölü; sevgidən, sevincdən, gümrahlıqdan məhrum baxışla baxar. İçi pisliklə, günahla, xainliklə dolu olduğu üçün, baxışları da eyni şəkildə pis olar.** Qəlbi, ağlı, ruhu tərtəmiz, nurlu müsəlmanların sevgi dolu, iman dolu, canlı və dürüst baxışlarıyla müqayisədə, gözlərindəki anormallıq dərhal müəyyən edilər. Quranda "**münafiqin bu ən mühüm xüsusiyyətlərindən biri olan pis baxışları", "(Allah) gözlərin xaincəsinə baxışını və kökslərin nələr gizlətdiyini bilir**" (Mümin surəsi, 19) ayəsi ilə xəbər verilmişdir.

Bu şeytani üz ifadəsi ilə məqsədi; "**hüzur içindəki müsəlmanlara narahatlıq vermək, sevinclərini yox etmək**"dir. Çünki münafiq əgər müsəlmanlara açıqca heç bir yolla zərər verə bilmirsə, geriyə, öz ağlına görə istifadə edə biləcəyi ən təsirli silahı olan "**baxışları**" qalmışdır. Allah Quranda münafiqlərin baxışlarıyla etdikləri əxlaqsızlığın şiddətini bir ayədə belə bildirmişdir:

**O inkarçılar, zikri (Quranı) eşitdikləri vaxt, səni az qala gözləri ilə devirəcəkdilər... (Qələm surəsi, 51)**

Peyğəmbərimiz (s.ə.v) dövründə münafiqlər, Peyğəmbərimiz (s.ə.v) və müsəlmanların Quran əxlaqını yaşamalarından və Allahın dinini təbliğ etmələrindən duyduqları ağlasığmaz kin və qəzəbi, Peyğəmbərimiz (s.ə.v)-ə yönəltməyə cürət etdikləri pis baxışlarıyla göstərirdilər. Peyğəmbərimiz (s.ə.v)-in məscidinə, üzlərindəki bu iyrənc baxışlarıyla gedirdilər. Allah ayədə qeyd olunan; "**səni az qala gözləri ilə devirəcəkdilər**" ifadəsi ilə, münafiqlərin bu kinlərinin nə qədər böyük olduğunu ifadə etmişdir.

Məhz o dövrdəki münafiq əxlaqı, indiki vaxtda da eynilə Quranda bildirildiyi şəkildə ortaya çıxır. O gün narahatlıq və sıxıntı vermək, problem yaratmaq üçün özlərinə Peyğəmbərimiz (s.ə.v)-i hədəf olaraq seçən münafiqlər, **indiki vaxtda da İslam üçün ən təsirli xidməti göstərən, müsəlmanlara ən təsirli şəkildə liderlik edən insan kimdirsə, eyni şeytani hərəkətləri bu dəfə də bu kəslərə yönəltməkdədirlər**.

Lakin münafiq bu hərəkətlərini də yenə hiyləgərcə və lazım gəldikdə dərhal başqa forma alaraq özünü gizlədə biləcəyi şəkildə edər. Çünki münafiqin ən qabiliyyətli olduğu üsulların başında "**gözlərinə hakim olmaq qabiliyyəti**" gəlir. Münafiq gözlərinə istədiyi kimi əmr verərək, vəziyyətə uyğun hal almasını çox yaxşı bilir.

**Münafiq gözləriylə hiyləgər mübarizə aparmaq məsələsində, həqiqətən də çox məharətlidir, lakin bütün bu etdikləriylə müsəlmanlara zərər verməyi bacara bilməz.** İçindəki kin və qəzəb böyüdükcə, öz ruhuna və vücuduna vurduğu ziyan da o ölçüdə artar. Müsəlmanlar hüzur, sevinc və xoşbəxtlik içində yaşayarkən, **münafiq nursuz üzlə, pis baxışlarıyla, nifrət dolu dünyasında əzab içində yaşayar.**

## Münafiqin şeytani hərəkətləri üçün istifadə etdiyi bədən dili

Münafiq bütün "**vücudundan, şeytani məqsədləri üçün məharətlə istifadə etmək məsələsində" çox qabiliyyətlidir. Müsəlman necə ki, hər halı, hər rəftarı ilə həlim əxlaqını, müsbət şəxsiyyətini ətrafına əks etdirirsə; münafiq də mənfi düşüncələrlə, şeytani əməlləri ilə dolu ruhunu vücuduna və rəftarlarına əks etdirməkdə çox bacarıqlıdır**. Allah Quranın Müddəssir surəsində münafiqlərin bunu hansı şeytani üsullarla tətbiq etdiklərini belə xəbər vermişdir:

**Çünki o, fikirləşərək qərara gəldi. Ona ölüm olsun! Necə qərara gəldi? Sonra yenə ona ölüm olsun! Gör nə qərara gəldi? Sonra o nəzər saldı. Üz-gözünü turşudub qaşqabağını tökdü. Sonra da arxasını çevirib təkəbbür göstərdi. (Müddəssir surəsi, 18-23)**

### 1) Şeytani hərəkətlərini əvvəlcədən düşünüb planlaması:

Allah ayələrdə, münafiqin hərəkəti etmədən əvvəl, planlarını, xaincə və alçaqca zehnində dərindən düşünərək qurduğunu xəbər vermişdir. Münafiq edə biləcəyi əxlaqsızlıqların hər təfərrüatını etmədən əvvəl ayrı-ayrılıqda düşünüb zehnində müəyyənləşdirər. Yeni günə başladığı zaman, "**müsəlmanlara hansı ittihamları yönəldə bilər, nə cür böhtanlar ata bilər, sevinclərini necə yox edə bilər, göstərəcəkləri xeyirli fəaliyyətlərə necə mane ola bilər, necə mane olub vaxtlarını ala bilər, onları necə yora**

**bilər və ya yuxusuz qoya bilər, təbliğ üçün sərf edəcəkləri enerjilərini necə yox edə bilər**?” kimi incə-incə planlar qurar. Şübhəsiz ki, bu hiyləgər və xain düşüncələri qurarkən münafiqin yolgöstəricisi və ilham mənbəyi də “**şeytan**”dır.

## 2) Pis baxışları:

Münafiqin fəaliyyətinin ikinci mərhələsi isə, artıq bu “**hazırlanan xainliklərin baxışlara əks etdirilməsi”dir. Mümkün ola biləcək ən narahatedici, müsəlman əxlaqından ən uzaq, küfr xarakterini ən yaxşı əks etdirən, ən lovğa, tərs, ədabaz, özündənrazı və hörmətdən məhrum baxışlarla baxmaq, münafiqin diqqət və səbirlə tətbiq etdiyi üsuldur**. Gün boyu müsəlmanlar arasında bu cür gəzərək, öz aləmində onları “**hüzursuz və narahat etmək**” istəyər. Özü ilə məşğul etdirərək, müsəlmanların vaxtlarını alaraq, öz aləmində İslama və müsəlmanlara zərər verə biləcəyini zənn edər. Küfr əxlaqından uzaq olan müsəlman cəmiyyəti içində dinsiz əxlaqı yaşayaraq, onları da bu xarakterə cəlb etmək və qibtə etdirmək istəyər. Əgər müsəlmanlar arasında özü kimi münafiqliyə meylli başqa kəslər də vardırsa, bu əxlaqı onlara da mesaj vermək və onları da yanına çəkmək istəyər. Yaxud yaxşı niyyətli olub da, İslamı yeni öyrənən, yeni iman gətirmiş kəslərin də qəlblərini haqq yoldan döndərib onları da küfrə yönəldə bilməyi hədəfləyər.

## 3) Qaşlarını çatması:

Hər cür pislik və iyrəncliyi əvvəlcə zehnində xüsusi şəkildə planlaşdıran, sonra baxışlarıyla bu xainliyini müsəlmanlara əks etdirən münafiqin bu hərəkətinin digər hissəsi də “**qaşlarını çatması**”dır. Məlum olduğu kimi “**qaş çatmaq**” xalq arasında da xüsusi mesaj verə bilmək üçün edilən hərəkətdir. Necə ki, lüğəvi mənası da “**qaşlarını bir-birinə yaxınlaşdıraraq qəzəbli, hirsli və əsəbi olduğunu göstərməyə çalışmaq**”dır.

Əlbəttə ki, insan normalda adi və insani mimika olaraq qaşını çata bilər. Lakin münafiqdən söhbət getdikdə, bütün bu təfərrüatlar “**xüsusi məqsədlər üçün istifadə edilən, hiyləgər və çirkin hərəkət**” kimi tətbiq olunar. Hər kəsin sevgi, hörmət, gözəl əxlaq dolu, səmimi və dostcasına baxışlarla bir-birinə baxdığı bir mühitdə münafiq, baxışları kimi qaşlarından da əxlaqsızlıq üçün istifadə edər. Müsəlmanların bir-birlərinə ən gözəl əxlaqı göstərdikləri, ən gözəl sözləri söylədikləri, nemət və gözəllik içindəki mühitlərdə, ortada heç bir səbəb olmadığı halda, ardıcıl surətdə bu əxlaqsızlıqlarını tətbiq etməyə başlayar. **Qaşlarını çataraq üzünə ən iyrənc, ən tərs, ən pis, ən şəxsiyyətsiz, ən çirkin ifadəni verməyə çalışar.**

## 4) Üzünü turşutması:

Ayənin davamında münafiqin növbəti həmləsinin isə, "**üzünü turşutması**" olduğu bildirilib. Hər kəsin bildiyi kimi insan, üzündə çox "**müxtəlif mimikalardan**" istifadə edərək, çox zəngin məna müxtəlifliyi əldə edə bilər. **Çox vaxt qarşımızdakı insanın duyğu və düşüncələrini, ruh halını, niyyətini, heç danışmadığı halda, təkcə üz ifadəsindən anlayarıq.** Eynilə bir insanın etmək üzrə olduğu hərəkəti də, şifahi surətdə heç nə deməsə belə, üzündəki məna müxtəlifliyini izləyərək görərik.

Məhz münafiq də, hər insanın sahib olduğu bu geniş imkandan, şeytani hərəkətlərini həqiqiləşdirə bilmək üçün sonuna qədər istifadə edər. Üzünə nə vaxt, harada və hansı ifadəni versə, qarşı tərəfə necə bir mesaj verəcəyini çox yaxşı bilən münafiq, günün hər anında bu silahı ən güclü şəkildə qiymətləndirər. Çirkin üz ifadəsinin, həyatları təmiz əxlaq, dürüstlük və səmimiyyət üzərində qurulub müsəlmanları nə qədər narahat edəcəyini bilən münafiq üçün bu vəziyyət həyəcan vericidir. Həm həsrətini çəkdiyi küfr əxlaqını müsəlmanlar içərisində də istədiyi kimi çəkinmədən yaşaya biləcək; həm də əldə etmək istədiyi hər mənfəətə nail olmaq üçün üzündən mümkün ola biləcək ən çirkin şəkildə istifadə edəcək. İstədiyi şey həmin an dərhal edilmədikdə, hadisələr onun maraqlarına görə formalaşmadıqda, diqqət çəkmək və gündəm mövzusu olmaq istədikdə bu yola əl atar. **Eynilə problem törədib müsəlmanları narahat etməyi və ya birindən intiqam almağı qarşıya məqsəd qoyduqda, üzünü dərhal turşudub mümkün ola biləcək ən pis, ən iyrənc və küfr əxlaqını ən yaxşı əks etdirən üz ifadəsinə bürünər.** Beləliklə öz ağlına görə müsəlmanlar onunla maraqlanacaq, gözəl əxlaqları və yüksək vicdanlarının tələbi olaraq, ona şəfqət, sevgi, hörmət, mərhəmət göstərəcək və onu xoşbəxt edə bilmək üçün istədiyi şeyləri yerinə yetirməyə çalışacaqlar. Bunun nəticəsində də, yenə öz aləmində, müsəlmanların sahib olduğu maddi-mənəvi imkanlardan daha da çox faydalana bilmə fürsəti əldə edəcək. "**Bir daha belə tərslik və iyrənclik etməsin, problem törətməsin, müsəlmanları narahat etməsin**" deyiləcək və beləliklə özünə, istədiyi kimi rəftar göstərilməsini təmin edəcək.

Lakin unutduğu bir şey vardır ki, bu da müsəlmanların "**sevgi və mərhəmət anlayışları**"nın da Qurana əsaslanmasıdır. Müsəlmanlar yalnız bir insan məmnun olacaq deyə, bir insana istədiyi rəftarı göstərməzlər. Bu rəftar və ya hərəkət təkcə Allahın rizasına, Quran əxlaqına uyğundursa bunu tətbiq edərlər. Dolayısilə münafiq bu planları qurarkən, bu mühüm müsəlman əxlaqını görməzlikdən gəlmişdir. Üstəlik, göstərdiyi çirkin əxlaqın və büründüyü üz ifadəsinin də öz əleyhinə münafiq əlaməti meydana gətirdiyindən və beləliklə özünü ələ verdiyindən də xəbərsizdir.

## 5) Üz döndərməsi:

Münafiqin hərəkətinin bu mərhələyə qədər olan mərhələləri, istədiyi şəkildə şeytani müvəffəqiyyət qazana bilməyibsə, bu məqamda münafiqin əl atdığı digər küfri üsul da "**üz döndərməsi**" olar. Məlum olduğu kimi "**üz döndərmək**", "**birinin dost olduğu insanlara düşmən olması, o kəslərlə olan əlaqələrini kəsməsi, onların tərəfində olmaması**"

mənasında işlədilən bir deyimdir. **Məhz münafiq də, müsəlmanlara hiyləgərcə bu mesajları verməyi və bu ehtimalları onlara düşündürərək öz aləmində onları təhdid etməyi qarşıya məqsəd qoyar.** **Aralarında** "**müsəlmanlarla birlikdə olduğu halda, küfr əxlaqını yaşamaqdan çəkinməyən, Allahdan lazımınca qorxub çəkinməyən və münafiq olma ehtimalı olan bir insan olduğunu**" hiss etdirərək onları narahat etmək istəyər. Allaha olan etimadlarından ötrü olduqca xoşbəxt, rahat və hüzurlu yaşayan müsəlmanların bu gözəl həyatlarını öz aləmində pozmağı və sevinmələrinə mane olmağı hədəfləyər.

Bu məqsədlə müsəlmanlarla birlikdə həyat yaşadığı halda, aralarında olarkən də onlardan uzaq dayanar. **Onların yanında xoşbəxt olmadığını hiss etdirmək məqsədi ilə, ən diqqət çəkəcək tərzdə, hər işdə onlardan fərqli rəftar göstərər. Müsəlmanlar birlikdə xeyirli fəaliyyət göstərdikləri zaman, onlara nə fiziki, nə də mənəvi dəstək verər.** Bəzən də açıq-aydın şəkildə və səbəbsiz yerə, tərs rəftar nümayiş etdirdiyini göstərmək üçün, müsəlmanların yanında olarkən belə birdən yanlarından uzaqlaşaraq onlara qarşı çıxan bir rəftar göstərər.

## 6) Təkəbbürlənməsi:

Münafiqin hər addımını hiyləgərcəsinə hazırlayaraq həyata keçirdiyi bu hərəkətlərin növbəti addımını isə münafiqin "**təkəbbürlü, lovğa və yuxarıdan aşağı baxan rəftarla**" müsəlmanlara "**təkəbbürlənməsi**"dir. Münafiqin məqsədi, baxışları, danışıqları, işlətdiyi üslub və əl-qol hərəkətləriylə bu böyüklük iddiasını, qarşısındakı insanlara mümkün qədər hiss etdirməkdir. Onlara "**dəyər vermədiyini, hörmət bəsləmədiyini, kiçik hesab etdiyini, fikirlərinə və sözlərinə də əhəmiyyət vermədiyini**" göstərməyə çalışar. Öz aləmində yanlarındakı müsəlmanların olduqca "**ağılsız və saf**", özünün isə "**heyrətamiz dərəcədə zəka, ağıl və qabiliyyətə sahib olduğu**" inancına sahibdir. **Özünə deyilən hər xeyirli sözə, təkəbbür və eqoistliklə, ədabazlıq və lovğalıqla, çoxbilmişlik və kobudluqla cavab verər. Hörmətsizliyini ən yaxşı və ən şişirdilmiş şəkildə vurğulamağa çalışar.**

Məhz münafiqin xaincə planlarının kiçik hissəsi belədir. Həmçinin Allahın Müddəssir surəsində, Peyğəmbərimiz (s.ə.v)-ə qarşı edilən bir münafiq hərəkəti olaraq bildirdiyi bu rəftarlar, münafiqin küfr əhlinə bənzər əxlaqını çox açıq şəkildə göstərir.

**Lakin münafiqin, bütün bu hiyləgər hərəkətləri, bilərəkdən və xainliklə tətbiq edərkən unutduğu bir şey var. Allah münafiqləri heç vaxt müvəffəq etməyəcək və bu xəstə ruhlu insanların İslama və müsəlmanlara zərər verməsinə heç vaxt icazə verməyəcək.** Münafiq öz xain dünyasında, qurduğu tələlər içərisində boğulub qalacaq. Oynadığı hiyləgərcə oyunlar, dünyasının da, axirətinin də sonu olacaq.

Müsəlmanların onlara təqdim etdiyi tərtəmiz, nurlu həyatda hüzur tapa bilməyən və küfr əhlinə yaxınlaşdıqca xoşbəxt olacaqlarını zənn edən **münafiqlər, getdikcə küfr əhlinin zülmü içərisində daha da böyük bədbəxtliyə sürüklənəcəklər**. Axirətdə isə əbədi

peşmançılıq və əzab içində, ən yaxın dostları olan şeytanla birlikdə böyük əzab yaşayacaqlar.

## Münafiq pis baxışlarıyla kifayət qədər hərəkət edə bilmədiyini düşündüyü vaxt, diliylə müsəlmanları narahat etməyə çalışar

**Əgər Biz istəsək, sənə onları, əlbəttə, göstərərik, beləliklə onları simalarından tanıyarsan. And olsun, sən onları, sözlərin deyilmə tərzindən də tanıyarsan. Allah, əməllərinizi bilər. (Məhəmməd surəsi, 30)**

**Baxışları kimi, üslubu da münafiqi ələ verən ən mühüm əlamətlərdən biridir**. Allah Quranda müsəlmanların münafiqləri, "**danışıqlarındakı anormallıqlardan tanıyıb görə biləcəklərini**" bildirmişdir. Çünki münafiqlərin danışıqları müsəlmanın danışıq tərzinə, ədəbinə, əxlaqına heç bənzəməz. **Qəzəbli, söz ilişdirən, lovğa, hörmətsiz, kinayəli, kinli və təcavüzkar üslubla danışarlar. Ədabazlıqları, söz ilişdirmələri, hər fürsətdə müsəlmanları incitməyə çalışan sözlər seçmələri, yalan danışmaları, böhtan atmaları və həmişə müsəlmanları günahlandıran üslub işlətmələri xarakterik xüsusiyyətlərindəndir. Müsəlmanların Allahdan qorxub çəkindikləri üçün heç vaxt ağızlarına belə almayacaqları sözləri, Qurana və İslam əxlaqına zidd məntiq və fikirlərdən çəkinmədən bəhs edərlər**.

Münafiqlərin işlətdikləri bu üslubla qarşılarına hansı məqsədi qoyduqlarını anlamaq isə əhəmiyyətlidir. Çünki münafiqin hər hərəkəti ilə nail olmağı hədəflədiyi bir nəticə var. Münafiq təsadüfi, təbii axışıyla danışmır. Bir məsələdə istədiyi mənfəəti əldə edə bilmək, özünü təmizə çıxartmaq, öz üstünlüyünü, haqlılığını və ya digər insanların çatışmazlıqlarını, qüsur və səhvlərini daha yaxşı vurğulamaq istəyir. Hiyləgərcə və gizlincə etdiyi hərəkətlərin və ya küfr əhli ilə olan gizli əlaqəsinin üstünü örtməyi və ya diqqəti özündən başqa istiqamətə çəkə bilməyi hədəfləyir. Birindən intiqam almaq, bir yalanı dəstəkləyib inandırıcı hala gətirmək və ya müsəlmanları aldadaraq onları müvəffəqiyyətsizliyə aparacaq yanlış istiqamətə doğru yönləndirmək məqsədi ilə danışır. Lakin məhz bunlardan hansı olsa da, münafiq bütün rəftarlarında olduğu kimi, hər hərəkətində böyük planın kiçik hissəsini yerinə yetirməyə çalışar. Eləcə də, məhz bütün bu sayılan üslub pozuntuları, bizə "**münafiqi tanımaqda mühüm işarələr verən**" çox mühüm əlamətlərdir.

Quranda "**sözlərin deyilmə tərzindən də tanıyarsan**" ifadəsi ilə tanıdılan münafiqlərin bu xüsusiyyəti başqa bir ayədə də belə xəbər verilib:

**...Sizi iti dilləri ilə qarşılayarlar. Onlar iman gətirməmişlər; beləcə Allah onların əməllərini puça çıxartmışdır. Bu Allah üçün çox asandır. (Əhzab surəsi, 19)**

Allah münafiqlərin "**acı dilə sahib olduqlarını**" bildirmişdir. Şeytani zəka ilə dillərindən küfri mənfəətləri üçün ən təsirli şəkildə istifadə etməyə çalışarlar. Ayədə münafiqlərin eyni zamanda da, bu acı dillərindən müsəlmanları "**tənqid etmək**" və "incitmək" üçün istifadə etdikləri də xəbər verilmişdir. Digər bir ayədə isə Allah, bu münafiq əxlaqını belə xəbər vermişdir:

**Siz hökmən malınız və canınızla sınaqdan keçiriləcəksiniz. Sizdən əvvəl Kitab verilənlərdən və müşriklərdən bir çox əziyyətverici sözlər eşidəcəksiniz. Əgər səbir edib Allahdan qorxsanız, bilin ki, bu, əzmkarlıq tələb edən əməllərdəndir. (Ali İmran surəsi, 186)**

Münafiqlər bu əxlaqsızlıqlarını, əlbəttə ki, bütün müsəlmanlara qarşı tətbiq edərlər. Lakin **xüsusən də müsəlmanlara liderlik edən, ağıl, fərasət, bəsirət, bilik və təcrübə baxımından ən güclü gördükləri; İslama ən çox xidmət edən və dini ən təsirli şəkildə təbliğ edən kəslər, münafiqlərin ən mühüm hədəfləri mövqeyindədir**. Çünki bu insanlar, şeytanın heç istəməyəcəyi şeyi həyata keçirən, şeytana qarşı ən çox fikri mübarizəni aparan insanlardır. **Dolayısilə şeytanın bir cür kuklası olan münafiqlər də, özlərinə ilk hədəf kimi bu lider mövqeyindəki kəsləri seçərlər.**

Necə ki, tarix boyu bütün münafiqlər də bu hədəflərindən yayınmamış, hər dövrdə ən böyük şeytani mübarizələrini Allahın haqq peyğəmbərlərinə, elçilərinə və vəli qullarına qarşı aparmışlar. Quranda Peyğəmbərimiz (s.ə.v) dövründəki müsəlman cəmiyyətdə olan münafiqlərin də "**Peyğəmbərimiz (s.ə.v)-i incitməyi**" hədəflədikləri xəbər verilmişdir:

**Onlardan elələri də var ki, Peyğəmbərə əziyyət verib: "O hər sözü eşidən bir qulaqdır!"- deyirlər. De: "O, sizin üçün ancaq xeyirli sözlər eşidir. O, Allaha iman gətirir, möminlərə də inanır. O, sizlərdən iman gətirənlər üçün bir rəhmətdir". Allahın Elçisinə əziyyət verənlər üçün isə ağrılı-acılı bir əzab vardır. (Tövbə surəsi, 61)**

Münafiqlər, yalan danışdıqlarına özləri də şahid olduqları halda, sırf Peyğəmbərimiz (s.ə.v)-i "**incitməyi və narahat etməyi qarşıya məqsəd qoyaraq", "səmimiyyətsiz, hiyləgər, kin və nifrət dolu ittihamlar**" etmişlər. Quranda eyni əxlaqsızlığın, hz. Musa (ə.s)-ın qövmündəki münafiqlərin də mühüm xüsusiyyəti olduğu bildirilmişdir:

**Ey iman gətirənlər! Musanı incidən şəxslərə oxşamayın. Allah onu onların dediklərindən təmizə çıxartdı. O, Allahın yanında çox ehtiram edilən şəxsdir. (Əhzab surəsi, 69)**

Allah tarix boyu yaşamış və gələcəkdə də qiyamətə qədər yaşayacaq olan bütün münafiqlərin necə eyni şeytani əxlaqı göstərib, necə eyni üsulları işlədə bildiklərini isə belə açıqlamışdır:

**"Onlardan gücün çatdığı kəsləri səsinlə günaha təhrik et, atlı və piyadanı onların üstünə yerit, mallarına və övladlarına ortaq ol, onlara vədlər ver." Şeytan onlara yalnız yalan vədlər verər. (İsra surəsi, 64)**

Ayədə "**onlardan gücün çatdığı kəsləri**" sözləriylə işarə edilən kəslərin mühüm hissəsi də məhz "münafiqlər"dir. Şeytanın gücü, sözünü dinləyən, özünə itaət edərək, İslama, Qurana və müsəlmanlara qarşı mübarizə aparmağı qarşıya məqsəd qoyan bu insanlara istədiyi kimi çatır. Onları istədiyi kimi yönləndirə bilir və istədiyi hər şeyi etdirə bilir. Məhz "**dilləriylə müsəlmanlara əziyyət vermək**", "**səsi ilə sarsıntıya uğradıb, hay-küy qopartmaq**" da şeytanın münafiqlərə öyrədib tətbiq etdirdiyi üsullardandır. Şeytanın yol göstərməsi ilə, hər dövrdə münafiqlər bu xain və pis üsuldan istifadə etmiş və etməyə də davam edirlər.

Münafiqlər bu üsulu tətbiq edərlərkən də, ayədə xəbər verildiyi kimi yenə şeytanın ilhamı ilə "**kəskin üslub**" işlətməyə diqqət yetirərlər. **Öz aləmlərində müsəlmanların əhvali-ruhiyyələrini korlayacaqlarını, onları ümidsizliyə sövq edəcəklərini, sevinclərini yox edəcəklərini düşündükləri xüsusi sözlər işlətməyə böyük diqqət göstərərlər. Kinayəli, həsəd dolu, kinli, davakar, söz ilişdirən, gərginlik yaradıb fitnə törətməyə çalışan üslubdan istifadə edərlər. Öz aləmlərində qarşılarına, müsəlmanların acizliklərini, çatışmazlıqlarını, nöqsanlarını, səhvlərini gündəmə gətirərək onları pərt etməyi məqsəd qoyarlar. Bu yolla eyni zamanda da, digər iman gətirənlərin bu kəslərə olan hörmətlərini, sevgilərini, etimadlarını yox edə biləcəklərini zənn edərlər.**

**Xüsusən də mənəvi cəhətdən lider mövqeyində olan şəxslərin (öz aləmlərində) nöqsanlarını tapdıqlarını zənn edərək böyük həyəcan və şişirdilmiş üslublarla bunları dilə gətirərlər. Beləliklə müsəlmanların gözündə bu insanın etimadını, mövqeyini sarsıda biləcəklərini; ona olan etimadlarını yox etdirə biləcəklərini zənn edərlər.** Həmçinin bunun nəticəsində də İslama, müsəlmanlara zərər verə biləcəklərini ümid edərlər. Sonra da qarışıqlıq yarada biləcəklərini və müsəlmanların ayrılıb dağılacağını zənn edərlər. Beləliklə ruhlarındakı qaranlıq yolun qapısının açılacağını və onların da istədikləri kimi küfrü yaşaya biləcəklərini ümid edərlər.

**Allaha səmimi iman gətirdikdə müsəlmanın Allaha qarşı necə güclü etimad və təslimiyyət içərisində olduğunu qavraya bilmədikləri üçün, işlədəcəkləri bir neçə söz və ya edəcəkləri bir neçə ittihamla müsəlmanları incidib kədərləndirə biləcəklərini, baxış prizmalarını dəyişdirə biləcəklərini, etimadlarını, sevgilərini, hörmətlərini yox etdirə biləcəklərini zənn edərlər.**

Halbuki müsəlmanlar Allahın yaratdığı hər şeydə xeyir və gözəllik görərlər. Allah yolunda mallarından, canlarından imtina etməyi, hər cür fədakarlıq etməyi gözə almış insanlardır. Nemətlər və gözəlliklər qədər, xəstəliklər, nöqsanlar və edilən səhvlərin də, yenə həmişə taleyin bir hissəsi olduğunu bilirlər. Dolayısılə qəlbi kin, qəzəb, həsəd və nifrətlə dolu olan, küfrə heyranlıq duyub müsəlmanları düşmən kimi görən, şeytanın nəzarəti altına daxil olmuş bir münafiqin vəziyyətini də açıq-aşkar şəkildə görə bilərlər. **Belə şeytani varlığın sözü ilə müsəlmanların nə əhvali-ruhiyyələrinin pozulması, nə inciməəri, nə kədərlənmələri, nə ümidsizliyə qapılmaları, nə də sevinclərinin qaçırdıb bədbəxt olmaları mümkündür.**

Lakin bu mühüm həqiqətdən qafil olan münafiqlər, xəstə ruhlarının əks olunması olan danışıqlarıyla müsəlmanlara qarşı hiyləgərcə mübarizə aparmağa çalışarlar. Beləliklə inkarçılar xaricdən müsəlmanları yox etməyə çalışarkən, onlar da əllərindəki imkanlarla daxildən hiyləgərcə müsəlmanların gücünü yox edə biləcəklərini zənn edərlər. **Şeytanın ilhamı ilə hay-küy qopararaq, müsəlmanları sarsıntıya uğrada biləcəklərini düşünürlər**. Halbuki ayənin davamında, "**...Sizi iti dilləri ilə qarşılayarlar. Onlar iman gətirməmişlər; beləcə Allah onların əməllərini puça çıxartmışdır. Bu, Allah üçün asandır**" (Əhzab surəsi, 19) sözləriylə bildirildiyi kimi, **Allah münafiqlərin bütün hiyləgər oyunlarını və bütün tələlərini puç edəcək, onları mütləq müvəffəqiyyətsizliyə düçar edəcək.**

## Münafiq qəzəbləndikdə qarşısıalınmaz şəkildə bağırar

Müsəlmanlar çox mötədil və ağıllı insanlardır. Hər şeyi və bütün hadisələri Allahın yaratdığına qəti əmin olduqları üçün həmişə təvəkküllü ruh halı içində yaşayarlar. Dolayısilə də gün ərzində nə qədər çətin hadisələr və yanlış rəftarlarla qarşılaşsalar da, heç vaxt "**özündən çıxmaz və Quran əxlaqına uyğun olmayacaq rəftar göstərməzlər". Əsəbiləşmək, qəzəbdən özünü itirmək, səs yüksəltmək, qışqırıb bağırmaq, təcavüzkar və davakar üslub nümayiş etdirmək, müsəlmanın qətiyyən yanaşmayacağı davranışlardır**. Hadisələr istədikləri kimi baş verməsə də, qarşılarındakı insanlar səhvlik etsə də, müsəlman bütün bunların taledə xeyirlə yaradıldığını bilər.

**Münafiqlər isə**, hər məsələdə olduğu kimi, bu cür hallarda da, **müsəlmanların rəftarına tamamilə zidd olan rəftar pozuntularıyla diqqət çəkərlər. Tərslik kimi görünən cüzi hadisə ilə qarşılaşdıqları zaman, dərhal qəzəblənib deyinməyə, qışqırıb bağırmağa və mübahisə edib davakar və təcavüzkar davranışlar göstərməyə başlayarlar. İçlərində gizlətdikləri anarxiya ruhu tamamilə ağızlarından kənara əks olunar. Həmin ana qədər**

**müsəlman təqlidi etdikləri halda, əsəbiləşərək özlərindən çıxar və bir anda ruhlarındakı küfr xüsusiyyətlərini açıqca büruzə verməyə başlayarlar**. Allah, Peyğəmbərimiz (s.ə.v) dövründəki münafiqlərin də, Rəsulullah (s.ə.v)-in yanında olarkən belə, eyni küfri əxlaqı və rəftar pozuntularını göstərdiklərini bildirmişdir:

**... Ey iman gətirənlər! Səsinizi Peyğəmbərin səsindən yüksəyə qaldırmayın və bir-birinizə müraciət etdiyiniz kimi ona da uca səslə müraciət etməyin. Yoxsa, özünüz də hiss etmədən əməlləriniz hədər gedər. (Hucurat surəsi, 1-2)**

Digər bir Quran ayəsində isə Allah; **"...danışanda səsini alçalt. Çünki ən çirkin səs uzunqulaq səsidir"** (Loğman surəsi, 19) sözləriylə, "qışqıran, narahat edən danışıq üslubunu bəyənmədiyini" bildirmişdir. **Məhz Allahın bəyənmədiyi bir rəftarı, bilərəkdən və israrla etməyə davam etmək, münafiqlərin mühüm xüsusiyyətidir.** Münafiqlər bu əxlaqlarındakı qətiyyətlə, müsəlmanlardan fərqli olduqlarını və küfr əxlaqını yaşamaqdakı israrlarını açıqca göstərmiş olarlar.

## Münafiq ədabazlıq edərək lovğalanar

Allah Quranın; "**yer üzündə lovğalanaraq yerimə; çünki sən nə yeri yara bilər, nə də dağlara çata bilərsən**" (İsra surəsi, 37) ayəsi ilə müsəlmanlara lovğalanmaqdan çəkinmələrini xatırlatmışdır.

Müsəlmanlar Allahın ayədə təsvir etdiyi əxlaqı bəyənmədiyini bilərək, eqoistlik və təkəbbür kimi görünə biləcək ən kiçik rəftar pozuntusundan belə şiddətlə çəkinərlər. **Münafiqlər isə** müsəlmanların tam əksinə, **hər məsələdə özlərini ön plana çıxartmaq, böyüklüklərini və hər kəsdən üstün olduqlarını vurğulaya bilmək üçün hər fürsətdən istifadə edərlər. İçlərindəki böyüklük və önə keçmə ehtirası çox şiddətlidir. Dolayısilə də gün boyu bütün rəftar və danışıqlarına, üz ifadələrinə bu ruh halları hakimdir. Baxışlarına, səslərinə, danışıqlarına, oturub-qalxmalarına, adi məsələdə bildirdikləri fikirlərinə və hətta sevgi göstərmə formalarına qədər hər hərəkətlərində, hər mimikalarında bu böyüklük ehtirasının əks olunması görünər.**

Allah münafiqlərdəki bu "**şeytani böyüklük ehtirasına**" Quran ayələrində belə diqqət çəkmişdir:

**Ona ölüm olsun! Necə qərara gəldi? Sonra yenə ona ölüm olsun! Gör nə qərara gəldi? Sonra o nəzər saldı. Üz-gözünü turşudub qaşqabağını tökdü. Sonra da arxasını çevirib təkəbbür göstərdi. (Müddəssir surəsi, 19-23)**

Allah Quran ayələrində münafiq əxlaqını çox ətraflı təsvir etmişdir. Bu baxış prizması ilə baxan müsəlmanlar, münafiqlərin rəftarlarından, danışıqlarından, vücud dillərindən, yeriyiş tərzlərindən, qaşlarını saldıqları formadan, baxışlarındakı pozulmadan və üzlərinə verdikləri hiyləgər mənalardan bu böyüklük ehtirasını çox açıq şəkildə anlaya bilərlər.

Münafiq sahib olduğu hər şeyi, böyüklüyünü vurğulamaq üçün mühüm fürsət kimi görər. Allahın verdiyi, gözəlliyi, sağlamlığı, gəncliyi, biliyi, mədəniyyəti, qabiliyyəti, nüfuzu və sahib olduğu maddi-mənəvi nemətlərdən, həmişə lovğalanmaq üçün istifadə edər. Özünü nə qədər böyütsə, ətrafındakı digər insanları da bir o qədər aşağı səviyyəli görüb kiçik hesab etməyə başlayar. Dünyanın ən ağıllı, ən zəkalı, ən istedadlı, ən yaxşı danışan, ən yaxşı yazı yazan insanının özü olduğu qənaətindədir. Hətta bir çox məsələdə özünün dünya səviyyəsində bütün insanlar arasında nadir rast gəlinəcək mükəmməllikdə və qabiliyyətdə insan olduğuna inanmağa başlayar. Bu baxış prizmasının sonunda isə xeyli azğınlaşar. Allah münafiqlərin bu getdikcə artan böyüklük ehtirasını bir ayədə; "**...onların qəlblərində nail ola bilməyəcəkləri böyüklük (istəyin)dən başqası yoxdur...**" (Mümin surəsi, 56) sözləriylə açıqlamışdır.

Allah digər bir ayədə isə; "**...çünki, Allah lovğalıq edənləri sevmir**" (Nisa surəsi, 36) sözləri ilə bu əxlaqı bəyənmədiyini bildirmişdir. Əgər bir müsəlman istəmədən bunlardan hər hansı birinə bənzər rəftar göstərsə, iman gətirənlər ona Quran ayələrini və Allahın bu rəftarı bəyənmədiyini xatırladar və o da dərhal bu səhvini düzəldər. Lakin münafiqdə belə bir nəticə ala bilmək mümkün olmaz. **Quran ayələri münafiqə təsir etməz. Münafiq ayələri nə dinləyər, nə də mənalarını düşünər. Dolayısilə də münafiqi içindəki bu böyüklük ehtirasından xilas olması üçün doğru yola çağırmaq təsirli olmaz.** Allah münafiqin bu cür çağırış qarşısında necə rəftar göstərəcəyini bir Quran ayəsində belə xəbər vermişdir:

**Ona: "Allahdan qorx!" - deyildikdə, lovğalıq onu daha da günaha sürükləyər. Ona Cəhənnəm kifayət edər. Ora nə pis yataqdır! (Bəqərə surəsi, 206)**

## Münafiq hörmətkarlıqdan məhrumdur; nəzakətsiz və düşüncəsizdir

Müsəlmanların ən mühüm xüsusiyyətlərindən biri, həyatlarının hər anında Quran əxlaqına uyğun üslubla danışmalarıdır. İman gətirmələri ilə birlikdə, cahil cəmiyyətlərdəki insanların böyük əksəriyyətinə hakim olan mənfi xarakter xüsusiyyətlərindən xilas olmuşlar. Dolayısilə bu təmiz, ilahi əxlaq bütün rəftar və danışıqlarına hakimdir. Hansı mühitə girsələr də, hadisələrin gedişatına, insanların ehtiyacına, vəziyyətə və şəraitə görə necə davranmalı olduqlarını vicdanları ilə müəyyənləşdirərlər. Daha əvvəl heç sınaqdan

keçirmədikləri hadisələr belə olsa, vicdanlarına tabe olaraq edilməsi lazım olan ən doğru rəftarı göstərər, ən məqsədəuyğun danışıqları edərlər.

Münafiq xarakterli kəslər isə, müsəlmanlardakı bu fərasət və bəsirət mükəmməlliyindən məhrumdurlar. İstəsələr, bu müsbət rəftarları, əlbəttə ki, səmimi müsəlmanlardan görərək öyrənə bilərlər. Lakin əsil məqsədləri onsuz da müsəlmanlara qarşı daxilən hiyləgərcə mübarizə aparmaq olduğu üçün əxlaqlarını dəyişdirməyə ehtiyac duymazlar. **Seçimlərini Allahdan, Quran əxlaqından, vicdandan yana etmədikləri üçün, müsbət, həlim və gözəl olan rəftarlar əvəzinə, şeytani və mənfi rəftarlar göstərərlər. Eynilə danışıqlarında da yaradıcı, sakitləşdirici, uzlaşdırıcı olmaq əvəzinə, kinayəli, söz ilişdirən, ədabaz ifadələri seçərlər. Kobud və acı dilli, nəzakətsiz, nalayiq, iyrənc, davaçı, təcavüzkar, ədəbsiz və ya günahlandıran üslublar istifadə etməkdən çəkinməzlər. Cahil insanlar arasında öyrəndikləri nəzakət və ədəbə uyğun gəlməyən, kobud və narahatedici hər rəftarı, müsəlmanlar arasında da çəkinmədən göstərərlər.**

Müsəlmanların hər sözü gözəl və incəlik dolu olduğu halda, danışıq ədəbi olmayan **münafiqlərin sözləri həmişə çirkin və xoşagəlməzdir. Hörmətkarlıqdan məhrum, lovğa, özündənrazı, ədabaz, çoxbilmiş, küt, kobud, düşüncəsiz və nəzakətsizdir. Sanki şüurları qapalıymış kimi nəzakətsiz və nalayiqdirlər. Məhz bütün bu xüsusiyyətlərindən də, "xəstə, dəyişkən və münafiq ruhlu insanlar olduqları" açıqca aydın olar.**

Halbuki müsəlmanların ən əhəmiyyət verdikləri və ən diqqət göstərdikləri mövzulardan biri, Allahın rizasını qazana bilmək üçün, tərtəmiz və gözəl əxlaq anlayışı ilə yaşamaqdır. Cahillərin hər cür çirkli anlayışından, rəftarlarından və danışıqlarından xilas olub, cənnət kimi gözəl mühit yaratmağa çalışarlar. Buna görə də bir-birlərinə qarşı mümkün qədər incə düşüncəli, fədakar, anlayışlı, tolerant, bağışlayıcı, təvazökar, səbirli, təvazökar, səbirli, gözəl sözlü, könül alan, sevgi, hörmət dolu, dostcasına rəftarlar göstərərlər. Dolayısilə müsəlmanların bu üstün əxlaqı ilə, münafiqlərin mənfi rəftarları arasında böyük ziddiyyət ortaya çıxar. Bu da, şeytani üslublar işlətməkdən, küfri danışıqlar edib, iyrənc rəftarlar göstərməkdən çəkinməyən münafiqlərin tanınmasında mühüm əlamət meydana gətirər.

## Münafiqlər Peyğəmbərimiz (s.ə.v)-in yanında səslərini yüksəldir və ədəbsiz üslubla danışırdılar

Peyğəmbərimiz (s.ə.v) dövründə müsəlmanların ətrafında nəzakətli, incə düşüncəli, hörmətkar olmağın qaydasını bilməyən və bu yöndəki çirkin üslublarıyla diqqətçəkən bir çox insan vardı. Bunlar arasında müşriklər, qəlbində xəstəlik olanlar, nəzakətsiz və ya cahil olanlar olduğu kimi; bu əxlaqsızlığı bilərəkdən tətbiq edən münafiqlər də vardı. Həmçinin bu insanlar, müsəlmanlara göstərdikləri bu çirkin rəftarları, **Peyğəmbərimiz (s.ə.v)-ə qarşı da göstərirdilər (Peyğəmbərimiz (s.ə.v)-i tənzih edirik). Hətta Ona qarşı, xüsusi və bilərəkdən, müsəlmanlara etdiklərindən daha da şiddətli əxlaq pozuntusu**

**göstərirdilər. Bunun səbəbi isə, əlbəttə ki, imansızlıqları; Peyğəmbərimiz (s.ə.v)-ə, onun sahib olduğu nemətlərə, ona göstərilən hörmət və sevgiyə, onun mövqeyinə və nüfuzuna qarşı olan qısqanclıqları idi. Özlərini liderlik mövqeyinə daha çox layiq görür; Peyğəmbərimiz (s.ə.v)-dən guya daha üstün, daha ağıllı və qabiliyyətli olduqlarına inanırdılar**. Buna görə də ona layiq olduğu hörmət və sevgini göstərmək, ona qarşı gözəl əxlaqlı davranmaq onlara ağır gəlirdi.

Məhz bu kəslər, **Peyğəmbərimiz (s.ə.v)-ə qarşı hörmətdən məhrum, kobud, ədəbsiz, davakar, təcavüzkar və günahlandıran üslubla və hətta səslərini də yüksəldib qışqırmaqla danışırdılar** (Peyğəmbərimiz (s.ə.v)-i tənzih edirik). Allah Quranda Peyğəmbərimiz (s.ə.v)-ə qarşı bu çirkin rəftarı göstərən kəsləri xəbərdar etmiş və bunun "Allah dərgahında böyük qarşılığı olacağını" xatırlatmışdır:

**Ey iman gətirənlər! Səsinizi Peyğəmbərin səsindən yüksəyə qaldırmayın və bir-birinizə müraciət etdiyiniz kimi ona da uca səslə müraciət etməyin. Yoxsa, özünüz də hiss etmədən əməlləriniz hədər gedər. (Hucurat surəsi, 2)**

Allah, Peyğəmbərimiz (s.ə.v)-in hüzurunda və ona qarşı bu cür çirkin və davakar üslubla danışmaları nəticəsində, bu kəslərin o vaxtadək etdikləri bütün saleh əməllərin hədər gedə biləcəyini bildirmişdir. Peyğəmbərimiz (s.ə.v)-in hüzurunda bu cür rəftar pozuntularından qaçınan, mötədil, hörmətkar üslubla danışan səmimi müsəlmanlar üçünsə, axirətdə böyük mükafat olduğu xəbər verilmişdir:

**Həqiqətən, Allahın Elçisi yanında səsini endirənlər o şəxslərdir ki, Allah onların qəlbini təqva üçün sınağa çəkmişdir. Onları bağışlanma və böyük mükafat gözləyir. (Hucurat surəsi, 3)**

Şübhəsiz ki, Peyğəmbərimiz (s.ə.v) dövründə baş verən hər hadisə, buna dair Quranda bildirilən hər hökm, o dövrdən sonra yaşayacaq hər müsəlman cəmiyyəti üçün də yolgöstəricidir. Quranda təsvir edilən, Peyğəmbərimiz (s.ə.v)-ə qarşı göstərilməsi lazım olan "hörmət forması", bu gün də iman gətirənlərin bir-birlərinə və onlara mənəvi liderlik edən üstün əxlaqlı insanlara qarşı göstərmələri lazım olan hörmət formasının necə olmasının lazım olduğunu bizə başa salır.

## Münafiqlər Peyğəmbərimiz (s.ə.v)-in yanında önə keçməyə və özlərini ucaltmağa çalışırdılar

Quranda müsəlmanlara xatırladılan digər mühüm məsələ də, "**Peyğəmbərimiz (s.ə.v)-in olduğu bir mühitdə, hər məsələdə ona üstünlük verməyin, onu ən qabaqcıl və ən üstün tutmağın əhəmiyyəti**"dir. Bu əxlaq anlayışı, müsəlmanların Peyğəmbərimiz (s.ə.v)-ə olan sevgi, hörmət və bağlılıqlarını göstərən çox mühüm "**mömin əlaməti**"dir.

Lakin bu duyğuları qəlblərində səmimi şəkildə yaşamayan insanların təqlidi olaraq bu əxlaq xüsusiyyətlərini göstərə bilmələri qeyri-mümkündür. Peyğəmbərimiz (s.ə.v)-ə qarşı içlərində "**qısqanclıq, kin, qəzəb, paxıllıq, önə çıxma və ya üstünlük ehtirası**" kimi duyğular bəsləyən münafiqlər, heç vaxt əsil müsəlmanın hörmət dolu rəftarlarını göstərə bilməzlər. Hətta tam əksinə, Peyğəmbərimiz (s.ə.v)-in olduğu mühitlərdə göstərdikləri müsəlmanların əxlaqına tamamilə zidd olan, "hörmətdən məhrum rəftarlarıyla" diqqət çəkərlər.

Allah Quranda, həm bu əxlaq pozuntularını göstərən münafiq xarakterli insanlara, həm də cahillikləri, məlumatsızlıqları və ya nəzakətsizliklərindən ötrü bu cür yanlış davranışlar göstərən yaxşı niyyətli kəslərə, müsəlmanların hörmət formasının necə olmasının lazım olduğunu belə açıqlamışdır:

**Ey iman gətirənlər! Heç bir şeydə Allahı və Onun Elçisini qabaqlamayın. Allahdan qorxun! Həqiqətən, Allah Eşidəndir, Biləndir. (Hucurat surəsi, 1)**

Məlum olduğu kimi o dövrdə Peyğəmbərimiz (s.ə.v)-in ətrafında səmimi müsəlmanlarla yanaşı, hər inancdan, hər mədəniyyətdən və hər xarakterdən olan insanlar da vardı. Bunlar arasında yaxşı niyyətli olub da, İslam əxlaqını hələ də bilməyən və ya yetişdirilmə tərzlərindən ötrü də incə düşüncə, nəzakət və hörmət məsələsində qüsurları olan kəslər də vardı. Lakin **münafiqlər, bütün bu insanlardan fərqli olaraq, bu əxlaq və rəftar pozuntusunu şüurlu surətdə və bilərəkdən tətbiq edirdilər. Yoxsa münafiqlər də Peyğəmbərimiz (s.ə.v)-in hüzurunda hansı ədəblə hərəkət edilməsinin lazım olduğunu çox yaxşı bilirdilər**. Lakin ona qarşı olan şeytani baxış prizmalarını hiyləgərcə hiss etdirmək üçün, xüsusən bu hörmət formasını tətbiq etmirdilər. Səmimiyyətsizliklərini gizlədə bilmək üçün **dilləriylə Peyğəmbərimiz (s.ə.v)-i sevdiklərini söyləyirdilər; lakin əslində içlərində sevgi deyil, kin və nifrət olduğu üçün, ona qarşı hörmət göstərmək onlara çox ağır gəlirdi**. Çünki əsil hədəfləri, Peyğəmbərimiz (s.ə.v)-i ucaltmaq deyil, əslində özlərini ön plana çıxartmaq idi.

Öz aləmlərində "**Peyğəmbərimiz (s.ə.v)-ə qarşı duyulan sevgi və hörməti zəiflətmək və sonra da guya özlərinin ondan daha ağıllı, daha bilikli və təcrübəli olduğunu hər kəsə göstərmək**" istəyirdilər. Beləliklə özləri kimi zəif imanlı insanlara da yol göstərib, onları

da Peyğəmbərimiz (s.ə.v)-in yoluna tabe olmaqdan uzaq tuta biləcəklərini düşünürdülər. Onları da küfr əxlaqına təşviq edə biləcəklərini və özlərinə tərəfdar toplaya biləcəklərini zənn edirdilər. Halbuki özlərini ön plana çıxarda bilmək üçün göstərdikləri hər hiyləgər və səmimiyyətsiz rəftar, hər dəfə "**münafiqlərin ağılsızlığını**", "**Peyğəmbərimiz (s.ə.v)-in isə nə qədər üstün ağla sahib olduğunu**" göstərirdi.

Məhz Peyğəmbərimiz (s.ə.v) dövründəki bu münafiq xarakteri, tarix boyu hər müsəlman cəmiyyətində eyni hiyləgərliklə ortaya çıxmışdır. Müsəlmanların başında "**mənəvi lider və yolgöstərici olaraq hər kim vardırsa**", münafiqlərin hədəfində də həmişə o kəslər olmuşdur. **İndiki vaxtda hələ də, müsəlmanlar üçün ən faydalı xidməti kim göstərir, ən təsirli fikri mübarizəni kim aparır və iman gətirənləri ən çox kim gücləndirirsə, münafiqin hədəfində də məhz bu mübarək insanlar vardır.**

Münafiqlərin Peyğəmbərimiz (s.ə.v)-ə qarşı olduğu kimi, bu üstün əxlaqlı lider mövqeyindəki mömin şəxslərə qarşı hörmət göstərməyi qəbul edə bilməmələrinin səbəbi də əslində çox aydındır. Münafiqlərin müsəlmanların arasında olma səbəbləri, Quran əxlaqını yaşayaraq Allahın rizasını, rəhmətini və cənnətini qazanmaq deyildir. Dolayısilə müsəlmanlar gözəl əxlaqın ən çoxunu yaşamağa çalışarkən, münafiqlərin belə məqsədləri və buna dair hər hansı şövq və əzmləri də yoxdur. Allaha və axirətə, ya çox zəif imanla inanmış ya da tamamilə imansızlığı seçmişlər. Dünyada etdiklərindən ötrü axirətdə sorğu-suala çəkiləcəklərini düşünmədən yaşayarlar. Onlar üçün mühüm olan, dünya həyatında mənfəətlərini qoruya bilmək və hər anlarını istədikləri kimi yaşaya bilməkdir. Əgər bu məqsədləri istiqamətində hiyləgərcə hərəkət edə bilirlərsə, arxalarında iz qoymadan və ya insanlara hiss etdirmədən, oyun oynamaqla mənfəətlərinə nail ola bilirlərsə, onlara görə başqa problem yoxdur. Mənfəətlərini qoruduqdan, istədiklərini əldə edə bildikdən sonra, gözəl əxlaq göstərməyin, nəzakətli, incə düşüncəli, hörmətkar olmağın onlar üçün heç bir əhəmiyyəti və gərəyi yoxdur.

Məhz münafiqlər, bu çirkin baxış prizmalarından ötrü, müsəlmanların mənəvi lideri olan kəslərin yanında olarkən də, yalnız hiyləgər oyunlarla, söz söyləməklə, yalan dolu danışıqlarla, yalnız öz hədəflərinə nail olmaq üçün hərəkət edərlər. İçlərində nə Peyğəmbərimiz (s.ə.v)-ə, nə müsəlmanlara, nə də onlara başçılıq edən möminlərə qarşı həqiqi sevgi hiss etmədikləri üçün, bu sevginin göstəricisi olan "**səmimi hörmət və əl üstündə saxlamaq əxlaqı**"nı da göstərməzlər. Nalayiq, düşüncəsiz, nəzakətsiz, səmimiyyətsiz və saxtakar rəftar və üslubları, Peyğəmbərimiz (s.ə.v)-in, elçilərin və ya müsəlmanların mənəvi liderliyini boynuna götürmüş şəxslərin olduğu mühitlərdə dərhal özünü büruzə verər.

Lakin bütün bunları, əllərindən gəldiyi qədər "**hiyləgər və sübut edilə bilməyəcək üsullarla**", gizlincə etməyə çalışarlar. Çünki çox açıq əxlaqsızlıq etdikləri təqdirdə, bütün müsəlmanların onlara qarşı ciddi şəkildə rəftar alacaqlarını çox yaxşı bilirlər. Dolayısilə gizli əxlaqsızlıqlarını, həmişə sanki "**səhvən, hiss etmədən, düşünə bilmədikləri üçün, təcrübəsizliklərindən və ya bilmədən**" edirlərmiş kimi məharətlə həyata keçirərlər.

Məsələn, müsəlmanların mənəvi lideri olan bir insan **hikmətli və mühüm mövzunu izah edərkən, mütləq mövzuya özləri də girmək, sözü bu insanın ağzından alıb, əslində öz bilik və mədəniyyətlərini göstərmək istəyərlər**. Bu məqsədlə sanki səhvən olurmuş kimi, **həmişə bu insanın sözünü kəsərlər**. Hər yeni danışıqda çoxbilmişlik edərək, o mövzunu, izah edən insandan **daha da yaxşı bildiklərini sübut etməyə çalışarlar**. Yaxud sanki məqbul məlumat verirmiş kimi danışarkən, əslində bir tərəfdən də, **qarşı tərəfin yanlış bildiyini və isabətsiz danışdığını vurğulamaq istəyərlər**. Çəkinmədən, nəzakətsiz və düşüncəsizcə, əsil dinlənilmək istənilən insana danışma fürsəti verməyəcək şəkildə **saatlarla hikmətsiz və lazımsız söhbətlər edərlər**. Qarşılarındakı mübarək şəxslərin nəzakətindən və gözəl əxlaqından bu yolla həmişə sui-istifadə etməyə çalışarlar.

Əlbəttə ki, bilərəkdən etdikləri bütün bu əxlaq pozuntuları, azğın və şeytani məntiqə əsaslanır. Münafiqlərin, müsəlmanlar kimi Peyğəmbər və elçilərin, özlərindən üstün, Allah tərəfindən seçilmiş, xüsusi ağıl, hikmət və biliklə təchiz edilmiş, yüksək vicdana sahib və üstün əxlaqlı, mübarək insanlar olduğuna inanmazlar. Hətta **özlərini ağıl, zəka, hikmət, bilik, mədəniyyət və təcrübə baxımından peyğəmbərlərdən, Allahın elçilərindən, vəlilərdən və müsəlmanlara liderlik edən lider mövqeyindəki insanlardan daha da üstün görərlər.** Quranda münafiqlərin bu azğın aldanışları **Talut hekayəsində** belə xəbər verilib:

**Peyğəmbərləri onlara dedi: "Allah Talutu sizə hökmdar təyin etdi!" Onlar dedilər: "O necə bizə hökmdar ola bilər ki, biz hökmdarlığa ondan daha çox layiqik və ona heç böyük var-dövlət də verilməmişdir". O dedi: "Allah sizin üzərinizə onu hökmdar seçdi, elm və bədəncə onun gücünü artırdı. Allah Öz mülkünü istədiyi kəsə verir. Allah hər şeyi Əhatəedəndir, Biləndir". (Bəqərə surəsi, 247)**

Allah iman gətirənlər üçün o dövrdə "**lider olaraq Talutu seçdiyini**" bildirmiş, lakin o dövrün münafiq xarakterli insanları, cahil meyarları irəli sürərək "**özlərinin hökmdarlığa və liderliyə daha uyğun olduqlarını**" iddia etmişlər. Sərvəti, mal-mülkü ən çox və ən zəngin olan insan kimdirsə, onun lider olmasının lazım olduğunu müdafiə etmişlər. Halbuki Allah ayədə, üstünlüyün mal-mülklə olmadığına diqqət çəkmişdir. **Liderlik zahiri və cahili meyarlara görə deyil, Allahın seçib uyğun görməsi ilə həqiqiləşər**. Həmçinin Allah seçdiyi qullarına da, dərgahından xüsusi bilik, hikmət və elm verir, beləliklə müsəlmanlara liderlik edəcək qullarını "**seçilən və üstün**" edir.

Lakin məhz qəflət içindəki münafiq xarakterli insanların dəyər mühakimələri Qurana əsaslanmaz. Öz müşrik inancları istiqamətində "**həyatın həqiqətləri**" kimi xarakterizə etdikləri cahil həyatın qaydalarından, müsəlmanlar üçün mənəvi mənada liderlik vəzifəsini boynuna götürmüş bu kəslərin xəbərsiz olduğu qənaətindədirlər. Öz aləmlərində onların, "**insanları lazımınca tanıya bilmədiklərini, onların iç üzlərini, həqiqi xarakterlərini görə bilmədiklərini, hadisələri məqsədəuyğun qiymətləndirə bilmədiklərini**

**və buna görə də hikmətli qərarlar ala bilmədiklərini**” düşünərlər. Çünki onlar hər şeyin, zahirdəki mənfəət hesablarına görə qiymətləndirilməsinin lazım olduğuna inanırlar. Onlara görə “**ən ağıllı insan, mənfəətlərini ən yaxşı qoruyan və ən çox mənfəət əldə edə bilən insan**”dır.

Dolayısilə Peyğəmbərimiz (s.ə.v)-in, cahil insanlarının bu “**azğın dəyər mühakimələrinə və mənfəət hesablarına**” görə yaşamaması, münafiq xarakterli insanların qəti qavraya bilmədikləri haldır. Buna görə də, mənfəətlərin ən çox qorunacağı seçimlər əvəzinə, Allahın rizasını ən çox qazandıra biləcək seçimlərin edilməsini, öz zəif ağıllarınca “**yersiz**” və ya “**yanlış**” kimi xarakterizə edərlər (Peyğəmbərimiz (s.ə.v)-i tənzih edirik).

Halbuki Allah peyğəmbərlərinə, elçilərinə və vəli qullarına Öz dərgahından xüsusi elm vermiş və onlara “**zahir**” elmindən başqa “**batin elmi**”ni də öyrətmişdir. Dolayısilə bu mübarək və üstün insanlar, **Allahın yol göstərməsi və ilhamı ilə, cahil insanların bilməyəcəyi bir çox şeyi bilərək hərəkət edərlər**. İnsanların görə bilmədiyi təfərrüatları və ehtimalları böyük elm, fərasət və bəsirətlə görə bilərlər. Dolayısilə danışıqları, qərarları, qiymətləndirmələri, təkcə zahirlə düşünən insanların qavrayışından çox üstün, çox hikmətli və mühümdür.

Peyğəmbərimiz (s.ə.v) küfr əhlini də, müşrikləri də, münafiqləri də, cahil insanlarının bütün qaydalarını da yaradan, sonsuz ağıl sahibi olan uca Allahın ilhamı və Onun özünə bəxş etdiyi üstün elmlə hərəkət edirdi. İnsanları və hadisələri bu böyük ağıl, hikmət, fərasət və bəsirətlə qiymətləndirir, qərarlarını Allahın yol göstərməsiylə, Quran əxlaqı istiqamətində və vicdanı ilə müəyyən edirdir. Dolayısilə də ən xeyirli qərarları verir, ən doğru diaqnozları edir, ən məqsədəuyğun şəkildə davranırdı. Həmçinin bütün bunların nəticəsində də, Allahın Quranda bildirdiyi kimi, “**qalib gələnlər, Allahın köməyi ilə hər zaman iman gətirənlər**” olmuşdur:

**Kim Allahı, Onun Elçisini və iman gətirənləri özünə dost tutarsa, bilsin ki, qələbə çalanlar da məhz Allahın firqəsidir. (Maidə surəsi, 56)**

## Münafiqlər Peyğəmbərimiz (s.ə.v) ilə “hücrələrin arxasından səslənərək” və bağıra-bağıra danışırdılar

**Münafiqlər Peyğəmbərimiz (s.ə.v)-in hüzurunda necə bir üslub və danışıq qaydası ilə danışılmasının lazım olduğunu əslində çox yaxşı bilirdilər**. Lakin Peyğəmbərimiz (s.ə.v)-in “**üstünlüyünü**” qəbul edə bilmədikləri üçün, ona qarşı böyük hörmət göstərmək qürurlarına çox ağır gəlirdi. Dolayısilə, bu mühitlərdə, hiyləgərcə asiliklərini və inadkarlıqlarını hiss etdirərək öz aləmlərində “**şeytani fəaliyyət**” yürütməyə çalışırdılar. Müsəlmanlar, Peyğəmbərimiz (s.ə.v)-ə olan “**etinalı sevgiləri və hörmətdəki həssaslıqları**

**ilə**” diqqət çəkərkən, onlar da bu çirkin əxlaqlarıyla Peyğəmbərimiz (s.ə.v) və səmimi möminlər tərəfindən “**münafiq xarakterli kəslər**” kimi tanınmış olurdular.

**Lakin bunu da xatırlatmaq lazımdır ki, əlbəttə, insanların danışıq formalarında və üslublarındakı pozuntuların tək səbəbi “münafiqlik” deyil. Bir insan cahilliyi, düşüncəsizliyi, məlumatsızlığı, təcrübəsizliyi, kobud rəftarları, nəzakətsizliyi kimi səbəblərlə də bu cür səhvlər edə bilər**. Lakin münafiqləri bu kəslərdən fərqləndirən və diqqətçəkən xüsusiyyətləri, bu məsələdəki “**itinalı israrları; özlərinə xatırladıldığı və doğrusu öyrədildiyi halda yanlış rəftarlarından imtina etməmələri**”dir. Həmçinin bu rəftarları göstərdikdən sonra da, “**peşmançılıq hiss edib düzəltməyə çalışmamaları**”dır. Özlərini mütləq doğru yolda və haqlı qəbul etmələridir. Məhz bunlarla yanaşı bir də başqa münafiq xüsusiyyətləri də göstərdikləri təqdirdə, əlbəttə ki, bu vəziyyət, müsəlmanlar üçün nəzərə alınması və şübhə edilməsi lazım olan əhəmiyyət qazanar.

Quranda münafiq xarakterli insanların, Peyğəmbərimiz (s.ə.v)-in hüzurunda olarkən göstərdikləri bu rəftar pozuntularının digər nümunəsi, yenə Hucurat surəsində belə xəbər verilmişdir:

**Şübhəsiz ki, səni otaqların arxasından səsləyənlərin əksəriyyəti nə etdiklərini anlamırlar. Əgər həqiqətən, onların qarşılarına çıxanadək səbir etsəydilər, əlbəttə, (bu,) özləri üçün daha xeyirli olardı. Allah, həqiqətən, bağışlayandır, rəhm edəndir. (Hucurat surəsi, 4- 5)**

Peyğəmbərimiz (s.ə.v)-in yanında, söz kəsərək, çoxbilmişlik edərək, qışqırıb bağıraraq, səslərini yüksəldərək, höcətləşən üslub işlədərək, hiyləgərcə şeytani tədbirlər görməyə çalışan münafiqlərin başqa üsulu da, ayədə xəbər verildiyi kimi, Peyğəmbərimiz (s.ə.v) ilə “**otaqların arxasından qışqıraraq danışmaları**”dır.

Peyğəmbərimiz (s.ə.v) gözəl əxlaqı, yüksək vicdanı, heyrətamiz ağıllı danışıqları və nəzakətli rəftarlarıyla diqqətçəkən çox mübarək insandır. Quranın; “**And olsun, Allahın Rəsulu sizlərə – Allaha və axirət gününə ümidini bağlayanlara və Allahı çox zikr edənlərə gözəl nümunədir**” (Əhzab surəsi, 21) ayəsi ilə bildirildiyi kimi, Allah onu, əxlaqı və həyatı ilə bütün müsəlmanlar üçün nümunə etmişdir. Belə gözəl nemət olan Peyğəmbərimiz (s.ə.v)-in yaxınlığında ola bilən bir insanın, bu gözəl əxlaqı görməməsi qeyri-mümkündür. Vicdanından istifadə edən, Allahın rizasını hədəfləyən hər insan, bu üstün əxlaqı özünə nümunə götürüb rəftarlarını gözəlləşdirə bilər. Həmçinin gözəl əxlaqı, nəzakəti, incə düşüncəni, hörməti, sevgini bu qədər yaxşı bilən və mükəmməl şəkildə tətbiq edən Peyğəmbərimiz (s.ə.v)-in, bunun əksi olan rəftarları nə qədər ətraflı görə biləcəyi və Quran əxlaqına zidd olan, şeytani və ya cahil rəftar pozuntularından nə qədər narahat olacağı da aydındır.

Məhz münafiqlər də, bütün bu həqiqətlərdən xəbərdardırlar. Öz aləmlərində **Peyğəmbərimiz (s.ə.v)-ə olan azğın baxış tərzlərini vurğulayaraq müsəlmanları narahat edə bilmək və münafiq xarakterli insanların gözündə nüfuz qazana bilmək məqsədi ilə bu çirkin rəftarları göstərmişlər.**

Peyğəmbərimiz (s.ə.v)-in söhbətlərində səslərini yüksəldib qışqıran, danışıqlarıyla Peyğəmbərimiz (s.ə.v)-in önünə keçməyə çalışan və Peyğəmbərimiz (s.ə.v)-i otaqların arxasından səsləyən münafiqlərin bu rəftarları, əlbəttə ki, öz əleyhlərində mühüm dəlillər meydana gətirər. Beləliklə müsəlmanlar, onların Peyğəmbərimiz (s.ə.v)-ə qəlbən bağlı olan, ona böyük sevgi bəsləyən, hörmətləriylə onu əl üstündə saxlayan səmimi müsəlmanlardan fərqini çox açıq şəkildə görərlər. Güvənməyəcəkləri və diqqətli olacaqları insanları tanımış olarlar.

Peyğəmbərimiz (s.ə.v)-in üstün əxlaqını, yüksək vicdanını, səbrini, tolerantlığını qiymətləndirə bilməyən, Allahın sevdiyi və seçdiyi mübarək Peyğəmbər (s.ə.v) ilə eyni dövrdə yaşamağın, onu görməyin, tanımağın nə qədər böyük lütf olduğunu dərk etməyən bu xəstə ruhlu insanlar, əlbəttə ki, dünyada da, axirətdə də böyük ziyana düçar olublar.

Peyğəmbərimiz (s.ə.v)-in dövründə olduğu kimi, hal-hazırda da müsəlmanlara və onlara mənəvi liderlik edən mübarək insanlara eyni şeytani əxlaqı nümayiş etdirən münafiqlər də, şübhəsiz ki, eyni zərəri çəkəcəklər. Etdikləri münafiq hərəkətlərlə heç vaxt İslama, Allahın seçib üstün etdiyi elçilərinə və müsəlmanlara zərər verməyi bacara bilməyəcəklər. Arzuladıqları şeytani dünyanın qaranlığı onları əvvəlcə dünyada əzab, sıxıntı və bədbəxtlik içində məhv edəcək, sonra da axirət əzabı ilə qarşılaşacaqlar. Allah bir Quran ayəsində, Allaha qarşı üsyan edərək azğınlaşanların ağrılı-acılı aqibətini belə bildirmişdir:

**Neçə-neçə məmləkətlər öz Rəbbinin və Onun elçilərinin əmrinə asi oldu. Biz də onlarla sərt haqq-hesab çəkib onları dəhşətli əzablara düçar etdik. (Talaq surəsi, 8)**

## Müsəlmanlar Allahı sevgiylə zikr etdikləri halda, münafiqlər Allahı çox az zikr edərlər

Quranda, münafiqlər barədə verilən digər mühüm məlumat da, bu zəif imanlı insanların "**Allahı çox az zikr etmələri**"dir:

**Münafiqlər, həqiqətən də, Allahı aldatmağa çalışırlar. Halbuki Allah onları aldadır. Onlar namaza durarkən könülsüz qalxar, özlərini camaata göstərər və Allahı olduqca az yad edərlər. (Nisa surəsi, 142)**

Bütün müsəlmanlar kimi, əlbəttə, münafiqlər də Quran ayələrini çox yaxşı bilirlər. Ayələrdə bildirilən bütün münafiq xüsusiyyətlərindən xəbərdardırlar. Dolayısilə, "**Allahı çox zikr etməyin müsəlmanların mühüm xüsusiyyəti", "Allahı zikr etməkdən qaçmağın da münafiqlərin çox nəzərə çarpan xüsusiyyəti**" olduğundan xəbərdardırlar. Normalda bu məlumata sahib münafiqin, özünü ifşa etməmək, müsəlmanları, özünün də onlar kimi "**səmimi mömin**" olduğuna inandıra bilmək üçün, Allahı zikr etməsi, ayələrdən bəhs etməsi gözlənilə bilər. **Lakin Allahın möcüzəsi olaraq münafiqlər bu gözəl ibadəti təqlidi şəkildə belə olsa edə bilməzlər. Allah münafiqlərin bu mövzuda bəsirətlərini bağlamış, dillərini möhürləmişdir**. Səmimi müsəlmanın dünyada hər kəsdən və hər şeydən daha çox sevdiyi uca Rəbbimizi coşğuyla zikr etməsi ilə, münafiqin istəksiz və könülsüz şəkildə imani söhbətlərdən qaçmağa çalışması arasında böyük ziddiyyət var.

Münafiqlər gündəlik həyatlarında istədikləri, mənfəətlərinə uyğun olan hər mövzuya saatlarla vaxt ayırarlar. Fiziki cəhətdən də, nəfsani cəhətdən də, xoşlarına gələn hər cür fəaliyyətə qoşulmağa dünəndən hazırdırlar. **İdman etmək, musiqi dinləmək, film izləmək, çöldə gəzib dolanmaq, bərbərdə saçlarına qulluq etdirmək, matç izləmək, sosial mediada uzun-uzadı vaxt keçirmək, özləriylə əlaqədar paylaşımlar etmək kimi fəaliyyətlər onlara çox ürəkaçan gələr**. Bunların hər birinə hər kəsdən əvvəl, böyük həvəs və coşğu ilə qaçaraq gedərlər.

**Münafiq axşama qədər "nə geyinəcəyi, saçını necə düzəldəcəyi, nə yeyəcəyi, nə cür alış-veriş edəcəyi ilə əlaqədar məsələlərdə" saatlarla heç sıxılmadan söhbət edər. Bunlardan bəhs edərkən münafiqin içi heyrətamiz dərəcədə rahatlayar.**

Əlbəttə ki, bunlar hər insanın gün ərzində edə biləcəyi olduqca məqbul və qanuni fəaliyyətlərdir. Lakin münafiqlər təkcə bu məsələlərdə fəal və şövqlüdürlər. Müsəlmanlarla birlikdə xeyirli söhbət üçün bir yerə toplanmalı olduqları təqdirdə, içlərini sıxıntı bürüyər. Şövqsüz, donuq və həyəcanlarını itirmiş halda olarlar. Xüsusən də Allahın adı çəkildiyi, imani söhbətlərin edildiyi mühitlərdə olmağı qəti istəməzlər. Allahın böyüklüyünü, taleyin mükəmməlliyini, vicdandan istifadə etməyin, gözəl əxlaqın, müsəlmanların bir-birlərini sevib hörmət göstərmələrinin, səmimi dost olmalarının əhəmiyyəti kimi mövzuların danışıldığı hər yer, münafiqin heyrətamiz şəkildə bezməsinə və sıxıntıya qapılmasına səbəb olar.

Münafiqlərin Allahı zikr etmək və Rəbbimizin zikr edildiyi mühitlərdə olmaq istəməmələrinin səbəbi isə, qəlblərində Allah sevgisi əvəzinə, şeytana qarşı məhəbbət və heyranlıq bəsləmələridir. Allahı deyil, şeytanı dost tutmuşlar. Dolayısilə də Allahın istədiklərini deyil, şeytanın istədiklərini yerinə yetirirlər. Buna görə də **Allah zikr edildiyi, Quran ayələri oxunduğu zaman münafiqlər daxilən çox qəzəblənərlər**. Oxunan hər Quran ayəsi ilə, müsəlman əxlaqına tamamilə zidd olan öz münafiq ruhlarının ortaya çıxıb ifşa olacağını düşündükləri üçün, ağlasığmaz kin və qəzəb duyarlar. **Allah Quranda münafiqləri mükəmməl diaqnoz etmiş və münafiq əlamətlərini çox müfəssəl izah etmiş olması, münafiqlərin qorxudan dəhşətə düşməsinə səbəb olar. Buna görə də, Quranı**

**dinləməyə dözə bilməzlər.** Lakin özlərini gizlətməli olduqlarından dilləri ilə bir şey söyləyə bilməzlər. Əllərindən gələn, edə biləcəkləri heç nə yoxdur. Buna görə də, kin və qəzəblərini gözlərinə əks etdirib ən azından bu yolla müsəlmanlara qarşı bir hərəkət etmək istəyərlər. Allah Quranda münafiqlərin, Allah zikr edildiyi və Quran oxunduğu zaman düşdükləri bu şeytani vəziyyəti belə bildirmişdir:

**O inkarçılar, zikri (Quranı) eşitdikləri vaxt, səni az qala gözləri ilə devirəcəkdilər... (Qələm surəsi, 51)**

Allah Quranda; "...**Allahı zikr etmək isə, şübhəsiz ki, ən böyük (ibadət)dir. Allah nə etdiklərinizi bilir**" (Ənkəbut surəsi, 45) deyə buyurmuş və müsəlmanlara, Özünə olan sevgilərini, Onu ən gözəl adlarıyla, zikr edərək və ucaldaraq göstərmələrini bildirmişdir. Digər bir ayədə isə Allah, müsəlmanlara bu hökmünü belə xəbər vermişdir:

**Elə isə (yalnız) Məni yad edin ki, Mən də sizi yad edim! və (yalnız) Mənə şükür edin və (heç vaxt) nankorluq etməyin. (Bəqərə surəsi, 152)**

Şeytan isə, bir-bir yetişdirərək tələbələri halına gətirdiyi münafiqlərə, "**Allahı zikr etməmələrini**" pıçıldayar. Çünki şeytanın da "**heç istəmədiyi və canını ən yandıracaq**" rəftar, "**Allahın zikr edilməsi, Allaha səmimi şəkildə bağlanıb Onun yoluna tabe olunması**"dır. Allah bir Quran ayəsində "**şeytanın bu cür insanları bürüyüb əhatə edərək nəzarəti altına aldığını**", sonra da onlara "**Allahın zikrini unutturduğunu**" belə bildirmişdir:

**Şeytan onları üstələmiş və Allahı zikr etməyi onlara unutdurmuşdur. Onlar şeytanın firqəsindəndirlər. Şübhə yoxdur ki, şeytanın firqəsindəkilər ziyana uğrayanlardır. (Mücadilə surəsi, 19)**

Məhz münafiqlər də yolgöstəriciləri və liderləri kimi gördükləri şeytanın bu ilhamı ilə, **Allahın zikr edilidiyi mühitlərdən qaçarlar**. Həmçinin mümkün qədər Allahın gözəl əxlaqından, möhtəşəm yaratmasından, Quran əxlaqının tələblərindən, taleyin xeyir və hikmətlərindən, müsəlmanların üzərindəki öhdəliklər və məsuliyyətlərindən bəhs etməməyə çalışarlar.

Olduqları yerdə **Allah zikr olunmağa başlandıqda münafiqlərin birdən-birə əhvali-ruhiyyələri pozular, rəngləri solar, narahat olarlar. İçlərini heyrətamiz sıxıntı bürüyər. Bir anda üstlərinə şeytani ruh çökər. Üzlərinə iblisvari ifadə hakim olar; çöhrələri nursuz olar və qaralar**. Sonra da münafiq, ətrafındakı insanlara da olduğu bu mühitdən nə qədər

sıxıldığını hiss etdirməyə çalışar. Bir Quran ayəsində, axirətə lazımınca inanmayan münafiqlərin bu şeytani xüsusiyyətləri; "**yalnız Allah zikr edildiyi zaman axirətə inanmayanların qəlbi qəzəblə qabarır. Halbuki Ondan başqaları xatırlandığında dərhal sevincə qapılarlar**." (Zumər surəsi, 45) sözləriylə bildirilib.

Digər bir ayədə isə Allah, münafiqlərin Quran oxunmasından nə qədər çox narahat olduqlarını belə bildirib:

**Quranı anlamasınlar deyə, Biz onların qəlbinə örtüklər çəkdik, qulaqlarına da tıxac vurduq. Sən Quranda Rəbbinin Tək Allah olduğunu yada saldığın zaman onlar bu dəvətə nifrət edərək arxalarını çevirib gedərlər. (İsra surəsi, 46)**

**Münafiqlər Allahın böyüklüyünü, Ondan başqa qüvvə və ilah olmadığını eşitməyə dözə bilməzlər**. Quranda bildirildiyi kimi, bu həqiqətləri heç vaxt dinləmək istəməz və "**nifrətdən dəliyə dönmüş halda**" böyük sıxıntı ilə dərhal o mühitdən qaçarlar. **Dini söhbətlər edilməsi münafiqi çox qəzəbləndirər və narahat edər** (Allahın tənzih edirik). Münafiq narahatlığını və narazılığını uff deyərək, ayaqlarını yelləməyə başlayaraq ifadə edər. Sıxıntıdan hər yeri büzülər, ruhu heyrətamiz daralar. Ruhundakı şeytani xəstəlik, Allah zikr edildiyi vaxt yaşadığı bu narahatlıq və vücudunun verdiyi şeytani reaksiyalarla dərhal ortaya çıxar.

**Aydındır ki, insan ən çox kimi sevir, ən çox kimi düşünür, ən çox kimə yaxın olmaq istəyirsə, qəlbində olduğu kimi, dilində də həmişə o olar**. Müsəlmanların dünyada ən sevdikləri varlıq Rəbbimiz olduğu və hər an hər işlərində Allaha sığınıb Ondan kömək diləyib Onun rizasını qazanmağa çalışdıqları üçün, dillərində də hər zaman Rəbbimizin gözəl adları vardır.

**Münafiqlər də, qəlbləri həmişə şeytanla birlikdə olduğu üçün, gün ərzində dillərində də həmişə şeytani fikirlər, Qurandan kənar məntiqlər, küfri danışıqlar, neqativ, çirkin sözlər, hörmətsizliklər, tərsliklər vardır.**

Şeytan müsəlmanlar arasında narahatlıq, fitnə, qarışıqlıq törətmək, onları narahat etmək üçün münafiqlərdən bu cür istifadə edir, onların ağzından öz fəlsəfəsini dilə gətirdir. Lakin bu tamamilə münafiqin əleyhinə dönür və bundan zərər çəkən yalnız münafiqin özü olur. Neqativ və şeytani dünyasının, qaranlıq zehninin yaratdığı çirkli düşüncələr, təkcə onu narahat edir. **Müsəlmanlarla birlikdə həm mənəvi, həm də zahiri nemətləriylə cənnət kimi bir mühitdə olduğu halda, münafiq Allahdan uzaq yaşamasının əvəzinə, cəhənnəm hayatındaymış kimi, əzab içində, bədbəxt həyat yaşayar.**

## Münafiq dini mövzulardan bəhs etmək istəməz, lakin dünya həyatı ilə bağlı mövzularda danışmaq məsələsində çox şövqlü və bacarıqlıdır

Allahı çox az zikr edən və Rəbbimizin zikr edildiyi mühitlərdə olmaqdan da diqqətlə qaçan münafiqlərin, bu mövzuda diqqətçəkən bir xüsusiyyətləri daha var. **Dini mövzulardan bəhs edilməsindən böyük acı və əzab çəkən münafiq, dünya həyatına dair mövzular olduqda əhvali-ruhiyyəsi heyrətamiz dərəcədə yüksələr.** Özünə Allahı, axirəti, taleyi, vicdanlı olmağı, Quran əxlaqına tabe olmağı xatırladan hər şey ona nə qədər sıxıntı verirsə, Allahı və dini unutduran mövzular da, ona "sanki dirilik suyu kimi" həyat verər. Quranın; "**təkcə Allah anıldığı zaman axirətə inanmayanların qəlbi hirslə qabarır. Halbuki Ondan başqaları xatırlandığında dərhal sevincə qapılarlar.**" (Zumər surəsi, 45) ayəsi ilə, **münafiqin Allahdan başqa mövzulardan bəhs edildikdə necə rahatlayıb canlandığı və xoşbəxt olduğu xəbər verilmişdir**.

Münafiq dili ilə hər nə qədər iman gətirdiyini söyləsə də, əslində axirətə inancı ya çox zəifdir, ya da heç yoxdur. Dolayısilə də onun üçün hər şeydən əhəmiyyətli olan yalnız dünya həyatıdır. **Bu həyatın hər təfərrüatı onun üçün çox əhəmiyyətlidir. Dünyanın qabaqcıl ölkələri, ən ehtişamlı şəhərləri, bu bölgələrin insanları, dünya səviyyəsində ən nüfuzlu olan xarici dillər, bu ölkələrin siyasətçiləri, incəsənət xadimləri, yazıçı heyəti, onların müdafiə etdikləri fikirlər, münafiq üçün olduqca əhəmiyyətlidir.** Bu bölgələrə gedə bilməsə, bu insanlarla tanışa bilməsə belə, bunların hər biri haqqında məlumat sahibi olmaq belə onu çox həyəcanlandırar. **Çünki münafiq bütün bunları öz gələcəyinin parçası kimi görər**. Ona həyat verən, onu canlı saxlayan düşüncə də onsuz da, dünya səviyyəsində etibarlı, yüksək mövqeyə gələ bilmə, heyran olduğu o qabaqcıl insanlar arasında, onlardan biri kimi ola bilmək xəyalıdır. Buna görə də bu mövzulardan söhbət getdikdə, münafiqin dili sonunadək açılar. **Allahı zikr etməkdən söhbət getdikdə isə bir neçə cümlə belə danışmayan, bir nemətlə qarşılaşdığı və ya bir çətinlikdən xilas olduğu zaman şükür etməyi belə bilməyən münafiq, gələcəyi kimi gördüyü dünya həyatından söhbət açıldıqda, saatlarla heç susmadan danışar**. Sevinci bir anda yerinə gələr. Ən lazımsız təfərrüatlardan belə saatlarla danışar.

**Həmçinin münafiq bu mövzularda öyrəndiyi dünyəvi məlumatları yaddaşında saxlamaqda da, bunları diqqət çəkəcək hala gətirib danışmaq məsələsində də olduqca qabiliyyətlidir.** Allah Quranda münafiq xarakterli bu insanların bu xüsusiyyətini ayələrdə belə xəbər vermişdir:

**Sən onlara baxdıqda bədən quruluşları xoşuna gəlir, danışanda onların dediklərinə qulaq asırsan. Halbuki, onlar divara söykədilmiş dirəklər kimidirlər. Onlar hər bir səs-**

**küyün özlərinə qarşı olduğunu sanırlar. Onlar düşməndirlər. Sən onlardan çəkin! Allah onları məhv etsin, necə də haqdan döndərilirlər! (Münafiqun surəsi, 4)**

**İnsanların eləsi vardır ki, onun dünya həyatı haqqındakı sözləri sənin xoşuna gələr və qəlbində Allahı şahid göstərər; halbuki o, ən qatı düşmənidir. (Bəqərə surəsi, 204)**

Allah, **"danışdıqları zaman da onlara qulaq asarsan"** sözləri ilə **"münafiqlərin dindənkənar danışıqlardakı şeytani qabiliyyətlərindən"** xəbər vermişdir. Digər ayədə isə Rəbbimiz, **"dünya həyatı haqqındakı sözləri sənin xoşuna gələr"** deyə bildirmişdir. **Deməli, münafiq, dünya həyatının ehtişamına, mənfəətlərinə dair məsələlər olduqda çox səlis və maraqlı şəkildə danışa bilir.**

**"Dinlə əlaqədar sözlər" isə münafiqin maraqlandığı və zövq aldığı mövzular deyil.** Lakin incəsənətdən, rəsmdən, heykəldən, hər cür zənginlikdən, puldan, modadan, paltarlardan, bəzənməkdən, saç baxımından, idmandan, evlərdən, avtomobillərdən, yeməklərdən, içkilərdən saatlarla zövq alaraq bəhs edər. Televiziyadakı bir proqram, qəzetlərdə gündəm mövzusu olan bir dedi-qodu, sosial mediada insanların kimləri izlədiyi kimi mövzularda əhvali-ruhiyyələri heyrətamiz dərəcədə açılar. Əlbəttə ki, bunlardan bəhs etməsində səhvlik yoxdur. Diqqətçəkən xüsus, bütün bunlarda göstərdiyi şövq və qabiliyyəti dini mövzularda itirməsidir.

Həmçinin ayədə "**xoşuna gələr**" sözü ilə bildirildiyi kimi münafiqlər, iman gözü ilə, müsəlman əxlaqı ilə baxmayan insanların da diqqətini çəkə biləcək üslub işlədə bilərlər. Bu mövzuda qabiliyyətlidirlər. **Bütün bu mövzular haqqındakı ən incə məlumatları belə yaddaşlarında saxlaya bilmək mövzusunda da qabiliyyətlidirlər**. Boş mövzular barədə danışmaqdan söhbət getdikdə üfüqləri də olduqca geniş olar. Lakin Allah ayənin davamında münafiqlərin "**sütun kimi söykədilmiş-kötük kimi**" olduqlarını da bildirmişdir. Dolayısilə bu, "**heç bir işə yaramayan, boş qabiliyyətdir**". Həmçinin nə özlərinə, nə də başqasına fayda verər. Çox vaxt "**boşboğazlıq**" kimi xarakterizə edilə biləcək tərzdə boş söhbətlər etməkdən kənara çıxa bilməzlər. Bu boşboğazlıqlarıyla nə özləri, nə də başqası üçün xeyirə vəsilə olmazlar. **Bu məlumatlardan hikmətli şəkildə, yaxşı məqsəd üçün istifadə edə bilməzlər**. Təkcə özləriylə eyni düşüncədəki məqsədsiz insanlarla boşboğazlıq və boş söhbətlər edərək, insanları narahat edən xoşagəlməz xarakter göstərmiş olarlar.

Bir insan, müsəlmanlardan birinin yanına getsə və boş yaxud adi mövzular barədə uzun-uzadı danışaraq onun vaxtını alsa, səmimi mömin bundan çox narahat olar. Eynilə bu insan sırf sınamaq üçün, münafiq xarakterli birinin yanına gedib Allahı sidqi-ürəkdən və səmimi üslubla zikr etsə, münafiq də bu vəziyyətdən böyük əzab çəkər. Bu onun heç dözə bilmədiyi, ən əzab çəkdiyi mövzudur. Allahdan, dindən bəhs edildiyi zaman rəngi solar, əhvali-ruhiyyəsi pozular, sevinci qaçar. Quranın; "**sanki onlar, ürkmüş vəhşi**

**uzunqulaqlardır; arslandan qorxub qaçmışlar**” (Müddəssir surəsi, 50-51) ayələri ilə bildirildiyi kimi, münafiqlər Allahın zikrini eşitdikləri zaman “**ürkmüş vəhşi uzunqulaqlar kimi dərhal o mühitdən qaçıb uzaqlaşarlar**”. Lakin münafiqə dindən başqa, dünyəvi mənfəətlərinə dair bir mövzu açılsa, nə qədər sevinib fərəhləndiyi və canlandığı da açıqca görünər.

Allah Quranın; “insanların eləsi vardır ki, nadanlığı Allahın yolundan sapdırmaq və onu məsxərəyə qoymaq üçün sözün “**boş və məqsədsiz sözləri satın alarlar. Məhz belələrini alçaldıcı bir əzab vardır**.” (Loğman surəsi, 6) ayəsi ilə, münafiqlərin bu “**boş və məqsədsiz**” danışıqlarla hədəflərinin, “**müsəlmanların Quran əxlaqını yaşamasına mane olmaq**” olduğunu bildirmişdir. Münafiq, müsəlmanların vaxtlarını alaraq, onları boş sözlərlə sözə tutaraq edəcəkləri xeyirli fəaliyyətlərin qarşısını almaq istəyər. Eyni zamanda da, müsəlmanlar arasında özləri kimi zəif imanlı və ya münafiq xarakterli insanlar vardırsa, bu yolla onları fikrindən döndərməyi və səmimi mömin olmaqdan uzaqlaşdıra bilməyi hədəfləyər.

Lakin Allah münafiqlərin bu şeytani səyini, müsəlmanlar üçün rəhmətə döndərər. Müsəlmanlar Allahı böyük sevgi ilə zikr edən müsəlmanlarla, Allahı zikr etməkdən qaçan, lakin boş və məqsədsiz sözlərlə heyrətamiz dərəcədə canlanan insanların fərqini görmüş olarlar. Beləliklə aralarındakı səmimiyyətsiz və münafiq ruhlu insanları tanıya bilər və kimlərə qarşı diqqətli davranmalarının lazım olduğunu görərək tədbir ala bilərlər.

## Münafiq, əxlaqını gözəlləşdirməyə əhəmiyyət verməz, lakin “xarici görünüşü” və “bəyənilmək” onun üçün vacib əhəmiyyət daşıyar

Allah bir Quran ayəsində münafiqlər üçün; “**Sən onlara baxdıqda bədən quruluşları xoşuna gəlir**” deyə bildirmişdir:

**Sən onlara baxdıqda bədən quruluşları xoşuna gəlir, danışanda onların dediklərinə qulaq asırsan. Halbuki, onlar divara söykədilmiş dirəklər kimidirlər...“ (Münafiqun surəsi, 4)**

Ayədə işlənən “**cüssəli formaları**” ifadəsi ilə, cahil cəmiyyətlərdə əhəmiyyət verilən “**zənginlik, göstəriş, baxım, müasirlik və ya keyfiyyət**” kimi “**təkcə xarici görünüşə aid**” meyarlara diqqət çəkilmişdir. Həqiqətən də münafiq üçün “**xarici görünüş və bəyənilmək**” çox mühüm iki mövzudur. Axirətə inanmayan və Allahın rizasını axtarmayan münafiq üçün, sahib olduğu ən qiymətli xəzinə “vücudu” və onu ən təsirli şəkildə istifadə edə

bilmək üçün ehtiyacı olan "**beyni**"dir. Lakin məlum olduğu kimi ağıl, Allahın yalnız səmimi iman gətirən qullarına lütf etdiyi nemətdir. Quranda bu həqiqət belə xəbər verilmişdir:

**Ey iman gətirənlər, Allahdan qorxsanız, O sizə doğrunu səhvdən ayıran bir nur və anlayış (furqan) verər, günahlarınızın üstünü örtüb sizi bağışlayar. Allah böyük lütf sahibidir. (Ənfal surəsi, 29)**

Rəbbimiz, təkcə Allahdan hörmət və dərin sevgi ilə qorxub çəkindiyin zaman, qullarına Öz tərəfindən "**doğru ilə səhvi**", "**yaxşı ilə pisi**" bir-birindən ayırd edə biləcək "**ağıl və anlayış**" verir. Dolayısilə **Allah qorxusu çox zəif olan münafiq xarakterli insanlarda, bu mühüm müsəlman xüsusiyyəti yoxdur. Ağılları heyrətamiz dərəcədə zəifdir. Lakin Allahın onlar üçün bir tələsi olaraq, onlar bu vəziyyətdən xəbərsizdirlər**. Əksinə özlərini, ətrafındakı bütün insanlardan daha ağıllı zənn edərlər. Halbuki onların özlərində gördükləri və ağıl zənn etdikləri şey, təkcə "**zəka**"dır.

Məhz münafiq əlindəki bu adi zəkası və vücudundan istifadə edərək, dünya həyatından mümkün ola biləcək ən çox mənfəəti əldə edə bilməyə çalışar. Allaha, Onun sonsuz ağlına və gücünə inancı olmadığı üçün, bütün bunlara Allahdan müstəqil təkbaşına sahib olacağını zənn edər. Buna görə də yeganə sahib olduğu şey olan vücudunu çox qiymətli hesab edər. Vücudunu, Allahın yaratdığı gözəl nemət və lütf olduğu və ya ondan Allah yolunda ən yaxşı şəkildə istifadə edə bilmək, sağlam olmaq üçün deyil; müstəqil şəkildə sahib olduğunu zənn etdiyi bir nemət olaraq gördüyü üçün əhəmiyyət verər. **Vücuduna nə qədər yaxşı baxa bilər, onu nə qədər yaxşı bəzəyə bilərsə, özünü nə qədər gözəl, nə qədər fərqli və mühüm insan kimi təqdim edə bilərsə, qarşısındakı insanlara bir o qədər dərindən təsir edə biləcəyini düşünər**. Bu yolla küfr əhlinin gözünə girə biləcək, rəğbətlərini qazana biləcək, nüfuz sahibi ola biləcək və bütün bunların nəticəsində də hərisliklə arzuladığı dünyəvi mövqelərə gələ biləcək. Bu səbəbdəndir ki, Allah ayədə; "**Sən onları gördüyün zaman cüssəli formaları xoşuna gələr**" deyə bildirmişdir.

**Allah qorxusu olmayan, axirətə inanmayan münafiqə görə, əxlaqını gözəlləşdirməyə çalışması isə heç bir işə yaramayacaq və əhəmiyyəti olmayan mövzudur**. Münafiq onsuz da "**gözəl əxlaqı**" bəyənən varlıq deyil. İstədiyi yalnız, şeytanın əxlaqına sahib ola bilmək, küfr əhlində və müsəlmanlar arasında istədiyi kimi hiyləgər oyunları oynaya biləcək küfri taktikaları və üsulları bilmək və bunları tətbiq edə biləcəyi şeytani zəkaya sahib ola bilməkdir. Məhz bu səbəblə də əxlaq mövzusu ilə qətiyyən maraqlanmaz. **Lakin vücuduna dəlisov hərisliklə bağlıdır. Bədənini gənc, gümrah, sağlam və güclü saxlaya bilmək, münafiqin həyatdakı ən mühüm hədəflərindən və ən diqqət göstərdiyi məsələlərdən biridir**.

**Əlbəttə ki, bir müsəlman da bədənini ən güclü, ən sağlam və ən gözəl görünəcək şəkildə qorumaq üçün lazım gələni edər. Müasir, keyfiyyətli, baxımlı və gözəl olmaq müsəlmanların da əhəmiyyət verdikləri gözəlliklərdir. Lakin münafiqin bu istiqamətdəki rəftarı, dəlisov hərislik şəklindədir.** Həmçinin məqsədi vücudundan Allah yolunda, Allahın razı olacağı xeyirli həyat üçün istifadə etmək deyil. **Axirətə inamsızlığından, dünya həyatına olan şiddətli bağlılığından və bu dünyada əbədiyyən yaşamaq istəməsindən ötrü vücudunu əhəmiyyətli hesab edər.** Ölümün, xəstəliklərin, qocalığın da bu dünya həyatının hissəsi olduğunu unuda bilmək üçün, vücudunu həmişə gəncləşdirə bilməyə və daha göstərişli hala gətirə bilməyə çalışar.

**Ağıl, iman, gözəl əxlaq olmadan, vicdandan istifadə edilmədən, içi boş vücudun heç bir gözəlliyi olmayacağını isə anlaya bilməz.** Bütün gücünü və enerjisini yalnız xarici görünüşünü mükəmməlləşdirib vücudunu qorumağa verər. Halbuki bir gün hər kəs kimi münafiq də öləcək və bədəni çox qısa günlər ərzində çürüyüb torpaq olacaq. Geriyə yalnız Allaha qarşı olan rəftarı, imanı və bu dünyada etdikləri qalacaq. Lakin ağlı qapanmış olan münafiq bütün bu həqiqətlərdən xəbərsizdir. Buna görə də qavrayıb anlaya bilməz.

## Münafiq, İncildə "kənardan gözəl görünən, içi ölü, murdarlıqla dolu ağardılmış məzarlara" bənzədilmişdir

İncildəki bir sözdə münafiqlər; "**xaricdən gözəl görünən, içi ölü, murdarlıqla dolu ağardılmış məzarlara**" bənzədilmişdir:

*"Siz kənardan gözəl görünən, lakin içi ölü sümükləri və hər cür pisliklə dolu ağardılmış məzarlara bənzəyirsiniz. Kənardan insanlara dürüst görünərsiniz, lakin daxilən ikiüzlülük və murdarlıqla dolusunuz". (Matta, 23:27-28)*

Kənardan baxıldığı zaman münafiq həqiqətən gözəl və göstərişli görünə bilər. Saçlarını ən baxımlı, ən müasir, ən diqqətçəkən hala gətirər. **Qadın isə ən göstərişli makiyajı edib, kişi isə idman zalında məşq edib, ən keyfiyyətli markaların paltarlarını geyib, öz aləmində ən göstərişli şəkildə danışıb özlərini ətrafındakı insanlara bəyəndirməyə çalışa bilərlər**. Həmçinin bəlkə də bu, insanları Qurani meyarlarla dəyərləndirməyən kəslər üçün, həqiqətən də diqqətçəkən xüsusiyyət ola bilər. Lakin İncildə ifadə edildiyi kimi, "**kənardan ehtişamlı görünən bu insanların içləri ölüdür**". **Qəlbləri, sümükləri ölüdür. Kənardan göstərişli əhəng edilmiş kimi bəzənmiş amma içləri pislik ilə dolu bir məzar kimidirlər. Kənardan insanlara yaxşı və dürüst kimi görünərlər, lakin içlərində ikiüzlülük və pisliklə doludurlar.** Dolayısilə ilk baxışda zahirə əhəmiyyət verən bəzi insanların rəğbətini qazandıran bu ehtişamlı vücud tamamilə aldadıcıdır. Allah

münafiqi; “**kənardan ehtişamlı görünən, lakin içi boş olan kötüyə”** bənzətmişdir (Münafiqun surəsi, 4).

**Münafiq diqqətlə bəzəyib qoruduğu vücudu ilə göz boyayaraq, içindəki boşluğu, şeytanlığı, pisliyi və hiyləgərliyi gizlədə biləcəyini zənn edər**. Lakin sonsuz ədalət sahibi olan Allah buna icazə verməz. Münafiq Allahın rizasını tərk edib, dünyaya, mənfəətlərinə, vücuduna, rahatlığına əhəmiyyət verdikcə, Allah bütün bunları onun üçün əzaba döndərər.

## Münafiq özünə çox düşkündür; saxtakarca oyunlarla həmişə özünə qulluq edilməsini təmin etmək və vücudunu əldən düşməkdən qorumaq istəyər

Əvvəlki hissələrdə bəhs edildiyi kimi, **sahib olduğu vücudu, münafiqin dünya həyatındakı ən qiymətli varlığıdır**. Dolayısilə də ona gələcək, çox kiçik zərər belə münafiq üçün çox əhəmiyyətlidir. **Öz aləmində onu nə qədər sağlam, gümrah, gənc və gözəl saxlaya bilsə, mənfəətlərini o qədər yaxşı qoruya biləcək. Buna görə də yaşlanmaqdan, xəstələnməkdən çox ciddi şəkildə qorxar.**

**Dərilərində çox kiçik pozulma, saçlarında ən kiçik qüsur, yeməklərində ən kiçik çatışmazlıq və yuxularında cüzi ləngimə olmağını istəməzlər**. Səhərdən-axşama qədər internetdən, kitablardan “**nə yesələr, nə içsələr, daha uzun və daha sağlam yaşaya bilərlər**?” “**nə etsələr dərilərinin qırışmasının qarşısını ala bilərlər**?” kimi sualların cavablarını araşdırıb öyrənməyə çalışarlar. Bütün insanlarda rast gəlinə bilən, **adi və sadə ağrıları və ya sıxıntıları olsa, dərhal ən yaxşı həkimlərə getmək istəyərlər**. Həmişə vücudlarını dinləyər və ən sağlam anlarında belə özlərində maraqlanılması lazım olan sağlamlıq problemi taparlar. Adi təfərrüatı heyrətamiz dərəcədə böyüdər və ortalığa vəlvələ salarlar. Bütün etdiklərini təsirli edəcək, sağlamlığı, güc və qüvvəti verəcək olan tək qüvvənin Rəbbimiz olduğunu düşünməzlər. Buna görə də özlərinə nə qədər diqqət göstərə bilsələr, **o qədər sağlam, gümrah qalacaqlarını və o qədər də uzun yaşaya biləcəklərini zənn edərlər.**

Bütün bu rəftar pozuntuları, münafiqlərin dünyaya olan bağlılıqlarını, imanlarının və təvəkkülərinin zəifliyini, içdən bazarlıqlı, mənfəətpərəst və eqoist xarakterlərini açıqca göstərir. Lakin, əlbəttə ki, hər mövzuda olduğu kimi, bu mövzuda da münafiqlər bütün bu ifadə və rəftarları, bir planın kiçik hissəsi kimi tətbiq edərlər. Münafiqlər, müsəlmanların nə qədər vicdanlı, nəzakətli və incə düşüncəli insanlar olduğunu çox yaxşı bilərlər. **Xəstə, yorğun və ya gücsüz olduqlarını dedikləri zaman, köməyə ehtiyacları olduğunu dilə gətirdikləri vaxt, müsəlmanların vicdani məsuliyyət olaraq buna biganə qalmayacaqlarını dərk edirlər. Yaxud adi narahatlıqlarını, sanki ölümcül xəstəliyin**

**əlamətiymiş kimi gündəmə gətirdikləri zaman, qarşılarındakı insanların bunun əksini iddia etməyəcəklərini dərk edirlər.**

Məhz bu vəziyyətdən istifadə edərək, "**maddi-mənəvi hər cəhətdən özlərinə ən qabardılmış şəkildə qulluq etdirməyə**" və eyni zamanda da bu yolla, "**müsəlmanların həm maddi imkanlarını, həm də vaxtlarını və enerjilərini yox etməyə**" çalışarlar. Həmçinin digər məqsədləri də, "**müsəlmanlar arasında özlərini mümkün qədər yormamaq, istədikləri kimi dincələ bilmək və öz hiyləgər fəaliyyətlərinə istədikləri kimi vaxt ayıra bilmək**"dir. Bu istiqamətdə müxtəlif oyanıqlıqları, yalan və səmimiyyətsizlikləri ilə, heç bir işə qarışmayıb hər istədiklərinin edilməsini və onlara ən yaxşı şəkildə baxılmasını təmin etməyə çalışarlar. Şikayətlərinin və bəhanələrinin sübut edilə bilməz mahiyyətdə olmasından istifadə edərək, həmişə onlardan maddi-mənəvi bir şeylər istəyərlər.

İncildə qeyd olunan bir hissədə münafiqlərin bu səmimiyyətsiz və şeytani əxlaqı belə xəbər verilmişdir:

*Bundan sonra İsa xalqa və tələbələrinə belə səsləndi: "...Sizə söylədiklərinin hamısını edin və yerinə yetirin, lakin onların etdiklərini etməyin. Çünki söylədikləri şeyləri özləri etməzlər.* ***Ağır və çətin daşınan yükləri bağlayıb başqalarının kürəyinə yükləyərlər, özləri isə bu yükləri daşımaq üçün barmaqlarını belə oynatmaq istəməzlər. Etdiklərinin hamısını göstəriş üçün edərlər...*** *" (Matta, 23:1-5)*

Bu açıqlamalardan da aydın olduğu kimi, "**ağır və çətin daşınan yükləri bağlayıb başqalarının kürəyinə yükləmək**" münafiqlərin mühüm xüsusiyyətidir. İncildəki bu münafiq təsviri, münafiqlərin nə qədər alçaq və əxlaqsız olduqlarını çox açıq şəkildə izah edir.

Münafiqlər "**çox alçaq, mənfəətpərəst və fürsət axtaran**" insanlardır. Üzlərində ən kiçik utanma, sıxılma əlaməti belə meydana gəlmədən, müsəlmanlara hər cür işlərini gördürməyə çalışarlar. Özləri bu yükləri daşımaq üçün barmaqlarını belə oynatmadıqları halda, ən ağır və çətin daşınan yükləri müsəlmanların kürəyinə yükləmək istəyərlər. Məsələn, bir şey daşınacaqsa, "**bunu gətirə bilərsənmi**?" deyərlər. Heç bir bəhanələri olmadığı halda "**sırf özlərini yormamaq, rahat olmaq üçün", öz işlərini başqasına gördürmək istəyərlər. Bu qədər kiçik alçaqlığı, çox kiçik əxlaqsızlığı belə öz saxtakar düşüncələrinə görə qazanc hesab edərlər. "Niyə sən gətirmirsən**?" deyə soruşulsa, o zaman da "**bir narahatlığım olduğuna görə**" və ya "**ayaq biləyim ağrıdığına görə**" kimi yalanlar uydurarlar.

**Halbuki çox aydındır ki, eyni insan, küfr əhlindən əhəmiyyət və dəyər verdiyi insanlar nə isə tələb etsələr, nə ayaq biləyinin ağrısından bəhs edər, nə də başqa xəstəliyindən.** Hətta onlar özündən heç nə tələb etməsə belə, münafiqin qarşısına bu insanların gözünə girə biləcəyi hər hansı fürsət çıxsa, səbəbsiz yerə və heç bir əvəz də istəmədən, heyrətamiz enerji ilə bu insanların hər işinə qaçıb kömək edər. Hətta lazım gəldikdə, özünü ifrat dərəcədə yorar və buna görə heç bir şikayət belə etməz.

**Məhz küfr əhlinə və müsəlmanlara qarşı göstərdiyi bu bir-birinə tamamilə zidd iki əxlaq, münafiqin kiçik xülasəsidir**. Müsəlmanlardan söhbət getdikdə vücud cəhətdən passivləşib heç bir gücü, enerjisi olmayan, İslama xidmət etmək lazım gəldikdə min bir cür bəhanə ilə qaçıb geridə dayanan və müsəlmanların maddi-mənəvi imkanlarından istifadə edərək həyatının sonuna qədər özünə qulluq etdirməyi hədəfləyən münafiq; küfr əhlinə yaltaqlanmaqdan söhbət getdikdə, bitməz-tükənməz güc və enerji tapar.

Lakin burada "**mühüm sirr**" var: Münafiq özünün çox "**oyanıq və bütün bu oyunlarıyla da heyrətamiz dərəcədə qazanc sahibi olduğunu**" zənn edər. **Halbuki o hiss etmədən bəla onu içdən və çöldən, dünyada və axirətdə sürətlə bürüyər.** O saxtakarlıq, hiyləgərlik, səmimiyyətsizlik etdikcə, Allah gizlin-gizlin onun qəlbini, ruhunu, dünyasını qaraldar. O alçaqlıq, əxlaqsızlıq, münafiqlik etdikcə, Allah onun dünyasını dərdlərlə, bəlalarla, əzablarla, sıxıntılarla doldurar.

## Yaşlanmaq və ölümün yaxınlaşması, münafiqin dəhşət verici qorxuya qapılmasına səbəb olar

Bura qədər bəhs edilən, münafiqin özünü və vücudunu çox qiymətli görmə fəlsəfəsinin digər hissəsi də, "**münafiqin yaşlanmaqdan və ölməkdən duyduğu dəhşətli qorxu**"dur. Dünya həyatının daimi olmadığı; həyatın sürətlə tükəndiyi və insanların sürətlə yaşlanaraq ölümə yaxınlaşdıqları, dünyadakı iman gətirən və ya gətirməyən hər insanın çox yaxşı bildiyi həqiqətdir. İnsanlar dünyaya nə qədər möhkəm bağlansalar da, çox qısa müddət sonra hər kəs dünyanı tərk etmək məcburiyyətindədir.

Bu, açıq-aydın həqiqət, müsəlmanların Allaha olan sevgilərini, hörmət dolu qorxularını və gözəl əxlaqlarını artırdığı halda, iman gətirməyən və ya münafiq ruhlu insanların dünyasında "**böyük kabus**" meydana gətirər. Axirətə iman gətirmədikləri üçün, **onlara görə ölüm, nə olacağını bilmədikləri qorxu dolu naməlumluqdur**. Ölümdən sonra dünyada etdiklərindən ötrü haqq-hesaba çəkiləcəklərinə və ardınca da əbədi həyata davam edəcəklərinə inanmazlar. Məhz buna görə də **ölümə heç vaxt yaxınlaşmaq istəməz və ölümü xatırladan heç bir məsələ ilə həmsöhbət olmamağa çalışarlar**.

**Yaşlarının irəliləməsi ilə birlikdə vücudlarında getdikcə ortaya çıxmağa başlayan yaşlılıq əlamətləri, onları sanki dəliyə döndərər**. Heyrətamiz təşvişlə "**bunlardan xilas olmağın və bu yaşlanmağı dayandırıb, gəncləşə bilməyin yollarını**" axtararlar. Həmişə gənc qala bilməyin formullarını araşdırar, bildikləri hər yolu tətbiq etməyə çalışarlar. Həkimləri gəzib, texnologiyanın təqdim etdiyi son inkişafları təqib edərək, səbirlə bu üsulların hər birini sınamağa başlayarlar.

Münafiqlərin bu dəhşətli qorxularından bir Quran ayəsində, "**məhz qəlblərində xəstəlik olanları: "Zamanın, fəlakətləriylə əleyhimizə dönüb bizə toqquşmasından**

**qorxuruq "deyərək aralarında səylər icra etdiklərini görərsən ...**" (Maidə surəsi, 52) sözləri ilə bəhs edilmişdir.

Ayədəki "**zamanın fəlakətləriylə əleyhimizə dönüb bizə toqquşmasından qorxuruq**" ifadəsi ilə, münafiqlərin "**başlarına bəla, xəstəlik, yaşlılıq və ya ölüm gəlməsindən duyduqları amansız qorxu**"ya işarə edilmişdir. Bəhs olunan "**fəlakət**" bəzən "**müalicə edilə bilməyən bir xərçəng xəstəliyi, bəzən də başqa amansız xəstəlik və ya çarəsi olmayan başqa problem**" ola bilər.

Ayədəki "**əleyhimizə dönüb bizə çarpması**" ifadəsi də münafiqlərin bu ruh halını anlamaq baxımından çox əhəmiyyətlidir. Çünki zamanın onların əleyhinə işləyərək dönüb dolaşıb "**başqalarına deyil**", təkcə "**onlara**" tuş gələn bir fəlakətə çevrilməsindən söhbət gedir. Həmçinin münafiq də bundan ötrü böyük qorxu yaşayır.

**Məhz münafiq yaratdığı bütün bu fəlakət ehtimallarından ötrü içində dəhşət dolu duyğular yaşayar**. Həyatı boyu bir tərəfdən şeytanın ilham etdiyi alçaqlıqları və əxlaqsızlıqları tətbiq edərkən, ağlının digər yarısı da bu fəlakətlərdən duyduğu qorxu ilə mübarizə aparmağa çalışmaqla məşğuldur.

Lakin Allahın çox açıq olan qanununun tələbi olaraq, **bir münafiqin şeytanla əməkdaşlıq edərkən xoşbəxt ola bilməsi, qorxularına qalib gələ bilməsi, hüzur tapa bilməsi, əlbəttə, qeyri-mümkündür**. Yaşadıqları bu qorxu, Allahın, münafiqlər üçün dünyada yaratdığı mənəvi cəhənnəmin bir parçasıdır. Həmçinin səmimi imana yönəlmədikləri müddətcə də qəlbləri heç vaxt hüzur tapmayacaq.

**Yaşlılıq da, ölüm də Allahın dünya həyatında yaratdığı qanunudur. Bu günə qədər heç kim həyatının sonuna qədər gənc qala bilməmiş, heç kim yaşlanmasına mane ola bilməmişdir. Eynilə dünyada tarix boyu yaşamış heç bir insan ölümünü gecikdirə bilməmişdir**. Ölüm, hər insana mütləq bir gün üz verəcək və münafiq də Allahın təqdir etdiyi əcəl zamanı gəldiyi vaxt, bu həqiqətə müqavimət göstərə bilməyəcək.

Münafiqin həyatı boyu bu istiqamətdə apardığı hər mübarizə, bu mövzudakı çarəsizliyini və qorxusunu daha da artıracaq, lakin onu nə xəstələnməkdən, nə yaşlanmaqdan, nə də ölməkdən qoruya biləcək.

## Münafiq, müsəlmanların maddi imkanlarından nə qədər çox istifadə edə bilsə, bir o qədər böyük qazanc əldə etdiyini zənn edər

**Münafiqin həyatında, müsəlmanlarınkı kimi dəyərli və yüksək ideallar yoxdur. Yaşama məqsədi, təkcə "özü"dür. Təkcə həyatda qala bilmək və bu həyatdan ən çox mənfəəti əldə edə bilmək arxasındadır. Yaxşı yaşaya bilməsi, yaxşı yemək yeyə bilməsi, yaxşı yata bilməsi, ən yaxşı paltarları geyə bilməsi kimi, hər mövzuda ən yaxşı imkanları**

əldə edə bilməsi onun üçün ən vacib məsələdir. “Dünya həyatında nüfuz, mal, mülk, pul, məqam və mövqe sahibi ola bilmək, ən yaxşı yerlərə gəlib öz aləmində həyatın imkanlarından ən yaxşı payı qoparda bilmək” münafiqin həyat fəlsəfəsinin qısa xülasəsidir. Lakin, əlbəttə ki, əsil zehniyyəti, bütün bunları əldə edərkən, hər cür saxtakarlıqla, hiyləgərliklə, oyanıqlıqlarla bunları heç əziyyət çəkmədən, öz deyimi ilə tamamilə “pulsuz” edə bilməkdir.

Məhz bu saxtakarlıq üzərində qurulmuş fəlsəfəsini həyata keçirə bilmək, müsəlman cəmiyyəti, münafiq üçün çox əhəmiyyətli və mühüm imkanlara malikdir. Çünki hər şeydən əvvəl müsəlmanlar vicdanlıdır. Gözəl əxlaqlı, ağıllı, diqqətli, bacarıqlı, qabiliyyətli, çalışqan və dürüst insanlardır. Bu qədər mühüm və əhəmiyyətli xüsusiyyəti, münafiqin başqa yerdə birlikdə tapa bilməsi qeyri-mümkündür. Üstəlik də bütün bu xüsusiyyətlərin toplu şəkildə birləşməsi ilə, münafiqin hərisliklə arzuladığı məqam, mövqe, mal-mülk, etibar, ətraf əldə etmək kimi imkanlara daha da sürətli və asan yolla nail ola biləcəyi aydındır. Dolayısilə münafiq müsəlmanlarla bir yerdə olma planlarını bu fəlsəfə üzərində qurar. Yoxsa səmimi iman gətirməyən, Allahın rizasını qazanmaq üçün zəhmət çəkmək istəməyən münafiqin, bütün həyatlarını, mallarını canlarını Allah yolunda sərf etməyə həsr etmiş müsəlmanlarla olmağı seçməsindən söhbət gedə bilməz. Nə zehnini, nə də vücudunu, öz mənfəətinə uyğun olmayan, maddi və konkret qarşılıqlar almayacağını düşündüyü heç bir şey üçün yormaq istəməyən münafiq, heç vaxt səmimi müsəlman kimi səy göstərməyi qəbul etməyəcək.

Məhz münafiq bu planları istiqamətində müsəlmanlar arasında yer sahibi olduqdan sonra, onların maddi-mənəvi imkanlarından ən yaxşı şəkildə faydalanmağa çalışar. Bunun üçünsə əlindən gəldiyi qədər “təqvalı bir müsəlman təqlidi” etməyə çalışar. Quranda münafiqlərin, saxtakarca planları istiqamətində səmimi müsəlman kimi görünə bilmək üçün “göstəriş etdikləri” belə xəbər verilmişdir:

Vay halına namaz qılanların -o şəxslərin ki, onlar namazlarında səhlənkardırlar. Onlar riyakardırlar. (Maun surəsi, 4-6)

Münafiqlər göstəriş üçün etdikləri ibadətlərlə özlərini inanclı kəslər kimi göstərməyə çalışar və sonra da bu yolla müsəlmanların imkanlarından istifadə etməyə başlayarlar. Həmçinin münafiqlər, müsəlmanların, “**Mən iman gətirmişəm, Allahı, müsəlmanları çox sevirəm, İslama xidmət etmək istəyirəm**” deyən bir insanın sözlərinə hüsnü-zənlə baxacaqlarını və özünə heç vaxt; “**xeyr, sən müsəlman deyilsən, sənin sözünə inanmırıq**” kimi bir söz deməyəcəklərini çox yaxşı bilirlər. Məhz bu həqiqətdən xəbərdar olduqları üçün, müsəlmanların bu hüsnü-zənn dolu baxış prizmalarından mənfəətləri üçün ən yaxşı şəkildə istifadə etməyə çalışarlar.

**Müsəlmanların güclü, zəngin olmaları, rifah, hüzur, bolluq və nemət içində yaşamaları və bunlardan kifayət qədər istifadə edə bilmədiyini düşünməsi, münafiqi çox qəzəbləndirər. Müsəlmanlar zənginləşdikcə, onun da bu imkanlardan faydalana bilmək üçün içində duyduğu hərislik artar.** Hər fürsətdə, müxtəlif bəhanələrlə, yavaş-yavaş istəklərini sadalamağa başlayar. Demək olar ki, hər gün, müsəlmanların imkanlarından istifadə edə bilmək üçün yeni bir mövzu tapar. Bu münafiq üçün sanki "**şeytani əyləncə mövzusu**"dur. Səhər oyandığı andan etibarən, o gün "**maddi-mənəvi nə cür tələblər edərək, müsəlmanlar üçün nə cür problemlər yarada bilərəm, maddi imkanlarını necə yox edə bilərəm**?" deyə düşünər. Bir gün adi bir səbəblə **həkimə**, başqa gün saçlarının baxıma ehtiyacı olduğu səbəbi ilə **bərbərə**, digər gün də ehtiyacları olduğu yalanı ilə **alış-verişə** getmək istəyər. Bəzən **sağlamlığını bəhanə edərək özünə xidmət etdirmək; xüsusi və zəhmət tələb edən yeməklər bişirtmək, əşyalarını yudurdub şkaflarını səliqə-sahmana saldırmaq, oturduğu yerə ayağına qədər hər istədiyini gətirdib apartdırmaq istəyər.** Bəzən **yaşadığı yerin sağlamlığına mənfi təsir etdiyini söyləyərək, özü üçün daha komfortlu, daha ehtişamlı, daha xüsusi imkanlar təqdim edilməsini tələb edər.**

Bəzən də, ətrafındakı müsəlmanlarda müxtəlif bəhanələr taparaq, onların özünə zərər verdiklərini iddia edər və müsəlmanları narahat etməyə çalışar. "**Filan şəxsin yeriyərkən çıxartdığı ayaq səsi miqrenimi başladır**", "**filan şəxsin ətiri allergiyamı artırır**", "**başqa insanın televizorun səsini artırması çalışmağıma mane olur**" kimi, əslində heç bir həqiqət payı olmayan yalanlarla narahatlıq yaratmağa çalışar. Bu bəhanələrin ardınca, həm əlaqədar şəxslərin fəaliyyətlərinə əngəl törədərək onlara narahatlıq vermək, həm də "**bu yolla guya üzərində yaranan narahatlığın aradan qaldırılmasını təmin edəcək yeni imkanlar əldə edə bilməyi**" ümid edər. Bir gün "**bir əşyasının sındığını, yenisinə ehtiyacı olduğunu, sonrakı gün guya heç paltarının olmadığını, başqa gün sağlamlığı üçün yeməsi lazım olan xüsusi vəsaitlərin alınmasının, digər gün isə makiyaj vəsaitlərinin yenilənməsinin lazım olduğunu**" söyləyər.

Bütün bunlar tam istədiyi şəkildə, ən keyfiyyətlisi ilə, ən diqqətli şəkildə özünə təqdim edildikdə isə, münafiq yenə "**çirkin və nankor əxlaq**" nümayiş etdirər. **Mütləq hər təfərrüatda ciddi şəkildə problem çıxardar. Ya alınanları bəyənməz, ya səhv alındığını iddia edər, ya da sifariş etdiyini tamamilə eynisi özünə alınmış olsa belə, "ondan istəmədiyini əslində başqa şey istəmiş olduğunu" iddia edər.**

Göstərdiyi bu səmimiyyətsiz, şükür etməyi, xoşbəxt olmağı bilməyən, nalayiq və nankor əxlaqa baxmayaraq, müsəlmanlar bütün istədiklərini təkrar-təkrar yerinə yetirsələr də, münafiqdən yenə də rahatlama və sakitləşmə olmaz. Müsəlmanların xüsusi zəhmət çəkərək, vaxt ayıraraq, Allah rizası üçün yorularaq ona çatdırdıqları nemətlərin dəyərini heç bilməz. Üstəlik, **diqqətsiz şəkildə istifadə etdiyi bütün bu nemətləri, bir neçə gün və ya bir neçə həftə sonra ya "ehtiyacı olmadığını" söyləyərək bir kənara atar, ya da bir yerdə unudar gedər. Bir müddət sonra da, yenə başqa bəhanələr irəli sürərək bunların yenilərinin alınmasını istəyər.**

Məqsədi **"müsəlmanları yormaq, narahat etmək, onunla məşğul edərək daha faydalı işlərə sərf edəcəkləri enerjilərini və vaxtlarını"** oğurlamaqdır. Onları mümkün qədər **"xərcə salaraq maddi imkanlarını yox etməyə çalışmaq"dır.** Bunu nə qədər çox etsə, müsəlmanları maddi-mənəvi nə qədər yorsa, o qədər qazanclı çıxacağını zənn edər. **Müsəlmanların səmimi vicdanlarından ötrü rədd etməyəcəkləri mühüm və insani bəhanələrdən istifadə edərək bu oyununu davam etdirər.**

**Münafiq öz aləmində çox şeytani və hiyləgər əyləncə üsulu tapdığına inanar. Həmçinin bunun da tamamilə öz lehində bir vəziyyət olduğunu zənn edər. Halbuki etdiyi hər hiyləgər oyun, hər şeytani hərəkət münafiqin əleyhinə möminin isə lehinə olar.** Müsəlmanlara nə qədər çox ayaq bağı olsa, onlara nə qədər çox iş çıxartsa, onları nə qədər çox xərcə salsa, münafiqin dünyada üstünə çökəcək bəlanın misli də bir o qədər artar. **Müsəlmanlara nə qədər çox çətinlik çıxartsa, cəhənnəmi də o qədər genişlənər, çəkəcəyi əzabın şiddəti də o qədər artar.** Münafiqə qarşı apardıqları vicdani və ağıllı mübarizədən ötrü, **müsəlmanların dünyada qarşılaşacaqları nemətlər də, cənnətdəki məqamları da həmişə genişlənər.** Məhz bu da münafiqin bilmədiyi çox mühüm sirrdir.

## Münafiq qanuni həyatı xoşlamaz, qeyri-qanuni, hiyləgər və gizli işlər gördükdə rahat edər

Müsəlmanlar nə qədər dürüst, nə qədər təmiz həyat yaşamaq istəyirlərsə, münafiq də tam əksinə, bir o qədər "**hiyləgər, intriqalarla dolu, saxtakarlıq və ikiüzlülük üzərində qurulmuş**" həyatdan xoşlanar. Hər şeyin "**şəffaf və açıq olduğu, dürüstlük üzərində qurulan həyat tərzi**" onları çox sıxar. Münafiqlər bunu adi hal hesab edərlər. **Ruhları həmişə şeytanlıq, hiyləgərlik, gizlilik axtarar. Dostlarının da özləri kimi olmasını istəyərlər. Həyatlarında oyuna, saxtakarlığa, incə taktikalara, hiyləgər tələlərə yer olmayan insanlar, onlara darıxdırıcı və sabit gələr.**

Məhz bu baxış prizması ilə yaşayan münafiq, müsəlmanlar arasında da eyni axtarışlarını davam etdirər. Müsəlmanların həyat tərzi və əxlaq anlayışları ona çox tərs olduğu üçün, onların yanında qətiyyən hüzur tapmaz. Həmişə sıxıntı və narahatlıq içindədir. **Nə vaxt ki, onların arxasınca bir iş görsə, hiyləgərcə oyunlar oynasa və saxtakarca planlar qura bilsə, təkcə bu vaxt bir az rahatlayar və xoşbəxt ola bilər.**

Qanuni bir şey münafiqi heç vaxt xoşbəxt etməz. Həyatının hər anında demək olar ki, hər mövzuda mütləq gizli işlər görmək, hiyləgərcə əlaqələr yaratmaq, müsəlmanlardan gizlin bir şeylər etmək istəyər. Bu ona axtardığı həyəcan və şeytani xoşbəxtliyi az da olsa verər. Məsələn, müsəlmanlar hamısı birlikdə oturarkən, onun "**gizlincə yan otağa keçib müsəlmanlar əleyhinə əməkdaşlıq etdiyi dostlarından biri ilə gizli telefon görüşməsi etməsi**" onu çox həyəcanlandırar. Müsəlmanlara zərər vermək məqsədli bir danışığı onların tam yaxınlığında və onlardan gizlin edə bilmək münafiqə "**şeytani bir hərəkət etmə həzzi**" verər.

Yaxud kompyuterində bir internet saytından bir qəzetin səhifəsini açmış kimi edərkən, eyni anda gizlincə "**küfr əhlindən olan dostlarından biri ilə yazışa bilmək, öz aləmində münafiqin günün ən zövqlü anlarından birini yaşamasına**" səbəb olar. Aldığı bu şeytani həzzin səbəbi, bunu da yenə hiyləgər üsullarla, gizlincə, qarşısındakı insanları aldadaraq, onlara hiss etdirmədən etdiyini zənn etməsidir. Məhz gün boyu bu cür onlarla hərəkət etmədiyi təqdirdə münafiq heç cür rahat ola bilməz. Nə qədər çox gizlin iş görsə, o qədər şeytani həzz alar.

Lakin qeyri-qanuni həyat tərzi, münafiq üçün elə şeytani hal almışdır ki, həyata dair ən adi mövzularda belə münafiq bir şeyi qanuni olaraq əldə etmək istəməz. Mütləq onu şeytani üsulla, qeyri-qanuni hərəkətlərlə ələ keçirməyə çalışar. Məsələn, bir paltarı, hər kəs kimi gedib bir mağazadan satın almaq onu məmnun etməz. Bunu daha saxtakarca üsulla ələ keçirməyi bacara bilsə, təkcə bu vaxt bundan zövq ala bilər. Məsələn, bir müsəlmandan bir paltarını borc alar, sonra müxtəlif bəhanələrlə bunu ona geri verməməyin bir yolunu tapar. Zaman içərisində ona o paltarın varlığını unutdura biləcəyini düşünər. Bu cür saxtakar üsullarla mənfəət əldə edə bilmək, münafiqi sevindirər. Məsələn, istədiyi bir ayaqqabını əldə edə bilmək üçün müsəlmanların yanına gedib; "**ayaqlarımda narahatlıq var, ayaqqabılarım ayağıma çox dar gəlir. Lakin yenisini almağa imkanım yoxdur**" kimi bir yalan söyləyər. Halbuki ayaqları narahat deyildir, həmçinin yeni ayaqqabıya da ehtiyacı yoxdur. Lakin müsəlmanların nə qədər vicdanlı insanlar olduğunu çox yaxşı bilir. Belə saxtakarlıq etdiyi vaxt, oyun olduğundan şübhələnsələr belə, üzərlərində vicdani məsuliyyət hiss edəcəkləri üçün, ona mütləq istədiyi kimi bir ayaqqabının alınacağını başdan hesaba qatmışdır. Necə ki, istədiyi nəticəni əldə etdikdə isə, "**niyə zəhmət çəkdiniz, heç gərək yox idi, mən sizdən almağınızı istəməmişdim ki**," kimi bir sözlə, oyununu tamamlayar.

Məhz bu kiçik oyun belə münafiq üçün sanki "**şeytani qida**" kimidir. **Allaha və müsəlmanlara qarşı dürüst olmamaq, onlara yalan söyləmiş olmaq münafiqi çox həyəcanlandırar.** Zəif ağlı ilə öz aləmində müsəlmanları aldada bildiyini və hiyləgər oyunlarla yönləndirə bildiyini zənn etməsi, onun özünə duyduğu şeytani etimadı artırar. "**Bunu bir dəfə edə bilirəmsə, həmişə edə bilərəm**" deyə düşünərək, oynaya biləcəyi yeni hiyləgər oyunlar üçün daha da həyəcanlanar.

**Kiçik-böyük, əhəmiyyətli və ya əhəmiyyətsiz demək olar ki, hər mövzuda qeyri-qanuni üsullarla mənfəət əldə edə bilmək münafiqin həyat tərzidir. Lakin bütün bunları edərkən hiss edilə bilmədiyini zənn etməsi, münafiqin ağılsızlığının çox açıq göstəricisidir.** Şeytani zəkası ilə müsəlmanları məğlub edə biləcəyini, onlara üstün gələ biləcəyini düşünən münafiq, axmaq yanılma içərisindədir. Allah müsəlmanlara imanlarından ötrü "**iti ağıl**" və münafiqləri diaqnoz edə bilmə mövzusunda da "**üstün qabiliyyət**" vermişdir. Bu diaqnoz qabiliyyəti ilə, **müsəlmanlar münafiqin yalnız kiçik bir neçə oyunundan belə, şəxsiyyətsizliyini və səmimiyyətsizliyini asanlıqla anlayarlar**. Anlaşılmadığını zənn edən münafiq hiyləgər fəaliyyətlərinə davam edərkən, əslində

müsəlmanlar onların atdığı hər addımı diqqətlə izləyir və oyanıq olmaları lazım olan bu insanlara qarşı hər cür ağıllı tədbiri alaraq irəliləyirlər.

**Adnan Oktar:** "**Qanuni, açıq, şəffaf yaşamaq münafiqi narahat edər. Mütləq gizlin bir pislik etmək istəyər. Münafiqlərin ruhunda, gizlilik nəfsə xoş gələr. Şeytani ruhdakı insan gizli bir şey etməsə rahat olmaz.** Mütləq bəziləri ilə gizlincə yazışacaq, mütləq gizli bir məktub, gizli bir xəbər göndərəcək, müsəlmanlar əleyhinə gizli bir şeylər edəcək. Bu zaman içi rahatlayar. Yəni gizli bir şey etmədən rahatlamaz. **Elə bir münafiq yoxdur ki, şəffaf və ya nəzərə çarpan olsun. Hər münafiq mütləq gizlilik istəyər.** Mütləq alçaqlıq etməlidir. **O gizlincə pislik etdikcə, ondakı münafiq ruhu daha da pərçimlənib, güclənir. Çünki əgər etməsə, münafiqlik ondan geriyə çəkilər. Lakin şeytana itaət etdiyi üçün, şeytan onu, münafiqliyini daha da gücləndirən bir hərəkətə salır.** Hər gizli yazışması, hər gizli danışığı, hər gizli hərəkəti, hər gizli kəşfiyyatı, münafiqliyini daha da pərçimləndirir, daha da gücləndirir. **O biri cür olduqda münafiqliyindən şübhə etməyə başlayar. "Görəsən dürüst bir insan oluram?", "normal müsəlman oluram**?" deyə vəsvəsəyə qapılar. Onun da vəsvəsəsi vardır. Şeytani vəsvəsə.

**Normal, məqbul bir insan olmaq çox qorxudar münafiqi. Dürüst olmaq, onu çox narahat edər. Əxlaqsız ola bilmədiyi zaman çox canı yanar.** Özünü ağılsız kimi görər, ağılsız kimi zənn edər. Lakin alçaqlıq, əxlaqsızlıq etdiyi zaman özünü zəkalı hesab edər. Üstün, ağıllı və keyfiyyətli hesab edər. Buna görə də bu alçaqlığı yaşamağa çox diqqət göstərər münafiq. Quran ayələrinə baxdığımız zaman bunu həmişə çox sıx görürük". (A9 TV, 26 yanvar 2016)

## Münafiq özünə qarşı çox qayğıkeş, Peyğəmbər (s.ə.v) və müsəlmanlara qarşı isə çox laqeyddir

Münafiqin ən mühüm xüsusiyyətlərindən biri, əvvəlki hissələrdə də təfərrüatlarıyla bəhs edildiyi kimi "**özünə olan düşkünlüyü**"dür. Dünyada qarşılaşa biləcəyi ən gözəl əxlaqlı, ən vicdanlı kəslər olan müsəlmanlara qarşı belə sevgi hissi bilməyən bir varlıq olan münafiqin, həyatında həqiqi mənada sevgi bəslədiyi heç kim yoxdur. Öz ailəsi, anası, atası, bacı-qardaşları, həyat yoldaşı və ya övladları belə onun üçün dünya həyatında arzuladığı mənfəətlərə nail olmaq üçün faydalandığı vasitələrdən ibarətdir. Özü ilə ailəsindəki bu insanlar arasında seçim etməsi lazım gəldikdə, heç düşünmədən həmişə öz rahatlığını, öz xoşbəxtliyini və rahatlığını seçər. Məhz bu baxış prizması ilə hərəkət edən **münafiq üçün, özündən daha əhəmiyyətli, daha dəyərli heç kim yoxdur**. Ruhunda sevginin yerini, eqoistlik, həsəd, kin, qəzəb, mənfəətpərəstlik, rəqabət, önə çıxma hərisliyi kimi duyğular almışdır. Dolayısilə də həyatındakı bütün insanlara həmişə bu duyğularla yaxınlaşar.

Müsəlmanlar ona cənnət kimi gözəl həyat təqdim edərkən, hər ehtiyacında onu ən yaxşı şəkildə qoruyarkən, rahatlığını, hüzurunu, sevincini təmin etmək üçün hər cür fədakarlığı edərkən; münafiq onlara qarşı heç vaxt belə səy göstərməz. Müsəlmanlar heç bir əvəz gözləmədən, təkcə Allahın rizasını qazana bilmək üçün bu davranışları nümayiş etdirərlər. Münafiqin isə Allah inancı və axirətə dair bir səyi olmadığından, vicdanı tamamilə qapanmışdır. Buna görə də, **içində ən kiçik sıxıntı və ya vicdan əzabı belə hiss etmədən, ətrafındakı insanlara ən eqoist və ən düşüncəsiz əxlaqı göstərə bilər. Biganəliyi, nəzakətsizliyi, laqeydliyi, mənfəətpərəstliyi və bu əxlaqsızlığı sırasındakı rahatlığı, münafiqin tipik xarakter xüsusiyyətlərindəndir.**

Diqqətçəkən xüsus isə, münafiqin özündən söhbət getdikdə, öz əxlaqına tamamilə zidd gözləntilər içində olmasıdır. **Başqalarının heç bir ehtiyacını guya görə bilməyən, mümkün qədər insaniyyətsiz, düşüncəsiz və eqoist olan münafiq, özünə qarşı həddən artıq dərəcədə diqqətcildir. Özü ilə əlaqədar mövzularda hər kəsin çox diqqətli, incə düşüncəli, nəzakətli və fədakar olmasını istəyər.** Həmçinin bu mövzuda ən kiçik qüsur görsə, bunu ən qabardılmış şəkildə, sanki "**böyük haqsızlığa düçar olmuş və hətta böyük zülm çəkirmiş kimi**" dilə gətirər. Kiçik bir şeyi şişirdərək böyüdər və bundan ötrü günlərlə şikayət edər.

**Müsəlmanların özünə hər şeyin ən yaxşısını, ən mükəmməlini təqdim etmələrini istəyər. "Ən gözəl, ən rahat yerlərdə yaşadılmağı, ən yaxşı imkanların, ən yüksək keyfiyyətli yeməklərin ona verilməsini, texnologiyanın ən təkmilləşmiş imkanlarının ona verilməsini, sahib olduğu hər əşyanın mümkün qədər ən seçilən parçalardan ibarət olmasını"** tələb edər. **"Yaşadığı yerin həmişə gözəlləşdirilməsini, ən təmiz hala gətirilməsini, ən ehtişamlı şəkildə döşənilməsini istədiyini"** söyləyər. **"Bir yemək sifariş ediləcəksə ən keyfiyyətli yerlərdən gətirdilməsini, bir parça alınacaqsa ən bahalısının seçilməsini"** gözləyər. Özünün olduğu yerlərin **"çox havadar, isti-soyuq məsələsində heç bir qüsuru olmayacaq şəkildə nizamlanmasını"** tələb edər.

Eyni insan, özü üçün bütün bu gözəlliklərin təmin edilməsinə vəsilə olan müsəlmanları isə heç düşünməz. Xüsusən də "**müsəlmanların başında olan, onlara mənəvi cəhətdən liderlik edən, Allahın seçdiyi elçilərinə, peyğəmbərlərə**" isə qətiyyən "**diqqət**" göstərməz. Halbuki müsəlmanlar üçün, Allahın peyğəmbərləri, elçiləri və təqva sahibi müsəlmanlar, "**özlərindən daha yaxşı və daha dəyərlidir**"lər. Quranda müsəlmanların Allahın elçilərini əl üstündə tutan əxlaq göstərdikləri belə bildirilmişdir:

**Peyğəmbər, möminlər üçün onların özlərindən daha yaxındır... (Əhzab surəsi, 6)**

Peyğəmbərimiz hz. Məhəmməd (s.ə.v) dövründə də, münafiqlər yenə bu xüsusiyyətləri ilə diqqət çəkirdilər. **Özləri üçün hər şeyin ən yaxşısını istədikləri halda, Peyğəmbərimiz (s.ə.v)-dən söhbət getdikdə biganəlikləri, nəzakətsizlikləri və**

**diqqətsizlikləri ilə diqqət çəkirdilər.** Halbuki ayədə də bildirildiyi kimi, Peyğəmbərimiz (s.ə.v)-ə Allah rizası üçün çox dərin sevgi bəsləyən və onu hər zaman ən öndə tutan, canlarından, mallarından daha da əhəmiyyətli hesab edən müsəlmanlar üçün Peyğəmbərimiz (s.ə.v) çox yüksək dəyərə sahib idi. **Öz yeməl012ərindən əvvəl, ən gözəl yeməklərin Peyğəmbərimiz (s.ə.v)-ə təqdim edilməsini, öz yuxularından əvvəl Peyğəmbərimiz (s.ə.v)-in ən yaxşı şəkildə istirahət etməsini, öz rahatlıqlarından əvvəl Peyğəmbərimiz (s.ə.v)-in rahatlığını, öz təhlükəsizliklərindən əvvəl Peyğəmbərimiz (s.ə.v) üçün ən etibarlı şərtlərin yaradılmasını təmin edərdilər.**

İman gətirənlərin Rəsulullah (s.ə.v)-ə olan bu üstün sevgiləri və dərin bağlılıqlarının yanında "**münafiqlərin şəxsiyyətsizlikləri, eqoist əxlaqları və alçaqlıqları**" ciddi şəkildə diqqət çəkirdi. Peyğəmbərimiz (s.ə.v) dövründə də, hal-hazırda da, münafiqlərin əxlaqı, şeytandan aldıqları ortaq ilhamlarla heç bir dəyişiklik göstərmədən tamamilə eynidir.

Lakin unutmamaq lazımdır ki, hər münafiq əlaməti, müsəlmanların, içlərindəki bu səmimiyyətsiz insanları tanıyıb diaqnoz edə bilmələri üçün çox mühüm vəsilədir. Allah Quran ayələri ilə, mömin cəmiyyətləri bu alçaq insanların tələlərindən, oyunlarından qoruyub beləliklə onlara qarşı qalib gəlmələrini təmin edər. Dolayısilə də münafiqin müsəlmanların əleyhinə zənn edərək etdiyi hər şey, oynadığı hər oyun onların lehinə, özünün isə əleyhinə olar.

## Münafiq, müsəlmanın özünə öyüd verməsinə dözə bilməz

Münafiq müsəlmanın yaxşı niyyətlə, özünün bir səhvini düzəltməsinə və ya öyüd verməsinə heç vaxt dözə bilməz. Münafiqdə böyüklük hissi çox güclü olduğu üçün hər hansı mövzuda "**əskik və ya səhv olduğunu**" qəbul etməz. Dolayısilə özünə xatırlatma və ya tövsiyə edildiyi zaman, deyilənləri "**dəlisov şəkildə yalanlamağa və inkar etməyə**" çalışar. Çox sürətlə yalan danışmağa və əks hücum tərzində "**böhtan atmağa**" başlayar. Deyilən çatışmazlığın özündə mövcud olduğunu heç vaxt qəbul etməz. Allah bir ayədə münafiqlərin "**öyüdə**", yəni "**Qurana əsaslanan tövsiyə və xatırlatmalara**" qarşı heyrətamiz dərəcədə reaksiya verdiklərini belə bildirmişdir:

**Buna baxmayaraq, bunlara nə olur ki, öyüddən üz döndərirlər? (Müddəssir surəsi, 49)**

Çünki münafiq, "**müsəlmanlardan daha çox ağıllı, zəkalı, keyfiyyətli, mədəni və üstün olduğu**"nu iddia edir. Münafiqin özünə olan baxış prizması, eynilə aşağıdakı ayədə bildirildiyi kimidir:

**...Dilləri də yalan olaraq; ən gözəl olanın "özlərinin olduğunu" uydurur. (Nəhl surəsi, 62)**

Dolayısilə özünü bu qədər böyük hesab edən birinin, müsəlmandan öyüd alması, bu tövsiyəni qəbul edib davranışlarını düzəltdiyini göstərməsi, onun üçün sanki "**ölmək kimi**"dir. Buna görə də "**qarşı tərəfin sözünü kəsərək, demaqoqluq edərək, üz və vücud dillərindən ən çirkin şəkildə istifadə edərək, ağlayaraq, anlamazlıqdan gəlib inad edərək, qışqırıb bağırıb, dinləmədiyini bəlli edən əl-qol hərəkətləri edərək**" bu zehniyyətlərini bəlli edərlər. Allah Quranda münafiqlərin bu pozuq əxlaqlarını belə bildirmişdir:

**Həqiqətən, Sən onları bağışlayasan deyə mən hər dəfə onları dəvət etdikdə, onlar barmaqlarını qulaqlarına tıxadılar, örtüklərini başlarına bürüdülər, ötkəm-ötkəm təkəbbürlənib inad etdilər. (Nuh surəsi, 7)**

**Sonra baxdı. Sonra qaşlarını çatdı və üz-gözünü turşutdu. Sonra da üz döndərdi və təkəbbürləndi. (Müddəssir surəsi, 21-23)**

Ayələrdən açıqca aydın olduğu kimi, müsəlmanlar münafiq xarakterli insanlara Quran ayələri ilə tövsiyələr verdikdə, reaksiyaları üz döndərmək, yəni dərhal bir bəhanə taparaq ayələrin oxunduğu mühitdən uzaqlaşmaq olar. Lakin eyni zamanda da, bu hiyləgər qaçışları üçün inandırıcı bəhanə tapmağa çalışarlar. Bəzən "**başqa otağa keçib, sanki başqa işləri olduğu üçün deyilənləri məcburən dinləyə bilmirmiş kimi**" davranarlar. Başqa vaxt, "**yuxusuz və ya yorğun olduqları**" şəklində bir bəhanə ilə o mühitdən çölə çıxarlar. Bəzən də "**təcili yerinə yetirməli olduqları bir işləri varmış kimi**" edərlər.

Bu hiyləgər ruhlu insanların, Quran ayələrindən, gözəl əxlaqdan bəhs edən mühitlərdən qaça bilmək üçün müsəlmanlara qarşı istifadə etdikləri bir də "**psixoloji mübarizə üsulları**" vardır. Məhz münafiqlər bu üsullarını tətbiq edərkən, "**danışıqlarından çox, gözlərini və səslərini**" qüvvəyə salarlar. Məsələn, özlərinə gözəl üslubla öyüd verilən mühitdə qalar, lakin öz aləmlərində "**deyilənlərə əhəmiyyət vermədiklərini**", "**dinləmədiklərini**" və ya "**eşitdiklərindən təsirlənmədiklərini**" hiyləgər üsullarla ifadə etməyə çalışarlar. "**Pis və xain baxışları ilə, üz-gözlərini turşudaraq, aqressiv ifadə verərək, qaşlarını çataraq, ağızlarını aşağı buraxıb boş və mənasız baxaraq, deyilənləri təsdiqləməyərək, təkcə hədəf aldıqları insanın duyacağı qədər batıq səslə, onun dediyinə tam zidd şərhlər**" verərək (öz zəif ağıllarınca) deyilənlərdən təsirlənmədiklərini müsəlmanlara bəlli etmək istəyərlər.

Allah Quranda; "**...aralarında hökm versin deyə, Allahın Kitabına dəvət olunurlar, sonra da onlardan bir dəstə haqdan üz çevirir.**" (Ali İmran surəsi, 23) deyə bildirmişdir.

Deməli, münafiqlər müsəlmana yaraşan şəkildə yaşamaları, Quranla düşünmələri üçün iman gətirənlərdən həddən artıq təşviq görəcəklər. Lakin böyüklük ehtirası içində olduqları üçün bu tövsiyələr onlara xoş gəlməyəcək və bunu da hərəkətləri və danışıqları ilə açıqca müsəlmanlara bəlli edəcəklər.

Allah, bir ayədə, olduqları mühitlərdə Quran ayələri oxunduqda və ya bu ayələr istiqamətində özlərinə öyüd verildikdə münafiqlərin "**özlərinə verilən öyüdü dinləməyə dözə bilmədiklərini**" xəbər vermişdir:

**O kəslərə ki, gözlərinə Məni anmamaq üçün pərdə çəkmişdilər, özləri də eşidə bilmirdilər. (Kəhf surəsi, 101)**

Çünki Quran ayələri münafiqə "**sanki yandırıcı od**" kimi təsir edər. Ayənin İlahi izahatı, münafiqin şeytani dünyasını mənəvi cəhətdən qovurar, yandırar. Ayələrdə münafiqliyin sirlərinin müsəlmanlara çatdırılmış olması, münafiqlərin bütün oyunlarının, planlarının və taktikalarının ifşa olmasına vəsilə olar. **Hər an əsil üzlərini göstərən bir ayə və ya ayəni şərh edən bir izahatla üzləşəcəyini bilmək qorxusu, münafiqin gözlərinə narahat, xain, qaranlıq və ürküdücü ifadənin yerləşməsinə səbəb olar**. Quranda münafiqlərin bu vəziyyəti belə xəbər verilmişdir:

**O inkarçılar, zikri (Quranı) eşitdikləri vaxt, səni az qala gözləri ilə devirəcəkdilər... (Qələm surəsi, 51)**

Məhz bundan ötrü də, Quran əxlaqına uyğun yaşamağa dəvət edildikləri zaman, münafiqlər bunu eşitmək belə istəməzlər. Aqressiv, davakar, asi rəftarlar nümayiş etdirib, qışqırıb bağıraraq, böhtan ataraq, yalanlayaraq və pis baxışlarla müsəlmanların xatırlatmalarını kəsib dayandırmağa çalışarlar.

## Münafiq özünə öyüd verildikdə, yalan və böhtan dolu ittihamlarla əks hücuma keçər

**Öyüd almaq, tənqid olunmaq, yaxşıdan, haqqdan, daha gözəl olandan yana bir tövsiyə eşitmək, münafiqin heç xoşlamadığı və nəfsinə ən ağır gələn vəziyyətlərdən biridir.** Bunu bir də özünə daxilən böyük kin, qəzəb və nifrət bəslədiyi insanlar olan müsəlmanlar etsə, bu vəziyyətdə münafiq dəliyə dönər. Dəlisov və qarşısıalınmaz müdafiə instinkti ilə, özünü haqlı çıxardıb qüsursuz göstərə bilmək üçün ağlına gələn hər yola əl atar. Mövcud olduğunu zənn etdiyi saxta etibarını, **"hər kəsdən üstün və mükəmməl olduğu imicini qorumaq"** və **"böyüklük iddiasına hər hansı zərər gəlməsinin**

**qarşısını almaq"** üçün dəlicəsinə özünü müdafiə etməyə başlayar. **"Yalan danışmaq, iftira atmaq, qarşı tərəfi haqsız çıxartmağa çalışmaq, Quran ayələri barədə azğın şərhlər vermək, ədabaz və lovğa üslublarla qarşıdakı insanı günahkar çıxartmağa çalışmaq, ağlayaraq haqsızlığa uğradığı, zərər çəkdiyi imicini verməyə çalışmaq, qışqıraraq qarşı tərəfin danışmasına mane olmağa və təhdidamiz mühit yaratmağa çalışmaq"** münafiqin etdiyi əks hücumların yalnız çox az hissəsidir. Allah Quranda, müsəlmanların və Allahın dinini izah etmək vəzifəsi verilmiş elçilərinin dəvətləri qarşısında, münafiqlərin bu mübarək şəxsləri **"öldürməyi belə gözə alacaq qədər gözlərinin dönüb təcavüzkarlaşdıqlarını"** da xəbər vermişdir:

**...Deməli, sizə nə zaman bir elçi nəfsinizin xoşlamayacağı bir şeylə gəlsə, təkəbbürlənərək bir qisminiz onu yalançı hesab edəcək, bir qisminiz də onu öldürəcəkmi?" (Bəqərə surəsi, 87)**

Allah ayədə nəfsləri ilə zidd gələn; səhvlərini ortaya qoyan, səhvlərini ortaya çıxardan danışıqlar edildiyi zaman, münafiqlərin gözü dönmüş azğınlıqla təcavüzkarlaşdıqlarını və **"öldürməyə sövq edəcək qədər dəlisov kinin bütün vücudlarını bürüdüyünü"** bildirir.

Ayənin şərhi, münafiqlərin **"ruhundakı böyüklük hissinin nə qədər şiddətli dəlilik halına gəldiyini"** anlamaq baxımından çox əhəmiyyətlidir: **"Deməli, sizə nə zaman bir elçi"**, yəni **"sizə gözəl əxlaqı izah edən bir təbliğçi"**, **"nəfsinizin xoşlamayacağı bir şeylə gəlsə"**, yəni **"sizin yanlış, pis cəhətlərinizi tənqid edən üslubu olsa, sizdəki bir səhvi aradan qaldırmaq istəsə"**, **"təkəbbürlənərək"**, yəni **"eqoistlik depressiyasına düşərək" bir qisminiz onu yalançı hesab edəcəksiniz"**. Məhz münafiq də ayədə ifadə edildiyi kimi, təbliği edən insanın söylədiklərinə əks açıqlamalar verərək; **"sənin sözün doğru deyil, yalan danışırsan"** deyərək müsəlmanların sözlərini yalanlamağa çalışar.

Ayədə xəbər verildiyi kimi, münafiq özünə verilən öyüd və tövsiyələri öz aləmində təsirsiz hala gətirə bilmək üçün, "**özünə öyüd verən insana qarşı şeytani hücuma keçər**". Özünə deyilən məntiqlərin eynisi ilə, o da o insanı günahlandırmağa və tənqid etməyə başlayar. Əgər özünə "**yalan danışmaması üçün öyüd verilirsə**", o da "**qarşı tərəfi yalan danışmaqla ittiham edər**". "**Mən deyil, sən yalan deyirsən, mən belə şey demədim, sözümü dəyişdirirsən, doğru danışmırsan, mən onu nəzərdə tutmadım**" deyər. Əgər təvazökar olması, təkəbbürlənməkdən çəkinməsi ilə əlaqədar öyüd verilirsə, "**mən belə təkəbbürlü, qürurlu insan deyiləm, əksinə çox təvazökaram**" deyərək qarşı tərəfin sözünü yalanlayar. Sonra da "**mən deyil, əsil sən eləsən**" deyərək "**əks ittihamlar**" edər. Həmçinin zəif, kələkbaz ağlı ilə, öz aləmində bu iddiasını sübut edəcək dəlillər tapmağa çalışar. Həqiqətləri təhrif edərək, hadisələri dəyişdirərək, yalan danışaraq müxtəlif misallar gətirər. Hər kəsin açıqca gördüyü, çox aydın bir mövzunu yalanlayaraq, özünə öyüd verən müsəlmanı öz aləmində geri oturtmağa çalışar.

Bunun kimi münafiqə, müsəlmanlara olan sevgisizliyi, uzaqlığı və mənfəətə əsaslanan bağlılıq içində olduğu deyilib bu vəziyyət dəlilləri ilə sübut edildikdə, münafiq dərhal "**qarşı tərəfə böhtan atmaq**" üsulundan istifadə edər. "**Əsil siz məni sevmirsiniz, siz mənə sevgi göstərmirsiniz. Siz mənə uzaq davranırsınız**" deyərək bu şeytani taktikasını işə salar. Sonra da müsəlmanlara qarşı tənqidlər yönəltməyə başlayar. "**Neçə ildir ki, həmişə mən sizə sevgi göstərirəm, artıq növbə sizdədir, indi də siz göstərin**". "**Niyə bu vəziyyəti mən düzəltməliyəm, bir az da siz özünüzü düzəldin**" kimi danışıqlarla yalan danışaraq öz aləmində əks hücuma keçər.

Həyatını həmişə şeytanla dostluq edərək keçirən "**münafiqin dilinə yalan sanki yuva qurmuşdur**". **Buna görə də, əks hücum edərkən çox ardıcıl böhtan ata bilər və ardıcıl yalanlar deyə bilər.** Bir-birindən uydurma məntiqlər yaradıb həmişə mövzunu başqa istiqamətə yönəltməyə cəhd edə bilər. Qarşı tərəf təvazökarlığıyla, gözəl əxlaqıyla, hörmət və sevgi dolu üslubla ona fayda verəcək açıqlamalar verməyə çalışdıqca, münafiq qarşısındakı insanın bu təvazökar halı qarşısında daha da cəsarətlənər. Həmçinin getdikcə daha da təcavüzkarlaşar. Çünki müsəlmanların hər nə olsa da, qəzəblə deyil, şəfqətlə, əsəbiləşməklə deyil, səbirlə və təvazökarlıqla təbliğ edəcəklərini bilər. Hər nə olsa da sakitliklərini, gözəl əxlaqlarını pozmayacaqlarını dərk edir. Buna görə də, öz aləmində bundan ən yaxşı şəkildə istifadə edir və heç çəkinmədən lovğalığının və ədabazlığının dozasını istədiyi qədər artırır.

Bu şeytani cəsarətlə, münafiqin nifrəti, kini ağzından kənara vurmağa başlayar. Diqqətçəkən xüsus isə, münafiqin, özünə yaxşı davranıldığı, istədiyi hər şey edildiyi və nəfsinə xoş gələcək sözlər, təriflər eşitdiyi zaman stabil rəftarlar göstərib, öyüd və ya tənqidlə qarşılaşdığı zaman, "**ikinci şəxsiyyətə sahib olması və təcavüzkarlaşması**"dır. Xüsusən də **bir mənfəət əldə etmək istədiyi zaman, sanki dünyanın ən stabil, ən məqbul, ən gözəl sözlü, gözəl xasiyyətli insanı kimi davrandığı halda, nəfsinə toxunan bir vəziyyətlə qarşılaşdığı vaxt ruhundakı şeytani dəliliyin kəskin şəkildə ortaya çıxmasıdır.** Belə vəziyyətdə, əldə etmək istədiyi mənfəətləri üçün səmimiyyətsizcə sevgi sözləriylə, nəzakətlə danışan münafiq, özünə yaxşılığı üçün xatırlatma edildikdə, "**gözləri və ağzı ilə kin qusan şeytani məxluqa**" **dönər. Məhz münafiqin əsil üzü və əsil şəxsiyyəti, bu kinləndiyi anda ortaya çıxan halıdır.**

Münafiqin müsəlmanın tənqidlərindən xilas olmaq üçün belə iyrənc üsullarla əks hücuma keçməsinin səbəblərindən biri, cəmiyyətdə bir çox insanın, əks hücum edildikdə ümumiyyətlə dərhal "**passivləşdiyini**" bilməsidir. Əks hücum ümumiyyətlə insanların əhvali-ruhiyyəsini korlayar və özlərini günahkar kimi görüb müdafiə ruhuna keçmələrinə səbəb olar. Məhz münafiq də, bu insani zəifliyi bilərək müsəlmanlara istiqamətli, "**əks hücum üsulundan**" istifadə etməyə çalışar. Məqsədi özünə verilən öyüd və tövsiyələrdən xilas olmaq və bu sözləri təsirsiz edə bilməkdir. Diqqəti öz üzərindən uzaqlaşdırmaq, danışılan məsələni unutdurub diqqətin başqa mövzu üzərində cəmlənilməsini təmin etmək istəyər. Özünə xatırlatma edilərkən, başqalarını hədəf göstərib öz aləmində "**əsas onların müxtəlif səhvləri, nöqsanları olduğu**" istiqamətində ittihamlar etdiyi zaman,

normal olaraq bu kəslər, deyilənlərin doğru olmadığını deyəcək və beləliklə mövzu normal olaraq dəyişmiş olacaq. Dolayısilə, **öz nöqsanlarından bəhs edilərkən, münafiq bir anda mövzunu qarşısındakı insanların xətalarına çəkərək, özünü xilas etmiş və tam tərsinə onları diqqət mərkəzi halına gətirmiş olacaq.**

**Məhz bu çox incə və şeytani münafiq taktikasıdır**. Bir anda müsəlmanları öz mövzusundan kənara çıxardacaq və onları başqa istiqamətə doğru çəkəcək. Məsələn, mövzu münafiqin ədabaz üslubu olduğu halda, o bir anda qalxıb qarşısındakı müsəlmanın on gün əvvəl söylədiyi sözü dəyişdirib, yalanlarla bəzəyib; "**sən o gün niyə mənə elə demişdin**?" deyə bir mövzu atar ortaya. Məhz qarşısındakı müsəlman onun bu sualına cavab verməyə çalışdığı anda da, münafiqin oyunu başlamış olar. Bu sual cavablanarkən, bunun kimi yeni ittiham hücumuna daha keçər. Getdikcə əsas mövzudan uzaqlaşılmasını və əsil izah edilmək istənilənlərin unudulmasını təmin etməyə çalışar.

Məhz bu cür şeytani üsullar, münafiqin minlərlə ildir ki, davam edən, ənənəvi tarixinin parçası və klassik taktikasıdır. Allah Quranda münafiqlərin "**dilbazlıqlarına, demaqoqluq etmələrinə, acı dilli olmalarına, böhtan atma qabiliyyətlərinə, şeytanın ilhamı ilə öyrəndikləri yalan danışma qabiliyyətinə, mövzudan kənara çıxılmasını təmin etmək, hədəfi yayındırmaq üçün yalandan, böhtandan, davakar üslubdan istifadə edə biləcəyinə**" diqqət çəkmişdir. Quranda bildirilən bu şeytani oyunların bütün təfərrüatları və nümunələri ilə müsəlmanlara çatdırılması olduqca əhəmiyyətlidir. Çünki münafiqin hər hiyləgər üsulunun ifşa edilməsi, bu oyunlarını əvvəlcədən puç edər və zərərsizləşdirər. Bu vəsilə ilə müsəlmanlar bu cür hücumlara qarşı çox diqqətcil və hazırlıqlı olmuş olarlar.

Allahın bir ayədə; "**...haqqı batil ilə qüvvədən salmaq üçün mübarizə aparırlar...**" (Kəhf surəsi, 56) sözləriylə bildirdiyi kimi, münafiqlərin bütün bu mübarizəsi, Allahın haqq sözünü qüvvədən sala bilmək, Quran əxlaqının yaşanmasına əngəl törətmək və inkarçı əxlaqı insanlar arasında hakim edə bilmək üçündür. Lakin Allah haqqın mütləq qalib gələcəyini; batilin və batil ilə ortaya çıxanların nə vaxtsa mütləq müvəffəqiyyətsiz olacaqlarını bildirmişdir. Bir Quran ayəsində Allah bu həqiqəti belə xəbər vermişdir:

**Xeyr, Biz haqqı batilin üstünə atarıq və o da onun işini bitirər. Bir anda batilin yox olub getdiyini görərsiniz. Allaha aid etdiyiniz sifətlərə görə vay halınıza! (Ənbiya surəsi, 18)**

## Münafiq, müsəlmanlara öz aləmində "əxlaq dərsi" öyrətməyə cəhd edər

Münafiqin bir xüsusiyyəti də, fasiləsiz şəkildə həmişə əxlaqsızlıq edərək yaşamasına baxmayaraq, Qurandan öyrəndiyi məlumatlardan istifadə edərək müsəlmanlara guya "**əxlaq dərsi öyrətməyə çalışması**"dır. Özü gecə-gündüz hiyləgərlik və

ikiüzlülük edib, müsəlmanlar əleyhinə küfr əhli ilə əməkdaşlıq edib alçaqca planlar qurarkən, Qurana tamamilə zidd və küfri əxlaqı müsəlmanlar arasında yaymağa çalışarkən, eyni zamanda da müsəlmanların rəftarlarını tənqid edər. Münafiqin hiyləgər və yalana əsaslanan iddialarına görə, müsəlmanlar arasında həqiqətən səmimi, imanlı, özünü Allaha həsr etmiş tək bir insan yoxdur. Özündən başqa heç kimi bəyənməz. "**Bir çətinlik olsa, özündən başqa layiqincə və ağıllı şəkildə müsəlmanları müdafiə edəcək tək bir insan belə olmadığını**" söyləyər. Yaxud mühüm bir fəaliyyət göstərilməsi lazım gəlsə, "**özündən başqa bunu edə biləcək heç kimin olmadığını**" söyləyər. Bunları dilə gətirərkən məqsədi "**özünü ucaltmaq və ön plana çıxartmaq**" olduğu qədər, eyni zamanda da qəlbində böyük qəzəb bəslədiyi "**müsəlmanları da öz aləmində alçaltmağa çalışmaq**"dır. Bunun nəticəsində, həm öz üstünlüyünü çox yaxşı hiss etdirə biləcəyini, həm də öz aləmində müsəlmanların nə qədər zəif və gücsüz olduğunu vurğulayaraq əhvali-ruhiyyələrini korlaya biləcəyini zənn edər. Beləliklə öz zəif ağlına görə onlara çox mühüm bir təlqin verdiyini və onları özünün "**olmazsa olmaz**", "**heç vaxt imtina edilə bilməyəcək", "tayı-bərabəri olmayan qabiliyyətdə", "çox mühüm və nadir rast gəlinəcək qədər xüsusi insan**" olduğuna inandıra biləcəyini düşünər. **Dolayısilə nə qədər əxlaqsızlıq, alçaqlıq və anormallıq etsə də, müsəlmanların özlərini ona möhtac mövqedə hiss edəcəklərini və etdiklərini görməzlikdən gələ biləcəklərini zənn edər.**

Məhz bu məqsədlə münafiqlər, demək olar ki, hər fürsətdə müsəlmanları tənqid edərlər. Gündəlik həyatın hər mərhələsində bəhanə taparaq, "**bəzilərinin etdiyi səhvləri, nöqsanları dilə gətirərək, onların guya həm əxlaqi cəhətdən və şəxsiyyət olaraq, həm də mədəniyyət, bilik və keyfiyyət baxımından nə qədər qüsurlu insanlar olduqlarını**" vurğulamağa çalışarlar. Lakin, əlbəttə ki, bu ifadələri həmişə yalan və böhtana əsaslanır. Çünki qarşılarındakı müsəlmanlar Allahdan qorxan və vicdanlarından istifadə edən insanlardır. Gün ərzində hər rəftarlarında ən yaxşısını etməyi hədəfləyən və daha da əhəmiyyətlisi səhv etsələr belə bunu əslində yaxşı niyyətlə, istəmədən edən kəslərdir. Lakin münafiqlər bunları qəsdən, "**şişirdərək, əlavə yalanlarla bəzəyib dəstəkləyərək və şüurlu surətdə pislik olsun deyə edilmiş rəftarlarmış kimi**" dilə gətirərlər.

Həmçinin bütün bunları edərkən istifadə etdikləri "**doğru-yanlış meyarları**" isə, tamamilə yenə Qurandan və müsəlmanlardan öyrəndikləri məlumatlardır. Bu dəyərlərə özləri qəti inanmadıqları və göstəriş etməkdən savayı bunları səmimi şəkildə etmədikləri halda, sırf müsəlmanları tənqid edə biləcək bir vəsait olması üçün bunlardan istifadə edərlər. Yoxsa özləri "**nə gözəl əxlaqı, nə ədəb və keyfiyyəti, nə də nümunəvi bir şəxsiyyətin necə olduğunu**" biləcək ağla və vicdana sahib olmayan insanlardır. Üstəlik, səmimi olmadıqları üçün, öz aləmlərində, ətrafındakı insanları kiçik hesab etdiklərini vurğulamaq üçün etdikləri bu tənqidlərin çox kiçik qismini belə öz üzərlərinə götürüb düşünməzlər. Özlərini hər kəsdən üstün hesab edərlər. Hər cür qüsur və səhvdən uzaq olduqlarını düşünər və ağıllarını hər kəsdən çox bəyənərlər. Bu səbəblə də tənqid edilə biləcək tərəflərinin olmadığına inanaraq, öz aləmlərində başqalarına ehkam kəsərlər.

Quranda "**başqalarını tənqid etdikləri halda, özləri bu doğru olduğunu bildikləri şeyləri tətbiq etməyən insanlar**"ın vəziyyəti belə bildirilib:

**Siz insanlara yaxşı işlər görmələrini əmr etdiyiniz halda, özünüzü unudursunuz? Halbuki siz Kitabı oxuyursunuz. Yenə də ağıllanmayacaqsınız? (Bəqərə surəsi, 44)**

Allah ayədə; "**özünüzü unudursunuz**?" deyə buyurmuşdur. Məhz "**özünü müstağni görüb unutması münafiqin mühüm xüsusiyyəti**"dir. Allah bunun ardınca da; "**halbuki siz Kitabı oxuyursunuz**" deyə də bildirmişdir. Münafiq də Quranı oxuyur və ayələri çox yaxşı bilir. Allah; "**yenə də ağıllanmayacaqsınız**?" deyə xatırlatmışdır. Məhz Allah, ayələri bildiyi halda, onlara əməl etməyən insanları ağıllarından və vicdanlarını istifadə etməyə dəvət etmişdir.

Münafiqin Quran əxlaqını, yaxşını, doğrunu çox yaxşı bildiyi halda, qəsdən bunları tətbiq etməməsi, lakin eyni zamanda da bu məlumatlardan müsəlmanları tənqid etmək üçün istifadə etməsi, şeytanın ona öyrətdiyi taktikadır. Lakin Quranın; "**şübhəsiz ki, şeytanın hiyləsi zəifdir**" (Nisa surəsi, 76) ayəsi ilə bildirildiyi kimi, şeytanın oyunları çox ağılsızdır. **Şeytan müsəlmanlar qarşısında məğlub olmağa məhkum varlıqdır**. Dolayısilə şeytanın arxasınca gedən və onun taktikaları ilə oyun oynamağa çalışan münafiqin də səmimi iman gətirənlər qarşısında müvəffəqiyyət qazana bilmə imkanı heç vaxt yoxdur.

## Münafiqdə dəlilik dərəcəsində özünü qorumaq istəyi var

**Münafiq üçün dünyadakı ən qiymətli şey, özüdür**. Dolayısilə də bu ən dəyər verdiyi varlığı qoruma hərisliyi də, münafiqdə "**dəlisov hərisliyə**" çevrilmişdir. "**Yaxşı niyyətli tənqidə, özünə verilən tövsiyəyə; hər hansı mövzuda çatışmazlığının, qüsurunun, səhvinin deyilməsinə "qətiyyən" dözümü yoxdur**. Belə vəziyyətdə "**etibarının ciddi şəkildə sarsılacağına**", öz aləmində "**zəhmətlə yaratdığını zənn etdiyi xarizmasının yox olacağına**", "**hamı kimi adi insan mövqeyinə düşəcəyinə**" inanar. Buna görə də özünü "**qüsursuz və hətta çox mükəmməl, nadir rast gəlinəcək ağıl, bilik və qabiliyyətə malik, fövqəladə insan**" kimi tanıtmağa çalışar. Mövcud olduğunu zənn etdiyi bu "**saxta imicini**" və özünü qoruya bilmək üçün ağla gələn hər cür saxtakarlığı edər. Həmçinin buna ən kiçik zərər gələcəyini düşündüyü zaman, gözü başqa heç nəyi görməz. Üz ifadəsi, baxışları, üslubu, danışıqları, vücud dili, əl-qol hərəkətləri tamamilə nəzarətdən çıxar.

Məhz münafiqi bu şəkildə dəlisov ruh halına salan, təkcə "**nəfsinə olan şeytani düşkünlüyü**"dür. Özünü sanki bütləşdirmiş, ilahlaşdırmışdır (Allahı tənzih edirik). Allaha imanı olmadığı üçün, tək əhəmiyyət verdiyi və yaşama məqsədi halına gətirdiyi şey özüdür. **Allahın rizası üçün deyil, öz rizası üçün hərəkət edər. Yaşama məqsədi, öz**

**xoşbəxtliyi, rahatlığı və özünün məmnun edilməsinə əsaslanır. Özünü (haşa) Allahdan, dindən və bütün varlıqlardan üstün hesab edər.**

Şeytanın razı salması nəticəsində, beynində özünə xəyali dünya yaradıb. Həmçinin bu xəyali dünyada çox mühüm yeri olduğunu zənn edir. Sanki "**ruh xəstəsi**" kimi, həqiqətən "**çox böyük olduğuna**" və "**bütün dünyanın da, onun bu böyüklüyündən xəbərdar olduğuna**" inanar. **Halbuki bu, yalnız münafiqin şizofreniyalı ruhunun hallüsinasiyasından ibarətdir. Lakin bundan xəbərsizdir**. Dolayısilə də bütün sistemi, "**bu xəyali böyüklüyünü və özünü qorumağa**" əsaslanır. Eqoistliyinə, böyüklük hissinə, öz aləmində meydana gətirdiyini zənn etdiyi ehtişamına zərər gəlməməsi üçün, sanki "**heyvanlar kimi**" vurnuxar. Məhz münafiqin ruhundakı dəliliyi, xəstəliyi və qeyri-sabitliyi göstərən ən mühüm xüsusiyyətlərindən biri də budur onsuz da. **Özünü qorumaq üçün sərf etdiyi dəlisov enerji və dəlisov vurnuxması...**

Aydındır ki, əgər insan özünü və nəfsini dəlicəsinə müdafiə edir və sırf buna görə dəli olursa, qeyri-insani rəftarlar göstərirsə, bu müəyyən mənada "**ruh xəstəliyi**" deyilə biləcək "**ciddi anormallıq, ciddi rəftar pozuntusu**"dur. Halbuki sırf nəfsini ilahlaşdırdığı üçün belə zavallı mövqeyə düşən birinin bu məqamda dayanıb düşünməsi və Allaha sığınması lazımdır. Normal insanın göstərəcəyi rəftar budur. Allahdan qorxan, vicdan sahibi biri belə səhvə yol versə belə, dərhal Quranla düşünüb; "**mən bu qədər anormal davranışlar necə göstərə bilərəm**?" deyər və səmimi nəzərlə özünü tənqid edib rəftarını düzəldər. Normal, stabil insanın məqbul rəftar göstərib həm öz özünü tənqid edə bilməsi, həm də başqalarının özü barəsindəki fikirlərini dinləyə bilməsi lazımdır. Xoşuna da gəlməsə, çətin də gəlsə, insan nəzakəti ilə qarşı tərəfin tənqidlərini sakitcə dinləyib, bunları hörmətkar və məqbul üslubla qiymətləndirə bilər. Buna zidd olan fikirləri varsa, bunları da gözəl şəkildə bildirib, nəzakətli və hörmətkar dillə haqlılığını müdafiə edə bilər.

Lakin münafiqdə görülən əxlaq bunun tam əksidir. **Çox kiçik tənqidə belə dözümü yoxdur. Hörmət, ədəb, nəzakət, zəriflik və təvazökarlıqdan məhrumdur. Tənqidə mümkün qədər nalayiq, lovğa, ədabaz və kobud şəkildə cavab verər.** Nəfsi isə sanki dəliyə dönər. Ruhunda "**şeytani fırtınalar**" əsdiyi, əl-üzünün sürüşməsindən, işlətdiyi küfri üslubdan, qışqır-bağır salaraq narahatlıq törədən çirkin səs tonundan, etdiyi əks şeytani hücumlardan, yalan və iftira ilə özünü təmiz çıxartmağa çalışmasından dərhal aydın olar.

Məhz münafiqdə görülən bu vəziyyət, "**ağır mənəvi xəstəliyin göstəricisi**"dir. Bu, imandan uzaq, küfrün pis ruhunu əks etdirən ruh xəstəliyidir. Eyni zamanda da, küfrü imandan daha gözəl görməsindən ötrü Allahın dünyada münafiqə tuş gətirdiyi bəladır.

Müsəlmanlar bir-birlərinə "**yaxşılığı əmr edib, bir-birlərinə pis əməlləri qadağan edərək**", çatışmayan cəhətlərini düzəldər və həmişə mənəvi və vücud cəhətdən daha da mükəmməl hala gələrlər. Öyüdə, tövsiyəyə açıq, gözəl əxlaq göstərmələrindən ötrü Allah onları hər cəhətdən üstün hala gətirər. Münafiq öz bataqlığında getdikcə daha da çirkli dünyanın içinə doğru batarkən, müsəlmanlar da getdikcə cənnət bənzəri gözəl mühitdə,

gözəl insanlarla yaşamaq nemətini dadarlar. Allah bir ayədə, "**nəfsinin eqoist hərisliyindən xilas olan insanların nicat tapacağını**" belə bildirmişdir:

**... Nəfsinin tamahından qorunan kimsələr nicat tapanlardır. (Həşr surəsi, 9)**

Nəfsi eqoist olan münafiqlər, maraqlarını, qürur və eqoistliklərini qorumaq və beləliklə özlərini xilas edə bilmək üçün hər cür çirkin yola müraciət edərlər. Allah Quranda, münafiqlərin nəfslərindəki bu "**xəsis və eqoist hərisliklərin**" axirətdə daha da azğın hal alacağını bildirmişdir. Belə ki, münafiq cəhənnəmdə sırf özünü xilas edə bilmək üçün; "**bütün yaxınlarını; ailəsini, qohumlarını, övladlarını, həyat yoldaşını, anasını, atasını, bir sözlə, sahib olduğu hər şeyi qurban kimi vermək istəyəcək**":

**Halbuki onlar bir-birini görəcəklər. Günahkar o günün əzabından qurtarmaq üçün fidyə vermək istəyər - öz oğullarını, həyat yoldaşını və qardaşını, ona sığınacaq vermiş nəslini və yer üzündə olanların hamısını - təki bu onu xilas etsin. Xeyr! Bu, alovu şölələnən Oddur. (Məaric surəsi, 11-15)**

**Rəbbinin dəvətini qəbul edənlər üçün ən gözəl nemət (Cənnət) hazırlanmışdır. Onun dəvətini qəbul etməyənlərə gəlincə, yer üzündə olan var-dövlətin hamısı, üstəlik bir o qədəri də onların olsaydı, əzabdan qurtarmaq üçün onu mütləq fidyə verərdilər. Onlarla dəhşətli bir haqq-hesab çəkiləcəkdir. Onların sığınacaqları yer Cəhənnəmdir. Ora nə pis yataqdır! (Rad surəsi, 18)**

Məhz Allah Quran ayələri ilə, münafiq nəfsinin nə qədər azğın olduğunu, Allaha sığınıb hidayət tapmadıqları halda, özlərinə olan bağlılıqlarının və nəfslərini qoruma hərisliklərinin nə qədər dəlisov həddə çatdığını bizə bildirmişdir. **Lakin (tövbə etmədiyi müddətcə) münafiq nə dünyada, nə də axirətdə qurtulacaq. Allah, bütün dünyanı qurban kimi versələr belə, bunun münafiqi çəkəcəyi əzabdan heç vaxt xilas edə bilməyəcəyini xəbər verib.**

## Münafiq hər şeydən şübhələnər; hər təfsilatı öz əleyhinə zənn edər

**Günahkar insanla günahsız insanı bir-birindən fərqləndirən ən mühüm əlamətlərdən biri, "günahsızın hüzurlu, günahkarın isə narahat olması"dır. Dünyanın bütün ölkələrində günahkar insanlar, narahat ruh hallarından, ətrafı qorxu içində süzən narahat baxışlarından, qəribə hərəkət və mimikalarından özlərini ələ verirlər. Bu cür**

insanlar həyatları boyu ifşa olma, yaxalanma, alçalma qorxusu yaşayarlar. Günahlarını işlədikdən sonra, insanlardan qaçan "vəhşi heyvanlar kimi", hər fürsətdə öz yuvalarına, yəni öz tənha dünyalarına çəkilər və qorxu dolu gözləyiş içinə girərlər. Qaranlıqda gizlənər və görülməməyi ümid edərlər.

Məhz münafiqin ruh halı da belədir. Çünki münafiq həmişə cinayət işləyən, işlədiyi cinayəti ört-basdır edə bilmək üçün yalan danışan, xəstə ruha malikdir. Həyatı boyu həmişə xəyanət edər və həmişə hiyləgər planlar qurar. Buna görə də, üzərində hər an bu vəziyyətin meydana gətirdiyi yaxalanma və fərq edilmə qorxusu vardır.

Münafiqin fərq edilməkdən bu qədər qorxmasının səbəbi, tam "dünya aşiqi olması", yəni "dünyaya olan şiddətli bağlılığı"dır. Bir münafiq üçün ən böyük fəlakət, "alçalması, etibarını itirməsi, işlədiyi cinayətlərin ortaya çıxıb alçaldılması"dır. Münafiq alçalmaqdan sanki ölümdən qorxarmış kimi qorxar. Ən kiçik yalanının və ya xainliyinin ortaya çıxması ehtimalı, bədənindən ət qopardılırmış kimi canını yandırar. Etibarının zədələnməsi ehtimalı ona həyatın sonu kimi gələr. Allahdan qorxmaz, lakin insanlardan ölümünə qorxar.

Digər tərəfdən münafiqin ruhunda yaşadığı əzab dolu bu qorxunun miqyası, digər günahkar insanlara görə qat-qat daha genişdir. Çünki münafiq fasiləsiz cinayət işləyər və fasiləsiz yalan danışar. Müsəlmanlarla birlikdə yaşadığı hər gün və günün hər saatı ayrı bir xainlik edər. Oğurluq edər, böhtan atar, tələ qurar, küfr əhli ilə əməkdaşlıq edər, casusluq edər. Dolayısilə işlədiyi hər cinayət ondakı qorxu duyğusunun dərinliyini bir qat daha artırar. Zamanla bu vəziyyət elə hal alar ki, ruhu qorxunun və şübhənin şiddəti ilə sarsılmağa, şiddətli təzadlarla yaşamağa başlayar.

Allah münafiqlərin bu "paranoyak ruh halını" bir ayədə "hər çağırışı öz əleyhlərinəymiş kimi zənn edərlər" sözləriylə bildirmişdir:

... Onlar hər bir səs-küyün özlərinə qarşı olduğunu sanırlar. Onlar düşməndirlər. Sən onlardan çəkin! Allah onları məhv etsin, necə də haqdan döndərilirlər! (Münafiqun surəsi, 4)

Allah bu ayə ilə müsəlmanlar üçün, münafiqin ən zəif nöqtələrindən birini ifşa etmişdir. Münafiq, "**ətrafındakı hər danışığın, hər hərəkətin, yaranan hər vəziyyətin, yaxalanma qorxusundan ötrü, öz əleyhinə olduğunu zənn edər**". Ən kiçik hərəkətdən, ən kiçik qırpınmadan, ən kiçik sözdən heyrətamiz dərəcədə şübhələnər və narahat olar. **Həmişə, işlədiyi cinayətlərin görülməsi şübhəsi içini gəmirər.**

Müsəlmanlar öz aralarında söhbət etdikləri zaman münafiq dərhal gizlincə qulaq asmağa başlayıb özü ilə əlaqədar bir şey danışılıb-danışılmadığına nəzarət edər. Əlaqəsi olmayan bir mövzudan özünə pay çıxardıb; "**mənim barəmdə danışırsınız**?" deyə qışqır-bağır salar. Müsəlmanlar dürüst olmağın əhəmiyyətindən bəhs etsə, həmişə yalan

söyləməsinin gətirdiyi günahkarlıq duyğusu ilə, "**mənə eyham edirlər?", "mənə yalançı deyirlər?"** deyə ortaya çıxar. Müsəlmanlar çalışqan olmağın zəruriliyindən bəhs etsə, "**mənə tənbəl deyirsiniz?"** deyərək narahatlıq çıxardar. Özünə baxan birini görsə; "**məni izləyir, hərəkətlərimi müşahidə edir**" deyə deyinməyə başlayar. Özünə baxmayan birini görsə, "**gözünü məndən xüsusilə qaçırdır, görməzlikdən gəlir**" deyib sevilmədiyi, maraq görmədiyi, fikir verilmədiyi kimi böhtanlarla "saxta zərərçəkmiş insan kimi danışar". Müsəlmanlar israf etməməyin əhəmiyyətindən bəhs etsə; "**yediklərimdə gözləri var, yediklərimi, içdiklərimi sayırlar**" deyər. Yanındakı müsəlman qalxıb bir yerə getsə; "**məndən uzaqlaşmağa çalışır, yanımda oturmaq istəmir**" kimi sözlərlə problem çıxardar.

**Məhz münafiqin həyatının hər anı bu cür şübhələr, hallüsinasiyalar və paranoyak düşüncələrlə keçər**. Bu qorxu dolu ruh halı münafiqin zamanla əsəblərinin kəskin şəkildə pozulmasına; "**aqressiv, təcavüzkar, iyrənc rəftarlar göstərməsinə**" səbəb olar. Buna görə də, münafiqlərin ortaq xüsusiyyətlərindən biri də "**qışqır-bağır salan, davakar, təcavüzkar olmaları**"dır.

**Münafiqlərin bu şübhəçi və paranoyak rəftarları, ən çox da gözəl əxlaqları ilə müsəlmanlara mənəvi lider, yolgöstərici olan təqvalı müsəlmanların yanında artar**. Çünki münafiqin ən şübhələndiyi insanlar həmişə ən ağıllı, ən imanlı, ən təqvalı gördüyü müsəlmanlardır. Yəni "**özünü görüb münafiq olduğunu müəyyənləşdirmə ehtimalı ən yüksək olan insanlar**"dır. Məsələn, Peyğəmbərimiz (s.ə.v)-in dövründə münafiqlər "**Rəsulullah (s.ə.v)-in hər sözünə, hər öyüdünə şübhə ilə yanaşar, buna görə də təcavüzkar və iyrənc rəftar göstərərdilər**". Çünki Peyğəmbərimiz (s.ə.v)-in çox üstün ağla sahib olduğunu, edilən səmimiyyətsizliyi və xainliyi çox yaxşı görə biləcəyini bilər və bundan ötrü də çox qorxardılar. **Peyğəmbərimiz (s.ə.v)-in insanları müəyyənləşdirə bilmə gücü, ağlı və zəkası münafiqlərin sanki qorxulu yuxusu idi.** Həmçinin Allah münafiqlərin Peyğəmbərimiz (s.ə.v)-ə "**qəlblərindəki xainliyi xəbər verəcək və onların pisliklərini ifşa edəcək bir surə nazil edilməsindən qorxduqlarını**" da bir ayədə belə bildirmişdir.

**Münafiqlər, özlərinin qəlbində olanı xəbər verən bir surənin möminlərə nazil olmasından çəkinirlər. De: "Siz istehza edin! Şübhəsiz ki, Allah çəkindiyiniz şeyi üzə çıxaracaqdır". (Tövbə surəsi, 64)**

Ayədən də açıqca aydın olacağı kimi münafiqlər, Peyğəmbərimiz (s.ə.v)-in, Allahın vəhyi və köməyi ilə, öz etdiklərini öyrənə biləcəyindən heyrətamiz dərəcədə qorxur və bunun narahatlığını yaşayırdılar. Əlbəttə ki, bu, Allaha və Peyğəmbər (s.ə.v)-ə vəhy gəldiyinə inanmalarından qaynaqlanmırdı. Lakin Peyğəmbər (s.ə.v)-in müəyyən yolla onların səmimiyyətsizliyini görüb bunu açıqlaya biləcəyini düşünürdülər. Buna görə də, təcavüzkarlıqları xeyli artır və Peyğəmbərimiz (s.ə.v)-in hər öyüdünü, hər sözünü, hər tövsiyəsini əleyhlərində şərh edir və şübhə ilə qarşılayırdılar.

Lakin Allahın, ayənin davamında; "**Allah qaçdığınız şeyləri üzə çıxardacaqdır**" sözləriylə bildirdiyi kimi, münafiqin tələsi mütləq ortaya çıxıb puç olacaq şəkildə yaradılmışdır. **Münafiqlərin ən qorxduqları şey mütləq baş verəcək və şübhələndikləri aqibət mütləq özlərini tapacaq və Allah onları mütləq məğlubiyyətə düçar edəcək.**

## Münafiq, müsəlmanların "zəif ağıllı", özünün isə "dünyanın ən ağıllı insanı olduğuna" inanar

Allah bir Quran ayəsində səmimi iman gətirmələri üçün təbliğ edilən insanların müsəlmanlar barədə; "**zəif ağıllıların iman gətirdikləri kimi iman gətirək**?" dediklərini bildirmişdir:

**Onlara: "Bu insanlar iman gətirdiyi kimi siz də iman gətirin!" – deyildiyi zaman: "Biz də səfehlərin iman gətirdikləri kimi iman gətirək?" – deyirlər. Doğrusu, onlar özləri səfehdirlər, lakin bunu bilmirlər. (Bəqərə surəsi, 13)**

Məhz ayədə verilən bu nümunə, "**münafiqin ruh halını**" və "**müsəlmanlara olan baxış prizmasını**" çox açıq şəkildə göstərir. Münafiq, özünü "**dünyanın ən ağıllı insanı**" kimi görər. Əslində isə münafiqdə "**ağıl" meydana gəlməz, çünki ağıl, Allahın təkcə iman gətirdikləri halda insanlara lütf etdiyi nemətidir. Lakin münafiq, ağlı olmadığı üçün, "nə öz ağılsızlığını, nə də müsəlmanların böyük ağlını**" görə bilməz. Axmaqlığından ötrü, müsəlmanların "**zəif ağıllı kəslər**" olduğuna inanar. Halbuki Allah; "**bilin ki, əsil zəif ağıllılar özləridir, lakin bilməzlər**" sözləri ilə, "ağılsız olanların münafiqlər olduğunu, təkcə onların bu vəziyyəti dərk etmədiklərini" xəbər vermişdir.

Münafiq, bu ağılsız qiymətləndirməsinə görə müsəlmanların, öz etdiyi hiyləgərlikləri, əxlaqsızlıqları və ağılsızlıqları görə bilmədiklərini düşünər. Halbuki Allahın Quran vasitəsilə yol göstərməsi və müsəlmanlara verdiyi kəskin ağıl sayəsində müsəlmanlar münafiqlərdəki hər cür şeytani əlaməti asanlıqla görərlər.

## Yalan danışmaq, münafiqdə sanki "ruhi xəstəlik" halını alıb

Münafiq, özü üçün meydana gətirdiyi hiyləgər həyat tərzi içərisində yaşaya bilmək üçün, öz ağlınca həmişə saxtakarlıqlarına davam etmək, hər oyununu başqası ilə dəstəkləmək və həmişə şeytani əməllərini gücləndirmək məcburiyyətindədir. **Məhz bu alçaq sistemini qoruyarkən, ən ehtiyac duyduğu və ən çox faydalandığı əxlaqsızlıqlardan biri də "yalan danışmaq"dır.**

Həyatını "**ikiüzlülük, hiyləgərlik, saxtakarlıq və oyun oynamaq**" üzərində quran münafiq üçün "**yalan söyləmək, sanki nəfəs almaq kimi, çox adi və sadə qarşıladığı hərəkətdir**". Yalan söyləmədiyi təqdirdə münafiq, münafiq olmaqdan çıxacaqdır. Bu da onun qətiyyən istəməyəcəyi haldır. Münafiqin zəif ağlına görə, dürüst olması ona heç nə qazandırmayacağı kimi, çox şey itirdəcək və bütün maraqlarını təhlükəyə atacaq. Dolayısilə də münafiq yalanı, həyatının çox mühüm parçası kimi mənimsəmiş və gündəlik həyatının çox böyük hissəsini yalanla keçirən hala gəlmişdir.

**Yalan mövzusunda münafiq haqqında bilinməsi lazım olan bir şey daha var. Münafiq yalandan, "pislik edə bilmək, böhtan ata bilmək, insanları aldatmaq, öz aləmində müsəlmanları pis göstərə bilmək, onları tələyə salıb müvəffəqiyyətsiz hala gətirmək, küfr əhlinə dəstək təmin etmək kimi hər cür pis məqsəd üçün" istifadə edər. Lakin bu yalan danışma vərdişi, bir müddət sonra münafiqdə sanki "ruhi xəstəliyə" də dönər. Artıq həyatının hər mərhələsində; "lazımlı və ya lazımsız, məqsədli və məqsədsiz ağlına gələn hər mövzuda", "üzündə yalan danışdığına dair ən kiçik utanma, sıxılma əlaməti olmadan", həmişə yalan danışmağa başlayar.** Bu da ətrafındakı insanların çox diqqətini çəkər. Çünki **söylədiyi hər şey çox şişirdilmiş, çox nağılvarı, çox xəyali və çox nadir rast gəlinəcək şeylərdir. "Uşaq yaşlarında təkbaşına boğazdan üzüb keçərək sahilin o tayına keçdiyindən, üstündən avtomobil keçib heç nə olmadan ayağa qalxdığından, küçədə quşların başına qonub yüzlərlə metr onunla birlikdə hərəkət etdiyinə qədər", hamısı "bir-birindən məntiqsiz və şişirdilmiş**" təfərrüatları olan hekayələr danışar.

Bunun kimi münafiqin yalanlarında diqqətçəkən başqa xarakterik xüsusiyyət də, "**münafiqin əvvəlki yalanlarını unutması və bir-biri ilə ziddiyyətli çıxışlar etməsi**"dir. Münafiq səhər fərqli danışar, axşam isə tam fərqli şey söyləyər. Beş dəqiqə əvvəl; "**bu gün bütün gecə heç yata bilmədim**" deyər, beş dəqiqə sonra isə "**o qədər dərin yatmışam ki, səhərə qədər çox yuxu gördüm**" deyə başqa hekayə söyləməyə başlayar.

Normal ağla sahib müsəlmanlar çox dürüst və çox həssas vicdan sahibi insanlardır. Yalan söyləməyin Allahın qadağan etdiyi, haram buyurduğu çirkin əxlaq pozuntusu olduğunu bilirlər. Zərərli və ya zərərsiz hər hansı mövzuda yalan danışmaqdan Allaha sığınar, özləri bundan ötrü zərər çəksələr belə, heç vaxt belə şeyə üz tutmazlar. Allahdan qorxar və hər zaman hər mövzuda mütləq doğru danışarlar. Hətta bəzən, istəmədən bir mövzunun kiçik bir təfərrüatı əskik qalıb da səhv başa düşüləcək belə olsa, bunu düzəldib tam başa düşülməsini təmin etmək üçün dəfələrlə açıqlama verərlər.

Məhz vicdanən belə təmiz insanlar arasında yaşayan münafiq, saxtakarlıqları ilə heyrətamiz ziddiyyət meydana gətirər və çox diqqət çəkər. Müsəlmanlar bu insanın normal ağla və vicdana sahib olmadığını dərhal anlayar və buna görə tədbirlərini alarlar. Münafiq isə hiss edildiyindən xəbərsizdir, buna görə də laqeydcəsinə yalanlarına davam edər.

## Münafiq, yalandan müsəlmanlara qarşı mübarizə aparmaq üçün istifadə edər

Allah bir Quran ayəsində "...**elə isə onları yalan olaraq uydurduqları ilə baş-başa burax**" (Ənam surəsi, 112) sözləri ilə münafiqlərin "yalan danışma" xüsusiyyətlərini müsəlmanlara bildirmişdir.

Başqa ayədə də yenə Allah, münafiqlərin bu pozuq əxlaqını; "...**onlar, həqiqətən, yalançıdırlar**!" (Həşr surəsi, 11) sözləriylə xəbər vermişdir. Məhz münafiq, müsəlmanların yanında olduğu müddətcə göstərdiyi gizli fəaliyyətlərini və saxtakarlıqlarını gizlədə bilmək üçün bir çox yalan danışar. Sonra da hər söylədiyi yalanın üstünü örtə bilmək üçün yeni-yeni yalanlara ehtiyac duyar. Bunun nəticəsində də **səhərdən-axşama qədər nəfəs almadan, həyasızca və heç utanmadan, müsəlmanların gözlərinin içinə baxa-baxa, həmişə yalan danışar.**

Bu yalanları söyləyərkən münafiqin diqqətçəkən başqa cəhəti isə, "**yalan danışarkən üzündə ən kiçik utanma, sıxılma, üzündə qızarma olmaması**"dır. Olduqca "**üzsüz və şərəfsiz şəkildə", "yalan olduğu hamı tərəfindən bilinən çox bariz mövzuda", heç narahat olmadan saatlarla yalana əsaslanan danışıqlar edə bilər.**

Münafiqin yalanlarında nəzərə çarpan digər xüsusiyyət isə, "**çox axmaqca yalan söyləməsi**"dir. Çünki inkarçı insanlar arasında bəzi kəslər vardır; onlar da yanlış rəftar olaraq yalan söyləyərlər. Lakin öz aləmlərində yenə də "**ağıllı yalanlar**" söyləməyə çalışarlar. Arxalarında əksini sübut edəcək dəlil qoymazlar və danışıqlarının yalan olduğu da, təkcə çox çətin təsbitlərdən sonra aydın olar.

Lakin münafiq belə deyil. Münafiqin bütün yalanları çox "**axmaqca", "yalan olduğu asanlıqla sübut edilə bilən", "ağılsız məntiqlərə əsaslanan**"dır. Bir qədər əvvəl söylədiyi şeyi unudar, bir an sonra onu inkar edər. Əvvəlcə; "**mən bu gün buraya heç getmədim**" deyər, danışığının başqa yerində isə; "**yox, mən bu gün bütün gün buradaydım**" deyər. "**Amma bir qədər əvvəl belə demişdin**" deyə xatırladıldığı zaman isə; "**yox mən elə demədim, haradan çıxartdın, sənə elə gəlir**" deyər. Sonra da; "**sən boş-boşuna mənə böhtan atıb, məni yalançılıqla günahlandırırsan**" deyə iyrənclik etməyə və qarşı tərəfi günahkar çıxartmağa çalışar.

Məhz münafiqin bu "**böyük ağılsızlığı**" və "**yalanlarındakı axmaqca və avam üsullar**", Allahın müsəlmanlara verdiyi dəstəyi və qoruması, münafiqə isə səmimiyyətsizliyindən ötrü tuş gələn "**bəladır**". Beləliklə müsəlmanlar hər yalanından münafiqi asanlıqla görə bilər və tədbirlərini alarlar.

**Münafiq müsəlmanlar arasında yalandan bir çox məqsəd üçün istifadə edər.** Bunların ən başında, əlbəttə ki, "**müsəlmanlara daxilən zərər vermək və hiyləgərcə küfr əhli ilə əməkdaşlıq etdiyini gizlətmək istəyi**" vardır. "**Öz alçaqlıqlarını, etdiyi hiyləgərlikləri, saxtakarlıqları, səmimiyyətsizlikləri gizlətmək**" üçün də, yenə həmişə

yalana müraciət edər. Xüsusən də "**özünü müdafiə etmək, təmizə çıxartmaq, üzərindəki münafiq əlamətlərini gizlədib, özünü səmimi müsəlman kimi göstərə bilmək**" üçün, münafiq, yalandan şeytani silah kimi istifadə edər.

Münafiq bəzən də, "**yalanla digər hiyləgər üsullarını birləşdirib**" "**daha da şeytani müdafiə mexanizmi**" yaratmağa çalışar. Bəzən qarşı tərəfə "**böhtan ataraq, bəzən ağlayaraq, bəzən qışqırıb bağıraraq, bəzən də təcavüzkarlaşaraq**" öz aləmində yalanını çox inandırıcı hala gətirmək istəyər. Müsəlmanlar münafiqin yalanını ortaya çıxartdıqları zaman isə, münafiq onları özünə "**böhtan atmaq**"la günahlandırar. Ona; "**yalan danışırsan**" deyildikdə, "**mən yalan danışmadım, sən niyə mənə böhtan atırsan**?" deyərək ardı-arxası kəsilməyən iyrəncliklərinə davam edər. Həmçinin bütün bunları edərkən də, Allahın Quranda; "**...biz yaxşılıqdan başqa şey istəmədik deyə and içənlər (var ha,) Allah onların, şübhəsiz, yalançı olduqlarına şahidlik edir**" (Tövbə surəsi, 107) sözləriylə bildirdiyi kimi, "nə qədər yaxşı niyyətli olduqlarını" vurğulamaq üçün "**Allah adına and da içərlər**". Halbuki Allah ayədə onların "**yalan danışdıqlarını**" xəbər vermişdir.

Başqa ayədə isə; "**...sənə Allah adına and içəcəklər**" sözləri ilə Allah, münafiqin bu üsuluna bir daha diqqət çəkmişdir. Allah münafiqlərin, sanki iman gətirmiş və səmimi müsəlmanmış kimi Allahı şahid göstərərək yalan yerə and içdiklərini bildirmişdir. Həmçinin ayənin davamında da Allah; "**öz nəfslərini həlaka sürükləyirlər. Allah onların həqiqətən yalan danışdıqlarını bilir**" (Tövbə surəsi, 42) sözləri ilə, münafiqlərin həm dünyada, həm də axirətdə ziyana düçar olacaqlarını xəbər vermişdir.

## Münafiq, müsəlmanlara böhtan ataraq özünü təmizə çıxartmağa çalışar

Münafiqin hiyləgər oyunlarından biri də, demək olar ki, hər fürsətdə səmimi müsəlmanlara "**böhtan atmaq vərdişi**"dir. Münafiq "**şübhəni üzərindən uzaqlaşdırmaq, günahkar görünüşündən xilas olmaq və öz aləmində təmizə çıxa bilmək**" üçün həmişə "**özünü zərərçəkmiş biri kimi göstərmə səyi**" göstərər. Məqsədi özünü "**lüzumsuz yerə şübhə edilən, lazımsız yerə narahat olunan**", "**günahsız insan**" kimi göstərməkdir. Lakin, əlbəttə, bu da münafiqin xəstəlikli planlarından biridir. Nə qədər zərərçəkmiş biriymiş təəssüratı versə, özü üçün o qədər geniş, rahatlıqla hərəkət edə biləcəyi, asanlıqla xainlik edə biləcəyi yer aça biləcəyini düşünər. Bu hədəfinə nail olmağın ən qısa və təsirli yollarından birinin də, öz aləmində "**müsəlmanlara böhtan atmaq**" olduğuna inanar.

Münafiqin demək olar ki, hər sözündə "**açıq və ya gizlin bir zərərçəkmiş eyhamı**" vardır. Bu saxta zərərçəkmiş insan imicini dəlilləşdirmək üçün də, çoxlu yalan danışar və müsəlmanlara böhtan atar. İşlətdiyi bu üsul da, əlbəttə, hiyləgər planın bir hissəsidir. **Böhtan ataraq həm qəzəb bəslədiyi müsəlmanları qaralamaq, həm də özünü "zərərçəkmiş və günahsız" biri kimi göstərərək ucaltmağı hədəfləyər**. Öz aləmində müsəlmanlara

duyulan etibarı və onların sözlərinə qarşı duyulan inancı sarsıdacaq, özünə qarşı duyulan güvən və etibarı isə gücləndirəcək.

Lakin münafiq böhtanı, əlində heç bir dəlil olmadan ixtiyari şəkildə gündəmə gətirməz. Şeytandan aldığı ilhamlarla **əvvəlcə mövzunu hiyləgərcə planlayar və zəminini gücləndirər**. Atacağı böhtanın təməli ola bilməsi üçün, **hadisələri, olmasını istədiyi hala, yəni atacağı böhtana bənzər hala gətirə bilmək üçün xüsusi şəkildə istiqamətləndirər.** Sonra da vaxtı gəldikdə, atacağı böhtan üçün keçmişə dair təqdim edə biləcəyi **saxta dəlillər meydana gətirər**. Məhz zaman içərisində bütün bu **təməli möhkəmləndirdkdən sonar, planını icra etməyə başlayar.**

**Münafiq, böhtan atarkən istifadə etdiyi mövzuları da çox diqqətlə seçər**. Ümumiyyətlə "**böhtanları, onun səmimiyyətinə, yaxşı niyyətinə, göstərdiyi səyə baxmayaraq, müsəlmanların anlayışsızlığı, pis əxlaqı, yalan danışmaları, pis davranmaları, ədalətsizlik etmələri, böhtan atmaları, bilərəkdən onu təcrid etmələri kimi", "özünü ucaltmağı müsəlmanları isə pisləməyi**" qarşıya məqsəd qoyan məntiqlər üzərində qurulubdur. **Bu böhtanlarda müsəlmanlar həmişə demək olar ki, dünyanın ən pis insanlarıdır**. Həmçinin xüsusən də ona qarşı çox çirkin rəftarlar göstərirlər. **Münafiq isə bütün bu böhtanlarda həmişə yaxşı niyyətlə səy göstərən, lakin həmişə barəsində yanlış diaqnozlar qoyulan, səhv başa düşülən, yaxşılıqdan başqa istəyi olmayan günahsız və zərərçəkmiş şəxs mövqeyindədir**. Lakin bütün bunlar tam şeytanın əxlaqına uyğun olaraq "**uydurulmuş yalanlar**"dan ibarətdir. Çünki münafiq hər hərəkətində olduğu kimi, bu planını icra edərkən də birbaşa şeytanla ittifaq halındadır. Allah Quranda şeytanların əməkdaşlıq edəcəkləri kəslərin "**həqiqəti tərs üz edən", "günaha düşkün"** və **"yalançı**" insanlar olduqlarını bildirmişdir. Məhz bu xüsusiyyətlərlə də, tam da "münafiqin əxlaqsızlığı" təsvir edilmişdir:

**Şeytanların kimə nazil olduqlarını sizə xəbər verimmi? Onlar hər bir yalançıya və günahkara nazil olarlar. (Şuəra surəsi, 221-222)**

Münafiqlərin müsəlmanlara böhtan atma üsullarına çoxsaylı nümunə vermək mümkündür. Məsələn, "**münafiqin heç istəməyəcəyi şeylərdən biri İslama və müsəlmanlara fayda verəcək işlər görməkdir**". Lakin müsəlmanlar gecə-gündüz təbliğ işləri görərkən, **özünün bu işlərə heç bir töhfə verməməsi diqqət çəkməsin deyə, bu mövzuda özünü təmizə çıxartmaq məcburiyyətindədir**. Məhz bunun üçün dərhal ətrafını günahlandırar və müsəlmanlara böhtan atar. "**Mən İslama çox xidmət etmək istəyirəm, lakin onlar mənimlə ortaq iş görmək istəmirlər, mənə bir fəaliyyət vermirlər, mənim köməyimi istəmirlər və ya işlərimə mane olurlar**" kimi bəhanələrlə ortaya çıxar.

Halbuki əlinin altında **İslama faydalı ola biləcəyi, müsəlmanlara kömək edə biləcəyi bir çox imkanı vardır.** Həmçinin hər dəfə; "**mən də bir fəaliyyət görmək, sizə kömək**

**etmək istəyirəm**" dediyi zaman ondan; "**yaxşı, o zaman bu mövzuda belə bir iş görərsənmi**?" kimi bir şey tələb edilər. Lakin münafiq bilərəkdən bunların heç birini yerinə yetirməz. Onsuz da "**bu sözləri dediyi vaxtdakı niyyəti də heç vaxt xidmət etmək deyildir". Təkcə böhtan ata bilmək və narahatlıq törədə bilmək üçün bəhanə tapmaqdır. Heç bir işə yaramadığını və müsəlmanlara heç bir mövzuda kömək etmədiyini özü də bilir və iyrənclik edərək qışqır-bağır salaraq bu imicinin üstünü örtə biləcəyini zənn edər. İnsanların ağlında; "istəyir, lakin imkan verilmədiyi üçün bir şey edə bilmir hissini yarada biləcəyini"** zənn edər. Halbuki müsəlmanlar **səmimi xidmət etmək istəyən birinin rəftarı ilə, əxlaqsızlığından ötrü xidmətdən hiyləgərcə qaçan birinin rəftarını asanlıqla ayırd edə biləcək qədər ağıllıdırlar**.

Münafiqin bu əxlaqını detallaşdırmaq üçün verilə biləcək daha yüzlərlə nümunə var. Münafiq böhtan vasitəsi olaraq lazım gəldikdə, "**sağlamlıq kimi həssas mövzudan belə istifadə etməyə çalışar**". Məsələn, özünə yeni bişirilmiş çox gözəl yemək verilər; "**yeməyin köhnəlmiş olduğunu**" iddia edər. Yediyi meyvənin kənarında çürük görsə, "**mənə bunu xüsusilə seçib verdilər, mənim sağlamlığıma fikir vermirlər**" kimi xəyal məhsulu böhtanla ortaya çıxar. Olduğu yerdəki tozdan ötrü allergiyası tutsa; "**buranı xüsusilə tozlu qoydular, həyatımı təhlükəyə atdılar**" deyər. Ona gözəl söz söyləyər, kompliment deyərlər; "**mənə lağ etdilər**" deyər. Gördüyü bir işə kömək etmək istəyərlər, "**bacarıqsız olduğumu eyham etməyə çalışdılar**" deyər.

Məhz münafiq, müsəlmanların arasında qaldığı müddətcə, bunlara bənzər böhtanları heç vaxt bitməz. Dünyada qarşılaşa biləcəyi ən vicdanlı, ən dürüst insanların müsəlmanlar olduğunu bildiyi halda, "**bu nur kimi tərtəmiz insanları qaralamağa çalışaraq narahatlıq yaratmaq və müsəlmanlara zərər vermək**" istəyər. Lakin bu etdikləri müsəlmanlar üçün xeyir, münafiq üçünsə əzabla nəticələnər. Allah Quranda "**həqiqəti həmişə tərs üz edərək**" böhtan atan münafiqin axirətdə ağrılı-acılı əzabla qarşılaşacağını belə bildirmişdir:

**Vay halına iftiraçının və günahkarın! O, Allahın ona oxunan ayələrini eşidir və sonra, sanki onları eşitməmiş kimi təkəbbür göstərərək inadkarlıq edir. Beləsini ağrılı-acılı bir əzabla müjdələ. (Casiyə surəsi, 7-8)**

## Münafiq böhtanlarıyla xüsusən də müsəlmanlarin mənəvi lideri olan elçiləri qaralamaq istəyər

Münafiq böhtan ataraq, "**müsəlmanlar arasında fitnə və qarışıqlıq yaratmaq, öz aləmində onların arasını vura bilmək və bir-birlərinə qarşı duyduqları etibarı zədələmək**" istəyər. Məhz bu mövzuda özünə ilk hədəf kimi seçdiyi kəslər də, "**müsəlmanlar arasında ağlına, gözəl əxlaqına, sözünə ən güvənilən, ən təqvalı, ən dürüst və ən ədalətli tanınan,**

**Allahın elçiləri olan kəslər**"dir. Həqiqəti tərs üz edərək, dil əyib bükərək, yalan danışıb böhtan ataraq, öz zəif ağıllarına görə həmişə onları haqsız çıxartmağa və **müsəlmanların nəzərində onları guya "ədalətsiz və etibarsız" kəslər kimi göstərməyə çalışarlar**. Allah Quranda münafiqlərin bu şeytani üsullarını belə xəbər vermişdir:

**...Heç bir elmə əsaslanmadan insanları azdırmaq üçün Allaha qarşı yalan uydurandan daha zalım kim ola bilər? Şübhəsiz ki, Allah zalım qövmü doğru yola yönəltməz. (Ənam surəsi, 144)**

Münafiqlər tarix boyu bu hiyləgər taktikaları ilə hər müsəlman cəmiyyətində eyni fitnəni törətməyə çalışmış, **bütün peyğəmbərlər, elçilər və Allahın vəli qullarına eyni böhtanları atmağa cəhd etmişlər. Hz. Yusif (ə.s), Misirdə yanında qaldığı Vəzirin həyat yoldaşı tərəfindən "özündən murad almaq" istədiyi iftirası ilə günahlandırılmış və Vəzirin arvadının yalan şərhləri nəticəsində illərlə zindanda qalmışdır**. Bu hadisə, Allah qorxusu olmayan, axirətdə haqq-hesab verəcəyini düşünməyən, yalanı öz mənfəətləri üçün alçaqca istifadə etdiyi münafiq xarakterli insanların nə qədər gözü dönmüş olduqlarını açıqca göstərir.

Quranda, "**əslində Vəzirin həyat yoldaşının hz. Yusif (ə.s)-a yaxınlaşmaq istədiyi**" və Yusif peyğəmbər (ə.s)-ın onu rədd etdikdən sonra da; "**yalan danışaraq ona böhtan atdığı**" bildirilmişdir:

**Evində qaldığı qadın onu yoldan çıxartmaq istədi və qapıları bağlayıb: "Yanıma gəl!" - dedi. O isə: "Allah uzaq eləsin! Axı sənin ərin mənim ağamdır, mənə yaxşı baxmışdır. Şübhəsiz ki, zalımlar nicat tapmazlar!" - dedi. (Yusif surəsi, 23)**

**Onlar bir-birini qabaqlamaq məqsədilə qapıya tərəf yüyürdülər və qadın onun köynəyini arxadan cırdı. İkisi də qapının yanında qadının əri ilə rastlaşdı. Qadın dedi: "Sənin ailənə pislik etmək istəyənin cəzası, zindana salınmaqdan və ya ağrılı-acılı bir əzaba düçar edilməkdən başqa nə ola bilər?!" (Yusif surəsi, 25)**

Vəzirin həyat yoldaşı; "**ailənə pislik etmək istəyənin zindana salınmaqdan və acı bir əzabdan başqa cəzası nə ola bilər**?" deyərək açıqca yalan söyləmiş, hz. Yusif (ə.s)-a böhtan atmış və haqsızca zindanda qalmasına səbəb olmuşdur. Quranın; "**...(Əri): "Həqiqətən, bu sizin hiylələrinizdən (biri)dir. Həqiqətən sizin hiyləniz böyükdür" dedi**" (Yusif surəsi, 28) ayəsi ilə, "**Vəzirin də bu böhtanın "böyük tələ" olduğunu gördüyü və hz. Yusifin günahsız olduğu halda böhtana məruz qaldığını anladığı**" bildirilmişdir. Necə ki, başqa ayədə isə Allah; "**sonra onlarda (Yusifin iffətinə dair) dəlilləri gördükdən sonra, yenə də onu bir müddət zindana salmaq (fikri) üstün gəldi**" (Yusif surəsi, 35) sözləri ilə

hz. Yusif (ə.s)-ın, günahsız olduğu aydın olduğu halda, haqsızca zindanda saxlanıldığını xəbər vermişdir.

Məhz Quranda bildirilən bu hadisə, Allah qorxusu olmayan insanların böhtanlarının və tələlərinin böyüklüyünü göstərir. Bu böhtanda, Yusif peyğəmbər (ə.s)-ın iffəti hədəf alınmışdır. Lakin münafiqlərin böhtan atarkən müsəlmanları ittiham etdikləri mövzular çox müxtəlifdir. Xüsusən də **Allahın elçiləri və ya müsəlmanların liderlərindən söhbət getdikdə, münafiqlər (zəif ağıllarınca) mütləq o kəslərin "rəhbər xüsusiyyətləri" baxımından, guya "aciz" və "qeyri-kafi"olduqları təəssüratını verməyə çalışarlar** (bu mübarək insanları münafiqlərin bu iddialarından tənzih edirik). Dövrün bütpərəst müşrikləri öz aləmlərində Peyğəmbərimiz (s.ə.v)-i "**dəlilik", "yalançılıq", "əqli çatışmazlıq", "kahinlik", "şairlik"** kimi yalan ittihamlarla günahlandırmağa çalışarkən, müsəlmanlar arasındakı münafiqlər də, **etdikləri incə-incə oyunlar, söylədikləri yalanlar və böhtanlarla, müsəlmanlara bu mövzularda şübhə vermək və Peyğəmbərimiz (s.ə.v)-ə olan inamı yox etmək istəyirdilər**.

Hal-hazırda da münafiqlər, müsəlman cəmiyyətlərinə mənəvi liderlik edən kəslərə qarşı apardıqları hiyləgər mübarizədə eyni taktikalardan istifadə edərlər. Münafiqlər, bu kəslərin "**İslam əxlaqını izah etməkdə, dünya səviyyəsində dinsizliyin fikri zəminin aradan qaldırmaqda və xüsusən də İslam aləmindəki münafiqlərə qarşı mübarizə aparmaqda nə qədər təsirli olduqlarının**" çox yaxşı dərk edirlər. Buna görə də özlərinə əsl hədəf kimi onları seçərlər. **Bu mübarək insanların varlığı, münafiqin küfrdəki dostları üçün mühüm təhdiddir.** Çünki **münafiq, təqvaca üstün olan bu kəslərin, özlərinin küfr əhli ilə olan gizli əməkdaşlığı, hiyləgər planlarını görüb poza biləcək ağıl, fərasət və bəsirət sahib olduqlarından xəbərdardırlar**. Öz şeytani sisteminə zərər gəlməməsi üçün, öz aləmində bu insanların təsirini yox edə biləcəyi yollar axtarar. Məhz bunun üçün də bəzən gizlin və açıq eyhamlarla, bəzən də açıqca etdiyi ittihamlarla, demək olar ki, hər mövzuda bu kəslərə qarşı "**böhtana əsaslanan mübarizə**" aparmağa başlayar.

Quranda münafiqlərin bu əxlaqı, "**pis fikrə düşən münafiq kişilər və münafiq qadınlar**" sözləri ilə bildirilmişdir:

**Həm də ona görədir ki, Allah Özü barəsində pis fikirdə olan münafiq kişi və münafiq qadınlara, müşrik kişi və müşrik qadınlara əzab versin. Onların pis niyyəti özlərini bəlaya salsın! Allahın onlara qəzəbi tutmuşdur. Allah onları lənətləmiş və onlar üçün Cəhənnəm hazırlamışdır. Ora nə pis dönüş yeridir. (Fəth surəsi, 6)**

**Münafiqin şeytani zəkası kəskin, yalan danışmaqdakı üfüqü də çox genişdir. "Bir yalanı yoxdan uydurub bəzəmək və bunu onlarla saxta dəlillə detallaşdırmaq**" münafiq üçün asandır. Bir anda "**nağıl kimi bir ssenari yazaraq**", heç bir həqiqət payı olmayan

yalanla müsəlmanlara böhtan ata bilər. Bunun üçün xüsusən də öz aləmində həmişə "**keçmişdən**" dəlil kimi istifadə edər.

İnsanların keçmişdə yaşanan hadisələri zamanla unuda biləcəklərini, təfərrüatların yaddaşlarından silinə biləcəyini düşünər. Məhz bu inancı əsasında, keçmişə dair həmişə yalan hekayələr söyləməyə başlayar. O anda onun üçün əhəmiyyətli olan, müsəlmanların nəzərində, hədəf aldığı elçilər və ya müsəlmanların mənəvi liderləri barədə, öz aləmində "**mənfi rəy yarada bilmə səyi**"dir. "**Keçmişdə burada bir dəfə də bu cür olmuşdu, bir dəfə də belə olmuşdu**" kimi, öz aləmində dörd-beş yalan hadisəni ardıcıl deyib dəlil göstərdiyi zaman, bunun həmin anda atacağı bir böhtanı gücləndirəcəyini zənn edər.

Halbuki müsəlmanlar "**ağıllı və diqqətləri açıq**" insanlardır. Xüsusən də aralarındakı, çox dəyər verdikləri və təqvaca üstün gördükləri "**Peyğəmbəri və Allahın elçilərini qorumaq məsələsində çox diqqətcildirlər**". Dolayısilə münafiqin zəif ağlına görə böhtan ataraq, keçmişdən dəlillər təqdim edərək etdiyi "**qaralama**" və "**mənfi ictimaiyyət yaratma**" səyləri müsəlmanlar üzərində heç bir işə yaramaz. Əksinə bu şeytani əməllərini gördükləri zaman, bu insanın münafiq xarakterini çox açıq şəkildə müəyyənləşdirib, ona qarşı daha da diqqətli olarlar. Həmçinin "**müsəlmanlara böhtan atılmasının da mühüm mömin xüsusiyyəti olduğunu**" da bilərlər. Bundan ötrü də, müsəlmanlara atılmağa çalışılan hər böhtanla, müsəlmanların bir-birlərinə olan sevgiləri də daha da artar. Allah Quranda müsəlmanların arasında yaşayan, "**uydurduqları yalan və böhtanlarla ortaya çıxan**" münafiqlərin mövcudluğunun müsəlmanlar üçün "şər deyil, əksinə xeyir olduğunu" bir ayədə belə bildirmişdir:

**Şübhəsiz ki, Aişə barəsində yalan xəbər gətirənlər özünüzdən olan bir dəstədir. Onu özünüz üçün pis bir şey hesab etməyin. Əksinə, bu sizin üçün xeyirlidir. O dəstədən olan hər bir şəxsin qazandığı günahın cəzası vardır. İçərilərindən günahın böyüyünü öz üstünə götürəni isə böyük bir əzab gözləyir. (Nur surəsi, 11)**

## Münafiq hiyləgər oyunları üçün "şüur altı manipulyasiya üsulu"ndan istifadə edər

Münafiqin müsəlmanları daxildən əldən salmaq üçün apardığı şeytani mübarizədə istifadə etdiyi bir-birindən fərqli, bir çox üsulu var. Bunlardan biri də, hiyləgərcə üslublarla müsəlmanlara vəsvəsə verə bilmək üçün istifadə etdiyi "**şüur altı manipulyasiya üsulları**"dır. Gizlincə verdiyi hiyləgər təlqinlərlə, (haşa) Allah, Quran, Peyğəmbər və müsəlmanlar haqqında, müsəlmanların ağlında sual işarələri yaranmasını və şübhəyə qapılmalarını təmin etməyə çalışar.

Məlum olduğu kimi, **şüur altı manipulyasiya üsulu**, hal-hazırda "**müsbət və ya mənfi məqsədlə bir çox mövzuda insanları öyrətmə və ya istiqamətləndirmə**" məqsədi ilə

istifadə edilən "**təsirli bir üsul**"dur. **Şeytan isə bu üsuldan yaradıldığı gündən bəri istifadə edir və münafiqi də bunu şeytani məqsədləri üçün istifadə etməyə təşviq edir.**

Necə ki, hal-hazırda, şeytan və münafiqlərin əməkdaşlıqla, "**dünya səviyyəsində İslamın aradan qaldırılıb bunun yerinə hər cür əxlaqsızlığın və azğınlığın yayılması üçün təsirli bir "şüur altı manipulyasiya fəaliyyəti" icra edilir**". Hər cür **əxlaqsızlığın; oğurluğun, fahişəliyin, homoseksuallığın, alçaqlığın və pozğunluğun yayılması üçün, inkarçılarla İslam aləmindəki münafiqlər əl-ələ vermiş vəziyyətdədir. Hər biri istər televiziyalarda, istərsə də internetdə və sosial mediada yazdıqları yazılar, söylədikləri sözlər, paylaşdıqları şəkillər, filmlər və məlumatlarla, insanların beyinlərində bütün bu azğınlıqları qanuniləşdirməyə çalışırlar.**

Tarixin başlanğıcından bəri, gəlib-keçmiş bütün münafiqlər həmişə bu üsuldan istifadə etmiş və hər dövrdə peyğəmbərlər və müsəlmanlara qarşı bu hiyləgər üsuldan istifadə edərək mübarizə aparmışlar. Fironlar, nəmrudlar, Samiri, Qarun, hz. Yusif (ə.s)-a böhtan atan Vəzirin həyat yoldaşı, hz. Lut (ə.s) və hz. Nuh (ə.s)-ın həyat yoldaşları, Dirar məscidini quran münafiqlər, Peyğəmbərimiz (s.ə.v)-lə döyüşə çıxmaqdan qaçıb geridə qalan münafiqlər; etdikləri çıxışlarda təsirli ola bilmək üçün həmişə "**şüur altı manipulyasiya üsullarından**" istifadə etmişlər.

Bunun üçün münafiqlər, "**qurduqları cümlələr və istifadə etdikləri sözlərlə, irəli sürdükləri bəhanələr, etdikləri şərhlər və ortaya atdıqları suallarla**", danışmalarına çox hiyləgər mənalar əlavə etmiş və bu yolla müsəlman cəmiyyətlərində pozucu və bezdirici təsir yarada bilməyi ümid etmişlər. Xüsusən də, bütün iman gətirənlərin ağlına, ədalətinə, sevgisinə, mərhəmətinə güvəndikləri lider mövqeyindəki "**peyğəmbərləri, elçiləri və təqvalı kəsləri", "öz aləmlərində müsəlmanların gözündən salmaq, onları etibarsız, güvənilməyən mövqeyə gətirmək**" üçün, bu üsulla hiyləgərcə oyunlar oynamışlar.

## Münafiq, şüur altı manipulyasiya üsullarıyla peyğəmbərlərə və müsəlmanlara olan etimadı yox etmək istəyər

Quranda münafiqlərin şüur altı manipulyasiya üsulları ilə oynadıqları hiyləgər oyunlara dair bir çox nümunə verilmişdir. Xüsusən də Peyğəmbərimiz (s.ə.v) dövründə, müsəlmanlarla birlikdə mübarizəyə qoşulmaqdan qaçmağa çalışan münafiqlər, bu hiyləgər üsuldan daha çox istifadə etmişlər. Bunlardan biri də **Təbuk müharibəsi** vaxtı, Peyğəmbərimiz (s.ə.v) ilə birlikdə səfərə çıxmamaq üçün yalan söyləyib bəhanələr uyduran münafiqlərin üslubunda görünür:

**Allahın Rəsuluna qarşı (döyüşdən) geri qalanlar oturub qalmalarına sevindilər, Allah yolunda malları və canları ilə mübarizə aparmaq istəmədilər və: "Bu istidə (döyüşə) çıxmayın" dedilər. (Tövbə surəsi, 50)**

Peyğəmbərimiz (s.ə.v) **Təbuk səfərinə** çıxmaq üzrə olarkən münafiqlər döyüşə qoşulmaq istəmədikləri üçün Rəsulullah (s.ə.v)-ə qarşı çıxıblar. Bu davranışlarını məqbul və qanuni göstərə bilmək üçün də, müxtəlif sözlər söyləyiblər. Ardınca da; "**bu istidə döyüşə çıxmayın**!" deyərək, başqalarını da özləri kimi döyüşdən geridə qalmağa çağırıblar. Beləliklə, "**başqalarını da geridə qalmağa razı salaraq, özlərinin də bu seçimlərində nə qədər haqlı olduqlarını**" sübut etməyə çalışmışlar. **Bundan sonra, rəvayətlərdə bildirildiyinə görə təxminən 80 nəfər münafiq xarakterli insanın Peyğəmbərimiz (s.ə.v) ilə səfərə çıxmayıb geridə qalmasına icazə verilmişdir.**

Allah Quranda, səmimi iman gətirən müsəlmanların heç vaxt Peyğəmbər (s.ə.v)-ə dəstək olmaqdan qaçmayacaqlarını bildirmişdir. Heç bir əsaslı bəhanələri olmadan Peyğəmbərimiz (s.ə.v)-dən icazə istəyənlərin isə, təkcə "**Allah və axirət inancı olmayan, qəlbləri şəkk-şübhəyə qapılmış kəslər olduqlarını**" xəbər vermişdir:

**Allaha və Axirət gününə iman gətirənlər Allah yolunda malları və canları ilə cihad etmək üçün səndən izin istəməzlər. Allah müttəqiləri tanıyır. Ancaq Allaha və Axirət gününə iman gətirməyən və qəlbi şəkk-şübhəyə düşənlər döyüşə getməmək məqsədilə səndən izin istəyirlər. Onlar öz şübhələri içində tərəddüd edirlər. (Tövbə surəsi, 44-45)**

Bununla yanaşı, Peyğəmbərimiz (s.ə.v)-in yanındakı münafiqlərin; "**bu istidə döyüşə çıxmayın**!" deyərkən, qarşılarına qoyduqları tək məqsəd "**haqlı çıxmaq və özlərinə tərəfdar tapmaq**" deyildir. Münafiqlər bu sözləri ilə eyni anda bir çox mövzuda fitnə törədib, bir çox mövzuda şeytani hədəfə nail olmağı düşünüblər.

Münafiqlər "**canları şirin olduğu**"; "**mallarına və canlarına zərər gəlməsindən çəkindikləri və İslama qətiyyən dəstək vermək istəmədikləri**" üçün Peyğəmbərimiz (s.ə.v) ilə birlikdə hərəkət etmək istəməyiblər. Lakin bu sözləri deyərkən əsil hədəfləri, içlərində böyük kin, qəzəb və qısqanclıq bəslədikləri Peyğəmbərimiz (s.ə.v)-dir. "**Bu istidə döyüşə çıxmayın**!" sözlərini deməkdəki əsil məqsədləri, (Peyğəmbərimiz (s.ə.v)-i tənzih edirik) Peyğəmbərimiz (s.ə.v)-i guya "**haqsız, ədalətsiz, məntiqli düşünməyən, hadisələri düzgün qiymətləndirə bilməyən və müsəlmanların maraqlarını qorumayan**" biri kimi göstərə bilmək idi. Beləliklə müsəlmanları narahat edə biləcəklərini və guya Peyğəmbərimiz (s.ə.v)-ə qarşı "**etimad sarsıntısı**" meydana gətirə biləcəklərini düşünmüşlər. Məqsədləri, "**Peyğəmbər (s.ə.v)-ə şübhə ilə baxılmasını təmin etmək**", eyni zamanda da "**özlərini ön plana çıxartmaqdır**". Peyğəmbər (s.ə.v)-in guya ağlının kəsmədiyi, düşünə bilmədiyi bir şeyi, guya bu axmaq münafiqlər düşünmüş olacaq və beləliklə öz zəif ağıllarınca

"**Peyğəmbər (s.ə.v)-dən daha böyük olduqlarını**" sübut etmiş olacaqlar (Peyğəmbərimiz (s.ə.v)-i tənzih edirik). Bunun nəticəsində də cəmiyyətdə öz aləmlərində "**etimad və mənfəət**" qazana biləcəklər.

Məhz münafiq ən başından etibarən bütün bu təfərrüatları hesaba almış və öz aləmində bu imici verəcəyini düşündüyü ən təsirli sözü seçib söyləmişdir. Şüur altı manipulyasiya üsulları ilə, müsəlmanların içinə şübhə, qorxu və ümidsizlik duyğularını sala biləcəyini, zehinlərində sual işarələri yarada biləcəyini düşünmüşdür. Həmçinin Peyğəmbər (s.ə.v) hər nə qədər əksini açıqlayıb sübut etsə də, o bir dəfə ortaya atdığı şübhə ilə öz aləmində Peyğəmbər (s.ə.v)-ə və onun ədalətinə olan etimadı sarsıda biləcəyini ümid etmişdir.

**Halbuki Səudiyyə Ərəbistanı onsuz da hər zaman isti olan bir bölgədir. Onsuz da orada hər zaman səhra iqlimi yaşanır. Oradakı insanlar kölgədə belə əlli-altmış dərəcə temperaturda hər gün gündəlik həyatlarını davam etdirir və lazım gəldikdə ticarət üçün bir çox yerə səyahət edirlər. Münafiq də hər kəs kimi bu həqiqəti çox yaxşı bilir.** Lakin sırf əxlaqsızlıq olsun deyə, xüsusən qövmünün hamılıqla birlikdə olduğu yerdə, lovğa və hörmətsiz üslubla "**havanın isti olduğunu**" söyləyərək fitnə törətməyə çalışmışdır. Bu söylədiyini, yəni havanın isti olduğunu, başda Rəsulullah (s.ə.v) olmaqla oradakı bütün müsəlmanlar çox yaxşı bilir. Lakin **münafiq sırf alçaqlığından, şərəfsizliyindən, anarxist və alçaq ruhundan ötrü bu cür danışır və oradakı bütün insanların şüur altına (haşa) "Peyğəmbər (s.ə.v)-in etibarsız və ədalətsiz" insan olduğunu yeritməyə çalışır.** Bu yolla, zəif ağlı ilə guya müsəlmanları passivləşdirib güclərini yox edə biləcəyini zənn edir.

Allah bir ayədə münafiqlər üçün; "**Əgər onlar sizinlə birgə döyüşə çıxsaydılar, ancaq işinizdə qarışıqlığı artırar və sizi fitnəyə məruz qoymaq üçün tez aranıza girərdilər...**" (Tövbə surəsi, 47) buyurmuşdur. Məhz "**bu istidə döyüşə çıxmayın**!" deyə hiyləgərcə bəhanələr irəli sürən münafiqlərə; "**burada hava hər zaman istidir, gəlin müsəlmanlarla birlikdə döyüşə qoşulun**" deyilmiş olsa, Allahın ayədə bildirdiyi kimi, orada da müsəlmanlara "**ayaq bağı olacaq**" və içlərində mütləq "**fitnə törədəcəklər**". Peyğəmbər (s.ə.v)-ə və müsəlmanlara böhtanlar atacaq; haqsızlığa uğradıqlarını, zərərçəkmiş olduqlarını və hətta əziyyətə məruz qaldıqlarını iddia edəcəklər. Bütün bu iddiaları yalan olduğu halda, bu yolla qışqır-bağır salaraq fitnə törətməyə çalışacaqlar.

Halbuki aydındır ki, bu şəxslərə, Peyğəmbər (s.ə.v) ilə birlikdə döyüşə qoşulmaları əvəzində "**külli miqdarda qızıl və ya pul**" verilmiş olsa, onlar heç bir bəhanə irəli sürmədən qaçaraq Peyğəmbərimiz (s.ə.v)-i izləyəcək və hava bundan daha da isti olsa, özlərində hər cür çətinliyə dözəcək gücü də tapacaqdılar.

**Adnan Oktar**: "Xalqın, yəni hər kəsin anlayacağı kimi çox sadə məntiqlə deyir ki, "**bu istidə döyüşə çıxmayaq". İstidə döyüşə çıxılmayacağını hər kəs bilir onsuz da, lakin özünü ağıllı zənn edir. Özü kəşf etmiş kimi söyləyir. Peyğəmbər (s.ə.v) onu bilməzmi, istidə çıxılıb-çıxılmayacağını? Peyğəmbər (s.ə.v)-ə ağıl verib öz aləmində (haşa)**

**Peyğəmbər (s.ə.v)-i xəcalətli edəcək. Peyğəmbər (s.ə.v)-in o qədər asan bir şeyi düşünə bilmədiyini (haşa) vurğulamaq istəyir. İnsanların gözündən salmağa çalışır öz aləmində. "Peyğəmbər (s.ə.v) bunu belə düşünə bilmədi"** deyəcək (haşa). Demək istədiyi budur. Sonra da o özünü xilaskar və dürüst kimi də göstərir. Baxın əxlaqsızı görürsünüzmü? **İki cür alçaqlıq edir**. özünü "**xilaskar və dürüst**" göstərir. "**Mən**" deyir "**müsəlmanların mənfəətini düşünürəm. İstidə onlar həlak olmasın. Əzab çəkməsinlər deyə mən bu yaxşılığı və bu xatırlatmanı edirəm**" deyir. Çox şeytanidir münafiq. **Məqsədi özünü ucaltmaq və üstün göstərməkdir. Peyğəmbər (s.ə.v)-i də xəcalətli etməyi qarşısına məqsəd qoyur** (Peyğəmbər (s.ə.v)-i tənzih edərik).

Çünki onda dava eşqi yoxdur. O gələcəyini, dünyasını, rahatlığını düşünür. Peyğəmbər (s.ə.v), İslamın yayılmasını, İslamın hakim olmasını, müsəlmanların rahat olmasını, təhlükəsizlik içində olmasını, zəngin olmasını düşünür. O da təkcə pis, eqoist, öz iyrənc mənfəətlərini düşünür. **Bunun üçün həm Peyğəmbər (s.ə.v)-ə düşmənçilik etməyə çalışır, həm də ətrafında olduğu kəslərə yaltaqlıq etməyə cəhd edir, üstünlüyünü vurğulamağa çalışır**. Lakin axmaqca üsulla. Məsələn, "**evim açıq qalıbdır**" deyir. Oradan yaxınlaşır, halbuki hər kəsin evi açıqdır, Peyğəmbər (s.ə.v) bilməz mi bunu?" (A9 TV, 19 may 2016)

**Adnan Oktar**: **Peyğəmbər (s.ə.v)-in yanına gedirlər, (haşa) çoxbilmişlik edirlər. Üst pərdədən üslubla ağıl verməyə çalışırlar. Peyğəmbər (s.ə.v) istidə döyüşə gedilib-gedilməyəcəyini bilməzmi? Kim bilməz bunu? Hər kəs bilər. Məhz mütləq ədabazlıq etməlidir, mütləq çaqallıq, çoxbilmişlik etməlidir və özünü ucaltmalıdır.** Böyük kəşf etmiş kimi gəlir, kütlənin içində deyir ki; **"sən düşünə bilmədin (haşa) mən düşündüm". "Bu istidə bizi döyüşə göndərirsən. Bu olmaz. Bu istidə döyüşə gedilməz"** deyir. Yəni **"bizi məhv edəcəksən?" "Bu istidə başımızı günəş vurar"** deyir. Həm nalayiq, həm əxlaqsız, həm də ədabazdır.

Bax orada neçə məqsədi var? 1. **Peyğəmbər (s.ə.v)-i (haşa) düşüncəsiz və ağlı kəsmirmiş kimi göstərmək. 2. Özünü üstün, mərhəmətli və müsəlmanları müdafiə edirmiş kimi göstərmək. 3. Döyüşə çıxılmasının qarşısını almaq, müsəlmanların başını bəlaya salmaq. 4. Müsəlmanların dağılması üçün zəmin hazırlamaq.**

Məsələn, yenə eyni ədabaz dəstəsi deyir ki, **"oldu, döyüşə gedək biz, təbliğə gedək, lakin uşaq-muşaq evdədir, onlar nə olacaq?" "Ailəmiz nə olacaq? Onları düşünmədin sən"** deyirlər Peyğəmbər (s.ə.v)-ə (Peyğəmbərimiz (s.ə.v)-i tənzih edirəm). Əxlaqsız adam, düşünməyə bilərmi? O da öz ailəsini tərk edir. Hər kəs öz ailəsini tərk edir. Əsgərə gedən bir əsgər, onsuz da ailəsini tərk edib gedər. Bu qədər axmaqsanmı? Bu münafiq axmaqlığıdır. Özünü necə göstərir? Məhz ailəsini, uşaq-muşağını müdafiə edən mərhəmətli, şəfqətli insan kimi. Peyğəmbər (s.ə.v)-i necə göstərir? (haşa) uşaq-muşağı düşünməyən, ailələri düşünməyən, yoldaşlarını düşünməyən insan, (haşa) elə göstərməyə çalışır. Beləliklə Peyğəmbər (s.ə.v)-ə bağlılığı yox edəcək, həmçinin Peyğəmbər (s.ə.v)-i

də məşğul edəcək, belə pis sözlərlə vaxtını alacaq, müsəlmanların da əhvali-ruhiyyəsini korlayacaq. Qəlbində xəstəlik olan da varsa, o insan da deyəcək ki; "**bu münafiq haqlıdır**". Çünki zəif imanlı biri; "**deməli, bu insan münafiqdir**" deməz, o anda onu ağıllı insan kimi görər. Ona görə də "**mən də getməyim**" deyəcək.

Bunu dedikdə küfr əhli də münafiqə; "**halal olsun, sən nə qədər ağıllı insansan**" deyir, bu ailələrini tərk etməmək məsələsində. "**Çox gözəl söyləyirsən**" deyir. Bütün küfr əhli Peyğəmbər (s.ə.v)-ə qarşı birləşirlər. "**Müsəlman belə olar**" deyir küfr əhli. "**Afərin, Peyğəmbər (s.ə.v)-ə qarşı çox gözəl söylədin**" deyir (haşa). Məhz münafiqin bu düşüncəsizliyi, nalayiqliyi tarix içində heç dəyişməz". (A9 TV, 30 may 2016)

**Adnan Oktar**: Münafiqlər Peyğəmbər (s.ə.v)-lə elə namərdcə və elə alçaqca üslubla danışırlar ki, məsələn; "**sən bizi döyüşə aparırsan, ancaq havanın isti olduğunu görürsən**" deyir. İndi Peyğəmbər (s.ə.v) nə desin? "**Olsun, isti də olsa gəlin**" desə, orada özündən gedən olsa və yaxud ürəyi tutan olsa münafiq çıxıb "**mən demişdim**" deyəcək. Haşa "**müsəlmanı göz görə-görə ölümə apardı**" deyəcək. Peyğəmbər (s.ə.v) haqqında (haşa) belə ədəbsiz ifadələrlə danışırlar, üslubları belədir. Peyğəmbər (s.ə.v) də bir şey demir bu zaman. Çünki münafiq həmişə əlliyə əlli çox ortalı danışar. Yəni öz lehinə istifadə ediləcək kimi seçər cümlələri və sözləri. Çox alçaqdır. **Məsələn, deyir ki, "mən döyüşməyi bacarsam gələrəm, lakin bacarmıram" deyir. İndi götürsə Peyğəmbər (s.ə.v) onu, məsələn, bir yerinə ox tuş gələcək və ya qılınc zərbəsi alacaq. Sonra; "mən sizə demişdim onsuz da, döyüşməyi bacarmıram deyə. Bax qolum qopdu" deyəcək. Sonra da (haşa) Peyğəmbər (s.ə.v)-i günahlandıracaq. Alçaqlıq edir.** Bunun üçün Peyğəmbərimiz (s.ə.v) bunlara heç nə etməyib, heç nə deməyib. Bu alçaqlar da imperatorluqlarını yaratmış və 1400 il davam etdirmişlər. 1400 il. Səhabə dövründə də qan qusdurmuşlar, hal-hazırda da davam edirlər". (A9 TV, 20 fevral 2016)

**...Onlara: "Gəlin, Allah yolunda döyüşün, ya da müdafiə edin" deyildikdə, "Döyüş olacağını bilsəydik sizin ardınızca gedərdik" dedilər. O gün imandan çox küfrə yaxın idilər. Ürəklərində olmayan şeyi dillərilə deyirlər. Allah onların gizlətdiklərini çox yaxşı bilir. (Ali İmran surəsi, 167)**

## Münafiq, şüur altı manipulyasiya üsullarıyla insanların (haşa) Allaha olan etimadlarını sarsıtmağı hədəfləyər

Münafiqlərin; "**istidə döyüşə çıxmayın**" sözünü söyləməkdəki digər məqsədləri də; "**Peyğəmbər (s.ə.v)-ə olduğu qədər, müsəlmanların (haşa) Allaha qarşı olan etimadlarını da sarsıda bilmək**"dir. Bu danışıqları ilə Peyğəmbərimiz (s.ə.v)-ə "**döyüşə çıxın deyirsən, lakin buradakı havanın vəziyyətini görürsən. Beyin qanaması keçirəcəyik, istidən**

**təzyiqimiz yüksəlir, əgər müharibəyə çıxsaq həlak olarıq. Sən Peyğəmbər olaraq bunu necə düşünməzsən**?" kimi eyhamlar edirlər. Ardınca da; "**bax mən Peyğəmbər deyiləm, lakin mən bunu düşünürəm. Görürsənmi, deməli, mən səndən daha üstünəm. Deməli, Allah səni Peyğəmbər olaraq göndərməklə səhv etdi. Lakin bax, mən hamınızdan; Allahdan da, Peyğəmbərdən də böyüyəm ki, bunları düşünə bilirəm**" (Allahı və Peyğəmbərimiz (s.ə.v)-i tənzih edirik) məntiqi ilə danışacaq və (o zəif ağıllarınca) guya öz böyüklüklərini sübut etmiş olacaqlar. Münafiqlər bu sözləri ilə, ətrafındakı imanı və ağlı zəif olan kəslərə də asanlıqla təsir edə biləcəklərini və onları özlərinə bağlaya biləcəklərini ümid edirdilər.

Halbuki **Peyğəmbərimiz (s.ə.v)-in müsəlmanları səfərə çağırmasının bir çox zəruri səbəbi və hikməti vardır. O dövrdə müsəlmanlar əziyyətə məruz qalır və şəhid edilirdilər**. Peyğəmbərimiz (s.ə.v) "**İslama edilən hücumları dayandırmaq; müsəlmanları, qadınları, yaşlıları, uşaqları qorumaq, şəhid edilmələrinin qarşısını almaq üçün**" belə qərar almışdır. Bu vəziyyətdə müsəlmanlar, istini heç düşünəcək mövqedə deyillər. Çünki **döyüşə getmədikləri təqdirdə onsuz da evləri, ailələri, övladları, həyat yoldaşları təhdid altında olacaq, böyük ehtimalla əziyyət görəcəklər. Bu səfərin məqsədi, müsəlmanları bu təhlükələrdən qoruyub təhlükəsizliklərini təmin edə bilməkdir. Dolayısilə isti, bu vacib təhdidlərin yanında müsəlmanlar üçün gözə ala bilməyəcəkləri çətinlik deyil.** Üstəlik, əvvəlki hissədə də qeyd edildiyi kimi, **oradakı xalq onsuz da bütün həyatlarını bu isti hava şərtləri altında keçirirlər. Ticarət üçün səfərə çıxdıqları zaman da eyni şərtlərə müqavimət göstərirlər.** Bununla yanaşı, döyüşə də onsuz da şəhid edilə biləcəklərini; yaralana biləcəklərini gözə alaraq gedirlər. Ümumiyyətlə isti, onlar üçün bütün bunlarla yanaşı çox yüngül çətinlikdir. Həmçinin, əlbəttə ki, münafiq də bütün bu həqiqətləri bilir. Lakin alçaqca ruhla özünü çox təmiz niyyətli və müsəlmanların yaxşılığını düşünən biri kimi göstərmək məqsədi ilə, gizlincə "**şüur altı manipulyasiya**" edir.

Həmçinin müsəlmanlar olduqca gözəl əxlaqlı və həlim insanlardır. Allahın rizasını qazanmalarından söhbət getdikdə, heç vaxt əvvəlcə öz mənfəətlərini qorumağı düşünməzlər. Əgər Allahın rizası elə tələb edirsə, sevə-sevə və böyük şövqlə Peyğəmbərimiz (s.ə.v)-in ardınca gedər və döyüşə çıxarlar. İndiki vaxtda da eynilə isti havada İslamı təbliğ etmək və ya müsəlmanlara dəstək vermək üçün bir mövzuda xidmət etmələri lazım gəlsə, müsəlmanlar yenə bunu sevinclə edərlər. Heç vaxt; "**hava istidir, mən sizə kömək edə bilmərəm**" deməzlər. **Lakin münafiq indiki dövrdə də olsa, yenə eyni bəhanəni irəli sürər. Çünki münafiqin canı çox şirindir**. Həmçinin həmişə öz mənfəətini ön plana alar. Müsəlmanların hüzuru, təhlükəsizliyi və mənfəətləri münafiq üçün əhəmiyyətli deyil. Mütləq əvvəlcə öz maraqlarını düşünər və bunun üçün hər cür saxtakarlığı edər.

Bununla yanaşı münafiqlər bu üslubları ilə təkcə Peyğəmbər (s.ə.v)-i hədəf almırdılar. Əsil istədikləri insanları (haşa) Allah haqqında müxtəlif zənnlərə qapdıra bilmək, şübhəyə sala bilmək və beləliklə iman gətirmələrinə mane ola bilmək idi. Allah

münafiqlərin tarix boyu göstərdikləri bu çirkin səyi Quran ayələrində belə xəbər vermişdir:

**İnsanlardan eləsi də var ki, heç nə bilmədiyi halda Allah haqqında mübahisə edir və hər bir asi şeytana itaət edir. (Həcc surəsi, 3)**

**İnsanlar içərisində eləsi də vardır ki, heç bir biliyi, doğru yol göstəricisi və nur saçan bir kitabı olmadan Allah haqqında mübahisə edir. O, başını təkəbbürlə o yan bu yana çevirir ki, insanları Allahın yolundan sapdırsın. O bu dünyada rüsvay olacaq, Qiyamət günü isə Biz ona Cəhənnəm məşəqqətini nəsib edəcəyik. (Həcc surəsi, 8-9)**

**Allaha qarşı yalan uyduran və yaxud özünə haqq gəldikdə onu yalan sayan kəsdən daha zalım kim ola bilər? Cəhənnəmdə kafirlər üçün yermi yoxdur? (Ənkəbut surəsi, 68)**

**Allahın dəvəti qəbul olunduqdan sonra Onun barəsində mübahisəyə girişənlərin dəlili Rəbbinin yanında boş şeydir. Onlar dünyada qəzəbə düçar olacaqlar. Axirətdə isə onları şiddətli əzab gözləyir. (Şura surəsi, 16)**

Bütün bu ayələr, münafiqlərin tarix boyu eyni şüur altı manipulyasiya üsullarından istifadə etdiklərini və Allah haqqında müxtəlif zənlər bəsləyərək insanları dinsizliyə çağırdıqlarını göstərir. Halbuki **oynadıqları hiyləgər oyun, və istifadə etdikləri "şüur altı manipulyasiya üsulları", Allahı layiqincə tanıyıb bilən müsəlmanlara qətiyyən təsir edə bilməyəcək axmaq məntiqlərə əsaslanır**. Müsəlmanlar Allahın sonsuz ağıl, mərhəmət və ədalət sahibi olduğunu çox yaxşı bilirlər. Allaha olan sevgiləri və etimadları sonsuzdur. "**Biz isə, qiyamət gününə məxsus dəqiq çəkən tərəzilər qoyarıq ki, artıq heç kəsə heç bir mövzuda heç vaxt haqsızlıq edilməz. Bir xardal dənəsi belə olsa ona (tərəziyə) gətirərik. Haqq-hesab çəkməyə Biz kifayət edərik**" (Ənbiya surəsi, 47) ayəsi ilə xəbər verildiyi kimi, dünyadakı bütün insanlar, Allahın sonsuz ədaləti ilə əvəz alacaq. **Dolayısilə zəif ağıllı münafiqlərin, (Allahın tənzih edirik) Allahın "insanlara haqsızlıq etdiyi, səhv etdiyi, düşünə bilmədiyi" kimi alçaqca danışıqları, Allaha qarşı göstərdikləri çox çirkin cəsarət və çox böyük böhtandır. Bir ayədə; "...mənim Rəbbim çaşmaz və unutmaz**" (Taha surəsi, 52) sözləri ilə bildirildiyi kimi, Allah hər cür nöqsandan, acizlikdən, səhvdən və qüsurdan uzaq və ucadır. O münafiqi da, onun axmaq yolgöstəricisi olan şeytanı da, küfr əhlindəki dostlarını da yaradan Allahdır. Onlara bu sözləri söyləyəcək zəkanı verən və anbaan onların hər etdiklərini və hər söylədikləri sözü yaradan yalnız Allahdır. Həmçinin; "**...şübhəsiz ki, Allah, etdiklərinizdən xəbərdardır**" (Həşr surəsi, 18) ayəsi ilə xəbər verildiyi kimi, Allah münafiqlərin oynadıqları hər cür hiyləgər oyundan anbaan xəbərdardır.

Oynadığı alçaqca oyunlar nə dünyada, nə də axirətdə münafiqlərə bir şey qazandırmayacaq. Dünyada həmişə alçaldılmış vəziyyətdə yaşayacaq, axirətdə isə bu şeytani əxlaqlarından ötrü, sonsuz əzabla əvəz alacaqlar.

## Münafiq, müsəlmanların söylədiklərini "dilini əyib bükərək" və "sözlərin mənasını təhrif edərək" dəyişdirməyə çalışar

**"Quran ayələrini, peyğəmbərlərin, elçilərin və müsəlmanların danışıqlarını şeytani üslubla dəyişdirib, onların sözlərindəki mənanı təhrif etməyə çalışmaları",** münafiqlərin mühüm xüsusiyyətidir. Allah bir Quran ayəsində "**...dillərini Kitaba doğru əyib bükərlər, siz onu (oxuduqları göründüklərini) Kitabdan hesab edəsiniz deyə...**" (Al-i İmran surəsi, 78) ifadəsiylə, münafiqlərin bu əxlaqsızlığına diqqət çəkmiş və bu hiyləgər oyunlarına qarşı diqqətli olmaları üçün müsəlmanları xəbərdar etmişdir.

**Onlardan elə bir dəstə də vardır ki, oxuduqlarını Kitabdan hesab edəsiniz deyə Kitabı oxuyarkən dillərini əyib bükürlər. Halbuki bu, Kitabdan deyildir. Onlar: "Bu, Allah tərəfindəndir!" - deyirlər. Halbuki o, Allah tərəfindən deyildir. Onlar bilə-bilə Allaha qarşı yalan danışırlar. (Ali İmran surəsi, 78)**

Münafiqin belə əxlaqsızlığı etməsinin səbəbi, (öz aləmində) "**dini şəxsi mənfəətlərinə uyğun hala gətirmək istəməsi**"dir. Münafiq içindəki amansız böyüklük hissindən ötrü, lazım hesab etdikdə, özünü müdafiə edib haqlı çıxarda bilmək üçün, Quran ayələrini, Peyğəmbərin, elçilərin və ya müsəlmanların sözlərini təhrif etmək üçün səy göstərər. Quranda "**dil əyib bükmə**" kimi bildirilən bu əxlaqsızlıq münafiqdə dəlilik dərəcəsində şiddətlidir. **Sözün altında qalmamaq, üstün gəlmək, ön plana çıxmaq, guya səhvsiz, qüsursuz və nöqsansız insan olduğunu sübut edə bilmək, münafiq üçün mühüm mövzudur.** İçində Allah qorxusu olmadığı üçün, Quran ayələri haqqında mübahisəyə girməkdən, ayələrin mənasını dəyişdirməyə və təhrif etməyə cəhd etməkdən heç çəkinməz. Eynilə qarşısında Peyğəmbər və ya Allahın elçisi də olsa, ona qarşı lovğalanmaqdan və böhtan ataraq bu mübarək insanların sözünü təhrif edib dəyişdirməkdən də heç çəkinməz. Özünə doğrusu bildirilib haqsız olduğu sübut edildikdə də, söylənilən ayələri də, edilən ilahi danışıqları da həmişə anlamazlıqdan gələr.

Allah bir ayədə münafiqin bu hiyləgər taktikasını; "**o gün imandan çox küfrə daha yaxın idilər. Onlar qəlblərində olmayan şeyi dilləri ilə deyirdilər**..." (Ali İmran surəsi, 167) ayəsi ilə bildirmişdir. Münafiqlər təhrif etməyə cəhd etdikləri ayələrin mənalarını da, müsəlmanların doğru söylədiklərini də çox yaxşı bilirlər. Lakin şeytani əxlaqlarından ötrü, bilərəkdən "**qəlblərində olmayan şeyi dilləri ilə söyləyərək**" üstün çıxmaq üçün yalan danışarlar.

Başqa Quran ayəsində isə, həmişə iyrənclik edərək, böhtan ataraq, dil əyib bükərək, sözlərin mənasını təhrif edərək yalan danışan münafiqlərin bu alçaq xarakteri; "**onlar sözlərin yerlərini dəyişdirərlər**" (Maidə surəsi, 13) sözləri ilə də xəbər verilmişdir.

Münafiq şeytani zəkasından və acı dilindən istifadə edərək demək olar ki, hər sözündə müsəlmanlara qarşı bu cür hiyləgər oyunlar oynayar. Lakin müsəlmanlar münafiqin bütün bu oyunlarını dərhal görər və onun bu səmimiyyətsizliyini Quran ayələri ilə ona sübut edərlər. Münafiq yenə də deyilənləri anlamazlıqdan gələrək özünü müdafiə edər və öz yanlış iddialarından imtina etməz.

**Adnan Oktar**: "Allah Maidə surəsi, 13-cü ayədə şeytandan Allaha sığınıram; "**onlar sözlərin yerlərini dəyişdirərlər**" deyir. Məhz, məsələn, münafiq Quran ayələrini dəyişdirər. Lakin qarşısındakı insan bir şey danışdıqda, onu da dəyişdirər. Məsələn, deyirsən ki, "**mən bu gün səni çox diqqətli gördüm**". O da: "**Sən mənə elə söz dedin ki, mənim diqqətsiz olduğumu vurğulamağa çalışırsan**" deyib səbəbsiz yerə pislik etməyə çalışar. "**Mən belə şey demədim**" dedikdə, o zaman da: "**Sən mənim yaddaşımla lağ edirsən**?" deyər. Çox iyrəncdir münafiq. Mən təbii ki, çox sadə nümunələr verirəm; tam cəmiyyət mikrobudur münafiq. Allah o qədər çox ayə ilə izah etmişdir ki, hədislərdə də o qədər çox izah edir ki, Rəsulullah (s.ə.v); eynilə təsvir edir. Hz. Əli (r.ə) də çox ətraflı təsvir edir, ayələrdə tam əhatəli şəkildə izah edilir. Lakin təbii ki, ayələrin təfsir edilib izah olunması, həyata keçid forması ilə izah edilməsi çox əhəmiyyətlidir". (A9 TV, 23 yanvar 2016)

**Adnan Oktar**: "Bir kərə çox yalançıdır münafiq. Açıq-aydın şəkildə və şərəfsizcə yalan danışar. **Demaqoqluğa çox alışqandır münafiq, sözü sağa-sola döndərər". "Qurandan hesab edəsiniz deyə" deyir ayədə də. Dilini əyib bükər. Cümlələri pozmaqda, məntiqi pozmaqda şeytani məharətə malikdir. (Ali İmran surəsi, 78) "Dillərini əyib bükərlər"** deyir Allah. Sənin söylədiyin doğru cümləni əyib büküb çox qəribə hala gətirə bilər münafiq. Sən ona könlünü alacaq bir söz desən, münafiq onu tam fərqli formaya sala bilər, pozar. Yəni pozuq danışma vardır. Münafiq "**acı dilləri ilə sizi incitməyə çalışarlar**" deyir Allah ayədə. (Əhzab surəsi, 19) **Dilinin acılığı; acı nədir? dağıdıcı, yırtıcı bir şey üçün deyilər. Buna cəhd edir münafiq, bunun üçün çalışır. Dil mömində xeyir üçündür; münafiqdə şər üçündür, pislik üçündür.** Lakin möminə edilən hər şey xeyirdir. Münafiqin özünə xeyir zənn etdiyi hər şey də ona zərərli ola bilər. Yəni nə etsə onun əleyhinə olar. "**Dillərini əyib bükərlər**". **Sözü kəlməni dəyişdirməkdə şeytani məharətdən bəhs edir Allah Quranda.** Məsələn, müsəlman münafiqə normal, məqbul bir şeyi söylədiyi zaman və ya bir səhvini, bir çatışmazlığını söylədikdə münafiq onu ağlasığmaz dərəcədə təhrif edər, ağlasığmaz dərəcədə dəyişdirər. **Sözün başını sona gətirər, sonunu başa gətirər. Ona bir çox yalan əlavə edər və tam fərqli hala gətirər. Məhz dilini əyib bükmə deyildikdə bu nəzərdə tutulur. Quranın hökmünü də dəyişdirməyə cəhd edər**". (A9 TV, 5 iyun 2016)

## Münafiq müsəlmanlara böhtan ata bilmək üçün onlarla təklikdə görüşmək istəyər

Peyğəmbərlər, elçilər və müsəlman liderlər, hər dövrdə münafiqlərin həmişə ilk hədəfi olublar. Buna görə də münafiqlər hiyləgər oyunlarını ən çox bu insanlara yönəltmiş; Allah yolunda ən təsirli mübarizəni aparan bu mübarək şəxslər haqqında hər cür yalan və böhtanı ortaya atmağa çalışmışlar.

Peyğəmbərlərə dair "**rahatlıqla böhtan ata bilmək və yalan söyləyə bilmək üçün" isə, "onlarla həmişə yalnız görüşmək və ətrafında heç şahid olmadan onlarla danışmaq**" istəmişlər. Bunun səbəbi, Peyğəmbər (s.ə.v)-in yanından ayrıldıqdan sonra, "**onun söyləmədiyi şeyləri, onun adından yalan olaraq ətrafa yaymaq və öz aləmlərində Peyğəmbər (s.ə.v)-i guya çətin vəziyyətə sala bilmək**"dir. Onların yanında bir şahid olacağı təqdirdə isə, münafiqlərin etdikləri əxlaqsızlıqları və söylədikləri yalanları başqası da görüb eşidəcək və bu yolla münafiqlərin möminlərə böhtan atma ehtimalları aradan qalxacaq.

Məhz bu vəziyyəti bilən münafiqlər də, sırf bu səbəbdən ötrü, "**həmişə müsəlmanların yalnız anlarının olmasını müşahidə edərlər**". Hətta olduqları mühit izdihamlı belə olsa, münafiqlər "**əxlaqsızlıq edə bilmək üçün müsəlmanların oradan getmələrini və özlərini Peyğəmbər (s.ə.v) ilə tək qoymalarını**" tələb edərlər. Məqsədləri, sərbəst şəkildə iyrənclik və şərəfsizlik edə bilmək üçün özlərinə şərait hazırlamaqdır.

Necə ki, Peyğəmbərimiz (s.ə.v)-in dövründə də münafiqlər bu məqsədlə Peyğəmbərimiz (s.ə.v) ilə tez-tez yalnız görüş tələb etmişlər. Lakin Peyğəmbərimiz (s.ə.v) onların bu məkrli niyyətlərini və şərəfsiz şəxsiyyətlərini bildiyi üçün, ətrafında həmişə saleh və səmimi müsəlmanlar olarkən münafiqlərlə danışmışdır.

Uca Rəbbimiz də münafiqlərin bu oyununa qarşı bir ayə nazil etmiş və "**ey iman gətirənlər, Peyğəmbərə gizli bir şey söyləyəcəyiniz zaman, gizli söhbətinizdən əvvəl sədəqə verin...**" (Mücadilə surəsi, 12) deyə buyurmuşdur.

Şübhəsiz ki, Allahın, Peyğəmbər (s.ə.v)-in yanına gəlib gizli danışmaq istəyən kəslər üçün, "**sədəqə vermələrini**" şərt qoymasında bir çox hikmət var. Çünki münafiqin ən qorxduğu şeylərdən biri də "**pulunu vermək**"dir. Çünki münafiq hiyləgərliklə mənfəət əldə edən insandır. Bunun tam əksinə, pul verərək mənfəət itkisinə düçar olduqda özünü xalq arasındakı deyimlə "**saf**" hesab edər. **Peyğəmbər (s.ə.v)-in yanına əxlaqsızlıq etmək üçün gəlib, üstünə bir də pul verəcək olması, münafiqi çox qəzəbləndirər və bu heç xoşuna getməz.** Dolayısilə də sırf pul verməmək üçün, əslində sanki yaşamaq məqsədi olan pislik və şeytani əməlini etməməyi qəbul edər. Necə ki, sırf bu səbəbdən ötrü, bu ayənin enməsindən sonra münafiqlər sədəqə verməmək üçün Peyğəmbərimiz (s.ə.v) ilə yalnız danışmaq tələblərindən imtina etmişlər.

Əlbəttə ki, xüsusən bir peyğəmbərin və ya hər hansı başqa müsəlmanın sözü, tək şahid olaraq belə, digər mömin üçün hər zaman etibarlıdır. Lakin yenə də fitnə yaranmasının qarşısının alınması üçün, “**Allahın Quranda möminlərin münafiqlərlə danışarkən tədbir almalarına dair hökmü**” çox hikmətlidir. **Beləliklə münafiqlərin böhtan atma oyunlarının da qarşısı alınmış olar**. Çünki münafiq bir mövzuda böhtan atsa da, o mühitdə olan digər möminlər əksəriyyət mövqeyində olacaq və onun böhtanları öz-özlüyündə etibarlılığını itirəcək.

## Münafiq yalanlarını və hiyləgər oyunlarını gizlədə bilmək üçün həmişə and içər

Münafiq çox hiyləgərdir, aktyor kimidir. Hər cür şəxsiyyətsizliyi edə bilər və hər cür yalanı söyləyə bilər. Bu yalanlarını sonuna qədər davam etdirə bilmək üçün də hər cür iyrəncliyi etməkdən heç çəkinməz. Hər cür pis hərəkəti edər, ağlayar, bağırar, söz ilişdirər, sözü oyana-buyana döndərər. Çünki bu münafiqin sanki sənətidir.

Münafiqə, bütün bu yalanlarının aşkara çıxardılıb oyunlarının puç olması da təsir etməz. Ağlı olmadığı, beyni və ruhu isə tamamilə çirklənib şeytanlaşdığı, şüuru da qapandığı üçün, əxlaqsızlığına yenə davam edər.

Müsəlmanlar münafiqin yalanını müəyyən edib, “**yalan söylədin**” desələr, münafiq yeni bir yalanla dərhal bir oyuna daha başlayar. Dərhal yalan söyləmədiyinə dair “**Allaha and içər**”. Allah Tövbə surəsində münafiqlərin “**yalan yerə and içməyi vərdiş halına gətirdiklərinə**” diqqət çəkmiş və müsəlmanları münafiqlərin bu şeytani oyununa qarşı xəbərdar etmişdir:

**Müsəlmanlara zərər vurmaq, küfr etmək, möminlərin arasına təfriqə salmaq məqsədilə, əvvəlcədən Allaha və Onun Elçisinə qarşı müharibə edən kimsəni gözləmək üçün məscid tikənlər, əlbəttə: “Biz yaxşılıqdan başqa bir şey istəmədik” - deyə and içəcəklər. Allah şahiddir ki, onlar yalançıdırlar. (Tövbə surəsi, 107)**

Allaha yalan yerə and içilməsinin Allah dərgahındakı məsuliyyəti özünə xatırladılsa, münafiq bu dəfə də, “**mənə inanmırsınız, böhtan atırsınız**” deyə ağlamaya başlayar. Sanki bundan çox usanmış və zülmə məruz qalmış görünüşünə bürünər. Xüsusən də müsəlmanlar münafiqlə yalnız danışırlarsa, heç gözlənilməyən daha da böyük yalanlar uydurmağa və bunları digər möminlər arasında da yaymağa davam edər.

Münafiqin nəzərə çarpan digər xüsusiyyəti isə “**yaddaşının çox güclü olması**”dır. **Lakin yaddaşında gözəllikləri, yaxşılıqları, özünə edilən fədakarlıqları deyil, həmişə xəyali pislikləri, çirkin əməlləri, xəyal məhsulu qəddarlıqları arxivləşdirər**. Nəfsi ilə zidd düşən

hər hansı hadisə ilə qarşılaşdığı zaman, dərhal beynindəki bu çirkli arxivdən böhtan ata bilmək üçün istifadə edə biləcəyi təfərrüatları seçər. Həmçinin sonra da şizofreniyalı zehnində meydana gətirdiyi xəyal məhsulu vəsaitləri ortaya tökərək böhtan atar. Hətta "**yalanlarını tarix də göstərərək öz aləmində dəlilləşdirməyə və həqiqət kimi göstərməyə çalışar**". Məsələn, "**sən mənə bu tarixdə bu məkanda danışarkən belə demişdin**" deyər. Müsəlman "**elə danışıq olmadığını**" iddia etsə də, arsız və həyasız şəkildə müsəlmanların yaddaşı ilə öz aləmində lağ edər, yalanında israr edər. Həmçinin bu yolla da Peyğəmbərə və ya digər müsəlmanlara danışmaqda üstün gəldiyinə və onlara qalib gəldiyinə inanar (peyğəmbərləri və müsəlmanları tənzih edirik).

Allah Quranın bir çox ayəsində münafiqlərin bu "**böhtançı, yalan yerə and içən, qışqır-bağır salan, şübhəçi, qorxu dolu, paranoyak xarakterini**" ifşa etmişdir. Bu ayələr müsəlmanların ilk başda özlərini yetişdirmələri və münafiq əxlaqına bənzər rəftar göstərməkdən çəkinmələri, sonra da münafiqlərin pisliklərini müəyyən edib onların şərindən qorunmaları üçün böyük nemətdir.

## Münafiq, müsəlmanların qəlbinə şübhə və qorxu salmağa çalışar

Münafiqin ən nəzərə çarpan xüsusiyyətindən biri, "**müsəlmanların qəlbinə şübhə və vəsvəsə verməyə çalışması**"dır. **Heç ağıllarında olmayan bir şeyi ağıllarına salmaq və onları heç bir əsası olmayan boş xülyalara qapdırmaq istəyər**. Qısa danışıqda belə, qarşısındakı insana mütləq mənfi təlqinlər verər və onu şeytanın bu tələsinə sala bilmək üçün çalışar. **Məqsədi müsəlmanların sevincini, hüzurunu yox etmək, sağlamlıqlarını korlamaq, mənəvi cəhətdən onlara zərər verə bilməkdir**. Allah münafiqlərin bu şeytani və hiyləgər cəhətini Quranda belə ifadə etmişdir:

**Vəsvəsə verənin, Allahın adı çəkiləndə isə hövlündən geri çəkilən şeytanın şərindən. O şeytan ki, insanların ürəklərinə vəsvəsə salır. (Nas surəsi, 4-5)**

Allah bu ayə ilə, münafiqin bu hərəkətləri "**hiyləgərcə**" etdiyinə diqqət çəkmişdir. Həqiqətən də münafiq, bir müsəlmanın qəlbinə şübhə salmaq üçün hiyləgər səy göstərər və əvvəlcə bu istiqamətdə incə plan qurar. Başqalarına hiss etdirmədən gizlincə ona yaxınlaşar və olduqca normal danışırmış təəssüratı verərək, cümlələrin arasına hiyləgərcə gizlətdiyi mənfi təlqinlərinə başlayar. Məsələn, **bir müsəlmana kompliment deyirmiş kimi edər, lakin əslində öz aləmində qarşısındakı insanın bir çatışmazlığını vurğulayaraq öz aləmində onun əhvali-ruhiyyəsini korlamaq, onu alçaltmaq və xəcalətli etmək istəyir**. Məsələn, boyunun uzun olmasının nə qədər gözəl xüsusiyyət olduğunu söyləyirmiş kimi edərkən, əslində etdiyi bənzətmə ilə bunun nə qədər qəribə və anormal göründüyün

eyham etməyə çalışar. Beləliklə o insana şübhə verərək narahat etmək istəyər. **Hiyləgərcə araya qatdığı bir neçə söz, bir neçə bənzətmə və ya üzünə verdiyi lağlağı məna ilə, istədiyi şübhəni qarşısındakı insanın qəlbinə asanlıqla verə biləcəyini zənn edər.**

Münafiq eyni taktikasından müsəlmanlara, "**Allah, Quran, peyğəmbərlər və müsəlmanlar haqqında şübhə verə bilmək**" üçün də istifadə edər. İslama uyğun üslubun arasına qatdığı "**münafiq xarakterli məntiqlərlə, küfri nümunələrlə, müsəlmanlara vəsvəsə vermək və imanlarını zəiflətmək istəyər**". Allahın ədalətindən, taledən, Allahın gələcəkdə müsəlmanlara vəd etdiyi müjdələrdən, axirətin həqiqiliyindən, Quranda bildirilən haram və halallardan, hökmlərdən və müsəlmanların rəftarlarından həmişə şübhə duymalarını istəyər. Lakin bütün bunları heç vaxt açıqca sorğu-sual edərək və ya açıqca mənfi şərhlər verərək etməz. **Yanlış məntiqlərini və küfri inanclarını, şeytani zəkası ilə, hiyləgər üsullardan istifadə edərək incə-incə insanların beyinlərinə yeritməyə çalışar.**

Lakin **münafiq, müsəlmanların Allaha olan imanlarının, sevgilərinin, güvən və bağlılıqlarının nə qədər güclü olduğundan xəbərsizdir**. Allaha, Qurana və hökmlərinə, taleyə, axirətə, Allahın sonsuz gözəl əxlaqına qeydsiz-şərtsiz təvəkküllə iman gətirdiklərini anlaya bilməmişdir. Dolayısilə **müsəlmanların bu möhkəm şəxsiyyətlərinin bir neçə münafiq xarakterli üslubla sarsılmayacağını da görə bilməz**. Münafiqin bütün bu hiyləgər taktikaları, incə-incə fitnə fücur üçün səy göstərməsi, qəlblərə vəsvəsə və şübhə verəcək danışıqlar etməsi, müsəlmanların, bu insanın xəstə ruhlu, şeytanın nəzarəti altına daxil olmuş, imanı zəif və münafiq xarakterli insan olduğunu anlamalarına vəsilə olar. Onun bu hiyləgər cəhətini və şeytani xarakterini görmüş olmaq, müsəlmanlar üçün rəhmətdir.

Münafiqin başqa xüsusiyyəti də "**müsəlmanların qəlbinə qorxu salmağa çalışması**"dır. Münafiqlər, "**iman gətirənləri narahat etmək və öz aləmlərində onları narahat etmək** üçün", həmişə küfr əhlindən dırnaqarası "**fəlakət xəbərləri**" gətirərlər. Küfr əhlinin meydana gətirdiyi izdiham və əllərində olan güclə "**müsəlmanları qorxutmaq, narahat etmək, əhvali-ruhiyyələrini korlamaq və ruhdan salmaq istəyərlər**". Müsəlmanlara, inkarçıların özlərindən daha güclü olduğunu təlqin edər; çox yaxın gələcəkdə müsəlmanların əleyhinə pis hadisələr yaşanacağını iddia edərlər. Küfr əhlinin müsəlmanlar əleyhinə cəhdlərini, "**Eyvah!", "Bittik!", "Məhv oldum**!" kimi qorxu dolu, təvəkkülsüz və şeytani üslublarla gündəm mövzusu edib müsəlmanları narahat etməyə çalışarlar. Həmçinin bütün bunları, sanki özləri də iman sahibi müsəlmanmış kimi üslubla danışaraq; lakin eyni zamanda da bu danışıqlarının içinə, bu şeytani ünsürləri hiyləgərcə gizlədərək edərlər.

Necə ki, **münafiqlərin şeytani təlqinləri müsəlmanlara qətiyyən təsir etməz.** Taleyə iman gətirdikləri və taleyin yaradıcısı olan Rəbbimizə bütün qəlbləri ilə təslim olduqları üçün Allahdan başqa heç nədən qorxmazlar. Allah bu həqiqəti bir ayəsində belə bildirir:

**Bəzi adamlar onlara: "Camaat sizə qarşı ordu toplayıbdır, onlardan qorxun!" – dedilər. Bu, onların imanını daha da artırdı və onlar: "Allah bizə yetər. O nə gözəl Qoruyandır!" – dedilər. (Ali İmran surəsi, 173)**

## Münafiq izdiham və göstərişlərə maraq duyar

Ətrafındakı insanlara göstəriş edə bilmək münafiq üçün çox mühüm məsələdir. Çünki münafiq təkcə bu dünya üçün yaşayar. Həmçinin özü kimi dünyaya bağlanmış insanlar arasında "**göstəriş etmək**", "**çox dəyərli hesab edilən**" və "**insanlara hörmət göstərməkdə ən təsirli qəbul edilən**" üsullardır. Dolayısilə küfr əhlinə özünü bəyəndirmək narahatlığı ilə yaşayan münafiqin də, mütləq tətbiq etməsinin lazım olduğuna inandığı davranışdır. Allah Quranda, "**insanlara göstəriş etməyin**" münafiqlərin mühüm xüsusiyyəti olduğunu belə xəbər vermişdir:

**Münafiqlər, həqiqətən də, Allahı aldatmağa çalışırlar. Halbuki Allah onları aldadır. Onlar namaza durarkən könülsüz qalxar, özlərini camaata göstərər və Allahı olduqca az yad edərlər. (Nisa surəsi, 142)**

Başqa ayədə isə Allah; "**lakin o, yalanlamış və üz döndərmişdi. Sonra lovğalanaraq yaxınlarının yanına getmişdi**" (Qiyamət surəsi, 33) sözləri ilə, "**ehtişamı imanda, Allah sevgisində deyil, küfr əhlinin əhəmiyyət verdiyi dəyərlərdə axtaran**" bu cür insanların əxlaqına diqqət çəkmişdir.

Münafiqin axirətə inancı ya çox zəifdir, ya da heç yoxdur. Dolayısilə də onun üçün yaşayacağına inandığı və əhəmiyyət verdiyi tək həyat vardır, bu da "**dünya həyatı**"dır. Özü kimi, yalnız dünya həyatının mövcud olduğuna inanan inkarçı insanlar, necə bu həyata şəhvətlə sarılıblarsa, məhz münafiq də eyni "**hərislik və şəhvətlə həyata sarılmışdır**". Həmçinin dünya həyatına dair hər mövzuda özünə yolgöstərici olaraq da, küfrdəki, özü ilə eyni fikirdə olan insanları qəbul edər.

Müsəlmanlar dünya həyatındakı nemətləri Allahın özlərinə olan lütfü kimi görər və şükür edərlər. Allahın halal buyurduğu hər nemət, müsəlmanlara sevinc bəxş edər. Bu nemətlərlə dünyanı cənnət kimi gözəl mühitə döndərmək və dünya şəraitində ola biləcək ən gözəl həyatı yaşamaq üçün səy göstərərlər. Lakin "**müsəlmanların fərqi, bunu heç vaxt həyatın əsil məqsədi halına gətirməmələri, hərislik etməmələri və bu nemətləri özlərinə verən Rəbbimizə şükür etməyi unutmamaları**"dır. Nemətlər, gözəlliklər olduqda nə qədər gözəl əxlaq göstərirlərsə, bunlar olmadıqda, sıxıntı və çətinliklər olduqda da eyni şükür edən əxlaqı göstərmələridir. Həmçinin nemət sahibi olmaq və ya olmamaq onlar üçün üstünlük yaxud əskiklik meyarı deyil. Allah dərgahında əsil üstünlük iman, təqva və gözəl

əxlaqladır. Bu həqiqəti bilən müsəlmanlar da nə rəftarları, nə də dilləri ilə sahib olduqlarından və ya olmadıqlarından ötrü fərqli rəftar göstərərlər.

Küfr əhlindəki insanlar və münafiqlər isə, dünya həyatının nemətlərini əldə edə bilməyi həyatlarının əsas məqsədi kimi görüb bunlardan ən yüksək səviyyədə istifadə edə bilməyi hərisliyə döndərərlər. Məqsədlərinə nail olub bu imkanları əldə etdikləri zaman isə, bunu başqalarına böyüklük, önə keçmək, onları əzib özlərini ucalda bilmək üçün mühüm fürsət olaraq qiymətləndirərlər.

Həqiqətən də özləri ilə eyni küfri baxış prizmasına sahib insanlar arasında bu rəftarları açıqca qəbul edilər. Aralarında "**səssiz şeytani dil**" vardır. Eyni imkanlara sahib olmayan insanlar, onların sahib olduqları maddi-mənəvi gücü gördükləri zaman böyük "**əziklik hissinə qapılarlar**". Daha artığına sahib olanlar isə onları "**kiçik hesab edərlər**". Eyni şərtlərdə olanlar isə həmişə "**rəqabət**" içərisində bir-birlərinə qarşı üstünlük əldə etməyə çalışarlar.

Məhz ağılları küfr əhlində qalan münafiqlər, bu yanlış və cahil əxlaqlarını müsəlmanlar arasında da davam etdirməyə çalışarlar. Bu cahil meyarların müsəlmanlara qətiyyən təsir edə bilməyəcəyini düşünə bilməzlər. Buna görə də küfr əhlindəki insanlara çox təsir edəcək danışıq və rəftarları ilə, müsəlmanlar arasında özlərini ucaldıb üstün mövqeyə gətirə biləcəklərini zənn edərlər. Halbuki müsəlmanlar üzərində gözlədiklərinin tam əksi bir təsir meydana gələr. Çünki müsəlmanlara bu cür küfri dəyərlər deyil, bir insanın təqvası, səmimi imanı, dərin ağlı, gözəl əxlaqı, dürüst sevgisi təsir edər və bir insana təkcə bunlardan ötrü hörmət edərlər. Küfri dəyərlərə əhəmiyyət verən, bunlarla göstəriş etməyə çalışan birini gördükləri zaman da, tam əksinə bu insanın qiymətli insan olmadığı qənaətinə gələrlər.

Lakin bu həqiqətləri düşünməyən münafiq, mümkün olan hər fürsətdə, özünü ucaldacağını düşündüyü şeyləri gündəmə gətirərək ətrafındakı müsəlmanlara göstəriş etməyə çalışar. Yemək yeyilən mühitdədirlərsə, "**xarici bir ölkədə, çox tanınmış bir kafedə necə məxsusi yemək yediyindən**" danışar. Geyim-keçimdən bəhs edilirsə, "**hansı məşhur stilisti yaxından tanıdığını və xüsusi kolleksiyalarını nə qədər ətraflı bildiyini**" dilə gətirər. Televiziyada xarici bir şəhərin görünüşünü seyr edərkən, "**özünün bu ölkədə olarkən nələr etdiyindən**" danışmağa başlayar. Bunlar kimi söhbət açılan demək olar ki, hər mövzuda, "**heç kimin getmədiyi yerlərə gedib, heç kimin yemədiyi yeməkləri yediyini, heç kimin yaşamadığı qədər lüks həyat yaşayıb, heç kimin tanış ola bilmədiyi insanlarla dostluq münasibəti olduğunu**" vurğulayar. Bunlardan bəhs edərkən mümkün qədər "**bəzəkli, yad və ziyalı sözlərdən", "xarici dildəki vurğularıyla**" istifadə etməyə diqqət yetirər.

Lakin bütün bunlardan bəhs edərkən münafiqin diqqətçəkən çox mühüm cəhəti daha var: Münafiq "**üzündə heç qızarma ifadəsi olmadan, heç utanıb sıxılmadan çox rahat yalan söyləyə və çox səlis hekayələr yaza bilər**". Çox vaxt söylədiyi hekayələrin heç bir həqiqəti olmaz. Bəzən də əlaqəsiz bir mövzudan, tam əksi olan tam fərqli şeylə

dəyişdirərək bəhs edər. Məsələn, "**bütün dünyanı gəzdiyini; ABŞ-da, İngiltərədə, Fransada çox lüks həyat yaşadığı, hansı restoranda hansı yeməkləri yediyi, haralarda gəzdiyindən**" bəhs edib göstəriş etməyə çalışar. Halbuki əslində, getdiyi hər yerdə alçaldılmış, günlərini ən çətin şərtlər altında özünə pul, yemək və qalacaq yer tapmağa çalışaraq keçirmişdir. Lakin məhz şeytani qabiliyyəti sayəsində, bütün bunları xəyali təfərrüatlar və axmaq yalanlarla dəyişdirərək, sanki göstəriş edə biləcəyi ehtişamlı hadisələrmiş kimi izah edər.

Münafiqin bu ehtişam və göstəriş marağı, olduqca kəskin ağla sahib olan müsəlmanların, əlbəttə, diqqətini çəkər. Müsəlman olması, Allah qorxusu, gözəl əxlaqı, imanı ilə deyil, küfr əhlinin əhəmiyyət verdiyi, lakin əslində üstünlük baxımından heç bir əhəmiyyəti olmayan təfərrüatlarla ehtişam qazanmağa çalışması, münafiqin küfr əhlinə olan meylliyini və heyranlığını açıqca göstərər. Bunun nəticəsində də müsəlmanlar, aralarında yaşayan, lakin küfr əhlini unuda bilməmiş bu insanlardakı əxlaq və rəftar pozuntularını görmüş olarlar.

## Münafiq küfr əhlinin hər şeyinə çox qibtə edər

Münafiq müsəlmanlarla birlikdə yaşamasına baxmayaraq, daxilən küfr əhlinə qarşı böyük heyranlıq duyar. Buna görə də onların həyatında olan hər şeyə qarşı içində böyük həsrət var. Küfr əhli arasında "**hər nə dəb olsa, nə cür cərəyan ortaya çıxsa**", münafiq də dərhal bunlara qibtə edər. **Onlar haralara gedir, haralarda gəzirsə, evlərini necə dekorasiya edir, kimlərlə görüşür, hansı əcnəbi şəxslərlə əlaqə qurur, hansı kitabları alır, hansı televiziya proqramlarını, hansı xarici serialları seyr edirlərsə, hansı mahnıları dinləyir, hansı ədabaz üslubu işlədir, nə cür paltarlar geyinir, hansı yeməkləri yeyirlərsə, hansı qəzetləri oxuyur, hansı internet saytları ilə maraqlanırlarsa, münafiq də bunları tək-tək izləyib öyrənib, eynisini tətbiq etməyə çalışar.**

**İnstagram, facebook, twitter** və bunlar kimi ən tanınan və ən çox istifadə edilən sosial paylaşma saytlarında bu insanlar nə cür şeylər paylaşırlarsa, o da eynisini təqlid edər. Məsələn, "**selfi**" dəbi yaranıbsa, o da onların verdiyi pozlara baxıb eyni qaydada fotoşəkil çəkib yükləyər. Onlar "**məşhur restoranda yedikləri yemək boşqabının fotoşəklini**" paylaşırlarsa, münafiq də dərhal buna qibtə edib eyni məkana gedib orada olduğunu göstərən "**bir pozada fotoşəkil çəkib**" dərhal səhifəsinə əlavə edər. Məsələn, onlar "**qızardılmış keçi dili**" sifariş verirlərsə, münafiq onlardan da üstün görünə bilmək üçün "**mən də yapon üsulu ilə bişirilmiş keçi dili yedim**" deyər. Məqsədi isə, əlbəttə ki, ləzzətli olduğu üçün o yeməyi yemək deyildir, təkcə o insanların diqqətini çəkə bilmək və onlar kimi görünə bilmək istəyər.

Əlbəttə ki, insanlar "**həyatlarını istədikləri kimi yönləndirmə məsələsində sərbəstdirlər**". Arzuladıqları hər yerə gedə bilmək, hər cür yeməyi yeyə bilmək, hər cür fotoşəkili çəkdirə bilmək və bunlar kimi həyatlarına dair müxtəlif xatirələri və təfərrüatları

insanlarla paylaşa bilmək haqqına da sahibdirlər. Lakin münafiqin bütün bu hərəkətləri ilə etmək istədiyi, küfr əhlindəki insanlardan çox fərqlidir.

Münafiq üçün "**nəyin gözəl və ya nəyin doğru olduğu**" əhəmiyyətli deyil. Bir şeyi təkcə "**əksəriyyətin tətbiq etməsi**" və bunun "**küfr əhlində göstərişli olaraq qəbul edilməsi**" onun üçün kifayətdir. Bundan savayı öz ağlından, vicdanından, zövq, incəsənət və estetika anlayışından istifadə edərək qiymətləndirmə etməz. Dolayısilə həyata dair seçimləri və ya sosial mediadakı bu cür paylaşımları öz həqiqi bəyənmələrini, zövqlərini və fikirlərini əks etdirməz. O bunları təkcə "**hər kəs elə etdiyi üçün edər**". Məqsədi "**küfrdə gözünə girmək istədiyi insanların diqqətlərini çəkə bilmək**"dir. Küfr əhlindəki insanların dinlədikləri bir musiqi, seçdikləri bir paltar və ya evlərini dekorasiya etməkdə istifadə etdikləri bir mebel həqiqətən gözəl ola bilər. Lakin münafiq onları təqlid edərkən, o musiqini həqiqətən xoşladığı üçün dinləməz. Yaxud onların istifadə etdiyi mebelin eynisini səmimi şəkildə bəyəndiyi üçün satın almaz. Bunları təkcə, küfr əhlində "**göstərişli**" kimi qəbul edilən bu insanların gözündə "**etibarlı biri ola bilmək üçün**" seçər. Necə ki, eyni yanlış baxış prizmasından ötrü, çox vaxt da olduqca zövqsüz, mənasız, qəmləndirici hətta ürküdücü bir musiqisi və ya bir əşyanı da, sırf küfr əhlində heyranlıq duyduğu insanlar xoşladığı üçün, o da heç düşünmədən seçər.

Bu məqsədlə, qibtə etdiyi insanların hər davranışını və hər seçimini incə-incə müşahidə edər. Məsələn, bu kəslər "**hansı yazıçıları, siyasətçiləri və qabaqcıl ideoloqları əhəmiyyətli və hörmətli hesab edirlərsə**", münafiq bu kəslərin internet səhifələrindən dərhal bu adları müəyyənləşdirər. Sonra da tək-tək hər birini "**internetdəki sosial media hesabları üzərindən izləməyə**" başlayar. Əslində bu kəslərin nə fikirləri, nə kimlikləri, nə də etdikləri ilə maraqlanar. Təkcə qibtə etdiyi insanlara bənzəyə bilmək üçün, onların əhəmiyyətli hesab etdiyi insanları, o da əhəmiyyətli hesab edirmiş kimi görünmək istəyər. Beləliklə küfr əhlindən başqa insanlar da onun internetdəki sosial paylaşma səhifələrinə baxdıqları zaman, "**bu siyasətçiləri, bu yazıçıları izlədiyinə görə, deməli, bu insan olduqca hərtərəfli, bilikli, mədəni, müasir, intellektual, uzaqgörən biridir**" deyəcəklər və o da verdiyi bu imiclə öz aləmində "**etiket**" qazanmış olacaq.

Onsuz da münafiqin imtina edə bilmədiyi bir xüsusiyyəti də, həyatını bu "**etiketlər**" və "**desinlər**" məntiqi üzərində qurmuş olmasıdır. Onun üçün insanların "**nə dediyi**" həyatındakı ən mühüm məsələlərdən biridir. Heç tanımadığı, əhəmiyyət vermədiyi, dəyər vermədiyi insanların belə özü barədə nə dediyi onun üçün çox əhəmiyyətlidir. Həyatı boyu bir dəfə belə üzünü görməyəcəyi, adını belə eşitməyəcəyi insanlar, onun internet səhifələrinə daxil olduqda, "**görəsən onlarda necə təəssürat yaranar**?"; münafiq bunu belə incə-incə düşünər. Özünü **heç vaxt dindar və təqvalı müsəlman kimi tanıtmaq istəməz.** Əksinə səhifəsinə baxan hər kəsin "**küfr əhlinə qapı açdığını, onlara simpatiya ilə baxdığını, Quran hökmlərinə diqqətcil olmadığını, müsəlmanlarla eyni fikir və idealları bölüşmədiyini, İslam əxlaqının yayılması ilə maraqlanmadığını**" anlaya biləcəyi kimi imic verməyə çalışar. "**Boş mövzularla maraqlandığını, küfr əhlinə heyranlıq duyduğunu və hətta açıqca onlardan biri kimi olduğunu**" hiss etdirməyə çalışar. Küfr əhlinə olan

heyranlığını bu qədər açıqca ifadə edərək, eyni zamanda da küfrə gizlincə bir mesaj vermək istəyər.

Münafiq sosial mediadakı paylaşımlarında olduğu kimi, olduğu mühitlərdəki söhbətlərində də inkarçı dostlarında görüb qibtə etdiyi hər təfərrüatı tək-tək gündəmə gətirməyə çalışar. "**Mən bu kitabları oxuyaram, bu yerlərdə gəzərəm, bu insanlarla səmimiyəm, ölkə xaricində bu insanlarla görüşərəm, bu jurnalları oxuyaram, bu yeməkləri yeyərəm**" kimi ifadələri ilə də, küfr əhlinə qarşı duyduğu ozentisiniz dilə gətirib insanların diqqətlərini çəkmək istəyər. Əslində isə çox vaxt söylədiklərinin demək olar ki, heç biri doğru deyil. **Nə bəhs etdiyi o yemək mədəniyyətindən anlayır, nə tanıdığını söylədiyi o insanlardan, nə də onların müdafiə etdiyi fikirlərdən xəbərdardır. Bəlkə də tək-tək saydığı o ölkələrin, şəhərlərin, restoranların, küçələrin heç birini həyatı boyu bircə dəfə belə görməmişdir.** Bunları təkcə küfr əhlinə çox qibtə etdiyi və onlardan biri kimi görünməyə çalışdığı üçün dilə gətirər.

Bu qibtə ruhu, münafiqin eyni zamanda necə "**alçaqlıq kompleksi və əziklik**" içərisində olduğunu da açıqca göstərir. İnsanlar arasında dəyər qazana bilmək üçün, **mütləq onlara yaltaqlanması və özünü onlara bəyəndirməsinin lazım olduğuna inanar**. Halbuki, küfr əhlinin təqdiri əvəzinə Allahın rizasını əhəmiyyətli hesab etmiş olsa, Allah onu həm dünyada, həm də axirətdə qiymətli edər və bütün insanlara da sevdirərdi. Lakin münafiq seçimini küfr əhlindən yana etmişdir, bundan ötrü dünyada da, axirətdə də sonu həmişə alçalmaq olacaq.

## Münafiq dünyanın bir çox yerini gəzməsiylə göstəriş etməyə çalışar

Bəzən də münafiq, yenə küfr əhlinin diqqətini çəkə bilmək və onların gözündə yaxşı yerə gələ bilmək üçün, onların əhəmiyyət verdiyini bildiyi xarici ölkələrə gedib gəzər. Beləliklə gələcəkdə öz aləmində, demək olar ki, hər fürsətdə "**mən bu xarici ölkələrə getdim, bu yerlərdə gəzdim, bu insanlarla tanış oldum, bu əhəmiyyətli vəzifələrə gəldim**" kimi sözlərlə göstəriş edə biləcək. Allah Quranın; "**...onların şəhərlərdə gəzib dolanmaları səni aldatmasın**" (Mümin surəsi, 4) ayəsi ilə, münafiqlərin bu qibtə ruhundan ötrü, göstəriş və lovğalanmaq üçün şəhərbəşəhər gəzmələrinə işarə etmiş və "**səni aldatmasın**" sözləri ilə də, bunun "**qibtə ediləcək vəziyyət olmadığını**" xatırlatmışdır.

Başqa ayədə isə Allah; "**inkarçıların ölkəbəölkə dolanıb gəzmələri səni aldatmasın**" (Ali İmran surəsi, 196) sözləri ilə yenə münafiqlərin "**dünyanı gəzib dolanmaq**" səylərinin, onlara qazanc təmin etmədiyinə diqqət çəkmişdir. Lakin münafiq bunu özü üçün çox böyük qazanc zənn edər. Özü küfr əhlinin bu cür imkanlarına böyük heyranlıq və qibtə hissi ilə yaxınlaşdığı üçün, müsəlmanların da, "**dünyanın bir çox yerini gəzib dolaşmış olmasından ötrü, onu çox böyük görəcəklərini və ona qibtə edəcəklərini**" zənn edər.

Buna görə də, münafiq küfr əhlinə yaltaqlanmaq üçün yaşadığı bu qibtə ruhundan, müsəlmanlar arasında da "**lovğalanmaq**" üçün istifadə edər. "**Mən Nyu Yorka getdim, bu məşhur küçədəki bu məşhur kafedə bu xüsusi yeməkdən yedim. Sən də gedib gördünmü bunları**?" kimi sözlər deyər. Bu yolla öz aləmində müsəlmanları bəyənmədiyini vurğulayar və özünü də ucaltdığını zənn edər. **Halbuki bir yerləri gəzib görmüş olmaq üstünlük mövzusu deyil. Müsəlman da dünyanın hər tərəfinə gedib gəzə bilər, küfr əhlindən biri də. Onsuz da hər insanı gəzdirən təkcə Allahdır. Üstünlük təkcə insanın Allaha olan sevgisi, imanı və Quran əxlaqını dəqiqliklə tətbiq etməsi ilə ola bilər.** Lakin meyarları Qurana görə deyil, küfri dəyərlərə əsaslanan münafiq bu həqiqətdən xəbərsizdir.

**Həmçinin, əlbəttə ki, dünyanın gözəl yerlərini gəzmək xoş nemətdir**. Bir müsəlman da gözəl olan hər şeyi sevər və bəyənər, imkan olanda dünyadakı nemətlərdən istifadə etmək istəyər. Lakin müsəlmanlar, "**vaxtlarını öz əyləncələri, yoxsa dünyadakı zülm və çətinliklərin bitməsinə mi ayırmalı olduqları**" məsələsində bir seçim etmələri lazım gəlsə, əlbəttə ki, heç vaxt yalnız öz kefləri üçün, boş gəzməyə vaxt ayırmağı seçməzlər. Mütləq vicdanlarından istifadə edib möhtac insanlara kömək etməkdən yana rəftar alarlar. Məhz münafiq də bunu bildiyindən, öz aləmində, "**müsəlmanların vaxt ayıra bilmədiyi bir şeyi özünün edə bildiyini**" vurğulayaraq, müsəlmanlar arasındakı zəif imanlı kəslərə mənfi təsir edib yanına çəkə bilməyi qarşısına məqsəd qoyar. Eyni zamanda da, o zəif ağlı ilə müsəlmanlara "**siz gəzə bilmirsiniz, lakin baxın mən dünyanın hər tərəfini gəzirəm**" deyərək onlara göstəriş edə biləcəyini zənn edər. Sırf bunun üçün gedib dünyanın bir ucundakı bir yerdə "**xatirə fotoşəkili**" çəkdirib gələr ki, bununla öz aləmində həm müsəlmanlar, həm də küfr əhlindəki tərəfdarları önündə lovğalanıb etibar qazana bilsin. Lakin heç vaxt gəzməyə ayırdığı vaxtı, Allahdan bəhs etməyə, Quran oxumağa, gözəl əxlaqı təbliğ etməyə ayırmaz.

Keçmiş dövrlərdə də bu münafiq əxlaqı, bütün təfərrüatları ilə bənzər şəkildə ortaya çıxırdı. Münafiqlər yenə, "**ölkə bəölkə, şəhərbəşəhər gəzmələri ilə**" həm küfr əhlinə, həm tərəfdarlarına, həm də müsəlmanlara göstəriş etməyə çalışırdılar. "**Mən Fəzzana qədər getdim, o yerləri çox yaxşı bilərəm, həmişə gəzib gördüyüm yerlərdir**" kimi sözlər işlədərək öz aləmlərində etibar qazanmağa çalışırdılar. Hətta bəziləri bu vəziyyətləri ilə öyünə bilmək üçün xatirələrindən bəhs edən kitablar belə yazırdılar.

İslama xidmət etməyi, əzab və çətinlik çəkən insanları zülmdən xilas edəcək işlər görməyi, Quran əxlaqını insanlara öyrətməyə vaxt ayırmamağı öz aləmlərində "**sayıqlıq**" hesab edən münafiqlər, avara-avara gəzmələri ilə öyünər və buna sevinərlər. Müsəlmanları, öz deyimləri ilə "**saf**", özlərini isə "**çox ağıllı**" hesab edərlər (müsəlmanları tənzih edirik). Halbuki müsəlmanların nə qədər xeyir, münafiqin isə nə qədər böyük zərər qazandığını Allah ona qısa müddət sonra göstərəcək. Münafiq nə qədər səy göstərsə də, əldə etməyə çalışdığı küfri etibarı və ehtişamı nə vaxtsa mütləq bitəcək. Allah Quranda bunun onlar üçün yalnız "**az faydalanma**" olduğunu və sonunda qarşılaşacaqları yerin mütləq "**cəhənnəm**" olduğunu bildirmişdir:

**Bu, az bir mənfəətdir. Sonra isə onların yeri Cəhənnəmdir. Ora nə pis yataqdır! (Ali İmran surəsi, 197)**

**Adnan Oktar**: "Allah; "**onların şəhərlərdə gəzib dolanmaları səni aldatmasın**" deyir. Münafiqlər bununla göstəriş edərlər. Məsələn, "**bu yerə getdim, Nyu Yorkda balqabaq yedim", "Portuqaliyada xiyar yedim**". Nə fərqi var, yəni ananın evində də onu yeyirsən, orada da eynisini yeyirsən. Özləri belə şeylərə əhəmiyyət verdikləri üçün, insanların da çox əhəmiyyət verəcəyini zənn edərlər. Halbuki mömin Allaha olan yaxınlığı ilə öyünər, imanı ilə, İslamla, Quranla öyünər. Onlar da belə boş işlərlə göstəriş etməyə çalışırlar". (A9 TV, 10 fevral 2016)

## Münafiq "kitab yüklü uzunqulaq" kimidir

Münafiqlər də, bütün yaradılanlar kimi Allahın nəzarəti altında olan aciz varlıqlardır. Allah istəsə, "**münafiq**" adlı varlıq yaratmaz və müsəlmanlar içərisində belə fitnə ünsürü də olmazdı. Lakin sonsuz ağlın sahibi olan Allah, bir çox xeyir və hikmətlə münafiqləri yaratmış və onlara "**şeytani zəka**" vermişdir. Münafiqlərin bu şeytani zəkaları, "**müsəlmanların Qurani ağlı**" qarşısında həmişə məğlub olmağa məhkumdur. Bu münafiq zəkası, onlara təkcə kiçik və hiyləgər oyunlar oynamaqda və ya küfr əhlinə özlərini bəyəndirəcək xüsusiyyətlər qazandırmaqda kömək edər. Məhz münafiqin sahib olduğu bu zəkadan istifadə etdiyi sahələrdən biri də "**küfr əhlinin gözünə girə biləcəyi şəkildə özünü yetişdirməsi**"dir.

Hər kəsin çox yaxşı bildiyi kimi, cahil mədəniyyətdəki insanların ən çox əhəmiyyət verdikləri, bir insanın "**təhsili, karyerası, məqamı, ümumi biliyi, biliyi, müasirliyi, danışdığı xarici dillər, oxuduğu kitablar, məlumat sahibi olduğu fikir cərəyanları, gəzib gördüyü yerlər**" kimi mövzulardır. Məhz küfr əhlinə özünü bəyəndirə bilmək arzusundakı münafiq də, bu meyarların heç birini nəzərdən qaçırmamağa çalışar. Müsəlmanlar arasında əldə etdiyi imkanlarla, özünü bu istiqamətlərdə mümkün qədər yetişdirməyə və "**küfr əhlinin ideal insan modelinə**" uyğun hala gətirməyə çalışar. Buna görə də "**ümumi biliyini**" artırmağa böyük diqqət göstərər.

İnkarçılar arasında işinə yarayacağını və onlar arasında özünə etibar qazandıracağını düşündüyü hər cür məlumatı, ümumi biliyi öyrənməyə çalışar. Həyatı boyu bəlkə də heç vaxt işinə yaramayacaq məlumatlarla dolu kitabları bir-birinin ardınca oxuyar. **Müsəlmanların imkanlarından da istifadə edərək, həm internet, həm televiziya, həm də kitabların köməyi ilə mütəmadi surətdə məlumatını artırmağa çalışar.**

**Əlbəttə ki, bir insanın ümumi biliyini artırması, demək olar ki, hər mövzuda məlumat sahibi olması gözəl şeydir. Müsəlmanlar da ümumi bilikləri ilə diqqətçəkən**

**insanlardır**. Lakin onlar öyrəndikləri bütün məlumat və təcrübədən bəşəriyyətin xeyri üçün; yaxşı, gözəl və doğru olan məlumatların gün üzünə çıxması üçün istifadə edərlər. Münafiq isə bütün bunları heç bir yerdə istifadə etmək üçün deyil, təkcə "**küfr əhlinə qarşı lovğalana bilmək, öz aləmində yaxşı xal ala bilmək**" üçün öyrənər. Onsuz da öyrəndikləri də əsasən "**şumerlərdə keçilər nə yeyərdi?", "Afrika antilopları hansı otu sevir?", "qırmızıdərililər hansı çayı içərdi**?" kimi heç bir işə yaramayacaq, lakin təkcə biliyi ilə ədabazlıq və göstəriş etmək üçün istifadə edəcəyi təfərrüatlardır. "**Gəlin sizə Braziliyadakı qoyun sayından danışım**" deyər. Məqsədi özünü dinləyən insanları heyrətləndirmək və özü barədə "**bunda necə də böyük elm varmış**!" dedirdə bilməkdir. Həqiqətən də bunları eşitdikləri zaman, küfr əhlindən onu dinləyən insanların bir anda nəfəsləri kəsilər.

Müsəlmanlar həyatlarının hər anını bəşəriyyət üçün faydalı bir şey etməyə ayırarkən, eyni zamanda ümumi biliklərini də artırarlar. Lakin münafiq gün ərzində tək bir faydalı şey etməyib boş-boş oturar. Nə bəşəriyyətin xilas olması, nə İslam əxlaqının dünyaya yayılması, nə də dünyadakı zülmün dayandırılması onu maraqlandırmaz. **O bütün gününü əhatə edən boş vaxtlarını, küfr əhlini özünə heyran qoya bilmək üçün kitablar oxumağa və məlumat əldə etməyə ayırar. Bütün ümumi bilik kitablarını əzbər bilər. Lakin Quran ayələrində deyilənləri həyatına keçirib, bu əxlaqı başqalarına da təbliğ etməklə maraqlanmaz.**

Üstəlik, münafiq daha çox öyrəndikdə, bir neçə kitab oxuduqda bütün mənliyini "**eqoistlik**" bürüyər; özünü hər kəsdən üstün görməyə başlayar. Hətta özünü müəyyən mənada "**alim və ya mücəddid**" zənn edəcək hala gələr.

Halbuki insan nə qədər məlumat yüklənsə də, ruhunda və qəlbində boşluq varsa, əldə etdiyi məlumatları istifadə edə biləcək ağla sahib deyilsə, bu səyi ona heç bir fayda gətirməyəcək. İnsanı dəyərli edən, qəlbindəki gözəlliklər, ruhundakı dəyərlərdir. İnsan əldə etdiyi bütün məlumatı beyninə yükləyər, lakin qəlbində "**mərifət elmi**" olmadıqdan sonra, bunun dəyəri olmaz.

Necə ki, münafiq bütün ümumi bilik kitabları kimi, Quran ayələrini də əzbər bilər. Tarixdə "**Quranı, Tövratı və İncili əzbərləmiş**" bir çox "**alim və ya məlumatlı görünən münafiq**" də vardı. Dillərində bilik vardı, lakin qəlblərində "**mərifət elmi**" yox idi. "**Mərifətullah elmi**"; kitab sətirlərində yazılmamış, təkcə Allaha yaxın insanların qəlblərinin dərinliyində gizlənmiş elmdir. Məlumatı həqiqi mənada qavrayıb istifadə edə biləcək kimsələr də, təkcə bu elmə vaqif olan müsəlmanlardır.

Allah Quranda, "**bilik yükləndikləri halda, qəlbləri bomboş olan**" münafiqləri "**kitab yüklü uzunqulaqlara**" bənzətmişdir:

**Onlara Tövrata əməl etmək tapşırıldıqdan sonra ona əməl etməyənlər belində çoxlu kitab daşıyan, amma onlardan faydalana bilməyən uzunqulağa bənzəyirlər. Allahın**

**ayələrini yalan sayan adamların məsəli necə də pisdir. Allah zalım adamları doğru yola yönəltməz. (Cümə surəsi, 5)**

Peyğəmbərimiz (s.ə.v) də; "***ümmətimdəki münafiqlərin əksəriyyətini oxuyanlar təşkil edər***" (Râmûz El-Ehâdis, No: 1104) hədisi ilə, münafiqlərin əksəriyyətinin bilikli və mədəni şəxslər olduqlarını xəbər vermişdir. Tarix boyu yaşamış hər münafiq bəlkə yüzlərlə kitab oxumuş, yüzlərlə mövzu öyrənmişdir. Lakin bu məlumat onlara heç bir xeyir verməmişdir. Qəlblərində iman olmadığı üçün, sahib olduqları bilik onları yalnız "**kitab yüklü uzunqulaqlar**" mövqeyinə gətirmiş, imansızlıqları ilə dünyada da, axirətdə də özlərini fəlakətə sürükləmişlər.

Hz. Ömər (r.ə) də bir sözündə münafiqlərin bu xüsusiyyətini belə dilə gətirmişdir:

*Hz. Ömər (r.ə): "**Bu ümmət haqqında ən çox qorxduğum, elm sahibi olan münafiqdir**" deyə buyuraraq ən böyük narahatlığını dilə gətirir. "**Bilikli münafiq necə olur?**" sualına, "**dilləri ilə alim, qəlb və əməlləri ilə cahil olmaqla**!" deyə cavab verər. [rəvayət edən: Hz. Ömər (r.ə) (Ramuz El Ehadis, Ahmed Ziyâüddin Gümüşhanevî, səh. 113)]*

**Adnan Oktar**: "Peyğəmbərimiz (s.ə.v) deyir ki; "**onlar çox bilikli olarlar**". Bilikli insanlar arasından mömin, müttəqi də çıxar, lakin ümumiyyətlə "**bütün münafiqlərdə ortaq xüsusiyyət həmişə bilikli olmalarıdır**" deyir. Lakin ayədə Allah; "**...böyük kitab yükü daşıyan eşşəyin vəziyyəti kimidir...**" (Cümə surəsi, 5) deyir. Boş məlumatlar. Münafiq Quran məlumatı öyrənmək istəməz. Qurandan nifrət edər. İmani mövzulardan nifrət edər. Heç öyrənmək istəməz. Lakin boş məlumat olan kimi, bununla göstəriş etmək istəyər. Özünə "**alim deyilməsini**" istəyər. Şeytan da alimdir. Məsələn, şeytanın qorxunc ümumi biliyi var. Münafiqlər də xeyli bilikli olarlar. Lakin bundan şeytani əməl üçün, əxlaqsızlıq üçün, göstəriş üçün, lovğalıq üçün, eqoistlik üçün istifadə edərlər.

Məsələn, Əbu Cəhl, bunlar həmişə o dövrün bilikli insanlarıdır. Quranda **Müddəssir surəsində** bildirilir. **Quranı araşdırması üçün verirlər. Münafiqdir adam. "Müsəlmanam" deyə gəlir, lakin münafiqir. Lakin çox bilikli və heyrətamiz hesablama zəkası da var. Qurana baxır, 19-u anlayır Quranda. 19 sistemini anlayır. Anladığı halda, möcüzə olduğunu bildiyi halda, "xeyr, bu insan məhsulu olan bir kitabdır" deyir**". (A9 TV, 30 yanvar 2016)

## Münafiq ədəbsiz və həyasızdır

Münafiq günün demək olar ki, hər saatında göstərdiyi "**pis, nəzakətsiz, düşüncəsiz və mənfi əxlaqı ilə**" diqqət çəkər. Ciddi mənfəəti olmadığı təqdirdə, hər hansı mövzuda

nəcib rəftar göstərdiyinə rast gəlmək çətindir. Bu pis əxlaqını danışıqlarına əks etdirərək, müsəlmanlara narahatlıq vermək və problem yaratmaq istəyər.

Münafiq şeytandan aldığı ilhamla, zəkasından olduqca yaxşı istifadə edə bilən varlıqdır. Nəyin nəzakətsizlik, nəyin düşüncəsizlik, nəyin nalayiqlik olduğunu çox yaxşı anlaya biləcək qavrayışa malikdir. Lakin məqsədi onsuz da gözəl rəftar göstərmək olmadığı üçün, bu mövzuda özünə məhdudiyyət qoymaz və diqqət göstərməz. **Ağzına gəldiyi kimi, ürəyinin istədiyi kimi, harda gəldi danışmağı öz aləmində "azadlıq" hesab edər. Təkcə özünü əhəmiyyətli və qiymətli hesab etdiyi, eləcə də, rəftarlarının ətrafındakı insanlara necə təsir etdiyinə əhəmiyyət vermədiyi üçün, danışıqlarını düzəltməz**. Onsuz da ağlını da çox bəyəndiyi və özündə hər hansı nöqsan da görmədiyi üçün, "**çox nüktədan olduğuna**" və "**çox mükəmməl danışdığına**" inanar.

Halbuki gün ərzindəki hər danışığı "**nalayiq, düşüncəsiz və nəzakətsiz"dir. Bir şeyi müsbət istiqamətdən dilə gətirib söyləmək əvəzinə, əsasən bunu ən mənfi istiqaməti ilə, ən sancan sözləri seçərək dilə gətirər.** Söhbət mühitində **hər kəsdən çox və dayanmadan özü danışmaq istəyər**. Danışıqlarında hikmət olmadığı və əksərən **çox lazımsız mövzularla ətrafındakıların vaxtını aldığı halda, hər kəsin hörmətlə və diqqətlə özünü dinləməsini istəyər.**

Özü isə, başqaları danışdığı zaman "**dinləmə ədəbini bilməz**". Dayanmadan "**qarşısındakı insanın sözünü kəsər**" və "**sözünü tamamlamasına imkan vermədən eyni mövzunu götürüb özü bəhs etməyə başlayar**". Demək olar ki, hər danışığında kiməsə "**söz ilişdirib**", bir mövzuda sancıb bir şeylər eyham etməyə çalışar. Özündən başqa, gözəl danışa bilən insan olduğuna isə inanmaz. Buna görə də "**hər kim danışsa, mütləq bu insanın sözünü düzəldib, onun səhv bildiyini və ya bir sözü səhv tələffüz etdiyini vurğulamaq istəyər**". Hər şeyin "**ən doğrusunu bilən**" və "**səhvləri görən**" insan isə, ona görə təkcə "**özü**"dür.

Halbuki, **münafiqin bütün bu özünü ön plana çıxartma və böyütmə səyləri boşunadır. Müsəlmanlar, gözəl əxlaq göstərməyən bir insana heç vaxt hörmət və ya heyranlıq duymazlar.** İstədiyi qədər bilikli olduğu və ya gözəl danışdığı imicini verməyə çalışsa da, bu müsəlmanlara təsir etməz. Əksinə, bu insanın iman gətirənlərə qarşı xüsusilə diqqətsiz, kobud və düşüncəsiz rəftar göstərdiyini görərək, müsəlmanlardan fərqli insan olduğunu anlayar və buna görə diqqətli davranarlar.

## Münafiq demək olar ki, hər fürsətdə çoxbilmişlik edər

Münafiqin özünü ucaltmaq və öz aləmində müsəlmanlardan daha üstün olduğunu vurğulamaq üçün dayanmadan icra etdiyi hərəkətlərdən biri də "**çoxbilmişlik etmək**"dir. Özünü küfr əhlinə bəyəndirə bilmək üçün həmişə biliyini və mədəniyyətini artıran münafiq, bu təcrübəsindən müsəlmanlar arasında da göstəriş və böyüklük ünsürü kimi istifadə etmək istəyər. Halbuki müsəlmanlar üçün "**kimin daha bilikli olduğu deyil; kimin**

**daha dindar, kimin Allahı daha çox sevən və Quran əxlaqını daha diqqətcil tətbiq edən olduğu**” əhəmiyyətlidir. Lakin böyüklük hərisliyi içindəki münafiqin şüuru bu həqiqətə qarşı qapalıdır. Müsəlmanlar arasında da, öz aləmində “**nə qədər çox çoxbilmişlik olduğu və nə qədər çox məlumat ilə onların üstünə çıxarsa, özünü o qədər üstün mövqeyə gətirər**” zənn edər.

**Münafiq bu əxlaq pozuntusunu, xüsusən də peyğəmbərlər, elçilər və ya müsəlmanların mənəvi liderliyini boynuna götürmüş insanlara qarşı tətbiq edər**. Çünki bu kəslər “**müsəlmanların dəyər verdikləri, mənəvi lider kimi gördükləri, ağıllarına, imanlarına, vicdanlarına ən çox güvəndikləri**” insanlardır. Məhz münafiq də, bu kəsləri öz aləmində müsəlmanlara “**gücsüz və biliksiz göstərməyə çalışaraq**”, onların bu şəxslərə olan hörmət, güvən və bağlılıqlarını yox etmək istəyər. Halbuki Allah peyğəmbərlərini, elçilərini və vəli bəndələrini bilik və hikmət cəhətdən gücləndirmiş; onlara Öz dərgahından “**xüsusi ağıl və anlayış**” vermişdir. Dolayısilə də **münafiq nə qədər çalışsa da, Allahın elçiləri əleyhinə apardığı fəaliyyətlərində müvəffəqiyyət qazanması heç vaxt mümkün deyil**. Lakin münafiq Allahın bu qanunundan xəbərsizdir. Buna görə də əlindən gəldiyi qədər əleyhinə apardıqları bu səylərini davam etdirər.

Münafiq ümumiyyətlə müsəlmanlardan uzaq dayanmağı və tənha qalmağı seçər. Onların söhbət və dostluq mühitlərinə isə heç vaxt qoşulmaq istəməz. Lakin eyni zamanda da, müəyyən yolla “**biliyini onlara göstərib, onlara qarşı təkəbbürlənmək, onlardan üstün olduğunu vurğulamaq**” istəyər. Bu məqsədlə yanlarına getdiyi zaman da mütləq demək olar ki, hər cümləsində “**çoxbilmişlik**” edər.

Diqqətçəkən xüsus isə, bildikləri mövzuların demək olar ki, hamısının olduqca lüzumsuz təfərrüatlardan ibarət olmasıdır. Təkcə bunları bildiyi üçün insanlardan daha üstün mövqeyə gələcəyini zənn etməsi isə, məhz münafiqin “**nə qədər ağılsız olduğunu**” açıqca göstərər.

## Münafiq gün ərzində həmişə mırıldanaraq neqativ və gileyli danışar

**Müsəlman bütün əxlaqı, davranışları və danışıqları ilə “ürəkaçan, nəcib, keyfiyyətli və pozitif” insandır. Münafiq isə bunun tam əksinə, hər halı və hər rəftarı ilə ətrafına “mənfi enerji yayan” varlıqdır. Gün ərzində demək olar ki, hər danışığında münafiqin bu mənfi ruh halını görmək mümkündür.**

**Çünki insanın ruh halı danışıqlarında və üslubunda ən dəqiq şəkildə ortaya çıxar. Gözəl ruhdan gözəl sözlər axar. Qaranlıq və xəstə ruhdan isə xəstə üslub çıxar. Münafiqin danışıqları da məhz onun ruh halındakı anormallığın siqnalını verər. Çünki münafiq bədbəxt və hüzursuzdur. İkiüzlü, saxta, xain şəxsiyyətə sahib olmağın əzikliyini və acısını həyat boyu içində daşıyar. Bu vəziyyət danışıqlarında yüksək səviyyədə özünü**

hiss etdirər. Heç vaxt Allahın yaratdığı gözəllikləri görüb onlardan zövq ala bilməz. Gördüyü hər şey ona sıxıntı verər. Heç nə onu xoşbəxt etməyə kifayət etməz. Həmişə gileyli üslub işlədər, donquldanar, narazılığını dilə gətirər.

Münafiqin bütün bu gileylərinin ortaq nöqtəsi isə, bunların hər birində söylədiyi sözlərlə "müsəlmanları günahlandırması, onları çətin vəziyyətdə qoymağa çalışması"dır. Məqsədi, onların guya "pis niyyətli, ədalətsiz, vicdansız, düşüncəsiz, yaxşı ilə pisi, doğru ilə yanlışı və ya çatışmazlığı görə bilməyən kəslər; özünün isə vicdanlı, ədalətli, doğru ilə yanlışı, hər cür axsaqlığı, çatışmazlığı görə bilən, diqqəti açıq və ağıllı biri olduğu" imicini verə bilməkdir. Bu hiyləgər məqsədi istiqamətində, min bir cür yalan, böhtanla müsəlmanlara istiqamətli günahlandırıcı və gileyli danışar.

Məsələn, bir paltar görsə onda mütləq bir əksiklik tapar. Özü üçün xüsusən gedilib alınmış bir şalvarı; "parçası istədiyim kimi deyil, daha keyfiyyətli olsun" deyib geri göndərtdirər. "Bu köynəyin rəngi bir ton daha tünd olmalıdır" deyib başqa köynəklər axtartdırar. Özünə hədiyyə edilən bir paltarı; "bu mənim zövqümə tam uyğun deyil" deyərək geri çevirər. Süfrə başına əyləşsə, süfrədə onun üçün hazırlanan nemətləri görmək əvəzinə mütləq olmayanlardan danışar. Masada bir çox yemək növü olsa, orda olmayan bir şey tapıb, "bu niyə yoxdur?" deyər. Əla dekorasiya edilmiş bir otağa girib, oradakı yüzlərlə gözəlliyi tərifləmək əvəzinə, heç kimin diqqətini çəkməyəcək bir çatışmazlığı tapıb dilə gətirər. Dilində, sözündə həmişə əskiklik, mənfilik var. Hər insanın, hər məkanın, hər əşyanın əskik və qüsurlu cəhətlərini görüb bununla əlaqədar deyinmək münafiqin sanki həyat tərzidir. Tək dərdi, öz kefi və mənfəətləridir. Quranda münafiqin bu həmişə mənfi danışan, gileylənən, əlindəki heç nəyi bəyənməyib qınayan üslubu belə xəbər verilmişdir:

İtaət etmə hər tez-tez and içənə, alçağa, qeybət edənə, dedi-qodu yayana. (Qələm surəsi, 10-11)

Başqa ayədə isə Allah münafiqin bu heç nə ilə xoşbəxt olmayan, şükür etməyən, nemətləri təqdir edə bilməyən, əlindəkinin qiymətini bilməyən və gileyli rəftarına belə diqqət çəkmişdir:

Onda siz dediniz: "Ey Musa! Biz eyni cür yeməklərə dözməyəcəyik. Ona görə də bizim üçün Rəbbinə bizə yerin bitirdiklərindən – tərəvəzindən, xiyarından, sarımsağından, mərciməyindən və soğanından yetirməsi üçün dua et!" O dedi: "Siz xeyirli olan şeylərin daha dəyərsiz şeylərlə əvəz olunmasınımı istəyirsiniz? Şəhərə girin! Şübhəsiz ki, orada istədiyinizi taparsınız!" Onlara zəlillik və düşgünlük üz verdi və onlar Allahın qəzəbinə düçar oldular. Bu cəza ona görə idi ki, onlar Allahın ayələrini inkar

**edirdilər və bəzi peyğəmbərləri haqsız yerə öldürürdülər. Bu həm də onların asi olduqlarına və həddi aşdıqlarına görə idi. (Bəqərə surəsi, 61)**

Hz. Musa (ə.s) dövründə də, onunla birlikdə olan bəzi insanlar Allahın verdiyi gözəl nemətlərə şükür etmək və onda bir xeyir görmək əvəzinə, sarımsaq, mərcimək, soğan istəyib bu cür yeməklərin yoxluğundan gileylənmişlər. Halbuki bu insanlar bundan əvvəl, Fironun zülmü altında əziyyət görərək çox sıxıntılı həyat yaşayırdılar. Həmçinin hz. Musa (ə.s) da onları bu zülmdən xilas etdi. Onlar isə bu vəziyyətə şükür etmək əvəzinə, keçmiş zülm gördükləri mühitə hələ də həsrət duyur və hallarından gileylənirdilər. Əllərində olana şükür edib, bunda xeyir görmək əvəzinə, tamah salan, məmnun olmayan, nankor əxlaq göstərirdilər.

Allah Müddəssir surəsində, bu yolla sahib olduqları ilə xoşbəxt olmayıb, həmişə gileylənən kəslərin vəziyyətindən belə bəhs etmişdir:

**Məni yaratdığım kimsə ilə tək burax; Mən ona bolluca var-dövlət bağışladım, qayğısına qalan oğullar verdim  və onu hər cür imkanlarla təmin etdim. Bunlara baxmayaraq, o, yenə də əlavə etməyimi arzulayır. (Müddəssir surəsi, 11-15)**

Lakin, şübhəsiz ki, münafiq bu əxlaq pozuntusunu məqsədsiz yerə tətbiq etməz. Münafiqin həmişə pis və çirkli danışmasının digər səbəbi də, "**müsəlmanlara olan qəzəbi**"dir. Bu qəzəb münafiqin ruhunda həyat boyu sakitləşməz. Nifrəti, danışıqlarına mənfilik cəfəngiyatı kimi əks olunar. İstəsə də müsəlmanların içində olduğu mühitləri, onların sahib olduğu əşyaları və ya onların gözəlliklərini, nurlarını içindən gələrək tərifləyə bilməz. Çünki **müsəlmanları tərifləmək, onların sahib olduqları gözəlliklərə kompliment demək münafiqə çox əzab verər**. Bir müsəlmana təkcə "**çox gözəlsən**" demək belə münafiqin sanki canından can alar. Hər nə qədər müsəlmanlara şirin görünmək və yaltaqlana bilmək üçün hərdənbir belə cümlələr istifadə etmək məcburiyyətində qalsa da, bunu təkcə məcburiyyətdən və böyük sıxıntı duyaraq edər.

## Münafiq İslama xidmət etmək məsələsində çox tənbəldir

Əvvəlki hissələrdə də bəhs edildiyi kimi, münafiqin müsəlmanlar arasında olma səbəbi Allaha olan inancı və ya Quran əxlaqını yaşamaq istəyi deyil. Münafiq həm müsəlmanların sahib olduqları nemətlərdən faydalanmaq, həm də müsəlmanlar barədə məlumat toplayıb inkarçılara güc qazandırmaq istəyər. Dolayısilə də idealları və hədəfləri müsəlmanlardan tamam fərqlidir.

Müsəlmanlar Allahın rizasını və sevgisini qazanmaq üçün yaşayarlar. Bunun üçün də səhərdən-axşama qədər hər anlarında Allahın ən bəyənəcəyi əxlaqı göstərməyə; həmişə doğrudan, yaxşıdan və gözəl olandan yana seçimlər etməyə səy göstərərlər. Hər mövzuda vicdanlarından ən çox istifadə edərlər. Rahatlıqlarından, nəfslərindən, mənfəətlərindən yana deyil, vicdanən edilməsi lazım olandan yana qərarlar alarlar. Allah müsəlmanların bu çalışqan əxlaqlarını Quranda; "**onlar, "tamamilə boş" şeylerden üz döndərənlərdir**" (Muminun surəsi, 3) sözləri ilə xəbər vermişdir.

Münafiqlər isə təkcə özlərini xoşbəxt etmək, mənfəətlərini ən yaxşı şəkildə qorumaq üçün yaşayarlar. Dolayısilə **təkcə özləri üçün lazım gəldikdə səy göstərərlər. Öz mənfəətlərindən söhbət getmədikdə, heç nə üçün özlərini yormaz, heç kim üçün səy göstərməzlər.** Məhz buna görə də, münafiqlər müsəlmanlarla birlikdə olduqları zaman heç bir mövzuda onlara kömək etmək istəməzlər. Hədəfləri "**Allahın rizasını qazanmaq**" olmadığı üçün, "**konkret və maddi əvəz almayacaqları bir şey üçün səy göstərməyin**" çox böyük "**ağılsızlıq**" olduğuna inanarlar. Buna görə də İslama xidmət etmək ən əzab çəkdikləri məsələlərdən biridir. **(Allahın tənzih edirik) Allahdan nifrət etdikləri üçün, Allaha xidmət etmək istəməzlər. Peyğəmbər (s.ə.v)-dən nifrət etdikləri üçün dinə xidmət etmək istəməzlər. Müsəlmanlardan nifrət etdikləri üçün də müsəlmanlara kömək etmək istəməzlər.**

Dolayısilə münafiqlər, həm müsəlmanların imkanlarından istifadə edib, həm də Allah yolunda heç bir fəaliyyət göstərməməyi, zəif ağıllarınca "**böyük qazanc**" hesab edərlər. Müsəlmanlardan biri kimi görünmək və özlərini hiss etdirməmək üçün çox lazım gəlsə göstəriş məqsədi ilə bəlkə bir neçə məsələdə, ucundan kömək edərlər. Lakin bunları yalnız formal olaraq və göz boyamaq üçün edərkən belə çox canları yanar, heyrətamiz dərəcədə iztirab çəkərlər. Yoxsa müsəlmanlara kiçik fayda belə vermək istəməzlər.

Allah Quranda münafiqlərin bu əxlaqı üçün; "**onları burax; yesinlər, yararlansınlar və (boş) əməl onları məşğul etsin. Tezliklə biləcəklər**" (Hicr surəsi, 3) deyə buyurmuşdur.

Bu yanlış baxış prizmasına sahib münafiqlər İslamın xeyirinə olan, müsəlmanlara fayda gətirəcək məsuliyyətin altına heç vaxt girməzlər. Onları həmişə uzaqdan, **sanki məsələ ilə heç bir əlaqəsi olmayan "turist kimi" izləyərlər**. Bu rəftarları ilə müsəlmanlara, "**bu sizin dininizdir, sizin davanızdır, məni maraqlandıran bir şey yoxdur, dolayısilə də mən sizi təkcə uzaqdan izləyirəm**" mesajını vermək istəyərlər.

Lakin, əlbəttə ki, bu əxlaqsızlıqlarını da açıqca edə bilməz, şeytani məharətlə bunlara da mütləq bəhanə taparlar. Çünki bütün müsəlmanlar səhər-axşam fasiləsiz və ən fəal şəkildə İslama xidmət edərkən, münafiqin açıqca "**mən xidmət etmək istəmirəm**" deməsi qeyri-mümkündür. Buna görə də münafiq bu xidmətdən qaçmağına və tənbəlliyinə bir bəhanə tapmaq məcburiyyətindədir. Bunun üçün hər dəfə işlətdiyi fərqli taktikaları var. Həmçinin bu hiyləgər taktikaların "**əksi sübut edilə bilməyəcək**" şəkildə olmasına xüsusən diqqət göstərər.

Məsələn, müsəlmanların bütövlükdə və çox fəal şəkildə mühüm bir iş etdiklərini gördüyü zaman, **ondan da bir şey tələb edərlər və o da kömək etmək məcburiyyətində qalar deyə, dərhal ortadan yox olar**. Bəzən də "**xəstə təqlidi edərək**" xidmət etməkdən qaçar. Bəzən də, "**yuxuya qalmış kimi edərək**", **hadisələrdən xəbərsizmiş kimi davranar və müsəlmanlara kömək etməkdən qaçar**. Bəzən özünü **yoracaq heç bir iş görmədiyi halda, "çox yorğun olduğunu söyləyərək" hadisələri uzaqdan seyr edər**. Müsəlmanlar fəal şəkildə çalışarkən, öz aləmində onları qəzəbləndirmək üçün **kənarda əyləşib əlinə televiziya pultunu alıb saatlarla boş-boş baxaraq, məqsədsiz şəkildə kanalları gəzər. Saatlarla küçəni və ya ətrafını seyr edib zamanın keçməsini gözləyər.** Yaxud bir faydası olmadığı kimi, **onların işlərini ləngidəcək və ya yavaşladacaq şəkildə ayaqlarının altında dolaşar** və öz kefi üçün gördüyü çox **lazımsız işlə onları sözə tutub məşğul etməyə çalışar**. Bir-birindən **lazımsız suallar verərək müsəlmanları qəzəbləndirməyə çalışar**. Hətta sırf ayaq bağı olmaq üçün yanlarına gedib "**çətin vəziyyətdə qaldığını, köməyə ehtiyacı olduğunu**" söyləyər. Həmçinin onun lüzumsuz işləri üçün "**özünə kömək etmələrini**" istəyər. "**Qolum ağrıyır mən edə bilmirəm, mənə yemək hazırlaya bilərsiniz?**", "**belim tutuldu, hərəkət edə bilmirəm, bu əşyaları mənim üçün daşıyıb yerləşdirə bilərsiniz?**" kimi saxtakarca tələblər edərək **heç vaxtları olmayan anlarında belə müsəlmanları özünə xidmət etdirməyə çalışar**. Məqsədi iş çıxardıb onların xeyirli fəaliyyətlərinə mane ola bilməkdir.

Bəzən də, özündən bir şey tələb edildikdə; "**istənilən şeyləri etməyi bacara bilmədiyi", "o mövzuda təcrübəsinin və ya qabiliyyətinin olmadığı, yoxsa bacara bilsə edəcəyi"** və ya **"yetişdirməsi lazım olan başqa bir işi olduğu**" kimi yalanlar uydurarlar. Halbuki bunlar, tarix boyu gəlib-keçmiş bütün münafiqlərin istifadə etdiyi, "**çox klassik və ən bilinən münafiq yalanları**"dır. Quranda, Peyğəmbərimiz (s.ə.v) dövründə, səfərə çıxmaqdan qaçmaq istəyən dövrün azğın münafiqləri də; "**vuruşmağı bacarsaydıq, əlbəttə, sizin ardınızca gedərdik**" (Ali İmran surəsi, 167) demişlər. Allah ayənin davamında; "...**o gün imandan çox küfrə yaxın idilər. Onlar qəlblərində olmayan şeyi dilləri ilə deyirdilər. Allah onların gizlətdiklərini daha yaxşı bilir...**" deyə buyurmuşdur.

Münafiq, İslama xidmət etmək, Quran əxlaqını yaymaq və müsəlmanlara dəstək vermək üçün az da olsa zəhmət çəkməyi belə guya "**ağılsızlıq**" və (öz ifadəsi ilə) "**saflıq**" hesab edər. Halbuki münafiq böyük zərərdədir və Allahın ayədə bildirdiyi kimi bu halı ilə "**imandan çox küfrə daha yaxındır**". Çünki eyni şərtlər altında, **küfr əhlindəki dost və tərəfdarları özündən kömək istəsə, münafiq sevə-sevə onların kömək etməyə qaçacaq.** (Allahın tənzih edirik) öz aləmində gücün Allahda deyil, küfr əhlindəki dərin dövlət strukturlarında, şeytani güc mərkəzlərində olduğunu zənn edən münafiq, onların hər cür istəyini çox mühüm hesab edər. Gözlərinə girə bilmək üçün onların dediklərini dərhal yerinə yetirər və verdikləri vəzifələri ən mükəmməl şəkildə yerinə yetirmək istəyər. **Nə yuxusuzluğu, nə yorğunluğu, nə də vaxtının azlığı ona mane olar. Ən çətin şərtlərdə belə olsa, işini gücünü bir kənara qoyub, küfr əhlindəki həqiqi dostlarını məmnun edə bilməyin arxasınca qaçar.** Belə vəziyyətdə münafiqə, müsəlmanların yanında olarkən heç olmayan, "**dəlisov enerji və şövq**" də gələr. Hətta öz aləmində küfr əhlinə jest edib onların

diqqətlərini çəkmək və rəğbətlərini qazana bilmək üçün, **ortada hər hansı tələb olmadığı halda belə onlara özlüyündə kömək təklif edər.**

Münafiq küfr əhlinə qarşı bu çirkin yanaşma əxlaqını göstərərkən, müsəlmanlar arasında hiyləgərcə heç nə etmədən oturub qalmasına da sevinər. Allah Tövbə surəsində Peyğəmbərimiz (s.ə.v)-in dövründəki münafiq xarakterindən nümunə verərək, "**Allahın Elçisinə qarşı olan**" və "**mübarizədən geri qalan**" bu insanların "**oturub qalmalarına sevindiklərini**" bildirmiş və münafiqlərin bu əxlaqsızlığını müsəlmanlara tanıtmışdır. Həmçinin Allah, münafiqlərin dünyadakı bu şeytani sevinclərinin, axirətdə sonsuz əzaba dönəcəyini xəbər vermişdir:

**Döyüşə getməyib arxada qalanlar Allahın Elçisinin əleyhinə çıxaraq evdə qalmalarına sevindilər. Onlar Allah yolunda öz malları və canları ilə cihad etmək istəmədilər və: "Bu istidə döyüşə çıxmayın!" – dedilər. De: "Cəhənnəm odu bundan da hərarətlidir!" Kaş anlayaydılar. (Tövbə surəsi, 81)**

**Adnan Oktar**: "**Allahın Elçisinə qarşı (döyüşdən) geri qalanlar oturub qalmalarına sevindilər...**" (Tövbə surəsi 81). Məsələn, İslama xidmət etmir, yazı yazmır, danışmır, bəhs etmir... Əsrimizdə necə olur bu? İslama xidmət etməz. Müəyyən şəkildə xidmət etməz. Boş işlərlə vaxt keçirər, kef işlərlə vaxt keçirər, yəni hər cür boş iş. İslama istəsə xidmət edər. İnternetlə də xidmət edər, şifahi də xidmət edər, hər cür xidməti edər. Lakin pul versən bunu edər, mənfəəti olsa. Lakin mənfəəti olmasa etməz. Çünki İslama xidmət etmək münafiqin heç xoşuna gəlməz, İslamdan bəhs etmək üçün işlətdiyi hər söz onun ciyərinə güllə atılmış kimi iztirab verər. Lakin sırf müsəlmanlara şirin görünmək üçün, öz aləmində diqqət çəkməmək üçün qəzəblə yenə özünü bir az xidmət edirmiş kimi göstərər". (A9 TV, 12 may 2016)

## Münafiq, müsəlmanlar qarşısında "bacarıqsız təqlidi" edərkən, inkarçıları məmnun etmək məsələsində dəhşətli dərəcədə bacarıqlı və çalışqandır

Münafiq bütün həyatını, imkanlarını və enerjisini müsəlmanlara qarşı hiyləgərcə mübarizə aparmağa həsr etmişdir. Dolayısilə bu hədəfinə zərbə endirəcək, zəhmətlərini puç edəcək bir mövqeyə gəlməyi heç vaxt istəməz. Müsəlmanlara qarşı mübarizə yolunda bütün ömrünü sərf etdiyi halda, onları gücləndirəcək, dinə və müsəlmanlara fayda təmin edəcək bir işin içində olmağı heç vaxt qəbul etməz.

Buna görə də İslama və müsəlmanlara zərrə qədər faydasının olmasını istəməz. Müsəlmanları müvəffəq edəcək, onlara kömək edəcək, işlərini asanlaşdıracaq hər hansı

fəaliyyətə dəstək verməmək üçün əlindən gələn hər cür saxtakarlığı edər. Məhz münafiqin bu məqsədlə tətbiq etdiyi hiyləgər üsullarından biri də, özünü "**bacarıqsız və qabiliyyətsiz**" biri kimi tanıtmasıdır.

Tarix boyu yaşamış bütün münafiqlər bu şeytani bəhanədən istifadə etmiş və bir tərəfdən özlərini müsəlman kimi tanıtmağa çalışarkən, digər tərəfdən də İslama və müsəlmanlara xidmət etməmək üçün hər cür oyuna əl atmışlar. Quranda Peyğəmbərimiz (s.ə.v) dövründəki münafiqlərin, bu mövzudakı səmimiyyətsiz rəftar və danışıqlarına bir çox nümunə verilmişdir. Bunlardan biri belədir:

**Uhudda iki qoşunun üz-üzə gəldiyi gün sizə üz vermiş müsibət Allahın izni ilə oldu ki, möminləri aşkara çıxartsın və münafiqləri bəlli etsin. Onlara: "Gəlin, Allah yolunda döyüşün, yaxud heç olmasa müdafiədə durun!" – deyildi. Onlar: "Döyüş olacağını bilsəydik sizin ardınızca gedərdik" – dedilər. Onlar o gün imandan çox küfrə yaxın idilər. Onlar qəlblərində olmayanı ağızları ilə deyirlər. Halbuki Allah onların nəyi gizlətdiklərini çox yaxşı bilir. (Ali İmran surəsi, 166-167)**

Peyğəmbərimiz (s.ə.v) dövründə münafiqlər İslama qətiyyən xidmət etmək istəmir, müsəlmanlara ən kiçik mövzuda belə kömək etməməyə çalışırdılar. Ağlabatan kimi görünən müxtəlif bəhanələr irəli sürərək, saxtakarlıqla bu vəziyyətlərini gizlədirdilər. Məhz Peyğəmbərimiz (s.ə.v) ilə birlikdə döyüşə qoşulmalarından söhbət getdikdə, münafiqlər bu hiyləgər taktikalarını tətbiq etməyə çalışdılar. Lakin ağılsızlıqlarını, səmimiyyətsizliklərini və münafiq xarakterli olduqlarını, "**yanlış danışıqları ilə**" büruzə verdilər.

O dövrün döyüşə qoşulmaqdan qaçmaq istəyən münafiqləri, Peyğəmbərimiz (s.ə.v) özlərini müsəlmanlara dəstək vermək üçün çağırdıqda, "**vuruşmağı bacarsaydıq, əlbəttə, sizin ardınızca gedərdik**" dedilər. Münafiqlər belə söz söyləyərək, özlərini "**bacarıqsız, qabiliyyətsiz, vuruşmağı bacarmayan, dolayısilə də onlara heç bir fayda verə bilməyəcək**" kəslər kimi göstərməyə çalışırdılar. Halbuki bu, tamamilə yalandı. Təkcə İslama xidmət etmək istəmirdilər.

Əgər inkarçı dostlarından söhbət getsəydi münafiqlər onlardan gələn hər cür dəvəti qaça-qaça qəbul edər və ən vacib təhlükə kəsb edən vəzifələri belə şövqlə yerinə yetirərdilər. Onlardan əldə etməyi ümid etdikləri mənfəətlər üçün hər çətinliyi gözə alardılar. Lakin müsəlmanlara dəstək vermək lazım gəldikdə, özlərini "**dünyanın ən bacarıqsız, ən biliksiz və ən qabiliyyətsiz insanlarıymış kimi**" göstərməyə çalışırdılar.

Peyğəmbərimiz (s.ə.v)-in dövründəki münafiqlər, Rəsulullah (s.ə.v) ilə birlikdə döyüşə getməmək üçün daha bir çox bəhanə irəli sürmüşdülər. **Bəziləri at çapmağı bacarmırmış, bəziləri qılıncı qaldırmağa gücü yoxmuş, bəziləri sağlamlıq vəziyyəti döyüşə çıxmağa uyğun deyilmiş kimi edərək geridə qalmağa çalışmışdı**. Lakin Allah

Quranda, onların bu bəhanələrinin "**yalan olduğunu**" bildirmiş və münafiqlərin "**döyüşdən geri qalmaq üçün oynadıqları şeytani oyunu**" ifşa etmişdir. Beləliklə Allah münafiqlərin bu hiyləgər taktikası məsələsində hər dövrdə yaşayacaq müsəlmanları xəbərdar etmişdir.

Necə ki, hazırkı münafiqlərin də ən mühüm əlamətlərindən biri, "**müsəlmanların fikri mübarizəsinə dəstək verməmək üçün min bir cür bəhanə ilə geridə qalmağa çalışmaları**"dır. Lakin, əlbəttə ki, münafiq şeytani zəkaya sahib və hiyləgər varlıqdır. Buna görə də, etmək istəmədiyi bir şey olduqda, bu məsələ üçün bilavasitə "**xeyr, mən bunu etmərəm**" deməz. Mütləq "**saxta, lakin əksi sübut edilməsi çətin**" bir bəhanə irəli sürərək "**mən bunu bu səbəblərlə edə bilmirəm**" deyər. Bunu söyləyərkən də, mərhələ-mərhələ, incə-incə planlaşdırdığı oyununu tətbiq etməyə başlayar. Özünə, müsəlmanlara fayda verəcək bir iş təklif edildikdə, buna dərhal etiraz etməz. **Əvvəlcə təklif edilən işi böyük sevinci göstərərək və saxta sevinclə qəbul edər. Sonra bu işi çox uzun zamana yayaraq müsəlmanlara unutdurmağa çalışar. Lakin bu müddət ərzində də, bu mövzuda heç bir hazırlıq görməz.** Sonra aradan zaman keçib də, özünə o işin vəziyyəti soruşanda, "**heç vaxtım olmadı, elə də bir şey edə bilmədim**" kimi laqeydcə bir açıqlama verərək məsələnin üstündən keçər. Bu müddət ərzində müsəlmanları aldatmış, o işin bitmiş olması lazım olduğunu düşündükləri bir vaxtda, onları son anda çətin vəziyyətdə qoyacaq şəkildə, heç nə etmədiyini söyləmişdir.

Məhz bu münafiqin özünü bacarıqsız göstərmək üçün oynadığı oyunlardan yalnız biridir. Bunlar kimi, daha bir çox yalanı var. Məsələn, yazılı bir iş görməsi tələb olunsa, "**kömək etməyi çox istədiyini, lakin yazı yazma qabiliyyətinin olmadığını**" söyləyər. İnternetdən araşdırma aparılması tələb edilsə; "**araşdırma apara bilmə qabiliyyətinin olmadığını, heç vaxt bu məsələdə müvəffəqiyyət qazana bilmədiyini**" söyləyər. Guya yazı yazmağı bacarmır, araşdırma edə bilmir. "**O zaman şəkil məsələsində kömək et**" deyildikdə də, "**kompyuterinin çox problem çıxartdığını və belə işlərin kompyuterini çox zəiflətdiyini**" iddia edər. Münafiqin, bunun kimi hamısı yalan olan bəhanələrinin ardı-arxası kəsilməz. Bəhanələrinin hər birinə çıxış yolu göstərilsə, artıq bir bəhanəsi qalmasa, məhz bu zaman, məcbur olaraq o işi görməyi qəbul etmək məcburiyyətində qalar. Lakin aydındır ki, münafiq yeni bir yalan daha tapacaq və yenə kömək etməkdən, müsəlmanlara dəstək verməkdən qaçacaq. Ya "**xəstələndiyi üçün çalışa bilmədiyini**" söyləyəcək, ya da "**çox vaxt ayırıb sınadığını, lakin ortaya yaxşı nəticə çıxmadığını**" söyləyəcək. Yaxud heç işə yaramayacaq bir şeylər gətirəcək və "**səy göstərdiyini, lakin ağlının bu qədərinə kifayət etdiyini**" söyləyəcək. "**Bütün gücündən istifadə etdiyini, lakin biliyinin qeyri-kafi qaldığını**" iddia edəcək. Dolayısilə də gördüyü işin nəticəsində heç vaxt gözlənilən müvəffəqiyyəti əldə etməyəcək.

Bəzən də münafiq özünü hiss etdirməmək üçün az da olsa, faydalı bir şeylər etmək məcburiyyətində qalar. Məhz bu zaman da münafiq, görəcəyi işi çox diqqətlə seçər. İslama ciddi fayda gətirəcək fəaliyyətdə iştirak etməyi heç vaxt istəməz. Özünü heç yormayacağı, müsəlmanlara mühüm dəstək verməyəcək, İslamın yayılmasında mühüm əhəmiyyət daşımayan mövzulara yönələr. Lakin bunu edərkən də, **göstərdiyi bu çox kiçik**

**səy üçün belə, müsəlmanlardan çox ciddi şəkildə təqdir görmək istəyər**. Bu təqdiri əldə edə bilmək üçün gördüyü işin hər incəliyini ən şişirdilmiş şəkildə dilə gətirər. Məqsədi, adının həmişə təriflə xatırlanmasını təmin etmək və beləliklə, öz aləmində mövcud olduğunu zənn etdiyi böyüklüyünü daha yaxşı vurğulaya bilməkdir. Halbuki ortada münafiqin qazandığı heç bir konkret müvəffəqiyyət yoxdur.

Müsəlmanlar hər gün səhərdən-axşama qədər onlarla xeyirli fəaliyyət göstərdikləri halda, məqsədləri insanların tərifini deyil, təkcə Allahın rizasını qazanmaq olduğu üçün, etdikləri fədakarlıqları dilə belə gətirməzlər. Lakin **münafiq süfrədən qalxarkən öz çirkli yemək boş qabını mətbəxə aparması və ya arxasında qoyduğu dağınıqlığı toplaması kimi adi mövzular üçün belə mütləq tərif gözləyər**. Müsəlmanlar həm gözəl əxlaqlarının tələbi olaraq, həm də onu xeyirli işlər görməyə təşviq etmək məqsədi ilə münafiqin ən kiçik səyinə belə onlarla tərif deyər. Bu yolla eqoistlik duyğusu həmişə əzizlənilən münafiq də, **Allah rizası üçün deyil, ancaq nəfsinin xoş tutulması üçün kiçik-kiçik bəzi faydalı işlər görər**. Beləliklə müsəlmanlar da, ağıllı rəftarla münafiqin İslama xidmət etməsini təmin etmiş olarlar. **Lakin, təbii ki, münafiq özünü bacarıqsız, qabiliyyətsiz insan görünüşünə salaraq genişmiqyaslı, vacib xidmət boynuna götürməkdən mütləq qaçar**.

Nəticədə də bütün bu rəftarları ilə müsəlmanları ruhdan salmaq, özündən uzaq dayanmalarını təmin etmək və onları "**boş verək o bir şey edə bilməz, ondan bir şey istəməyək**" deyəcəkləri həddə gətirmək istəyər. **Bir yazı yazması lazım gəlsə, ən hikmətsiz izahatlarla, ən bacarıqsız şəkildə və müsəlmanların çalışmalarında istifadə edə bilməyəcəyi üslubla yazar. Təcili bitirilməsi lazım olan bir işi özünə qabiliyyətsiz görünüşü verərək, ola biləcək ən uzun müddətdə və ən olmayacaq şəkildə təslim edər**. Beləliklə qısa müddətdə nəticə əldə edilməsi lazım olan işlərdə, "**o qısa müddətdə görə bilmir, ona vermək əvəzinə başqasından istəyərik**" dedirdərək, bu məsuliyyətdən də öz aləmində xilas olmaq istəyər. **Bir çıxış etməsi istənilsə, düzgün danışa bilmirmiş, ağlına elə də bir şey gəlmirmiş kimi edər. Bir yerə getməsi istənilsə, min bir cür tələb edərək, bir çox problem çıxardaraq müsəlmanları özünü yolladıqlarına peşman etməyə çalışar**.

Halbuki münafiq öz mənfəətinə uyğun olan, **inkarçıların gözünə girəcəyini və təqdirini toplayacağını düşündüyü hər mövzuda "ağlasığmaz bacarıq və qabiliyyət" göstərər**. Başqa sözlə, özünü küfr əhlinə bəyəndirməsindən söhbət getdikdə, "**münafiqin içindən sanki başqa insan çıxar**". O bacarıqsız, düzgün cümlə qura bilməyən, sürətli yazı yaza bilməyən, mövzulara sürətlə uyğunlaşa bilməyən, verilən məsuliyyətlərin yerinə yetirə bilməyən insan gedər; yerinə hələ cümlə bitmədən nə deyilmək istədiyini anlayan, aldığı məsuliyyətləri sürətlə yerinə yetirən, yatmadan, yemədən, içmədən edilməsi lazım olan hər şeyi mükəmməl düzgünlükdə nəticələndirə bilən tam fərqli insan gələr. **Münafiq haqdan yana olan hər mövzuda özünü aciz və qeyri-kafi göstərərkən, xainlik, pislik və saxtakarlıq etməsi lazım gəldikdə, mükəmməl nizam-intizam və qabiliyyət göstərər.**

**Küfr əhlinin ideologiyasını dəstəkləyən bir yazı yazması istənilsə bunu heyrətamiz sürətlə dərhal bitirib təslim edər**. Onlarla olan əlaqələrindəki danışıqları olduqca səlis,

heyrət verəcək şəkildə “**şövqlü və fəal**” olar. Küfr əhlinin çirkli həyatına uyğunlaşma məsələsində əskiksiz qabiliyyət göstərər. Bir sözlə, **müsəlmanlara qarşı axmaq və qeyri-səlis rəftar göstərən münafiq, küfr əhlindən mənfəəti olduğu üçün onlara qarşı çox yaman, diqqəti açıq, çevik, zəkalı və müvəffəqiyyətli profil çəkər**. Küfr əhlinə özünü qəbul etdirə bilmək üçün heyvani səy göstərər.

Lakin **münafiqin İslama xidmət etməkdən qaçdığı və öz aləmində ayıqlıq etdiyi hər an onun əleyhinə olar**. Yan yatıb kefinə baxaraq, müsəlmanların xidmətlərini uzaqdan müşahidə edərək keçirdiyi hər gün, onun sağlamlığı, psixologiyası, ruhu, qəlbi, vicdanı getdikcə qaralıb bozararkən; gecə-gündüz Allah üçün səy göstərən müsəlmanlar gün keçdikcə daha sağlam, daha hüzurlu və daha xoşbəxt həyat yaşayarlar.

## Münafiq, müsəlmanların müvəffəqiyyətlərini pislədiyi halda, özünü də xüsusi qabiliyyətləri olan və əvəzedilməz insan kimi göstərməyə çalışar

Münafiqlər, İslama xidmət edib müsəlmanlara dəstək olmağı heç vaxt qəbul etməzlər. Lakin bəzən, həm münafiq olduqlarını gizlətmək, həm də daha çox mənfəət əldə edə bilmək üçün faydalı bir şeylər görürmüş kimi davranarlar. Bu cür vəziyyətlərdə də bunu dərhal öz lehlərində ən yaxşı şəkildə istifadə etməyə cəhd edərlər. Əgər kiçik də olsa, faydalı fəaliyyətləri olsa, bunu mümkün qədər gündəmdə saxlamağa, demək olar ki, hər kəsə çatdırmağa çalışarlar. Bütün müsəlmanların iman gətirdikləri gündən bəri hər gün göstərdikləri gözəl fəaliyyətdən, “**sanki ilk dəfə özləri kəşf etmiş**” və “**ilk dəfə özləri göstərirmiş**” kimi danışarlar. Beləliklə “**İslama ən çox və ən təsirli şəkildə xidmət edən, ən ağıllı, ən ayıq, ən fərasətli və bəsirətli insanın özləri olduğu**” təəssüratını verməyə çalışarlar.

Özlərini böyüdə bilmək və guya “**müsəlmanlarla aralarında nə qədər böyük üstünlük fərqi olduğunu**” vurğulamaq üçünsə, **müsəlmanların hal-hazırda mükəmməl göstərdikləri fəaliyyətləri həmişə tənqid edərlər.** Demək olar ki, hər fürsətdə, guya “**heç cür müvəffəqiyyətli nəticə almadıqlarını, bacara bilmədiklərini, bir çox şeyi düşünə bilmədiklərini və həmişə səhv etdiklərini**” vurğulayarlar. Bu ifadələrini, rast gəldikləri demək olar ki, hər kəsə söyləyərək yayarlar. Sonra da yavaş-yavaş əslində “**özləri bu fəaliyyəti göstərəcək olsa, nə qədər mükəmməl nəticələr əldə edəcəklərindən**” bəhs etməyə başlayarlar. Həmişə praktikada tətbiq olunması mümkün olmayan “**xəyali fikirlər**” verərlər. Həmçinin özlərinə bir neçə gün imkan verilsə və icazə verilsə, bunu bənzərsiz şəkildə edə biləcəklərindən danışarlar.

Halbuki münafiqin nə bir şeylər etmək istəyi, nə də niyyəti var. Məqsədi öz aləmində təkcə “**müsəlmanların müvəffəqiyyətinə kölgə salmaq**” və guya “**öz üstünlüyünü vurğulaya bilmək**”dir. **Çünki çox açıq həqiqətdir ki, münafiq onsuz da müsəlmanlara**

**fayda verəcək bir şey üçün heç vaxt zəhmət çəkməyəcək.** Lakin "**dilbaz və gəvəzə**" olduğu üçün, əlindəki bu imkandan istifadə edərək, öz aləmində əleyhinə olan bir gündəm yaratmağa və bundan da özünə pay çıxartmağa çalışar.

## Münafiq, müsəlmanların müvəffəqiyyətlərini çox qısqanar və onlardan daha yaxşısını edə bildiyini sübut etmək üçün göstəriş məqsədli səylər göstərər

Müsəlmanlar etdikləri gözəl xidmətlər və xeyirli işlər üçün göstərdikləri səylərlə təkcə Allahın rizasını və sevgisini qazana bilməyi ümid edərlər. Bundan savayı insanlardan hər hansı təqdir və qarşılıq gözləməzlər. Məqsədləri İslamı, müsəlmanları gücləndirmək, Quran əxlaqını insanlara çatdıraraq dünyada əmin-amanlıq və sülhü hakim etməkdir.

Münafiqlər isə bunların heç birini əhəmiyyətli hesab etməz və buna görə də bu istiqamətdə heç bir səy göstərməzlər. Lakin bunlar hər nə qədər münafiqin hədəflərinə tamamilə zidd də olsa, **müsəlmanların əldə etdikləri uğurlar münafiqi çox qısqandırar.** Çünki münafiq üçün "**hər mövzuda hər kəsdən üstün olduğunu vurğulaya bilmək**" çok mühüm məsələdir. Əks vəziyyətlə qarşılaşmaq münafiqi sanki dəliyə döndərər. Qısqanclıqdan, "**o imici mütləq aradan qaldırmaq; o müvəffəqiyyətli görünən kəslərin müvəffəqiyyətinə kölgə salıb onları qabiliyyətsiz, ağılsız və biliksiz insanlar kimi göstərmək**" istəyər. Bununla yanaşı, bu mövzuda "**əsil özünün nə qədər mükəmməl məlumat təcrübəsinə və qabiliyyətə sahib olduğunu**" vurğulayar. Həmçinin əslində İslama və müsəlmanlara fayda verəcək heç bir xidmətdə iştirak etmək istəmədiyi halda, **eyni vəzifənin özünə verilməsi üçün hər yolu sınayar. Bunun üçün lazım gəlsə yalan, böhtan, iyrənclik, tərslik kimi hər cür çirkin üsulu da tətbiq edərək, müvəffəqiyyətləri ilə ön plana çıxan kəsləri öz aləmində əhəmiyyətsiz göstərib alçaldacaq fəaliyyətə başlayar.**

**Məqsədi heç vaxt Allahın rizasını qazanmaq və ya İslam üçün faydalı şey etmək deyil. Tək istədiyi böyüklüyünü sübut edə bilməkdir.** Müvəffəqiyyətli müsəlmanlardan daha artığını və daha yaxşısını edə bilməlidir ki, onları keçə bilsin və onlardan daha böyük və daha üstün olduğunu hər kəsə göstərə bilsin. Eyni zamanda da özünü "**çox işə yarayan, çox mühüm fəaliyyətlər göstərən, çox məxsusi və bənzərsiz insan**" mövqeyinə gətirə bilsin.

**Müsəlmanlar öz aralarında göstərilən hansı fəaliyyətlərdən ötrü məmnun olur və bu mövzuda kimləri təqdir edirlərsə, münafiq şeytanın ilhamı ilə dərhal bu kəslərə müsəllət olar.** Xüsusən də bu əsnada "**ən çox gündəmdə olan və ən mühüm hesab edilən fəaliyyətləri göstərən kəsləri tənqid etmək" və "onlardan daha yaxşı olduğunu vurğulaya bilmək**" münafiq üçün çox əhəmiyyətlidir.

Məsələn, **əgər bir insan çox gözəl yazı yazmış və bu da İslamın təbliği baxımından çox təsirli olmuşdursa, münafiq dərhal müəyyən yolla bu yazını tənqid etməyin yollarını axtarar. Başqası bir yerdə gözəl dekorasiya edibsə, dərhal bunun nə qədər dəbdən düşmüş və pis olduğunu vurğulayacaq üslub işlədər. Digər bir insan, gözəl video hazırlamış və bunda ən son texnologiyalar və ən keyfiyyətli təsvirlərdən istifadə etmişdir. Münafiq dərhal burada da öz aləmində yuxarıdan aşağı baxan, bəyənməyən və kiçik hesab edən üslubla, bunların əslində çox bilinən, çox köhnə taktikalar və adi təsvirlər olduğunu söyləyər.** Sonra da, o şeytani, lakin çox zəif olan ağlı ilə çirkin oyunlarının ikinci mərhələsinə keçər. **Həmişə tənqid yağdırıb, qınayıb, əskik və qüsur tapdığı bu işləri, özünün hər kəsdən daha da yaxşı bildiyini və ən mükəmməl taktikalarla daha da təsirli şəkildə edə biləcəyindən bəhs etməyə başlayar.** Bunlar kimi göstəriləcək yeni bir fəaliyyətdən söhbət getdikdə də, münafiq dərhal meydana atılıb bu işlə özünün maraqlanmaq istədiyini söyləyər. Məsələn, bir su quyusu açılacaq, münafiq dərhal önə atılar və "**mən edim bunu**" deyər. Beləliklə özünə "**işə yarayır görünüşü**" vermiş olacaq və onsuz da müvəffəqiyyət qazanacağı məlum olan bir işi öhdəsinə götürüb "**bu müvəffəqiyyətin memarı**" mövqeyinə gəlmiş olacaq.

Lakin, əlbəttə ki, münafiqin niyyəti heç vaxt belə şey üçün zəhmət çəkmək, buna vaxt ayırmaq, müsəlmanları və İslamı gücləndirəcək hər hansı şey etmək deyildir. **Məqsədi təkcə iyrənclik edərək, problem çıxardaraq, qışqır-bağır salaraq özünü insanlara üstün göstərməyə çalışmaqdır.** Necə ki, özünə, "**yaxşı, madam ki, sən bu işdə hər kəsdən daha da yaxşısan, o zaman al bunu da sən gör**" deyildikdə, bu mövzuda ən kiçik səy belə göstərmədiyi və heç vaxt istənilən nəticəyə nail olmadığı görünər. Çünki artıq öz aləmində istədiyi olmuşdur. Hər kəsin eşidəcəyi biləcəyi şəkildə, "**filan şəxs bu mövzuda ən bilikli, ən istedadlı insandır. Buna görə də, bu vəzifəni ona verdik**" deyə deyilmiş olacaq, bu da öz aləmində üstünlüyünü sübut etmiş olacaq. Təkcə bu sözlə belə istədiyi etimadı qazanmış və bu müvəffəqiyyətli insanlarla qarşılaşdıqda, onlara qarşı istifadə edə biləcəyi bir fürsət qazanmış olacaq.

Məhz münafiqin hər oyunu kimi, bu planı da olduqca "**bomboş və ağılsızdır**". Müsəlmanların, ortada səmimi səy və xeyirli iş olmadan, tək bir sözlə biri barədə qənaət sahibi olmayacaqları aydındır. Lakin münafiq, belə vəziyyətdə müsəlmanların da "**onu gözlərində böyüdəcəklərini və çox təsirlənəcəklərini**" zənn edər. Böyüklük və göstəriş hərisliyi ilə, öz ağılsızlığını belə görə bilməyəcək qədər korlaşmışdır.

Bütün kainatı və içindəki hər şeyi yaradan, gücün tək və sonsuz sahibi olan təkcə uca Allahdır; Ondan başqa bütün varlıqlar isə Ona möhtac və acizdir. Dolayısilə də **münafiq nə qədər vurnuxsa da, heç vaxt arzuladığı kimi böyüklüyə nail ola bilməyəcək. Tarix boyu hər dövrdə, fironlar, nəmrudlar həmişə bu böyüklük ehtirası ilə yanıb tutuşublar. Lakin heç biri istədiyinə nail ola bilməmişdir**. Hər biri, əldə etdiyi maddi-mənəvi hər şeyi geridə qoyaraq Allahın hüzuruna çıxarılmaq üçün axirətə alınmışdır. Məhz münafiqin, heç vaxt həqiqətə çevrilməyən bu "**dəlisov böyüklük hərisliyi**" Quranda belə xəbər verilmişdir:

**Həqiqətən, özlərinə bir dəlil gəlmədən Allahın ayələri barəsində mübahisə edənlərin ürəklərində böyüklük iddiasından başqa bir şey yoxdur. Onlar heç vaxt buna çatmayacaqlar. Sən Allaha sığın! Həqiqətən, O, Eşidəndir, Görəndir. (Mümin surəsi, 56)**

**Sədd əhli əlamətlərindən tanıdıqları adamları səsləyib deyəcəklər: "Sizə nə yığdıqlarınız, nə də təkəbbürlük göstərməyiniz fayda vermədi". (Əraf surəsi, 48)**

## Münafiq oğru və fırıldaqçıdır

Münafiq Allah qorxusu olmayan varlıqdır. Dolayısilə həyata dair heç bir mövzuda "**imani, əxlaqi və ya etik sərhədləri**" yoxdur. Mənfəatinə uyğun olan hər şey, onun üçün "**yaxşı**" və "**doğru**" olandır. Həmçinin bir şey onun mənfəətlərini zədələyirsə, bu da münafiqə görə "**pis**" və "**səhv**" olandır. Allahın özünü hər an gördüyünə və bütün etdiklərinin hesabını axirətdə mütləq verəcəyinə də inanmadığı üçün, tənha qaldıqda, heç kimin özünü görmədiyini düşündükdə hər cür əxlaqsızlığı, saxtakarlığı və alçaqlığı edə biləcək şəxsiyytsizlikdədir. Məhz bu yanlış baxış prizması münafiqin "**oğurluq etməkdə də heç bir problem görməməsinə**" səbəb olar.

Tarixin demək olar ki, hər dövründə, münafiqlər iman gətirənlərdən "**maddi-mənəvi hər məsələdə, mümkün qədər ən yüksək səviyyədə istifadə etməyə**" **çalışmışlar. Onların zənginliklərinə qarşı içlərində böyük qısqanclıq duymuş və sahib olduqları zənginliyə həmişə göz dikmişlər**. Münafiqlər bu malları qəsb edə bilmək və ya oğurlaya bilmək üçün həmişə fürsət gözləmişlər. Münafiqlərin, iman gətirənlərin mallarını oğurluq, qəsbkarlıq və ya fırıldaqçılıq kimi yollarla ələ keçirtməyə çalışdıqlarına dair tarixdə bir çox nümunə var. Rəsulullah (s.ə.v) dövründəki münafiqlərin də bu oğru və qəsbkar xarakterlərindən rəvayətlərdə tez-tez bəhs edilir. Bu dövrdə də münafiqlər yenə Peyğəmbər (s.ə.v)-in ətrafındakı müsəlmanların mallarını və mülklərini oğurlamağa meyl edirdilər. Bu mövzuda ən tanınan münafiqlərdən biri də "**Tume ibn Ubeyrik**"dir. Rəvayətlərdə Nisa surəsindəki bəzi ayələrin **Tume ibn Ubeyrik**"in etdiyi oğurluq üçün nazil edildiyi bildirilmiş, təfsirçilər isə ayələrin şərhlərini belə açıqlayıblar:

**"Şübhəsiz ki, Allahın sənə göstərdiyi kimi insanlar arasında hökm verməyin üçün Biz sənə Kitabı haqq olaraq nazil etdik. (Heç vaxt) Xainlərin müdafiəçisi olma. Həmçinin Allahdan bağışlanma dilə. Həqiqətən, Allah bağışlayandır, rəhm edəndir". (Nisa surəsi, 105- 107)**

"Bu ayələrin əksəriyyətinin Tume ibn Übeyrik haqqında enmiş olduğu barədə təfsirçilər ittifaq etmişdir". Lakin hadisədə bir neçə rəvayət var:

**<u>Birincisi</u>: Tume zirehli bir köynək oğurlamış, və oğurluğu bir yəhudinin boynuna atmışdır.**

**<u>İkincisi</u>: Zireh özünə əmanət olaraq buraxılmış, şahid də yoxmuş, sonra inkar etmiş.**

**<u>Üçüncüsü</u>: O yəhudinin oğurladığını iddia etmişdir...**

Təfsirçilərin əksəriyyətinin seçim etdiklərinə görə rəvayətlərin xülasəsi budur: Ənsarın yanında Zəfər oğullarından Tume ibn Übeyrik adında biri, qonşusu Qatadə ibn Numandan bir gecə bir un dağarcığı içində bir zireh çalmış. Dağarcığın yırtığından un tökülərək aparmışdır. Zeyd ibn Semin adında bir yəhudinin yanına qoymuşdur. Tume axtarılmış, zireh tapılmamış; almadığına və bilmədiyinə and içmiş, buraxmışdılar. Un izini izləmiş, yəhudinin evinə gəlmiş və tapmışdılar. Yəhudi bunu özünə Tumenin gətirib buraxdığını söyləmiş və yəhudilərdən şahidlik edənlər də olmuş idi.

Zəfər oğulları hz. Peyğəmbər (s.ə.v)-in yanına getmişdilər. Tumenin təmiz olduğuna və yəhudinin oğurluq etdiyinə şahidlik etmişlər və Tumeyi müdafiə edib müsəlmanlıq naminə yəhudilərlə mübarizə aparmasını xahiş etmişlər, Rəsulullah da görünüşcə müsəlman olan Tumenin andına və bunların şahidliklərinə əsaslanaraq elə etmək istəmişdi. Bundan sonra Allah tərəfindən bu ayələr enmiş və xainlə təmizi bilavasitə bildirərək Rəsulullah (s.ə.v)-i doğru yoldan azmaq və səhv etməkdən qorumuşdur.

Buna qarşı Tume Haqqa təslim olub tövbəkar olmaq əvəzinə, Məkkəyə qaçmış və dindən dönmüşdür. Əvvəlcə Sülafe binti Sad (Sad qızı Sülafe) adında bir qadının yanına gəlmişdir. Sonra Səlim oğullarından Həccac ibn Allat adında birinin yanına getmiş, orada da oğurluq etmiş və qovulmuşdur. Daha sonra yenə oğurluq üçün bir evin divarını dələrkən divar uçmuş, altında qalmışdır. Bir rəvayətdə bununla da ölməmiş, Məkkədən çıxarılmışdır. Ərəblərdən bir tacir karvanına qarışmış, bunlardan da bir mal oğurlamış, qaçmış və lakin tutmuşlar, faciəvi şəkildə öldürmüşlər. (Elmalılı M. Hamdi Yazır, Hak Dini Kur"an Dili, 3-cü cild, səh. 75-81)

Təfsirlərdə verilən məlumatlara görə, rəvayətlərdə bildirilən Tume adlı münafiq zirehli bir köynək oğurlamış, lakin hadisənin tam olaraq necə baş verdiyi barədə ittifaq təmin edilə bilməmişdir. Tume, bu oğurluğu özünün deyil, o ətrafda olan yəhudi birinin etdiyini iddia edərək and içmiş və müsəlmanları da bu yalanına inandıra bilmək üçün süni dəlillər meydana gətirmişdir. Köynəyin oğurlandığı yerdən o yəhudi şəxsin evinə qədər un torbasından un tökərək, izin yəhudi olan insanın evinə qədər çatması təmin edilmişdir. Bu oğurluq ortaya çıxdıqda isə, bəzi müsəlmanlar da dalğınlıq edərək və bilmədən Tumedən yana şahidlik etdikdə, Peyğəmbərimiz (s.ə.v) Tumeyi qorumağa qərar vermiş, bundan sonra Allah Nisa surəsindəki bu Quran ayələrini endirərək, Peyğəmbərimiz (s.ə.v)-ə ; **"(Heç vaxt) Xainləri müdafiə edənlərdən olma. Həmçinin Allahdan bağışlanma dilə" (Nisa surəsi, 105-106)** deyə buyurmuşdur.

Tume ibn Ubeyrik, etdiyi bu xainliklə Allaha, İslama, Peyğəmbər (s.ə.v)-ə açıqca xəyanət etmişdir. Müsəlmanların mallarını haqsızlıqla oğurlamış, qəsb etmiş, sonra da Peyğəmbər (s.ə.v)-ə və iman gətirənlərə yalan söyləmiş, yalan yerə and içərək bütün müsəlmanları aldatmağa çalışmışdır. Oğurluq edib, özündən soruşanda "**mən oğurlamadım**" deyə cavab vermiş və günahsız insana böhtan ataraq "**o oğurladı**" demişdir. Hadisənin əsil üzü ortaya çıxdıqda isə, etdiklərindən ötrü tövbə etmək əvəzinə, oradan qaçıb Məkkəyə getmişdir. Sonra da dindən çıxaraq, müsəlmanlığı tərk etmişdir. Daha sonra da getdiyi hər yerdə yaxalanıb, qovulub, xor görülüb, alçaldılmasına baxmayaraq, min bir cür fırıldaq gələrək əxlaqsızlığına davam etmişdir. Məkkədə sığındığı birinin evindən qovulmuş sonra başqasının yanına getmiş və yenə orada da eyni alçaq xarakteri göstərərək yenə oğurluq etmişdir. Oradan sonra getdiyi başqa evdə də yenə oğurluq etmək üçün evin divarını dələrkən divar uçmuş və özü də bu xarabalığın altında qalmışdır. Rəvayətlərə görə buradan sağ çıxmış və təkrar bir tacir karvanına daxil olub özünü tacir kimi tanıdaraq orada da yenə oğurluq etmişdir. Bu hadisədən sonra özünü tutan kəslər isə Tume ibn Ubeyriki döyərək öldürmüşlər.

Bu münafiq, küfr əhlinin müsəlmanlar kimi mülayim, gözəl əxlaqlı, ədalətli insanlar olduğunu zənn etmiş, müsəlmanlara etdiyi alçaqlığı onlara da rahatlıqla edə biləcəyini düşünmüşdür. Halbuki müsəlmanlar Allahdan qorxduqları üçün ona bu əxlaqı göstərirlər. Küfr əhlindəki insanlar isə, ədaləti özlərinin təmin edəcəklərini düşünərək mərhəmətsiz üsullarla; işgəncə verərək və döyərək bu münafiqdən intiqam almaq istəmişlər.

Allah, etdiyi oğurluqlarla bu münafiqi həyatı boyu rəzil-rüsvay etmişdir. **Oğurladığı mallar onun üçün nemətə dönməmiş, Allah hər etdiyi alçaqlığı ona ömrü boyu həmişə bəlaya və fitnəyə döndərmişdir. Allah münafiqin həyatının dünyada da, axirətdə də, hər zaman fəlakətlə nəticələndiyini müsəlmanlara göstərmişdir.**

Tume ibn Ubeyrikin bütün bu hərəkətləri də, münafiqin nə qədər oyunbaz, hiyləbaz, fırıldaqçı və aktyor ola biləcəyini açıqca göstərər. Peyğəmbərimiz (s.ə.v) də ***"...yeməkləri qəsb və yağmadır. Qənimətləri hiylə ilə qazancdır...*"** (İmam Ahmed ve Bezzar/Cemul Fevaid, Hədis No: 8110) sözləri ilə münafiqlərin bu "**qəsbkar, soyğunçu xarakterlərinə" və "hiylə ilə saxtakarlıq və fırıldaqçılıq edərək qazanc əldə etdiklərinə**" diqqət çəkərək müsəlmanları, münafiqlərdən gələ biləcək belə fitnəyə qarşı tədbir almaları üçün xəbərdar etmişdir.

## Münafiq, müsəlmanların təkcə malını, mülkünü deyil, gözəlliklərini, sağlamlıqlarını, sevgilərini, xoşbəxtliklərini, enerjilərini və vaxtlarını da oğurlamaq istəyər

**Münafiq xarakterli bir insanın qəsb etməyə və oğurlamağa qarşı olan hərisliyi təkcə mal, pul, əşya kimi maddi dəyərlərlə məhdudlaşmır.** Müsəlmanların zənginliyinə olduğu

kimi, sahib olduqları hər cür mənəvi gözəllik və nemətə qarşı da böyük qısqanclıq bəsləyər. Öz kin və nifrət dolu həyatında heç vaxt dadmadığı, lakin müsəlmanların həyatlarının hər anında ən mükəmməlini yaşadıqları bu mənəvi nemətlərin hər biri, münafiq üçün "**qəlb yarası"dır. "Gəncliklərі, gözəllikləri, sağlamlıqları, hüzurları, xoşbəxtlikləri, eşqi, sevgini, həyatın dadını, nemətlərin zövqünü ən artığı ilə və ən gözəl şəkildə yaşamaları**" münafiqdə bitmək bilməyən qəzəbə səbəb olar.

Münafiq həyatı boyu "**heç kim tərəfindən səmimi sevgi ilə sevilməmiş**", "**heç kimin həqiqi mənada hörmətini qazana bilməmiş**" və heç kim üçün "**dəyərli dost, yaxın yoldaş**" olmamışdır. Ətrafındakı hər kəs tərəfindən həmişə "**xorlanmış, alçaldılmış, mənfəət üçün istifadə edilmiş**", lakin "**heç biri tərəfindən dəyər görməmişdir**". Əlbəttə ki, iman gətirənlər öz aralarında olub da münafiq rəftarlar göstərən şəxslərə də yenə şəfqətlə yaxınlaşar, bir ibadət olaraq sevgi göstərər və onların hidayət tapmaları üçün səy göstərərlər. Lakin bu iman gətirənlərin öz aralarında yaşadıqları səmimi və coşğulu sevgi kimi deyil. Bu həqiqətdən çox yaxşı xəbərdar olan münafiq, həmişə bir yerdə olduğu müsəlmanların sevincini, xoşbəxtliyini, rahatlığını, bir-birlərinə olan böyük sevgi, hörmət, sədaqət və bağlılıqlarını gördükcə, qəzəb, kin və qısqanclıqdan dəliyə dönər və bütün imkanları ilə buna əngəl törətməyə çalışar.

**Xüsusən də peyğəmbərlər və elçilər kimi, müsəlmanların ən çox sevdikləri, hörmət etdikləri, böyük sədaqətlə bağlandıqları kəslər, münafiqin "ən çox qısqandığı" və "əllərindəki nemətləri ən çox oğurlamaq istədiyi" insanlardır**. Müsəlmanların peyğəmbərlərə duyduqları coşğulu sevgi, hörmət və dərin sədaqət; xanımlarının onlara böyük eşq və ehtirasla bağlanmış olmaları, dünyada axirətdə bir an belə yanlarından ayrılmaq istəməmələri, münafiq üçün məhvedici əzaba dönər. Dolayısilə **onların xoşbəxtliyini, sevincini, sevgilərini, dostluqlarını oğurlaya bilmək üçün əlindən gələn hər şeyi edər**. Münafiq, şeytanca oyunlar oynayıb, alçaqca yalanlar söyləyərək, iyrənclik edib, böhtanlar ataraq, müsəlmanlar arasında fitnə, narahatlıq və qarışıqlıq çıxartmaq və beləliklə sahib olduqları nemət və gözəllikləri müsəlmanlardan oğurlaya bilmək istəyər.

Münafiqin müsəlmanlardan oğurlamaq istədiyi başqa nemət isə "**zaman**"dır. İman gətirənlər həyatlarının hər anını insanlara Allahın böyüklüyünü, İslam əxlaqının gözəlliyini söyləyib xeyirli fəaliyyətlər göstərməyə ayırarlar. Bu da münafiqin heç istəmədiyi və bütün gücü ilə mane olmaq istədiyi haldır. Buna görə də, əlindən gəldiyi qədər problem çıxardıb müsəlmanları əyləndirərək, boş işlərlə məşğul etməyə çalışaraq "**enerjilərini və faydalı işlərə, gözəl mühitlərə ayıracaqları vaxtlarını oğurlamaq istər**".

Lakin; "...**Allah heç vaxt kafirlərə möminlərin əleyhinə yol verməz**" (Nisa surəsi, 141) ayəsi ilə xəbər verildiyi kimi, **Allah münafiqin bu oyununun müvəffəqiyyət qazanmasına icazə verməz**. Müsəlmanlar, imandan qaynaqlanan üstün ağılları, fərasət və bəsirətləri ilə, münafiqin məqsədini və etdiyi əxlaqsızlıqları açıqca görər və tələlərini Quran əxlaqı ilə zərərsizləşdirərlər. **Münafiqin müsəlmanların vaxtını, hüzurunu,**

**xoşbəxtliyini, sevincini, sevgilərini, dostluqlarını oğurlamaq səyləri, təkcə müvəffəqiyyətsizlik, narahatlıq, qəlb ağrısı ilə nəticələnər.**

## Tarixdəki ən alçaq münafiqlərdən biri olan Samiri də oğurluğu ilə tanınırdı

Oğurluğu ilə tarixə keçmiş ən tanınan münafiqlərdən biri də "**Samiri**"dir. Samiri, "**Quranda da adı keçən, hz. Musa (ə.s) dövründə yaşamış İsrail oğullarından biridir**". "**Samiri**" adı, qədim Misir dilində "**əcnəbi**" mənasını verən "**shemer**" kökündən törəmiş sifət addır.

Samiri, ailəsi və ətrafı da qızıl ustası olan, Misirdə qızıl buzov emal etməsi ilə məşhurlaşmış "**heykəltəraş və qəlibçi**"dir. Samiri əvvəlcə bu buzovların qəlibini hazırlayır, sonra da tökmə yolu ilə qızıl buzovlar hazırlayıb sataraq pul qazanırdı. Bu və bənzəri daha başqa incəsənət fəaliyyətlərində də, çox mahir və istedadlı kimsə idi. Emal etdiyi buzovların bir xüsusiyyəti də, eyni zamanda bir musiqi aləti kimi hazırlanmış olması idi. Üzərlərinə meh əsdikdə, hündür yerlərə yerləşdirilmiş olan bu buzov heykəlləri, "**böyürən buzov səsi kimi bir səs**" çıxardırdılar. Öndən və arxadan boşluq qoyularaq düzəldilən bu heykəllərdən çıxan səslər, buzova "**həqiqi və metafizik görkəm**" qazandırırdı. İsrail oğulları dolanışıqlarını geniş miqyasda "**köləlik, əkinçilik və heyvandarlıqla**" qazandıqları üçün, Samirinin düzəltdiyi bu qızıldan buzovlar və onun bu mövzudakı məharəti, oradakı xalqın sanki nəfəsini kəsirdi. Onun bu qabiliyyətinə çox təəccüblənir və heyran qalırdılar.

O dövrdə "**öküz heykəlləri**", Misir mədəniyyətinin imtinaedilməz elementləri idi. Misirdə müqəddəs sayılan bu öküzlərin ilahına "**apis**" adı verilirdi (Allahı tənzih edirik). Fironun bütpərəst dinini təmsil edən onlarla öküz heykəli Misirin əsas prospekt və meydanlarında ucaldılmışdı. Fironun sarayına doğru yüksələn yolun hər iki tərəfində də yenə bu heykəllər mövcud edirdi. Misir inancında "**öküz", "gücü, dövləti və sərvəti əlində saxlamağın simvolu idi".**

**Firon dövründə qızıl da çox mühüm vəsait idi və gücün simvolu hesab edilirdi**. İsrail oğullarında da o dövrdə qızıla qarşı heyrətamiz heyranlıq yaranmışdı. Bir cənnət neməti olan qızıla qarşı hər insanın şüur altında bəyənmə var. **Məhz şeytani zəka və qabiliyyətə sahib olan Samiri də, insanların şüur altındakı bu qızıl sevgisindən istifadə edərək şeytani soyğun planı qurmuşdu.**

O dövrdə, aralarında İsrail oğullarının da olduğu Misirlilər, Firon zülmündən və köləlikdən xilas olub azad yaşaya biləcəkləri yeni torpaqlara yerləşmək üçün hz. Musa (ə.s) ilə birlikdə Misirdən ayrılmaq üzrə idilər. Məhz bu mərhələdə **Samiri və dəstəsi də, İsrail oğullarının yola çıxacaqlarını xəbər aldılar. Misirdə genişmiqyaslı oğurluq etmək üçün hiyləgərcə plan qurdular. Samiri, yanındakı münafiqləri təşkil edərək Fironun və yaxın ətrafındakı adamlarının saraylarını, evlərini, məzarlarını və xəzinələrini soymalarını**

**təmin etdi. Sonra da oğru dəstəsi ilə birlikdə, bu soyğun sayəsində oğurladıqları yüzlərlə kilo ağırlığındakı qızılı heyvanlarına yükləyərək Misirdən Sinay səhrasına doğru yola düşdülər.**

O vaxtlarda hz. Musa (ə.s) da vəhy almaq üçün qövmündən ayrılaraq "**Tur dağı**"na getmiş və yerinə də qardaşı hz. Harun (ə.s)-ı vəkil olaraq buraxmışdı. Samiri və münafiq dəstəsi oğurladıqları qızılları yolda apararlarkən hz. Harun (ə.s) onları gördü. Daşıdıqları qızılın miqdarını gördükdə, gizlin bir iş gördüklərindən şübhələndi və onları dayandırdı. Əllərində "**yüzlərlə kilo qızıl**" olduğunu gördükdə, bunları "**oğurluqla ələ keçirmiş ola biləcəklərini**" anladı. Lakin onlardan soruşduqda Samiri; "**bunlar mənim qızıllarımdır, vaxtında toplamışdım, hamısı mənə məxsusdur**" deyə yalan söyləyərək etdiyi oğurluğu gizlətməyə çalışdı. Yanındakı digər münafiqlər də eyni şəkildə; "**bəli, bunlar bizim qızıllarımızdır**" deyərək Samiriyə dəstək verdilər. Halbuki o qədər çox qızılın onların olmayacağı, bunları oğurluqla əldə etdikləri çox açıq idi. Necə ki, Tövratda da, Samirinin bu qızılları oğurluq edərək ələ keçirtdiyi; "**Rəbb İsraillilərin Misirlilərin gözündə lütf tapmasını təmin etdi. Misirlilər onlara istədiklərini verdilər. Beləliklə İsraillilər onları soydular**" *(Tevrat; Çıkış, Bab 12/35-36)* sözləri ilə bildirilmişdir.

Dolayısilə hz. Harun (ə.s) dərhal orada bir quyu qazdıraraq, oğurlanmış olduğunu düşündüyü bu qızılları oraya doldurtdu və üzərini bağlatdırdı. Məqsədi daha sonra buranı təkrar açdırıb içindəki oğurlanmış qızılların sahiblərinə geri qaytarılmasını təmin etmək idi.

Lakin hz. Harun (ə.s)-ın bu müdaxiləsi, Samiri və dəstəsini dayandırmadı. Samiri, özü kimi münafiq olan oğru dostlarıyla birlikdə yenidən səhraya doğru yola düşdü və qızılların olduğu yerə getdi. Üzəri bağlanılan quyunu yenidən açdılar və qızılları oradan götürərək başqa yerə gizlətdilər.

Eyni zamanda **Samiri və münafiq dəstəsi,** hz. Musa (ə.s) ilə birlikdə **Misirdən ayrılmaq məqsədilə yola düşən İsrail oğullarına da, sahib olduqları qızıllarını da yanlarına almaları üçün təlqin verdilər.** Hz. Musa (ə.s) və onunla birlikdə olanlara kömək etmək üçün yolda bu qızıllara ehtiyac ola biləcəyini söyləyərək onları razı saldılar. **Beləliklə xalqın bəziləri az, bəziləri də çox olmaqla, müxtəlif miqdarda zinət əşyalarını, ləl-cəvahiratlarını və digər qızıl əşyalarını yanlarına götürdülər. Səhraya çatdıqları zaman isə, Samiri "qızıldan böyük buzov heykəli düzəldəcəyini" söyləyərək İsrail oğullarının yanlarında gətirdiyi bu qızılları ələ keçirdi.**

Beləliklə Samiri və oğru dəstəsi, həm Firon və adamlarından oğurladıqları yüzlərlə kilo qızılı, həm də hz. Musa (ə.s) ilə birlikdə yola düşən İsrail oğullarının qızıl əşyalarını bir araya gətirərək çox yüklü miqdarda qızıl əldə etmiş oldular.

Büt düzəltməkdə qabiliyyətli heykəltəraş və qəlibçi olan Samiri, hz. Musa (ə.s)-ın öz tayfasından ayrılmış olmasından istifadə edərək, hz. Harun (ə.s)-ın olmadığı bir yerdə böyük ocaq hazırladı. Həmçinin topladığı yüzlərlə kilo oğurlanmış qızılı gətirərək bu ocaqda əritdi. Əvvəlcə gildən çox böyük buzov heykəli düzəltdi. Sonra da onun üçün

tökmə qəlib düzəltdi. Bu qəlibin içinə əridilmiş qızılı tökərək külçə qızıldan ibarət olan içi boş buzov heykəli düzəltdi. Sonra da bu yumşaq olan qızılı törpüləyib düzəltdi və parladaraq qüsursuz hala gətirdi. Bütün bunların nəticəsində də, yüzlərlə kilo ağırlığında, çox həcmli və par-par parıldayan qızıldan buzov heykəli düzəltdi. Yanındakı digər münafiqlər və qövmündəki aldatdığı kəslərlə birlikdə bu nəhəng buzov heykəli, hündür bir təpəyə, bir bünövrənin üstünə yerləşdirdi.

Quranda, Samirinin İsrail oğullarının zinət əşyalarını və qızıllarını toplayıb bu yolla əritdiyi; "**dedilər: Biz sənə verdiyimiz vədə öz istəyimizlə xilaf çıxmadıq, lakin o qövmün (Misir xalqının) zinət əşyalarından bəzi yüklər yüklənmişdik onları (oda) atdıq, beləliklə Samiri də atdı**" (Taha surəsi, 87) ayəsi ilə xəbər verilmişdir.

Əriyən qızıl xammalından buzov heykəli düzəldən Samiri, qövmünü valeh edəcək məharət göstərərək buzovun böyürməsini də təmin etmişdi. Quranda Samirinin "**böyürən buzov kimi səs çıxardan bir buzov heykəli düzəltdiyi**" belə bildirilmişdir:

**"Beləliklə onlar üçün böyürən bir buzov heykəli düzəltdi". (Taha surəsi, 88)**

Həmçinin Samiri, düzəltdiyi buzov bütünə insanların marağını daha da çox çəkə bilmək üçün; "**mən onların görmədiklərini gördüm**" kimi də demiş və beləliklə özünə, "**heç kimin görmədiyi bəzi gizli məlumatlardan xəbərdar olan, xüsusi elm sahibi olan bir insan imici**" verməyə çalışmışdır. Buzova mistik və metafizik məna qazandıraraq ətrafındakı insanlara təsir etmək istəmişdir. Quranda Samirinin bu danışığı belə bildirilmişdir:

**Dedi: "Mən onların görmədiklərini gördüm, beləliklə elçinin izindən bir ovuc götürüb atdım; beləliklə mənə bunu nəfsim xoşa gələn (bir şey kimi) göstərdi". (Taha surəsi, 96)**

Par-par parıldayan bu qızıldan buzovu görənlər heyrət içində qaldılar. Küləyin səsi ilə birlikdə buzov heykəlindən çıxan böyürmə səsi, qövmündəki İsrail oğullarının Samirinin bu qabiliyyətinə böyük heyranlıq duymalarına səbəb oldu.

Samiri, bu qızıldan buzov heykəlini düzəldərkən, qarşısına eyni zamanda İsrail oğullarının diqqətini yenidən o keçmiş "**Misir mədəniyyətinə", "Misirdəki bütpərəst inanclarına**" çəkə bilməyini məqsəd qoymuşdu. Çünki hz. Musa (ə.s) ilə birlikdə Misirdən ayrılan İsrail oğulları arasında, ağılları hələ də Fironun bütpərəst dinində və Misir mədəniyyətində qalmış olan kəslər də var idi. Quranda bu kəslərin Musa Peyğəmbər (ə.s)-a; "**ey Musa, onların ilahları (var; onlarınkı) kimi, sən də bizə bir ilah düzəlt**" deyərək,

keçmiş həyatlarına duyduqları həsrəti və bütpərəst inanclarına olan bağlılıqlarını dilə gətirdikləri bildirilmişdir:

**Biz İsrail oğullarını dənizdən keçirtdik və onlar öz bütlərinə tapınan bir qövmə rast gəldilər. Onlar dedilər: "Ey Musa! Onların məbudları olduğu kimi, bizim üçün də bir məbud düzəlt". Musa dedi: "Həqiqətən, siz cahil bir tayfasınız. (Əraf surəsi, 138)**

Hz. Musa (ə.s) isə səhv yolda olduqlarını söyləyərək onları xəbərdar etmiş və onlara Allahdan başqa İlah olmadığını xatırlatmışdır:

**Şübhəsiz ki, bunların etiqad etdikləri əqidə məhvə məhkumdur, gördükləri işlər isə batildir". Musa dedi: "O, sizi aləmlərdən üstün etdiyi bir halda, mən sizin üçün Allahdan başqa məbudmu axtaracağam?" (Əraf surəsi, 139-140)**

"**İsrail oğullarının bu tələbini**" və onların "**Fironun təqdim etdiyi həyata qarşı hələ də böyük həsrət çəkdiklərini**" çox yaxşı bilən Samiri də bu vəziyyətdən faydalanmaq istədi. Hz. Musa (ə.s)-ın qövmündən ayrılmasını fürsət bilərək, **qızıldan düzəltdiyi böyük buzov ilə İsrail oğullarının hz. Musa (ə.s)-dan istədikləri bu bütü onlara təqdim etdi.**

Ərəb dilində "**Icl** "sözü ilə ifadə edilən "**Samirinin düzəltdiyi bu qızıl buzov heykəli**", Misir mədəniyyətinin simvolu olan "**öküz heykəlləri**"nin kiçik fiquru idi. "**Buzov-dana**" mənasını verən "**Icl**" sözü, türk dilində də istifadə edilən "**tələsik-təcili**" kökündən gəlir. Bu söz də Quranda, "**insanların dünyaya düşkün olmaları**" və "**dünya malına tamah salmaları**" mənasında istifadə edilmişdir. Dolayısilə Samiri də, düzəltdiyi qızıldan buzov bütü ilə müəyyən mənada, qövmündəki insanları Allahdan uzaqlaşdırıb dünyaya bağlanmağa dəvət etmişdir.

Misirdən gəlmiş olan musəvilər, keçmiş mədəniyyətlərinə dönüşü əks etdirən Samirinin bu məharətinə və sənətinə heyran qaldılar. Buzovun qarşısında dayanıb Samirinin xatırlatdığı bu keçmiş mədəniyyətlərini həsrətlə xatırladılar. Hələ də Misirdəki Firon dövlətinin rəmzi və bütpərəst dinin simvolu olan müqəddəs öküz mədəniyyətinin (apisin) təsiri altında olduqları üçün, yenidən o şirk inanclarına dönmə meyli göstərdilər. Hətta bu həsrətdən ötrü bir qismi yenidən keçmiş həyatlarını və Fironun şirk mədəniyyətini yaşamaq üçün Misirə geri qayıtmaq istədilər.

Allah Quranda; "**o zaman Biz Musaya vəhy üçün qırx gecəlik vədə verdik. Lakin sonra siz onun ardından buzovu (ilah) qəbul etmiş və (beləliklə) zalım olmuşdunuz**" (Bəqərə surəsi, 51) ayəsi ilə, hz. Musa (ə.s) qövmündəki bu insanların Samiriyə uyaraq doğru yoldan azdıqlarını və "**yenidən keçmiş bütpərəst dinlərinə qayıdaraq buzova sitayiş etməyə başladıqlarını**" xəbər vermişdir (Allahı tənzih edirik).

Bu hadisədən sonra hz. Harun (ə.s), səhv yola düşməmələri üçün qövmünü xəbərdar etmiş; onları Samirinin azğınlıqlarını tərk edib, öz sözünə itaət etməyə dəvət etmişdir. İsrail oğulları isə, "**hz. Musa (ə.s) gələnə qədər Samiriyə və onun dəvət etdiyi bütpərəst dinə tabe olmağa davam edəcəklərini**" söyləyərək bu azğınlıqlarında inad etmişdirlər:

**And olsun ki, Harun bundan əvvəl onlara: "Ey qövmüm, həqiqətən siz bununla ancaq sınağa (çəkildiniz). Sizin Rəbbiniz Mərhəmətli (olan Allah) dır; bu halda mənə tabe olun və əmrimə itaət edin" demişdi. Demişdilər: "Musa bizə geri qayıdanadək onun (buzovun) qarşısında bel büküb əyilməkdən heç vaxt imtina etməyəcəyik". (Taha surəsi, 88-91)**

**Musanın ardınca qövmü öz zinət əşyalarından böyürən bir buzov heykəli düzəltdilər. Məgər bu heykəlin onlarla danışmadığını, onlara düz yol göstərmədiyini görmürdülərmi? Buna baxmayaraq ona məbud kimi sitayiş edib zalımlardan oldular. (Əraf surəsi, 148)**

Samiri, qövmünə "**bu buzov bütünün, İsrail oğullarının və hz. Musa (ə.s)-ın (haşa) həqiqi ilahı olduğu; Musa Peyğəmbərin də onsuz da bunu axtarmaq üçün öz qövmündən ayrıldığı**" şəklində bir yalan söyləyərək, yanlarındakı musəvilərin bir çoxunun buzova sitayiş etmələrini təmin etdi (Allahı tənzih edirik).

Bütün bunlar yaşanarkən Allah hz. Musa (ə.s)-a, qövmündə olub bitən bu hadisələri vəhy ilə xəbər verdi: Dedi: "**Biz səndən sonra qövmünü sınaqdan (fitnədən) keçirtdik, Samiri onları yoldan çıxartdı**". (Taha surəsi, 85)

Bundan sonra hz. Musa (ə.s) qövmünün yanına geri qayıtdı. Samiri isə, orada toplanan və "**özünü heyranlıqla izləyən xalqı öz tərəfinə çəkə bilmək**" və "onların hz. Musa (ə.s)-a olan etibarlarını sarsıda bilmək" üçün hərəkətə keçdi. Quranda Samirinin, bu məqsədlə etdiyi danışıqlardan biri belə bildirilmişdir:

**Samiri onlar üçün böyürən bir buzov heykəli düzəltdi. Buzova məftun olanlar: "Sizin də məbudunuz, Musanın da məbudu budur. Lakin o bunu unutmuşdur" - dedilər. (Taha surəsi, 88)**

Samiri xalqına "**Musa unutdu**" deyə səslənərək, hz. Musa (ə.s)-ın da əslində Misirdəki bu Firon mədəniyyəti və bütpərəst dinlə yetişdiyini; lakin sonradan, öyrəndiyi bu mədəniyyəti guya "unutduğunu" irəli sürdü. Beləliklə "**hz. Musa (ə.s)-ın da bir vaxtlar Misirdə Fironun sarayında olarkən, güc, iqtidar, ehtişam və sərvət simvolu kimi istifadə**

**etdiyi bu öküz fiqurunu mənimsəmiş olduğunu**” iddia etdi. “**İndi isə hz. Musa (ə.s)-ın guya unutduğu üçün üz döndərdiyi Misirin bu böyük ilahına, hamılıqla geri qayıtmalarının lazım olduğu**” yalanını söylədi (Peyğəmbəri tənzih edirik).

**Musa Peyğəmbər (ə.s) həqiqətən də Fironun sarayında böyümüş və Misir mədəniyyəti, adət-ənənələri haqqında geniş məlumat sahibi olmuşdu**. Lakin Allahın özünə hidayət verməsi və ona Peyğəmbər vəzifəsi verməsi ilə, **Fironun azğın dinindən üz döndərmiş və Allahın haqq dinini yaşamışdı**. Lakin Samiri etdiyi bu danışıqlarla öz aləmində qövmünə, “**guya hz. Musa (ə.s)-ın da bu azğın və bütpərəst dini məqbul və qanuni hesab etdiyi**” imicini verməyə çalışmışdır.

Əlbəttə ki, Samiri bütün bu hadisələri, hələ ən başından düşünüb planlamış və etdiyi saxtakarlığın hər mərhələsini qanuni göstərə bilmək və nəticəsində də müvəffəqiyyət qazana bilmək üçün ayrı-ayrı planlar qurmuşdur. Hələ o yüzlərlə kilo qızılı oğurlamadan, onları oraya daşıyıb, əridib nəhəng buzov heykəli düzəltmədən əvvəl, “**hz. Musa (ə.s)-a qarşı belə bir böhtan ataraq özünü təmizə çıxarda biləcəyini**” düşünmüşdür.

Samirinin etdiyi bütün bu mərhələli saxtakarlıqlarla əsil planlaşdırdığı isə, “**xalqına guya özünün hz. Musa (ə.s)-dan daha böyük olduğunu göstərə bilmək**” və təqdim etdiyi dəlillərlə də onları buna razı sala bilmək idi. Məqsədi, (Peyğəmbəri tənzih edirik) “**hz. Musa (ə.s)-ı xalqının gözündən salaraq, ağlı, qabiliyyəti və danışıqları ilə ondan daha üstün olduğunu vurğulaya bilmək” və “İsrail oğullarını idarə etmək üçün” hz. Musa (ə.s)-ın yerinə keçə bilmək”dir.**

Samirinin şeytani planının bundan sonrakı mərhələsi isə; “**Misiri idarə etmək məqsədilə yerinə keçə bilmək üçün, hz. Musa (ə.s)-ın şəhid edilməsini təşkil etmək idi**”. Öz aləmində “**Firon və onun dərin dövlətindəki adamlarını təhrik edərək hz. Musa (ə.s)-ın üzərinə yönləndirəcək və hz. Musa (ə.s)-a sui-qəsd təşkil edilməsini təmin edəcək idi**”. İçindəki amansız böyüklük ehtirası və liderlik hərisliyindən gözü dönmüşdü. Həmçinin özünün, hər cəhəti ilə Peyğəmbərdən guya daha da üstün, ağıllı və qabiliyyətli olduğuna inanırdı.

**Lakin Samirinin şeytani zəkası ilə qurduğu bu planlar heç bir işə yaramadı**. Oynadığı hər cür oyuna, etdiyi hər cür alçaqlığa və saxtakarlığa baxmayaraq, **Allah onun hiyləgər tələlərini puç etdi**. Hz. Musa (ə.s), vəhy aldıqdan sonra qövmünün yanına geri qayıtdı və Samirinin oynadığı bu oyunu zərərsizləşdirdi. Quranda hz. Musa (ə.s) və Samiri arasında keçən danışıqların bir qismi belə bildirilmişdir:

**Musa dedi: “Məqsədin nə idi, ey Samiri?” O dedi: “Mən onların görmədiklərini gördüm. Mən o elçinin ləpirindən (Cəbrailin atının ayağı dəydiyi yerdən) bir ovuc torpaq götürdüm və onu bəzək əşyalarının üstünə atdım. Nəfsim məni buna sövq etdi”. Musa dedi: “Çıx get! Sən həyatın boyu: “Mənə toxunmayın, mən də sizə toxunmayım!” - deməli**

**olacaqsan. Səni həm də qurtula bilməyəcəyin əzab günü gözləyir. Sən sitayiş etdiyin məbuduna bax. Biz onu yandıracaq, sonra da dənizə sovuracağıq.“ (Taha surəsi, 95-97)**

Ayələrdə də bildirildiyi kimi hz. Musa (ə.s), "**sənin həyatda layiq olduğun cəza həyatının sonuna qədər təkbaşına yaşamağındır**" deyərək Samirini qövmündən uzaqlaşdırdı.

Allah Samiri hekayəsi ilə, "**münafiqin dünya ehtirasına, malı yığıb toplama, mənfəət əldə etmə hərisliyinə və bunun üçün oğurluq, fırıldaqçılıq və cinayət törətmək də daxil olmaqla, hər şeyi gözə ala bildiyinə**" diqqət çəkmişdir. Fironun rəhbərliyindəki **Misir Dərin Dövlətinin bir mənsubu olan Samiri, hələ o günlərdə oğurluğa, soyğunçuluğa, qəsbkarlığa, əxlaqsızlığa, yalana, şərəfsizliyə alışmış münafiqdir.**

**Lakin Samiri oynadığı oyunlarla, etdiyi alçaqlıqlarla heç bir nəticə əldə edə bilməmiş; böyüklük hərisliyi, onun rəzil-rüsvay olub sahib olduğu hər şeyi itirməsinə səbəb olmuşdur.** Samiri hz. Musa (ə.s)-ın qövmündən uzaqlaşdırılmasından sonra, həyatının sonuna qədər tək yaşamışdır. Etdiyi əxlaqsızlıqlardan ötrü xorlanıb alçaldılmış, alçalmış, hər şeyini itirmiş və təkbaşına qalmışdır.

Bu, onun təkcə dünya həyatında aldığı əvəzdir. **Axirətdə isə, əlbəttə, Allahın sonsuz ədalətinin tələbi olaraq, Samiri və onun kimi səmimiyyətsizliyi seçən hər münafiq etdikləri pisliklərin hesabını mütləq verəcək.**

**Adnan Oktar**: Samiri; "**indi gedirik. Yanına qızıllarınızı da götürün. Orada ehtiyac ola bilər. Orada çox gözəl şeylər edəcəyik. İslama, dinə, Musa (ə.s)-a kömək edəcəyik. Bol qızıl olsun. Bir çox ölkəyə gedəcəyik**" dedi. İnsanlar da yanlarına götürə bildikləri qədər çox qızıl aldılar. Baxın əvvəlcə vəd edir; "**gözəl şeylər edəcəyik. Dinə çox gözəl xidmət etmiş olacağıq o qızıllarla, çox faydalı olacağıq**" deyir. Sonra gəldilər səhrada; "**indi o qızılları verin**" dedi. "**Nə edəcəksən**?" deyə soruşduqları zaman "**gözləyin. Siz mənə güvənmirsiniz**?" dedi. Onların etimadını qazanmışdır. Hər kəsin qızılını toplayacaq qədər etimadlarını qazanmışdır. Sonra əvvəlcə gildən heykəlin damını meydana gətirir, sonra da əritdiyi qızılları qəlibə töküb qızıldan buzov heykəli düzəldir. O zaman, əlbəttə, məst olur zəif olanlar. Yəni münafiqliyin zəminini hazırladığı, münafiqliyi təlqin etdiyi və fəlsəfəsindən uzun-uzadı bəhs etdiyi kəslər orada dərhal ona tabe olurlar. Həmçinin o da onları o Misir mədəniyyətinə razı salır. O zamanın dərin dövlətinin mədəniyyəti, "**Misir mədəniyyəti**" idi. O zaman onunla göstəriş edilirdi. Onlar kimi geyinmək, onların yediklərini yemək, onların ev dekorasiyaları necədirsə onlarla eyni əşyaları alıb, onların istifadə etdiyi bəzəklərdən istifadə etmək əhəmiyyətli idi... Samirinin etdiyi də bu cür idi. Bunun üçün bir qisimi bu mədəniyyətə qibtə edib Misirə geri qayıtdılar. Bu alçaqlar o dövrdə həzrəti Musa (ə.s) əleyhinə də güclü təbliğat aparırdılar. Buna görə də, həzrəti

Musa (ə.s) üçün; "**Musanı incidənlər kimi olmayın**" (Əhzab surəsi, 69) deyir Allah. (A9 TV, 23 yanvar 2016)

## Münafiq qorxaqdır; çətinlik anında özünü dərhal ələ verər

Münafiqin canı çox şirindir. Dünyaya dəlicəsinə bağlı olduğu üçün, ölməkdən çox qorxar. Bütün şərtlər və imkanlar lehinədirsə, bu zaman müsəlmanlarla birlikdə hərəkət edər. Mənfəətlərinə zərər gəlmədiyi müddətcə, çətin də olsa möminlərin arasında özünü gizlədər, hətta onlardan biri kimi görünmək üçün istəmədiyi bir çox şeyi etməyi də gözə alar. Namaz qılmaq istəməz, lakin qılar. Müsəlmanlara yaxşılığı dəysin istəməz, lakin ona çox iztirab versə də, yeri gəldikdə yaxşılıq edər. Məcbur qalsa arada xidmət də edər. Lakin möminlərə istiqamətli küfr əhlindən təzyiq, çətinlik və sıxıntı gəldiyi təqdirdə, dərhal öz aləmində "**qazanc və zərər hesabı**" aparar. Müsəlmanlardan yana görünsə, bununla "**nə qazanıb, nə itirəcəyinə**" baxar. Həmçinin müsəlmanların yaşayacağı ola biləcək çətinliklərin az və ya çox, mütləq özünə də toxunacağını hesaba qatar. Bu münafiqin ən böyük qorxularından biridir. Çünki bunun nəticəsində, dünyada hər şeydən çox dəyər verdiyi canı yanacaq. Məhz bu mərhələdə münafiq Peyğəmbərdən və müsəlmanlardan ayrılmaq qərarı alar. Allah bir Quran ayəsində, münafiqlərin qorxaqlıqlarına belə diqqət çəkmişdir:

**Həqiqətən sizdən olduqlarına dair Allaha and içərlər. Halbuki onlar sizdən deyildirlər. Lakin onlar qorxaq bir cəmiyyətdir. (Tövbə surəsi, 56)**

Allah yolunda yaşamaq və haqdan yana mübarizə aparmaq cəsarət və bir çox əziyyətə razı olmağı tələb edir. Qurana baxdığımız zaman bütün peyğəmbərlərin və saleh müsəlmanların Allah yolunda şiddətli əziyyət və çətinliklə imtahan olunduqlarını görərik. Lakin bu çətinliklər və əziyyətlər münafiqlərin gözünü qorxudar. Çünki çətinlik mühitində insanın imtina etməsi lazım olan bir çox şey olar. Müsəlman çətinliklə qarşılaşdığı zaman bəzən rahatından, idmanından, yuxusundan, paltarlarından, yeməyindən, içməyindən bəzən də tamamilə malından və canından imtina edər. Lakin bu bütün ömrünü dünyaya həsr etmiş bir münafiqə çox ağır və qorxuducu gələr. Buna görə də, münafiq çətinliklə qarşılaşdıqda mütləq özünə qaçıb sığınacaq başqa bir yer axtarmağa başlayar.

Allah bir ayədə münafiqlərin çətinlikdən nə cür bəhanələr irəli sürərək qaçdıqlarını Quranda belə xəbər vermişdir:

**Əgər səfəriniz gəlir gətirən və yüngül bir yürüş olsaydı, onlar mütləq sənin ardınca gedərdilər. Lakin əziyyətli yol onlara çətin gəldi. Onlar: "Əgər taqətimiz olsaydı, biz də**

**sizinlə bərabər çıxardıq!" – deyə Allaha and içəcəklər. Onlar özlərini həlak edirlər. Çünki Allah onların yalançı olduqlarını bilir. (Tövbə surəsi, 42)**

**Müsəlmanların çətinlik, darlıq və imtahan dövrləri, əslində münafiqlərin ortaya çıxması və özlərini ifşa etmələri üçün çox qiymətli dövrlərdir.** Münafiq bəlkə illərlə özünü müsəlmanların arasında kamuflyaj edər, lakin Allah yolunda bir çətinliyə səbir etməsi lazım gəldikdə dərhal özünü ələ verər. Allah yolunda qarşılaşa biləcəkləri hər cür təhdid, haqsızlıq, təzyiq və böhtan, müsəlmanlar üçün şərəfdir. Münafiq üçünsə məhv olmaqdır. Bu, münafiqin sanki dünyadan imtina etməsi mənasına gələr, belə vəziyyəti qəbul etməsi də münafiqlik etməkdən imtina etməsi deməkdir. Bunu da heç vaxt qəbul etməz.

## Münafiq, müsəlmanlar arasındakı səmimi sevgini çox qısqanar

Allah bir ayədə; **"yoxsa onlar Allahın Öz lütfündən insanlara verdiklərini qısqanırlar?" (Nisa surəsi, 54)** deyə buyurmuşdur. Bu ayədə xəbər verildiyi kimi, münafiqlər müsəlmanlara verilən maddi-mənəvi bütün nemətləri qısqanarlar. Həsəd apardıqları məsələlərin ən başında da; "**müsəlmanların bir-birlərinə qarşı duyduqları səmimi sevgi**" gələr. Bir mömінin başqa müsəlmanı çox sevməsi və onu qoruması, münafiq üçün çox ciddi qısqanclıq məsələsidir. Çünki müsəlmanlar arasında, küfr əhlindəki insanların heç yaşaya bilmədiyi "**dərin məhəbbət, mehriban dostluq, səmimi qardaşlıq anlayışı**" vardır. Münafiqlər iman gətirənlərlə birlikdə olduqları hər an bu sevgiyə şahid olar və bundan ötrü də şiddətli qısqanclığa qapılarlar. **Müsəlmanların bir-birlərini bu qədər çox sevmələri münafiqləri ciddi şəkildə narahat edər. Müxtəlif oyunlarla müsəlmanların arasını vurub bu sevgini yox etmək üçün hiyləgər səy göstərərlər**. İxtilaf çıxardaraq, rüsvayçılıq edərək, yalan söyləyərək, böhtan ataraq, söz daşıyaraq, lağlağı zarafatlar edərək, **müsəlmanların bir-birlərinə olan sevgilərini zədələmək; qardaş olmalarını, birlik olmalarını və dostluqlarını pozmaq istəyərlər.**

**İman gətirənlərin sevgini yaşamalarını istəməyən münafiq, müsəlmanların "sevdikləri ilə vaxt keçirmələrini" də istəməz.** Müsəlmanların yanına gələn kəsləri dayandırmaq və onlarla görüşmələrinə mane olmağa çalışar. Müsəlmanları sözə tutub vaxtlarını alaraq, o mühitdə problem çıxardaraq, sevdikləri insanlarla danışmalarına və birlikdə vaxt keçirmələrinə mane olmağı hədəfləyər.

Münafiqlərin bu qısqanclıqlarına Quranın Yusif surəsində diqqət çəkilmişdir. Hz. Yusif (ə.s)-ın hələ uşaq yaşda gözəlliyi ilə diqqət çəkməsi, qardaşlarının ona qarşı böyük qısqanclıq hissinə qapılmasına səbəb olmuşdur. Atalarının onu özlərindən daha çox sevdiyini düşünərək qəzəblənən qardaşları, bir tələ qurub hz. Yusif (ə.s)-ı öldürmək üçün bir plan qurmuşlar.

Atalarına isə özlərini, "**yaxşılıqdan başqa bir şey düşünməyən qardaşlar**" kimi göstərməyə çalışdılar. Halbuki həqiqətdə açıqca bir xainlik etmək istədilər:

**Bir vaxt onun qardaşları dedilər: "Biz bütöv bir dəstə olmağımıza baxmayaraq Yusif və onun doğma qardaşı atamıza bizdən daha sevimlidir. Aydın görünür ki, atamız aşkar bir yanlışlıq içindədir. Yusifi ya öldürün, ya da onu uzaq bir yerə aparıb atın ki, atanız ancaq sizə məhəbbət bəsləsin və bundan sonra siz əməlisalehlərdən olarsınız". (Yusif surəsi, 8-9)**

Hz. Yusif (ə.s)-ın qardaşlarının din əxlaqından nə qədər uzaq olduqları; xainlikləri, hiyləgər tələlər qurmağı və cinayət işləməyi nə qədər məqbul və qanuni gördükləri ayələrdən açıqca aydın olmaqdadır. Atalarından "**sevgi tələbi**" içərisində olduqları iddiaları da tamamilə "**yalan**"dır. Çünki kiçik bir uşaq və öz soydaşları olan, tərtəmiz nur kimi bir insanı gizlicə öldürməyi planlaşdıran bu münafiq xarakterli, zalım və qəddar insanların sevgini bilmədikləri çox açıqdır.

Hz. Yusif (ə.s)-ın qardaşları kimi, günümüzdəki münafiqlər da, müsəlmanların bir-birlərini çox sevmələrini çox qısqanar və hər yolu sınayaraq bu yaxınlığı maneə törətməyə çalışırlar. Buradakı məqsədləri, həsəd apardıqları o sevgini özlərinin də yaşaya bilməsi deyil. Çünki münafiqlər sevgiyə söykənən əlaqələrə deyil, "**mənfəət əlaqələri**"nə inanarlar. Sevginin isə bu mənada heç bir işə yaramayacağını düşünürlər. Maraqlarını əldə edə bilirlərsə, bu onlar üçün kifayətdir. Bu səbəbdən Müsəlmanlara olan qısqanclıqları, yalnız "**onların nemət, dinclik və gözəllik içində xoşbəxt bir şəkildə yaşamalarını istəməmələrindən**" qaynaqlanır. Münafiqi rahatlaşdıracaq olan şey, müsəlmanların zərər görməsi, zərər çəkmiş olması, acı çəkməsidir. Münafiqin qısqanclıq hərəkətləri də, yalnız onlara bu çətinlik və narahatlıq verə bilmək üçündür.

Ancaq münafiq bu tələsində müvəffəqiyyətli ola bilməz. Çünki müsəlmanlar sevgidə qərarlı olan və Allahın sevgisini qazana bilmək üçün yaşayan insanlardır. Bu səbəbdən münafiqin bu yolda sərf etdiyi səy, yalnız onun qəzəb və qısqanclıqdan narahat olmasıyla nəticələnər.

**ADNAN OKTAR**: "... Münafiqin metodu belədir, yəni zahirən çox haqlı kimi görünür ilk baxışda. Çox şeytani metoddur. İnsanların ümumi qəbuluna uyğundur münafiqin hücumları. Məsələn Hz. Yusif (ə.s)-ın qardaşları. İddiaları nə idi? Sevgi. "**Yusifə görə, atamızın sevgisi bizdən uzaqlaşdı**". İndi bu adamların məqsədi sevgi mi? Deyil. **Münafiq sevgini bilməz. sevgini bir vasitə olaraq istifadə edər. Müsəlmanlara hücumda, əxlaqsızlıq etmədə, alçaqlıq etmədə bir vəsilədir. Yəni müsəlmanı narahat etmək üçün, pislik etmək üçün sevgini istifadə edər. "Sevdiyim üçün gəldim", "Sevdiyim üçün**

**danışdım", "Sevdiyim üçün bunu edirəm"** deyir. İndi gedib atasının yanında İslamı öyrənmək üçün mi, atalarının həqiqətən sevgisini qazanmaq üçün mi Hz. Yusif (ə.s)-a qarşı rəftar alırlar? Belə bir şey ola bilərmi? Həmişə birlikdə sevmələri lazım, həmişə birlikdə sevdirməyi məqsəd qoymaları lazımdır. "**Yusifi öldürək**" deyirlər. Münafiqin azğınlığını və şeytani ölçüsünü burada görürük." (A9 TV, 28 Fevral 2016)

## Münafiq, yalan və böhtanlarla müsəlmanlar arasındakı sevgini yox etməyə çalışar

Münafiq ən çox sevgidən narahat olur. Çünki hiyləgər oyunlarla, saxtakar metodlarla dünyadakı maddi bir çox neməti əldə edə bilər amma **ruhundakı şeytanlıq və alçaq xarakteri səbəbiylə "heç bir zaman üçün həqiqi sevgini yaşaya bilməyəcəyini" bilir. Bu halıyla nə onun başqasını; nə də bir başqasının özünü sevməyəcəyinin fərqindədir**. Bu da, münafiq üçün böyük bir "**ürək acısı**"dır.

Bu acı və "**heç vaxt əldə edə bilməyəcəyi bir nemətə qarşı duyduğu qısqanclıq**", münafiqi hər cür alçaqlığı edərək "**intiqam almağa**" itələyər. Allah bir Quran ayəsində münafiqin, Müsəlmanlara zərər verə bilmək və onlardan intiqam almaq üçün müraciət üsullardan bəzilərini belə xəbər vermişdir:

**İtaət etmə hər tez-tez and içənə, alçağa, qeybət edənə, dedi-qodu yayana, xeyrə mane olana, həddi aşana, günahkara, daş ürəkliyə, bunlardan sonra da başqasının adını mənimsəyən fırıldaqçıya. (Qələm surəsi, 10-13)**

Ayələrdə də açıqlandığı kimi **münafiq, alçaq, zorba, hörmətsiz və təcavüzkar bir məxluqdur. Hər cür xeyri və gözəlliyi maneə törədə bilmək üçün əlindən gələni edər.** Müsəlmanlar haqqında ardıcıl yalanlar uydurаraq, böhtan ataraq, aralarında söz gətirib-götürərək, əsassız xəbərlər daşıyaraq və yalan yerə andlar edərək Müsəlmanlara qarşı mübarizə verir. Bu alçaq üsullarla, müsəlmanların arasını aça biləcəyini, onları bir-birlərinə düşürə biləcəyini və beləcə aralarındakı sevgini yox edə biləcəyini düşünür. Bir müsəlmanın yanına gedib, "**Filankəs belə bir şey dedi, bilmirəm tam olaraq kimi nəzərdə tutdu amma, mənə sanki səndən bəhs edirmiş kimi gəldi**" deyər. Bir başqasına yanaşıb "**Bu adamı səninlə əlaqədar danışarkən eşitdim; ortalığı dağınıq buraxdığın üçün sənə bir az hirslənmiş hər halda**" deyər. Yenə bir başqa müsəlmana da, "**Bu adam sənin etdiyin yeməyi çox bəyənməmiş, pis tərəflərini dedi**" deyər.

Bəzən də bu hiyləgərliyini "**o an üçün isbat edilməsi mümkün olmayacaq**" mövzuları istifadə edər. Məsələn "**Keçən gün bu şəxsi gördüm, sənə çox tərs baxışlarla baxırdı**" deyər. Ya da "**Sən yaxşı ki o tərəfə dönük deyildin, görmədin; filankəs sənin paltarına çox pis baxışlarla baxdı**" deyər. Münafiqin bu sözləri başdan sona yalana söykənir. Bundan

başqa bunların hər biri əslində gündəlik həyata dair çox sıradan və əhəmiyyətsiz mövzulardır. Müsəlmanların da üzərində dayanacağı, vaxt ayırıb diqqət edəcəkləri, üzərində uzun düşünəcəkləri məsələlər deyil. Amma münafiq bu sıradan mövzularla belə olsa, müsəlmanlar arasında fitnə və ayrılıq çıxarmaq, ürəklərində ümidsizlik yaratmaq, bir-birlərinə olan hörmət, sevgi və etibarlarını zədələmək istər. Ayədə bildirildiyi kimi, "**ala bildiyinə ayıblayıb pisləyərək**", "**Müsəlmanlar arasında bir-birləri haqqında xəbər daşıyaraq", "yalan söyləyərək", "böhtan ataraq", "mövzulara əlavələr-çıxarmaları edərək", "sadə bir şeyi şişirdilmiş sözlərlə təhrif edərək**" hiyləgərcə oyunlar oynayar.

Ancaq münafiq bəzən də "**açıqca çirkablıq edərək**" Müsəlmanları bir-birlərinə salmağa çalışır. Açıq formada aqressivləşərək, qışqırıb çağıraraq, hirslə, özündənrazı və həyasız bir üslubla, "**bir müsəlmanın guya nə qədər pis xasiyyətli, nə qədər art niyyətli və saxtakar olduğunu**" izah etməyə başlar. Sözlərinin tamamilə "**böhtandan ibarət olduğu**" açıqdır. Bu səbəblə də müsəlmanlar onun heç bir iddiasına etibar etməzlər. Amma içindəki kin, hirs və qısqanclıq heç cür yatışmadığı üçün, izah etdiklərinə inanılmamasının da ayrı bir səmimiyyətsizlik olduğunu iddia edir. Müsəlmanları ədalətsizliyə, bir tərəfin sözünə inanıb, digərini haqsız yerə qorumaqla ittiham edir. Yalanlarının və çirkab metodlarının ardı arxası kəsilməz. Ehtirasını ala bilmədiyi üçün, bu cür üsullarla "**həmişə müsəlmanlar haqqında eyni böhtanları atmağa, əleyhinə bir fikir oluşdurana qədər onları pisləməyə**" davam edir. İstədiyi, müsəlmanların ona, "**Bəli, bu adam həqiqətən çox pis bir insanmış; saxtakar və səmimiyyətsizmiş**" demələri və "**ona artıq etibar etmədikləri, onu sevmədiklərini söyləmələri**"dir. Çünki münafiq ancaq bu sevgiyə zərər verdiyini görə bilirsə rahatlayar.

Allah Quranda münafiqlərin, "**xeyirə maneə törədib, davam etdirən**" kəslər olduqlarını da bildirmişdir (Qələm surəsi, 12). Münafiqlərin ən hiyləgər üsullarından biri bu cür hiyləgər və alçaqca üsullarla, "**hər cür xeyri maneə törətməyə çalışmaları**"dır. Müsəlmanların xoşuna gedəcək, onlara nemət olacaq, onları xoşbəxt edəcək, əmin-amanlıq gətirəcək, xeyirli və gözəl olan hər şeyə mane olmaq istər. Bu "**sevgi**" də müsəlmanların ən əhəmiyyət verdikləri nemətlərdən biri olduğu üçün, münafiq bu xeyr və gözəlliyi də mütləq onlardan uzaqlaşdırmağa çalışır.

Nə var ki, müsəlmanlar heç vaxt bir münafiqin şeytani zəkasının məhsulu sadə yalanlarla, iman edən bir insan haqqında fikirlərini dəyişdirməzlər. Əksinə o adama etdiyi alçaqca rəftarlar və atdığı alçaq yalanlar səbəbiylə, o müsəlmana olan sevgi və şəfqət daha da artar.

## Münafiq, müsəlmanların sahib olduğu bütün nemətləri çox qısqanar

Münafiqin həsəd dolu çirkin əxlaqı Quranın, "**Sizə bir mənfəət yetişəndə onlar qəmgin olar**" (Ali İmran surəsi, 120) ayəsiylə müsəlmanlara xəbər verilmişdir. Allahın

ayədə "**qəmgin**" sözüylə diqqət çəkdiyi kimi, müsəlmanların rahatlığı, dincliyi, qardaşlığı münafiqlər üçün bir "**ürək acısı**"dır. Onlara ən kiçik bir yaxşılıq gəldiyində, münafiq qısqanclıqdan və hirsdən dəliyə dönər. Müsəlmanların bir "**müvəffəqiyyət qazanması, gözəlləşməsi, daha güclü və daha mükəmməl hala gəlməsi**" münafiqi çox hirsləndirər. Eyni şəkildə "**Müsəlmanların zənginləşməsi, maddi baxımdan daha çox bolluq içində yaşayıb daha çox nemətə sahib olmaları**" da yenə münafiqi çox narahat edir.

Belə ki, müsəlmanlar maddi mənəvi hər hansı bir gözəllik qazandıqlarında, kimi zaman münafiqlər "**hirs və qısqanclıqdan, fiziki olaraq rahatsızlanırlar**". Bəzən sinirdən təzyiqləri qalxar, başları ağrımağa, mədələri narahat olmağa başlayır. Onlarda stress və çətinlik meydana gələr. Duyduqları mənəvi iztirab orqanizmlərini də təsiri altına alır. "**Müsəlmanların bir-birlərini sevmələri, sağlam, dinc, gənc və gözəl olmaları, təsir edici fəaliyyətlər etmələri, müvəffəqiyyətli olmaları, yeni təbliğ imkanları əldə etmələri, dünya səviyyəsində məqalələrinin, kitablarının, jurnallarının nəşri, geniş kütləli konfranslar etmələri; qısacası İslamı gözəl və güclü bir şəkildə yaymaları**" münafiqlər üçün həmişə böyük bir əzaba çevrilir.

**ADNAN OKTAR**: "Bax deyir ki Cenab-ı Allah Ali İmran surəsi 120-ci ayədə, "**Sizə bir mənfəət yetişəndə onlar qəmgin olar**" deyir. Adamın təzyiqi qalxır, iztirab duyur əgər bir xeyir toxunsa, müsəlmanlara. Məsələn sən birini sevərsən və ya sağlamlığa qovuşsan, bir müvəffəqiyyət qazansan, İslamı gözəl və güclü yaysanız, çoxlu pul qazansan, münafiq buna həsəd edər. Amma bunu təbii olaraq birbaşa "**Mən həsəd etdim**" demə şəklində deyil də, əxlaqsızlıq edərək, pislik edərək, **müsəlmanların arasını açaraq etməyə çalışır. Münafiqin ən çox narahat olduğu şey sevgidir. Sevgini çox qısqanar. Sevgiyə zərər vermək istər. Baxın "Mən hər kəsdən üstünəm. Ən üstün olan mənəm. Ən çox sevilməyə layiq olan mənəm"** məntiqində olur münafiq. Nə deyir Samiri? "**Onların görmədiklərini gördüm mən**" deyir. Hamısından daha ağıllı olduğu qənaətində. **"Bu ağlı zəif olanlar kimi mi olacağıq?" deyirlər. "Bu sıradan ağıllı insanlara mı tabe olacağıq?", "Bunlar kimi mi olacağıq?" deyirlər.** (A9 TV, 23 yanvar 2016)

## Münafiqin "sevgi axtarışı"nda olduğu iddiası yalandır; münafiq, daha çox əxlaqsızlıq edə bilmək üçün "sevgi" məfhumundan istifadə edər

Münafiqin müsəlmanları narahat edə bilmək üçün ortaya atdığı yalanlardan biri də, guya "**sevgi arxasında olduğu iddiası**"dır. Əvvəlcə bu çox açıq bir həqiqətdir ki, **Allah sevgisini bilməyən heç bir insan, həqiqi, qalıcı və səmimi bir sevgi yaşaya bilməz**. Bu səbəblə "**sevmək və sevilmək**" münafiqin "**heç bilmədiyi və heç vaxt yaşaya bilməyəcəyi**" duyğulardır. Allaha sevgisi olmayan münafiqin, hər hansı bir insanı içdən bir duyğuyla

sevə bilməsi heç vaxt mümkün deyil. Göstərdiyi, hiyləgər və saxtakar, çirkab, davaçı, təcavüzkar, özündənrazı, sevgisiz və həyasız əxlaqıyla, insanların da onu həqiqi mənada sevə bilməsi mümkün deyil. Və münafiq da zəkasıyla içdən içə bu həqiqəti görə bilməkdədir. Bunun narahatlığı və bədbəxtliyi münafiqin bütün həyatına hakim olur.

Sevgisizlik səbəbindən yaşadığı bütün bu çətinliyə baxmayaraq, münafiq yenə də "**sevgi**" arxasında deyil. Onun üçün həyatda "**əhəmiyyətli olan şey sevgi deyil, mənfəətlər**"dir. **Münafiq, heç vaxt sevgi kimi, özünə çıxar təmin etməyəcəyini düşündüyü bir mövzunun arxasından qaçmaz. Enerjisini, vaxtını, oyunlarını belə mücərrəd bir şey əldə edə bilmək üçün sərf etməz. Münafiq, qarşısındakı insanın özünə nə təmin edə bildiyinə baxar.** Əgər bir yerdə pul, güc, etibar, ətraf mühit, populyar olma, mövqe kimi çıxarlar varsa, münafiq o zaman bunları əldə etmək üçün görülməmiş bir əmək verir. Amma səmimi sevgi üçün tükünü belə tərpətməz.

Ancaq buna baxmayaraq, müsəlmanlara oyun oynaya bilmək üçün həqiqi məqsədinin "**yalnız sevgi olduğunu**" deyər. Bu oyundakı rolunu də çox yaxşı oynayır. Çünki bu iddia, ona Müsəlmanlara qarşı ardı-arası kəsilməyəcək bir "**hərəkət zənginliyi**" qazandıracaq. "**Narahatlıq, fitnə və qarışıqlıq çıxarmaq, Müsəlmanlara narahatlıq vermək, onların vaxtlarını və enerjilərini istifadə etmək, onları yorub İslam üçün fəaliyyət edə bilməyəcək hala gətirmək**" üçün "**sevgi iddiası**"nda olmaq, münafıqə görə mükəmməl bir "**tələ**"dir. Beləcə münafiq, ağlı başında, gözəl əxlaqlı və imanlı olmalarıyla diqqət çəkən müsəlmanlara öz aləmində "**sevgi adı altında**" narahatlıq verəcək. Həmişə günahlandırıb, pisləyərək onların etibarını yox edəcək və bunun yerinə öz böyüklüyünü vurğulaya biləcəkdir. Mövzu yalnız, münafiqin bu müvəffəqiyyətli, gözəl əxlaqlı müsəlmanların "**kölgəsində**" qalmış olmasıdır. Onun bütün çətinliyi, ən üstün, ən diqqəti çəkən, ən özündən razı, ən müvəffəqiyyətli, ən mükəmməl insanın özü olduğu imicini verəməməsindən qaynaqlanar.

Allah Quranda, sevgini alçaqca bir məqsədlə, bir təcavüzkarlıq və əxlaqsızlıq ünsürü olaraq istifadə etmək istəyən münafiqlərin bu üsuluna diqqət çəkmişdir. Quranda yer alan "**Habil və Qabil qissəsi"ndə**, münafiqlərin sevgi iddiasıyla necə bir fitnəyə və azğınlığa sürüklənəcək açıqca görülməkdədir.

Bu hekayədə izah edilən hadisələrə görə, Hz. Adəm (ə.s)-ın iki oğlu da Allaha bir qurban təqdim etmişlər. Birininki qəbul edilmiş, digərininki isə qəbul edilməmişdir. Tarixi mənbələrə görə Hz. Adəm (ə.s)-ın oğlu olan Qabil, özünün təqdim etdiyi qurban qəbul edilməməyin qısqanclığına qapılmış və "**Allahın digər qardaşını daha çox sevdiyini düşünmüşdür**". (Allahı tənzih edirik) haşa Allaha qarşı kin duymuş və buna görə də "**qardaşını şəhid etmişdir**".

Habil-Qabil qissəsindəki hadisə münafiq zehniyyətin azğınlığını bizə açıqca göstərməkdədir. Qabil, "**Allahın özünü sevməsini istədiyi üçün deyil**", sırf "**qürur və eqoistliyini təmin etmək üçün**" qardaşını şəhid etmişdir. **Azğınlığının səbəbi sevgi istəyi deyil; rəqabət duyğusu və daha üstün olma istəyidir.**

Aydındır ki, **münafiqlər sevgini bəhanə edərək hər cür alçaqlığı etməyə hazırdırlar. Lazım olduğunda heç çəkinmədən təcavüzkar olar, hətta cinayət belə edə bilər**. Ancaq Allahın bir nemət olaraq yaratdığı bu müqəddəs və gözəl duyğunu, alçaqlıqdan və şeytanı fəaliyyətlərini davam etdirmək üçün bir örtük kimi istifadə edən münafiqlər, bu üsullarıyla heç vaxt müvəffəqiyyətli ola bilməyəcəklər. Etdikləri hər alçaqlıq, hər xainlik və saxtakarlıq, onlara dünyada və axirətdə mütləq əzab olaraq geri dönəcək.

**ADNAN OKTAR: "Münafiqlər, sevgini alçaqca pis əməlləri üçün istifadə edərlər. Sevgiyə ehtiyacları olduğundan deyil də sevgini bir fitnə, təcavüzkarlıq və əxlaqsızlıq ünsürü olaraq istifadə edərlər.** Məsələn Habil və Qabil hekayəsində da**, Allah digər qardaşını daha çox sevir deyə, haşa Allaha qarşı kin tutur və o görə qardaşını öldürür. Bax nifrəti görürsənmi? Sevgini necə qısqanır və necə alçaqca yaxınlaşır? Habil-Qabil hekayəsində bu açıqca izah edilir.**

Münafiqlərin ən çox üstündə dayandığı məsələlərdən biri də budur; təcavüzkarlıqdan istifadə etdikləri, "**kifayət qədər özlərinin sevilmədiklərinə görə dəyərlərinin bilinmədiyi**" iddiası. Bunu istifadə edərək təcavüzkarlaşarlar. Bax, Habil-Qabil hekayəsində, digər qardaşını daha çox sevir deyə adam cinayət işləyir. Münafiqliyin azğınlığına bax. -əstəğfürullah- Allaha kinindən, "**Məni niyə daha çox sevmirsən**?" deyir. Amma Allahın onu sevməsini istədiyindən deyil, sırf qürur üçün, eqoizm üçün. **Sevgi istəyindən deyil münafiqlərin bu qısqanclıqları. O rəqabət duyğusundan qaynaqlanır, daha üstün olma duyğusundan. Yoxsa sevilmək istədiyindən deyil.**

Məsələn Hz. Yusif (ə.s)-ı da şəhid etməyə çalışanda "**Atamız**" deyirlər "**qardaşımızı bizdən daha çox sevir". Bunlar sevgiyə ehtiyac duyduqlarından deyil, rəqabət duyğusundan, böyüklük hissindən edirlər. Çünki ataları onları daha az sevdiyində, özlərini daha kiçik hiss edirlər. Qardaşını daha çox sevib, onları az sevdiyində, onu daha böyük mövqedə, özlərini də daha kiçik mövqedə görmüş olurlar. Bu da eqoizm və azğınlıqlarını artırdığı üçün, onun öfkəsiylə qardaşlarını öldürməyə çalışarlar.**

Habil-Qabil hekayəsində da yenə **o alçağın qardaşını şəhid etməsinin səbəbi, sevgini bəhanə etməsi. Sevgini bəhanə edərək hər cür alçaqlığı edər münafiqlər, hər cür təcavüzkarlığı edərlər. Hər cür xainliyi, bu müqəddəs, gözəl duyğuya bağlayaraq edərlər. Əsl azğınlıqlarının kökündəki səbəblər budur. Onlar üçün yalnız bir materialdır bu, sevgi bir materialdır. Yoxsa sevginin heç bir mənası yoxdur, onlar üçün**." (A9 TV, 23 yanvar 2016)

## Münafiq sevgisiz varlıqdır; lakin mənfəət əldə etmək və böyüklüyünü vurğulamaq üçün sevgidən istifadə edər

Münafiq "**sevməyi bilməyən**" bir varlıqdır. Eyni şəkildə "**sevilmə hədəfi**" də yoxdur. Göstərdiyi davranış, xasiyyətsiz, özündənrazı və həyasız əxlaq səbəbiylə kimsənin onu sevməyəcəyini bilir. Bu səbəblə "**sevgi arxasında qaçan, özünü sevdirməyə çalışan və sevgi tələb edən**" bir rəftarı da yoxdur.

Ancaq sevgi münafiq üçün çox "**əhəmiyyətli və təsirli bir silah**"dır. Əxlaqsızlıq edərkən ən çox istifadə etdiyi maska, "sevgi maskası"dir. Çünki müsəlmanların sevgiyə nə qədər əhəmiyyət verdiklərini çox yaxşı bilir. "**Sevgi axtarışında olmanın, müsəlmanların sevgisini tələb etmənin**" də, müsəlmanlar tərəfindən çox məqbul və qanuni görülən, təşviq edilən gözəl bir rəftar, hətta bir "**mömin əlaməti**" olduğunun da şüurundadır. **Bu şeytani zəkayla, əlindəki bu imkanı, pislik edə bilmək, nəfsani istəklərini təmin edib üstünlük əldə edə bilmək üçün istifadə edər.**

Bu şeytani plan istiqamətində, gün içində etdiyi əxlaqsızlıqlarını açıqlamaq lazım olduğunda, bir çoxuna "**Özümü sevdirə bilmək üçün elə etdim**", "**Sevgini qazanmaq üçün belə dedim**", "**Sevdiyim üçün elə davrandım**" kimi yalanlar önə sürərək sevgi mövzusunu, əxlaqsızlıqlarının üzərini örtə bilmək üçün istifadə edərlər. Guya "**yaxşı niyyətli olduqlarını**", təməldə rəftarlarında bir səhv və ya qüsur olsa belə, bunun altında yatan əsl səbəbin həmişə bu "**sevgi axtarışları**" olduğunu iddia edirlər. Və beləcə "**küsmək, incimək, sifət asmaq, danışmamaq, üz turşutmaq kimi bir çox əxlaqsızlıqlarını**" da əslində "**yalnız sevgi görə bilmək üçün etdiklərini**" iddia edərlər. Bu şəkildə pis və hiyləgər ruhlarına "**guya günahsız**" görünüşü verməyə çalışırlar.

Allah Quranda münafiqlərin bu şəkildə "**yaxşılığı bəhanə edərək əxlaqsızlıq etmə vərdişlərinə**" belə diqqət çəkmişdir:

**Onlara: "Yer üzündə fəsad törətməyin!" Deyildikdə, onlar: "Biz yalnız xeyirxahlıq edənlərik" deyərlər. Bilin ki; həqiqətən, əsl fitnə-fəsad törədən bunlardır, amma şüurunda deyildirlər. (Bəqərə surəsi, 11-12)**

Allah bu xəstə ruhlu insanlara, "**Yer üzündə fəsad törətməyin!**" deyildikdə, onların "**Biz yalnız xeyirxahlıq edənlərik**" deyə cavab verdiklərini bildirmişdir. Beləcə münafiqlər özlərinə, "**Niyə belə bir alçaqlıq etdin?**" deyə soruşanda, "**Biz yalnız yaxşılığı, gözəlliyi, sevgini yaşamaq istəyirik**" deyərək bəhanə uydurmaqda və "**hər cür alçaqlığı asanlıqla edə bilmək üçün qanuni bir zəmin**" meydana gətirməyə çalışırlar.

Sevgi iddiasıyla ortaya çıxaraq, əxlaqsızlığa zəmin hazırlamaq istəyən münafiqlərə verilən bir nümunə də Yusif qissəsində izah edilmişdir. Quranda verilən məlumatlara görə, o dövrdə Misirdə Hz. Yusif (ə.s)-ın yanında qaldığı bir vəzirin arvadı, Hz. Yusif

(ə.s)-a yaxınlaşmaq və onunla birlikdə olmaq istəmişdir. **Yusif Peyğəmbər (ə.s)-ın, imanlı və iffətli bir rəftar göstərərək qadını rədd etməsi isə, qadının çox ağırına getmişdir. Qürurunun qırıldığını düşünmüş; həm qürurunu həm də etibarını qurtara bilmək üçün, Hz. Yusif (ə.s)-a, "guya əslində onun özünə yaxınlaşmaq istədiyini iddia edərək" böhtan atmışdır.** Qürurunun qırılmasına səbəb olan Yusif peyğəmbər (ə.s)-dan intiqam ala bilmək üçün, onu həm iffətsizliklə günahlandırmış həm də evində qaldığı vəzirə xəyanət edərək arvadına yaxınlaşmaq istədiyini iddia edərək qaralamağa çalışmışdır. Beləcə Hz. Yusif (ə.s)-ın həbsə atılmasını təmin edəcək şəkildə bir tələ qurmuşdur.

Aydındır ki, bu hadisələrin ən başında vəzirin arvadı, Peyğəmbərə yaxınlaşa və onu da öz istəkləri istiqamətində hərəkət etməyə razı edə bilmək üçün "**sevgi yalanına**" sığınmışdır. Ancaq Hz. Yusif (ə.s) onun nəfsinə və maraqlarına tərs gələn bir qərar alınca, bu sevgi iddiasının böyük bir yalan olduğu; qadının əsl məqsədinin Yusif peyğəmbəri (ə.s) "**iftirayla qaralayaraq həbsə atdırmaq**" olduğu ortaya çıxmışdır.

Qadın Hz. Yusif (ə.s)-ı "**guya çox sevdiyini**" söyləmişdir. **Həqiqətdə isə Hz. Yusifə gözəlliyi, iffəti və imanı səbəbiylə kinlidir, nifrət bəsləyir.** Hz. Yusif (ə.s)-ın möhtəşəm gözəlliyi onu fiziki olaraq təsir etmişdir. Ancaq ona yaxınlaşmaq istəməsinin səbəbi sevgi deyil. **Yalnız bir həvəs və qürur təmini üçün müvəqqəti olaraq sevgi təqlidi etmişdir**. O ətrafda olan bütün qadınların gözəlliyinə heyranlıq duyduqları bir insanın, özüylə əlaqədə olmasıyla onlar arasında "**izdiham etmək və etibar qazanmaq**" istəmişdir. Yoxsa həqiqi sevgidə, bir insanın sevdiyi bir adamı böhtan ilə pisləmək istəməsi və onu həbsə atdırmaya çalışması əlbəttə ki, heç vaxt olacaq bir şey deyil. Bu səbəbdən bu münafiq xarakterli qadın da, "**sevgini istifadə edərək yalnız istədiyi mənfəətlərə çata bilmək və beləcə də böyüklük hisslərini təmin etmək**" istəmişdir.

Bu cür alçaq və xain münafiq xarakteri, indiki vaxtda da bütün münafiqlərdən eyni xüsusiyyətlərlə ortaya çıxmaqdadır. Bu səbəblə, müsəlmanların Quran ayələrində izah edilən münafiq oyunlarını çox yaxşı anlamaları, qarşılaşacaqları tələlərə qarşı oyanıq olmalarını və bu hiyləgər insanların oyunlarını asanlıqla poza bilmələrinə kömək edəcək.

**ADNAN OKTAR**: "Münafiq qadın deyir ki Yusif surəsində; "**Qadın dedi ki: "Məni qınadığınız budur. And olsun onu yoldan çıxartmağa çalışdım, o isə (özünü) qorudu. Və and olsun, əgər əmrimi yerinə yetirməsə,"** Bax, əmr etmə var; sevgidə belə bir şey olarmı? Və fahişəliyi əmr edir. "**Mütləq zindana atılacaq və zəlillərdən olacaq.**" (Yusif surəsi, 32) Sevgi deyə bir şey yoxdur. Düşmənlik var. Soruşsan əgər "**Hz. Yusif (ə.s)-ı əcaib sevirəm**" deyir. Sevirsənsə niyə həbsə atmağa çalışırsan?

Baxın bütün münafiqlərdən ilk hədəf, müsəlmanları ya öldürmək və ya həbsə atdırmaqdır. Hər münafiqin qəlbində yatan budur. Rəsulullah (s.ə.v) zamanında da, Hz. Musa (ə.s) zamanında da, Hz. İbrahim (ə.s) zamanında da bu heç vaxt dəyişməmişdir." (A9 TV, 25 yanvar 2016)

**ADNAN OKTAR**: **Vəzirin arvadı Hz. Yusif (ə.s)-ı guya çox sevdiyini söyləyir, halbuki kinli, nifrət edir. Yalnız bir həvəs, yalnız qürurunu və eqoistliyini təmin etmək istəyir. Yəni Hz. Yusif (ə.s)-la əlaqəyə girmək istəməsindəki məqsəd qürurunu təmin etmək. Çünki Hz. Yusif (ə.s)-ın ona qarşı müqavimət göstərməsi ona çətin gəlir, onun iffətli olması çətin gəlir. Onu da öz iffət anlayışı eyni dərəcəyə gətirmək istəyir. Yəni öz inancı, öz küfri başıyla eyni nizama gətirmək və ən çox da, qırılan eqoizm və qürurunu təmin etmək istəyir. Çünki rədd edilmək çox çətin gəlir. Rədd edildiyi üçün, mütləq fahişəliklə o rəddi ortadan qaldırmaq istəyir. Ona görə çox kinlənir Hz. Yusif (ə.s)-a ...**

Və deyir ki baxın Yusif surəsi 32-ci ayədə Allah: "**Və and olsun, əgər əmrimi yerinə yetirməsə,**" yəni fahişəliyi etməyəcək olursa, "**mütləq zindana atılacaq.**" Görürsünüzmü? Müsəlmana ilk etmək istədiyi şey həbsə atdırmaq. Münafiqin ən mühüm hədəflərindən biri budur; Müsəlmanı həbsə atdırmaq. Və böhtan ataraq təbii ki, bunları edir.

**"... Və əlbəttə zəlillərdən olacaq."** (Yusif surəsi, 32) Məsələn, indiki dövrdə də eyni şey mətbuatla, qəzet vasitəsilə əleyhinə xəbərlər çıxartdıraraq edilir. Guya onu xəcalətli edib hörmətdən salacaq. Allah bizə münafiqin hədəflərini də göstərir. Müsəlman üçün istədiyi şey budur münafiqin. Yəni başında həmişə hazırladığı budur. **"Bir gün həbsə atdırabilsə, bir gün kiçik göstərsə və bir gün öz qürurunu daha da yüksəldə bilsə".** Ancaq bunun dərdində olur münafiq.

Və Hz. Yusif (ə.s)-a yanaşma şəkli də, insan nə qədər çox sevir zənn edir, elə deyil? Sevgi deyil bu. Eqoistliyini və qürurunu təmin etmənin arxasında. Yəni "Məni necə qəbul etməz, mənim fuhuş təklifimi necə rədd edər?" Və ya "Məni necə bəyənməz ya da məndən necə xoşlanmaz?" Bu eyni zamanda başqalarına qarşı da etdiyi bir izdiham. Amma ən çox öz nəfsinə qarşı. Yəni çox çətin gəlir rədd edilmək.

Münafiqlərdən dəhşətli böyüklük qüruru olur. Bəqərə surəsinin 206-cı ayəsində: "**Allahdan qorx!" deyildikdə, böyüklük qüruru onu daha da günaha sürükləyər əhatə edər. Ona Cəhənnəm kifayət edər; nə pis yataqdır o."** "**Allahdan qorx**" deyilir, nə demək bu? Yəni "**Müsəlmanlığı yaşa**", o zaman böyüklük qüruru dövrəyə girir. Eqoizm, dinin daha üstündə olur. Dini bir kənara qoyur, İslamı bir kənara qoyur; İslamı istəmir. "**Onu da günaha sürükləyər.**" Yəni İslama zidd olan hər şeyi etməyə başlayır. "**... əhatə edər**." Yəni hər tərəfini tutur. "**Ona cəhənnəm kifayət edər**; **nə pis yataqdır o**." deyir Allah Quranda. Beləliklə, cəhənnəmin niyə lazımlı olduğunu da burada insanlar təkrar görmüş olurlar." (A9 TV, 24 yanvar 2016)

## Münafiq, heç kim tərəfindən həqiqi mənada sevilmədiyini bilər

Müsəlmanlar həmişə müsbət, konstruktiv, təvazökar, anlayışlı bir xarakterə sahibdirlər, bu o qədər bariz ki, münafiqlər belə müsəlmanların insanlarla gözəl ünsiyyət qura bildiklərindən, yetkinliklərini və üzlərindəki iç açıcı ifadəni görə bilərlər. Özlərinə baxdıqlarında isə, xasiyyətsiz, keçimsiz, gərgin, tərs, özündənrazı, davaçı, həyasız, nəzakətdən, gülərüzdən və könül oxşayan gözəl sözlər söyləməkdən uzaq bir insan modeli görürlər. Bu ikisi arasındakı fərqi və "**özlərinin nə qədər mənfur olduqlarını**" da asanlıqla anlaya bilərlər. İstənməyən və sevilməyən bir insan mövqeyində olduqlarını bilirlər. Ancaq bu vəziyyət, münafiqin daha da böyük bir gərginliyə düşməsinə və əhvalının çox pozulmasına səbəb olur. Mənfur olmağı düşündükcə daha da davakar olar və daha da tərs olarlar. Ancaq digər tərəfdən də məqsədi sevgi olmadığı üçün bunları əhəmiyyətsiz hesab edər. Öz ağlına görə küfrün yanında olsa, bunun heç bir problem olmayacağını; orada bütün insanlar onun kimi olacağı üçün, belə bir mənəvi pozğunluğu yaşamayacağına inandırır özünü.

Amma müsəlmanlar arasında olduğu hər an, bu ziddiyyət çox ciddi şəkildə gözə dəyməkdədir. Və Müsəlmanlar da bu fərqi açıqca görə bilməkdədirlər. Müsəlmanlar gözəl əxlaqlı, yaxşı niyyətli, vicdanlı və insanlara hüsnü-zənn yəni yaxşı tərəfindən baxaraq yaxınlaşan kəslər olduqları üçün, bu həqiqətin fərqində olsalar da, münafiq xarakterli bu insanlara gözəl davranmağa çalışırlar. Gözəl sözdə, sadə rəftarlarda, könül alıcılıqda, nəzakət, qorumaqda heç bir əksiklik göstərməzlər. **Amma münafiq, gördüyü bütün bu qayğıya qarşı həqiqi mənada heç sevilmədiyini və hətta özünə qarşı müsəlmanların dəhşətli dərəcədə diqqətli və sayıq olduqlarını bilir. Bu səbəbdən də ona qarşı səmimi bir sevgi eşidə bilmədiklərini, əksinə nifrət etdiklərini açıq şəkildə hiss edər.**

"**Həm çox mənfur olduğunu həm də heç sevilmədiyini bilmək**", münafiqin sevgisiz və qaranlıq ruhunda daha da böyük bir **hirs, kin və nifrət** yaradır. **Müsəlmanlardan intiqam alma, onlara zərər və çətinlik vermə, onları yorma, narahat etmə və səbəbsiz yerə davakarlıq istəyi gedərək daha da artar.** Və onların yanında ikən də tərslik etmə, pis baxışlarla baxma, həyasız və özündənrazı cavablar vermə, insanlığa, nəzakətə və mərhəmətə pisliklə qarşılıq vermə kimi əxlaqsızları gedərək daha da artır. Üzərindəki şeytani elektrik, olduğu hər mühitdə dəhşətli dərəcədə narahat edici bir gərginlik meydana gətirər. Bu səbəbdən münafiqin girdiyi yerə, sanki iblis gəlmiş kimi olur.

**Müsəlmanın bir münafiqi həqiqi mənada sevə bilməsi mümkün deyil ancaq Allah üçün, bəlkə bir gün etdiyi əxlaqsızlıqlardan imtina etməsi ümidiylə, yenə də münafiqə qarşı səbirli olur, şəfqətlə və mərhəmətlə yaxınlaşar.** Nə var ki gördüyü bu üstün əxlaq da, münafiqdən müsbət bir təsir oyandırmaz. Özündən başqa kimsəni sevmədiyi üçün, müsəlmanlara qarşı etdiyi xəyanətlərini, alçaqlıqlarına və şərəfsizcəsinə hərəkətlərinə davam edir.

Münafiqlərin özlərini ələ verən əlamətləri vardır: *"Salamları lənətdir. Yeməkləri zorakılıq və soyğunçuluqdur. Qənimətləri hiylə ilə qazancdır. Məscidlərdən aralı gəzərlər. Məsciddə qılınan namazın sonuna ancaq yetişərlər. Təkəbbürlüdürlər.* ***Nə sevilirlər nə də sevərlər.*** *Gecə odun kimi səssiz, gündüz gürültülüdürlər."* (İmam Əhmed və Bezzar/Cemul Fevaid, H. No: 8110)

**ADNAN OKTAR: "Nə sevilirlər nə də sevərlər".** Bax, nə sevmək var bunlarda nə də sevilmək. Amma sevir kimi göstərir, sevməyə maraqlıymış kimi göstərir amma sevməyi bilməz. Sevməyi ancaq pislik etmək üçün istifadə edər. **"Mən sevirəm mənə niyə bu edilmir? Mən sevirəm bu niyə edilmir? Bunu sevirsən məni niyə sevmirsən?"** O əxlaqsızlığı tətbiq etmək üçün sevməyi istifadə edir... "

**"... Münafiqlər kimsənin sevmədiyi insanlar olurlar amma onlar da kimsəni sevmir, lakin sevir kimi görünərlər. Öz aləmlərində sevir kimi görünürlər. Həqiqətdə münafiq özündən başqa kimsəni sevməz, nifrət doludur. Sevmədiyi halda, sevir təqlidi edər münafiq. Ona görə də möminlər təbii olaraq onu sevə bilməz. Hər kəsin nifrət etdiyi tiplərdir münafiqlər. Buna görə də, sevilmədiyini bildiyi üçün, onun rahatlığı ilə daha da pislik edər münafiq ..." (A9 TV, 23-24 yanvar 2016)**

## Münafiqin ruhunda sevgi və hörmət hissi yoxdur

Münafiq çox alçaq bir varlıqdır. Sevgi, şəfqət, mərhəmət, acıma hissi, bağışlayıcılıq, incəlik, nəzakət kimi xüsusiyyətlərdən tamamilə məhrumdur. Bu rəftarların özünə göstərilməsini, yalnız "**özünün guya hər kəsdən daha böyük olduğunu**" isbat edə bilmək üçün istifadə etməyə çalışır. Ən çox sevilmək istəyər, çünki bu şəkildə "**sevgiyə guya ən layiq olan insan olduğunu**" isbat edəcək və beləcə digər müsəlmanlara qarşı təkəbbürlənəcəkdir. Ən çox marağı bunu görmək istəməsidir, çünki bu şəkildə bütün diqqətləri həmişə öz üzərində toplayacaqdır. Bütün bu tələbləri, münafiqin gözəl əxlaqa olan düşkünlüyündən deyil, yalnız hər kəsdən daha qabaqda olma ehtirasının ehtiyacıdır.

Münafiqlər müsəlmanlara qarşı çox kinlidir halbuki bunun üçün heç bir səbəb yoxdur. Hətta tam tərsinə müsəlmanlar onları həmişə qoruyarlar, buna görə sevgi və hörmət duymaları üçün çox səbəb var. Məsələn bir münafiq xəstələndiyində inananlar onun bütün ehtiyaclarıyla maraqlanarlar. Həkimə aparar, dərmanlarını alar, yeməklərini bişirir, bütün işlərini edərlər. Müsəlmanlar münafiqlərə qarşı son dərəcə mərhəmətlidirlər. Əxlaqsızlıqlarını görsələr belə, Allah rizası üçün vicdanlı davranır və onlara sevgi və şəfqət göstərirlər. Ancaq bütün bu qayğı və gözəl əxlaq münafiqin qəlbində yaxşılıq və gözəllikdən yana heç bir his oyandırmaz. Çünki **münafiq sevgiyə sevgiylə, mərhəmətə mərhəmətlə, nəzakətə və gözəl əxlaqa eyni şəkildə qarşılıq verməsini bilməz.** Bütün bunlar ancaq münafiqin "**ədəbsizliyini, tərsliyini və nəzakətsizliyini**" daha da artırar.

Çünki münafiqin şeytani ruhunda sevgi yoxdur. Münafiq, sevməyi bilməyən və sevilməyi də tələb etməyən qəribə bir məxluqdur. Həyatında sevdiyi, içindən gələrək gözəl davrandığı heç kimsə yoxdur. Nə anası, nə atası, nə uşaqları nə həyat yoldaşı, nə bir dostu ya da yoldaşı, onun sevgi duyduğu varlıqlar deyil. Bunların hər biri ona görə yalnız mənfəətləri üçün əlaqədə olduğu insanlardır. **Münafiqin sevgisizliyi o qədər irəli ölçülərdədir ki, uşaqları, bitkiləri, çiçəkləri, heyvanları, Allahın yaratdığı heç bir gözəlliyi sevməz.**

**Münafiq sevgini bilmədiyi kimi hörməti da bilməz. Çünki hörmət sevginin ən gözəl anlatma formasıdır; bir insana dəyər vermənin göstəricisidir.** Buna görə də, münafiq müsəlmanlara dəyər vermədiyi üçün sevgisi kimi hörməti də yoxdur. Allah Quranda münafiqlərin bu xüsusiyyətini "**davakar və hörmətsiz**" olaraq təsvir etmişdir:

**İtaət etmə hər tez-tez and içənə, alçağa, qeybət edənə, dedi-qodu yayana, xeyrə mane olana, həddi aşana, günahkara, daş ürəkliyə, bunlardan sonra da başqasının adını mənimsəyən fırıldaqçıya. (Qələm surəsi, 10-13)**

Allah bu ayələrlə İslama zidd olan hər cür rəftar və əxlaqsızlıqdan çəkinməyi bildirmişdir. **"Davakar olması", münafiqin bir mövzunu sevgiylə, hörmətlə, nəzakətlə deyil; həyasızlıqla, ləyaqətsizliklə, dava edərək, qışqırıq salaraq, aqressiv hərəkətlərlə** həll etməyə çalışdığını göstərir. Məsələn Peyğəmbərimiz (s.ə.v) dövründə münafiqlərin, Rəsulullah (s.ə.v)-ə evlərin arxasından qışqıraraq ya da hüzurunda olduqlarında da səslərini yüksəldərək, önə çıxmağa çalışaraq danışmaları, münafiqlərin həmişə bu hörmətdən məhrum, həyasız, özündənrazı və zorba xarakterlərinə görədir. Mövzuları **nəzakətlə, mehribanlıqla, gözəl sözlə deyil, hər zaman "kobud və zorakılıqla" həll etməyə çalışırlar**. Pislik edərək, qışqırıq qopararaq, narahatlıq çıxararaq, təhqiranə, çirkin və təhdid edici üslublar istifadə etdikləri mühitdə fitnə çıxarmaq istəyərlər.

Dünyada etdikləri əxlaqsızlıqların eləcə qalacağını düşünür və hər şeytani hərəkətlərinin özləri üçün bir qazanc olduğunu sanarlar. Halbuki Allah Qatında, etdikləri hər bir alçaqlıq, hər bir şeytanlıq onlar adına, tək-tək yazılmaqdadır. Tarix boyunca heç bir münafiqin etdikləri qarşılıqsız qalmaz. Bu gün də yenə müsəlmanları hədəf alaraq əxlaqsızlıq edən hər münafiq etdiklərinin qarşılığını axirətdə misliylə alacaq. Sonsuza qədər bu acı və əzabdan xilas ola bilməyəcəklər. Allah Quranda münafiqlərin cəhənnəmdə "**Cəhənnəmin ən aşağı təbəqəsində**" cəzalandırılacaqlarını bildirmiş və "**onların artıq heç bir köməkçilərinin olmadığını**" xəbər vermişdir:

**Həqiqətən, münafiqlər Odun ən aşağı təbəqəsindədir. Onlara bir köməkçi tapa bilməzsən. (Nisa surəsi, 145)**

## Münafiq, müsəlmanları görməyə dözə bilmədiyi üçün özünü təcrid edər

Münafiq fiziki olaraq çox insan olan müsəlman birliyinin içində olsa belə, ruhən tamamilə özünü onlardan təcrid edər. İçindəki kin, nifrət və qısqanclığın qarşısını ala bilmədiyi üçün, iman edənlərin yanında çox böyük əzab çəkər. Buna görə zaman içərisində get-gedə müsəlmanlardan uzaqlaşar. Ancaq münafiq sanki bir "**buqələmun kimi**" istədiyi anda istədiyi görünüşə bürünə bildiyi üçün, müsəlmanların yanında özünə şən və xoşbəxt bir insan görünüşü verir. Amma diqqətlə baxdıqda, o qaranlıq dünyasında, "**sanki bağlı bir fənər içində imiş kimi**", tamamilə tək başına yaşadığı və heç dostunun olmadığı açıqca görülər. Sevgini, hörməti, dostluğu, qardaşlığı yaşamadığı və ən əhəmiyyətlisi də müsəlmanlara qarşı dərin bir hirs və qısqanclıq duyduğu üçün, onların hər hərəkətindən sıxılar. Xüsusilə də müsəlmanların bir-birinə öz qardaşından daha yaxın olmaları, imandan qaynaqlanan nəşələrinin, keflərinin həmişə yerində olması, bir-birlərinə səmimi sevgi göstərmə şəkilləri, davranışları münafiqin içini sanki yandırar. Çünki münafiq həmişə "**mərkəzdə olmaq**" və həmişə "**ən çox diqqəti çəkən adam olmaq**" istəyər.

**Amma müsəlmanlar bu cür əxlaqı pozulmuş bir varlığı deyil də, əlbəttə ki, Allahdan ən üstün gördükləri, ən gözəl əxlaqlı, ən mülayim, ən təvazökar, ən dürüst olan kəslərə sevgilərini və hörmətlərini yönəldərlər.** Bu səbəbdən **münafiq xəyalındakı küfri hörməti heç vaxt müsəlmanlardan görə bilməz. Bu da münafiqi sarsıdar.** Çünki "**böyük olmağı istədiyi kimi yaşaya bilməmə**", müsəlmanlar arasında "**sıravi bir insan mövqeyində olmaq**", münafiqin dözə bilməyəcəyi mövzulardan biridir.

Bunun yanında, müsəlmanların demək olar hər cümləsini Allahın adını zikr etmək, hər danışıqlarında və hər rəftarında Quran əxlaqını əks etdirmələri münafiqi çox hirsləndirər. Allahın adını eşitmək, Quran əxlaqının təriflədiyini və yaşandığını görmək istəməz. Müsəlmanların həmişə İslama fayda verəcək səmərəli işlər görmələrinə şahid olmaq da yenə münafiqin dözə bilmədiyi mövzulardan biridir. Buna görə də, özünü o mühitdən "**təcrid edər**" və müsəlmanlardan ayrı bir yerdə durmağa diqqət göstərər. Müsəlmanların sevinc dolu mühitlərində, münafiq həmişə bir küncdə oturar, üzünü turşudar, baxışlarını mənasız hala gətirər. **İnsan düşməni, şizofreniya ruhlu ağıl xəstəsi görünüşü vardır. Hər kəs gülərkən, o sifətini asar. Hər kəs söhbət edərkən, o səssizləşər. Bütün davranışı qeyri-stabil və psixopat görünüşlüdür.**

Münafiqin bu halı, Allahın, ona dünyada əxlaqsızlığına görə verdiyi qarşılıqdan biridir. Münafiqin bütün bu şeytani davranışları, sırf müsəlmanları narahat etmək; hüzurlarını, nəşələrini qaçırmaq üçün edər. Amma bunun nəticəsində həm özü "**ağıl xəstəsi**" görünüşü alar, həm də "**şizofreniyalı ruh halı**" içərisində, "**bədbəxt, sıxıntılı, qəzəb dolu bir dünyada**" yalnız yaşamağa özünü məhkum etmiş olur.

## Münafiq, özünə verilən hər nemət və imkandan sıxıntı yaratmaq üçün istifadə edər

Müsəlmanların həyatı çox sakit və gözəldir. Hər gün oyandıqlarında müsəlmanlar yenə həmişə gözəllik axtarar, öz davranışları ilə yaşadıqları mühitə gözəllik qatmağa çalışarlar. Münafiq isə bunun tam tərsi bir əxlaqa malikdir. Müsəlmanların sakit, xoşbəxt olmasından, gözəl bir həyat yaşamasından çox narahat olarlar. Buna görə onlarla birlikdə olduğu hər gün bədbin, əsəbi, ədəbsizlik edərək başlayır. Hər şeyin ən mükəmməl olduğu mühitdə belə, sıxıntı və fitnə çıxaracaq bir mövzu tapar.

Müsəlmanların yaşadığı mühitin gözəlliyini pozmaq və onların hüzurlarını qaçırmaq üçün əlindəki hər imkanı istifadə edir. Buna hələ səhər ilk oyandığı anda, "**üzündəki tərs ifadə**" ilə başlayar. Üzü o qədər nursuz, tərs və dəhşətlə doludur ki, heç kim üzünə baxmaq belə istəməz. Öz ağlına görə, üzərindəki "**mənfi elektrik**" ilə müsəlmanları da narahat edə bildiyini düşünər. Ardından da, özünə gözəl bir söz söyləyən, salam verib xətrini soruşan, könlünü alan hər kəsə deyilə biləcək ən tərs cavabları verərək pis hərəkətinə davam edər. Üstündə "**dəhşətli dərəcədə uğursuzluq və mənfi enerji**" vardır. Onsuz da, o bu halda ikən, müsəlmanlar da onunla danışmaq istədiklərindən deyil, yalnız Allah rizası üçün və gözəl əxlaqın bir ehtiyacı olaraq ona gözəl söz söyləyərlər. Onun tərs üslubuna baxmayaraq, müsəlmanlar əsil-nəcabətli əxlaqlarına görə, ona yenə gözəl rəftar ilə cavab verərlər.

Bunlar yalnız, münafiqin günə başlayanda ilk hücumlarıdır. Gün ərzində həmişə şeytan ilə əlaqədə olan münafiq, öz aləmində iyirmi dörd saat içində, yüzlərlə bu cür hərəkət daha tapıb tətbiq edir. Qarşısına çıxan hər insan, yaşayacağı hər hadisə, duyacağı hər söhbət, nə qədər yaxşı niyyətli və gözəl olursa olsun; o bunların hər birini şeytanlıq üçün dəyərləndirib bunlarla pislik etməyin yollarını axtaracaq.

Bu "**iş yerində hər hansı materialın bitməsi**", bəzən "**evdəki təmizlik**", "**iki adamın öz arasındakı söhbəti**", "**televizorun səsi**", "**otağın işığının çox olması**", "**yeməyin bişməsinin yubanması**", "**otağının havalı olub olmamağı**" kimi, ağla gələ biləcək hər cür detal və adi mövzu ola bilər.

Bunların hər biri onsuz da münafiqin gün ərzində istifadə etdiyi və mütləq fitnə çıxarmaq, dava çıxarmaq üçün deyəcəyi şeylərdir. Ancaq bununla yanaşı münafiq özünə "**nemət olaraq təqdim edilən şeyləri də pisləmək, müsəlmanları narahat etmək üçün istifadə edər**". Məsələn bir müsəlman onun ən sevdiyi yeməyi onun üçün xüsusi olaraq və onun ən sevdiyi şəkildə bişirib ona təqdim edər. Münafiq hər kəs kimi "**nəzakətlə təşəkkür etmək, qarşı tərəfin fədakarlığını, incə düşüncəsini, gözəl əxlaqını təqdir etmək yerinə**", tək bir gözəl söz belə söyləmədən mimikası ilə narazılığını ifadə edər. Yarım ağızla, narahatçılığını, narazılığını büruzə verib, yeməkdə nə cür qüsurlar və xətalar olduğunu izah etməyə başlayar. Mənfi bir səs tonuyla, "**Bu ət çox sərtdir**", "**duzu çoxdur**",

"**az bişirmisiniz**", "**çörəyi çox qızartmışsınız**", "**salatı kiçik doğramısınız**" kimi nəzakətsiz sözlər deyər. Halbuki ortada əksiklik də qüsur da yoxdur. Yemək son dərəcə mükəmməldir. Amma münafiq öz pis əxlaqına görə bu rəftarı göstərir. Müsəlmanlara təşəkkür edən, könül alan, gözəl söz söyləyən bir insan mövqeyində olmağı heç vaxt istəməz.

Başqa gün, bir müsəlman ona çox bəyəndiyi bir paltarı hədiyyə olaraq alıb gətirəndə, üzünü turşudaraq, narazı ifadə ilə o paltarı baxışları ilə səssizcə süzər. Ardından da, "**başqa rəngi yox idi?**", "**boyu çox uzun**", "**ölçüsü böyük**", "**tikilişini çox diqqətsiz ediblər**", "**bu parçanın növü yumşaq deyil**" kimi, nəzakətsiz və bəyənmədiyini ifadə edən şərhlər etməyə başlayır. Halbuki, paltar onsuz da şəxsən onun seçib istədiyi bir paltardır. Və söylədiyi bəhanələr də həqiqətdən kənardır. Hər bir detal, tam ona olacaq şəkildə düşünülmüşdür. Amma **münafiq içindəki şeytanlıq səbəbiylə, təşəkkür etmək yerinə özünə edilən bu jesti əxlaqsızlıq etmək üçün istifadə edər**. Halbuki, ona o hədiyyəni gətirən insan, o mağazaya gedə bilmək üçün müəyyən bir yol qət etmiş, əmək vermiş, vaxtını sərf etmiş və yorulmuşdur.

**Bir müsəlman, heç bəyənmədiyi, heç vaxt geyə bilməyəcəyi, ən zövqsüz, ən keyfiyyətsiz bir əşya ilə belə qarşılaşsa, bu, ona incə düşüncə səbəbindən, əmək verilərək alınıb, hədiyyə olaraq gətirildiyi üçün, gözəl əxlaqına görə, qarşısındakı adama ən gözəl sözlərlə təşəkkür edib, onun könlünü alır**. Məmnuniyyətini, sevincini, təqdirini ən gözəl şəkildə ifadə edər. Münafiq da belə incə və nəzakətli bir əxlaq göstərməyi biləcək qədər məlumat və anlayışa malikdir əlbəttə. Amma məqsədi onsuz da pislik etmək olduğu üçün, belə davranmaz və əlinə keçən bu fürsəti da yenə əxlaqsızlıq üçün istifadə edər.

Münafiqin bu əxlaqsız davranışları, gün ərzində hər mövzuda bu cür davam edib gedər. Onun yaxşılığı üçün, sırf o xoşbəxt olsun, xoşuna gəlsin deyə edilən incə hərəkətlərin hər biri, münafiqin əxlaqsızlıq üçün istifadə edə biləcəyi yeni fürsətlərdir. Ancaq **münafiq etdiyi bu tərslik və şeytanlığa baxmayaraq, müsəlmanların sevincini, kefini qaçırmağı heç vaxt bacara bilməz. Bütün etdikləri, yalnız münafiqin öz ruhunu sarar və onun həyatı boyunca sevgisiz, bədbəxt, qəmgin bir dünyada, tək bir həqiqi dostu və sevəni olmadan yaşamasına səbəb olur.**

Allah bir ayədə münafiqlərin "**dünyada etdiklərinin qarşılığını axirətdə acı bir əzaba alacaqlarını**" xəbər vermiş və qarşılıq olaraq "**bu onlara yetər**" deyə bildirmişdir:

**Allah münafiq kişilərə, münafiq qadınlara və kafirlərə içərisində əbədi qalacaqları Cəhənnəm odu vəd etmişdir. Bu onlara kifayət edər! Allah onlara lənət etmişdir. Onlar üçün daimi bir əzab vardır. (Tövbə surəsi, 68)**

# Münafiq, “Allaha çox şükür” “Əlhəmdülillah” ifadələrindən demək olar ki, heç istifadə etməz; şükür edib Allahın üzərindəki lütfünü təqdir etməz

Müsəlmanları küfrdən ayıran ən diqqətə çarpan xüsusiyyətlərindən biri, ürəklərində olduğu kimi, dillərində də həmişə, dünyada hər kəsdən çox sevdikləri “**Rəbbimizin adının**” olmasıdır. İman edənlər hər şeyi yaradan, insanlara, hadisələrə hökm edən tək və sonsuz gücün yalnız Allah olduğunu bilirlər. Və Allah diləmədən insanların, lehinə ya da onların əleyhinə heç bir şeyə güc yetirə bilməyəcəklərini, Allahın istədiyinə ruzisini və lütfünü genişlədib istədiyinə də daraldacağın dərk edərlər. Bu səbəbdən müsəlmanlar həyatları boyunca yaşadıqları hər an, hər şeyi Allahdan istəyərlər. Bir çətinliyə düşdüklərində yardımın ancaq Allahın təqdiri olacağını bilib Allaha sığınır, yalnız Ondan kömək diləyirlər. Bir istəkləri olduğunda bunu reallaşdıracaq olanın yalnız Rəbbimiz olduğunu bilərək Ona dua edərlər. Gözəl bir nemətlə qarşılaşdıqlarında da yenə bunun onlara Allahın lütfü ilə isabət etdiyini bilərək Allaha şükür edərlər. Pis əməldən qorunduqlarında, fəlakətdən xilas olanda, bunun da yenə Allahın onlara olan sevgisindən, Allahın bir neməti olaraq yaradıldığını bilərək Allaha həmd edərlər.

Müsəlmanlardakı bu dərin “**Allah sevgisi**” münafiqlərdə yoxdur. Ürəklərində bu sevgi olmadığı üçün, dillərində də “**Allahın zikri**” yoxdur. Onlar Allahın dünyadakı tək və sonsuz gücün sahibi olduğuna da iman gətirməzlər (Allahı tənzih edirik). Dünyadakı dərin dövlət quruluşlarını, şeytani mərkəzləri, onlar kimi münafiq birliklərini və təbii ki bir də özlərini, (Allahı tənzih edirik) haşa, Allahdan daha çox “**güclü və məğlubedilməz**” olaraq görürlər. Bu səbəblə də, başlarına gələn yaxşılıqlara, özlərinin ya da bu dərin güclərin vəsilə olduğunu düşünər, yaşadıqları pis hadisələrin da yenə bu güclərə kifayət qədər sığınmamış olmalarından qaynaqlandığına inanarlar. Bax bu, səhv dünyagörüşü səbəbi ilə də **münafiq, başına gələn gözəl şeylər, sahib olduğu nemətlər, yaşadığı xeyirli hadisələrə görə Allaha şükür etməz**. Müsəlmanların yanında münafiqin ən diqqət çəkən tərəflərindən biri də budur. “**Əlhəmdülillah**”, “**Allaha şükürlər olsun**”, “**Allaha həmd olsun**” sözlərini heç vaxt istifadə etmir.

Bir Müsəlman başına gələn xəstəlikdən xilas olduqda dərhal Allaha şükür edər. “**Ey Rəbbim Sənin lütfün olmasaydı, bu xəstəlikdən qurtulamazdım. Şəfanı verən ancaq Sənsən**” deyər. Müsəlman qardaşları ona hörmət etdikləri zaman, o da onlara ən layiqli rəftarı ilə təşəkkür etdiyi kimi; bunu ona lütf edənin Allah olduğunu bilərək yenə öncə Allaha şükür edər. Yolda gedərkən gözəl bir mənzərə ilə qarşılaşanda; çiçəklərin açdığını, dənizin gözəlliyini gördükdə də, yenə həmişə Rəbbimizə şükür edər. Yaşadığı yerdə belə bir gözəllik və nemətlə özünü müqayisə üçün, Allahın sevgisindən duyduğu məmnuniyyəti dilə gətirir. Yeriyərkən ayağı sürüşüb yıxıldığında da, yerdən qalxa biləndə, Allahın lütfünü düşünüb yenə şükür edər. “**Rəbbim məni qorudu, çox ağır yaralana bilərdim, Allah kömək etdi, Əlhəmdülillah**” deyər.

Baxın münafiqin gündəlik həyatının heç bir mərhələsində bu əxlaqa rast gəlmək mümkün deyil. O hər gördüyü şeydən "**yalnız şikayət edər və deyinər**". Yaşadığı hər an, nəfəs ala bilmək üçün belə Allaha möhtac olduğu halda, içindəki **"böyüklük duyğusu" səbəbindən Allahı xatırlamaq və Allaha şükür etmək istəməz.**

Ancaq əlbəttə ki, bu nankor və şükür bilməyən şeytani əxlaqı, münafiqin özündən başqasına zərər gətirməz. Münafiq narazı, şikayətçi, dalaşqan əxlaqıyla, narahat və bədbəxt həyat yaşayır. **Müsəlmanlar başlarına gələn yaxşı ya da pis kimi görünən hər hadisədə xeyir görüb, Allahın hər şeyi qədərdə ən hikmətli şəkildə yaratdığını bilmənin rahatlığını yaşayarlar. Bu təvəkkül səbəbiylə də, heç bir şey onları bədbəxt etməz. Münafiqsə dünyada öz əlləri ilə özünə cəhənnəm kimi bir həyat meydana gətirər və bunun ağrısını da yenə yalnız özü çəkər.**

**ADNAN OKTAR**: "Müsəlman həmişə yaxşılıq axtarar, həmişə könül alıcıdır, yaxşı insandır. Amma münafiq, bura gəlsə məsələn, stulu bəyənməz, xalçanı bəyənməz, bağçanı bəyənməz, hər şeyə bir qulp qoyar. Münafiqin xüsusiyyətidir bu; içindəki şeytani meylə görədir, şükür edən, təqdir edən yönü yoxdur. Ruhundakı kinə görə, əşyaya qarşı da anarxistdir, əşyaya qarşı da acıqlıdır. Öz vücudunu bəyənməz, əlini bəyənməz, üzünü bəyənməz, əşyanı bəyənməz, çiçəyi bəyənməz, heç nəyi bəyənməz. Hər şeydə qüsur tapar yəni şükür edici deyil. "**Onları şükür edən görməyəcəksən**" (Əraf surəsi, 17) ayəsini bilirsiniz, baxın münafiqin xüsusiyyətidir şükür etməmək. Münafiq şükür etməyi bilməz. Qənaətkar deyil. "**Allah nə gözəl yaratmış**" deməz. Hər şeydə o pis ruhu, şeytani ruh dövrəyə girər. Fərz edək yemək verərsən, yeməyi pis görər. Bir hədiyyə verərsən , onu pis görər. Bir söz desən, onu bəyənməz. Bir insan görür, onu bəyənməz. O şükür etməmək ruhu, Quranda münafiqlərin xüsusiyyəti olaraq ifadə edilir.

"**Onları şükür edən görməyəcəksən**". Məsələn "**Allaha şükür**" deyir mömin, elə deyil? Fərz edək yemək gəlir, "**Allaha həmd olsun, nə gözəldir**" deyirsən. Dadını bəyənməsə belə Allahın ruzisi olaraq bəyənir. Məsələn bir əşya gətirsələr, "**nə gözəldir**" deyirsən. Möminlərin həmişə "**nə gözəl, Allaha şükür, əlhəmdülillah**" vardır, "**maşaAllah**" vardır, "**əlhəmdülillah**" vardır, "**inşaAllah**" vardır. Münafiqdə həmişə rədd etmək vardır, həmişə xoşa gəlməzlik vardır. Heç bir şeyi bəyənməz. Bir tək özünü bəyənər, gizlicə özünü bəyənər. Yəni insanlardan nifrət edər, amma gizlicə özünü bəyənər. O qaranlıq dünyasında tək başına yaşamaq istəyər. Şeytan da elədir; trilyonlarla mələk var, istəsə onlara tabe ola bilərdi. Amma İblis tək başına Allaha üsyan etdi yalnız qalmaq istədi. Baxın sırf böyüklük əzmi üçün, o eqoizm düşüncəsi üçün sonsuz cəhənnəmi də gözə alır. Allahdan böyük olma ehtirası onu o dəli və çirkin ruha sürüyür." (A9 TV, 3 iyun 2016)

## Münafiq, həmişə yaxşılıq və gözəl əxlaq gördüyü müsəlmanlara qarşı çox nankordur

Allahın Peyğəmbərlərə vəhy bildirməsi xaricində, "**kimin cənnətə kimin cəhənnəmə gedəcəyini bilmək**", dünya həyatında heç vaxt mümkün ola bilməz. Buna görə, **müsəlmanlar, münafiq xarakterini ən çox üzərində ehtiva edən, bu yöndə çirkin bir cəsarəti və israrlı olan insanı belə, bir gün dəyişə və əxlaqını düzəldə biləcəyini düşünüb həmişə ümidvar bir dünyagörüşü ilə yaxınlaşmaq lazımdır.**

Müsəlmanlar münafiqdəki şiddətli küfr əlamətlərini çox açıq şəkildə aşkar edər və münafiqin Qurana zidd əxlaqına, pis və qaranlıq yönlərinə qarşı içlərində imanlarından qaynaqlanan "**sevməmə hissi**" duyarlar. Buna baxmayaraq həmişə vicdanlarını istifadə edərək həm fitnə çıxarmalarının qarşısını almaq, həm də ürəklərinin yumşalıb dinə yaxınlaşması və düzəlmələrinə vəsilə olması ümidiylə münafiqlərə həmişə Qurana uyğun şəkildə gözəl əxlaqlı davranarlar.

Necə ki, Allah Quranda Hz. Musa (ə.s)-a qardaşı Hz. Harun (ə.s) ilə birlikdə Firona getmələrini bildirərkən də, dərhal sonra ona **"yumşaq söz söyləmələrini"** əmr etmişdir. (Taha surəsi, 43-44)

Münafiqi öyrətməyə çalışarkən də, müsəlmanlar həmişə sevgi, şəfqət, mərhəmət və bağışlayıcılıq yolunu seçərlər. Ancaq münafiqin təhlükəsinə və əxlaqsızlığına qarşı lazımlı hər cür tədbiri də heç vaxt əldən buraxmazlar, bu mövzuda zəifliyə düşməzlər.

**Münafiq isə, müsəlmanlardan gördüyü bütün bu yaxşılıqlara, fədakarlığa, nəzakətə, gözəl əxlaqa baxmayaraq çox nankordur**. Özünü ağıl, qabiliyyət, ədəb və keyfiyyət olaraq bütün müsəlmanlardan daha üstün gördüyü və bu istiqamətdə ruhundakı təkəbbür hissini həmişə bəslədiyi üçün, özünə edilən bütün yaxşılıq və gözəlliklərin onsuz da "**haqqı olduğuna**" inanar. Özünə verilən hədiyyəni, təqdim edilən ikramı haqq etdiyini düşündüyü üçün təşəkkür etməyi gərəksiz görər. Münafiq məntiqində ona edilən iltifatlar da onsuz da onun ən təbii haqqıdır. Ona görə, madam ki, ən böyük, ən ağıllı, ən qabiliyyətli olan odur; iltifatlar da əlbəttə ki ona deyiləcəkdir. Hətta möminlərin, özünə göstərdikləri hər cür fədakarlıqda və incəliyi məcbur olduqları üçün etdiklərinə inanır. Bu səbəbdən də münafiqdən müsəlmanlara qarşı nə bir minnət duyğusu nə təşəkkür etmə istəyi yaranır.

Münafiqin bu əxlaqsız quruluşu, gündəlik həyatın bir çox mərhələsində özünü göstərər. Məsələn xəstələndiyində, bütün müsəlmanlar onun ətrafında pərvanə olurlar. Allah rizası üçün onun hər cür ehtiyacı və baxımı ilə maraqlanarlar. Həkim gətirərlər, dərmanını verərlər, istiliyinə baxarlar, yeməyini hazırlayıb yanına qədər aparıb ikram edərlər, hal-xətir soruşarlar. Gecə boyunca saat qurub aralarda oyanıb gedib səhhətinə nəzarət edərlər. Lazım olsa heç yatmadan onun başında keşik tutarlar. Müsəlmanlar bütün bunları edərkən hər mərhələdə xüsusi olaraq vicdanlarını dinlər, əmək verərlər. Münafiqin fərqi bu kimi vəziyyətlərdə dərhal ortaya çıxar. Müsəlmanlar belə bir qayğı

qarşısında ömür boyu qarşılarındakı müsəlman qardaşlarına Allah rizası üçün sevgi duyarlar. Dəfələrlə təşəkkürlərini, sevgilərini, məhəbbətini dilə gətirirlər.

Münafiqlik batağındaki adam isə, xəstəliyi keçənə qədər, özünə ən yaxşı şəkildə baxıla bilməsi üçün yarım ağızla da olsa müsəlmanlara təşəkkür edər. Amma ürəyi ilə dili bir-birinə tamamilə ziddir. Gün gəlib də əsəbiləşəndə, "**xəstə olanda onunla heç maraqlanmadığını, ya da könülsüz və istəməyərək maraqlandığını**" iddia edər. Onunla maraqlanan adamın bütün bunları heç istəmədən etdiyini, ona həmişə hiss etdirdiyini önə sürərək "**nankorca və ədəbsizcə böhtan**" atar. Hətta bəzən gördüyü qayğıya baxmayaraq, onunla heç maraqlanılmadığını iddia edərək pis yalan da söyləyər. Çünki münafiq müsəlmanlardan nifrət edər. Məqsədi, "**müsəlmanları sanki qəddar və sevgisiz kimi göstərmək**", "**ona zülm edildiyi təsviri vermək**" və "**yeni əxlaqsızlıqları üçün guya ki, qanuni zəmin yaratmaq**"dır.

Münafiqin ona təqdim edilən nemətlər və imkanlar qarşısında gözəlliklər yerinə "**həmişə çatışmayanları dilə gətirməsi, qüsur tapmağa çalışması və həmişə müsəlmanları günahlandırma meyli**" münafiqin səmimiyyətsizliyini və nankorluğunu açıqca ortaya qoyar.

**Ancaq əlbəttə ki, münafiqin bu nankorluğu əsas Allaha qarşıdır**. Allahın ona nəsib etdiyi gözəlliyini, sağlamlığını, gəncliyini, qüvvətini də öz qabiliyyəti sayəsində əldə etdiyinə inanır. **Çox intizamlı idman etdiyi üçün gənc, gözəl və ya yaraşıqlı qaldığını düşünür. İçdiyi vitamin həblərinin sağlam olmasını təmin etdiyini zənn edər. Çox kitab oxuyub, tez-tez beyin gimnastikası etdiyi üçün yaddaşının güclü olduğuna inanır.** Bu səbəbdən də bu nemətlər üçün Allaha könüldən şükür ehtiyacı duymaz. Allahın bu nemətləri hər an əlindən ala biləcəyinə də ehtimal verməz. Bu da münafiqin get-gedə daha da şişib azğınlaşmasına və özünü daha da əlçatmaz böyüklükdə görməsinə səbəb olur. Allah Quranda münafiqlərin bu nankor əxlaqlarına diqqət çəkmiş və (Allahın diləməsi xaricində) heç vaxt bağışlanmayacaqlarını bildirmişdir:

**Sən, onlar üçün istər bağışlanma dilə, istəsən diləmə. Onlar üçün yetmiş dəfə bağışlanma diləsən də, Allah onları heç vaxt bağışlamayacaqdır. Bu, həqiqətən onların Allaha və Onun Elçisinə (qarşı) nankorluq etmələri üçündür. Allah fasiqləri doğru yola yönəltməz. (Tövbə surəsi, 80)**

Münafiqlərin nankorluqları ilə əlaqədar gün ərzində çoxlu sayda nümunə olur. Amma buna baxmayaraq müsəlmanlar gözəl əxlaqlarından heç vaxt güzəştə getməzlər. Küfri ya da uşaq kimi intiqam alma ruhu içərisində heç vaxt hərəkət etməzlər. Qədəri izlədiklərini bilir, səbirli və şəfqətli olurlar.

Onsuz da hər kəsin qədərində əxlaqının düzəlməsi, canının müsəlman olaraq alınması yazılıbsa, müsəlmanların etdiyi hər fədakarlıq o adamın hidayət tapması üçün

bir vəsilə hökmündə olur. Və bu gözəl ibadətin savabı da çox olur. Bu da bir müsəlman üçün çox böyük bir gözəllikdir. Ancaq əlbəttə ki, hər kəsin həyatı "**münafıq**" olaraq sona çatsa, o zaman da müsəlmanların onun üçün etdikləri bütün yaxşılıqlar, fədakarlıqlar onun axirətdəki məsuliyyətini artıracaq və axirətdə qarşılaşacağı əzabın artmasına vəsilə olacaq.

## Münafiq, özünə verilən hər imkandan küfr əhli ilə əlaqə yaradıb müsəlmanlar əleyhinə fəaliyyət göstərmək üçün istifadə edər

Münafiq, müsəlmanların özünə tanıdığı imkanları, onların vəsiləsiylə əldə etdiyi nemətləri, "**küfrlə əlaqəyə keçmək, onlarla olan əlaqələrini gücləndirmək və onlar arasındakı yerini sağlamlaşdıra bilmək**" üçün də istifadə edir. Çünki son hədəfi onsuz da budur: **Müsəlmanları yormaq, küfrü gücləndirib, sonra da inkarçıların arasında özünə yaxşı bir yer əldə edə bilmək. Buna görə müsəlmanların hər cür "texnoloji imkanlarını, maddi güclərini, ictimai əlaqələrini" bu məqsəd üçün istifadə edər**.

Münafiqlər müsəlmanların sahib olduqları imkanlardan ən yaxşı şəkildə faydalana bilmək üçün "**incə strategiya**" tətbiq edərlər. Müsəlmanların həm öz ölkələrində, həm də xaricdə tanıdıqları hər kəslə bir şəkildə tanış olub, onlarla səmimiyyət qurmağa çalışırlar. Bəzən bir bəhanə tapıb açıqca bu insanların ad və telefonlarını əldə etməyə çalışır; bəzən də gizlicə müsəlmanların kompüterlərinə, telefonlarına, planşetlərinə baxıb rəhbərdən bu insanların "**e-məktub, telefon ya da sosial media məlumatlarını**" əldə etməyə çalışırlar. Ardından da yenə müxtəlif yalanlarla, bu insanlarla müsəlmanların əlaqəsini kəsməyə çalışırlar. Daha sonra da gizlicə özləri bu şəxslərlə dostluqlarını davam etdirərlər. Məsələn çox yaxşı bir insan haqqında müsəlmanlara çox alçaqca yalanlar deyərək, "**Bu insan çox səmimiyyətsiz və saxtakar olaraq bilinir. Ayrıca müsəlmanlara da düşmən biri. Siz ən yaxşısı bu adamla əlaqənizi qəti olaraq kəsin və bir daha da görüşməyin. Yoxsa sizə zərər verə bilər.**" deyər. Halbuki o adam mömin, müttəqi, Allahdan qorxan, müsəlmanları çox sevən, vicdanlı və gözəl əxlaqlı biridir. Amma münafiq bu ittifaqı pozmaq və o adamı öz mənfəətləri istiqamətində istifadə edə bilmək üçün belə bir böhtan ortaya atar.

Müsəlmanların İslam əxlaqını təbliğ üçün istifadə etdikləri "**texnologiya alətləri**" də münafiq üçün küfrlə əlaqə qurmaqda çox əhəmiyyətli fürsətlərdir. Münafiq onların bu imkanlarından ən yaxşı şəkildə faydalanmaq istəyir. Müsəlmanların yaxşı niyyətini və vicdanlı olmalarını istifadə etməyə çalışır. Məsələn, "**Özünün çox çətin vəziyyətdə olduğunu, telefonunun xarab olduğunu, təcili vəziyyət olsa kiminləsə əlaqə qura bilməyəcəyini, xəstə olsa kimsənin xəbəri olmayacağını və başına bir şey gələ biləcəyini**" söyləyər. Və sonra da mütləq ən son texnologiyaya sahib yeni bir telefona ehtiyac

duyduğunu işarə edər. Belə bir vəziyyətdə müsəlmanların necə bir vicdani məsuliyyət hiss edəcəklərini və əllərindəki imkanlarla ona mütləq kömək edəcəklərini çox yaxşı bilir. Bu səbəblə xüsusilə də "**başına bir şey gəlsə nə qədər çarəsiz vəziyyətdə qalacağı**" yalanını çox daha yaxşı vurğulayır. Bunun nəticəsində də, öz aləmində oyun oynayaraq əldə etdiyini sandığı, "**ən inkişaf etmiş xüsusiyyətlərə sahib, ən yeni model bir telefona**" qovuşmuş olur. Əlbəttə ki, müsəlmanlar münafiqin burada oynadığı oyunu çox yaxşı görürlər. Ancaq onlar da Allah rizasına ən uyğun şəkildə düşünərək və münafiqin oyunlarını diqqətlə izləməyə davam edərək ona istədiyi bu imkanı verirlər.

Münafiqin oyunu burada bitməz təbii ki. Ardından da əlindəki telefonun bütün imkanlarıyla "**küfrlə çox daha sürətli və möhkəm əlaqələr qura bilmək**" üçün hərəkətə keçər. Müsəlmanların imkanları əldə etdiyi bu telefondan, küfrə müsəlmanlardan topladığı "**kəşfiyyat məlumatlarını**" göndərməyə başlayır. Yenə bu telefon vasitəsi ilə etdiyi danışıqlarla müsəlmanlara qarşı küfrlə əməkdaşlıq edər və şeytani planlar qurar.

Münafiq müsəlmanların zənginliyini və geniş imkanlarını gördükcə, bu şeytani oyunlarına həmişə davam edər. Hər zaman öz mənfəətindən söhbət getməsə, bəzən də yalnız "**küfrə dəstək olmaq üçün**" müsəlmanların imkanlarını ələ keçirmək istəyir. Məsələn müsəlmanların İslamı izah etmək, Quran əxlaqını təbliğ etmək üçün etdikləri "**imanı, mədəni və ya elmi araşdırmalar**", bu istiqamətdə istifadə etdiyi "**məlumat arxivləri**" münafiqin diqqətini çəkər. Əgər belə geniş bir arxivi küfrdəki tərəfdaşlarına çatdıracaq olursa, onların gözünə girə biləcək, onlardan "**təşəkkür**" sözünü eşidə biləcək və irəlidə o da onlardan bir çıxar tələb edə bilər. Bu cür dünyagörüşü ilə münafiq, heç işinə yaramayacaq da olsa, müsəlmanlardan bu məlumatları gizlicə alıb özünə köçürmək üçün yolunu axtarar. "**İslama faydalı bir iş edəcəyini və bu məlumatlara ehtiyacı olduğunu**" söyləyir ya da "**arxivin çox qarışıq olduğunu onu düzəltmək üçün çox təcrübəli olduğu**" kimi guya məqbul görüləcək bir bəhanə tapar. Sonra da əldə etdiyi hər cür faydalı sənədi şeytani dostlarına çatdırar.

Bu cür bir neçə balaca nümunə ilə münafiqin müsəlmanlar arasında apardığı məkrli mübarizəsi, küfrdə axtardığı imkanları tapana qədər davam edər. O günə qədər müsəlmanlar arasında oynadığı bu şeytani oyunlar isə, o istəməsə də müsəlmanları həmişə daha da gücləndirər. Münafiqin hiyləgər və şeytani istiqamətlərini gördükcə müsəlmanlar daha çox diqqətlərini artırar, daha çox bir-birlərinə bağlanar və daha çox möhkəm addımlarla irəliləyərlər. İçlərində bir münafiqin var olma ehtimalı, onları daha çox ağıllı hərəkət etməyə yönəldir. Bunun nəticəsində də Allahın izni ilə, güc və qüvvətləri, işlərindəki bərəkətləri həmişə daha da artar.

## Münafiqin danışdığı hər sözdə tələ vardır; dolayısilə münafiqin söylədiklərinin tam əksini etmək lazımdır

Allah Quranda, münafiqlərin tələlərini necə poza biləcəkləri mövzusunda müsəlmanlara çox əhəmiyyətli bir sirr vermiş və bu hiyləgər insanların "**sözlərinə əməl edilməməsini**" bildirmişdir:

**Ey Peyğəmbər, Allahdan qorx, kafirlərə və münafiqlərə itaət etmə. Həqiqətən, Allah Biləndir, Müdrikdir. Rəbbindən sənə vəhy olunana tabe ol. Şübhəsiz ki, Allah nə etdiklərinizdən xəbərdardır. (Əhzab surəsi, 1-2)**

Bütün varlıqlar kimi, münafiqləri də, onlara yol göstərən liderləri olan şeytanı da yaradan Allahdır. Bu səmimiyyətsiz insanların nəfslərini alçaqlığı, şeytanlığı və əxlaqsızlıqları da ən yaxşı bilən yenə Rəbbimizdir. Allah Quranın bir çox ayəsi ilə müsəlmanlara münafiq xarakterini tanıtmış və iman ağlı ilə, onları "**müsəlmanlara zərər verə bilməyəcək hala gətirmənin yolunu**" göstərmişdir.

Münafiqin müsəlmanlar üzərində oynamağa çalışdığı ən əhəmiyyətli oyunlardan biri, "**verdiyi həqiqətə uyğun olmayan məlumatlarla onları səhv istiqamətləndirmək və tələyə salmaqdır**". Küfrü dost edən münafiq, onlara həmişə ən vacib və ən doğru kəşfiyyatı ötürmək, onları gücləndirməyə çalışarkən, müsəlmanlara da qərəzli olaraq səhv məlumatlar verərək onları "**müvəffəqiyyətsizliyə uğratmaq**" istər. Beləcə, kürəyini dayadığı və güclü olduğunu sandığı dərin struktur, şeytani güc əlaqələrini, dost və tərəfdarları olan digər münafiqləri qoruma altına almağı məqsəd edər. Çünki müsəlmanlar doğru məlumat ilə hərəkət etdiklərində, münafiqlərin şeytani sistemlərinin təməldən çökəcəyini və küfrün bütün dünyaya hakim etmək istədiyi dinsizliyin məğlubiyyətə uğrayacağını bilir. Bu da münafiqin heç istəmədiyi şeydir. Məqsədi onsuz da, müsəlmanları daxildən zəiflətmək, müvəffəqiyyətsizliyə uğratmaq və hətta yox etməkdir. Beləcə özünün həsrət duyduğu inkarçı həyatı heç bir vicdan əzabı duymadan rahatlıqla yaşaya biləcəkdir.

Münafiq, tək başına qaldığında ya da inkarçı dostlarıyla gizli əlaqəyə keçdiyində, altdan-altdan hadisələri istədiyi şəklə doğru yönləndirmək planlarını qurar. "**Hansı mövzulara toxunsa, hansı mövzuları gündəmə gətirsə, əsas izah etmək istədiyi məntiqləri dilə gətirmə imkanı əldə edər**", əvvəl bunların hesablarını edər. Ardından yavaş-yavaş buna zəmin hazırlamağa başlayar. Gün ərzində qarşılaşdığı müsəlmanlara tək-tək o mövzuyla əlaqədar incə təlqinlər verməyə başlayır. Sanki başqa bir mövzudan bəhs edirmişcəsinə, mövzunu bir yerə gətirir və o nöqtədə də əslində onun üçün əsl əhəmiyyətli olan hissəni yaxşıca vurğulayır. Sonra bir başqasına gedib, ona da sanki söhbət əsnasında, -mövzu istəksiz olaraq oraya gəlmiş kimi- yenə istədiyi bir başqa

məntiqi o kəslərin zehninə yerləşdirməyə çalışır. Kifayət qədər ictimai rəy meydana gətirdiyinə inanana qədər bu hiyləgər işinə davam edər.

Bu mərhələ tamamlandığında isə, əsl oyununu oynayacağı hissəyə keçir. Zəif ağlı ilə, bu mövzuda özünə ciddi ictimai rəy meydana gətirdiyini və artıq söhbət mühitlərində bu mövzudan söz açdığında, hər kəsin ona dəstək verəcəyini sanır. Halbuki ki, müsəlmanlar münafiqin cılız ağlının yanında, onun şeytanı istiqamətlərini çox yaxşı analiz edə biləcək qədər yüksək bir ağla sahibdirlər. Bu səbəbdən də münafiqin "**bir oyun üzərində olduğunu, planlarına zəmin hazırladığını**" çox açıq şəkildə fərq etmiş və hətta tədbirlərini da çoxdan almışlar. Ancaq münafiq bu vəziyyətdən bixəbər olaraq, planını tətbiq etməyə davam edər.

Məsələn **müsəlmanlar haradasa faydalı və təsirli fəaliyyət edəcəklərsə və bu münafiqin işinə gəlmirsə, münafiq bu işə maneə törətmək istəyir**. Çünki müsəlmanların orada təsirli təbliğ etmələri, o bölgədə dinsizliyin təsirini itirməsinə səbəb olacaq. Halbuki orada münafiqin tərəfdarları, inkarçı dostları, əməkdaşlıq etdiyi inkarçı dərin quruluşların mənsubları vardır. Və o, onların güclü qalmasını istəyir. Bu səbəbdən uzun bir müddət boyunca, söhbət aralarında həmin şəhər və ya ölkənin sanki iqtisadiyyatını, siyasi vəziyyətini, insanlarını araşdırmış, oxumuş və bu mövzuda məlumat verirmiş kimi, arada bir müsəlmanlara bəzi söhbətlər edər. Ancaq bu söhbətlərin aralarında mütləq o bölgədə xalqın nə qədər dindar olduqlarını, əhalinin böyük çoxunun Allaha inandığı, namaz qıldığı, bölgədə məscidlərin dolub daşdığı kimi məlumatlar da izah edər. Halbuki, bölgədəki xalq dindar deyil. Əlavə olaraq mövzuyla əlaqədar hər hansı araşdırma etdikdə belə, internetdən çıxacaq ilk səhifələrdən bu həqiqəti öyrənmək mümkündür. Ancaq münafiqin ağlı, sözlərindəki yalanların bu qədər asanlıqla aşkar ediləcəyini təxmin edə bilməyəcək qədər bağlıdır. Müsəlmanların, onun bu hiyləgər oyununu bu qədər asan görə biləcəklərini düşünə bilməz. Və öz ağlı ilə müsəlmanlara "**burada kitab fəaliyyətləri etmənizə, konfranslar vermənizə heç ehtiyac yoxdur. Çünki bura onsuz da çox dindar bir bölgə. Siz ən yaxşısı filan şəhərdə konfranslar verin. Əsas oradakı insanlar İslam mövzusunda çox cahillər**" kimi ağıl verir. **Və bu məsləhətini də çox israrlı edər və izləyər**.

Münafiq buna bənzər daha bir çox oyunlar oynayar. İslama, müsəlmanlara fayda verəcək hər nə varsa, o mövzuda guya məlumat verirmiş kimi söhbətlər edib "**mütləq müsəlmanları tərs istiqamətdə yönləndirmək istəyər**". Ya da ikinci bir üsul olaraq da, "**faydalı olan tək bir nöqtəyə diqqəti cəmləməyə maneə törətmək üçün onları bir neçə fərqli nöqtəyə daha çəkərək diqqətlərini dağıtmaq, tək bir yerdə meydana gələcək güclü təsiri qırmaq üçün çalışır**". Münafiqin öz aləmində müsəlmanların gücünü qırmaq üçün diqqəti iki, üç, hətta dörd-beş fərqli istiqamətə yönəltməyə çalışması əhəmiyyətli hiyləgərlikdən biridir. Sanki İslama xidmət edirmiş obrazı göstərərək, "**əvvəlcə bu mövzu üzərində dayanaq**", "**mən lazımlı bütün hazırlıqları edərəm**" deyərək müsəlmanları ana hədəfdən uzaqlaşdırmağa çalışır. Bəzən də "**bu hadisələrin əsl səbəbi budur**", "**bu problemlər bundan qaynaqlanır**" deyərək müsəlmanların diqqətini maraqsız mövzulara yönəltməyə səy göstərər.

Elə bu nöqtədə müsəlmanlar münafiq zehniyyətli insanların sözlərinə heç vaxt əməl etməzlər. Allahın ayədə bildirdiyi, "**münafiqlərə itaət etmə**" şəklindəki xatırlatması ilə düşünərək, münafiqin mütləq şeytanlıq istəyində olduğunu bilir və diqqətli davranırlar. O bir şey deyirsə, mütləq xəyanət etdiyini və inananları mütləq tam tərsi istiqamətə yönləndirməyə çalışdığını düşünərək, izah etdiklərini hər zaman şübhə ilə dinləyirlər. Necə ki, araşdıranda da, "**münafiqin verdiyi məlumatların, həmişə küfrün lehinə, müsəlmanların isə əleyhinə olacaq tələdən ibarət olduğunu**" görürlər.

"***Şeytanın fənəri çatacağı yerdəki qaranlığı işıqlandırar***" *(Mason jurnalı, № 29, səh. 23)* sözü də, şeytanın ilhamıyla hərəkət edən münafiqlərin tələlərini çox açıq bir şəkildə müəyyənləşdirir. Doğru olan, o fənər hansı tərəfi aydınladırsa oraya getməmək; fənərin aydınlatmadığı tərəfə yönəlməkdir. Münafiqin tələlərini pozacaq olan üsul budur.

**Münafiq bir şey deyirsə, müsəlman onun sözünün tam tərsini etdiyində demək ki, şeytanın da, münafiqin də çox canı yanacaq. Fikir sistemləri çökəcək, oyunları pozulacaq.** Münafiq müsəlmanın nə qədər ağıllı olduğunu görə bilmədiyi üçün, qurduğu tələlərlə müsəlmanlara münafiqin fikir sistemini çökdürəcək işarələrini də verdiyini anlaya bilməz. **Müsəlman, münafiqin onu istiqamətləndirmək istədiyinin tam tərsini etdiyində, münafiqin heç istəmədiyi, bu səbəbdən də şeytani sisteminə ən təsirli fikri zərbəni vurur.** Və beləcə, münafiq öz oynadığı oyun ilə, müsəlmanların müvəffəqiyyətinə şəxsən özü vəsilə olmuş olur.

**ADNAN OKTAR**: "Məsələn sən İngilis Dərin Dövləti dedin elə deyil? "**Münafiq Misir Dərin Dövləti; əsas təhlükə İslam aləmində" deyir. "Onu da görəsən birlikdə dəyərləndirək?**" deyir. Məsələn bu çox münafiq bir oyundur. İngilis Dərin Dövləti və Misir Dərin Dövləti dediyində, o zaman onsuz da qüvvət bölünmüş olur. Bu cür elmi olaraq əsas mübarizə ediləcək nöqtədən diqqəti yayındırır münafiq. Münafiq, "**qara deyirsə ağdır, ağ deyirsə qaradır**", münafıqə qarşı çox diqqətli olmaq lazımdır. Çox hiyləgər və alçaqdır." (A9 TV, 6 fevral 2016)

**ADNAN OKTAR**: "Münafiq bilərəkdən bacarıqsızlıq edər. Məsələn danışa bilmir kimi özünü göstərər, yaza bilmir kimi edər, düzəldə bilmir kimi edər və bunların hamısını müsəlmanlara etdirmək istəyər amma digər tərəfdən müsəlmanların da fəaliyyət etməsini istəməz. Onları da dayandırmağa çalışar. Qışqır-bağırla, səs-küylə onları xərcə salmağa çalışar, onları lazımsız məqsədlərə yönəltməyə çalışar, hədəf çaşdırmağa çalışar. **Məsələn İngilis Dərin Dövlətinə yönəlirsənsə, o səni Alman Dərin Dövlətinə yönəltməyə çalışar, Rus Dərin Dövlətinə yönəltməyə çalışar ki, İngilis Dərin Dövlətinin üstündən diqqət getsin. Məsələn Rumilik təhlükə olduğu halda, o yeni başqa azğın axınlardan bəhs edir ki, diqqət oraya getsin. Ora qarşı fikri mübarizə etməyini dayandırmağa çalışır öz ağlına görə.**" (A9 TV, 4 fevral 2016)

# Münafiqin yaxalanma qorxusu

## Münafiqin ən qorxduğu şey məlumat toplanmasıdır; müsəlmanların onun haqqında məlumat əldə etmələrindən çox çəkinər

Münafiqin həyatı, hiyləgərlik, səmimiyyətsizlik və saxtakarlıq üzərində qurulmuşdur. Əlindəki bütün imkanları istifadə edərək, "**həyatının hər anında sərbəst əxlaqsızlıq edə bilmək**" istəyir. Bunu həyata keçirə bilməsi üçünsə, etdiyi saxtakarlıqların ifşa olmaması lazım olduğunu bilir. Buna görə də, oynadığı oyunların gündəmə gətirilməsini, etdiyi hiyləgər fəaliyyətlərdən müsəlmanların xəbərdar olmasını istəməz. Çünki münafiq ancaq bu şəkildə, sistemini davam etdirə və ancaq bu şəkildə özünü gizlətməyi bacara bilər.

**"Münafiqin gizliliyi aradan qaldırıldığında",** yəni tutduğu işlər aydın olduğu, istifadə etdiyi üsullar fərq edildiyi zaman, münafiq bütün gücünü itirmiş olar. Gizliliyini itirməsi, artıq istədiyi kimi azad şəkildə münafiq hərəkətləri edə bilməməsi deməkdir. Elə buna görə də, münafiq "**kəşfiyyatdan**" çox qorxar. Və kəşfiyyat axışına maneə törədə bilmək üçün həmişə əks mübarizə aparar. Müsəlmanlardan birinin, münafiqdə fərq etdiyi səmimiyyətsizliyi, bir başqasına bildirməsi ya da kütləvi şəkildə bütün müsəlmanların bu mövzu haqqında məlumatlandırılması, münafiqi çox çətin vəziyyətdə qoyar. Bunun kimi, fərqli zamanlarda, fərqli yerlərdə, münafiqin fərqli oyunlarına, hiyləgərliklərinə, saxtakarlıqlarına rast gələn müsəlmanların, bütün bu məlumatları bir araya gətirərək birləşdirmək, bunların cəmindən bir nəticə çıxarmaları münafiq üçün böyük "**təhlükə**"dir.

Elə buna görə də, **münafiq müsəlmanların onun haqqında bir-birlərinə məlumat vermələrindən çox çəkinər**. Eyni şəkildə gün içində nə etdiyinin izlənilməsini, müsəlmanların onu yaxından təqib etməsindən də çox narahat olar. **Münafiqlik etməsi üçün sərbəstliyini heç kimin pozmamağını istəyər**. Müsəlmanların xeyirli məqsədlərlə məlumat alış-verişi etmələri isə, onun bütün oyununu pozar və münafiqi həddindən artıq dərəcədə kinləndirər. Özü haqqında məlumat öyrənənə də, gündəmə gətirənə də artıq dərəcədə kin duyar.

Peyğəmbərimiz (s.ə.v) dövründəki münafiqlər də, tarix boyu gəlmiş keçmiş bütün münafiqlərdə olduğu kimi, bu "**məlumat axışından**" dəhşətli dərəcədə narahat olurdular. Quranda bu münafiqlərin (peyğəmbərimiz (s.ə.v)-i tənzih edirik) Peyğəmbərimiz (s.ə.v) üçün "**O hər sözü dinləyən bir qulaqdır**" deyərək, münafiq bir üslubla böhtan atdıqları xəbər verilmişdir:

**Onlardan eləlәri də var ki, Peyğəmbərə əziyyət verib: "O hər sözü eşidən bir qulaqdır!"- deyirlər. De: "O, sizin üçün ancaq xeyirli sözlər eşidir. O, Allaha iman gətirir, möminlərə də inanır. O, sizlərdən iman gətirənlər üçün bir rəhmətdir". Allahın Elçisinə əziyyət verənlər üçün isə ağrılı-acılı bir əzab vardır. (Tövbə surəsi, 61)**

Münafiqlər, iman edənlərin Rəsulullah (s.ə.v)-ə, şahid olduqları hadisələr və ya danışıqlar haqqında məlumat ötürməsindən dəhşətli dərəcədə narahatlıq keçirmişlər. Ancaq Allah ayənin davamında, Peyğəmbərimiz (s.ə.v)-in iman edənlər üçün "**xeyir qulağı**" olduğunu və bunun da "**müsəlmanlar üçün rəhmət olduğunu**" bildirmişdir. Bir başqa ayədə isə Allah, iman edənlərin Peyğəmbərimiz (s.ə.v)-ə mühüm hadisələr haqqında məlumat ötürməsinin əhəmiyyətinə diqqət çəkmişdir. Allah, peyğəmbərlər, elçilər və müsəlmanların başında olan əmr sahiblərinin bu məlumatlardan "**ən xeyirli nəticələri**" çıxara biləcəklərini xatırlatmışdır:

**Onlara əmin-amanlıq və ya qorxu xəbəri gəldikdə, onu yayarlar. Halbuki bunu Peyğəmbərə və özlərindən olan nüfuz sahiblərinə çatdırsaydılar, içərilərindən onun mahiyyətinə varan kəslər o xəbəri bilərdilər. Əgər sizə Allahın lütfü və rəhmi olmasaydı, əlbəttə, az bir qisminiz istisna olmaqla, hamınız şeytana uyardınız. (Nisa surəsi, 83)**

Bu ayələr bizə, müsəlmanların öz aralarında "**əhəmiyyətli ola biləcək bir hadisə, söhbət ya da məlumata şahid olduqları zaman, bunu Peyğəmbərimiz (s.ə.v)-ə və ya aralarındakı əmr sahiblərinə aparmaları lazım olduğunu**" göstərir. Bu kəslər onlara gələn bu kəşfiyyat, informasiya və xəbərləri ən yaxşı şəkildə qiymətləndirə və bunlardan ən yaxşı nəticəni çıxara biləcək ağıl, təcrübə, hikmət və anlayışa sahib olan insanlardır.

Ancaq, **müsəlmanlar arasında bu cür məlumat axışı olması və bu məlumatları xüsusilə də bunları izah edəcək ağla sahib olan kəslərə çatdırmaları, münafiqi çox narahat edir.** Bu vəziyyət onun, ciddi şəkildə qorxuya və çaxnaşmaya qapılmasına səbəb olur.

Müsəlmanlar isə bu cür məlumat axışından heç bir narahatçılıq və ya çətinlik duymazlar. Çünki onların həyatları onsuz da mümkün olduğu qədər "**açıq, şəffaf və təmizdir**". Həyatının hər anını Allahdan qorxub çəkinərək keçirərlər. Yalnız olduqlarında belə, Allahın onları gördüyünü və bütün davranış və danışıqlarına görə axirətdə hesaba çəkiləcəyini bilərək hərəkət edərlər. Başqa sözlə də, deyilən nöqsanları ya da səhvləri də olsa, bunların gündəmə gəlməsindən heç bir şəkildə narahat olmazlar. Əksinə bu vəsiləylə əxlaqlarını və davranışlarını düzəldə biləcəkləri üçün bunda xeyr görər və sevinirlər.

**Münafiqin çirkli dünyası həmişə saxtakarlıq və şeytani oyunlarla dolu olduğu üçün, münafiq bunların fərq edilməsindən və öyrənilməsindən çox ciddi şəkildə narahatdır**. Bu

qorxusu səbəbiylə də, müsəlmanlar arasındakı həyatı həmişə "**gizli yerlərə gizlənərək, qaranlıqlarda gizlənərək, hiss etdirmədən gizlicə bir şeylər etməyə çalışaraq**" keçər. Tutulmaqdan və "**etdiklərinin başa düşülməsindən duyduğu qorxu, narahatlıq və gərginlik**" münafiqin ruh halına tamamilə hakim olur. Həmişə, "**tutulduğunu**" sanaraq səbəbsiz yerə dəhşətə qapılır. **Ən kiçik hadisə belə olsa, məsələn keçərkən biri dönüb ona baxsa, biriylə göz gözə gəlsə, iki nəfər bir yerdə oturub bir şey danışsa, münafiq bütün bunları üzərinə alınıb şübhəyə qapılar.** Hər zaman onun haqqında mövzu açılacaq və planları pozulacaq qorxusu ilə cəhənnəm bənzəri bir həyat yaşayar. Hüzurlu, içi rahat, xoşbəxt olaraq gözəl vaxt keçirdiyi bir anı belə yoxdur. Narahatlıq, şübhə və qorxu bütün həyatına hakim olar. Quranda münafiqin bu qorxu dolu dünyası belə xəbər verilmişdir:

**... Onlara qorxu gəldikdə, ölüm ayağında bayılan adam kimi, dönüb sənə baxdıqlarını görürsən... (Əhzab surəsi, 19)**

## Münafiq, hiyləgər fəaliyyətlərinin görülməsindən və ifşa olmaqdan çox qorxar

Fəaliyyətlərini hiyləgərcə və gizlicə icra etməyə çalışan münafiqlərin ən çox çəkindikləri mövzulardan biri də, müsəlmanlar tərəfindən fərq edilməkdir. Onlara xəyanət etdiklərini, küfrlə əlaqə halında olduqlarını və gizlicə məlumat göndərdiklərini, müsəlmanlar əleyhinə planlar qurduqlarını aşkara çıxmasından çox çəkinərlər. Son məqsədlərinə çatana qədər və öz istəkləri ilə müsəlmanların yanından ayrılana qədər ifşa olmamaq üçün çox böyük diqqət göstərərlər. Bu ayrılıq qərarını vermədən əvvəl, maddi-mənəvi müsəlmanların imkanlarından daha çox faydalanmaq, küfrün gözünə girə biləcək daha əhəmiyyətli və mühüm məlumatlar əldə edə bilmək istəyərlər. Birbaşa küfrün yanına getməkdənsə, müsəlmanların arasında təhlükəsiz, hüzurlu, rifah olan mühitindən və nemətlərdən faydalanaraq küfrlə olan işlərini yoluna qoymağı seçərlər.

Ancaq bir tərəfdən də, Allahın Quran ilə müsəlmanlara münafiqləri çox ətraflı bir şəkildə tanıtdığını da bilirlər. Müsəlmanlar Quran ayələri işığında, bir insandakı "**münafiq xarakterini və münafiq əlamətlərini**" çox yaxşı fərq edə bilməkdədirlər. Başqa sözlə münafiq də, hər nə qədər böyük diqqət sərf etsə də, həm üzü, həm bədən diliylə, həm də xarakteriylə diqqət çəkdiyinin şüurundadır. Müsəlmanları nə qədər yaxşı təqlid etsə də, onların gözlərini boyamaq üçün nə qədər çox əmək versə də, onlardan fərqli olduğunun aydın olduğunu görməkdədir.

Elə bu ehtimal münafiqin dəhşətli qorxu içərisində yaşamasına səbəb olur. "**Ya münafiq olduğu ortaya çıxarsa? Ya etdiyi saxtakarlıqları bəlli olsa? Ya küfrə daşıdığı məlumatların, onlarla qurduğu planların dəlilləri ortaya çıxarsa?**" Bax bu düşüncələr

münafiqi içdən içə yeyib bitirər. Gecə-gündüz, "**Görəsən müsəlmanlar etdikləri əməllərdən xəbərdardırlar?**", "**Görəsən bilirlər amma ona bəlli etmirlər?**" kimi şübhələrlə beyni yanıb qovrular. Ancaq bu şübhələrini doğrulaya biləcəyi bir yol da tapa bilməz. Hərdən müsəlmanların ağzını yoxlayaraq, hərdən yalan danışaraq bu sualların cavablarını öyrənməyə çalışar. Amma nəticə ala bilməz.

Əlbəttə ki, **müsəlmanlar münafiqdən qat-qat daha çox ağıllıdırlar**. O kəsin münafiq olduğundan şübhələndiklərini belə, onu çox yaxşı analiz edib, istədikləri kimi yönləndirə biləcək və razı edə biləcək qədər yüksək fərasət və bəsirət ilə hərəkət edirlər. Və münafıqə heç vaxt istədiyi cavabları verməzlər. **Etdiyi şeytani əməkdaşlığı, gizli əlaqələrindən, müsəlmanlar əleyhinə apardığı casusluq fəaliyyətinə nə qədər geniş şəkildə xəbərdar olsalar da, bu mövzuda ona heç bir şey hiss etdirməzlər**. Və hətta onu ortada heç bir şübhə və ya problem olmadığına və ona güvəndiklərini razı edə bilərlər. **Beləcə içi rahatlayan münafiq da, hiyləgər kəşfiyyat fəaliyyətlərinə və küfrlə olan əməkdaşlığa yenidən davam edir**. Müsəlmanlar isə, münafiqin bu fəaliyyətlərindən xəbərdar olduqları üçün, bir tərəfdən müsəlmanları qoruyacaq tədbirlərini alır, digər tərəfdən də münafiqi səmimi olması üçün öyrədib onu doğru yola gətirməyə çalışırlar.

Peyğəmbərimiz (s.ə.v) dövründəki münafiqlər də, tarix boyu yaşamış hər səmimiyyətsiz insan kimi "**fərq edilmə qorxusu**"yla yaşayırdılar. Və Allahdan vəhy alaraq hərəkət edən Peyğəmbərimiz (s.ə.v)-ə, onlar haqqında ayə nazil edilməsindən, Allahın onları Peyğəmbərimiz (s.ə.v)-ə tanıtmasından dəhşətli dərəcədə qorxurdular. Quranda münafiqlərin bu qorxu dolu ruh halı belə bildirilmişdir:

**Münafiqlər, özlərinin qəlbində olanı xəbər verən bir surənin möminlərə nazil olmasından çəkinirlər. De: "Siz istehza edin! Şübhəsiz ki, Allah çəkindiyiniz şeyi üzə çıxaracaqdır". (Tövbə surəsi, 64)**

Ancaq əlbəttə ki, münafiqlərin bu düşüncələri, Allaha və vəhyə olan inanclarından qaynaqlanmırdı. Onlar (Peyğəmbərimiz (s.ə.v)-i tənzih edirik) Quranın tamamının Rəsulullah (s.ə.v)-in öz sözləri olduğuna inanırdılar. "**Onların əleyhinə bir surənin nazil edilməsindən çəkindiklərini**" söyləyərkən "**vəhy gəlməsi**"ni deyil, Peyğəmbərimiz (s.ə.v)-in yenə özündən bir söz söyləməsini nəzərdə tuturdular. Etdikləri gizli casusluq fəaliyyətlərinin, ədəbsizliklərinin, alçaqlıqlarının bir şəkildə öyrənilməsindən çəkinirdilər. Bu vəziyyətində qövmlərindəki hər kəsə qarşı "**alçalacaqlarını və kiçik düşəcəklərini**" bilirdilər. Əsas çəkindikləri də zatən bu idi. Peyğəmbərimiz (s.ə.v), öz qövmünə "**onların münafiq olduqlarını söyləyər də, ədəbsizlikləri, alçaqlıkları, qürursuzluqları açığa çıxar və bütün insanlar onlara qarşı hiddətə gələr**" deyə qorxurdular.

"**Əsbabi-nüzul**" yəni ayələrin endirilmə səbəblərini açıqlayan təfsirlərdə Tövbə surəsindəki bu ayənin nüzul səbəbi haqqında üç ayrı rəvayət vardır:

1) Mücahid deyir ki,: **Münafiqlər öz aralarında bir sürü şeylər danışırlar və "Ümid edirik ki, Allah sirrimizi ifşa etməz" deyirdilər. Bundan sonra bu ayə nazil oldu.**

2) Suddi mövzunu bir az daha fərdiləşdirir və deyir ki: **Münafiqlərdən biri: "Mənə yüz cəld (çubuq) vurulsa da bizim haqqımızda, bizi rüsvay edəcək bir şey nazil olmasa" demiş və bundan sonra Allah Təala bu ayəni nazil etmişdir.**

3) İbn Keysan da **münafiqlərdən bir qrupun, Hz. Peyğəmbər (s.ə.v)-in Təbükdan geri dönüşü əsnasında qaranlıq bir gecədə Hz. Peyğəmbər (s.ə.v)-ə sui-qəsd hazırladıqlarını, Cəbrayıl də gələrək Rəsulullah (s.ə.v)-ə bunu xəbər verdiyini və beləcə bu Ayət-i kərimədə enmiş olduğunu söyləmişdir.**

Təfsirlərdəki bu məlumatlarda münafiqlərdən birinin, "**Mənə yüz çubuq vurulsa da bizim haqqımızda bizi rüsvay edəcək bir şey nazil olmasa**" dediyi bildirilmişdir. Bu da bizə münafiqin, rəzil olmaqdansa, əziyyət görməyi qəbul etdiyini göstərməkdədir. Çünki münafiq üçün "**göstəriş**" daha çox əhəmiyyətlidir. "**İnsanların nə dediyi**", onların gözündə "**necə bir imici**" olduğu, "**etibarı**" mühüm bir mövzudur. Özünü hiss etdirməmək üçün, müsəlmanlardan biri kimi bilinməyi davam etdirmək məcburiyyətindədir. Əgər münafiq olduğu ortaya çıxarsa, bütün bu imici zədələnəcək, etibarını itirəcək. Bunun nəticəsində də çıxar və mənfəət qapıları ona bağlanacaqdır. Belə bir vəziyyətlə qarşılaşmaqdansa, münafiq acı çəkməyi seçməkdədir.

Əsbabi-nüzul təfsirlərində yer alan digər bir rəvayətdə isə, "**Təbuk dönüşü əsnasında qaranlıq bir gecədə, münafiqlərin Peyğəmbərimiz (s.ə.v)-ə sui-qəsd hazırladıqlarını Cəbrayıl (ə.s)-ın gələrək Rəsulullah (s.ə.v)-ə xəbər verdiyi**" bildirilmişdir. Allahın sonsuz gücünə inanmayan münafiq, gizlicə fısıldaşıb hiyləgərcə casusluq edərkən ya da müsəlmanlar əleyhinə tələ qurarkən, Allahın, etdiyi hər şeyi gördüyündən qafildir. Əgər insanların duymayacağı ya da görməyəcəyi bir yerdə, tədbirini alaraq bir tələ yaradırsa, bunu kimsənin bilmədiyini düşünər. Tələ quran o iki nəfərdən üçüncüsünün Allah olduğuna inanmaz. Ona görə də çəkindiyi şey, "**alçaq və saxtakar olduğunu**" Allahın bilməsi deyil, insanların duymasıdır. Ancaq Allah, münafiqlərin öz aralarında gizlicə fısıldaşdıqları sirlərini bildiyini bir ayədə belə xəbər vermişdir:

**Yoxsa onlar elə hesab edirlər ki, Biz onların sirlərini və gizli danışıqlarını eşitmirik? Xeyr! Yanlarında əməllərini yazan elçilərimiz vardır. (Zuxruf surəsi, 80)**

**Bir başqa ayədə isə Allah, "De ki: Lağ edin. Şübhəsiz, Allah qaçmaqda olduqlarınızı üzə çıxaracaqdır." şəklində bildirmişdir. Münafiqlər ağıllı oyunlarla müsəlmanlarla məşğul olub onlara zərər verdiklərini və bundan heç kimin xəbəri olmadığını zənn edərkən, Allah onların bütün əməllərini görür. Və Allah bütün bunları "ortaya çıxaracağını" xəbər vermişdir. Münafiq nəyi gizlətmək istəyir, nəyin öyrənilməsindən qorxursa, Allah onların bu qorxduqları şeyləri bir-bir ortaya çıxaracaqdır. Qaçdıqları hər nə varsa bütün bunlar onlara ürək ağrısı olacaqdır.**

## Münafiq, günah işləyərkən yaxalanmamağa diqqət yetirər; ardıcıl yalanlarla günahlarını ört-basdır edərək özünü günahsız göstərməyə çalışar

Münafiqi ələ verən ən əhəmiyyətli əlamətlərindən biri "**yalan danışma mövzusundakı şeytani məharəti**"dir. Münafiq hiyləgər bir zəkaya sahib olduğu üçün, birbaşa yalan söyləməz. Bir mövzuda yalan söyləyəcəyi zaman, o yalanın bütün infrastrukturunu əhatəli şəkildə beynində hazırlayar. Xüsusilə də, saxtakarlıqlarının ortaya çıxması ehtimalına qarşı önə sürəcəyi sözlər zehinində həmişə mövcuddur. Ona görə münafiqi "**cinayət üstündə tutmaq**" çox çətindir. Oyunları çox dəqiq diaqnoz edilib, ifşa edilsə də, arsızca bunları inkar edər. Həmin an müsəlmanlar, münafiqin etdiyi bir əxlaqsızlığı çox dəqiq olaraq gözləriylə görsələr belə, münafiq buna dərhal çoxlu şeytani izahlar gətirir. Bütün əxlaqsızlıqlarını yalanlarla kamuflyaj etməyə çalışar. Hazır cavab, boşboğaz və mübahisəçi olduğu üçün, bir yalandan sonra başqa bir yalana dərhal keçə bilər. Yalanları üzə çıxanda qarşıya qoyduğu məntiq isə, həmişə "**özünün hər zaman yaxşı niyyətli və həmişə xeyir düşündüyü**"dür. Ona qarşı güclü "**qərəzli fikir olduğu üçün**" bu şəkildə həmişə özündən şübhə duyulduğunu iddia edər.

Peyğəmbər əfəndimiz (s.ə.v) dövründə münafiqlər Dırar məscidini qurduqlarında, tək məqsədləri Peyğəmbərimiz (s.ə.v)-ə qarşı münafiqləri bir araya yığıb, fitnə çıxardıb müsəlman birliyinin arasını ayırmaqdı. Amma özlərinə soruşanda, **bu məscidi yalnız yaxşılıq və xeyir məqsədli tikdiklərinə dair Allah adına and içmişlər**. Allah bizə münafiqlərin bu hiyləgər taktikalarını Quranda belə xəbər vermişdir:

**Müsəlmanlara zərər vurmaq, küfr etmək, möminlərin arasına təfriqə salmaq məqsədilə, əvvəlcədən Allaha və Onun Elçisinə qarşı müharibə edən kimsəni gözləmək üçün məscid tikənlər, əlbəttə: "Biz yaxşılıqdan başqa bir şey istəmədik" - deyə and içəcəklər. Allah şahiddir ki, onlar yalançıdırlar. (Tövbə surəsi, 107)**

Elə münafiqlərin yalan metodu əsrlər boyu heç dəyişməmişdir. **Müzakirə və şərh üsulları, özlərini qurtarma metodları, müdafiə strategiyaları və yalanlarını kamuflyaj etmə texnikaları, dövrlər, kəslər və nümunələr dəyişiklik göstərsə də, həmişə eynidir**. Məsələn, münafiq iki müsəlmanın danışdığını görər. Əgər danışdıqları xüsusi bir mövzudursa, onların yanına getdiyində müsəlmanların susacaqlarını ya da mövzunu dəyişdirəcəklərini bilər. Çünki müsəlmanlar İslamın mənfəəti, digər müsəlmanların təhlükəsizliyi mövzusunda çox tədbirli, himayədarlıq hissləri qüvvətli və qoruyandırlar. Ona görə də,

münafiq hiyləgərcə və özünü hiss etdirmədən, müsəlmanların danışdıqları otağının düz qapısında gözləyərək deyilənləri dinləməyə çalışar. Həmin anda biri onu görüb, nə etdiyini soruşsa, "**Buraları təmizləyirdim**" deyər.

Yalan söylədiyini anlayan müsəlmanlar, əgər onun yalanını ortaya çıxarmaq üçün bir az daha üstünə gedib, "**Bura hələ yeni təmizləndi**" desələr, "**Az öncə buraya çirkli əşya qoyuldu, ona görə də, yenidən təmizləyirəm**" deyər. Əgər müsəlmanlar o yalanını da aradan qaldıracaq bir şey söyləyələrsə, bu səfər də tam fərqli bir yalan daha ortaya atar. Ən sonunda artıq çox çıxılmaz vəziyyətə düşəndə də, başqa bir saxtakarlıq edər. Ağlamağa, pis şəkildə qışqırmağa və oynadığı hiyləgər oyunu analiz edən müsəlmanlara böhtan atmağa başlayır. "**Əslində orada yaxşılıq etmək üçün olduğunu, müsəlmanların bilmədən çirkli bir yerə dəyməmək üçün fədakarlıq edib oraları təmizlədiyini; amma buna baxmayaraq üstünə gedildiyini, ona sevgisiz və qəddar davranıldığını**" söyləyər. Hətta danışaraq bir az daha üstünə gedilib, doğru danışması üçün daha da məcbur edilsə, bu səfər sağlamlığını, təzyiqini, şəkərini və ya başqa xəstəlik ehtimalını önə sürüb, özündən gedən kimi rola girməyə başlayar. Məqsədi, yalanını saxlaya biləcək imkanı qalmadığı üçün, artıq bu danışıqlarla daha çox üstünə gedilməməsini təmin etməkdir. Və tam bir "**teatr oyunçusu kimi**" mükəmməl, amma bir o qədər də "**şeytani, hiyləgər və şərəfsizcə oyun**" nümayiş etdirər.

Münafiq müsəlmanları çox yaxşı tanıdığı üçün, onların nəzakətini, şəfqətini və rəhmətini çox yaxşı istifadə edir. Ağladığında ya da sağlamlığını ortaya qoyduğunda müsəlmanların vicdani daha çox sual soruşmayacaqlarını, üstünə gəlməyəcəklərini və bilməməzlikdən gələrək mövzunu bağlayacaqlarını çox yaxşı bilir. Ona görə də, nə zaman bu cür çətin vəziyyətdə qalsa, dərhal bu planlarını işə salar. Allah Quranda münafiqlərin bu cür üsullarla "**faktları təhrif edərək həmişə yalan söylədiklərini**" belə xəbər vermişdir:

**Şeytanların kimə nazil olduqlarını sizə xəbər verimmi? Onlar hər bir yalançıya və günahkara nazil olarlar. Şeytanlar vəhydən eşitdiklərini kahinlərə təlqin edirlər. Halbuki onların əksəriyyəti yalançıdır! (Şuəra surəsi, 221-223)**

**Münafiq çox təmkinli davrandığı üçün, yaxalanma ehtimalına qarşı, müsəlmanların əleyhinə etdiyi hər rəftarın və əxlaqsızlığın cavabını ardıcıl olaraq beynində əvvəldən planlayar. Bu üsulla həm özünü həmişə gizlədə biləcəyinə həm də yalanlarının ortaya çıxmasını əngəlləyə biləcəyinə inanır.**

Halbuki ki, münafiq "**şeytani bir zəkaya**" malikdir amma müsəlmanlar zəkanı asanlıqla istila edə biləcəkləri "**imani bir ağla**" sahibdirlər. Bu səbəbdən müsəlman ağlıyla münafiqin zəkasıyla sanki "**yer tutma**" oyunu oynayır. Ancaq müsəlmanların diqqətinin münafiqlərə qarşı həmişə açıq olması əlbəttə ki, çox əhəmiyyətlidir. Bundan əlavə,

müsəlman münafiqlə məşğul olarkən şeytanla məşğul olmuş və şeytanla mübarizə etmiş olur. Münafiqə qalib gələndə isə Allahın izni ilə şeytana qalib gəlmiş sayılır..

## Münafiq yaxalandığını düşünsə hərəkətlərinə bir müddət fasilə verə bilər

Münafiq şeytandan aldığı ilhamlarla olduqca hiyləgər hərəkət edə bilən varlıqdır. Müsəlmanların arasında gizlicə və hiyləgərcə fəaliyyət apardığı üçün, həmişə biriləri tərəfindən fərq edilmə qorxusu içində yaşayar. Buna görə də, həmişə "**havanı iyləyər**" və hər hansı rəftarından ötəri ondan şübhələnən olub olmadığını hər zaman "**nəzarət edər**". Bu istiqamətdə çox kiçik ehtimal belə ola biləcəyini düşünsə dərhal ona görə rəftarını, danışığını, hərəkətlərini əks istiqamətdə göstərəcək şəkildə nizamlayar. Aydın olduğunda, hər dəfə şübhə etdiyində "**buqələmun kimi**" çox sürətli şəkildə rəng dəyişdirər.

**Münafiqi bu şübhəyə salan ən əhəmiyyətli mövzulardan biri isə, müsəlmanların münafiqlər haqqında söhbətlərinin, yazılarının, video fəaliyyətinin artması, bu mövzunun intensiv olaraq gündəmdə tutulmasıdır**. Bu vəziyyətdə münafiqin ağlına gələn ilk fikir, "**Görəsən aralarında birinin münafiq olmasından şübhə duyduqları üçün bu mövzunu bu qədər ön planda tuturlar?**" olar. Bu da münafiqin dəli kimi qorxuya və dəhşətə qapılmasına yol açar. Buna görə də, dərhal sakitləşmə dövrünə girər. Hərəkətlərini ya yavaşladar ya da bir müddətlik tamamilə dayandırar. Müsəlmanların onun haqqında şübhələri olub olmadığından əmin ola bilmək üçün isə, arabir "**yoxlamalar**" edər.

**Ancaq münafiqin bu dayanması, müsəlmanlar üçün heç vaxt nəzərə alınacaq bir mövqe olmaz**. Çünki onlar, münafiqin nə üçün hiyləgərcə fəaliyyətlərindən vaz keçmiş kimi göründüyünü; bunun sadəcə "**müvəqqəti bir vəziyyət olduğunu və fürsət tapdığında daha da şiddətlə hərəkətə keçəcəyini**" bilirlər.

**Münafiqin bu halları, vəhşi heyvanların yaxalandığını sandıqlarında dayanıb gözləmələrinə bənzəyir.** Necə ki, heyvan təhlükəylə qarşılaşdığında dayanıb qarşısındakı ovçunun diqqətinin yayındığı bir anı gözləyir, bu anı tapdığında dərhal yenidən hücuma keçərsə, elə münafiqin fitnəsi də belədir. Münafiq də dayansa belə, bir müddət sonra yenidən hücuma keçmək üçün fürsət axtarar. Şərtlərin dəyişməsini və mühitin sakitləşməsini gözləyər. O da, yaxalandığını ya da ondan şübhələnildiyini anlasa, dərhal etdiyi hərəkətləri dayandırar. Misal üçün **davranışları ilə, danışıqları ilə, üzü ilə müsəlmanlara narahatlıq verirsə, bir müddət üçün dayandırar. Ya da küfrə gizlicə məlumat verirsə, müsəlmanlar əleyhinə tələlər qurursa, bunlara bir müddət üçün ara verər. Həmişə tənbəllik edib, boş işlərlə vaxt keçirirsə, anlaşılmamaq üçün bir neçə iş görüb müsəlmanlara kömək edir kimi özünü göstərər**. Şübhənin üzərindən yayındığına inanana qədər bu cür incə taktikalarını tətbiq etməyə davam edir.

Ancaq əgər, hər hansı bir səbəblə müsəlmanların diqqətinin bu mövzudan yayındığını və başqa bir mövzuda cəmləşdiyini görsə, dərhal qaldığı yerdən eynilə hərəkətlərinə yenidən başlayar. Yenə bütün davranışları ilə müsəlmanları narahat etməyə, danışıqları ilə fitnə çıxarmağa, çirkablıq edərək onları narahat etməyə davam edir.

Münafiq sanki "**vərəm mikrobu**" kimidir. Yaxalandığını anladığında qismən düzəlmə göstərər. Amma diqqət üzərindən yayındığında, yenidən azğınlaşmaya və alçaqlıq etməyə başlayar. Vərəm mikrobunun təsirini dayandırmaq üçün, necə həmişə "**antibiotik**" verilməsi lazımdır; yoxsa mikrob bünyəni zəbt etmək üçün həmişə hücum edərsə, münafiq də bu cür heç vaxt yaxşılaşmayan mikrob kimidir. **Vərəm mikrobunun yüksək dozada antibiotiklə həmişə nəzarət altında tutulması lazım olduğu kimi, münafıqi də həmişə intensiv şəkildə diqqətin üzərində olduğunu göstərilərək gözdağı vermək lazımdır.**

**ADNAN OKTAR**: "Münafiqlər çox böyük təhlükədir. **Münafiq yalnız bəzən geri addım atar. Amma bu keçicidir**. Sonra yenidən alçaqlığın, çirkabın içinə qayıdar yəni münafiqin çox yaxşı izlənilməsi lazımdır. **Münafiq yaxalandığını anlayarsa, müvəqqəti olaraq taktika dəyişə bilər. Müsəlman kimi görünməyə başlaya bilər**. Amma bir fürsətini tapdığında yenə, ayədəki kimi, "**üzüstə geri dönərlər**". Dərhal yenə çirkab içinə girərlər. Quranda münafiqin əxlaqı çox ətraflı təsvir edilmişdir. **Çirkab onun ciyərinə işləmişdir**. O, həmişə o çirkabla yanıb alovlanar. Həmişə küfrlə əlaqə qurmaq istəyər. Müsəlman onun canını sıxar. İslamdan bəhs etmək, Qurandan bəhs etmək onu narahat edər." (A9 TV, 29 yanvar 2016)

**İnsanlardan eləsi də vardır ki, Allaha şübhə ilə ibadət edir. Əgər ona bir xeyir çatsa, onunla rahatlıq tapar. Yox, əgər başına bir iş gəlsə, üz döndərib küfrə qayıdar. O adam dünyanı da itirər, axirəti də. Gerçək zərər də elə budur. (Həcc surəsi, 11)**

## Münafiq hadisələr qarşısında həmişə taktika dəyişdirər; münafiqin həmişə A, B, C planları vardır

Münafiq başını həmişə şeytani yöndə işlətdiyi üçün hadisələr qarşısında əzbərdən hərəkət etməz və tək bir üsul istifadə etmir. Şeytanın ilhamı ilə hərəkət etdiyi üçün, müsəlmanlara çox fərqli istiqamətlərdən yanaşa bilər. Allahın Quranda şeytanı təsvir etdiyi bu ayə münafiqlərdə də təcəlli edir:

**Sonra onların yanına önlərindən və arxalarından, sağlarından və sollarından gələcəyəm və Sən onların əksəriyyətini şükür edən görməyəcəksən". (Əraf surəsi, 17)**

Bununla belə, münafiq sanki buqələmuna bənzəyir. Necə ki, buqələmun olduğu hər mühitə və vəziyyətə görə dərhal rəngini deyişdirə bilirsə, münafiq də içində olduğu şərtlərə və mühitə dərhal uyğunlaşa biləcək ruha sahibdir. Öz mənfəəti üçün nə lazımdırsa onu dərhal edər. Sanki "**professional təlim keçmiş teatr artisti**" kimidir. Ağlaması lazım olduğunu düşündüyündə ağlayar, şən olması maraqları baxımından lazımdırsa, şən olar. Diqqət çəkmək istəsə, bir anda içinə qapalı ruh sərgiliyə bilər. Ruhu enişli-çıxışlı olduğu üçün, ruh dəyişmələrini həyata keçirərkən də, heç bir çətinlik çəkməz. Ruhundakı aktyor, qaranlıq, sevgisiz tərəfləri istədiyi zaman istədiyi ölçüdə ortaya çıxarar, istədiyi zaman da yenə tamamilə özünün müəyyənləşdirdiyi ölçüdə gizlədər.

Allah Quranda hər cür neməti verməsinə baxmayaraq Özünə nankorluq edib, təkəbbürlü münafiqin xarakterini təsvir edərkən bu ayələri bildirməkdədir:

**Ona ölüm olsun! Necə qərara gəldi? Sonra yenə ona ölüm olsun! Gör nə qərara gəldi? (Müddəssir surəsi, 19-20)**

Allahın bu ayələrdə diqqət çəkdiyi kimi, münafiqin hər hərəkətində bir "**ölçü**" vardır. **Şeytani zəkasıyla incə-incə, həmişə planlar qurar**. Təmiz və səmimi düşüncə quruluşu olmadığı üçün, ən gözlənilməz zamanlarda belə yalan, intriqa, gizlilik və oyun axtarır. **Münafiqin tək bir hiyləgər hərəkətinin arxa planında onlarca qaranlıq məntiq gizlidir**. Hamısını detallı şəkildə zehnində meydana gətirər və mərhələ-mərhələ hərəkətə keçirər. **Bu planların müsəlmanlar tərəfindən fərq edilməsi və ifşa edilməsi ehtimalına qarşı da münafiqin A, B və C planları hər zaman zehnində hazırdır. Sahib olduğu bu şeytanı artistlik qabiliyyəti ilə də, boş durmadan yeri gəldiyində, sonrakı əlaqəli planı işə salar.**

Münafiqin bütün planlarının bitdiyi və yaxalandığını anladığı anda qaçış taktikası olaraq tətbiq etdiyi bir başqa üsul daha vardır: "**İdarəsini itirdiyi və nə edəcəyi müəyyən olmayan nəzarətsiz bir xəttə gəldiyi**" təsvirini vermək ...

Bu təsviri verə bilmək üçün, planına əvvəl yalandan səbəblərlə narahatlıq çıxararaq başlayar. Bu mühiti üzü ilə, səsi ilə və dili ilə qızışdırar. **Əsəb pozulmasından və hersdən özünü itirmək görünüşü verər**. Burdakı məqsədi də, tamamilə "**idarəsini itirməyə başlamış və nə edəcəyi müəyyən olmayan**" təəssüratı verməkdir. Beləcə, hər an özünə ya da möminlərə zərər verə biləcəyi istiqamətində müsəlmanlarda "**narahatlıq meydana gətirməyə**" çalışar. Dərhal sonra da, məqsədi müsəlmanların yaxşı niyyəti və sakitləşdirici əxlaqından istifadə edib, normal rəftarına dönməsi qarşılığında, istəklərini "**bazarlıq vəsaiti**" edə bilməkdir. Münafiq bu oyunu ilə, dəhşətli "**şou etmə qabiliyyətinə sahib olduğunu**" da aydın şəkildə göstərmiş olur. Sanki teatr səhnəsindəymişcəsinə mükəmməl

oyun oynayar. Və sonra da, sinirlərinin sakitləşməsi üçün, maddə-maddə bütün istəklərinin yerinə yetirilməsini şərt qoyar.

**Müsəlmanlar isə münafiqin bütün bu oyununu, mərhələ-mərhələ A, B, C və daha sonrakı planlarını da bütün detallarıyla fərq edərlər.** Və münafiqin istədiyi narahatlıq və qarışıqlıq mühitinin meydana gəlməsinə heç vaxt icazə verməzlər. Hər zaman təmkinli və sakitləşdirici üslubla danışıb, hadisələri İslamın xeyrinə uyğun hala gətirəcək şəkildə hərəkət edirlər.

## Münafiq hiss edilmədiyini zənn etdikcə, özünü daha da açıq şəkildə ələ verər

**Müsəlmanlar öz aralarında olub, özlərindən biri kimi davranan və müsəlman olduğunu söyləyən hər insana qarşı hüsnü-zənn və gözəl əxlaq ilə yaxınlaşarlar.** Ayrıca kimdəsə çox sayda münafiq əlaməti gördükdə belə, onu şeytanın təsirindən xilas etməyə, səmimi imana, gözəl əxlaqa yönəltməyə çalışarlar. Buna görə də, münafiq olmasından şübhə etdikləri insana da heç bir zaman üçün "**sən münafıqsən**" ya da "**sən bunları münafiqanə məqsədlə edirsən**" deməzlər. Onun çox açıq görünən ən şeytani hərəkətlərinə belə ağıl və vicdan istifadə edərək Quran əxlaqının tələb etdiyi şəkildə qarşılıq verərlər.

Ancaq əlbəttə ki, bu şəkildə gözəl əxlaq göstərsələr də, xarakterində, rəftarlarında ya da danışıqlarında bir çox münafiq əlaməti gördükləri bir adama qarşı son dərəcə diqqətli olarlar. Şübhə duyduqları və güvənmədikləri belə bir adama qarşı, hər mövzuda mütləq özlərini qoruyacaq tədbirlərini alarlar. Və uzaqdan uzağa bu adamın hiyləgər hərəkətlərini səssizcə izləyərək məqsədini və həqiqi şəxsiyyətini anlamağa çalışarlar.

Münafiq isə, müsəlmanların ona qarşı olan bu diqqətlərdən və analizlərindən xəbərsizdir. Müsəlmanların bu səssizliyini, tamamilə fərqli dəyərləndirər. **Özünü heç hiss elətdirmədiyini və fərq etdirmədən onlar arasında hiyləgərcə bir həyat yaşaya biləcəyini düşünər.** Anlaşılmadığını düşündüyü üçün də, heç bir tədbir almadan üzərindəki münafiq əlamətlərini daha da artıracaq tədbirlər edər və müsəlmanların, onun haqqındakı qənaətlərini daha da gücləndirər.

**Münafiqin vəziyyəti, dəniz kənarında kiçik bir dəniz canlısının, bir dəniz qabığının altına gizlənib irəliləməyə çalışması kimidir.** Çöldən baxan, bir qabığın getdiyini görüncə, "**altında ayaqları olan bir canlı olduğunu**" dərhal anlar. **Münafiqin vəziyyəti də eyni belədir. Özünə bir qabıq hazırlayar onunla birlikdə gedər. Amma axmaq olduğu üçün, fərq edildiyini bilməz.** Lakin axmaq, altdan-altdan müsəlmanlara oyun oynadığını zənn edər. Halbuki, etdiyi hiyləgər oyunların, qurduğu alçaqca tələlərin, əleyhinə apardığı fəaliyyətlərinin "**anlaşılmadığını sanması**" münafiqin "**özünü gedərək daha da açıq bir şəkildə ələ verməsinə səbəb olar**".

Quranda, "**... Halbuki Allah, sizin gizlətdiklərinizi aşkara çıxarar.**" (Bəqərə surəsi, 72) sözləriylə, insanların gizlində sandıqları hər şeyin, tək-tək mütləq ortaya çıxacağı xəbər verilmişdir. Bir başqa ayədə isə Allah, "**... Şübhəsiz ki, Allah qaçmaqda olduqlarınızı üzə çıxaracaqdır.**" (Tövbə Surəsi, 64) şəklində buyurmuşdur.

Elə özlərini gizlində sanaraq şeytani hərəkətlərini, hiyləgər oyunlarını daha da artıran münafiqlər, bu həqiqətdən qafil haldadır. Allah, axirətdə onların "**heç gözləmədiyi şeylərin də ortaya çıxacağını**" və bunların "**pis bir əzaba çevriləcəyini**" bildirmişdir:

**Yer üzündə olanların hamısı və, üstəlik bir o qədər də əlavə, zalımlara məxsus olsaydı, onlar mütləq hamısını Qiyamət gününün dəhşətli əzabından qurtarmaq üçün fidyə verərdilər. Lakin Allahdan onlara güman etmədikləri bir əzab düçar olacaqdır. (Zumər surəsi, 47)**

## Münafiqin ən iztirab çəkdiyi məsələlərdən biri, münafiq əlamətlərinin anladılmasını dinləməkdir

Münafiqin canını ən çox acıdan, ruhunu ən çox yandırıb qovuran mövzulardan biri, "**münafiqliyin sirlərini izah edən Quran ayələrini eşitmək, münafiq xarakterinin aşkar edilməsini dinləmək məcburiyyətində qalmaq**"dır. Çünki bu onun bütün oyununu pozacaq, onun gizliliyini ortadan qaldıracaq və hiyləgərcə hərəkət edə bilməsinə tamamilə maneə törədəcəkdir.

**Çünki münafiq, münafiqliyini ancaq "hiyləgərliyi" və "gizliliyi" sayəsində istədiyi kimi yaşaya bilər**. Bu imkanlar əlindən alındığında, əli-qolu bağlanmış hala gələr. Bütün hiyləgər üsullarının aydın şəkildə ifşa olduğu, ətrafındakı **hər kəsin "münafiqin şeytani sənətini" bildiyi bir mühitdə, münafiq asanlıqla hərəkət edə bilməyəcək**. Çünki hər oynamağa çalışdığı oyun, ətrafındakı müsəlmanlar tərəfindən aydın olacaq; baxanlar onun hər etdiyinin "**münafiq rəftarları**" olduğunu dərhal fərq edəcəklər. Elə bu zaman da, münafiq özünə həyat sahəsi tapa bilməyəcək və hərəkətlərini dayandırmaq məcburiyyətində qalacaqdır.

Elə bütün bu həqiqətləri dərk edən **münafiq, müsəlmanların, münafiqliyin səhvlərini izah etdikləri heç bir fəaliyyəti etmələrini istəməz. Nə Qurandakı münafiq ayələrini izah etmələrini, nə münafiq xarakterlə bağlı imanı söhbətlər etmələrini, nə bu mövzularda yazılar yazılmasını, nə də ictimai mediada, televiziya kanallarında, jurnallarda, kitablarda bu yöndə məlumatların paylaşılmasını istəyər. Əlindən gəldiyi bütün bu işləri dayandırıb maneə törətməyə çalışar.** Bəzən bu yöndə iş görəcək şəxsləri lüzumsuz sözlərlə məşğul edib vaxtlarını alaraq; bəzən yuxusuz qoyaraq; bəzən onları boş işlərlə yorub əldən düşmüş hala gətirərək; bəzən də işləyəcəkləri ortamlarda səs-küy

edib, məsələn radionun ya da televizorun səsini artıraraq, yüksək səslə danışaraq diqqətlərini dağıtmağa və işlərinə maneə törətməyə səy göstərərlər.

**Münafiqin göstərdiyi bu qədər səyə və oynadığı o qədər oyuna baxmayaraq, bütün bunlara maneə ola bilməməsi onu çox əsəbləşdirər.** Münafiqliyin çözülməsinin çox mükəmməl bir şəkildə edilərək, bu məlumatları, tez zamanda hər kəsin öyrənməsinin təmin edilməsi, münafiqin böyük bir çaxnaşmaya qapılmasına səbəb olar. Bütün bunların ona gətirə biləcəyi zərərləri düşündükcə münafiq dəhşətə düşər.

Ancaq, bir də münafiq əlamətlərini izah edən Quran ayələrini və bu istiqamətdəki şərhləri şəxsən onun dinləmək məcburiyyətində qalması, münafiqin daha çox dəli olub azğınlaşmasına və qorxuya qapılmasına səbəb olar.

Allah Nuh Surəsində, Hz. Nuh (ə.s)-ın ətrafındakı münafiqləri və kafirləri, hər dəfə Qurana dəvət ediləndə; onları münafiqlikdən və küfrdən xilas olmağa hər çağırışında, bu insanların izah edilənləri heç bir şəkildə "**dinləmək istəmədiklərini**" xəbər vermişdir. Elə Peyğəmbərlər kimi, digər müsəlmanlar da, münafiqlərə Quran əxlaqını təbliğ etdiklərində, onlara səmimiyyətsizliklərini izah etdiklərində, münafiqlər eyni ayədə bildirildiyi kimi, izah edilənləri eşitməmək üçün qaçacaq yer axtararlar.

**Əgər bu danışıqlar bir söhbət mühitində edilirsə, ya tez bir zamanda yeni bir mövzu açıb, münafiqliklə əlaqəli mövzunun bağlanmasına çalışar ya da dərhal bir bəhanə taparaq oradan uzaqlaşırlar. Əgər müsəlmanların bu söhbətini yan tərəfdəki bir otaqdan eşitmək məcburiyyətində qalırsa, tez bir zamanda qapılarını bağlayıb, bu danışığın səsini eşitməyəcək şəkildə yüksək səslə musiqi ya da televiziya proqramı açarlar. Əgər münafiqlik ilə əlaqəli ayə və şərhləri, bir televiziya kanalından, radiodan ya da internet üzərindən bir saytdan dinləmək vəziyyəti yaranarsa, bu səfər də dərhal ya televizoru bağlayar ya yayımın səsini azaldar ya da dərhal kanal dəyişdirərlər. Ya da səs-küy edərək, danışaraq bu deyilənlərin həm eşidilməsinə maneə törətməyə çalışar, həm də özləri eşitməmiş olarlar.** Allah bir ayədə münafiqlərin bu rəftarını belə xəbər vermişdir:

**Ayələrimiz onlara oxunduğu zaman sanki onları eşitmirmiş, qulaqlarında tıxac varmış kimi təkəbbürlə üz çevirər. Sən belələrini ağrılı-acılı bir əzabla müjdələ. (Loğman surəsi, 7)**

Ayədə Allah, münafiqin "**özünü müstağni görərək**" və "**təkəbbür göstərərək**" izah edilənləri dinləmədiyini söyləmişdir. Münafiq izah edilənləri bilərək və qəsdən dinləməz. Öz ağlına görə bu şəkildə müsəlmanlara qarşı "**fəaliyyət**" etməkdə və "**nə etsəniz edin, nə izah etsəniz izah edin, mən sizi dinləmirəm və anlatdıqlarınızdan da təsirlənmirəm**" mesajı verməyə çalışar. Bu hərəkətiylə münafiq, "**münafiqlikdən xilas olmaq istəmədiyini**"

və "**səmimi olmağa niyyəti olmadığını**", "**hiyləgər həyatını davam etdirməkdə nə qədər qərarlı olduğunu**" aydın şəkildə birlikdə olduğu müsəlmanlara göstərməyə çalışmaqdadır.

Burada diqqəti cəlb edən isə münafiqin axmaqlığıdır. **Münafiq, münafiq xarakterinə dair məlumatları yalnız özünün duymamasının hər şeyi həll edib çözümə qovuşduracağını düşünür.** Halbuki, o duymasa da, bütün müsəlmanlar, münafiqin çirkli dünyası haqqındakı hər detalı öyrənməkdə və münafiqi gördükləri yerdə birbaşa tanıyacaqları bir anlayış qazanmaqdadırlar. **Bir tək o dinləmir, amma televiziya, radio, internet kimi kanallardan, bütün jurnallardan, kitablardan və məqalələrdən, bütün dünya münafiq xarakterini öyrənir.** Ancaq münafiq, axmaqlığı dolayısilə bütün dünyanın bilməsini əhəmiyyətli görməz, yalnız özünün dinləməməsi, onun hiyləgər sistemini qorumağa bəs edəcəyini düşünər.

Allah bir Quran ayəsində münafiqin bu "**ağılsız üsullarını**" və "**bununla nəticə alıb müvəffəqiyyətli ola bilməyi ümid etdiklərini**" belə bildirmişdir:

**Kafirlər: "Bu Qurana qulaq asmayın, oxunarkən hay-küy salın. Bəlkə, qalib gələsiniz" - dedilər. Biz kafirlərə mütləq şiddətli bir əzab daddıracaq və onları etdikləri əməllərin ən pisi ilə cəzalandıracağıq. (Fussilət surəsi,26-27)**

"**Bu Quranı dinləməyin**" "**Və onda oxunarkən qışqır-bağır qoparın**" sözləri, şeytanın bütün inkarçılara və münafiqlərə, imana yaxınlaşmamaları üçün pıçıldadığı, şeytani bir "**müqavimət göstərmə üsulu**"dur. Elə münafiq də, şeytandan öyrəndiyi bu metoddan tam olaraq tətbiq etməkdə və münafiqlik əleyhinə tək bir söz duymayacaq şəkildə, özünə edilən təbliğlərdən qaçmaqdadır. Allah münafiqin bu ruh halını bir ayədə, "**O kəslər ki, Məni zikr etmə (mövzusun)da gözləri bir pərdə içində idi. (Quranı) dinləməyə tab gətirəməzlərdi.**" (Kəhf surəsi, 101) sözləriylə açıqlamışdır.

Münafiqlər, öz şeytani dünyalarını ifşa edən, münafiqlik haqqındakı ayə və danışıqları dinləmək istəmədiklərini və bu mövzudakı qətiyyətlərini çox açıq bir şəkildə ortaya qoyarlar. **Ancaq bu mövzuda bilinməsi gərəkən əhəmiyyətli bir başqa məlumat daha vardır: Münafiqlər böyük bir dəqiqliklə dinləməkdən qaçdıqları bu Quran ayələrini və açıqlamalarını, dinləsə də anlamazlar.**

Allahın Quranda, **"... De ki: "O, iman edənlər üçün bir hidayət və şəfadır. İman gətirməyənlərin isə qulaqlarında tıxac vardır və o (Quran), onlara qarşı bir korluqdur. Budur onlara (sanki) uzaq bir yerdən səslənilər.**" (Fussilət surəsi, 44) sözləriylə bildirdiyi kimi, münafiqlərin Quran ayələrinə qarşı qulaqlarında tıxac vardır. İzah edilənləri duysalar da, anlaya bilməz, qavraya bilməz və eşitdiklərindən səmimi bir şəkildə təsirlənməzlər. Allah, onların bu vəziyyətini "**Quran onlara qarşı bir korluqdur**" sözləriylə ifadə etmişdir. "**Sanki onlara uzaq bir yerdən səslənilər**" cümləsiylə ifadə edildiyi kimi,

dinlədikləri münafıqə çox uzaqdan gələn bir səs kimidir, ürəyinə çatıb içində bir təsir meydana gətirməz.

Necə ki, dövrün inkarçıları da Hz. Şueyb (ə.s)-a bu vəziyyətlərini, bu sözlərlə açıqlamışlar: "**Ey Şueyb" dedilər. "Dediklərinin çoxunu biz "qavrayıb anlamırıq."** (Hud surəsi, 91) Şueyb Peyğəmbər (ə.s) onlara illər boyu təbliğ etdiyi halda, bunları dinləmək istəmədikləri və üstlərinə alınmadıqları üçün, "**Biz onları qavrayıb anlamırıq**" deyərək üz döndərdilər.

Quranda bu mövzu haqqında verilən bütün bu məlumatlar, Quran ayələrinin oxunmasının, münafiq əlamətlərinin izah edilməsindən, yalnız müsəlmanlara fayda gətirdiyini, münafiq olmaqda qərarlı olan bir kimsənin isə, bunlardan heç bir şəkildə təsirlənmədiyini ortaya qoymaqdadır. Müsəlman izah edilənləri dinləyərək, əxlaqındakı bütün əskiklikləri aradan qaldırıb düzəltmə imkanı taparkən; münafiq isə dəyişməyə, düzəlməyə və münafiqlikdən imtina etməyə heç niyyəti olmadığı üçün başdan bu məlumatları dinləməkdən qaçar. Allah bir Quran ayəsində, "**Onların ürəkləri parça-parça olana qədər tikdiyi bina qəlblərində şübhə olaraq qalacaqdır**..." (Tövbə surəsi, 110) sözləriylə münafiqlərin ürəkləri parçalanmadıqca imtina etməyəcəklərini və imana qarşı müqavimət göstərməyə davam edəcəklərini xəbər vermişdir.

**ADNAN OKTAR**: "**Münafiqin, münafiq əlamətlərinin izah edilməsi yandırar, üstünə benzin töküb yandırmış kimi, şeytanı və münafiqi məhv edər münafiq əlamətləri. Onun izah edildiyini eşitdikcə dəli olar, dinləmək istəməz; əllərini qulaqlarına bağlayar, dəli olar sanki**. Münafiqin çox canını yandırar münafiq əlamətləri. **Allah, ona əzab verdiyi üçün də, Quran ayələrinə qoymuşdur münafiq əlamətlərini. Həm möminləri qurtarmaq, həm də onlara əzab olması üçün**. Çünki əzab olduğunu özləri söyləyirlər; münafiqlər onsuz da acı çəkdiklərini, ifadə edirlər, eşitmək istəmirlər Quranda da var, əlləriylə qulaqlarını bağlayırlar, acı hiss edərlər münafiq əlamətlərini eşitməkdən, iztirab duyarlar." (A9 TV, 18 may 2016)

**Sən onları bağışlayasan deyə mən hər dəfə onları imana dəvət etdikdə, onlar barmaqlarını qulaqlarına tıxayır, paltarlarına bürünür, küfrlərində israr edir və ötkəm-ötkəm təkəbbürlənirdilər. (Nuh surəsi, 7)**

**ADNAN OKTAR: "Münafiq ayələri, küfr ayələri həmişə möminlərə yönəlmişdir. Çünki bu ayələrdən küfr və münafiqlər təsirlənməz. Yalnız mömin təsirlənər. Möminin qəlbinə dərin təsir edər. Onun üçün biz bunları möminlərə izah edirik.** İnananlara izah edirik. Münafiq və kafir bu ayələrin açıqlamalarını dinlədiyi zaman daxilən kinlənir, hirslənər. Nifrəti artar. Allah **"Onların qəzəbini, nifrətini artırmaqdan başqa faydası olmaz" deyir. "Yeni surə endiyində bu hansınızın imanını artırdı?"** deyir.

**Möminin imanını artırır, münafiqin kinini və hirsini daha da artırar. Mömin özünü düzəldər, kafir daha da betər hala gəlir. Münafiq daha betər hala gəlir. Münafiq daha hiyləgər, daha azğın olar. Ürəyi daha da qaralar. Möminin ürəyi isə aydınlanar, fərahlar.”** (A9 TV, 26 may 2016)

## Münafiq ağıllanmaz; ən çətin şərtlərdə belə münafiqliyindən imtina etməz və hər dəfə yaxalandıqda başqa bir yeni hərəkət yolu tapar

Münafiqlər hər fürsətdə hər sahədə inkar edənlərlə əlaqə qurmaq istəyərlər. Bunun üçün gizli fəaliyyətlər edərlər. Ancaq Allah səmimi iman edən qullarına “**doğrunu səhvdən ayıran üstün ağıl və anlayış**” vermişdir. Elə bu yüksək ağıl və anlayış münafiqdə yoxdur. Buna görə iman gətirənlər münafiqin oyunlarını asanlıqla hiss edər və bu oyunları pozacaq davranış göstərərlər. Münafiqin səmimiyyətsizliyini hər detalı ilə və bütün aydınlığı ilə ifşa edər və beləcə onu bu istiqamətdə təkrar addım ata bilməyəcək hala gətirərlər. Məsələn münafiqin arxasını söykədiyi, mənfəət duyduğu küfrə söykənən sistem varsa, müsəlmanlar bunu fərq edib bu küfri sistemi dünya səviyyəsində ifşa edib çökdürər. Bu vəziyyətdə münafiq tək qalar. Ətrafındakı bütün tərəfdarları onu tərk edər. Elə bu nöqtədə münafiqin başqa əhəmiyyətli xüsusiyyəti ortaya çıxar. Münafiq, ən çətin şərtlərdə belə münafiqliyindən əl çəkməz. Əlindəki imkanları itirdiyi təqdirdə, yeni səmimiyyətsiz hərəkətə keçmək üçün mütləq başqa imkan tapmağa çalışar. Allah Quranda münafiqlərin “**ürəkləri parçalanmadığı müddətcə münafiqliyə davam edəcəklərini**” belə bildirmişdir:

**Onların ürəkləri parça-parça olana qədər tikdiyi bina qəlblərində bir şübhə olaraq qalacaqdır... (Tövbə surəsi, 110)**

Ayədə izah edildiyi kimi, **münafiq heç vaxt dərs alıb ağıllanmaz.** Həmişə əxlaqsızlıq edər və oyun oynayar. **Hər yaxalandığında başqa yeni hərəkət şəklinə bürünür**. Bir əxlaqsızlıqdan çıxarıb qurtardığınızda, başqa alçaqlığa və yeni böyük pislik axtarışına yönəlir. Hər ifşa olduğunda yeni əxlaqsızlığın, yeni hiyləgər ölçünün, yeni hərəkət şəklinin içinə girər.

## Münafiq, özündə yaranan “münafiqlik əlamətlərini” gizlətməyi bacara bilməz

Allahın münafiqlik mövzusunda möcüzə və müsəlmanlar üçün rəhmət olaraq yaratdığı vəziyyət də, “**münafiqin hər nə edirsə etsin, üzərində münafiq əlamətləri meydana gəlməsini əngəlləyə bilməməsi**”dir. Münafiq çox şeytani zəkaya malikdir. Və müsəlmanların münafiqləri göstərdikləri münafiq rəftarlar ilə tanıyıb diaqnoz etdiklərini də çox yaxşı bilir. Normalda, şeytanın da köməyi ilə, bu zəkasını istifadə edərək, münafiq olduğunu ələ verəcək olan bu dəlilləri yaratmamağı ya da aradan qaldıra bilməyi bacara bilməsi lazımdır. Amma Allah münafiqin belə oyun oynamasına icazə verməmişdir. Allah, münafiqi, üzərindəki münafiq əlamətlərini gizlədə bilməyəcək şəkildə yaratmışdır.

Allah ayədə müsəlmanların münafiqləri, “**danışıqlarındakı və üzlərindəki əlamətləri ilə tanıyıb diaqnoz edə biləcəklərini**” belə xəbər vermişdir:

**Əgər Biz istəsəydik, onları sənə göstərərdik, sən də onları üzlərindəki əlamətlərdən tanıyardın. Sən onları danışıq tərzlərindən mütləq tanıyacaqsan. Allah sizin əməllərinizi bilir. (Məhəmməd surəsi, 30)**

**ADNAN OKTAR**: **“Münafiq, müsəlmanların yanına soxulmuş, insan şəklində bir şeytandır. Əlamətlərindən aydın olar. Və münafiq bu əlamətlərdən xilas ola bilmir. Məsələn normalda bir insan bu əlamətlər olduqda, “münafiq” olacağını bilir. Bilir və imtina edər amma münafiq imtina etmir.** Yenə yalan söyləyər, yenə oyunlarını edər, yenə ağlayaraq danışar, yenə çirkablıq edər, yenə gizli əlaqələr qurar, yenə müsəlmanların əleyhinə davranar, yenə hər sözü yalan olar, yenə tamahkar olar, hər cür əxlaqsızlığı yenə edər. Münafiqin xüsusiyyətidir bu. Onun üçün ayədə “ürəkləri parçalanmadıqca imtina etməzlər” deyir Allah. Ürəkləri parçalanmasa əbədi olaraq imtina etməzlər deyir. Çox azğın məxluqdurlar.” (A9 TV, 23 yanvar 2016)

**ADNAN OKTAR**: **“Adətən müsəlmanlar münafıqə, “münafiqin bu xüsusiyyətləri səndə var” demədən, onun bunları görüb bundan imtina etməsi lazımdır, elə deyil? Çünki o zaman açıq-aşkar münafiq olmuş olar. Qaşı belə, gözü belə deyə təsvir edirsən münafiqi, amma o insan imtina edə bilmir. O zaman metafizik budur elə, o zaman demək ki münafiqdir. Çünki onun mənfəətinə uyğun olan, o dəlilləri göstərməməyidir. Münafiq əlamətini göstərməməyi lazımdır. Çünki o zaman yaxalanacaq və yaxalanmaması üçün göstərməməyi lazımdır. Amma xilas ola bilməz, mütləq göstərər.** Baxın, edəcək olduğu üçün də deyirəm, görsəniz bilin ki, münafiqdir. İnternetdəki paylaşımlarına baxın, oradan da anlayarsınız. Yazılarına baxın, oradan da anlasınız. Söhbət etdiyinizdə, oradan da

anlayarsınız. Hər şeylə anlayarsınız. Anlaşılır Allahın diləməsiylə. Dəqiq olmamaqla birlikdə, qəlbən geniş miqyasda aydın olar.” (A9 TV, 23 yanvar 2016)

# MÜNAFİQİN MÜSƏLMANLARDAN AYRILMA PLANLARI

## Münafiq həmişə qaçıb getmək meylində olar, lakin müsəlmanlardan əldə etdiyi mənfəətlərdən imtina edə bilməz

Münafiq qəribə bir varlıqdır. Küfrə dərin heyranlıq və onların yaşadığı həyata qarşı böyük həsrət duyar. Müsəlmanlara qarşı isə böyük hirs, kin və nifrət ilə doludur. Ancaq maraqlıdır ki, **istədiyi an müsəlmanları buraxıb küfrdəki dostlarının yanına getmə azadlığı olduğu halda, inadla müsəlmanların arasında yaşamağı seçər.**

Kitabın əvvəlindən etibarən izah edildiyi kimi, bunun əlbəttə ki, bir çox səbəbi vardır. Ancaq bunlar arasında ən əhəmiyyətlilərindən biri, “**münafiqin müsəlmanlar arasında yaşayaraq əldə etdiyi mənfəətləri buraxmaq istəməməsi**”dir. Müsəlmanlar nə qədər zənginləşər, nə qədər güclənər və nə qədər müvəffəqiyyətli hala gəlsə, münafiqin əldə edə biləcəyi mənfəətlərin miqyası da o nisbətdə artar. Bu da, içdən böyük arzu ilə qaçaraq küfrün yanına getmək istəyən münafiqin “**dayanmasına və gedişini ertələməsinə**” səbəb olar.

Hər dəfə getmək istəyəndə, müsəlmanların sahib olduqları maddi-mənəvi nemətlərlə, küfrdə həsrət duyduğu həyat arasında seçim etmək məcburiyyətində qalar. “**Müsəlmanlarla qalıb bir az daha onların mənfəətlərindən yararlansa mı, yoxsa dostlarının ona açacağı qapılardan və təqdim edəcəkləri imkanlardan istifadə etmək üçün dərhal küfrün yanına mı getsə?**”, “**Ya küfrdəki dostları onu yarı yolda buraxarsa?**”, “**Ya verdikləri sözləri tutmazlarsa?**”, “**Ya işsiz qalsa**”, “**Ya ona əvvəlki kimi etibar etməsələr?**”, “**Ya orada qarşılaşacaqları şərtlər müsəlmanların yanındakılar kimi yaxşı deyilsə?**”, “**Ya indi əldə etdiyi nemətlərdən məhrum qalsalar?**” Elə bunun kimi daha yüzlərlə sual, demək olar hər gün münafiqin başını məşğul edər. Hər gün dəfələrlə bunların hesabını edər. Və küfrdəki dostlarından bunların hər birinə dair zəmanət verən sözlər almağa çalışır.

Elə bütün bunlar, münafiqin gedib getməmə mövzusundakı tərəddüdünün tək səbəbinin “**zamanlama məsələsi**” olduğunu ortaya qoymaqdadır. **Həmişə “küfrdəki imkanlarını sorğulayaraq və yoxlayaraq”, ayrılacağı ən yaxşı zamanı müəyyən etməyə çalışar.** Münafiq, hər an bu addımı atma hazırlığı içərisində yaşayar. Buna görə də, demək olar hər gün, küfrlə olan əlaqəsini ən isti şəkildə mühafizə etməyə çalışar. Yoxsa münafiq bir an əvvəl müsəlmanlara edə biləcəyi ən böyük alçaqlığı etmək və sonra da dərhal küfrün yanına getmək istəyər. Amma **bu çıxar hesabları, bir növ qərar verə bilməməsinə səbəb olar.**

Allah münafiqin “**bütün bu hesablarını əldə edə biləcəyi mənfəətlərə görə etdiyini**” bir Quran ayəsində belə xəbər vermişdir:

**Əgər səfəriniz gəlir gətirən və yüngül bir yürüş olsaydı, onlar mütləq sənin ardınca gedərdilər. Lakin əziyyətli yol onlara çətin gəldi. Onlar: “Əgər taqətimiz olsaydı, biz də sizinlə bərabər çıxardıq!” - deyə Allaha and içəcəklər. Onlar özlərini həlak edirlər. Çünki Allah onların yalançı olduqlarını bilir. (Tövbə surəsi, 42)**

**Müsəlmanlardan əldə edə biləcəyi mənfəətlər nə qədər çox və bunları yiyələnmək nə qədər asan isə, münafiq ona görə bir seçim edər. Yaxın bir fayda olarsa, küfrə gedişini təxirə salar.** Amma bu mənfəətləri məhdudlaşarsa ya da tamamilə əngəllənəcək olarsa, o zaman küfrdəki imkanlar ona daha cazibədar gələcək və münafiq ayrılma planını tətbiq etməyə başlayacaqdır.

## Münafiq, müsəlmanlara zərər verməyə davam edə bilmək üçün ayrılma vaxtını təxirə salar

Münafiq çox qorxaq və alçaq xarakterə malikdir. Bir tərəfdən müsəlmanların arasında, onlara qarşı hiyləgər oyunlar oynayarkən, bir tərəfdən də həmişə fərq edilmə və yaxalanma qorxusu içərisində yaşayar. **Qurduğu tələlərin, etdiyi saxtakarlıqların, küfrlə olan əməkdaşlığın ortaya çıxması halında, müsəlmanların onu öz aralarından uzaqlaşdırmasından dəhşətli dərəcədə qorxar. Çünki münafiq müsəlmanların yanından ayrılmadan əvvəl, küfrdə quracağı həyatına dair bütün sistemlərini möhkəmləndirmək istəyər. Bu mövzuda hazırlıqsız olduğu bir anda ifşa olub ortada qalmaq onun üçün sanki ölüm kimidir.**

Ancaq münafiq, bu cür “**dəhşətli qorxu**” duymasına baxmayaraq, müsəlmanlara zərər vermə hirsindən ötrü, qorxa-qorxa da olsa, onlarla birlikdə yaşamağa davam edər və hiyləgər fəaliyyətlərini davam etdirər. Ayrıldığında, müsəlmanların olmadığı yerdə, “**əxlaqsızlıq etmə gücünü itirəcəyini**” və orada ikən olduğu qədər “**effektiv tədbirlər edə bilməyəcəyini**” düşünər. **Əlbəttə ki, münafiq, inkar edənlərin yanına getdiyində də, müsəlmanlara olan düşmənçiliyini davam etdirəcək; şeytani hərəkətlərinə davam edərək müsəlmanlara zərər verməyə çalışacaq.** Amma münafiq bütün bunları, onların arasında olanda **hiyləgərcə və gizli yollarla etməkdən daha çox şeytani zövq alar**. İçlərində olub onları aldada bilmək, münafiqin daha çox xoşuna gələr. Ayrıca müsəlmanlar arasında olanda, əlində “**daha çox müxtəlif şəkillərdə əxlaqsızlıq, şəxsiyyətsizlik və alçaqlıq edə bilmə imkanı**” olar. **Səsi ilə, üzü ilə, baxışları ilə, mimikaları ilə, davakarlığı ilə münafiqin hərəkət edə biləcəyi çoxlu mövzu vardır. Müsəlmanlardan uzaqda olanda bütün bunları edə bilmə dozası düşəcəkdir.**

Digər tərəfdən də, münafiq daxilən, ardıcıl olaraq “**tez bir zamanda küfrün yanına gedib, ona Allahı, İslamı xatırladan hər şeydən mümkün qədər uzaqlaşmağı**” da istəyər.

Ancaq o zaman şeytan ilə baş-başa qala biləcəyi üçün, istədiyi şeytani xoşbəxtliyi də o zaman tapa biləcəyinə inanar.

Müsəlmanlarla birlikdə keçirdiyi hər an, onların sevincinə, hüzuruna, bir-birlərinə olan qopmaz bağlarına, ehtiraslı sevgilərinə şahid olar. Qısqanclıqdan qovurular və bu vəziyyət həmişə onun canını yandırar. Elə bütün bu səbəblərdən də, tezliklə aralarından qaçıb getmə hissi ilə yanıb alovlanar.

Başqa sözlə münafiq, müsəlmanların yanında olduğu müddət ərzində, həmişə bunların hesabını edərək, "**mənfəət-zərər hesablarını hərtərəfli qiymətləndirərək**" yaşayar. **Müsəlmanlara, içəridən verə biləcəyi ən çox zərəri verə bildiyinə inandığında, küfrdəki yeri də istədiyi şəkildə sağlamlaşdırıbsa, münafiq o zaman iman edənlərin yanından ayrılma planını hərəkətə keçirməyə başlayar**. Bunun üçün həm "**inkar edənlərdən əldə edəcəyi maraqlarının, hal-hazırda müsəlmanların yanında olduğundan daha çox olacaq şəkildə qarantiyaya almış olması**"; həm də "**müsəlmanlara daxilən kifayət qədər zərər verməyi bacara bilmiş olması**" lazım olduğunu düşünər. Bütün bu şərtlər bir yerdə olacaq şəkildə qurulmadığı müddətdə münafiq ayrılmayacaq, bu imkanları əldə edənə qədər hiyləgər oyunlarına davam edəcək.

Bütün bu hesablamaları edib hiyləgər planlarını qurarkən münafiqin qafil olduğu əhəmiyyətli bir məsələ vardır. **Münafiqin müsəlmanlar arasında qalması da, onlardan ayrılıb getməsi də, hər halda müsəlmanlar üçün xeyirdir.** Müsəlmanlarla qalması da Allahın onlara olan rəhmətidir, getməsi də. Müsəlmanların, belə şeytani bir varlığın hiyləgər fəaliyyətlərinə baxmayaraq haqq dini hakim etmək üçün səy göstərməsi onların Allah qatında alacaqları mükafatları daha da artırar. Münafiqin ayrılması da, müsəlman camaatına dəhşətli bir təmizlənmə, aydınlanma və bərəkət yaradar. Başqa sözlə münafiq hər nə edirsə etsin, bütün pis səyləri müsəlmanların lehinə dönməkdə, verdiyi hər şeytani əmək müsəlmanlar üçün xeyirlə nəticələnməkdədir.

**SUAL: "Münafiq madam çətinlik və sürünmə içindədirsə niyə müsəlmanlardan ayrı gedib yaşamır?"**

**ADNAN OKTAR: "Münafiq, müsəlmanların içində daha yaxşı murdarlıq edəcəyini, daha çox alçaqlıq edəcəyini düşündüyü üçün ayrıla bilmir. Orada daha çox təxribat edəcəyini düşünür. Gedərsə, həm müsəlmanlardakı nemətlərdən məhrum olacağını düşünür, həm də kifayət qədər təxribat edə bilməyəcəyini düşünər yəni onu hesablayır. Amma kənara getdiyində daha çox təxribat edəcəyini ümid edirsə, münafiq o zaman ayrılar.** Onsuz da Allah ayədə, "**Əvvəlcə özlərinə bir mağara və sığınacaq yer axtararlar**." deyir. Əvvəl onu təmin etməyə çalışır. Əgər o sığınacağı yeri təmin etsə, ondan sonra müsəlmanların xəbərlərini kənardan izləməyə başlayır. Kənarda onların əleyhinə fəaliyyətə başlayır. Amma içəridə, həm müsəlmanların malını mülkünü yediyini, həm də müsəlmanları daha yaxşı vurduğunu düşünər. Ona görə Quranda geniş izah edilmişdir münafiqlər, əhatəli izah edilmişdir." (A9 TV, 23 yanvar, 2016)

**Onlar sizinlə həmrəy olduqlarına and içirlər. Halbuki onlar sizdən deyildirlər. Əslində, onlar qorxaq adamlardır. Əgər onlar bir sığınacaq və ya daldalanmaq üçün mağaralar yaxud gizlənməyə bir deşik tapsaydılar, ləngimədən ora yönələrdilər. (Tövbə surəsi, 57)**

## Münafiq həmişə ayrıldıqdan sonra yaşayacağı çirkli həyatın planlarını qurar

Münafiqlər ikiüzlülüyü və şeytançılığı həyat tərzi halına gətirmiş insanlardır. Müsəlmanların yanında, gizlicə onların əleyhinə fəaliyyətlər edərək, heç bir şey yox imiş kimi həyasız bir şəkildə onlarla həyatlarını davam etdirərlər. Müsəlmanların üzlərinə gülüb onların özlərinə təmin etdiyi imkanlardan, gözəl və fədakar əxlaqlarından, etibarlı mühitlərindən, tolerantlıqlarından, mərhəmətlərindən fasiləsiz olaraq istifadə edərkən, əslində daxilən onlara ola biləcək ən çox zərər verə bilmək planlarını qururlar.

Küfrlə olan müştərək işlərini, ardıcıl olaraq bu məqsədlərinə çata bilmək üçün məlumat mübadiləsi edər, məsləhətləşmələr aparar, tələlər qurar və planlar hazırlayarlar. Bütün bunlar eyni zamanda da, "**münafiqin küfrdə başlayacağı həyatının hazırlıqları**"dır. Münafiqin, nifrət dolu olduğu müsəlmanlardan istədiyi intiqamı alıb, onlara maksimum zərər verə bilməyi bacardıqdan sonrakı tək hədəfi, "**küfrdə özünə bir həyat qura bilmək**"dir. Xəyalini qurduğu "**bu həyatının xüsusiyyəti isə, Allahdan, Qurandan, müsəlmanlardan uzaq olacaq olması**"dır. Münafiq küfrdəki dostlarıyla, dinsizliyin müdafiəçiləri ilə, dindən uzaq bir həyat xəyalı qurmaqdadır.

Müsəlmanlarla yaşadığı hər gün, münafiqin ağılında həmişə bu planları vardır. Bunları düşünmədən keçirdiyi bir gün, bir gecə olsa, içi rahat etməz. Planlarını nə qədər inkişaf etdirər və nə qədər həqiqətə yaxınlaşdıra bilərsə, həyat onun üçün o qədər daha mənalı hala gələr. Münafiq dili ilə müsəlmanlardan yana, amma qəlbi ilə və xəyalları həmişə küfrdən yanadır. Buna görə də həmişə küfrdəki həyatına hazırlıq görər.

Münafiq həmişə, bir gün küfrə getdiyində, orada necə yaşayacağını düşünər. **İslamın insan nəfsini gözəlləşdirən intizamı onun xoşuna gəlməz. Hər gün namaz qılmaq, oruc tutmaq, zəkat vermək, həccə getmək də münafiqi sıxar** (Qurandakı bütün ibadətləri tənzih edirik). O, bir gün bütün bunlardan xilas olacağı vaxtın həsrəti içindədir. **Ayrıca münafiq təmiz olmaq deyil, pis yaşamaq istəyər**. Müsəlmanlar kimi təmiz və diqqətli olmaq; məsələn hər gün çimmək ona çətin gələr. O, azadlıq sandığı şeytani həyatında, **murdarlıq və alçaqlıq içində yaşamaq istəyər. İstədiyi kimi narkotik istifadə etmək, fahişəlik etmək, oğurluq və ya əxlaqsızlıq etmək; pis mühitlərdə, pis insanlarla iç-içə olmaq ona daha cazibədar gələr. Küfrün qaranlıq dünyasında, o çürümüş həyatı**

**sonuna qədər yaşamaq istəyər**. Münafiqin beynində həmişə belə qaranlıq bir dünyada yaşamağın xəyalları vardır.

Bütün bunların yanında əsl xəyalı isə "**ən böyük olmaq**"dır. Eqoizm, qürur etmək, sahib olduqlarıyla insanlara təpədən baxmaq, onlara böyüklük etmək, ən önə çıxmaq. Və öz aləmində guya "**dünyanı oturduğu yerdən idarə edə bilmək**". Yenə bunlar da münafiqin böyük həsrətlə küfrə getdiyində yaşayacağını düşündüyü xəyallarıdır.

Qurduğu bir başqa xəyal da, "**küfrün şeytani dünyasında çirkli macəralar yaşaya bilmək**"dir. Münafiq həmişə qaranlıq və şübhəli insanlarla görüşüb danışmaq, təhlükəli işlər etmək istəyər. Çünki qeyri-qanuni hadisələrin içinə girməkdən, macəradan, pislikdən, təhlükədən, riskli işlərdən xoşlanar. Macərapərəstdir. Şeytani macəralar onun üçün mühüm ehtiraslardır. Məsələn dünyanın bir başqa ucuna gedər, sonra orada da, başqa alçaq hərəkətlər etməyə çalışar. Ya da bir yerdən qaçar, başqa bir yerdə yaxalanar. Münafiqin bütün ömrü belə sürünərək və murdarlıq içində keçər. Və bu qaranlıq çirkli dünya onun arzusudur. Həmişə axtardığı, xəyallarını, planlarını qurduğu həyat budur.

"**Müsəlmanca, dürüst bir həyat yaşamaq**" ona çox "**darıxdırıcı və anormal**" gələr. "**Bəlalı, təhlükəli, çirkli bir həyat**" isə münafiqin çox xoşuna gələr. Buna görədir ki, küfrdə həmişə yeni dostlar, yeni çevrələr əldə etməyə çalışar. Onlara özünü bəyəndirə bilmək üçün öz aləmində yaltaqlıq edib könüllərini xoş tutmağa cəhd edər. Bir gün qəti olaraq yanlarına gedəcəyindən əmin olduğu üçün, şirin görünərək onları əl altında saxlamağın yollarını axtarar. Gələcəkdə ayrılmağa qərar verdiyi gün, yanlarına gedib də "**salam, mən artıq onlarla görüşmürəm**" dediyində, yaxın əlaqə qura bilməsi üçün lazımlı olan hər şeyi hazırda tutmuş olar.

Münafiq həmişə, qısa müddətdə müsəlmanların yanından uzaqlaşıb küfrün yanına getmə həsrəti ilə yaşayar. Ancaq onların yanına gedə biləndə fərahlayacağını və xoşbəxt olacağını düşünər. Orada artıq yalnız şeytan ilə baş-başa qalacağı və dinin tələb etdiyi bütün ibadətləri tərk edəcəyi üçün, öz aləmində bir "**rahatlıq tapacağına**" inanır. Nur kimi müsəlmanların arasında ikən, bu cür qaranlıq və çirkli bir dünyanın xəyallarını quraraq yaşaması, münafiqin həqiqi üzünü açıq şəkildə ortaya qoyar.

Münafiqin digər xəyalı isə, "**küfrün yanına getdiyində, oradan da müsəlmanlara qarşı mübarizəsinə davam edə bilmək**"dir. Küfrün imkanlarını istifadə edərək, müsəlmanların əleyhinə edəcəyi fəaliyyətlərində müvəffəq ola biləcəyini düşünmək münafiqi rahatlaşdırar. Çünki ayrılmayıb müsəlmanlarla qalmasının əhəmiyyətli səbəbi, "**onlara daxilən zərər verə bilmək, yavaş-yavaş onları küfrə qarşı gücsüz hala gətirə bilmək**"dir. Bu hiyləgər fəaliyyətlərini buraxmamaq üçün ayrılmaq istəməyən münafiq, bunları küfrün yanında da davam etdirə biləcəyini düşündüyündə rahatlayar.

Münafiq bu axmaq xəyallarının reallaşa biləcəyinə qəti olaraq inanar. Çünki münafiqlər (Allahı tənzih edirik), Allahın qurduğu nizamın bir gün mütləq məğlub olacağını düşünürlər. Müsəlmanları zəif və gücsüz görürlər. Başqa sözlə tez ya da gec küfrün mütləq qalib gələcəyinə inanırlar. Münafiqdə bu inanc, müsəlmanların İslam

əxlaqının hakimiyyətini gözləmələri kimi, çox dərin istək, çox ehtiraslı arzudur. Şeytan tərəfinin qalib gələcəyinə dəhşətli dərəcədə inanar, buna görə də heç bir zaman üçün Allaha, İslama və müsəlmanlara güvənməzlər. Və onların mütləq məğlub olacağı günü gözləyirlər.

**Halbuki ki, münafiqlərin bu xəyalları ancaq bir yalandan ibarətdir. Küfrün və şeytanın sistemi, yerlə bir olmağa məhkum olaraq yaradılmışdır**. Şeytanı də, küfrü də, münafiqləri də yaradan Allahdır. Və Allah dilədiyi an onları həlak etməyə də Qadirdir. Allah yalnız onlara müəyyən bir müddət tanımaqdadır. Bu müddəti öz əleyhinə istifadə etdikləri təqdirdə, dünyada da axirətdə də onları şiddətli əzab gözləyir.

Bir Quran ayəsində "... **Allah kafirlərə möminlərin əleyhinə qəti olaraq yol verməz**." (Nisa surəsi, 141) şəklində buyurulmuşdur. Allah belə vəd etmişdir və Allah vədinə heç vaxt xilaf çıxmaz.

# Müsəlmanların münafiqə Quran əxlaqı ilə yaxınlaşmaları

## Münafiqə heç vaxt qəti şəkildə "münafiq" diaqnozu qoyula bilməz

**Əgər Biz istəsəydik, onları sənə göstərərdik, sən də onları üzlərindəki əlamətlərdən tanıyardın. Sən onları danışıq tərzlərindən mütləq tanıyacaqsan. Allah sizin əməllərinizi bilir. (Məhəmməd surəsi, 30)**

Allah, bu ayəsində "**Əgər Biz istəsəydik, sənə onları əlbəttə göstərərdik**" deyə bildirmişdir. Çünki bir müsəlman, heç bir zaman üçün kiməsə qəti olaraq "**bu adam münafiqdir**" deyə hökm qoya bilməz. Çünki heç kim, bir başqasının ürəyindəki həqiqi səmimiyyəti, imanı bilmə gücünə sahib deyil. Bunun bilgisi yalnız Allah Qatındadır. Bir kimsəyə dünyada ikən "**bu adam münafiq**" deyə nəticəyə gəlmək, "**bu adamın cəhənnəmə gedəcəyi dəqiqdir**" demək mənasını verər. Bir müsəlman da heç vaxt hər hansı bir insan üçün belə bir hökm verə bilməz. İman edənlər bunun hökmünün yalnız Allah qatında gizli olduğunu və Allahın hökmünü bilmədən belə bir qərara gəlmələrinin "**haram olacağını**" bilirlər. Müsəlmanlar kimsə üçün bu cür dəlil meydana gəldiyi zaman belə ancaq, "**münafiq xarakterli**" ya da "**münafiq əxlaqı göstərir**" kimi bənzətmə edə bilərlər. Amma Allah, (dilədiyi təqdirdə) bu səmimiyyətsiz insanları, elçilərinə, vəhy ilə bildirəcəyini xəbər vermişdir.

Lakin Allah ayənin ardınca, "**beləliklə sən onları üzlərindən tanıyarsan**" deyə bildirmişdir. Bu ayə ilə verilən məlumatdan, "**münafiqin çirkli, səmimiyyətsiz və hiyləgər ruhunun, simasına çökdüyü və üzünə əks olunduğu**" aydın olmaqdadır. Allah pisliyini ürəyində saxlayan münafiqin üzündə, heç vaxt gizlədə bilməyəcəyi münafiq əlaməti meydana gətirərək müsəlmanlara diqqətli olmaları lazım olan kəsləri tanıdır.

Ancaq bununla yanaşı, Allah bu ayə ilə münafiqlərin nə qədər hiyləgər və gizlənmiş varlıqlar olduğuna da diqqət çəkmişdir. Münafiqlər heç vaxt tam olaraq təsbit edilib diaqnoz edilə bilməyən varlıqlardır. Onsuz da **dəqiq diaqnoz qoyulsa belə, müsəlmanlar bu kəsləri heç vaxt aralarında tutmaz, öz yanlarından ayırar və dostluq qurmazlardı.** Çünki münafiq demək, eyni zamanda da "**şeytanın təcəllisi**" deməkdir. **Bu səbəbdən müsəlmanlar necə ki, şeytandan çəkinər, uzaq dayanar və aralarında tutmazlarsa, münafiqdən də dəqiq əmin ola bilsə, ona da eyni rəftarı göstərərdilər. Amma tam olaraq əmin ola bilmədikləri üçün, müsəlmanlar münafiq xarakterli insanlardan nə qədər şübhələnsə də, heç vaxt dəqiq hökm verə bilməz və bu kəsləri aralarında tutmağa davam edərlər.**

**Bu Allahın, müsəlmanların dünya həyatındakı imtahanlarının gərəyi olaraq yaratdığı xüsusi vəziyyətdir.** Müsəlman camaatın içində, münafiq xarakterli şəxsin varlığı, əlbəttə ki, müsəlmanların bir çox mövzuda səbir göstərmələrini tələb edən çətinliklər yaradır. Müsəlmanlar bir adamın münafiq olduğundan hər nə qədər şübhə duysalar da, "**bəlkə hidayət tapar**" düşüncəsi ilə səbirlə, ona Quran əxlaqıyla yaxınlaşmağa davam edərlər.

**Ancaq bunların hər biri müsəlmanlar üçün dünyada və axirətdə, çox böyük xeyirlərə və gözəlliklərə vəsilə olar. Çünki münafiq, eyni zamanda da müsəlmanın dünya həyatındakı təhsilinin əhəmiyyətli parçasıdır.** Münafiqin əxlaqındakı pozğunluqları görmək, müsəlmanların həmişə öz əxlaqındakı çatışmazlıqları gözdən keçirmələrinə; bunun nəticəsində də çox daha dərin imanlı və vəli əxlaqlı insanlar halına gəlmələrinə səbəb olur.

## Münafiqi səbir və diqqətlə izləyib onun şeytani sənətini öyrənmək lazımdır

Allah tarixin başlanğıcından bu yana yaxşı ilə pisi bir arada yaratmış, insanların vicdanlarını istifadə edərək bu ikisi arasında doğru olanı seçmələrini istəmişdir. Şübhəsiz ki, Allah istəsəydi dünyanı sırf yaxşılıqla, gözəlliklə tam olacaq şəkildə yaradar və pisliyi heç yaratmazdı. Amma Allah bir çox hikmətlə yaxşının yanında pisi də var etmişdir.

Pis əməli müdafiə edənlərin lideri olan şeytan, öz fəlsəfəsini inkar edənlərə və münafiqlərə ilham edərək, dünyada pisliyi və azğınlığı hakim etməyə çalışır. **Hər bir münafiq və kafir şeytanın bir tələbəsi və bir əsgəridir.** Liderlərindən aldıqları təlimatlarla, səmimi iman edən, yaxşı işlər görməyi müdafiə edən hər insanı, "**doğru yoldan çıxarmaq və şeytanın davamçısı halına gətirmək üçün**" səy göstərərlər.

**Münafiqlərin müsəlmanlar arasındakı əsas vəzifələrindən biri də budur. Şeytanın murdar sənətini, azğın dünyasını, hiyləgər əxlaqını müsəlmanlar arasında da yaymağa çalışmaq.** Başqa sözlə müsəlmanlar üçün də münafiq, "**şeytanın murdar sənətini**", "**insanları azdırmaq üçün istifadə etdiyi hiyləgər üsullarını**" və "**saxtakar oyunlarını**" canlı olaraq həyata keçirib tətbiq edən "**şeytanın nümayəndəsi**"dir. Buna görə də, şeytanın murdar sənətini öyrənib məğlub edə bilmək üçün, "**münafiq müsəlmanlar üçün əhəmiyyətli bir müşahidə vəsiləsidir**".

Münafiq, müsəlmanların Qurandakı bəzi ayələrin mənasını daha yaxşı anlamalarına vəsilə olur. Bu səmimiyyətsiz insanların göstərdiyi pis əxlaq, oynadıqları oyunlar, istifadə etdikləri hiyləgər üsullar, münafiq xarakterinin daha yaxşı diaqnoz edilə bilməsi üçün əhəmiyyətli vəsilədir. Adətən müsəlman cəmiyyətdə yalnız səmimi iman edən insanlar olsa, əlbəttə ki, bu bir gözəllikdir. **Heç kim münafiqlə bir arada; və onun varlığını hiss edərək yaşamaq istəməz.** Ancaq belə bir vəziyyət meydana gəldiyində də, bu müsəlmanlar üçün heç vaxt zərər deyil. **Münafiqin varlığı, müsəlmanlar üçün ardıcıl**

**olaraq xeyirə çevrilər. Münafiqin hər gün, hər etdiyi hərəkət, hər söylədiyi söz, hər etdiyi hiyləgərlik müsəlman üçün yeni müşahidə və yeni analiz imkanı yaradır.**

Münafiq, müsəlmanların ağlının inkişafına vəsilə olur. Münafiqi canlı nümunə olaraq görüb müşahidə edə bilmək, Quranda izah edilən "**münafiq xarakterini**" anlamaqda müsəlmanlar üçün əhəmiyyətli yol göstəricidir. Münafiq olmasa, bu xarakterə aid detallar, mürəkkəb nöqtələr o qədər yaxşı anlaşılmaya bilər. Amma "***Şeytanın fənəri çatacağı yerdəki qaranlığı işıqlandırar.***" (Mason jurnalı, sayı 29, səh. 23) sözüylə diqqət çəkildiyi kimi, "**münafiqin işıqlandırdığı işıq, bizə bütün dünyanı göstərir**". Yəni onun qaranlıq dünyasının qaranlıq fənəri, bir çox yeri işıqlandırar və müsəlmanlar da bu yol ilə bir çox incəliyi görə bilərlər. Yoxsa müsəlmanların, münafiqin varlığı olmadan onun üsullarını görüb fərq etmələri çox çətin olardı.

Elə buna görə münafiqi öz halına buraxıb yaxşı izləmək lazımdır. **O, fərq edilmədiyini sandığı müddətcə şeytandan öyrəndiyi sənətini ən hiyləgər cəhətləri ilə tətbiq etməyə davam edəcək, müsəlmanlar da onu izləyib müşahidə edərək, onun üsullarını ən incə detallarına qədər anlaya biləcəklər. Və beləcə şeytanın və münafiqin fəaliyyətlərini asanlıqla təsirsiz hala gətirə biləcəklər. Buna görə münafiqə fərq edildiyini göstərib hiyləgərcə gizlənməsinə yol açmaq deyil, ona hiss etdirmədən onu analiz etmək daha ağıllı üsuldur.** Peyğəmbər əfəndimiz (s.ə.v)-də, Hz Musa (ə.s)-da ətrafındakı münafiqlərə bu metodu tətbiq etmiş və onları diqqətlə izləmişlər.

Münafiqin, müsəlmanlar tərəfindən fərq edilmədiyi müddətcə hər cür alçaqlığa, hörmətsizliyə və abırsızlığa davam etməsi isə, Allahın onu izlədiyini və etdiyi hər şeyi bildiyinə inanmamasından yaranır. Münafiq üçün yalnız "**insanların nə dediyi**" əhəmiyyətlidir. İnsanlardan gizlənə bildiyinə inandığında, arsızca və həyasızca münafiqliyinə, hiyləgər oyunlarına davam edir. Elə Allah münafiqin bu qorxmazlığını, müsəlmanlar üçün rəhmətə çevirər. Müsəlmanlar münafiq vəsiləsiylə mənəvi cəhətdən ardıcıl olaraq daha da inkişaf edər və güclənər.

## Münafiq əlamətlərini dinləyib öyrənmək müsəlmanlara fayda verər

Peyğəmbərimiz (s.ə.v) bir hədisində münafiqlərlə müsəlmanların fərqini, "***Allahdan ancaq mömin olan qorxar və ondan ancaq münafiq özünü təhlükəsizlikdə hiss edər.***" (Buxari, "İman", 36; Firyabi, a.k.ə, səh. 60) sözləriylə açıqlamışdır. Müsəlman olan adam, münafiq əlamətlərini eşitdiyində Allahdan qorxub çəkinən adamdır. Əxlaqı nə qədər gözəl olursa olsun, iman edən bir kimsə, Allahın Quranda bildirdiyi bütün öyüd və xatırlatmaları, heç bir ayrı-seçkilik etmədən üstünə alar və düşünər.

Elə bu səmimi müsəlman rəftarıdır. Çünki Allah Quranın "**Xeyr; həqiqətən insan, azar. Özünü müstəğni gördüyündən.**" (Ələq surəsi, 6-7) ayələriylə, "**özünü müstəğni, yəni**

**böyük görən və heç bir şeyə ehtiyacı olmadığını hesab edən kəslərin, azğınlaşaraq doğru yoldan uzaqlaşacaqlarını**" bildirmişdir. Başqa sözlə müsəlmanlar bu ayəni düşünərək, **hər münafiq əlamətindən bir hikmət çıxararaq çatışmazlıqlarını dərhal düzəldər; əxlaqlarını, rəftar və danışıqlarını daha da gözəlləşdirməyə çalışırlar.**

Müsəlmanlar, Qurandakı münafiq əlamətlərini anladarkən də, heç vaxt özlərini müstəğni görərək danışmazlar. Çünki bu izahatların ən çox xitab etdiyi kəslər "**müsəlmanlar**"dır. Allahın hər ayəsi, bütün insanları əhatə edir. Başqa sözlə müsəlmanlar münafiqlərlə əlaqədar ayələri izah edərkən, qarşılarındakı müəyyən qrupa deyil, ən başda özlərinə izah etmiş olurlar. Hər münafiq əlamətini, öz üstlərinə də alaraq, özlərini də düşünərək izah edərlər.

Çünki onsuz da münafiqlər Qurandakı bu ayələrlə və müsəlmanların bu izahları ilə heç əlaqədə olmazlar (Quranı tənzih edirik). Bu ayələrdən təsirlənənlər yalnız müsəlmanlardır. Quranı oxuyacaq, müsəlmanların izah etdiklərini dinləyəcək olanlar yalnız onlardır. Münafiq onsuz da izah edilənlərə öz aləmində gülər keçər və izah edilənləri da dinləməz (dini mövzuları tənzih edirik). Nə dinləyər nə də anlayar. Müsəlmanın hər duyduğu söz isə, ona imanı rahatlıq, zehin açıqlığı və fəallıq etməyə imkan verir. Beləcə ürəyindəki ən kiçik səhvi belə, dərhal düzəltmə imkanı tapır.

**Başqa sözlə bütün izah edilənlər və yazılanlar müsəlmanlara təsir edəcəkdir. Çünki inkar edənlər onsuz da İslamı əvvəldən qəbul etməz, bu səbəbdən də o izah edilənləri heç üstlərinə alınmazlar. Münafiq da onsuz da Allah və din düşmənidir; deyilənlərin heç birini qəbul etməz. Bu səbəbdən bunları düşünüb anlayacaq olanlar yalnız Allah dostu olan səmimi müsəlmanlardır.**

**SUAL: "Münafiq əlamətlərini eşidib və özünü düzəldən münafiq olar bilərmi?"**

**ADNAN OKTAR**: "Heç vaxt olmaz. **Münafiq ayələrindən təsirlənirsə, o müsəlmandır**. Münafiq ola bilməz. Bəzi bacı-qardaşlarımız olur deyir ki, "**Mən münafiqəm görsən?**" Bu ayədən təsirləndin mi? O zaman münafiq ola bilməzsən. Ayə ilə haşa lağ edirsə, məsxərəyə davam edirsə, diqqətə almırsa haşa, o zaman münafiqdir. Təsirlənirsə nur kimi möminsən. Təsirlənənlərə "**mömin**" deyilir, çünki münafiq əlaməti hər müsəlmanda ola bilər. Bu istisnasız hər kəsə yönəldilmişdir. Ona, buna deyil, müəyyən qrup deyil, hər müsəlmanda ola bilər. Quran ayələrindən mömin olan adam təsirlənər onsuz da. Mömin üstünə alar. **Üstünə alınıb təsir edirsə və halını düzəldirsə "Bu mənə xitab edir, mən bu mövzuda özümü düzəldim" deyirsə, o nur kimi mömindir. Amma dodaq altından gülüb lağ edirsə, əhəmiyyət vermirsə, möminlərə də hələ də təəccüblənirsə, o zaman o münafiqdir.** Çünki münafiq ayələri möminləri maraqlandırar onsuz da. Münafiq gülər keçər. O ayələr bizim onlara diaqnoz qoymaq üçün var. Mömin təsirlənirsə, Allah ona hidayət edir, gözəllik, şəfa verir deməkdir." (A9 TV, 19 may 2016)

SUAL: "Mömin özünü münafiqliklə sorğulaya bilər mi?"

ADNAN OKTAR: "**Bir mömin özünü münafiqliklə sorğulayırsa onsuz da münafiq deyil o, münafiq heç özünə götürməz.** Arsızdır, qanmazlığına verər heç fərqində deyilmiş kimi edər. Xaraktersizdir münafiq. Mömin çox qorxar, "**Allah əsirgəsin, məndə münafiq əlaməti olmasın, küfr əlaməti olmasın**" deyər Allaha sığınar. Oxuyar, izah edər, "**Hamımız uzaqlaşaq münafiq əlamətlərindən**" deyər. Amma münafiq üçün bu yox hökmündədir. Elə mövzunu heç vaxt qəbul etməz, o mövzunu istəsən aç yanında, heç bir şəkildə üzərinə alınmaz. Başqa sözlə də münafiqliyinə, həyasızlığa tam başqa şeytani din ilə davam edir münafiq." (A9 TV, 23 yanvar 2016)

## Münafiqin mövcudluğu müsəlmanlar üçün həmişə xeyirə dönər

Quran ayələrini bilməyən insan, sanki müsəlman cəmiyyətləri arasından heç münafiq çıxmasa, hər şey daha yaxşı və müsəlmanların daha çox lehinə olacaqmış kimi düşünə bilər. Halbuki münafiqin varlığı, zahirən hər nə qədər fərqli görünsə də, müsəlmanlar üçün böyük mərhəmətdir. Münafiqin ən çox istədiyi şeylərdən biri "**müsəlmanlara zərər vermək**" olduğu halda, "**münafiq istəmədən və fərqində olmadan onlara həmişə fayda verər**". Allah Quranda "**münafiqin varlığının müsəlmanlar üçün şər deyil, əksinə xeyir olduğunu**" belə xəbər vermişdir:

**Şübhəsiz ki, uydurulmuş yalan xəbər gətirənlər özünüzdən olan bir dəstədir. Onu özünüz üçün pis bir şey hesab etməyin. Əksinə, bu sizin üçün xeyirlidir. O dəstədən olan hər bir şəxsin qazandığı günahın cəzası vardır. İçərilərindən günahın böyüyünü öz üstünə götürəni isə böyük bir əzab gözləyir. (Nur surəsi, 11)**

Müsəlmanlar, aralarındakı münafiqin, istəmədən də olsa, onlar üzərində vəsilə olduğu xeyirləri sıralayıb yazacaq olsalar, səhifələr dolusu, çox uzun yazılar əldə edərdilər. Çünki aralarında, səmimiyyətsizliyindən, alçaq oyunlar oynadığından, müsəlmanlar əleyhinə alçaqca tələlər qurduğundan şübhələndikləri insanın var olması, əlbəttə müsəlmanları çox ciddi şəkildə "sayıqlıq"a gətirər.

**Bir münafiqlə birlikdə yaşamaq ehtimalları, müsəlmanların ağıllarını və diqqətlərini ola biləcək qədər artıqlaması ilə açar. Süstlük, diqqət dağınıqlığı və ətalət varsa, bunlar tamamilə ortadan qalxar. Səmimi və etibarlı müsəlmanların bir-birlərinə olan sevgi və hörmətləri mümkün qədər artar. Aralarındakı birlik, bərabərlik ruhu, tək orqanizm kimi ortaq hərəkət etmə gücü və məsləhətləşmə vərdişi daha da inkişaf edər. Münafiqə qarşı həmişə məntiqli tədbirlər alma səyi, müsəlmanların bu səmimiyyətsiz insanlara qarşı necə yanaşmaq lazım olduğu mövzusunda da təcrübə qazanmalarına vəsilə olur. Bütün**

**bunlar müsəlmanların gedərək daha da kamil olmalarına yol açar və şüurlarının daha da açılmasını təmin edər.**

Müsəlmanlar şeytani əxlaq göstərən belə insana qarşı Quran əxlaqıyla və müsəlman ağlı ilə qarşılıq verərək Allah dərgahında inşaAllah daha çox "**savab qazanmış**" olurlar. Münafiq xarakterli insana nisbətən, ağlı başında, şüuru açıq, vicdanlı və gözəl əxlaqlı **müsəlmanların nə qədər böyük nemət olduğu hər kəs tərəfindən daha da yaxşı aydın olar. Müsəlmanlar Qurana daha da möhkəm sarılırlar**. Qurandakı münafiq əlamətlərini həmişə gündəmdə saxlayar, bu əlamətlərin analizini daha yaxşı edər və beləcə bütün **müsəlmanların münafiq mövzusunda daha yaxşı şəkildə dərk etmələrinə vəsilə olurlar. Müsəlmanlar həmişə Allahı xatırlayaraq, Quran ayələrini oxuyaraq və münafiq xarakterini insanlara izah edən yazılı-şifahi işlər görərək güclü təsirə malik təbliğ fəaliyyəti etmiş olurlar.**

**ADNAN OKTAR**: "**O qaranlıq ruhlarıyla möminlərin içində yaşayırlar amma möminlərin gücünü artıran çox əhəmiyyətli fiqurdur münafiq. Çox əhəmiyyətlidir çünki münafiq möminə dəhşətli həyəcan verər, dəhşətli şövq verər, əzmini artırar, gücünü artırar, gücə olan tələb daha da çoxalar. Möminin zənginliyi daha da artar.** Çünki madam münafiqi bu əsəbləşdirər, elə deyil? Mömin o zaman onu hirsləndirmək üçün və Allahın razılığını qazanmaq üçün daha güclü hücumlar etməyə başlayar. **Monotonluq aradan qalxar, süstlük aradan qalxar, mömini oyandıran, şövqləndirən ən mühüm səbəblərdən biridir. Yəni münafiqin təsir gücü kimi heç bir güc yoxdur, Allahın verdiyi güc olaraq. Müsəlmanı, ən çox münafiq həyəcanlandırar, şövqləndirər. Məsələn, kitabların hazırlanmasına vəsilə olur, daha çox zənginləşməyə vəsilə olur, daha göstərişli fəaliyyətlərə vəsilə olur, hücumun sürətlənməsinə səbəb olur. Daha texniki və ağılla düşünmələrinə səbəb olur.**

**Süstlüyü və ətaləti tamamilə silər münafiq.** O biri cür, küfr özünü açıqca müəyyən etdiyi və təsiri də zəif olduğu üçün möminin küfrlə mübarizəsi daha sakit və daha zəif ola bilər. Amma münafiq olduğunda müsəlmanın gücü dəhşətli dərəcədə artar, yəni **müsəlman belə vəziyyətdə ağlagəlməz hücuma keçər. Çünki çox dəhşətli bəladır, qrip kimi, soyuqdəymə kimi deyil; xərçəng kimi xəstəlik olduğu üçün, orqanizma, bünyə çox böyük hücuma keçər.** Və bütün imkanlarıyla o pisliyi, o qorxunc qaranlığı dələcək hər cür tədbiri alar. O tədbiri alarkən də, savabı çox yüksək olur. **Münafiqin möminə savab vermə gücü, vəsilə olma gücü çox yüksəkdir. Məsələn küfrün birdirsə, münafiqin milyondur elə düşünün. Bəzən bu nisbətlər vəziyyətə görə, münafiqin hücumuna görə çox artar.**" (A9 TV, 4 iyun 2016)

## Münafiq “bəlkə iman gətirər” deyə səbir etmək və onu Quran əxlaqına dəvət etmək mühüm bir müsəlman xüsusiyyətidir

Allah Quranın, **“Dedi ki: “Ey Rəbbim! Məni azdırmağına qarşılıq, and olsun, mən də yer üzündə onlara, əməlləri gözəl göstərib onların hamısını yoldan çıxaracağam. Ancaq onlardan səmimi olan bəndələrindən başqa.”** (Hicr surəsi, 39-40) ayələriylə, şeytanın dünyadakı bütün insanları azdırmaq üçün hər cür səyi sərf edəcəyi xəbər verilmişdir. Qarşısındakı insan müsəlman da olsa, inkarçı, müşrik və ya münafiq də olsa, şeytan heç birini ayırd etmədən, hər birini sapdıra bilmək üçün qiyamətə qədər cəhd edəcəkdir.

Ancaq ayənin ardınca, “**sadiq olan bəndələrindən başqa**” sözləri ilə ifadə edildiyi kimi, **şeytan Allaha qarşı səmimi olan insanlara təsir edə bilməyəcəkdir**. Başqa sözlə hər kim olursa olsun; istər münafiq, istər kafir, istərsə də müşrik; həyatının hər hansı dövründə, həqiqətən istədiyi təqdirdə “**şeytanın təsirindən qurtula bilmə imkanına malikdir**”. Səmimi olmağa qərar verməsi, şeytanın təsirinin qalxması üçün yetərli olacaqdır.

Başqa sözlə müsəlmanlar, bir insan nə qədər çox münafiq əlaməti göstərsə, nə qədər alçaqlıq, xaraktersizlik və əxlaqsızlıq edirsə etsin, bu insanın ölümlə qarşılaşmadan əvvəl tövbə edə bilmə ehtimalı olduğunu heç bir zaman unutmazlar. Buna görə də kimsə üçün, “**Bu bir dəfə bu səhvləri etdi, artıq mümkün deyil bir daha nicat tapmaz**” kimi dünya görüşü ilə yaxınlaşmazlar. Allahın səhv edən və səmimi tövbə edib doğru yola yönələn hər kəsi bağışlaya biləcəyini bilirlər. Buna görə aralarında münafiq olmasından şübhələndikləri insan olduğunda da, ona qarşı Quran əxlaqının gətirdiyi bu şüur və yüksək vicdan ilə yaxınlaşarlar.

**Yoxsa xainlik və alçaqlıq etdiyindən şübhəli bilinən bir insanı, aralarından uzaqlaşdırıb rahat-rahat yaşamaları müsəlmanlar üçün çox asandır.** Amma bu insanın “**etdiklərindən peşman olub doğruya tərəf dönmə ehtimalı**” də vardır. Onu öz “**qaranlıq dünyasına və küfrün içinə daha da itələmək**” və “**onu şeytan ilə baş-başa buraxmaq**”, müsəlmanların vicdani qəbul edə biləcəyi bir vəziyyət deyil.

Buna görə müsəlmanlar, “**bəlkə iman edər**”, “**bəlkə münafiqlikdən, şeytanlıqdan əl çəkər**”, “**bəlkə peşman olar və hidayət tapar**” deyərək münafiqi səbirlə və qətiyyətlə “**Quran əxlaqına çağırmağa və doğrunu öyrətməyə**” çalışırlar. Etdiyi alçaqlıqların mənasını və Allah qatındakı qarşılığını anlaması üçün, ona Quran ayələriylə “**münafiq xarakterini**” və “**münafiq əlamətlərini**” izah edərlər. Ona gözəl əxlaqla, vicdanla, sevgiylə, anlayışla və mərhəmətlə yaxınlaşıb; küfrün zalımlığı və alçaqlığı ilə, müsəlman əxlaqı arasındakı fərqi görməsini təmin etməyə çalışırlar.

Ancaq əlbəttə ki, bunları edərkən bir tərəfdən də, “**münafiqin altdan-altdan müsəlman cəmiyyətinə zərər verməsini maneə törətməyə və onun şeytani fəaliyyətlərini**

**passivləşdirməyə**” çalışırlar. Necə ki ortada bir “**ilan**” varsa, bu ilanın ağzından zəhərini alırsınız ya da dişini sökər amma yenə buraxarsınız. Beləcə ilanın hər hansı birini zəhərləməsinə maneə olarsınız. **Elə münafiqin da zəhərini, sakit, təsirsiz hala gətirmək lazımdır.**

Bütün bunlar müsəlmanların Quran əxlaqını yaşamalarından ötrü ibadət olaraq tətbiq etdikləri əxlaqdır. Münafiqin bunlardan təsirlənib təsirlənməməsi, imtina edib hidayət tapması ya da qətiyyətlə münafiqliyinə davam etməsi, müsəlmanların əlində olan bir vəziyyət deyil. Bu ancaq Allahın təqdiridir. **Münafiq taleyində varsa, tövbə edib Allahdan çox qorxan, Allahı çox sevən, çox səmimi bir müsəlman halına gələ bilər. Taleyində münafiq olaraq yaradıldısa, müsəlmanlar nə qədər səy göstərsələr də münafiq ən sonunda küfrə gedər.**

Amma bunun qərarını heç bir zaman üçün müsəlmanlar verə bilməzlər. **Münafiq müsəlmanlardan ayrılmaq istəmədən, müsəlmanlar ona “Aramızdan get, səni istəmirik” deməzlər. Çünki insanı özü istəmədən küfrə doğru itələmək heç vaxt dinə uyğun olmaz.**

Ayrıca müsəlmanlar Qurana görə bir-birlərini qorumaqla məsuldurlar. Çünki Quranda “**himayəçilik sistemi**” vardır. İman edənlər “**bir-birlərinin vəlisi, qoruyucusu, dostu, köməkçisi**”dır. Bir-birlərini öz qardaşları kimi qorumaqla mükəlləfdirlər. Başqa sözlə münafiq də, yalnız diliylə belə olsa “**La ilahə illəAllah**”, yəni “**Allahdan başqa ilah yoxdur**” dediyi halda, müsəlmanlar arasındakı himayəçilik sistemi onun üçün də keçərlidir. Başqa sözlə müsəlmanlar, “**Bu insan münafiq ola bilər**” deyərək bir insanı aralarından ayıra bilməzlər. Belə qəti diaqnoz qoya bilmək üçün ancaq Allahın Peyğəmbərlərinə vəhy nazil etməsi lazımdır. Əsrimizdə də Peyğəmbər yaşamadığı üçün, **müsəlmanlar öz başlarına heç vaxt bir insan üçün “Bu insan münafiq” deyə hökm verə bilməzlər. Belə bir qərar verib o insanı müsəlmanların arasından ayırıb kənara atmaq, onu küfrə doğru itələmək, “haram olar”.**

Müsəlmanlar niyə küfrə təbliğ edərlər? İnkar edənlərin iman etmələrinə vəsilə olmaq üçün. Küfrə səbirlə izah edərkən, münafiqə izah etməkdən imtina etmək isə çox ziddiyyətli və səhv tətbiq olar. Müsəlmanlar necə ki, “**ateistəm**”, “**dinsizim**” ya da “**islama qarşıyam**” deyən insanlara islamı təbliğ edirlərsə, münafiqə də eyni şəkildə müsəlmanlığı izah etmək vəziyyətindədirlər. **Münafiq nə qədər anormal, nə qədər tərs, xasiyyətsiz ya da əxlaqsız olursa olsun, müsəlman ona səbir etməklə məsuldur. Nə qədər səbir göstərsə, qarşılığında da o qədər savabı olar.**

Bundan başqa, dünyada Allahdan başqa heç kim, kimin cənnətlik, kiminsə cəhənnəmlik olduğunu bilə bilməz. Bəlkə bir insanın “**münafiq**” sandığı kimsə, tövbə edib cənnətə gedəcək, bu fikirdə olan adam isə cəhənnəmə gedəcək. Bunun məlumatı yalnız Allah yanındadır. “**Ümid kəsmək**” Quranda haram qılınmışdır. Allah Quranda “**çünki ancaq kafir olanlar Allahın rəhmətindən ümid kəsər.**” şəklində buyurmuşdur. Çünki Allah sonsuz güc sahibidir; dilədiyi hər şeyi etməyə qadirdir. Ümumiyyətlə bir insanın hidayət tapmasından, özünü düzəldib doğruya yönəlməsindən qətiyyən ümidini kəsməz.

Bu səbəblə **müsəlmanlar heç bir zaman üçün münafiqi küfrlə baş-başa buraxıb uzaqlaşdırmazlar.** Çox uzun zaman boyu sürsə də, münafiqi səbirlə və Quran əxlaqıyla öyrətməyə çalışırlar. Səbir edər, çünki münafiq də bəzən şəfa tapa bilər. Bəzən də, **"Kim Rəhman (olan Allah)ın zikrini görməzlikdən gələrsə, Biz bir şeytana onun "üzərini qabıqla örtərik"; artıq bu, onun yaxın dostudur."** (Zuxruf surəsi, 36) ayəsiylə xəbər verildiyi kimi, şeytan münafiqin üstünə yapışar və bir daha da onu buraxmaz. **Amma bəzən də, Allah münafiqin üzərindən şeytanın təsirini qaldırar. O zaman o insan, ölü ikən birdən-birə dirilmiş kimi, özünə gələr.**

**Bu, komada olub da, aparatın söndürülməsi üçün gözləyən xəstənin vəziyyətinə bənzəyir. Komada olandan necə heç bir zaman ümid kəsilməzsə, münafiq haqqında da eyni vəziyyət olur.** Necə ki belə xəstənin, elektrikdən çəkib onu ölümə tərk etmək vicdani olaraq qəbul edilə bilər vəziyyət deyilsə, münafiq üçün də "**qəti hökm vermək**" doğru olmaz. Bəzi xəstələr heç bir zaman komadan çıxmaz və komada ikən ölərlər. Bəziləri də xilas olarlar. Buna görə xəstəni mütləq komadan çıxana qədər gözləmək kimi, münafiqi də "**bəlkə hidayət tapar, bəlkə səmimi iman edər**" ehtimalı ilə səbirlə gözləmək və qurtarmağa çalışmaq lazımdır.

# Münafiqliyin aqibəti mütləq ziyandır

## Münafiqin həyatı zəlil şəkildə bitər

Münafiqin bünyəsinə ən çox hakim olan duyğu "**alçaqlıq kompleksi**"dir. Bu haqlı bir kompleksdir, çünki münafiq həqiqətən də, "**dünyanın ən alçaq xarakterinə malikdir**". İnandığı haqq olan heç bir dəyəri, yolunda yaşamaq istəyəcəyi heç bir idealı, heç bir inancı yoxdur. Buqələmun kimi, hər girdiyi mühitə görə fərqli əxlaq göstərir. Bir inancdan başqa inanca, bir mədəniyyətdən başqa mədəniyyətə, bir fəlsəfədən başqa fəlsəfəyə keçər. Çünki münafiqin bu həyatdakı ən böyük arzusu, küfrün onu arasına alıb ona dəyər verməsidir. Onların tək bir "**sağol**"u belə, etməyəcəyi rüsvayçılıq, alçaqlıq və əxlaqsızlıq yoxdur.

**Ancaq maraqlı olan budur ki, münafiq küfrün gözünə girmək üçün onların bir dediyini iki etmədiyi halda, heç vaxt küfrə özünü istədiyi mənada qəbul etdirə bilməz.** Çünki yalnız müsəlmanlar deyil, **küfr də münafiqin göstərdiyi bu alçaq xarakterin fərqindədir**. Bu səbəblə, heç bir zaman onu həqiqi mənada aralarına almaz, hörmət və sevgi duymazlar. Yalnız mənfəətləri üçün istifadə edərlər. Münafiq küfrün gözünə girməyə çalışdıqca, küfr onu daha da əzər, daha çox istifadə edər, daha da alçaldar. **Münafiq küfrə ən aşağılardan heyranlıqla baxarkən, küfr münafiqə ən təpədən kiçik hesab edərək baxar.** Çünki heç kimsə dostunu, din qardaşını, birlikdə yol aldığı insanı sanki arxadan bıçaqlayan, yaxşılıq gördüyü insana pisliklə cavab verib xainlik edən birinə güvənməz. Münafiq haqqında bu müşahidəni etmiş olan **küfr də buna görə, münafiqi mənfəəti üçün istifadə edir, amma heç bir zaman onu bir yoldaş ya dost olaraq qəbul etməz.**

**Elə bu vəziyyət; yəni hər kəs tərəfindən alçaldılma, münafiqin bu dünyada daddığı ən böyük əzablardan biridir.** Hər aynaya baxdığında qarşısında "**alçaq bir insan**" görər. Hər nə qədər gündəlik həyatda ədabaz və çoxbilmiş rəftarlarıyla bu utancını örtməyə çalışsa da, bu duyğu münafiqin içinə körüklənmiş köklü əzabdır. Münafiq müsəlmanların arxasından iş çevirdikcə; yəni onlara zərər verməyə çalışdıqca, alçaldılma bataqlığına bir az daha batar.

**Münafiqin küfrə daşıdığı hər xəbər, müsəlmanı tələyə salmaq üçün qurduğu hər plan, küfr tərəfindən istifadə edilir bəlkə amma, özü küfrün ona duyduğu diksindiyi də artırar.** Belə ki, münafiq hazırladığı planlar, qurduğu tələlərlə müsəlmanların bəlaya uğramasını gözləyərkən; o bəla get-gedə özünü qucaqlamağa başlayır. Ağzından çıxan hər yalan, müsəlmanlar əleyhinə küfrlə qurduğu hər yaxınlıq, onu qaranlıq quyunun dibinə doğru çəkməyə davam edir. Hər xainliyində xor görmə və alçaldılma hissini daha güclü yaşamağa, içinə bürmələnən ağrını daha dərindən hiss etməyə başlayar. Qısacası münafiqin pisliyi, hiyləsi, planı bumeranq kimi ona geri dönər.

Bu, münafiqin yalnız bu dünya həyatında çəkdiyi əzabın kiçik bir hissəsidir. Axirətdə isə sonsuz əzab onu gözləməkdədir. Allah münafiqin tələsinin onu qucaqlayacağını ayədə belə bildirir:

**Bir zaman kafirlər səni həbs etmək, öldürmək və ya yurdundan qovmaq üçün sənə qarşı hiylə qururdular. Onlar hiylə işlətdilər, Allah da hiylə işlətdi. Allah hiylə işlədənlərin ən yaxşısıdır. (Ənfal surəsi, 30)**

Münafiq ömrü boyu müsəlmanlara qarşı mübarizə edər amma, bu mübarizəsi heç bir zaman xəyal etdiyi kimi nəticələnməz. Küfrün gözündə yüksəlmək üçün müsəlmanlar əleyhinə etdiyi hər xainlik, bir qat daha alçaldılmasına və kiçimsənilməsinə səbəb olur. Heç bir şey əldə edə bilmədiyi halda müsəlmanların arasında onlardan biri kimi davranmaq, inanmadığı bir sistemi müdafiə etmək, içindən gəlmədiyi halda, Allahı xatırlamaq və ya istəməyərək namaz qılmaq, münafiqin ağrısını ona, yüzə, minə qatlayar. Bu da münafiqdən tərifsiz bir qəzəb və nifrət hissi meydana gətirər. Elə münafiqin sonunu gətirən də, bu nifrət zənciridir. Ruhunu bürüyən bu nifrət onu gündən günə çürüdər, sağlamlığını pozar, ağıl tarazlığını itirməsinə səbəb olar. **Hər münafiqin sonu, kin və nifrəti ilə birlikdə ölməkdir. Allah Quranda münafiqlərin ölümlərinin, içlərində böyütdükləri bu qəzəb və nifrətdən olacağını bu şəkildə xəbər vermişdir:**

**Bax, siz o kəslərsiniz ki, onlara məhəbbət bəsləyir, onlar isə sizi sevmirlər. Siz nazil olan kitabların hamısına inanırsınız. Onlar sizinlə rastlaşanda: “Biz iman gətirdik!” – deyirlər, təklikdə qalanda isə sizə qarşı qəzəbdən barmaqlarının ucunu gəmirirlər. De: “Qəzəbinizdən ölün!” Şübhəsiz ki, Allah könüllərdə olanları bilir. (Ali İmran surəsi, 119)**

Uca Rəbbimiz ayədə münafiqlər üçün müqəddəratı olan ölüm şəklini açıqca bildirmişdir. **Hər münafiqin taleyində alçaldılaraq, dəyərsiz yaşamaq və bunun gətirdiyi qəzəbin içində boğularaq ölmək vardır.**

**Ancaq unutmamaq lazımdır ki, hər insan üçün tövbə qapısı sonuna qədər açıqdır. Allahın bu bağışlayıcılığı, münafiq üçün də keçərlidir**. Münafiqlik edən bir insan da, işlədiyi günahlar hər nə olursa olsun, günün birində səhvini anlayıb bu murdar bataqlığın içində, Allahın dininə sarılaraq çıxa bilər. Ancaq xainliyində qərarlı, israrlı, Allaha və dinə düşmən olan hər münafiq, qəzəbi ilə və nifrəti ilə birlikdə cəhənnəm ilə qarşılıq tapacaq və sonsuza qədər bu çuxurun dibində xor baxılmağa, alçaldılmağa, əzab içində yaşamağa davam edəcəkdir.

# Nəticə

## Mehdiyyət dünyanı Günəş kimi aydınlandıracaq, münafiqlik hz. Mehdi (ə.s) vəsiləsi ilə yox olacaq

Yaxşılarla pislərin mübarizəsi Hz. Adəm (ə.s) dövründə başlamışdır və qiyamətə qədər də davam edəcəkdir. Tarixin hər dövründə, insanları pisliyə və inkara sürükləmək üçün mübarizə edən ən böyük mənfi güc "**dəccaliyyət**"dir. İnsanları din əxlaqından uzaqlaşdıran, fitnə və qarışıqlığı qızışdıran hər cür ideologiya və düşüncə sistemi, "**dəccal**"ı təmsil edir. Pisliyin qarşısında olan, dəccalın fitnəsini təsirsiz hala gətirəcək və insanları doğru yola, hidayətə yönəldəcək olan Rahmani güc də "**mehdiyyət**"dir.

Yaxşılıq və pislik arasındakı; şeytanın tərəfdarlarıyla Haqqın tərəfi arasındakı mübarizə, tarixin başlanğıcından bu yana davam etməkdədir. Tarixdəki Hz. İbrahim (ə.s) və Nəmrud, Hz. Musa (ə.s) və Firon kimi, hər dövrün "**dəccal və mehdi mübarizələri**" bu mövzunun ən bilinən nümunələrindəndir. İçərisində olduğumuz "**Axırzamanda isə bu fikri mübarizə Hz. Mehdi (ə.s) ilə Məsih Dəccal arasında davam etməkdədir**". Tarix boyu olduğu kimi, "**Axırzamanda da dəccalın ən mühüm qüvvəsi yenə münafiqlərdir**". Şeytanı, inkar edənləri və münafiqləri özünə müttəfiq əldə etmiş olan dəccaliyyət, əmrindəki bu güclərlə birlikdə hal-hazırda mehdiyyətə qarşı amansız döyüş göstərir.

Adətullah gərəyi, tarixin hər dövründə haqq dinin təbliğində müsəlmanlara liderlik edən, onları hidayətə çağıran və islam əxlaqını dünyaya hakim etmək üçün səy göstərən "**mənəvi lider**" olmuşdur. Elə Axırzamanda müsəlmanları Quran əxlaqına və hidayətə yönəldəcək, onları birləşdirib tək bir çatı altında yığacaq olan adam də "**Hz. Mehdi (ə.s)**"dır. Hz. Mehdi (ə.s), Allahın izni ilə, insanları inkara sürükləyən, din əxlaqından uzaqlaşdıran, hər cür ideologiya və düşüncə sisteminin lideri olan Dəccali fikirlə təsirsiz hala gətirəcək və dünyaya islam əxlaqını hakim edəcəkdir.

**"Mehdiyyət"in çox əhəmiyyətli bir xüsusiyyəti də anti-münafiq hərəkət olmasıdır.** Dəccaliyyətin ziddi olan **Mehdiyyət**, dəccal hərəkatının nümayəndələri olan münafiqlərin də ziddi hərəkatdır. Allah Hz. Mehdi (ə.s)-ı xüsusi olaraq belə bir mənəvi güc ilə yaratmışdır. **Münafiqlərin diaqnoz edilib təsirsiz hala gətirilə bilməsi üçün Mehdiyyət bacarığı lazımdır. Elə Mehdiyyət də "münafiq ovçusu" bir sistemdir**. Allah Hz. Mehdi (ə.s)-ı islam dünyasına xüsusi olaraq "**qurtarıcı vəsfi ilə**" göndərmiş və ona "**bu xüsusi qabiliyyəti**" vermişdir.

Peyğəmbərimiz (s.ə.v) bir hədisində, "***Mehdi hökmranlığı zamanında zalımların və təkəbbür edənlərin hökmranlığı, münafiqlərin və xainlərin nüfuzu sona çatacaqdır.***" (Əl-Mehdiyy-il Mevud, cild 1, səh. 252) sözləriylə Allahın, Hz. Mehdi (ə.s) üzərindəki bu lütfünə diqqət çəkmişdir. **Hz. Mehdi (ə.s) vəsiləsiylə, dəccalların, inkarçıların, münafiqlərin, dərin dövlətlərin, terroristlərin, zalımların, xainlərin və insanlara qarşı təkəbbür göstərərək əxlaqsızlıq edənlərin nüfuzu və hakimiyyəti sona çatacaqdır.**

Böyük islam alimi **Bədiüzzaman Səid Nursi həzrətləri** bir sözündə, dünyadakı münafiqlik hərəkətinin Hz. Mehdi (ə.s) vəsiləsiylə sona çatacağını, "... Al-i Beyt-i Nəbəvinin silsilə-ı nuranəsinə bağlanan (Peyğəmbərimizin (s.ə.v)-in soyundan), əhl-i vəlayət (vəlilərin) və əhli kamalın (kamal insanların) başına keçəcək **Al-ı Beytdən (Peyğəmbərimiz (s.ə.v)-in soyundan) Məhəmməd Mehdi adında bir şəxs-i nurani, o Süfyanın şəxsi-mənəvisi olan cərəyan-ı münafiqanəyi (fikrən) yox edib dağıdacaq.** (*Məktubat, səh. 56-57*) sözləriylə bildirmişdir. **Axırzamanda münafiqlər Hz. Mehdi (ə.s) vəsiləsiylə fikrən təsirsiz hala gələcəklər. Bəlkə içlərində münafiqlikdən imtina etməyəcək və səmimi iman etməyəcəklərdir; amma münafiqliyə dair hərəkətlərinə son verəcəklər.**

Peyğəmbərimiz (s.ə.v)-dən rəvayət edilən başqa bir hədisdə, "***Daha bir çox insan Qurandan çox, Mehdidən qorxduqları üçün günahlardan qaçacaqdır...***" (*Əl-Futuhatul Makkiyah, səh. 6*) sözləriylə açıqlandığı kimi, münafiqlər Allahdan qorxmayacaq amma Hz. Mehdi (ə.s)-ın ağlından, güclü fərasətindən və bəsirətindən çox çəkinəcəklərdir. Peyğəmbərimiz (s.ə.v)-in ***"...Mehdi münafiqləri nişanələrindən (əlamətlərindən) tanıyacaq.***" (*Yəvmul Halas, Kamil Süleyman, səh. 135*) hədisi ilə xəbər verildiyi kimi, Hz. Mehdi (ə.s) münafiqləri dərhal diaqnoz edib tanıyacaq; münafiqlər də bunu bildikləri üçün hiyləgər fəaliyyətlərini etməkdən qorxacaqlar. Sonunda da əxlaqsızlıq etməyə güc və cəsarət tapa bilməyərək münafiq hərəkətlərinə son verəcək və zahirən müsəlman kimi yaşamaq məcburiyyətində qalacaqlar. Peyğəmbərimiz (s.ə.v)-in bir hədisində Hz. Mehdi (ə.s)-ın münafiqlər üzərindəki bu mənəvi qalibiyyəti belə xəbər verilmişdir:

*Əbu Basardan: İmam Cəfəri Sadiq əleyhissalam "**Günahkarlar çöhrələrinindən tanınacaq**" (Məhəmməd Surəsi, 30), ayəsi haqqında belə buyurdu: Allah onları tanıyar, lakin bu ayə Qaim (yəni Mehdi) haqqında nazil olmuşdur. **Mehdi onları (münafiqləri) çöhrələrindən tanıyacaq və səhabələri ilə birlikdə onları (mənən) darmadağın edəcək.** (Şeyx Məhəmməd ibn İbrahim-i Numani, Qeybəti-Numani, səh. 283)*

Bir başqa hədisdə, "**Allahın düşməni olan Məsih-i Dəccal, İsa Əleyhissalamı görüncə, duzun suda əridiyi kimi əriyər**." (*Müslim, Kitabül Fiten, səh. 34*) sözləriylə, xəbər verildiyi kimi, Dəccaliyyətin, haqq qarşısında "**duzun suda əriyib**" təsirsiz yox olması kimi; **islam dünyasındakı münafiqlər də, Hz. Mehdi (ə.s) qarşısında bütün güclərini itirib təsirsiz hala gələcəklər.**

Hz. Mehdi (ə.s), Allahın ona ilham etdiyi ağıl və hikmət ilə, münafiqin ən əhəmiyyətli silahı olan "**gizliliyi**" ortadan qaldıracaq və onun bütün əxlaqsızlıqlarını, şeytani üsullarını gün kimi su üzünə çıxaracaqdır. Beləcə münafiqlərin bu günə qədər əldə etmiş olduqları ən böyük üstünlükləri aradan qalxacaq; münafiqliyi təsvir edilməyən, bilinməyən və insanlar tərəfindən diaqnoz edilməmiş sistemi təsirsiz hala gələcəkdir. **Hz. Mehdi (ə.s) münafiqin gizliliyini yox edərək, onun bu hiyləsini ləğv edəcəkdir.**

**Çünki münafiq sanki "yarasa kimidir". Eyni yarasa kimi, münafiq də günəşi, işığı görəndə, pərişan olar və qaçacaq bir dəlik axtarmağa başlayar.** Elə Hz. Mehdi (ə.s)-da, sanki münafiqin üzərinə bir proyektor tutaraq onu işıqlandıracaq və beləcə hara qaçarsa

qaçsın, mənəvi cəhətdən yaxalanacağını bilən münafiqlər, əxlaqsızlıqlarını edə bilməyəcək hala gələcəklər. Elə bu Allahın bütün islam aləminə bir qurtarıcı olaraq göndərdiyi Hz. Mehdi (ə.s)-a lütfü və iman edənlərə olan mərhəmətdir. İslam dünyası əsrlərdir gözlədiyi rifah, hüzur və xoşbəxtliyə (Allahın izni ilə) Hz. Mehdi (ə.s) vəsiləsiylə qovuşacaqdır.

**ADNAN OKTAR**: "Münafiqi hərtərəfli müəyyən etmək **İslamın Mehdiyyət dövründəki hakimiyyətində bütün münafiqlərin qapılarını bağlayacaq**. Biz indi onun hazırlığını edirik. Münafiqin rəzil edilməsi, yaxşıca tanıdılması, dünyada sanki yaşaya bilməyəcək hala gətirilməsi, Hz. Mehdi (ə.s) dövründə olur. Ona görə hər münafiq, həmin münafiq əlamətlərindən, nifaqdan məcburən imtina etmiş olur. Ona görə heç nifaq əlaməti görülməyəcək Mehdi (ə.s) dövründə. Yoxsa heç münafiq olmayacaq deyə bir şey yoxdur Hz. Mehdi (ə.s) dövründə; amma əlamətini görə bilməyəcəyik. Çünki elə gün kimi müəyyən olacaq münafiq, baxan kimi hər kəs dərhal anlayacaq. **Anlaşılmaq qorxusundan ötəri də münafiq iflic olacaq**. Amma bu dövrdə təbii ki, qulağını tıxaya bilər, gözünü bağlaya bilər. **Amma İslam bütün dünyaya hakim olduqda, gözünü bağlayacaq, qulağını tıxacaq halı qalmayacaq münafiqin.**

**Ona görə biz onun zəminini indidən hazırlayırıq Hz. Mehdi (ə.s)-a kömək etmək üçün. Hz. Mehdi (ə.s)-ın qarşısında münafiq qalmasın deyə hazırlıq edirik.**

Bədiüzzaman nə deyir? "**Mehdi o cərəyanı münafiqanəyi (fikrən) öldürüb dağıdacaq**" deyir. Əsas edəcəyi budur "**cərəyanı münafiqanə"yi dağıtmaq**". Bunun üçün də çox əhatəli bir hazırlıq lazımdır. **Elə kitablar, CD-lər, yazılar və bunu həmişə gündəmdə tutmaq, təkrarlamaq. Çünki münafiq hara gedərsə "münafiq əlamətləriylə" qarşılaşacaq. İnterneti açdığında münafiq əlamətləriylə qarşılaşacaq, radionu açdığında münafiq əlamətlərini duyacaq, televizoru açdığında münafiq əlamətlərini görəcək. Qaçıb gedəcək heç bir yeri qalmayacaq.** Bir söhbətə gəldikdə, orada bunu duyacaq və beləcə bu murdar məxluqatlar müsəlmanlara heç vaxt zərər verə bilməyəcək hala gələcəklər. Axırzamandakı hadisə budur. Yoxsa münafiq olmayacaq mənasında deyil. Hal-hazırda münafiq tam təsvir edilmədiyi üçün, Quranda var amma həyat hərəkətini bilmir insanlar, ona görə də münafiqlər islam aləmində əlini qolunu yelləyərək iş görürlər. Məsələn böyük alim deyir, halbuki özü münafiq. Böyük müctəhid deyir, halbuki münafiq, fərq edə bilmirlər. Ətrafında halqa olurlar, dəli kimi müdafiə edirlər. Halbuki azğın münafiq. Amma **münafiqi bu cür gün kimi təsvir edərsən, hər kəs də su kimi əzbərləsə münafiqin bu dünyada yaşamaq sahəsi qalmamış olar**... Münafiq o imanın nuru içində boğulacaqdır. Qaçıb gedəcək halı qalmayacaq, bilinəcək hala gələcəkdir münafiq.

**Onun üçün münafiq əlamətlərini həmişə gecə gündüz gündəmdə tutmaq, əzbərlətmək, izah etmək dünyada münafiqin həyat sahəsini yox etmək mənasına gəlir.** O zaman müsəlmanlar münafiq fəaliyyəti olmayan bir dünyada yaşamış olacaqlar. Və o da onlara dəhşətli dərəcədə lüks, rahatlıq, bərəkət və güc verəcəkdir..." (A9 TV, 6 iyun 2016)

# TƏKAMÜL YALANI

Darvinizm, yəni təkamül nəzəriyyəsi yaradılış həqiqətini inkar etmək məqsədilə irəli sürülmüş, ancaq uğursuzluqla nəticələnmiş elmdən kənar cəfəngiyatdan başqa bir şey deyil. Canlıların cansız maddələrdən təsadüfən əmələ gəldiyini iddia edən bu nəzəriyyə kainatda və canlılarda çox möcüzəvi nizam olduğunun elm tərəfindən sübut edilməsi ilə və təkamül prosesinin əsla baş vermədiyini göstərən 350 milyona yaxın fosilin tapılması ilə süqut etmişdir. Beləliklə, Allah'ın bütün kainatı və canlıları yaratdığı elm tərəfindən də sübut edilmişdir. Bu gün təkamül nəzəriyyəsini dirçəltmək üçün dünya səviyyəsində aparılan təbliğat sadəcə elmi həqiqətlərin təhrif olunmasına, tərəfli şərhinə, elm adı altında söylənilən yalan və saxtakarlıqlara əsaslanır.

Ancaq bu təbliğat həqiqəti gizlətmir. Təkamül nəzəriyyəsinin elm tarixində ən böyük xəta olması son 20-30 il ərzində elm dünyasında getdikcə daha ucadan dilə gətirilir. Xüsusilə 1980-ci illərdən sonra aparılan tədqiqatlar darvinist iddiaların tamamilə səhv olduğunu üzə çıxarmış və bu həqiqət bir çox elm adamı tərəfindən dilə gətirilmişdir. ABŞ-da biologiya, biokimya, paleontologiya kimi fərqli sahələrlə məşğul olan bir çox elm adamı darvinizmin əsassızlığını görür, canlıların mənşəyini artıq yaradılışla açıqlayırlar.

Təkamül nəzəriyyəsinin süqutundan və yaradılış dəlillərindən digər bir çox əsərimizdə bütün elmi təfərrüatları ilə bəhs etmişik və etməyə davam edirik. Ancaq əhəmiyyəti baxımından mövzudan burada da bəhs etməkdə fayda var.

### Darvini məhv edən çətinliklər

Təkamül nəzəriyyəsi tarixi qədim yunanlara gedib çıxan bir təlim olmasına baxmayaraq, XIX əsrdə hərtərəfli şəkildə irəli sürüldü. Nəzəriyyəni elm dünyasının gündəminə gətirən ən mühüm irəliləyiş Çarlz Darvinin 1859-cu ildə nəşr edilən "Növlərin mənşəyi" adlı kitabı idi. Darvin bu kitabda dünyadakı müxtəlif canlı növlərini Allah'ın ayrı-ayrı yaratdığına qarşı çıxırdı. Darvinin fikrincə, bütün növlər ortaq əcdaddan törəmiş və zaman ərzində kiçik dəyişikliklərlə müxtəlifləşmişdilər.

Darvinin nəzəriyyəsi heç bir konkret elmi tapıntıya əsaslanmırdı; özünün də qəbul etdiyi kimi, sadəcə bir məntiq yeritmə idi. Hətta Darvin kitabındakı "Nəzəriyyənin qarşısında duran çətinliklər" başlıqlı uzun bölmədə etiraf etdiyi kimi, nəzəriyyə bir çox mühüm suala cavab verə bilmirdi.

Darvin nəzəriyyəsinin qarşısındakı çətinliklərə inkişaf edən elmin üstün gələcəyinə, yeni elmi kəşflərin nəzəriyyəsini gücləndirəcəyinə ümid edirdi. Bunu kitabında tez-tez bildirirdi. Ancaq inkişaf edən elm Darvinin ümidlərinin tam əksinə, nəzəriyyənin əsas iddialarını bir-bir əsassız qoydu.

Darvinizmin elm qarşısındakı məğlubiyyətini üç əsas başlıq altında təhlil etmək olar:

Nəzəriyyə həyatın yer üzündə ilk dəfə necə ortaya çıxdığını əsla açıqlaya bilmir.

Nəzəriyyənin irəli sürdüyü təkamül mexanizmlərinin, əslində, təkamül xarakterinə malik olduğunu göstərən heç bir elmi tapıntı yoxdur.

Fosillər təkamül nəzəriyyəsinin iddialarının tam əksini göstərir.

Bu bölmədə bu üç əsas başlığı əsaslı təhlil edəcəyik.

**Keçilməz ilk pillə: həyatın mənşəyi**

Təkamül nəzəriyyəsi bütün canlı növlərinin bundan təxminən 3.8 milyard il əvvəl dünyada fantastik şəkildə təsadüfən meydana gələn bircə canlı hüceyrədən törədiklərini iddia edir. Bircə hüceyrənin milyonlarla kompleks canlı növünü necə əmələ gətirməsi və əgər həqiqətən bu cür təkamül baş vermişsə, nə üçün izlərinin fosillərdə tapılmadığı nəzəriyyənin açıqlaya bilmədiyi suallardandır. Ancaq bütün bunlardan əvvəl iddia edilən təkamül prosesinin ilk pilləsi üzərində dayanmaq lazımdır. Həmin ilk hüceyrə necə ortaya çıxmışdır?

Təkamül nəzəriyyəsi cahilliklə yaradılışı inkar etdiyinə görə, həmin ilk hüceyrənin heç bir plan və nizam olmadan təbiət qanunları çərçivəsində təsadüfən meydana gəldiyini iddia edir. Yəni bu nəzəriyyəyə əsasən, cansız maddə kortəbii təsadüflər nəticəsində ortaya canlı hüceyrə çıxarmalıdır. Ancaq bu, məlum olan ən təməl biologiya qanunlarına zidd iddiadır.

**Həyat həyatdan gəlir**

Darvin kitabında həyatın mənşəyindən heç bəhs etməmişdi. Çünki onun dövründəki ibtidai elm anlayışı canlıların çox sadə quruluşa malik olduqlarını fərz edirdi. Orta əsrlərdən bəri "spontane generation" adlı nəzəriyyəyə əsasən, cansız maddələrin təsadüfən birləşərək canlı varlıq əmələ gətirməsinə inanırdılar. Bu dövrdə həşəratların yemək artıqlarından, siçanların da buğdadan əmələ gəlməsi geniş yayılmış düşüncə idi. Bunu sübut etmək üçün qəribə təcrübələr aparılmışdı. Çirkli əsginin üstünə bir az buğda qoyulmuş və bir müddət sonra bu qarışıqdan siçanların əmələ gəlməsini gözləmişdilər.

Ətin qurdlanması da həyatın cansız maddələrdən törədiyinə dəlil hesab edilirdi. Lakin daha sonra məlum olacaqdı ki, ətin üstündəki qurdlar öz-özlərindən əmələ gəlmirlər, milçəklərin gətirib qoyduğu gözlə görülməyən sürfələrdən çıxırdılar. Darvin "Növlərin mənşəyi" adlı kitabını yazdığı dövrdə isə bakteriyaların cansız maddədən əmələ gəlməsi inancı elm dünyasında geniş şəkildə qəbul edilirdi.

Lakin Darvinin kitabının nəşr edilməsindən beş il sonra məşhur fransız bioloq Lui Paster təkamülə əsas verən bu inancı qəti şəkildə təkzib etdi. Paster apardığı uzun elmi fəaliyyət və təcrübələrdə gəldiyi nəticəni belə şərh etmişdi:

"Cansız maddələrin həyatı əmələ gətirməsi iddiası artıq qəti şəkildə tarixə gömülmüşdür". *(Sidney Fox, Klaus Dose, Molecular Evolution and The Origin of Life, New York: Marcel Dekker, 1977, səh. 2)*

Təkamül nəzəriyyəsinin tərəfdarları Pasterin kəşflərinə uzun müddət qarşı çıxdılar. Ancaq inkişaf edən elm canlı hüceyrəsinin mürəkkəb quruluşunu üzə çıxardıqca həyatın öz-özünə əmələ gəlməsi iddiasının əsassızlığı daha da açıq şəkil aldı.

**XX əsrdəki nəticəsiz səylər**

XX əsrdə həyatın mənşəyi mövzusunu tədqiq edən ilk təkamülçü məşhur rus bioloq Aleksandr Oparin oldu. Oparin 1930-cu illərdə irəli sürdüyü bəzi tezislərlə canlı hüceyrəsinin təsadüfən meydana gələ biləcəyini sübut etməyə çalışdı. Ancaq bu fəaliyyətlər uğursuzluqla nəticələnəcək və Oparin bu etirafı etməli olacaqdı:

"Təəssüf ki, hüceyrənin mənşəyi təkamül nəzəriyyəsinin tamamilə əhatə edən ən qaranlıq nöqtədən ibarətdir". *(Alexander I. Oparin, Origin of Life, (1936) New York, Dover Publications, 1953 (Reprint), səh. 196)*

Oparinin yolunu davam etdirən təkamülçülər həyatın mənşəyi problemini həll etmək üçün təcrübələr aparmağa çalışdılar. Bu təcrübələrin ən məşhuru amerikalı kimyaçı Stenli Miller tərəfindən 1953-cü ildə aparıldı. Miller ibtidai atmosferdə mövcud olduğunu iddia etdiyi qazları bir təcrübədə birləşdirdi və bu qarışığa enerji verərək zülalları təşkil edən bir neçə üzvi molekul (amin turşusu) sintezlədi.

O illərdə təkamüllə bağlı mühüm mərhələ kimi tanıdılan bu təcrübənin əsassız olduğu və təcrübədə tətbiq edilən atmosferin yer şərtlərindən çox fərqli olduğu sonrakı illərdə üzə çıxacaqdı. *("New Evidence on Evolution of Early Atmosphere and Life", Bulletin of the American Meteorological Society, c. 63, Kasım 1982,* səh. 1328-1330)

Uzun sükutdan sonra Millerin özü də tətbiq etdiyi atmosfer mühitinin həqiqi olmadığını etiraf etdi. *(Stanley Miller, Molecular Evolution of Life: Current Status of the Prebiotic Synthesis of Small Molecules, 1986, səh. 7)*

Həyatın mənşəyi problemini açıqlamaq üçün XX əsr boyu göstərilən bütün təkamülçü səylər uğursuzluqla nəticələndi. San Diyeqo Skrips İnstitutundan məşhur geokimyaçı Cefri Bada təkamülçü "Earth" jurnalında 1998-ci ildə dərc edilən bir məqalədə bu həqiqəti belə qəbul edir:

"Bu gün XX əsri arxada qoyarkən hələ də XX əsrin başlanğıcındakı ən böyük həll edilməmiş problemlə qarşı-qarşıyayıq: həyat yer üzündə necə başlayıb". *(Jeffrey Bada, Earth, Şubat 1998, səh. 40)*

**Həyatın kompleks quruluşu**

Təkamülçülərin həyatın mənşəyi ilə bağlı bu qədər çıxılmaz vəziyyətə düşməsinin başlıca səbəbi ən sadə hesab etdikləri canlıların bu qədər mürəkkəb quruluşa malik olmasıdır. Canlı hüceyrəsi insanın hazırladığı bütün texnoloji məhsullardan daha mürəkkəbdir. Belə ki, bu gün dünyanın ən qabaqcıl laboratoriyalarında belə cansız maddələr birləşdirilərək nəinki canlı hüceyrə, hətta hüceyrəyə aid bircə zülal da hasil etmək mümkün deyil.

Bir hüceyrənin meydana gəlməsi üçün lazımlı şərtlər əsla təsadüflərlə açıqlanmayacaq qədər çoxdur. Lakin bunu açıqlamağa heç ehtiyac yoxdur. Təkamülçülər hələ hüceyrə səviyyəsinə çatmadan çıxılmaz vəziyyətə düşürlər. Çünki hüceyrənin əsasını təşkil edən zülalların təsadüfən sintezlənmə ehtimalı riyazi cəhətdən sıfırdır.

Bunun ən əsas səbəbi budur ki, bir zülalın əmələ gəlməsi üçün başqa zülallar da olmalıdır. Bu səbəb bir zülalın təsadüfən əmələgəlmə ehtimalını tamamilə aradan qaldırır. Ona görə, təkcə bu fakt təkamülçülərin təsadüf iddiasını təkzib etmək üçün kifayətdir. Mövzunun əhəmiyyətini qısaca açıqlayaq:

**- Fermentlər olmasa, zülal sintezlənə bilməz, fermentlər də zülaldır.**

**- Bircə zülalın sintezlənməsi üçün 100-ə yaxın hazır zülal olmalıdır. Ona görə, zülalların olması üçün zülallar lazımdır.**

**- Zülalları sintezləyən fermentləri DNT hazırlayır. DNT olmasa, zülal sintezlənə bilməz. Ona görə, zülalların əmələ gəlməsi üçün DNT də lazımdır.**

**-Zülal sintezləmə prosesində hüceyrədəki bütün orqanoidlərin mühüm funksiyaları var. Yəni zülalların əmələ gəlməsi üçün tam funksional hüceyrə bütün orqanoidləri ilə birlikdə mövcud olmalıdır.**

Hüceyrənin nüvəsində yerləşən, genetik məlumat daşıyan DNT molekulu isə informasiya bankıdır. İnsan DNT-sindəki informasiyanı kağıza köçürmək istəsək, hər biri 500 səhifədən ibarət 900 cildlik kitabxana ortaya çıxar.

Burada çox maraqlı dilemma da var: DNT ancaq bir sıra xüsusi zülalların (fermentlərin) köməyi ilə qoşalaşa bilər. Amma bu fermentlər də ancaq DNT-dəki informasiya əsasında sintezlənir. Bir-birlərindən asılı olduqlarına görə, DNT-nin qoşalaşması üçün ikisi də eyni anda mövcud olmalıdır. Bu isə həyatın öz-özünə meydana gəlməsi ssenarisini çıxılmaz vəziyyətə salır. San Diyeqo Kaliforniya Universitetindən məşhur təkamülçü prof. Lesli Orcel "Scientific American" jurnalının 1994-cü il oktyabr sayında bu həqiqəti belə etiraf edir:

"Olduqca kompleks quruluşa malik olan zülalların və nuklein turşularının (RNT və DNT) eyni yerdə və eyni zamanda təsadüfən əmələ gəlmələri həddindən artıq ehtimaldan kənardır. Ancaq bunların biri olmadan digərini əldə etmək də mümkün deyil. Ona görə, insan məcburən həyatın kimyəvi yollarla meydana gəlməsinin tamamilə qeyri-mümkün olduğu nəticəsinə gəlir". *(Leslie E. Orgel, The Origin of Life on Earth, Scientific American, c. 271, Ekim 1994, səh. 78)*

Şübhəsiz ki, əgər həyatın kortəbii təsadüflərlə öz-özünə meydana gəlməsi mümkün deyilsə, onda həyatın yaradıldığı qəbul edilməlidir. Bu həqiqət əsas məqsədi yaradılışı inkar etmək olan təkamül nəzəriyyəsini açıq-aydın əsassız edir.

### Təkamülün xəyali mexanizmləri

Darvinin nəzəriyyəsini əsassız edən ikinci əsas cəhət nəzəriyyənin təkamül mexanizmləri kimi irəli sürdüyü iki anlayışın da, əslində, heç bir təkamül gücünə malik olmamasıdır.

Darvin irəli sürdüyü təkamül iddiasını tamamilə təbii seleksiya mexanizmi ilə əlaqələndirmişdi. Bu mexanizmə verdiyi əhəmiyyət kitabının adından da açıq şəkildə başa düşülür: "Növlərin mənşəyi, təbii seleksiya yolu ilə..."

Təbii seleksiya təbii seçmə deməkdir, təbiətdəki həyat uğrunda mübarizədə təbii şərtlərə uyğun və güclü canlıların həyatda qalacağı düşüncəsinə əsaslanır. Məsələn, yırtıcı heyvanlar tərəfindən təhlükəyə məruz qalan bir maral sürüsündə daha sürətlə qaçan marallar həyatda qalacaq. Beləliklə, maral sürüsü sürətlə qaçan və güclü fərdlərdən ibarət olacaq. Amma bu mexanizm maralların təkamül keçirməsinə səbəb olmaz, onları başqa bir canlı növünə, məsələn, atlara çevirməz.

Ona görə, təbii seçmə mexanizmi heç bir təkamül gücünə malik deyil. Darvin də bu həqiqəti anlamışdı və "Növlərin mənşəyi" adlı kitabında: **"Faydalı dəyişikliklər baş vermədikcə təbii seçmə heç bir şey edə bilməz"**, - demək məcburiyyətində qalmışdı. *(Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 184)*

**Lamarkın təsiri**

Bəs bu faydalı dəyişikliklər necə baş verə bilərdi? Darvin öz dövrünün ibtidai elm anlayışı çərçivəsində bu suala Lamarka əsaslanaraq cavab verməyə çalışmışdı. Darvindən əvvəl yaşamış fransız bioloq Lamarka görə, canlılar həyatları boyu keçirdikləri fiziki dəyişiklikləri sonrakı nəslə ötürürlər, nəsildən-nəslə toplanan bu xüsusiyyətlər nəticəsində yeni növlər meydana gəlir. Məsələn, Lamarkın fikrincə, zürafələr ceyranlardan törəyiblər, hündür ağacların yarpaqlarını yeməyə çalışarkən nəsildən-nəslə boyunları uzanmışdır.

Darvin də buna bənzər misallar çəkmiş, məsələn, "Növlərin mənşəyi" kitabında qida tapmaq üçün suya girən bəzi ayıların tədricən balinalara çevrildiyini iddia etmişdi. (B. G. Ranganathan, Origins?, Pennsylvania: The Banner Of Truth Trust, 1988.)

Lakin Mendelin kəşf etdiyi və XX əsrdə inkişaf edən genetika elmi ilə qəti şəkildə sübut edilən genetika qanunları qazanılmış xüsusiyyətlərin sonrakı nəsillərə ötürülməsi əfsanəsini məhv etdi. Beləliklə, təbii seçmə "təkbaşına" və tamamilə təsirsiz mexanizm olaraq qaldı.

**Neodarvinizm və mutasiyalar**

Darvinistlər isə bu vəziyyətə bir çıxış yolu tapmaq üçün 1930-cu illərin sonlarında müasir sintetik nəzəriyyəni və ya daha geniş yayılmış adı ilə neodarvinizmi ortaya atdılar. Neodarvinizm təbii seçmənin yanına faydalı dəyişiklik səbəbi kimi mutasiyaları, yəni canlıların genlərində radiasiya kimi xarici amillər və ya transkripsiya xətaları nəticəsində əmələ gələn pozulmaları əlavə etdi. Bu gün də elmi cəhətdən əsassız olduğunu bilmələrinə baxmayaraq, darvinistlər neodarvinist modeli müdafiə edirlər. Nəzəriyyə yer üzündəki milyonlarla canlı növünün, onların qulaq, göz, ağciyər, qanad kimi saysız-hesabsız mürəkkəb orqanlarının mutasiyalara, yəni genetik pozulmalara əsaslanan bir proses nəticəsində əmələ gəldiyini iddia edir. Amma nəzəriyyəni çarəsiz qoyan bir açıq elmi həqiqət var: mutasiyalar canlıları təkmilləşdirmirlər, əksinə, hər zaman canlılara zərər verirlər.

Bunun səbəbi çox sadədir: DNT çox mürəkkəb quruluşa malikdir. Bu molekula olan hər hansı təsadüfi təsir ancaq zərər verir. Amerikalı genetik B.G. Ranqanatan bunu belə açıqlayır:

“Mutasiyalar kiçik, təsadüfi və zərərlidirlər. Çox nadir meydana gəlirlər və ən yaxşı halda təsirsizdirlər. Bu üç xüsusiyyət mutasiyaların təkamül xarakterli təsir meydana gətirməyəcəyini sübut edir. Yüksək dərəcədə xüsusiləşmiş orqanizmdə meydana gələn təsadüfi dəyişiklik ya təsirsiz, ya da zərərli olur. Bir qol saatında meydana gələn təsadüfi dəyişiklik qol saatını təkmilləşdirməz. Ona böyük ehtimalla zərər verər və ya ən yaxşı halda təsir etməz. Bir zəlzələ bir şəhəri daha yaxşı hala salmaz, onu məhv edər”. *(Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 179)*

Bu günə qədər heç bir faydalı, yəni genetik məlumatı təkmilləşdirən mutasiya müşahidə edilməyib. Bütün mutasiyaların zərərli olması aşkar edilib. Aydın olmuşdur ki, təkamül nəzəriyyəsinin təkamül mexanizmi kimi göstərdiyi mutasiyalar, əslində, canlıları sadəcə məhv edən, şikəst edən genetik hadisələrdir (insanlarda mutasiyanın ən çox rast gəlinən təsiri xərçəngdir). Əlbəttə, məhvedici mexanizm təkamül mexanizmi ola bilməz. Təbii seçmə isə Darvinin də qəbul etdiyi kimi, tək başına heç bir şey edə bilməz. Bu həqiqət bizə təbiətdə heç bir təkamül mexanizminin olmadığını göstərir. Təkamül mexanizmi olmadığına görə, təkamül deyilən xəyali proses də baş verməyib.

**Fosillər: ara-keçid formalardan əsər-əlamət yoxdur**

Təkamül nəzəriyyəsinin iddia etdiyi prosesin baş vermədiyinin ən açıq göstəricisi isə fosillərdir.

Təkamül nəzəriyyəsinə görə, bütün canlılar bir-birlərindən törəyiblər. Əvvəlcədən mövcud olan bir canlı növü zaman ərzində digərinə çevrilmiş və bütün növlər bu şəkildə əmələ gəlmişlər. Nəzəriyyəyə əsasən, bu çevrilmə yüz milyon illər davam edən uzun dövrü əhatə etmiş və mərhələ-mərhələ irəliləmişdir. Bu təqdirdə iddia edilən uzun çevrilmə prosesi zamanı saysız-hesabsız ara növlər əmələ gəlməli və yaşamalıdırlar.

Məsələn, keçmişdə balıq xüsusiyyətlərini daşımalarına baxmayaraq, bir tərəfdən də bəzi sürünən canlı xüsusiyyətlərini qazanmış yarı-balıq, yarı-sürünən canlılar yaşamalıdır və ya sürünən xüsusiyyətlərini daşıyan, bir tərəfdən də bəzi quş xüsusiyyətləri qazanmış sürünən quşlar ortaya çıxmalıdır. Bunlar bir keçid prosesində olduqları üçün şikəst, yarımçıq, qüsurlu canlılar olmalıdır. Təkamülçülər keçmişdə yaşadığına inandıqları bu nəzəri məxluqları “ara-keçid forması” adlandırırlar.

Əgər, həqiqətən, bu cür canlılar keçmişdə yaşayıbsa, onların sayı və növü milyonlarla, hətta milyardlarla olmalıdır və bu əcaib canlıların qalıqlarına mütləq fosil izlərində rast gəlinməlidir. Darvin “Növlərin mənşəyi”ndə bunu belə açıqlamışdır:

“Əgər nəzəriyyəm doğrudursa, növləri bir-biri ilə əlaqələndirən saysız-hesabsız ara-keçid növləri keçmişdə mütləq yaşamalıdır... Onların yaşadığının dəlilləri də sadəcə fosil qalıqları arasında tapıla bilər”. *(Charles Darwin, The Origin of Species, səh. 172, 280)*

Ancaq bu sətirləri yazan Darvin ara-keçid formaların heç cür tapılmadığını bilir və bunun nəzəriyyəsi üçün böyük problem olduğunu görürdü. Ona görə, "Növlərin mənşəyi" kitabının "Nəzəriyyənin qarşısında duran çətinliklər" (Difficulties on Theory) adlı bölməsində belə yazmışdı:

"Əgər, həqiqətən, növlər digər növlərdən yavaş dəyişikliklərlə törəyibsə, nə üçün saysız-hesabsız ara-keçid formasına rast gəlmirik? Nə üçün bütün təbiət qarmaqarışıq vəziyyətdə deyil, məhz yerli-yerindədir? Saysız-hesabsız ara-keçid forması olmalıdır, bəs nə üçün yer üzünün çoxsaylı təbəqələrində onları tapmırıq?... Nə üçün hər geoloji forma və hər təbəqə belə qalıqlarla dolu deyil?" *(Charles Darwin, The Origin of Species, səh. 172, 280)*

**Darvinin puç olan ümidləri**

Ancaq XIX əsrin ortasından indiyə qədər dünyanın hər tərəfində qızğın fosil araşdırmaları aparılmasına baxmayaraq, ara-keçid formalarına rast gəlinməmişdir. Aparılan qazıntı işlərində və tədqiqatlarda əldə edilən bütün tapıntılar təkamülçülərin gözlədiklərinin əksinə, canlıların yer üzündə birdən-birə, tam və qüsursuz formada ortaya çıxdıqlarını göstərmişdir.

Məşhur ingilis paleontoloq Derek V. Eycer təkamülçü olmasına baxmayaraq, bu həqiqəti belə etiraf edir:

"Problemimiz budur: fosilləri hərtərəfli tədqiq etdikdə növlər və ya siniflər səviyyəsində belə daima eyni həqiqətlə qarşılaşırıq; mərhələli təkamüllə təkmilləşən deyil, birdən-birə yer üzündə əmələ gələn qruplar görürük". (Derek A. Ager, "The Nature of the Fossil Record", Proceedings of the British Geological Association, c. 87, 1976, səh. 133)

Yəni fosil qeydlərində bütün canlı növləri aralarında heç bir keçid forması olmadan, tam formada ani surətdə ortaya çıxırlar. Bu, Darvinin fikirlərinin tam əksidir. Habelə, bu, canlı növlərinin yaradıldıqlarını göstərən çox güclü dəlildir. Çünki bir canlı növünün heç bir əcdadı olmadan, bir anda və qüsursuz şəkildə ortaya çıxmasının tək açıqlaması var: o növ yaradılmışdır. Bu həqiqət məşhur təkamülçü bioloq Duqlas Futuyma tərəfindən də qəbul edilir:

"Yaradılış və təkamül yaşayan canlıların mənşəyi haqqında iki yeganə açıqlamadır. Canlılar dünyada ya tamamilə mükəmməl və tam formada ortaya çıxmışlar, ya da belə olmamışdır. Əgər belə olmamışdırsa, bir dəyişiklik prosesi nəticəsində özlərindən əvvəl mövcud olan bəzi canlı növlərindən təkamül keçirərək meydana gəlməlidirlər. Amma əgər tam və mükəmməl formada ortaya çıxıblarsa, onda sonsuz güc sahibi olan bir ağıl tərəfindən yaradılmışlar". *(Douglas J. Futuyma, Science on Trial, New York: Pantheon Books, 1983. Səh. 197)*

Fosillər isə canlıların yer üzündə tam və mükəmməl formada ortaya çıxdıqlarını göstərir. Yəni "növlərin mənşəyi" Darvinin hesab etdiyinin əksinə, təkamül deyil, yaradılışdır.

**İnsanın təkamülü nağılı**

Təkamül nəzəriyyəsinin tərəfdarlarının ən çox gündəmə gətirdikləri məsələ insanın mənşəyidir. Bununla bağlı darvinist iddia bu gün yaşayan müasir insanın meymunabənzər məxluqlardan törədiyini zənn edir. 4-5 milyon il əvvəl başladığı fərz edilən bu prosesdə müasir insan ilə əcdadları arasında bəzi ara-keçid formaların yaşadığı iddia edilir. Əslində, tamamilə fantastik olan bu ssenaridə dörd əsas kateqoriya var:

*Australopithecus*

*Homo habilis*

*Homo erectus*

*Homo sapiens*

Təkamülçülər insanların ilk "meymunabənzər əcdadları"na "cənub meymunu" mənasını verən "australopithecus" adını veriblər. Bu canlılar, əslində, nəsli kəsilmiş meymun növüdür. Lord Solli Zukerman və prof. Çarlz Oksnard kimi İngiltərə və ABŞ-dan iki məşhur anatomun *australopithecus* nümunələri üzərində apardığı hərtərəfli araşdırmalar bu canlıların sadəcə nəsli kəsilmiş meymun növünə aid olduqlarını və insanlarla heç bir bənzərlik təşkil etmədiklərini göstərmişdir. *(Charles E. Oxnard, "The Place of Australopithecines in Human Evolution: Grounds for Doubt", Nature, c. 258, səh. 389)*

Təkamülçülər insanın təkamülünün sonrakı mərhələsini də "homo", yəni insan kimi təsnif edirlər. İddiaya əsasən, homo sırasındakı canlılar *australopithecus*lardan daha çox inkişaf ediblər. Təkamülçülər bu fərqli canlılara aid fosilləri ardıcıl düzərək fantastik təkamül sxemi qururlar. Bu sxem xəyalidir, çünki bu fərqli siniflərin arasında təkamül xarakterli əlaqə olması əsla sübut edilə bilməmişdir. Təkamül nəzəriyyəsinin XX əsrdəki ən mühüm tərəfdarlarından biri olan Ernst Mayr: "*Homo sapiens*ə uzanan zəncir halqası, əslində, itib", - deyərək bunu qəbul edir. *(J. Rennie, "Darwin's Current Bulldog: Ernst Mayr", Scientific American, Aralık 1992)*

Təkamülçülər "*ausrtalopithecus > homo habilis > homo erectus > homo sapiens*" ardıcıllığını qurarkən bu növlərin hər birinin daha sonrakının əcdadı olmasını irəli sürürlər. Lakin paleoantropoloqların son kəşfləri *australopithecus*, *homo habilis* və *homo erectus*un dünyanın müxtəlif bölgələrində eyni dövrlərdə yaşadıqlarını göstərir. *(Alan Walker, Science, c. 207, 1980, s. 1103; A. J. Kelso, Physical Antropology, 1. baskı, New York: J. B. Lipincott Co., 1970, s. 221; M. D. Leakey, Olduvai Gorge, c. 3, Cambridge: Cambridge University Press, 1971, səh. 272)*

Habelə, *homo erectus* sinfinə aid olan insanların bir qismi çox müasir dövrlərə qədər yaşayıblar, *homo sapiens neandertalensis* və *homo sapiens sapiens* (insan) ilə eyni mühitdə birlikdə mövcud olmuşlar. *(Time, noyabr 1996)*

Bu isə, əlbəttə, bu siniflərin bir-birilərinin əcdadı olduqları iddiasının əsassızlığını açıq şəkildə ortaya qoyur. Harvard Universitetinin paleontoloqlarından Stiven Cey Quld, təkamülçü olmasına baxmayaraq, darvinist nəzəriyyənin düşdüyü bu çıxılmaz vəziyyəti belə açıqlayır:

"Əgər bir-biri ilə paralel şəkildə yaşayan üç müxtəlif hominid (insanabənzər) sxemi varsa, onda bizim soy ağacımıza nə oldu? Aydındır ki, bunların biri digərindən törəyə bilməz.

Habelə, biri digəri ilə müqayisə edildikdə təkamül xarakterli inkişaf meyli göstərmirlər". *(S. J. Gould, Natural History, c. 85, 1976, səh. 30)*

Qısaca desək, KİV-də və ya dərsliklərdə verilən bir cür fantastik yarı-meymun yarı-insan canlıların rəsmləri ilə, yəni sırf təbliğat yolu ilə dirçəldilməyə çalışılan insanın təkamülü ssenarisi heç bir elmi əsası olmayan nağıldan ibarətdir. Bu mövzunu uzun illər tədqiq edən, xüsusilə *australopithecus* fosilləri üzərində 15 il araşdırma aparan İngiltərənin ən məşhur və hörmətli elm adamlarından biri olan Lord Solli Zukerman təkamülçü olmasına baxmayaraq, meymunabənzər canlılardan insana uzanan nəsil ağacı olmadığı nəticəsinə gəlmişdir.

Zukerman maraqlı elm şkalası da qurmuşdur. Elmi hesab etdiyi elm sahələrindən elmdən kənar qəbul etdiyi elm sahələrinə qədər şaxəli cədvəl çəkmişdir. Zukermanın bu cədvəlində ən elmi, yəni konkret faktlara əsaslanan elm sahələri kimya və fizikadır. Cədvəldə bunlardan sonra bioloji elmlər, daha sonra sosial fənlər gəlir. Şaxələnmənin ən kənar ucunda, yəni elmdən kənar hesab edilən hissədə isə Zukermanın fikrincə telepatiya, altıncı hiss kimi hissin fövqündə olan qavrama anlayışları və bir də insanın "təkamülü" yerləşir! Zukerman şaxələnmənin bu ucunu belə açıqlayır:

"Obyektiv reallıq sahəsindən çıxıb bioloji elm fərz edilən bu sahələrə, yəni hissin fövqündə olan qavramaya və insanın fosil tarixinin şərh edilməsinə daxil olduqda, təkamül nəzəriyyəsinə inanan bir şəxs üçün hər şeyin mümkün olduğunu görürük. Belə ki, nəzəriyyələrinə qəti şəkildə inanan bu şəxslərin ziddiyyətli bəzi rəyləri eyni anda qəbul etmələri belə mümkündür". *(Solly Zuckerman, Beyond The Ivory Tower, New York: Toplinger Publications, 1970, səh. 19)*

İnsanın təkamülü nağılı da nəzəriyyələrinə kor-koranə inanan bir sıra insanların tapdıqları bəzi fosillər haqqında qabaqcadan rəy verərək şərh etmələrindən ibarətdir.

**Darvin formulu!**

İndiyə qədər təhlil etdiyimiz bütün dəlillərlə yanaşı, istəyirsinizsə, təkamülçülərin necə cəfəng inanca malik olduqlarına bir də uşaqların belə anlayacağı qədər açıq misalla baxaq.

Təkamül nəzəriyyəsi canlıların təsadüfən əmələ gəldiyini iddia edir. Ona görə, bu iddiaya əsasən, cansız və şüursuz atomlar birləşərək əvvəlcə hüceyrəni əmələ gətirmiş və sonra eyni atomlar birləşərək digər canlıları və insanı meydana gətirmişlər. İndi düşünək, canlıların əsasını təşkil edən karbon, fosfor, azot, kalium kimi elementləri birləşdirdikdə bir yığın əmələ gəlir. Bu atom yığını hansı prosesdən keçirilsə də, bircə canlı belə əmələ gətirməz. İstəyirsinizsə, bununla bağlı bir təcrübə keçirək və təkamülçülərin, əslində, müdafiə etdikləri, amma ucadan söyləyə bilmədikləri iddianı onların adından "Darvin formulu" adı ilə nəzərdən keçirək:

Təkamülçülər çoxlu sayda böyük çənin içinə canlıların əsasını təşkil edən fosfor, azot, karbon, oksigen, dəmir, maqnezium kimi elementlərdən bol miqdarda qoysunlar. Hətta normal şərtlərdə mövcud olmayan, ancaq bu qarışığın içində lazımlı bildikləri maddələri də bu çənlərə əlavə etsinlər. Qarışıqların içinə istədikləri qədər amin turşusu, istədikləri qədər də zülal doldursunlar. Bu qarışıqlara istədikləri nisbətdə temperatur və rütubət versinlər.

Bunları istədikləri ən yaxşı texnoloji cihazlarla qarışdırsınlar. Çənlərin başında nəzarətçi kimi dünyanın qabaqcıl elm adamlarını qoysunlar. Bu mütəxəssislər atadan oğula, nəsildən-nəslə ötürülərək növbə ilə milyardlarla, hətta trilyonlarla il fasiləsiz çənlərin başında gözləsinlər. Bir canlının əmələ gəlməsi üçün hansı şərtlərin mövcud olmasını lazım bilirlərsə, hamısını tətbiq etsinlər. Ancaq nə etsələr də, o çənlərdən əsla bir canlı çıxara bilməzlər. Zürafələri, aslanları, arıları, bülbülləri, tutuquşuları, atları, delfinləri, gülləri, səhləb çiçəklərini, zanbaqları, qərənfilləri, bananları, portağalları, almaları, xurmaları, pomidorları, qovunları, qarpızları, əncirləri, zeytunları, üzümləri, şaftalıları, tovuz quşlarını, qırqovulları, rəngarəng kəpənəkləri və bunlar kimi milyonlarla canlı növündən heç birini əmələ gətirə bilməzlər. Nəinki burada sadaladığımız bir neçə canlını, bunların bircə hüceyrəsini belə əldə edə bilməzlər.

Qısaca desək, **şüursuz atomlar birləşərək hüceyrəni əmələ gətirə bilməzlər.** Sonra yeni qərar verərək bir hüceyrəni iki yerə bölüb, sonra ardıcıl başqa qərarlar verib elektron mikroskopunu icad edən, sonra öz hüceyrə quruluşunu bu mikroskop altında tədqiq edən professorları əmələ gətirə bilməzlər. **Maddə ancaq Allah'ın üstün yaratması ilə həyat qazanır.** Bunun əksini iddia edən təkamül nəzəriyyəsi isə ağıla tamamilə zidd cəfəngiyatdır. Təkamülçülərin ortaya atdığı iddialar üzərində bir az düşünmək yuxarıdakı misalda göstərildiyi kimi, bu həqiqəti üzə çıxarar.

### Göz və qulaqdakı texnologiya

Təkamül nəzəriyyəsinin qətiyyən açıqlaya bilmədiyi digər məsələ isə göz və qulaqdakı üstün duyğu keyfiyyətidir.

Gözlə bağlı mövzuya keçməzdən əvvəl "Necə görürük?" sualına qısaca cavab verək. Bir cisimdən gələn şüalar gözdə tor qişaya tərsinə düşür. Bu şüalar buradakı hüceyrələr tərəfindən elektrik siqnallarına çevrilir və beyinin arxa hissəsindəki görmə mərkəzi adlanan kiçik nöqtəyə ötürülür. Bu elektrik siqnalları bir sıra ardıcıl proseslərdən sonra beyindəki bu mərkəzdə görüntü kimi şərh edilir. Bu məlumatdan sonra düşünək: beyin işığa qapalıdır. Yəni beyinin içi qapqaranlıqdır, işıq beyinin yerləşdiyi yerə girə bilməz. Görmə mərkəzi adlanan yer qapqaranlıq, işığın düşmədiyi, bəlkə, heç qarşılaşmadığınız qədər qaranlıq yerdir. Ancaq siz bu zülmət qaranlıqda işıqlı, aydın dünyanı izləyirsiniz.

Üstəlik, bu, o qədər aydın və keyfiyyətli görüntüdür ki, XXI əsrin texnologiyası belə hər cür imkanı olmasına baxmayaraq, bu aydın görüntünü əldə edə bilmir. Məsələn, hal-hazırda oxuduğunuz kitaba, kitabı tutan əllərinizə baxın, sonra başınızı qaldırın və ətrafınıza baxın. Hal-hazırda gördüyünüz aydın və keyfiyyətli görüntünü başqa bir yerdə görmüsünüzmü? Bu qədər aydın görüntünü sizə dünyanın qabaqcıl televizor şirkətlərinin istehsal etdiyi təkmilləşdirilmiş televizor ekranı belə verə bilməz. 100 ildən bəri minlərlə mühəndis bu aydın görüntünü əldə etmək üçün çalışır. Bunun üçün fabriklər, böyük müəssisələr qurulur, tədqiqatlar aparılır, planlar və dizaynlar edilir. Bir televizor ekranına baxın, bir də hal-hazırda əlinizdə tutduğunuz bu kitaba. Arada böyük aydınlıq və keyfiyyət fərqi olduğunu görəcəksiniz. Həm də televizorun ekranı sizə iki ölçülü görüntü göstərir, lakin siz üç ölçülü, dərin perspektivi olan görüntü izləyirsiniz.

Uzun illərdən bəri on minlərlə mühəndis üç ölçülü televizor icad etməyə, gözün görmə keyfiyyətini əldə etməyə çalışırlar. Bəli, üç ölçülü televizor kimi sistem istehsal edə bildilər, amma onu da eynəksiz üç ölçülü görmək mümkün deyil, həm də bu, süni üçölçülü görüntüdür. Arxa tərəf daha bulanıq, ön tərəf isə kağız dekorasiya kimi görünür. Heç bir zaman gözün gördüyü qədər aydın və keyfiyyətli görüntü əmələ gəlmir. Kamerada da, televizorda da mütləq görüntü itkisi olur.

Təkamülçülər bu keyfiyyətli və aydın görüntünü əmələ gətirən mexanizmin təsadüfən əmələ gəldiyini iddia edirlər. İndi birisi sizə otağınızdakı televizorun təsadüflər nəticəsində əmələ gəldiyini, atomların birləşib bu görüntünü əmələ gətirən aləti meydana gətirdiyini desə, nə düşünərsiniz? Minlərlə insanın birlikdə edə bilmədiyini şüursuz atomlar necə etsin?

Gözün gördüyündən daha bəsit görüntünü əmələ gətirən alət təsadüfən əmələ gəlmirsə, gözün və gözün gördüyü görüntünün də təsadüfən meydana gəlməyəcəyi çox açıqdır. Eyni vəziyyət qulağa da aiddir. Xarici qulaq ətrafdakı səsləri qulaq seyvanı vasitəsilə toplayıb daxili qulağa ötürür; daxili qulaq da bu titrəyişləri elektrik impulslarına çevirərək beyinə göndərir. Eynilə görmədə olduğu kimi, eşitmə prosesi də beyindəki eşitmə mərkəzində həyata keçir.

Göz üçün dediklərimiz qulağa da aiddir, yəni beyin işıq kimi səsə də qapalıdır, səs keçirmir. Ona görə, xarici aləm nə qədər səs-küylü olsa da, beyinin içi tamamilə səssizdir. Buna baxmayaraq, ən aydın səslər beyində eşidilir. Səs keçirməyən beyninizdə orkestr simfoniyaları dinləyir, ətraf mühitin bütün səs-küyünü eşidirsiniz. Ancaq həmin anda həssas bir cihazla beyninizin içindəki səs səviyyəsi ölçülsə, burada səssizliyin hakim olduğu məlum olacaqdır. Aydın görüntü əldə etmək ümidi ilə texnologiyadan necə istifadə edilirsə, səs üçün də eyni səylər on illərdən bəri davam etdirilir. Səsyazma cihazları, musiqi mərkəzləri, bir çox elektron alət, səs qəbul edən musiqi sistemləri bu fəaliyyətlərin nəticələrindən bəziləridir. Ancaq bütün texnologiyaya və bu sahədə minlərlə mühəndis və mütəxəssis işləməsinə baxmayaraq, qulağın əmələ gətirdiyi qədər aydın və keyfiyyətli səs əldə edilməmişdir. Ən böyük musiqi sistemi şirkətinin istehsal etdiyi ən keyfiyyətli musiqi mərkəzini düşünün. Səsi qeyd etdikdə mütləq səsin bir hissəsi itir, az da olsa təhrif olur və ya musiqi mərkəzini işə saldıqda hələ musiqi çalmazdan əvvəl mütləq bir cızıltı eşidirsiniz. Ancaq insan orqanizmindəki texnologiyanın məhsulu olan səslər olduqca aydın və qüsursuzdur. İnsan qulağı heç vaxt musiqi mərkəzində olduğu kimi cızıltılı və ya təhrif olunmuş şəkildə səs eşitmir; səs necədirsə, tam və aydın şəkildə onu eşidir. Bu, insan yaradıldığı gündən bəri belədir. İndiyə qədər insanın istehsal etdiyi heç bir görüntü və səs cihazı göz və qulaq qədər həssas və keyfiyyətli qəbuledici olmamışdır. Ancaq görmə və eşitmə hadisəsində bütün bunların fövqündə duran çox böyük həqiqət də var.

**Beyinin içində görən və eşidən şüur kimə aiddir?**

Beyinin içində parlaq, rəngli dünyanı izləyən, simfoniyaları, quşların civiltilərini dinləyən, gülü qoxulayan kimdir?

İnsanın gözlərindən, qulaqlarından, burnundan gələn siqnallar elektrik impulsu kimi beyinə ötürülür. Biologiya, fiziologiya və ya biokimya kitablarında bu görüntünün beyində necə əmələ gəlməsinə dair bir çox şey oxuyursunuz. Ancaq bu mövzu haqqında ən mühüm həqiqətə heç bir yerdə rast gələ bilməzsiniz: beyində bu elektrik impulslarını görüntü, səs, qoxu və hiss kimi qavrayan kimdir? Beyinin içində gözə, qulağa, buruna ehtiyac hiss etmədən bütün bunları qavrayan bir şüur var. Bu şüur kimə aiddir?

Əlbəttə, bu şüur beyini təşkil edən sinirlər, yağ təbəqəsi və sinir hüceyrələrinə aid deyil. Elə buna görə, hər şeyin maddədən ibarət olduğunu zənn edən darvinist-materialistlər bu suallara heç cür cavab verə bilmirlər. Çünki bu şüur Allah'ın yaratdığı ruhdur. Ruhun görüntünü izləmək üçün gözə, səsi eşitmək üçün qulağa ehtiyacı yoxdur. Eyni zamanda, düşünmək üçün beyinə də ehtiyacı yoxdur.

Bu açıq və elmi həqiqəti oxuyan hər insan beyinin içindəki bir neçə $sm^3$-lik, qapqaranlıq yerə bütün kainatı üçölçülü, rəngli, kölgəli və işıqlı şəkildə sığışdıran uca Allah'ı düşünüb, Ondan qorxub Ona sığınmalıdır.

**Materialist inanc**

Bura qədər təhlil etdiklərimiz təkamül nəzəriyyəsinin elmi kəşflərə zidd iddia olduğunu göstərir. Nəzəriyyənin həyatın mənşəyi haqqındakı iddiası elmə ziddir, irəli sürdüyü təkamül mexanizmlərinin heç bir təkamül gücü yoxdur və fosillər nəzəriyyənin iddia etdiyi ara keçid formalarının yaşamadığını göstərir. Bu təqdirdə, əlbəttə, təkamül nəzəriyyəsi elmə zidd fərziyyə kimi bir kənara qoyulmalıdır. Belə ki, tarix boyu dünya mərkəzli kainat modeli kimi bir çox düşüncə tərzi elmin gündəmindən çıxarılmışdır. Ancaq təkamül nəzəriyyəsi təkidlə elmin gündəliyində saxlanılır. Hətta bəzi insanlar nəzəriyyənin tənqid edilməsini elmə təcavüz kimi göstərməyə çalışırlar. Axı niyə? Bunun səbəbi təkamül nəzəriyyəsinin bəzi kütlələr üçün əl çəkilməz doqmatik inanc olmasıdır. Bu kütlələr materialist fəlsəfəyə kor-koranə bağlıdırlar və darvinizmi də təbiət haqqında yeganə materialist açıqlama olduğu üçün mənimsəyiblər. Bəzən bunu açıq şəkildə etiraf edirlər. Harvard Universitetindən məşhur genetik və eyni zamanda, qabaqcıl təkamülçülərdən olan Riçard Levontin əvvəlcə materialist, sonra elm adamı olduğunu belə etiraf edir:

"Bizim materializmə bir inancımız var, bu "a priori" (əvvəlcədən qəbul edilmiş, doğru fərz edilmiş) inancdır. Bizi dünya haqqında materialist açıqlama verməyə məcbur edən şey elmi metodlar və qanunlar deyil. Əksinə, materializmə olan "a priori" bağlılığımız səbəbi ilə dünya haqqında materialist açıqlama verən tədqiqat metodları və anlayışlarını uydururuq. Materializm mütləq doğru olduğuna görə də İlahi açıqlamanın səhnəyə çıxmasına icazə verə bilmərik". *(Richard Lewontin, "The Demon-Haunted World", The New York Review of Books, 9 Ocak, 1997, səh. 28)*

Bu sözlər darvinizmin materialist fəlsəfəyə bağlılıq uğrunda davam etdirilən bir doqma olduğunun açıq ifadəsidir. Bu doqma maddədən başqa heç bir varlıq olmadığını qəbul edir. Bu səbəbdən də cansız, şüursuz maddənin həyatı əmələ gətirdiyinə inanır. Milyonlarla müxtəlif canlı növünün, məsələn, quşların, balıqların, zürafələrin, pələnglərin, həşəratların, ağacların, çiçəklərin, balinaların və insanların maddənin öz daxilindəki

reaksiyalarla, yəni yağan yağışla, çaxan şimşəklə, cansız maddədən əmələ gəldiyini qəbul edir. Əslində isə bu, həm ağıla, həm də elmə ziddir. Amma darvinistlər Allah'ın açıq-aşkar varlığını qəbul etməmək üçün bu ağıldan və elmdən kənar fikri cahilliklə müdafiə etməkdə davam edirlər.

Canlıların mənşəyinə materialist düşüncə ilə baxmayan insanlar isə bu açıq həqiqəti görəcəklər: bütün canlılar üstün güc, bilik və ağıla malik olan Yaradanın əsəridir. Yaradan bütün kainatı yoxdan var edən, ən qüsursuz şəkildə nizama salan və bütün canlıları yaradan Allah'dır.

**Təkamül nəzəriyyəsi dünya tarixinin ən təsirli sehridir**

Burada bunu da bildirmək lazımdır ki, heç bir ideologiyanın təsiri altında qalmadan, sadəcə ağlını və məntiqini işlədən hər insan elm və mədəniyyətdən uzaq xalqların xurafatlarını xatırladan təkamül nəzəriyyəsinə inanmağın qeyri-mümkün olduğunu asanlıqla anlayacaqdır.

Yuxarıda da bildirildiyi kimi, təkamül nəzəriyyəsinə inananlar böyük bir çənin içinə bir çox atomu, molekulu, cansız maddəni dolduran və bunların qarışığından zaman ərzində düşünən, dərk edən, kəşflər edən professorların, universitet tələbələrinin, Eynşteyn, Habl kimi elm adamlarının, Frank Sinatra, Çarlton Heston kimi aktyorların, bununla yanaşı, ceyranların, limon ağaclarının, qərənfillərin çıxacağına inanırlar. Həm də bu cəfəng iddiaya inananlar elm adamları, professorlar, mədəniyyətli, təhsilli insanlardır. Bu səbəbdən, təkamül nəzəriyyəsi haqqında dünya tarixinin ən böyük və ən təsirli sehri ifadəsini işlətmək yerinə düşər. Çünki dünya tarixində insanların bu dərəcədə ağlını başından alan, ağıl və məntiqlə düşünmələrinə imkan verməyən, gözlərinin qarşısına sanki bir pərdə çəkib çox açıq olan həqiqətləri görmələrinə mane olan başqa inanc və ya iddia yoxdur. Bu, afrikalı bəzi qəbilələrin totemlərə, Səba xalqının Günəşə tapınmasından, hz. İbrahimin qövmünün düzəltdikləri bütlərə, hz. Musanın qövmünün qızıldan düzəltdikləri buzova tapınmalarından daha qorxulu və ağlasığmaz korluqdur. Əslində, bu vəziyyət Allah'ın Quranda işarə etdiyi ağılsızlıqdır. Allah bəzi insanların anlayışlarının bağlı olacağını və həqiqətləri görməkdən məhrum olacağını bir çox ayəsində bildirir. Bu ayələrdən bəziləri belədir:

**Həqiqətən, kafirləri əzabla qorxutsan da, qorxutmasan da, onlar üçün birdir, iman gətirməzlər. Allah onların ürəyinə və qulağına möhür vurmuşdur. Gözlərində də pərdə vardır. Onları böyük bir əzab gözləyir! (Bəqərə surəsi, 6-7)**

**... Onların qəlbləri vardır, lakin onunla anlamazlar. Onların gözləri vardır, lakin onunla görməzlər. Onların qulaqları vardır, lakin onunla eşitməzlər. Onlar heyvan kimidirlər, bəlkə də, daha çox zəlalətdədirlər. Qafil olanlar da məhz onlardır! (Əraf surəsi, 179)**

Allah "Hicr" surəsində də bu insanların möcüzələr görsələr də, inanmayacaq qədər sehrləndiklərini belə bildirir:

**Əgər onlara göydən bir qapı açsaq və oradan durmadan yuxarı dırmaşsalar yenə də: "Gözümüz bağlanmış, biz sehrlənmişik", - deyərlər. (Hicr surəsi, 14-15)**

Bu qədər geniş kütləyə bu sehrin təsir etməsi, insanların həqiqətlərdən bu qədər uzaq saxlanması və 150 ildən bəri bu sehrin pozulmaması isə sözlə ifadə edilməyəcək qədər heyrətli vəziyyətdir. Çünki bir və ya bir neçə insanın qeyri-mümkün ssenarilərə, cəfəng və məntiqsiz iddialara inanmalarını anlamaq olar. Ancaq dünyanın hər tərəfindəki insanların şüursuz və cansız atomların ani qərarla birləşib qeyri-adi mütəşəkkillik, nizam, ağıl və şüur nümayiş etdirərək qüsursuz sistemlə işləyən kainatı, həyat üçün uyğun hər cür xüsusiyyətə malik olan Yer planetini və saysız-hesabsız kompleks sistemdən ibarət canlıları meydana gətirdiyinə inanmasının sehrdən başqa heç bir açıqlaması yoxdur.

Allah Quranda inkarçı fəlsəfənin tərəfdarı olan bəzi şəxslərin etdikləri sehrlərlə insanlara təsir etdiklərini hz. Musa ilə firon arasında baş verən bir hadisə ilə bizə bildirir. Hz. Musa firona haqq dini təbliğ etdikdə firon hz. Musaya öz bilici sehrkarları ilə insanların toplaşdığı bir yerdə qarşılaşmasını söyləyir. Hz. Musa sehrkarlarla qarşılaşdıqda əvvəlcə onların bacarıqlarını göstərməsini əmr edir. Bu hadisənin danışıldığı ayə belədir:

**(Musa:) "Siz atın", - dedi. Onlar (əsalarını yerə) atdıqda, adamların gözlərini bağlayıb (sehrləyib) onları qorxutdular və böyük bir sehr göstərdilər. (Əraf surəsi, 116)**

Göründüyü kimi, fironun sehrkarları hz. Musa və ona inananlardan başqa insanların hamısını sehrləyə bilmişdilər. Ancaq onların atdıqlarına qarşı hz. Musanın ortaya qoyduğu dəlil onların bu sehrini, ayədəki ifadə ilə uydurduqlarını udmuş, yəni təsirsiz etmişdir:

**Biz də Musaya: "Əsanı tulla!" - deyə vəhy etdik. Bir də (baxıb gördülər ki,) əsa onların uydurub düzəltdikləri bütün şeyləri udur. Artıq haqq zahir, onların uydurub düzəltdikləri yalanlar isə batil oldu. (Sehrbazlar) orada məğlub edildilər və xar olaraq geri döndülər. (Əraf surəsi, 117-119)**

Ayələrdə də bildirildiyi kimi, əvvəllər insanlara sehrləyərək təsir göstərən bu şəxslərin etdiklərinin saxtakarlıq olmasının başa düşülməsi ilə sözügedən şəxslər alçalmışlar. Dövrümüzdə də bir sehrin təsiri ilə elmilik adı altında olduqca cəfəng iddialara inanan və bunları müdafiə etmək üçün həyatlarını qurban verənlər əgər bu iddialardan əl çəkməsələr, həqiqətlər tam mənası ilə üzə çıxdıqda və sehr pozulduqda alçalacaqlar. Belə ki, təqribən 60 yaşına qədər təkamülü müdafiə edən və ateist filosof olan, ancaq sonradan həqiqətləri görən Malkolm Maqeric təkamül nəzəriyyəsinin yaxın gələcəkdə düşəcəyi vəziyyəti belə açıqlayır:

**"Mən özüm təkamül nəzəriyyəsinin xüsusilə tətbiq edildiyi sahələrdə gələcəyin tarix kitablarındakı ən böyük yumor hədəflərindən biri olacağına inandım.** Gələcək nəsillər bu qədər çürük və qeyri-müəyyən hipotezin inanılmaz saflıqla qəbul edilməsini heyrətlə qarşılayacaqlar". *(Malcolm Muggeridge, The End of Christendom, Grand Rapids: Eerdmans, 1980, səh. 43)*

Bu gələcək uzaq deyil, əksinə, çox yaxın gələcəkdə insanlar "təsadüf"lərin ilah olmasının mümkünsüzlüyünü anlayacaqlar və təkamül nəzəriyyəsi dünya tarixinin ən böyük yalanı və ən güclü sehri kimi tərif ediləcəkdir. Bu güclü sehr böyük sürətlə dünyanın hər tərəfində insanlar üzərində təsirini itirməyə başlamışdır. Təkamül yalanının sirrinin öyrənən bir çox insan bu yalana necə aldandığını heyrət və təəccüblə qarşılayır.

**…Sənin bizə öyrətdiklərindən başqa bizdə heç bir bilik yoxdur!**

**Həqiqətən, Sən bilənsən, müdriksən!**

**(Bəqərə surəsi, 32)**

İnsan oğlunun ilk yaradıldığı gündən bu yana, münafiqlik edən hər insan, "**əxlaqsızlıqları ilə və alçaqlıqları ilə**" tarixə keçmişdir. Nəsildən nəsilə, həyatları boyu inananlara qarşı verdikləri xain mübarizə ilə xatırlanmış və hər dövrdə "**xor qarşılanıb alçaldılmış**" kəslər olaraq tanınmışlar. Kiçik böyük etdikləri hər alçaqlıq, tarixin bir parçası olaraq yaddaşlara həkk olunmuşdur.

**Fironlar, Nəmrudlar, Qarun, Samiri, Hz. Lut (ə.s) və Hz. Nuh (ə.s)-ın həyat yoldaşları kimi tarixdəki məşhur münafiqlər necə kitablara ya da tarixi qeydlərə keçdisə,** günümüz münafiqləri da eyni şəkildə kitablara mövzu olacaqlar. O dövrlərin münafiqləri necə əxlaqsızlıqları ilə bilinirdilərsə, Axırzamanın münafiqləri da eyni şəkildə etdikləri şeytanlıqlarla tanınacaqlardır. Onların adları da nəsildən nəsilə köçürüləcək, onların xainlikləri və əxlaqsızlıqları da digərləri kimi tarixə keçəcəkdir.

Və bu alçaldılma yalnız dünya həyatı ilə məhdud qalmayacaq. Qiyamətə qədər hər biri "**dövrünün məşhur münafiqi**" olaraq tanınacaq olan bu şeytani varlıqlar, axirətdə də yenə əxlaqsızlıqları ilə bilinəcək və sonsuza qədər yenə həmişə alçaldılaraq yaşayacaqlar.

Ancaq bu kitabın məqsədi, "**hələ tövbə etmə imkanı varkən, bütün münafiqlərə və münafiq əxlaqına bənzər rəftarlar göstərən insanlara münafiqliyin təhlükəsini izah edib, bu acı sondan xilas olmaları üçün onları doğru yola çağırmaq**"dır. "**Axirətdə geri dönüşü olmayan bir əzabla qarşılaşmadan əvvəl, düşünüb öyüd-nəsihət almalarına və səmimi bir qəlblə iman etmələrinə vəsilə ola bilmək**"dir. Əxlaqsızlıqda, hiyləgər oyunlarla, şeytani əlaqələrlə və alçaqca tələlərlə bir şey əldə edə bilməyəcəklərini; sonunda qarşılaşacaqları tək həqiqətin cəhənnəm əzabı olacağını izah edərək onları xəbərdar etməkdir. Və "**əgər tövbə edib Allahı çox dərin bir eşqlə sevib gözəl əxlaqı yaşayarlarsa; dünyada və axirətdə, arzuladıqları, həsrət duyduqları hər şeyin ən gözəlini tapacaqlarını onlara xatırlatmaq**"dır.

Lakin münafiqlikdə dirənib qərarlılıq göstərən; öyüd-nəsihət qəbul edib tövbə edərək doğru yola dönmək istəməyən kəslər də, bunu heç vaxt unutmamalıdırlar: Onların bilmədikləri ya da anlamaq istəmədikləri qəti bir həqiqət vardır. Rəbbimiz bu həqiqəti Quranda "... **Allah kafirlərə möminlərin əleyhinə qəti olaraq yol verməz.**" (Nisa surəsi, 141) sözləriylə xəbər vermişdir. Küfr ya da münafiq, hər kim müsəlmanların əleyhinə bir yol axtarsa; onlara qarşı alçaqca oyunlar oynamaq istəsə, Allah o kəslərə heç vaxt başarı verməyəcəkdir. Bu, Allahın qəti və dəyişməz vədidir. Və Allah, vədindən heç vaxt dönməyəndir.

Gec-tez mütləq "**qalib gələcək olanlar Allahın tərəfdarları olan səmimi müsəlmanlar**"dır. Çünki Allahın Quranda bildirdiyi kimi, **"... Şübhəsiz ki, "izzət və gücün" hamısı Allahındır."** (Yunis surəsi, 65)